# NAXÇIVAN
# TARİXİ

**ƏN QƏDİMDƏN**
**XVIII ƏSRİN 40- CI İLLƏRİNƏDƏK**

*Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır*

**Heydər ƏLİYEV**
**Azərbaycan xalqının ümumilli lideri**

# NAXÇIVAN TARİXİ

## Üç cilddə

# NAXÇIVAN TARİXİ

## Birinci cild

**Redaksiya heyəti:** **İ.M.Hacıyev**, **İ.Ə.Həbibbəyli,**
**F.Y.Səfərli, Q.İ.Qədirzadə,**
**V.B.Baxşəliyev**

**Naxçıvan tarixi. Üç cilddə, I cild.-** Naxçıvan: "Əcəmi" *Nəşriyyat-Poliqrafiya Birliyi*, 2013, 452 səh.

Naxçıvan ən qədim insan məskənlərindən və sivilizasiya mərkəzlərindən biridir. Üçcildlik "Naxçıvan tarixi"nin I cildi ən qədim zamanlardan başlayaraq XVIII əsrin 40-cı illərinədək olan böyük bir dövrü əhatə edir.

Kitabda arxeoloji mənbələr və yazılı abidələr əsasında Naxçıvan ərazisində ibtidai insan cəmiyyətinin mərhələləri, mənəvi həyatı, ilkin sinifli cəmiyyətin meydana gəlməsi, Naxçıvanın müxtəlif dövlətlərin tərkibində fəaliyyəti, siyasi, sosial-iqtisadi həyatı, mədəniyyəti, əhalinin işğalçılara qarşı mübarizəsi, etnik tərkibi və s. məsələlər geniş şərh olunmuşdur.

Kitabda həmçinin Naxçıvanın orta əsrlər tarixinin XVIII əsrin 40-cı illərinədək olan dövrü tədqiq edilmiş, sasanilərin, ərəblərin, səlcuqların, Azərbaycan Atabəylər dövlətinin, monqolların, xarəzmşahların hakimiyyətləri zamanı baş verən siyasi-ictimai, iqtisadi-mənəvi dəyişikliklər şərh edilmiş, Azərbaycan Səfəvilər dövlətinin fəaliyyəti dövründə Naxçıvanın ictimai-iqtisadi, mədəni həyatı tədqiqata cəlb olunmuşdur.

ISBN 978-9952-8237-0-7

4700000000
053-2013

© "Əcəmi" 2013.

**“Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması və nəşr olunması barədə**

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN**

# S Ə R Ə N C A M I

Azərbaycanın Naxçıvan Muxtar Respublikası böyük bir tarixi keçmişə malikdir. Aparılmış elmi tədqiqatlar sübut edir ki, Naxçıvan Muxtar Respublikasının yerləşdiyi ərazi bəşər sivilizasiyasının mühüm ocaqlarından biri olmuşdur. Bu ərazi antik, orta əsrlər və müasir dövr mədəniyyət nümunələri və tarixi abidələrlə - ilk insanların yaşadığı mağaralar, qədim yaşayış yerləri, qədim şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir.

Muxtar respublika ərazisindəki 2000-ə yaxın tarix və mədəniyyət abidəsi, o cümlədən Paleolit dövrünə aid Ovçular təpəsi və Qazma mağarası kimi ilkin insan məskənləri, eradan əvvəl V-III minilliyin yadigarları olan Əshabi-Kəhf ziyarətgahı və Gəmiqaya daşüstü rəsmləri bu torpağın qədim sakinləri olan Azərbaycan türklərinin həyat tərzini, adət-ənənələrini və dini-ideoloji təsəvvürlərini dövrümüzə qədər gətirib çıxarmışdır.

Muxtar respublikanın yerləşdiyi ərazinin əlverişli coğrafı mövqeyi və təbii sərvətlərlə bolluğu ən qədim dövrdən insanların burada məskunlaşmasına və daş dövrünün özünəməxsus mədəniyyətini yaratmasına səbəb olmuş, sonrakı dövrlərdə bu ərazi Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin, o cümlədən Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilmişdir. Zaman keçdikcə Naxçıvanla Yaxın Şərqin qədim şəhərləri arasında iqtisadi-mədəni əlaqələr təşəkkül tapmış, əkinçiliyin, maldarlığın, ilkin duz emalının, ticarətin və sənətkarlığın inkişafı sosial-iqtisadi və mədəni yüksəlişə də təkan vermiş, nəticədə müasir Naxçıvan şəhəri ərazisində 5 min il bundan əvvəl ilkin şəhər mədəniyyəti formalaşmışdır.

Lakin Azərbaycanın böyük bir yol keçmiş Naxçıvan diyarının tarixi lazımi səviyyədə öyrənilməmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyi dövründə və bu gün də ulu öndərin yolunun layiqincə davam etdirilməsi nəticəsində xalqımızın tarixinin, dilinin, ədəbiyyatının, arxeologiya və etnoqrafıyasının, folklorunun və milli dəyərlər sisteminin elmi dəlillər və aşkar edilmiş yeni faktlar əsasında araşdırılmasına başlanılmış, Azərbaycan, o cümlədən Naxçıvan tarixinə dair bir sıra elmi nəşrlər meydana çıxmışdır. Son dövrlərdə aparılan araşdırmalar nəticəsində Naxçıvanın mədəniyyəti, tarixi və abidələri, arxeologiya və etnoqrafıyası, təbii sərvətləri müxtəlif tədqiqatların predmetinə çevrilmiş, yeni elmi istiqamətlər müəyyənləşdirilmiş və bir sıra nəticələr əldə olunmuşdur.

Naxçıvan tarixinin müxtəlif dövrlərinə və problemlərinə dair xeyli sayda elmi-tədqiqat materiallarının nəşr olunması və keçirilmiş arxeoloji ekspedisiyalar nəticəsində yeni və zəngin materialların əldə edilməsi "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması üçün əsas yaratmışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. 2012-2015-ci illərdə "Naxçıvan tarixi" çoxcildliyi hazırlansın və nəşr edilsin.

2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi və Naxçıvan Dövlət Universiteti bıı Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **VASİF TALIBOV**

Naxçivan şəhəri, 06 avqust 2012-ci il
№ 84-04/S

## GİRİŞ

Naxçıvan bəşər sivilizasiyasının mühüm ocaqlarından, ən qədim mədəniyyət mərkəzlərindən biridir. Bu ərazi qədim və orta əsrlərin tarixi abidələri və mədəniyyət nümunələri – ilk insanların yaşadığı mağaralar, yaşayış yerləri, qədim şəhərlər, möhtəşəm qalalar və təkrarsız təbiət abidələri ilə zəngindir.

Naxçıvan ərazisinin əlverişli coğrafi mövqeyi və təbii sərvətlərlə zənginliyi insanların ən qədim dövrdən burada məskunlaşmasına və daş dövrünün özünəməxsus mədəniyyətini yaratmasına səbəb olmuşdur. Sonrakı dövrlərdə bu ərazi Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin – Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilmişdir.

Naxçıvan ərazisi arxeoloji, tarix və mədəniyyət abidələri ilə zəngin bir diyardır. Qazma, Kilit, Daşqala, Ərməmməd mağaraları, I Kültəpə, Sədərək, Ovçulartəpəsi, Xələc, Duzdağ, Şahtaxtı, Nəhəcir kimi yaşayış yerləri, Gəmiqaya abidəsi, Əshabi-Kəhf dini və tarixi-memarlıq kompleksi, Oğlanqala, Çalxanqala, Govurqala, Sədərək qalası, Qazançı qalası, Nəhəcir qalası və başqa bu kimi qala-şəhərlər və müdafiə istehkamları ən qədim dövrdən insanların burada yaşadığını təsdiq edir. Naxçıvan ərazisinin qədim sakinləri minilliklər ərzində zəngin mədəni irs qoyub getmişlər. Bu irs müxtəlif tarixi qaynaqlar – maddi və yazılı abidələr əsasında öyrənilir.

Maddi abidələrin öyrənilməsi ilə arxeologiya məşğul olur. Torpaq özündə bu abidələri - əmək alətləri, məişət və bəzək əşyaları, silah, məskən qalıqları, qəbirlər, qədim mədən və metaləritmə yerləri, həmçinin başqa nümunələri saxlayır.

Diyarın maddi və mənəvi mədəniyyətini, insanların məişət və həyat tərzini, dünyagörüşünü, iqtisadi-mədəni əlaqələrini öyrənməkdə arxeologiyanın əhəmiyyəti son dərəcə böyükdür. Tədqiqatlar zamanı aşkara çıxarılan arxeoloji abidələr qədim dövrlərdən başlamış son orta əsrlərədək Naxçıvan tarixini əsaslı şəkildə və daha dərindən öyrənmək imkanı verir.

Lakin təkcə arxeologiyanın köməyi ilə qədim dövrün bütün məsələlərini öyrənmək qeyri-mümkündür. Etnoqrafik, numizmatik materiallardan, diyarın qədim onomastik vahidlərindən, antropoloji materiallardan, yazılı qaynaqlardan da istifadə edilməlidir.

Naxçıvan tarixinin öyrənilməsində müxtəlif qaynaqların müstəsna əhəmiyyəti vardır. Lakin bu qaynaqlara ehtiyatla yanaşmaq lazımdır. Bir sıra müəlliflərin məlumatları bəzən təsadüfi, ziddiyyətli xarakter daşıyır və heç də həmişə dəqiqliyi ilə fərqlənmir. Bununla belə, "...qaynaqların araşdırılması, onlarda Naxçıvan haqqında qeyd olunmuş məlumatların toplanıb tədqiq və nəşr olunması Azərbaycan tarixinin obyektiv elmi şəkildə işlənib hazırlanması üçün misilsiz əhəmiyyət kəsb edir".

Müəllifi bəlli olmayan "Əcaib əd-Dünya" ("Dünyanın qəribəlikləri"), Evliya

Çələbinin “Səyahətnamə”si, “Naxçıvan sancağının müfəssəl dəftəri” və digər mənbələr, ərəbdilli müəlliflərin əsərləri, farsdilli məxəzlər, Avropalı alim və səyyahlarının gündəlikləri, qeydləri, məlumatları da Naxçıvan tarixinin öyrənilməsində mühüm mənbə kimi əhəmiyyətlidir.

Azərbaycanda, eləcə də Naxçıvanda bolşevik hakimiyyəti qurulmasından əvvəl Naxçıvan diyarının qədim tarixi məsələləri ilə tək-tək həvəskarlar məşğul olmuşlar. Rus elmində bu tarixə maraq ancaq Şimali Azərbaycanın Rusiya tərəfindən işğal edilməsindən sonra meydana çıxmışdır.

XIX əsrin son otuzilliyindən başlayaraq Şimali Azərbaycan ərazisində ilk epizodik xarakter daşıyan arxeoloji qazıntılar aparılmağa başlanmışdır. İlk vaxtlar arxeoloji abidələrdə Azərbaycanda olan rus və alman mənşəli həvəskar araşdırıcılar qazıntılar aparmışlar. XIX əsrin sonu – XX əsrin 20-ci illərində Naxçıvanda N.V.Fyodorov, İ.İ.Meşşaninov, A.D.Miller, İ.Cəfərzadə, Ə.Ələkbərov, T.Passek, V.Latinin, A.A.İessen və başqa tədqiqatçılar arxeoloji tədqiqatlar aparmışlar.

1923-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti və respublikanın 7 şəhərində, o cümlədən Naxçıvanda onun şöbələri yaradıldı. Naxçıvanda şöbənin sədri Vahab Həsənzadə, elmi katibi isə Mirbağır Mirheydərzadə seçilmişdir. Cəmiyyətin Naxçıvan şöbəsinin yaradılmasında məqsəd Naxçıvan diyarının maddi-mədəniyyət abidələrini, etnoqrafiya və tarixini, iqtisadiyyatı və təbiətini ətraflı və planlı şəkildə öyrənmək idi.

Cəmiyyət qısa müddət ərzində öz ətrafına çoxlu üzv toplamış, muxtar respublikanın maddi-mədəniyyət abidələrinə, tarixinə, folkloruna, etnoqrafiyasına dair məlumat və materialların toplanılması və tədqiqinə xüsusi əhəmiyyət vermişdir. Cəmiyyətin üzvləri prof. V.M.Sısoyevin iştirakı ilə 1926-cı ilin iyununda Xaraba Gilanda, prof. A.A.Millerin iştirakı ilə isə sentyabr ayında Qızılburunda arxeoloji qazıntı işləri aparmışlar. M.Mirheydərzadənin Naxçıvan və Ordubadın tarixi və abidələri haqqında yazdığı kitablar çap olunmuşdur. 20-ci illərdə Azərbaycanda Y.A.Paxomovun, R.İsmayılovun, V.M.Sısoyevin, T.S.Passekin və V.A.Latininin Azərbaycan tarixi və arxeologiyası haqqında kitabları nəşr edilmişdir ki, burada Naxçıvan tarixi və abidələrinə də yer verilmişdi. Tanınmış tarixçi və arxeoloqlardan K.N.Smirnov, İ.İ.Meşşaninov, A.A.Miller, V.M.Sısoyev, Ə.K.Ələkbərov, İ.Əzimbəyov və başqalarının Naxçıvanda arxeoloji, etnoqrafik, epiqrafik araşdırmaları yerli tədqiqatçılarla birgə aparılmışdır. V.M.Sısoyev 1926-1927-ci illərdə Naxçıvan, Ordubad və Xaraba-Gilanda apardığı tədqiqatların geniş hesabatını hazırlamış və çap etdirmişdir.

1936-cı ildə Ə.K.Ələkbərov Naxçıvana arxeoloji səfər təşkil etmiş, Şahtaxtı, Şortəpə və Oğlanqalada tədqiqatlar aparmışdır.

Arxeoloqlarımız tərəfindən Eneolit dövrünün qədim əkinçi-maldar tayfalarına aid olan bır sıra abidələr aşkara çıxarılmışdır. Bu işin ilkin mərhələsi O.H.Həbibullayevin adı ilə bağlıdır. O.H.Həbibullayev I Kültəpə yaşayış yerində araşdırmalar

apararaq (1951-1964-cü illərdə) Naxçıvanın qədim tarixinin böyük bir dövrünü əhatə edən maddi-mədəniyyət nümunələrini aşkara çıxararaq öyrənmişdir. I Kültəpə yaşayış məskəninin aşağı təbəqəsindəki qazıntı Qafqaz arxeologiyasında yeni səhifə açmış, Cənubi Qafqazda Eneolit və ilkin əkinçilik mədəniyyətinin öyrənilməsinin əsasını qoymuşdur.

Kültəpə qazıntıları, habelə Azərbaycanın digər rayonlarında aşkara çıxarılan bir sıra ən qədim oturaq əkinçiliyə aid abidələr e.ə. VI-I minilliklərdə Cənubi Qafqazda mədəni-tarixi proses barəsində elmi təsəvvürləri xeyli dəyişmişdir. Sonrakı illərdə I Kültəpə abidəsində aparılan yeni tədqiqatlar, əldə olunan maddi-mədəniyyət nümunələri bu abidənin e.ə. VII-I minillikləri əhatə etdiyini söyləməyə imkan verir. Bu abidənin tədqiqi ilə Cənubi Qafqazda ilk dəfə olaraq Eneolit mədəniyyəti aşkar olunaraq tədqiqata cəlb edilmişdir. O.H.Həbibullayevin "Naxçıvan MSSR ərazisində Eneolit və Tunc dövrləri" monoqrafiyası qədim diyarın Eneolit, İlkin Tunc, Orta Tunc, Son Tunc və Erkən Dəmir dövrünün arxeoloji abidələri haqqında dolğun məlumat vermişdir.

V.Əliyevin rəhbərliyi ilə II Kültəpə abidəsinin tədqiqi də Naxçıvanın e.ə. IV-I minilliklərə aid tarixinin öyrənilməsi və qədim şəhər mədəniyyətinin üzə çıxarılması üçün mühüm əhəmiyyətə malikdir. Müəllifin "Azərbaycanın Orta Tunc dövrü mədəniyyəti" əsərində Naxçıvanın Orta Tunc dövrü mədəniyyəti, qədim tarixin öyrənilməsində bu mədəniyyətin əhəmiyyəti araşdırılır. V.Əliyevin Gəmiqaya abidəsinin tədqiqi sahəsində də böyük əməyi olmuşdur.

Ötən əsrin 70-ci illərində Rauf Məmmədovun Naxçıvan şəhərinin orta əsrlər dövrü tarixi sahəsində apardığı tədqiqatlar xüsusi ilə qiymətlidir. Onun "Naxçıvan şəhərinin tarixi oçerki" monoqrafiyası 1977-ci ildə nəşr edilmişdir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan, eləcə də Naxçıvanın qədim dövr tarixinin öyrənilməsində yeni mərhələ başlanmışdır. 1992-1995-ci illərdə Naxçıvanın bir qrup arxeoloji abidəsi haqqında tədqiqatlar toplu halında nəşr edilmişdir. Naxçıvan abidələrinin tədqiqində O.H.Həbibullayev, V.H.Əliyev, Ə.K.Ələkbərov, Q.M.Aslanov, S.M.Qaşqay, B.İ.İbrahimov, V.B.Baxşəliyev, A.Q.Seyidov, S.H.Aşurov, Q.H.Ağayev, Ə.İ.Novruzlu, N.Ə.Müseyibli, Ə.Q.Cəfərov, Ə.H.Bədəlov və digər arxeoloqların böyük xidməti olmuşdur.

Naxçıvanın qədim tarixinin tarixi mənbələr əsasında öyrənilməsində "Uluslarası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumun böyük rolu olmuşdur. Beynəlxalq simpoziumda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qeyd etmişdir ki, "Naxçıvanın yeni istiqamətdə, yeni milli ruhda və gerçək mənbələr əsasında, milli mənafe əsas götürülməklə əsl tarixi yazılmalıdır".

Naxçıvan tarixinin öyrənilməsində Naxçıvan Muxtar Respublikasının 75, 80 və 85 illik yubileylərinin keçirilməsi ilə bağlı ümummilli lider Heydər Əliyevin və ölkə Prezidenti İlham Əliyevin imzaladığı sərəncamların çox böyük əhəmiyyəti olmuşdur. Yubileylərlə əlaqədar ölkəmizin bir sıra elm və təhsil müəssisələrində

elmi konfranslar keçirilmişdir. Bu konfranslarda Naxçıvanın qədim və orta əsrlər tarixindən də bəhs edilmiş, yeni elmi istiqamətlər müəyyən edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 fevral 1999-cu il tarixli fərmanı Naxçıvan tarixinin köklü araşdırılmasına geniş meydan açdı. Naxçıvan diyarının tarixi Azərbaycan tarixşünaslığında özünəməxsus yer tutur. Lakin Azərbaycan tarixşünaslığında digər bölgələrimizlə müqayisədə əvvəlki illərdə Naxçıvan tarixinə nisbətən az diqqət yetirilmişdir. Halbuki bu qədim diyar və onun tarixi xüsusi diqqətə layiqdir. Bu baxımdan respublika Prezidentinin fərmanı Naxçıvan tarixi ilə bağlı bir çox layihələri həyata keçirmək üçün real imkanlar yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 12 fevral 1999-cu il tarixli 72 saylı sərəncamının 2-ci bəndinə uyğun olaraq Naxçıvanın tarixini və mədəniyyətini tədqiq edən elmi qurum yaradılmışdı. Elmi qurumun qarşısında aşağıdakı vəzifələr qoyulmuşdu: 1. Naxçıvan tarixi ilə bağlı prioritet istiqamətləri müəyyənləşdirmək. 2. Naxçıvan tarixinə aid müxtəlif arxiv, muzey və kitabxanalarda olan sənəd və materialları toplamaq və çap etdirmək. 3. Naxçıvanın muxtar ərazi statusunun beynəlxalq Qars müqaviləsi ilə müəyyənləşdirildiyi üçün həmin müqavilənin mətnini müxtəlif dillərdə nəşr etdirmək. 4. Naxçıvan Muxtar Respublikasının tarixi oçerki, Naxçıvan tarixi məlumat-sorğu kitabı hazırlamaq. 5. Naxçıvan əzəli-əbədi Azərbaycan torpağıdır, Naxçıvan diyarının tarixi coğrafiyası adlı kitabların nəşrinə nail olmaq, "Naxçıvan tarixi" adlı xəritələr toplusunu hazırlamaq və s.

Elmi qurumun fəaliyyət müddəti az olduğundan bu nəşrləri hazırlamaq mümkün olmadı. Lakin "Naxçıvan ensiklopediyası" qısa müddətdə hazırlandı və 2002-ci ildə nəşr edildi.

Sonrakı illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun qayğısı sayəsində qeyd olunan nəşrlərin böyük əksəriyyəti Naxçıvanda hazırlandı və nəşr olundu.

2001-ci ildən başlayaraq Naxçıvan tarixinin sistemli, ardıcıl və milli mövqedən öyrənilməsi işi davam etdirildi. "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" sərəncama (2001, 26 aprel) əsasən dünya mədəniyyətinin incilərindən olan Gəmiqaya abidəsinə ekspedisiyalar təşkil olunmuş, elmi konfranslar keçirilmiş, tədqiqat işləri aparılmış, nəticədə V.Əliyev, V.Baxşəliyev, A.Seyidov, V.Kərimov, N.Müseyibli və başqa tədqiqatçıların elmi əhəmiyyət daşıyan kitab, monoqrafiya, illüstrativ materialları və məqalələri nəşr olunmuşdur.

Ölkə Prezidenti Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması Naxçıvan tarixi ilə bağlı tədqiqat işlərinin aparılmasını və yeni tarixçi kadrların hazırlanmasını sürətləndirmişdir.

"Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri", "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ" və başqa mövzularda keçirilən beynəlxalq

simpoziumlar Naxçıvanın qədim və orta əsrlər tarixinin öyrənilməsində mühüm rol oynamışdır. Beynəlxalq simpozium və konfranslarda Naxçıvan tarixinin müxtəlif problemlərinə dair çoxsaylı elmi məruzələr dinlənilmiş və onlar simpoziumun materiallarına daxil edilərək nəşr olunmuşdur.

Naxçıvan tarixində tarix və mədəniyyət abidələri və onların öyrənilməsinin mühüm əhəmiyyəti vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 6 dekabr 2005-ci il tarixli "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" sərəncamından irəli gələn vəzifələrə uyğun olaraq Naxçıvan ərazisində 1202 tarix və mədəniyyət abidəsi aşkar edilərək pasportlaşdırılmış və bunlar əsasında "Naxçıvan abidələri" ensiklopediyası hazırlanmışdır. Naxçıvan ensiklopediyası təkmilləşdirilərək yenidən işlənilmiş, əlavə material və məqalələr artırılaraq iki cilddə nəşr edilmişdir. Aparılan tədqiqatların imkanlarından və nəticələrindən istifadə edilərək Naxçıvan bölgəsinin tarixi coğrafiyasını, əzəli və əbədi Azərbaycan ərazisi olduğunu aydın şəkildə göstərən "Naxçıvan tarixi atlası" elmi ictimaiyyətin ixtiyarına verilmişdir.

2006-cı ildən başlayaraq Naxçıvan ərazisində Naxçıvan arxeoloqlarının rəhbərliyi ilə beynəlxalq və respublika səviyyəli arxeoloji ekspedisiyalar fəaliyyət göstərir. Azərbaycan-Fransa arxeoloqları Ovçulartəpəsi abidəsində (Şərur rayonu), Duzdağda, Azərbaycan-ABŞ birgə ekspedisiyası isə Oğlanqalada (Şərur rayonu) fəaliyyət göstərirlər. Respublika arxeoloqları Ərəbyengicədə, Şahtaxtıda, Xələcdə, Meydantəpədə, I Kültəpədə, II Kültəpədə, Sirabda, Xaraba-Gilanda, Muncuqlutəpədə, Plovdağda və başqa abidələrdə tədqiqatlar aparırlar. Arxeoloqlar Paleolit, Mezolit, xüsusən də Eneolit, Tunc, Dəmir və Antik dövrün öyrənilməsi üzrə geniş miqyaslı iş görürlər. Muxtar respublikanın, demək olar ki, əksər ərazisi qazıntılarla əhatə olunur. Arxeoloji tapıntılar sübut edir ki, Naxçıvan ərazisində insanlar 500-300 min il bundan əvvəl məskunlaşmışlar. Naxçıvan Şərqin mədəniyyət mərkəzləri, xüsusilə də Mesopotamiya ilə sıx və qarşılıqlı əlaqədə inkişaf etmişdir. Naxçıvan Kür-Araz mədəniyyətinin beşiyi, qədim Şərq sivilizasiyasının qovuşduğu məkan olmuşdur. Naxçıvanda məskunlaşan tayfalar etiuni tayfaları ilə sıx ittifaqda olduqları üçün urartular bu ərazini işğal edə bilməmişlər.

Naxçıvanın qədim, orta əsr və yeni dövr tarixi üzrə aparılmış tədqiqatlar, nəşr olunmuş kitab və monoqrafiyalar, elmi məqalələr bu diyara olan marağın gündən-günə artdığından xəbər verir. İstər arxeoloji-etnoqrafik, istərsə də siyasi və mədəniyyət tarixi baxımından tədqiqatçıların apardıqları araşdırmalar diyarın tarixinin ümumi mənzərəsinin əks olunmasına imkan yaradır. Naxçıvan tarixinin müxtəlif dövrlərinə və problemlərinə dair xeyli sayda tədqiqat materiallarının nəşr olunması və arxeoloji ekspedisiyalar nəticəsində yeni və zəngin materialların əldə edilməsi Naxçıvan tarixi ilə bağlı ümumiləşdirici əsərlərin yazılmasına imkan vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 6 avqust 2012-ci il

tarixli “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması və nəşr olunması barədə” Sərəncamı tarixi və elmi əhəmiyyətinə görə diqqəti cəlb edir. Bu sərəncamdan irəli gələn vəzifələrə uyğun olaraq ilk dəfə Naxçıvan tarixi ümumiləşdirici çoxcildli əsərdə öz ifadəsini tapmışdır.

Sərəncamda qeyd olunduğu kimi, Naxçıvan Muxtar Respublikasının yerləşdiyi ərazi bəşər sivilizasiyasının mühüm ocaqlarından biri olmuşdur. Bu ərazi qədim, orta əsrlər və müasir dövr mədəniyyət nümunələri və tarixi abidələrlə - ilk insanların yaşadığı mağaralar, qədim yaşayış yerləri, qədim şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir... Son dövrlərdə aparılan araşdırmalar nəticəsində Naxçıvanın mədəniyyəti, tarixi və abidələri, arxeologiya və etnoqrafiyası, təbii sərvətləri müxtəlif tədqiqatların predmetinə çevrilmiş, yeni elmi istiqamətlər müəyyənləşdirilmiş və bir sıra nəticələr əldə olunmuşdur.

Qeyd etmək zəruridir ki, yeni arxeoloji və tarixi tədqiqatlar sayəsində Naxçıvan tarixinin xronoloji çərçivəsi kəskin surətdə genişlənmişdir. Əgər otuz il bundan əvvəl diyarın tarixi əslində ancaq 100-80 min il xülasə oluna bilirdisə, indi yeni arxeoloji tədqiqatlar nəticəsində əldə olunmuş maddi-mədəniyyət nümunələri əsasında biz haqlı olaraq Naxçıvan tarixini 500-300 min il əvvəldən başlayırıq.

Naxçıvan ərazisi insanların ən qədim yayılma sahələrindən biri kimi tanınır. Cənubi Qafqazın bəşəriyyətin ilk, ulu vətəni hüdudları daxilində olması şübhəsizdir. Artıq o dövrdə Naxçıvan ərazisi çoxsaylı fəaliyyət izləri qoyub getmiş uzaq əcdadlarımız tərəfindən tədricən mənimsənilirdi. Azərbaycanda inkişaf mərhələləri təxminən 1,5 milyon il bundan əvvəl başlamış Quruçay mədəniyyətinin, eləcə də Naxçıvan ərazisində müxtəlif mədəniyyətlərin meydana gəlməsi bunu sübut edən dəlillərdəndir.

Arxeoloqlarımızın axtarışları, Naxçıvan ərazisində aşkara çıxarılmış müxtəlif maddi abidələrin müqayisəli şəkildə öyrənilməsi Cənubi Qafqazın qədim sakinlərinin həyatı, fəaliyyəti haqqında bizim təsəvvürlərimizi əhəmiyyətli dərəcədə dəyişmişdir.

Azərbaycan, eləcə də Naxçıvan tarixinin ən qədim dövrlərinin öyrənilməsində tədqiqatçılarımızın böyük müvəffəqiyyətlərinə baxmayaraq, hələ də xeyli aydın olmayan, mübahisə doğuran məsələlər qalır.

Naxçıvan bölgəsinin orta əsrlər dövründə inkişafı, onun Azərbaycanın əsas ticarət mərkəzlərindən biri olması, Yaxın Şərq və Qafqazda iqtisadi, mədəni əlaqələrin daha da genişlənməsində önəmli rol oynaması ilə diqqəti cəlb edir.

Feodal münasibətlərinin təşəkkül tapdığı və möhkəmləndiyi orta əsrlərdə tarixi Azərbaycan ərazisində, eləcə də Naxçıvanın həyatında həlledici əhəmiyyətli, özünü sonrakı yüzilliklərdə belə göstərən mühüm hadisələr baş vermişdir.

Azərbaycanın siyasi tarixində orta çağın başlanğıcı geniş bir ərazini əhatə edən tarixi torpaqlarımızın III əsrin ikinci yarısında Sasani imperiyasının tərkibinə daxil edilməsi ilə əlamətdardır. Naxçıvanda Sasani mərzbanlarının iqamətgahları

yerləşirdi. Sasani şahları adından sikkələr zərb olunurdu. Sasanilər dövründə siyasi mənasını itirmiş və yalnız coğrafi adını saxlamış "Adurbadaqan – Azərbaycan" məfhumu ilk dəfə olaraq Arazdan şimalda və cənubda yerləşən torpaqlarımızı özündə birləşdirən vahid siyasi-inzibati mənanı kəsb edirdi.

Erkən orta əsrlər dövründə Naxçıvan əhalisi sasanilərə, bizanslılara və başqa işğalçılara qarşı mübarizə apardı.

Ərəb xilafətinin yaranması dünya tarixində böyük dəyişikliklərə səbəb oldu. Ərəb istilası və islamın yayılması Azərbaycanın da həyatının bütün sahələrinə ciddi təsir göstərdi. VII əsrdə Cənubi Qafqazın digər regionları kimi, Naxçıvan da Ərəb xilafətinin işğalına məruz qaldı. Naxçıvan Azərbaycanın tərkib hissəsi olaraq qalırdı. Yadelli əsarətini qəbul etməyən Azərbaycan xalqı ərəblərin işğalçılıq siyasətinə qarşı azadlıq mübarizəsinə qalxdı. Babəkin başçılıq etdiyi azadlıq mübarizəsinin əsas mərkəzlərindən biri də Naxçıvan idi. Bu azadlıq müharibəsi Ərəb xilafətinin əsaslarını zəiflətdi.

IX əsrin sonlarına doğru Ərəb xilafətinin zəifləməsi nəticəsində Naxçıvan ərazisi əvvəl Sacilər, sonra isə Salarilər dövlətlərinin tərkibinə daxil olmuşdu. Əsrin sonlarına yaxın ölkədə yaranmış siyasi vəziyyət zəminində Naxçıvanda müstəqil dövlət qurumu, yaxud feodallıq olan "Naxçıvanşahlıq" meydana gəldi.

Böyük Səlcuq imperiyasının yaranması ilə dünya tarixində ciddi dəyişikliklər baş verdi. Səlcuq hökmdarı Toğrul bəyin varisi Alp Arslan Rəvvadilər sülaləsinin hakimiyyətinə son qoyduqdan sonra, 1064-cü ildə Naxçıvana yiyələndi. Alp Arslan Naxçıvan şəhərində özünə xüsusi iqamətgah tikdirdi. Səlcuqların Azərbaycandakı canişini Naxçıvanda yerləşirdi.

Səlcuq dövlətinin tənəzzülü dövründə yeni növ dövlət birləşmələrinin – atabəyliklərin təşəkkülü üçün zəmin yarandı. 1136-cı ildə Şəmsəddin Eldəniz tərəfindən əsası qoyulan Azərbaycan Atabəyləri dövləti dövrün ən qüdrətli və mədəni dövlətlərindən oldu. Ölkədə yaranmış vəziyyətdən istifadə edən Atabəy Eldəniz Naxçıvan vilayətini öz torpaqlarına birləşdirir və həmin dövrdən etibarən Naxçıvan şəhəri və onun vilayəti Eldəniz nəslinin irsi iqtasına çevrilir. Azərbaycan Atabəyləri dövlətinin mərkəzi şəhəri, paytaxtı XII əsrin 30-70-ci illərində Naxçıvan şəhəri idi.

Azərbaycanda mədəni həyatın yüksəlməsi ilə səciyyələnən XII əsr Azərbaycan intibahı dövrü hesab edilir. Məhz bu dövrdə Azərbaycan xalqı, eləcə də Naxçıvan dünyaya görkəmli alimlər, şairlər, memarlar bəxş edir.

Eldənizlərdən sonra Naxçıvan bir müddət Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin Manqburnının nüfuz dairəsində qalır. Həmin dövrdə Naxçıvanın hakimi Cəlaliyyə xatın idi.

XIII-XIV əsrlərdə Naxçıvan bölgəsi Azərbaycanda və ümumiyyətlə, Yaxın Şərqdə gedən siyasi-iqtisadi, mədəni proseslərin mərkəzlərindən birinə çevrilir. Hülakuların, Çobanilərin, Cəlairilərin nüfuz dairələrində olan Naxçıvan bu

dövlətlərin siyasi həyatında da yaxından iştirak edirdi. Əmir Teymurun Azərbaycana yürüşləri və Naxçıvanda ona göstərilən müqavimət bölgənin tarixində mühüm yer tutur. Naxçıvan inzibati-ərazi baxımından tümən hüququnda idi.

XV əsrdə Naxçıvan ərazisi Qaraqoyunlu, sonralar isə Ağqoyunlu dövlətlərinin tərkibində idi. 1501-ci ildə isə qızılbaşların Ağqoyunlular üzərində qələbəsindən sonra Naxçıvan Səfəvilərin hakimiyyətinə keçdi. Naxçıvan Çuxursəd bəylərbəyliyinin tərkibində idi və qızılbaş ustaclılar tayfasının iqamətgahı Naxçıvanda yerləşirdi.

Səfəvi-Osmanlı müharibələri dövründə Naxçıvan ərazisi döyüş meydanına çevrildi, şəhər və ərazi dağıntılara məruz qaldı. XVII-XVIII əsrlərdə Naxçıvan ölkəsi ustaclılar tayfasının idarəsinə verilmişdi. XVIII əsrin 20-ci illərində Rusiya Xəzərsahili torpaqları işğal etdi. Azərbaycan ərazisinin qalan hissəsi isə Osmanlıların əlinə keçdi. Osmanlılar Naxçıvan və Ordubad şəhərlərini də tutdu. Naxçıvan vilayətinin çox hissəsi yeni təşkil olunmuş Naxçıvan sancağının tərkibinə daxil edildi. 1735-ci ildə Azərbaycanın digər əraziləri kimi, Naxçıvan da Nadir xanın hakimiyyətinə keçdi.

Taleyüklü hadisələrlə zəngin olan orta əsrlər dövrünün tədqiqi üççildlik "Azərbaycan tarixi"nin I cildində, yeddicildlik "Azərbaycan tarixi"nin 1, 2 və 3-cü cildlərində təqdim edilən yığcam, lakin dərin məzmunlu materiallarda verilsə də, aparılan müxtəlif araşdırmalar yeni faktları, yeni mənbələri üzə çıxara bilmişdir. Tədqiqatçıların gərgin zəhməti hesabına bir çox oxunmaz səhifələrini bərpa etdi, qiymətli tədqiqat işlərini ortaya gətirdi. Bunlardan akademik Ziya Bünyadovun Azərbaycanın VII-IX əsrlər dövrünə, Azərbaycan Atabəylər dövlətinin tarixinə, akademik Nailə Vəlixanlının Ərəb xilafətinin Azərbaycanla qarşılıqlı münasibətləri məsələsinə, ərəblərdən monqollaradək Naxçıvan tarixinə, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov və Kərim Şükürovun Naxçıvanın abidələri və tarixinə, Məhəmməd Şəriflinin IX-XI əsrlər Azərbaycan feodal dövlətləri tarixinə, Fəxrəddin Səfərlinin Naxçıvanda sosial-siyasi, ideoloji və sufiliklə bağlı mərkəzlərin tarixinə, Vaqif Piriyevin Naxçıvanın XIII-XIV əsrlər, Rauf Məmmədovun Naxçıvan şəhərinin orta əsrlər dövrünün tarixinə dair yazdıqları əsərlərin xüsusi əhəmiyyətini qeyd etmək lazımdır. Naxçıvan tarixinin araşdırmalarında bir sıra orta əsr mənbələrini, xüsusilə "İrəvan əyalətinin icmal dəftəri", "Naxçıvan sancağının müfəssəl dəftəri" və başqa bu kimi mənbələrin əhəmiyyəti daha böyükdür.

Tədqiq edilən dövrün tam təsvirini vermək üçün akademik İsa Həbibbəyli, akademik İsmayıl Hacıyevin Naxçıvan tarixi ilə bağlı əsərlərini, Məşədixanım Nemətovanın orta əsr epiqrafik abidələrimizə həsr etdiyi əsərlərini, etnoqraf Qadir Qədirzadənin, dilçi alimlərdən Əbülfəz Quliyevin, Adil Bağırovun, Firudin Rzayevin və onlarca başqalarının adlarını çəkmək və əsərlərini xatırlamaq vacibdir.

Naxçıvan tarixinin bəhs olunan dövrü xarici tədqiqatçıların əsərlərində də öz əksini tapmışdır. Catherine Marro, Lauren Ristvet, Hilary Qopnik, Vitali Otroşenko, Oktay Bəlli, Remi Berthon, Erol Kürkçüoğlu, Turqay Yazar və başqa

xarici ölkə alimlərinin dövrün tədqiqi üçün az əhəmiyyət daşımayan araşdırmalarını da qeyd etməyi vacib hesab edirik.

Kitabın müəllifləri konkret arxeoloji material və tarixi mənbələr əsasında Azərbaycan ərazisində ən qədim dövrün və orta əsrlərin mənzərəsini yaratmağa çalışmışlar. "Naxçıvan tarixi" çoxcildliyinin birinci cildi Naxçıvan tarixinin ən qədim dövründən başlayaraq XVIII əsrin ortalarınadək olan dövrü əhatə edir. Çoxcildlik hazırlanarkən tariximizdə qəbul edilən xronoloji ardıcıllığa və dövrləşməyə əməl edilmişdir. Birinci cild girişdən, Naxçıvanın təbii-coğrafi şəraitinin izahından, yeddi fəsildən və əlavələrdən ibarətdir.

**B i r i n c i f ə s i l** – "Naxçıvan qədim dövrdə" – Naxçıvan ərazisində yaşamış insanların qədim daş dövründən (paleolit) Erkən Dəmir dövrünədək keçdiyi inkişaf mərhələlərinə həsr olunmuşdur. Arxeoloji, yazılı və etnoqrafik mənbələrin Naxçıvan tarixinin öyrənilməsindəki rolu və yeri tədqiq edilməklə, Naxçıvanın arxeoloji tədqiqinə də xüsusi diqqət yetirilmişdir. Məlumdur ki, Cənubi Qafqazda qədim əkinçilik mədəniyyətinin öyrənilməsi məhz Naxçıvandakı I Kültəpədən başlamışdır. Naxçıvan tarixinin öyrənilməsində Neolit və Eneolit abidələrinin olduqca mühüm əhəmiyyəti vardır. Bu abidələr e.ə. VII-IV minilliklərdə Naxçıvanda məskunlaşan qədim tayfaların məişətini, həyat tərzini, Şərq ölkələri ilə sıx iqtisadi-mədəni əlaqələrini öyrənmək üçün zəngin material verir. Erkən Tunc dövrü abidələrindən aşkar olunmuş arxeoloji mədəniyyət Kür-Araz mədəniyyətidir. Naxçıvan Kür-Araz mədəniyyətinin formalaşdığı əsas regionlardan biridir. Orta Tunc dövründə Naxçıvan Azərbaycanın cənubu – Urmiya hövzəsi daxil olmaqla – Şərqi Anadolu ilə vahid iqtisadi-mədəni rayona daxil olmuşdur. Naxçıvan boyalı qabları ilə fərqlənən Orta Tunc dövrü mədəniyyətinin mərkəzinə çevrilir. E.ə. II minilliyin ikinci yarısı – I minilliyin başlanğıcı Cənubi Qafqaz ərazisində Son Tunc dövrü, Dəmir dövrünün başlanğıcıdır. Son Tunc dövründə Naxçıvan ərazisində yeni qalalar yaradılmışdır. Dəmir dövrünə aid olan Oğlanqala e.ə. IX-VI əsrlərdə kiçik bir şəhər dövlətin paytaxtı olmuş və urartulara qarşı mübarizə aparmışdır.

Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik mövcud olmuş, e.ə. IV minillikdə bu proses daha geniş miqyas almışdır. Duzdağ mədənlərindən duz çıxarılmış, mübadilə məqsədilə tələbatdan artıq duz tədarük olunmuşdur. Naxçıvan yaxınlığındakı Duzdağ dünyanın ən qədim duz çıxarılan mədənlərindən biridir.

Açıq səma altında özünəməxsus şəkil qalereyası olan Gəmiqaya qayaüstü təsvirləri Naxçıvanın Tunc dövrü mədəniyyətinin görkəmli abidəsidir. Gəmiqaya təsvirləri simvol-işarə, astral rəsmlər və süjetli təsvirlərdən ibarətdir. Son tədqiqatlar Gəmiqaya təsvirlərinin əksəriyyətinin e.ə. V-I minlliklərə aid edir.

Naxçıvanda şəhər tipli yaşayış yerləri e.ə. III minillikdə, yəni beş min il bundan əvvəl formalaşmışdır. Naxçıvan şəhərinin qədim mədəniyyəti Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf etmişdir. E.ə. III minillikdə iqtisadiyyatın və ticarətin inkişafı Naxçıvanda şəhər tipli yaşayış məskənlərinin

yaranmasına imkan vermişdir.

Bu fəslin sonunda Naxçıvanda etnik mədəni proseslər nəzərdən keçirilir.

**İ k i n c i  f ə s i l** - "Naxçıvan e.ə. IX – b.e. II əsrlərində" adlanır. Bu dövr tarixinin öyrənilməsində mühüm rol arxeoloji materiallara məxsusdur.

Fəsildə Naxçıvanın siyasi və sosial-iqtisadi münasibətləri nəzərdən keçirilir. Fəslin əvvəlində Naxçıvanın e.ə. IX-VI əsrlərdəki vəziyyətinə diqqət yetirilir. Bu dövrdə Urartu dövləti Azərbaycan ərazisinə işğalçı yürüşlər edirdi. Naxçıvanda məskunlaşan tayfalar bu işğallardan qorunmaq üçün möhtəşəm qalalar inşa etmişlər.

E.ə. II minilliyin sonları və I minilliyin əvvəllərində Naxçıvanın ovalıq ərazisində oturaq, dağlıq zonada isə köçəri həyat tərzi hökmran idi.

Urartuların Naxçıvana yürüşləri Oğlanqala şəhər-dövlətinin ona qarşı mübarizəsi nəzərdən keçirilir. Oğlanqala şəhər-dövləti Urartuların hücumlarına qarşı müqavimət göstərərək öz müstəqilliyini qorumuşdur. Oğlanqala Dəmir dövründə Naxçıvanda ən böyük qalalardan biri olmuşdur.

Naxçıvan Atropatena dövlətinin tərkibində olmuşdur. Atropatena dövləti e.ə. IV-b.e. III əsrlərində mövcud olmuşdur. Onun ərazisi əsasən müasir Cənubi Azərbaycan, İran və Şimali Azərbaycanın cənub rayonlarını əhatə edirdi.

E.ə. I-b.e. II əsrlərində Naxçıvan ərazisinə massagetlərin yürüşləri başlayır. Massagetlərlə yanaşı sarmatlar, alanların da hücumları baş vermişdir. Naxçıvan əhalisi – marlar, utilər, peçeneklər, çovdeylər və b. türkdilli qəbilələr onlara qarşı mübarizə aparmışlar.

Naxçıvan əhalisində ictimai bərabərsizlik güclənmişdi. Fəsildə əhalinin dini inamları və yaratdıqları mədəniyyət nümunələri nəzərdən keçirilir.

**Ü ç ü n c ü  f ə s i l** – "Naxçıvan əhalisinin etnogenezi tarixi"nə həsr olunmuşdur. Fəsildə Naxçıvan əhalisinin etnik tərkibi və "Naxçıvan" sözünün mənşəyi nəzərdən keçirilir.

Xalqın etnogenezi tarixi, onun mənşəyi müasir tarix elmində ən mürəkkəb, mübahisə doğuran, çətin həll edilən problemlərdəndir.

Bir sıra qeyri-müəyyənliklərə, çətinliklərə baxmayaraq, Azərbaycan xalqının etnogenezi konsepsiyası müəyyən dərəcədə, ümumi şəkildə tarix elmimizdə işlənmiş və özünün əksini bir sıra əsərlərdə tapmışdır. "Azərbaycan tarixi" dərsliyində və yeddicildlik "Azərbaycan tarixi"nin ikinci cildində Azərbaycan xalqının və dilinin yaranmasına müstəqil fəsillər ayrılmışdır. Həmin fəsillərin müəllifləri Y.Yusifov, N.Vəlixanlı, eləcə də bu problemlə məşğul olan İ.Əliyev, M.İsmayılov, T.Hacıyev, Q.Qeybullayev, K.Əliyev, S.Əliyarov, A.Məmmədov, F.Ağasıoğlu və b. tədqiqatçılar müxtəlif fikirlər söyləmişlər.

Naxçıvan əhalisinin etnogenezi tarixi ilə əlaqədar indiyə qədər sistemli tədqiqat işləri aparılmamışdır.

Qədim mənbələrdə Naxər ölkəsindəki əski tayfaların prototürklər olduğu bildirilir. Fəsildə As, Naxər, türükkü, kuti, lulubəy, kas, subər, su (şu), tal, koman,

tur, pal (pala), tus, doray və b. boylar və tayfalar, onların yayıldığı ərazilər, Azərbaycan xalqının formalaşmasında oynadığı rol nəzərdən keçirilir. Oğuzlar, Skif-Sak, Massaget və kimmerlər, şiraklar, qıpçaq, hun, xaçmataklar haqqında dolğun məlumat verilmişdir.

Naxçıvan əhalisinin etnogenezi tarixi e.ə. VI minillikdən başlayaraq Aratta, Mitan, Manna, Midiya, Atropatena dövlətlərindəki prototürk boyları ilə təşəkkül tapmışdır.

"Naxçıvan" sözünün mənşəyində müxtəlif versiyaların olması nəzərdən keçirilir və bunun Nuh adı ilə əlaqəli yarandığı əsaslandırılır.

**D ö r d ü n c ü  f ə s i l** – "Naxçıvan erkən orta əsrlər dövründə" – təxminən yeddi yüzillik bir dövrü əhatə edir.

Naxçıvan Atropatenanın tərkibində olduğundan burada feodal münasibətləri erkən meydana gəlmişdir. Bu münasibətlər III əsrdən başlayaraq yaranmağa başlamışdır. Kənd icmalarında təbəqələşmə və onların bir qisminin feodallardan asılı vəziyyətə düşməsi IV-VII əsrlər boyu davam etmişdir.

Erkən orta əsrlərdə türk tayfalarının Naxçıvanda yenidən məskunlaşması davam etmişdir. Bunlar hunlar, bolqarlar, xəzərlər, kəngərlər, sabirlər, peçeneklər, suvarlar və b. olmuşdur.

Tarixin bir sıra mərhələlərində Naxçıvan Sünik knyazlığının tərkibində olmuşdur. Sünikin əhalisi türk dilinin müxtəlif ləhcələrində danışırdı. Sünik 12 vilayətdən ibarət olmuş, etnik, mədəni və siyasi baxımdan daha çox Atropatena ilə bağlı olmuşdur.

Naxçıvan III-VII əsrlərdə Sasanilər dövləti ilə bağlı olmuşdur. II Şapurun talançı yürüşləri zamanı Naxçıvana böyük zərər dəymişdi. Naxçıvan Sasani-Roma ordularının döyüş meydanına çevrilmişdi. 387-ci il müqaviləsinə görə Naxçıvan Sasanilərin tərkibində qaldı. Naxçıvan şəhəri Sasanilərin Cənubi Qafqazda əsas dayaq məntəqəsi idi.

Fəsildə ermənilərin Naxçıvanla bağlı əsassız iddialarına elmi və arqumentli cavab verilir.

Ərəb xilafəti müxtəlif əraziləri özünə tabe edirdi. VII əsrin ortalarında Naxçıvan ərəblər tərəfindən tutulur və 652-653-cü illərdə Naxçıvanın işğalı başa çatır. Bu müqavilə ilə həyata keçirilir.

Naxçıvan bölgəsi işğal edildikdən sonra tezliklə xilafətin əsas hərbi və inzibati mərkəzlərindən birinə çevrilir. Naxçıvan ərazisi Böyük İpək yolunda strateji tranzit keçid məntəqəsi olaraq fəaliyyət göstərmişdi.

Epiqrafik abidələr haqqında məlumatlarla fəsil sona çatır.

**B e ş i n c i  f ə s i l** – "Naxçıvan X-XIII əsrin I rübündə" adlanır.

Fəslin ilk yarımfəsli Naxçıvanın Azərbaycan feodal dövlətlərinin tərkibində olmasına həsr olunmuşdur. Ərəb xilafətinin zəifləməsi nəticəsində Azərbaycan ərazisində Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətləri meydana

gəldi. Naxçıvan Sacilər dövlətinin tərkibinə daxil edildi. Sonra Salarilər dövləti Naxçıvanı ərazisinə qatdı. Naxçıvan X əsrin sonundan isə Rəvvadilərin tərkibində idi.

Bu dövrdə Naxçıvanşahlıq yaranır. Naxçıvanşahlığın Salarilər dövlətinin son vaxtlarında meydana gəlməsi və Rəvvadilər dövləti ilə yanaşı fəaliyyət göstərməsi mənbələrdə qeyd edilir. Bu feodallığı Əbu Duləfilər sülaləsinin nümayəndələri idarə edirdilər. Naxçıvanşahlıq 80 ilə yaxın mövcud olmuşdur.

Səlcuq türkləri bir sıra ərazilərlə bərabər Naxçıvana da yiyələndilər və burada iqamətgah tikdirdilər. Səlcuqların Azərbaycan canişini Naxçıvanda əyləşirdi.

Naxçıvan Azərbaycan Atabəyləri dövlətinin tərkibində xeyli inkişaf etmiş və 1136-1175-ci illərdə bu dövlətin mərkəzi şəhəri olmuşdu. Naxçıvan Azərbaycan Atabəylərinin doğma şəhərinə çevrilir. Şəmsəddin Eldəniz ailəsi və övladları ilə birlikdə burada yaşayır. Naxçıvan sərhəd vilayəti kimi xüsusi rejimdə olmuşdu və Ali divana tabe idi.

Fəsildə Naxçıvanın iqtisadi həyatı təhlil edilmiş, kənd təsərrüfatının vəziyyəti, torpaq mülkiyyət formaları, sənətkarlıq, ticarət və şəhərlər haqqında kifayət qədər aydın təsəvvür yaradılır.

Bu fəslin sonunda Naxçıvan mədəniyyəti, onun müxtəlif sahələri nəzərdən keçirilir.

**Altıncı fəsil** – "Naxçıvan XIII – XV əsrlərdə" – təxminən üç əsrlik bir dövrü əhatə edir. Burada müxtəlif mənbələrdən istifadə edilmişdir.

Fəsildə monqolların yürüşləri nəzərdən keçirilir. Bir neçə yarımfəsil monqolların Naxçıvana yürüşlərinə və Hülakülər dövlətinin tərkibində olmasına həsr edilmişdir.

Xarəzmşah Cəlaləddin Naxçıvanı tutur, lakin uzun müddət burada qərar tuta bilmir. Monqol işğalı nəticəsində Naxçıvan şəhəri dağılmış, əhalinin çoxu yaşayış yerlərini tərk etmişdi. 1258-ci ildə Naxçıvan Hülakü dövlətinə tabe edildi. Qazan xanın dövründə şəhər qismən bərpa edildi. Naxçıvan dövlətlərarası müharibələrdən xeyli ziyan çəkdi.

Hülakülər dövründə dövlətin ərazisi vilayət və tümənlərə bölünmüşdü. Naxçıvan ərazisi Azərbaycan əyalətinin tərkibində olmuş 9 tüməndən biri idi. Yarımfəsildə tümən haqqında geniş məlumat verilir. Naxçıvanın Qaraqoyunluların və Ağqoyunluların hakimiyyət dövrü vəziyyəti araşdırılır.

Naxçıvanın ictimai-iqtisadi həyatı nəzərdən keçirilir. Sufiliklə bağlı mərkəzlərdən olan xanəgahlar, zaviyyələr və sufi təriqətləri haqqında kifayət qədər aydın təsəvvür yaradılır.Hürufilik təlimi, onun mahiyyəti, oynadığı rol tədqiq edilir.

Fəslin sonunda Naxçıvan mədəniyyəti nəzərdən keçirilir.

**Yeddinci fəsil** – "Naxçıvan Səfəvilər dövründə" adlanır.

Fəslin əvvəlində Naxçıvanda siyasi vəziyyət nəzərdən keçirilir. 1501-1576-cı illərdəki siyasi vəziyyət Səfəvi-Osmanlı müharibələri ilə xarakterizə olunur. İki böyük türk dövləti arasında baş vermiş müharibələrdə Naxçıvan zərər çəkir.

I İsmayılın və I Təhmasibin vəfatından sonra rumlu, təkəli, şamlı, zülqədər və b. tayfalar arasında hakimiyyət çəkişmələri baş verir. XVI əsrin II rübündə olmuş Səfəvi-Osmanlı müharibələrindən Naxçıvan bölgəsi daha çox ziyan çəkir. Naxçıvan 1588-1603 və 1724-1735-ci illərdə Osmanlı dövlətinin tərkibində olur.

XVI əsrin sonu – XVII əsin I yarısında siyasi vəziyyət təhlil edilir. Məlum olur ki, Səfəvi dövlətinin idarə olunmasında qarışıqlıq və boşluq özünü göstərir. Bu isə əhali arasında narazılığı artırdı. Naxçıvan sancağı üzrə 393 yaşayış məskənindən 269-nun əhalisi öz yerlərini tərk etmişdi.

XVII əsrin II yarısı – XVIII əsrin I qərinəsinin siyasi vəziyyəti Səfəvi torpaqlarında iqtisadi, siyasi, mədəni sahədə tənəzzülün getdikcə dərinləşdiyini göstərir. Nadir Əfşar 1736-cı ildə, Naxçıvan da daxil olmaqla, Azərbaycan torpaqlarını osmanlılardan azad edir.

Səfəvilər dövründə Naxçıvanda kənd təsərrüfatının əkinçilik sahəsi daha çox inkişaf edir. Əhali taxılla yanaşı, düyü, mərcimək, maş, noxud və s. dənli bitkilər əkib-becərirdi. Bağçılıq, bostançılıq və texniki bitkilərin əkilib becərilməsi artır. Pambıqçılıq, tütünçülük, ipəkçilik, üzümçülük yaxşı vəziyyətdə idi.

Torpaq mülkiyyət formaları, sənətkarlıq, ticarət sahələri kimi məsələlər nəzərdən keçirilir. Mədəniyyət yarımfəsli ilə bu cildin yeddinci fəsli sona çatır.

Kitabın hazırlanması Azərbaycan MEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda və Naxçıvan Dövlət Universitetində həyata keçirilmiş, çətin və çox zəhmət tələb edən tədqiqat işlərinin aparılmasından sonra mümkün olmuşdur.

## FƏSİL VƏ PARAQRAFLAR AŞAĞIDAKI MÜƏLLİFLƏR TƏRƏFİNDƏN YAZILMIŞDIR

Giriş – *İsmayıl Hacıyev*
Naxçıvanın təbii-coğrafi şəraiti – *Nazim Bababəyli*

**I F Ə S İ L. NAXÇIVAN QƏDİM DÖVRDƏ**

Arxeoloji mənbələr – *Vəli Baxşəliyev*
Yazılı mənbələr – *Vəli Baxşəliyev*
Etnoqrafik mənbələr – *Vəli Baxşəliyev*
Naxçıvanın arxeoloji tədqiqi – *Vəli Baxşəliyev*
Qədim daş dövrü – *Vəli Baxşəliyev*
Mis – daş dövrü (Eneolit) – *Vəli Baxşəliyev*
Qədim duz mədənləri – *İsa Həbibbəyli, Vəli Baxşəliyev*
Erkən Tunc dövrü – *Vəli Baxşəliyev*
Gəmiqaya təsvirləri – *İsa Həbibbəyli, Vəli Baxşəliyev*
Orta Tunc dövrü – *Vəli Baxşəliyev*
İlkin şəhər mədəniyyətinin yaranması – *Vəli Baxşəliyev*
Son Tunc və Erkən Dəmir dövrü – *Vəli Baxşəliyev*
E.ə. VI-I minilliklərdə Naxçıvanda etnik mədəni proseslər – *Vəli Baxşəliyev*

**II F Ə S İ L. NAXÇIVAN E.Ə. IX – B.E. II ƏSRLƏRİNDƏ –** *Vəli Baxşəliyev*

**III F Ə S İ L. NAXÇIVAN ƏHALİSİNİN ETNOGENEZİ TARİXİ**
– *Firudin Rzayev*

**IV F Ə S İ L. NAXÇIVAN ERKƏN ORTA ƏSRLƏR DÖVRÜNDƏ**

Feodal münasibətlərinin yaranması –*Vəli Baxşəliyev*
Türkdilli tayfaların yenidən məskunlaşması – *Vəli Baxşəliyev*
Sünik (Sisakan) hakimliyi – *Vəli Baxşəliyev*
Naxçıvan Sasanilər dövlətinin tərkibində – *Vəli Baxşəliyev*
İslamaqədərki dövrdə Naxçıvan və çevrəsində etnik-mədəni münasibətlər – *Qadir Qədirzadə*
Xilafət ordularının Naxçıvanı tutması – *Qadir Qədirzadə*
İslam dininin qəbul olunması – *Qadir Qədirzadə*
Xilafət dövründə Naxçıvanın idarə sistemi – *Qadir Qədirzadə*
Şəhərlər, sənətkarlıq, ticarət –*Elburus İsayev*
Epiqrafik abidələr –*Fəxrəddin Səfərli*

**V F Ə S İ L. NAXÇIVAN X-XIII ƏSRİN I RÜBÜNDƏ**

– *İsmayıl Hacıyev*

**VI F Ə S İ L. NAXÇIVAN XIII-XV ƏSRLƏRDƏ**

Monqolların Naxçıvana I yürüşü – *Yaşar Rəhimov*
Xarəzmşah Cəlaləddinin Naxçıvanı tutması – *Yaşar Rəhimov*
Monqolların Naxçıvana ikinci yürüşü – *Zeynəb Quliyeva*
Naxçıvan Hülakülər dövlətinin tərkibində – *Zeynəb Quliyeva*
Naxçıvan tüməni – *İsmayıl Hacıyev*
Naxçıvan Çobanilər və Cəlairilərin hakimiyyəti dövründə – *Sara Hacıyeva*
Toxtamışın və Teymurun Naxçıvana hücumları –*Fəxrəddin Səfərli*
Əlincə qalanın müdafiəsi – *Fəxrəddin Səfərli*
Naxçıvan Qaraqoyunluların hakimiyyəti dövründə – *Asəf Orucov, Toğrul Xəlilov*
Naxçıvan Ağqoyunluların hakimiyyəti dövründə– *Asəf Orucov, Toğrul Xəlilov*
İctimai-iqtisadi həyat– *Asəf Orucov, Toğrul Xəlilov*
Naxçıvanda sufiliklə bağlı mərkəzlər – *Fəxrəddin Səfərli*
Hürufilik – *Fəxrəddin Səfərli*
Maarif – *Fəxrəddin Səfərli*
Elm – *İsa Həbibbəyli*
Ədəbiyyat – *İsa Həbibbəyli*
Epiqrafik abidələr – *Fəxrəddin Səfərli*
Memarlıq və incəsənət – *Nizami Alıyev*

**VII F Ə S İ L. NAXÇIVAN SƏFƏVİLƏR DÖVRÜNDƏ**

Naxçıvanda siyasi vəziyyət –*Fəxrəddin Səfərli, İlhami Əliyev*
Naxçıvanın iqtisadi həyatı – *Fəxrəddin Səfərli, İlhami Əliyev*
Naxçıvan Nadir şahın dövründə – *Fəxrəddin Səfərli, İlhami Əliyev*
Maarif – *Fəxrəddin Səfərli, İlhami Əliyev*
Elm – *İsa Həbibbəyli*
Ədəbiyyat – *İsa Həbibbəyli*
Epiqrafik abidələr – *Fəxrəddin Səfərli, İlhami Əliyev*
Memarlıq və incəsənət – *Nizami Alıyev*

## NAXÇIVANIN TƏBİİ-COĞRAFİ ŞƏRAİTİ

Bəşəriyyətin tarixində, ilkin məskunlaşmanın və urbanizasiyanın inkişafında coğrafi mövqe, təbii şərait, eləcə də, təbii ehtiyatlar hər zaman əsaslı və həlledici şərt olmuşdur. Qədim karvan yollarının üzərində yerləşən, çox kiçik bir ərazidə müxtəlif landşaft kompleksləri və iqlim tiplərinə, zəngin təbii sərvətlərə malik olan qədim Naxçıvan tarixinin formalaşmasında coğrafi amillər mühüm rol oynamışdır.

Azərbaycan Respublikasının tərkibinə daxil olan Naxçıvan Muxtar Respublikası Cənubi Qafqazın ən cənub rayonlarından olub, Kiçik Qafqazın cənub-qərb hissəsində yerləşir. Ərazi şimal və şimal-şərqdən Ermənistan, cənubdan və cənub-qərbdən İran İslam Respublikası, az bir məsafədə isə Türkiyə Respublikası ilə sərhədə malikdir. Ermənistan ilə Naxçıvan Muxtar Respublikası arasında sərhəddin uzunluğu 246 km olub, əsas etibarilə Zəngəzur və Dərələyəz dağ silsilələrinin yüksək su ayrıcılarından keçir. Türkiyə ilə 11 km və İranla Naxçıvan Muxtar Respublikasının sərhəddini 204 km uzunluğunda Araz çayı təşkil edir ki, bu həmçinin Azərbaycan Respublikasının da dövlət sərhəddi hesab olunur.

Muxtar respublikanın ümumi sahəsi 5,5 min kv.km-ə bərabərdir ki, bu da Azərbaycan Respublikası ərazisinin 6,2%-ni təşkil edir.

Naxçıvan Muxtar Respublikası tipik dağlıq ölkədir. Araz çayı dərəsində yerləşən ən alçaq sahə - Kotam dəmiryol stansiyası dəniz səviyyəsindən 600 metrdən aşağı deyildir.

Düzənlik sahə şimala doğru tədricən müxtəlif istiqamətli dağ silsilələri sisteminə keçir. Muxtar respublikanı şərqdən, şimaldan və şimal-qərbdən dövrəyə alan həmin sistem hündürlüyü 3500 metrdən artıq olan bir sıra zirvələrə malikdir.

Muxtar respublika ərazisinin 50%-i dəniz səviyyəsindən 1000 m-lə 2000 m arasında, 16%-ə qədəri 2000 m-lə 3000 m arasında və 1,5 %-i isə 3000 m-dən yüksəkdə yerləşir. Beləliklə, Naxçıvan Muxtar Respublikası ərazisinin 67%-dən çox hissəsi dəniz səviyyəsindən 1000 m-dən yüksəklikdə yerləşir.

Respublikanın dağlıq hissəsi Arpaçayın orta axınının və onu əhatə edən ərazini, Cəhriçayın bütün hövzəsini, Naxçıvançayın orta və yuxarı axınını, Araz dərəsi boyu ensiz Yaycı, Dəstə və Orbubad düzənlikləri istisna olmaqla Şahbuz, Culfa və Ordubad rayonlarının demək olar ki, bütün ərazisini tutur.

Naxçıvan Muxtar Respublikası ərazisi Orta Araz çökəyi və Arazboyu dağ silsilələri sahəsində yerləşməklə mürəkkəb oroqrafik quruluşa malikdir. Ermənistanla sərhəd boyunca uzanaraq şimal-qərbdə Araz çayından başlayan və cənub-şərqdə Araz çayında qurtaran Dərələyəz və Zəngəzur (Ələngəz) silsilələri muxtar respublika ərazisini şimaldan və şərqdən qapayır. Hər iki silsilədən cənuba və cənub-qərbə doğru çoxlu tirələr ayrılır. Burada səkkiz ballıq fay xətti üzərində İlandağ, Nəhəcir, Əlincə, Əshabi-Kəhf və s. kimi ayrı-ayrı ekstruziv kümbəzlər relyefə xüsusi görkəm verir.

Çökəyin Arazboyu sahəsində əsas oroqrafik vahidlər Arazın allüvial, Naxçıvançay, Arpaçay, Əlincəçay, Gilançay, Ordubadçayın allüvial-prolüvial gətirmə konusları və düzənlikləri, geniş sinklinal yastanlar (Duzdağ, Qıvraq, Qarğalıq və s.), erozion-denudasion çökəkliklər (Böyükdüz, Sust-Təzəkənd, Cəhri, Culfa, Yaycı və s.), çoxsaylı monoklinal, antiklinal tirələr, sinklinal çökəkliklər, çayların və sellərin açdığı dərələrdir.

Naxçıvan Muxtar Respublikasında olan əsas dağ sistemi nəinki muxtar respublikada, hətta bütün Kiçik Qafqazın Azərbaycan daxilində ən hündür olan Zəngəzur dağ silsiləsindən ibarətdir. O, respublikanın şərq sərhəddi boyu ilə şimaldan cənub-şərq istiqamətində Araz çayı dərəsinə qədər uzanır. Silsilənin hündür zirvələri demək olar ki, onun mərkəz hissəsində, Ermənistan ilə sərhəd boyu yerləşir. Silsilədə Qapıcıq zirvəsi (3906 m) Kiçik Qafqazda ən hündür zirvədir. Burada 3000-3500 m-dən hündür olan Ayıçınqıl (3707 m), Yağlıdərə (3825 m), Qazangöldağ (3829 m), Şıxyurdu (3575 m), Dəvəboynu (3563 m), Dəmirlidağ (3368 m), Soyuqdağ (3147 m), Ərəçin (3180 m), Salvartı (3161 m) və s. zirvələr vardır.

Silsilədən respublikanın daxilində cənub-qərb istiqamətdə bir sıra qollar ayrılır. Onlardan ən böyüyü Sarıdərə, Darıdağ, Dəmirlidağ, Süsəndağı, Kükü, Duzdağ, Çalxan tirəsi, Dəhnədağ silsilələridir. Qeyd etdiyimiz dağ qolları demək olar ki, respublika ərazisində orta dağlıq qurşağı əhatə etməklə, Şahbuz, Culfa və Ordubad rayonlarının çox hissəsini tutur. Bu dağlar çox hallarda müxtəlif istiqamətlər üzrə uzanır, lakin ümumi istiqamət cənuba, Araz çayı dərəsinə doğrudur [11, s.13].

Orta dağlıq zonada, bir sıra günbəzvari zirvələr yerləşir. İlandağ (2415 m), Darıdağ (1924 m), Nəhəcirdağ (1807 m) və başqaları orta dağlıq zonadan xeyli hündürə yüksəlir.

Biçənək aşırımı (2345 m) yaxınlığında Zəngəzur silsiləsindən cənub-qərbə doğru Dərələyəz silsiləsi ayrılır. Bu dağ respublika daxilinə iki böyük qolla daxil olur. Bunlardan biri Çalxan tirəsi adı ilə cənub istiqamətdə uzanaraq, Araz çayı dərəsində Qıvraq yüksəkliyi ilə qurtarır. Cənub istiqamətdə uzanan bu tirədən şərqə, ona paralel ikinci tirə uzanır. Bu Dərələyəz silsiləsinin ona yaxınlaşan hissəsi ilə Cəhriçayın dərəsini əmələ gətirir.

Zəngəzur və Dərələyəz silsilələrinin cənuba, Araz çayı dərəsinə doğru uzanmış tirələri Arazboyu düzənliyi müxtəlif istiqamətlərdə bir-birindən ayıraraq bir sıra düzənlikləri yaradır.

Naxçıvan Muxtar Respublikası ərazisində dağarası düzənlik sahələr bütün respulika ərazisinin 30%-ni təşkil etməklə şimal-qərbdən cənub-şərq istiqamətində uzanaraq, Orta Araz çökəkliyinin şərq qurtaracağına qədər davam edir. Arazboyu düzənlik şimal-qərbdə yerləşən Sürməli düzənliyinin şərqə doğru davamıdır. Arazboyu düzənlik çox da hündür olmayan bir sıra yüksəkliklərlə parçalandığından, o tam bir düzənlik olmayıb, bir neçə maili düzənliklərə ayrılır.

Ərazinin şimal-şərq qurtaracağı ilə Dəhnə (1154 m) və Vəlidağ (1242 m)

yüksəklikləri arasında Sədərək düzü yerləşir. Düzənliyin orta yüksəkliyi 930 m-dir. Bu düzənlikdən cənub-şərqdə respublikada ikinci böyük Şərur düzənliyi yerləşir. Şərur düzü Şərqi Arpaçayın aşağı hissəsini əhatə edərək, şərqdə Qıvraq yüksəkliyi ilə kəsilir və onun davamı olan şoranlaşmış Böyük Düzə keçir. Böyük Düz şərqdə respublikanın ən böyük düzənliyi olan Naxçıvan düzü ilə əvəz olunur. Bu düzənlik başlıca olaraq, Naxçıvançay hövzəsinin aşağı axınını tutur. Naxçıvan düzənliyindən şərqə Zəngəzur silsiləsinin qolları Araz çayı dərəsinə daha yaxınlaşmaqla, onun daralmasına və tirələrlə daha kiçik düzənliklərə parçalanmasına səbəb olur. Çay yataqlarının düzənliyə çıxdığı sahələrdə o genişlənir və bəzən isə tirələr Araz çayına qədər uzana bilir.

Naxçıvan Muxtar Respublikasının ərazisi sahəcə çox kiçik olsa da geoloji quruluşunun mürəkkəbliyinə, geoloji yaşına və rəngarəngliyinə görə geniş ərazili ölkə və regionlarla müqayisə edilə bilər. Ərazinin geoloji quruluşunun elmi əsaslarla öyrənilməsi ilk növbədə Ş.Ə.Əzizbəyovun adı ilə bağlıdır [12]. Regionun faydalı qazıntılarının kəşfiyyatında azərbaycanlı geoloqlardan A.Q.Əsgərovun, A.D.Aslanovun [14], Ş.N.Məmmədovun, H.H.Muxtarovun [6] və M.Ə.Qaşqayın [10] fəaliyyəti xüsusi qeyd edilməlidir.

Muxtar respublikanın geoloji və tektonik xüsusiyyətləri, xüsusilə orogen mərhələlərdə baş verən neotektonik hərəkətlərin bilavasitə təsiri altında yaranmış morfostrukturlar onun təbii şəraitinin müxtəlifliyini şərtləndirən amillərdən biridir. Ərazidə təbii landşaftın bünövrəsini təşkil edən süxur kompleksləri istər yaşına və istərsə də yaranma şəraitinə, tərkibinə, quruluşuna görə olduqca zəngin və çoxçeşidlidir.

Paleozoy dövrünün çöküntüləri Azərbaycan Respublikasının yalnız Naxçıvan Muxtar Respublikası ərazisində yayılmışdır. Arpaçay dərəsindən qərbdə, Sədərək qalxmasında, Araz çayının Nehrəm dərəsində aşkar edilmiş devon yaşlı bu süxurların yaşı 400-420 mln. ilə malikdir. Göstərilən sahələrdə palezoy çöküntüləri qumlu, qumlu-gilli əhəngdaşlarından, dolomitlərdən, şistlərdən ibarətdir. Bu göstərilənlərlə yanaşı qeyd olunan yerlərdə daş kömür və perm dövrünün qalınlığı bəzi yerlərdə 200 m-ə çatan müxtəlif süxurları da yayılmışdır. Bunlardan ən görkəmlisi allüvial düzənlik səthindən 400-500 m ucalan Dəhnə və Vəlidağ qalxmalarıdır.

Mezozoy erasının süxur qatları da ərazinin geoloji quruluşunda görkəmli yer tutur. Trias və yura sistemi çöküntülərinə Dərələyəz silsiləsinin cənub-qərbində, həmçinin yenə də məşhur Nehrəm dərəsində rast gəlinməkdədir.

Təbaşir çöküntülərinin daha geniş yayıldığı sahə Ordubad rayonunun cənub-şərq hissəsidir. Bu çöküntülərin səthində və daxilində dəniz faunası və florasına aid çoxsaylı, müxtəlif növlərə rast gəlinməkdədir.

Naxçıvan çökəyinin cənub-şərq və şimal-şərq hissəsində geniş yayılmış paleogen çöküntüləri tuflardan, porfiritlərdən, qumlu gillərdən və qumlu əhəng-

daşlarından ibarətdir. Dərələyəz və Zəngəzur silsilələri demək olar ki, bütövlükdə paleogen süxurlardan yaranmışdır. Burada Ordubad plutonu adlanan nəhəng qranitoid intruzivi xüsusi yer tutur. Orta fay xətti boyu dərinlik tektonik qırılmalar zonası boyu dünyada tayı bərabəri olmayan Çalxan, Sarıdağ, Nəhəcir, İlandağ, Əshabi-Kəhf, Əlincə, Darıdağ və s. kimi görkəmli forma almış ekstruziv qalxmalar cərgəsi əmələ gəlmişdir.

Devondan başlayaraq neogenin pliosen mərtəbəsinə qədər indiki Naxçıvan ərazisi dəfələrlə dəniz sularının altında qalmış və miosenin sonu pliosenin əvvəllərində, 6-9 mln. il əvvəl orta sarmat və pont mərtəbələrində eyni adlı dəniz suları ərazisini birdəfəlik tərk etmişdir [22, s.428]. Bundan başqa yaxın geoloji keçmişdə dənizlərin transqresiyası uzunmüddətli olmamış və yalnız lokal şəkildə özünü Kür-Araz ovalığında, müəyyən zamanlar isə Arazboyunda göstərmişdir. 5,5-6,5 min il əvvəl Xəzərin Kür-Araz ovalığını basması nəticəsində burada yerləşən 150-yə qədər o dövr üçün iri sayıla biləcək yaşayış məntəqəsi suyun altında qalmış, insanlar qərbə - Kiçik Qafqazın, Zəngəzurun orta və yüksək dağlığına doğru miqrasiya etmiş, sular çəkildikcə geriyə dönmüşlər [2, s.131]. Dəniz sularının geri çəkilməsi nəticəsində karaqan əsrində Nehrəm, orta sarmatda isə Duzdağ yataqları formalaşmışdır və bu duz yataqları Naxçıvan şəhərinin məskunlaşmasında, həmçinin karvan yollarının buradan keçməsində birinci dərəcəli rol oynamışdır [15, s.315].

Naxçıvan Muxtar Respublikası ərazisi bir sıra faydalı qazıntı növləri ilə zəngindir. Bunların içərisində dəmir, xrom, kobalt, mis, molibden, alünit, kaolinit, barit, halit və mineral sular xüsusilə qeyd edilməlidir. Bunların bəzilərinin hasilatı və emalı ilə primitiv şəkildə olsa belə daş dövründə-neolitdə istifadə olunmuşdur. Keçmiş zamanlardan indiyə kimi paleogenin tufluqumdaşı yataqlarından, Sust əhəngli qumdaşlarından, Şahtaxtı, Qarabağlar travertinlərindən, Xok kalsitindən istifadə edilmişdir. Ərazidə əsasən karbonatlı və hidrokarbonatlı sular qrupuna aid edilən 214 mineral su mənbəyi mövcuddur.

Naxçıvan Muxtar Respublikasının iqlimi hər şeydən əvvəl, kəskin kontinentallığı ilə səciyyələnir. Respublika ərazisində iqlim üzərində ilk rayonlaşma İ.V.Fiqurovski tərəfindən aparılmışdır [18]. V.Keppen təsnifatı əsasında yerli təbii şəraiti nəzərə alaraq, müəllif Azərbaycanın ilk iqlim xəritəsini tərtib etmiş və sonralar həmin xəritəni yeniləşdirmişdir. İ.V.Fiqurovski tərəfindən tərtib edilmiş ilk xəritələrin respublika ərazisinin iqliminin öyrənilməsində çox böyük əhəmiyyəti olmuşdur.

Daha sonralar Ə.M.Şıxlinski [19] və P.S.Mirzəyev [7] Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının iqlim xəritəsini tərtib etmişlər. Müəlliflər iki əsas meteoroloji ünsürün - havanın temperaturu və atmosfer yağıntılarının paylanması və bununla yanaşı, yerli təbii şəraiti nəzərə alaraq Azərbaycanın 5 təbii ərazisində başlıca olaraq 8 iqlim tipi ayırmışdır.

Qeyd etmək lazımdır ki, müəlliflərin göstərdikləri kimi Naxçıvan Muxtar Respublikasının iqlimi yer kürəsinin heç bir yerində təsadüf edilmir və xüsusi

olaraq “Naxçıvan iqlimi” adlandırılır. Ə.M.Şıxlinski “Naxçıvan iqlimi”ndə şaquli zonallığa müvafiq olaraq 5 iqlim tipi ayırır [20, s.62-63].

*1. DBSsa - yayı quraq və isti, qışı soyuq keçən yarımsəhra və quru çöl iqlimi.* Bu iqlim tipi Araz dərəsi boyunca təxminən dəniz səviyyəsindən 600-1100 metr hündürlüyü olan sahələri əhatə edir. Bu tipin müşahidə edildiyi ərazidə yağıntının illik miqdarı 220-300 mm, nisbi nəmlik 20-29%, mümkün buxarlanma isə 1000-1400 mm-dir. Məhz buna görə də burada süni suvarmaya ehtiyac daha çoxdur.

Ərazidə ümumi günəş radiasiyasının miqdarı daha çox olub (145-150 kkal/sm$^2$), Orta Asiyanın səhra və dağətəyi rayonlarına uyğun gəlir.

Havanın orta illik temperaturu 12-14$^0$, ən soyuq ayın (yanvar-fevral) orta temperaturu -4$^0$-dən -6$^0$-dək, ən isti ayın (iyul-avqust) orta temperaturu isə 25-29$^0$-yə çatır. Sutkalıq temperatur amplitudunun qiyməti yayda 14$^0$-yə kimi artır. Qış fəsli yağıntıları əsas etibarilə, qar halında yağır və qar örtüyü davamlıdır.

*2. Dsa - yayı quraq və isti keçən soyuq iqlim.* Bu iqlim tipi təxminən dəniz səviyyəsindən 1100-1600 m hündürlüklər arasında yerləşən sahələri əhatə etməklə, birinci tipdən nisbətən yağıntılarının çoxluğu və temperaturun alçaq olması ilə fərqlənir. Burada illik yağıntıların miqdarı təxminən 300-350 mm arasında dəyişir. Nisbi nəmliyi 30-70%, ümumi buxarlanma isə 800-1100 mm-dir. Orta illik temperatur 8-11$^0$, ən soyuq ayın orta temperaturu -5, -6$^0$, ən isti ayının isə 21-26$^0$-yə çatır. Qar örtüklü günlərin sayı birinci zonaya nisbətən xeyli artıqdır.

*3. Dsb - yayı quraq və sərin keçən soyuq iqlim.* Bu iqlim tipi ərazinin dəniz səviyyəsindən 1600 m-dən 2600 m-ə qədər yüksəkliyi olan sahələri əhatə edir. Burada yağıntıların orta illik miqdarı birinci tipin əhatə etdiyi sahədən 2 dəfə olmaqla (550-650 mm), nisbi nəmlənmə 70-100%, mümkün buxarlanma isə 500-800 mm təşkil edir.

Havanın orta illik temperaturu 1-8$^0$, ən soyuq ayı -6$^0$-dən -40$^0$-dək, ən isti ayı isə 18-21$^0$ arasında dəyişir.

*4. Dsc - yayı quraq və çox sərin keçən soyuq iqlim.* Bu iqlim tipi yüksək dağlıq zonada Zəngəzur silsiləsinin dəniz səviyyəsindən 2600-3200 m yüksəkliyə malik olan sahələrini tutur. Yağıntının orta illik miqdarı 600-700 mm-ə qədər olub, nisbi nəmlik 100-150%, mümkün buxarlanma isə 350-500 mm-dir. Havanın orta illik temperaturu 1-3$^0$, ən soyuq ayın orta temperaturu -10$^0$-dən -13$^0$-dək, ən isti ayınkı isə 8-13$^0$-dir.

Qeyd etmək lazımdır ki, bu zona və bundan yüksəkdə yerləşən zonada müşahidə edilən ümumi radiasiyanın miqdarı (150-160 kkal/sm$^2$) Azərbaycan ərazisi üçün maksimum miqdar hesab olunur.

*5. ET-dağ-tundra iqlimi.* Bu iqlim tipi ərazinin yüksək dağ zirvələrini əhatə edir. Bu zona qış və yayın soyuq, yağıntılarının bundan əvvəlki zonaya nisbətən azalması ilə səciyyələnir. Nisbi nəmlik 100-140%, mümkün buxarlanma 300-350

mm, orta illik temperatur -3,-8$^0$ , ən soyuq ayının orta temperaturu -13, -16$^0$, ən isti ayının orta temperaturu isə 2-6$^0$-dir. Azərbaycanın, eləcə də Qafqazın digər rayonlarına nisbətən Naxçıvan Muxtar Respublikasında hidroqrafik şəbəkə xeyli zəif inkişaf etmişdir.

Ərazinin şimal-qərbindən cənub-şərqinə doğru çaylarda uzunluq və sutoplayıcı sahənin azalması müşahidə edilir. Bu həmin istiqamətdə dağların Araz çayına doğru yaxınlaşması ilə əlaqədardır.

Respublika ərazisində mövcud 400-dən artıq çayın ümumi uzunluğu 1750 km, çay şəbəkəsinin orta sıxlığı 0,33 km/km$^2$-ə bərabərdir. Uzunluğu 10 km-dən artıq olan 35 çay vardır. Beləliklə, qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası kiçik dağ çayları ilə zəngindir.

Naxçıvan Muxtar Respublikası ərazisində hidroqrafik şəbəkə başqa fiziki-coğrafi və iqlim ünsürləri kimi şaquli zonalıq qanununa uyğun olaraq dəyişir. Respublikada çay şəbəkəsi özünün ən çox inkişafına 1000-2500 m hündürlüklər arasındakı sahələrdə çatır. Bu ərazidə çay şəbəkəsinin orta sıxlığı 0,60-1,00 km/km$^2$ təşkil edir. Yüksəkliyi 2500 m-dən artıq olan sahələrdə çay şəbəkəsinin sıxlığı yenidən azalır və 0,40-0,60 km/km$^2$ təşkil edir. Çay şəbəkəsinin ən zəif inkişaf etdiyi sahə dağ ətəyi və düzənlik zona (1000 m-dən aşağı) hesab edilir ki, burada sıxlıq 0,20 km/km$^2$-dən artıq deyildir.

S.H.Rüstəmovun hesablamasına görə, ərazidə çayların qidalanmasında qar suları 35-50%, yeraltı sular isə 5-45%-dir. Çayların qidalanmasında yağış suları ikinci dərəcəli rol oynayaraq, illik axım həcminin yalnız 15-30%-ni təşkil edir [17, s.33-35]. Çaylarda axımın il ərzində qidalanması əsasən aşağıdakı üç mərhələyə bölünür:

1. *Payız-qış mərhələsi (oktyabr-fevral).* İlin bu dövründə su sərfi nisbətən az dəyişir. Oktyabr və noyabr aylarında yağıntıların nisbətən artması ilə çaylarda qısa davam edən daşqınlar olur. Ayrı-ayrı illərdə bu vəziyyət daha da qüvvətlənə bilir.
2. *Yaz mərhələsi (mart-may).* Qarların əriməsi və atmosfer yağıntılarının maksimum miqdara çatması ilə əlaqədar olaraq daşqınlarla nəticələnir. Yaz mərhələsi zamanı illik axım miqdarının 50-75%-i sərf olunur. Çaylarda daşqın maksimuma may ayında çatır və sonradan tədriclə azalmağa başlayır.
3. *Yay mərhələsi (iyun-sentyabr).* Bu dövrdə çaylar başlıca olaraq yeraltı sularla qidalanır və illik axım həcminin 10-20%-ni axıdır. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı bitkilərinin ən intensiv suvarıldığı dövrdə (iyul və avqust) çayların axıtdığı su illik axım həcminin 10-15%-dən artıq deyil. Bu isə əkin sahələrinin suvarmaya olan ehtiyacının yalnız bir hissəsini təşkil edir [17,s.34].

Respublika ərazisindən axan ən böyük çay Araz çayıdır. Araz çayı muxtar respublikanın cənubu ilə axaraq, Kiçik Qafqazı İran yaylasından ayırır və dövlət sərhəddi təşkil edir. Araz çayının uzunluğunun (1072 km) 185 km-i Naxçıvan Muxtar

Respublikası ərazisinə düşür.

Araz qarışıq qidalanan çaylar tipinə daxildir. Yeraltı sular illik axımın 45-50%-ni, qar suları 32-39%-ni, yağış suları isə 16-17%-ni təşkil edir. Çayda çox sulu dövr mart-iyul, az sulu dövr isə avqust-oktyabrda müşahidə edilir. Arazın Qaradonlu yaxınlığında orta illik su sərfi 218 $m^3$/san, ən çox sərfi 1520 $m^3$/san, ən az sərfi isə 16 $m^3$/san-dir. Araz çayının suyu çox lillidir. Öz lilliyinə görə Araz Yer kürəsi çayları içərisində əsas yerlərdən birini tutur. Orta lillik 140 q/$m^3$-dir [1].

Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası ərazisində suvarma məqsədilə Araz çayı sularında geniş imkanlar olduğu halda, bu vaxta qədər belə imkanlardan səmərəli istifadə edilməmişdir. Son illər Naxçıvan və Ordubad şəhərləri yaxınlığında Arazın sularından nasoslar vasitəsilə suvarmaya sərf edilməsi respublika təsərrüfatının inkişaf etdirilməsində mühüm addımlardır. Araz çayının sularından istifadə edilməsi məqsədilə, 17 iyun 1963-cü ildə SSRİ ilə İran arasında müqavilə bağlanmış və Naxçıvan şəhəri yaxınlığında Araz çayının qarşısı kəsilməklə su anbarı tikilmiş və min hektarlarla xam torpaq sahələri istifadəyə verilmişdir. 1970-ci ildə başa çatdırılmış bu tədbir nəticəsində, Naxçıvan Muxtar Respublikası və İranın təbiətində xeyli dəyişiklik baş vermiş, mikroiqlim və mezoiqlim xeyli dəyişmişdir.

Şərqi Arpaçay uzunluğuna və sululuğuna görə respublikanın ən böyük çayı hesab edilir. Onun ümumi uzunluğu 129 km olub, bundan 39 km-i Naxçıvan Muxtar Respublikası daxilindədir. Çay hövzəsinin ümumi sahəsi 2030 $km^2$-dir. Çay şəbəkəsinin sıxlığı 0,52 km/$km^2$-dir. Orta illik su sərfi 19,0 $m^3$/san. təşkil edir. Şərqi Arpaçayın orta illik axım həcmi isə 599,2 mil/$km^3$-dir. Respublika ərazisində çaylar vasitəsi ilə suvarılan torpaq sahələrinin 35%-ə qədəri Şərqi Arpaçayın payına düşür [1, s.14-16; 5, s.10].

Respublikanın ikinci böyük çayı Naxçıvançayıdır. Çayın ümumi uzunluğu 81,2 km, sutoplayıcı sahəsi isə 1620 $km^2$-dir. Çayın orta çoxillik su sərfi 4,51 $m^3$/san, axımın həcmi isə 128 mil/$km^3$ təşkil edir. Naxçıvançayla suvarılan torpaqların sahəsi təqribən Arpaçayla suvarılan torpaq sahəsinə bərabərdir [1, s.16; 5, s.60-61].

Respublikanın üçüncü sulu çayı Gilançay hesab edilir. Çayın ümumi uzunluğu 53,4 km, hövzəsinin ümumi sahəsi isə 425,9 $km^2$-dir. Çayın orta çoxillik su sərfi 3,22 $m^3$/san, illik axım həcmi isə 101,5 mil/$m^3$-dir [5, s.54-55].

Əlincəçay sululuğuna görə respublikada dördüncü çaydır. Çayın sutoplayıcı sahəsi 599 km-ə bərabərdir. Orta illik sərf 1,76 $m^3$/san, illik axım həcmi isə 55,5 mil/$m^3$ təşkil edir [1, s.17].

Qeyd etdiyimiz çaylardan əlavə Naxçıvan Muxtar Respublikası ərazisində Vənənd, Ordubad, Əylis, Kotam və başqa çaylar vardır. Bu çayların kiçikliyinə baxmayaraq, hər biri kənd təsərrüfatı üçün xeyli dərəcədə əhəmiyyətlidir.

Ümumiyyətlə, respublikanın su ehtiyatı 1 milyard $m^3$-ə bərabərdir. Səmərəli

istifadə etmək yolu ilə bu ərazidə mövcud olan əkin sahələrinin suvarılmasını yaxşılaşdırmaqla yanaşı, əkin sahələrini yeni torpaqlar hesabına xeyli genişləndirməyə imkan verir. Hazırda çay sularının cüzi bir hissəsindən istifadə edilir. Məsələn, çaylar illik axımın əsas hissəsini (75-80%) yaz daşqını dövründə (aprel-may) və payızqış fəsillərində (oktyabr-mart) axıdırlar. Bu dövrlərdə kənd təsərrüfatı bitkilərinin suvarmaya ehtiyacı xeyli az olur və ya onların vegetasiya dövrü tamamilə qurtarır. Buna görə də respublika çaylarının suvarma qabiliyyətini yaxşılaşdırmaq və artırmaqdan ötrü çaylar üzərində su anbarlarının tikilməsi üçün bir sıra hidrotexniki tədbirlər həyata keçirilməsi tələb olunur. Yalnız bu üsulla çay sularından suvarma məqsədi üçün səmərəli istifadə etmək lazımdır.

Naxçıvan Muxtar Respublikası ərazisində yüksək dağ göllərinə təsadüf edilir. Bu göllərin suyu şirindir. Buraya Göygöl, Cil göl, Qanlı göl, Pəri göl, Salvartı, Salahlı və s. göllər daxildir.

Muxtar respublikada su anbarlarının sayı 100-dən artıqdır. Lakin bunlardan bir neçəsi – Araz su qovşağı, Arpaçay, Heydər Əliyev su anbarı tutumuna və təsərrüfat əhəmiyyətinə görə fərqlənirlər.

Ərazinin torpaq və bitki örtüyü müxtəlif olmaqla, Azərbaycanın başqa sahələrindən xeyli fərqlənir. Qeyd etmək lazımdır ki, bu müxtəliflik iqlimin kəskin kontinental və quru olması ilə əlaqədardır. Məhz buna görə də ərazinin çox hissəsində, əsasən, az qələviləşmiş duzlu və çox halda isə böyük strukturlu arid torpaqlar yayılmışdır. Ərazinin torpaq örtüyünün əsas xüsusiyyətlərindən biri torpaq qurşaqlarının burada Azərbaycan Respublikasının başqa fiziki-coğrafi rayonlarından fərqli olaraq, 1000-1200 metr yüksəklikdən sonra müşahidə edilməsidir.

Ərazidə üç əsas torpaq qurşağı: düzənlik, dağətəyi və orta dağlıq, yüksək dağlıq ayrılır [13, s.50-51].

*1. Düzənlik qurşağın torpaqları* ərazinin təxminən 1200 m yüksəkliyə qədər olan sahələrini əhatə edir. Burada ana süxur başlıca olaraq, üçüncü dövrün çöküntü süxurlarından ibarətdir ki, bunların da çox hissəsi duzlaşmışdır. Havanın quraq, temperaturun yüksək, ərazinin həddən artıq kasıb və kserofit bitki örtüyünə malik olması nəticəsində bu zonada fiziki aşınma hadisələri geniş yayılmışdır ki, bu da öz növbəsində az məhsuldar və tərkibində humusun miqdarı az olan torpaqların inkişaf etməsinə şərait yaratmışdır. Bu zonada əsasən, boz torpaq tipinə aid açıq rəngli cavan torpaqlar yayılmışdır. Bunlardan gəc, əhəng və bəzən duzlaşmış süxurlarla növbələşən boz torpaqları, allüvial boz torpaqları və tünd çəmən torpaqlarını göstərmək olar.

Qədim terrasların əmələ gəldiyi sahələrdə və subasarlarda allüvial boz torpaqlar inkişaf etmişdir. Bu tip torpaqların tərkibində humusun miqdarı 2%-dən artıq deyildir. Allüvial boz torpaqlar düzənlik qurşağın əsas hissəsini tutur ki, bunlar da kənd təsərrüfatında başlıca olaraq texniki və dənli bitkilərin əkin sahəsi kimi istifadə edilir. Ərazinin qərb hissəsində yerləşən düzənliklərdə (Sədərək və Qıvraq düzləri)

allüvial çöküntülər müəyyən dərəcədə duzlaşmışdır. Burada boz torpaqlar içərisində şoran və şorakətli torpaqlara tez-tez rast gəlinir.

Ərazinin depresiya sahələrində boz torpaqlarla bərabər, tünd çəmən torpaqlarına da rast gəlinir. Bu torpaqlar yuxarı qatların bir qədər çimlənməsi, nisbətən yüksək humuslaşması və aşağı qatlarda çürümə əlamətlərinin yayılması ilə səciyyələnir.

Qeyd etmək lazımdır ki, düzənlik zonanın bütün torpaqlarına üzvi və mineral gübrələr verməklə, onlarda humusun miqdarının artırılması tələb olunur.

*2. Dağətəyi və Orta dağlıq qurşağın torpaqları* dəniz səviyyəsindən 1200-2400 m yüksəkliklərdə yayılmışdır. Bu zonanın ana süxurları karbonatlardan, dolomitləşmiş əhəngdaşlardan, mergelləşmiş qum daşlarından və şistlərdən ibarətdir. Buranın ən çox geniş yayılmış torpaqları qonur torpaqlardır. Bunlar Naxçıvançayın orta axınında daha geniş yayılmışdır. Qonur torpaqların yuxarı qatlarında humusun miqdarı 1,75-2,58% arasında dəyişir. Bu qatlar kəsəkli-dənəvari struktura malikdir. Təqribən 20-30 sm dərinlikdə bu torpaqlar çox sahədə struktursuz olurlar. Akademik Həsən Əliyevin fikrincə aşağı və orta dağlıq qurşağın boz-qonur torpaqlarında nəmişlik az olduğundan, burada tarlaçılıq bitkiləri sabit və yüksək məhsul vermir [13, s.142]. Bu torpaqların yayıldığı sahələrdə meyvə və üzüm bağları, baramaçılığın inkişafı üçün tut ağacları olduqca yaxşı inkişaf edir, çünki ağacların yaxşı inkişaf etdiyi kök sistemlərinin yayıldığı qatda rütubət ehtiyatı kifayət qədərdir.

Bu zonanın daha yüksək sahələrində quru çöllərin şabalıdı torpaqları yayılmışdır. Bu tip torpaqlar humusun bir qədər yüksək (2,5%) olması ilə səciyyələnir.

Aşağı və orta dağlıq qurşaqda relyefin güclü parçalanması, aşınma hadisələrinin geniş yayılması nəticəsində burada olan torpaqlar kənd təsərrüfatı üçün az istifadə edilir. Aşınma prosesinin ən qüvvətli getdiyi sahə ərazinin şərq hissəsində müşahidə edilir.

*3. Yüksək dağlıq qurşağın torpaqları* Zəngəzur və Dərələyəz silsilələrinin dəniz səviyyəsindən 2400 m-dən hündürdə olan sahələrini əhatə edir. Burada bir-birindən aralı çılpaq qayalı sahələr və əsas süxurların çıxıntıları ilə əvəz olunan çimli-çəmən torpaqları yayılmışdır. Bu torpaqlarda humusun miqdarı xeyli çox olmaqla, 9-10% arasında dəyişir. Qeyd etmək lazımdır ki, bu ərazidə yayılmış torpaqlar az yuxalığı ilə fərqlənir, bir çox yerlərdə dağ süxurları yer səthinə çıxır.

Naxçıvan Muxtar Respublikasının bitki örtüyü iqlim şəraiti və şaquli zonallıqdan asılı olaraq çox müxtəlifdir. Muxtar respublika ərazisində hazırda 1148 bitki növü vardır ki, bunların da 10%-i endemik növlərdən ibarətdir.

İqlim şəraiti ilə əlaqədar olaraq burada əsasən kserofit bitki növləri yayılmışdır. Ərazidəki bitki növlərinin 70%-i demək olar ki, tamamilə kserofit bitki növləridir.

Tədqiq olunan ərazidə bitki örtüyünün başlıca xüsusiyyəti friqanların olması,

kserofit bitkilərin geniş yayılması və meşə qurşağının olmamasıdır. Kiçik əraziləri tutan meşələrə Naxçıvançay, Əlincəçay və Gilançayın yuxarı axınlarında rast gəlinir. Meşəlikdə əsas ağac növü yüksək dağlıq palıdı olub, Böyük və Kiçik Qafqazda bu ağac növünə təsadüf edilmir. Yuxarıda qeyd edildiyi kimi, ərazinin mürəkkəb və müxtəlif təbii şəraiti ilə əlaqədar olaraq, bitkilərin yayılması və inkişafı şaquli zonallıq qanunlarına tabedir.

Düzənlik və dağətəyi qurşaqda başlıca olaraq yarımsəhra bitki formasiyası yayılmışdır. Bu bitkilər vegetasiya dövrlərinin çox qısa olmaları ilə səciyyələnir. Yazda yağıntıların çoxluğu və nisbətən torpaqların rütubətli olması nəticəsində efemerlər sürətlə inkişaf edir. Yayda yüksək termik şərait və atmosfer yağıntılarının kəskin azalması ilə bu bitkilər vegetasiya dövrünü başa vurmuş olur. Payız fəslində isə atmosfer yağıntılarının bir qədər artması ilə efemerlər yenidən inkişafa başlayır. Bu qurşaqda 300-dən artıq bitki növünə rast gəlinir. Çəmən-bozqır tipli formasiyalarda əsas etibarilə çoxillik ot bitkiləri, az miqdarda isə yarımkollar və birillik bitkilər yayılmışdır [20, s.86].

Buradakı qrupların tərkibində gəvənin bir sıra növlərinə, sürvə, kəklikotu, yovşan və s. tez-tez rast gəlinir.

L.İ.Prilipkonun araşdırmalarına görə bütün Arazboyu düzənlik sahənin əsas komponenti yovşan olan yarımsəhra bitkiləridir [10].

Naxçıvan Muxtar Respublikası üçün atrafaks, pallas murdarçası, kürəkvari yarpaqlı murdarça, astraqal və s. kolluqlar səciyyəvidir. Bu kolluqlar arasında kserofit ot bitkiləri də bitir.

L.İ.Prilipkoya görə Naxçıvan vilayətində friqana formasiyaları növlərinin yarıdan çoxu İran və Orta Asiya mənşəlidir. Qeyd etdiyimiz kimi, friqana bitki növləri ərazidə dəniz səviyyəsindən 1200-1500 m hündürlüyü əhatə edən sahələrdə yayılmışdır [21, s.223]. Bu aşağı yarımsəhra bitki qurşağından bitki növlərinin nisbətən zənginliyi ilə fərqlənir. Burada 300-dən artıq bitki növü olmaqla, əsas etibarilə quraqlığa davamlı müxtəlif çoxillik otlar, kolluqlar inkişaf etmişdir. Respublikanın bu hissəsində geniş yayılmış efir yağlı bitkilərin, xüsusilə, böyük əhəmiyyəti vardır. Onlar əriqana növü yayılan qurşaqdakı bitkilərin 20%-ni təşkil edirlər. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasında 300-ə qədər müxtəlif efir yağlı bitki növləri vardır.

Dəniz səviyyəsindən 1700-1900 m hündürlüklərdə dağ-step bitkiləri geniş yayılmışdır. Relyefin xeyli parçalanması ilə əlaqədar olaraq, burada bitki ilə örtülü geniş sahələr azdır. Bu zonada başlıca olaraq kserofit növlərdən ibarət bitkilər ancaq dağların yamaclarında yayılmışdır.

Respublikanın dəniz səviyyəsindən 1900-2400 m yüksəkliklərində qariqa, çöl-çəmən bitkiləri və meşələr yayılmışdır. Meşələrin ümumi sahəsi 2,4 min hektar olmaqla, respublika ərazisinin 0,5%-ni təşkil edir. Bu meşələrdə əsasən, palıd, ardıc, iydə, alça və s. quraqlığa davamlı ağac növləri vardır.

Dəniz səviyyəsindən 2400-3000 m və daha yüksək sahələrdə subalp və alp çəmənlikləri yayılmışdır. Burada şiyav, kareliya, Alp qırtıcı, tonqalotu, alabəzək topal, şırımlı topal və başqaları vardır. Rütubətli yerlərdə qarayonca, mərcanotu, pişik nanəsi və s. bitkilərə rast gəlinir.

Yüksək dağlıq sahələrin bitkiləri tərkiblərinə görə yoxsul olub, daha çox kserofit xarakter daşıyır, şırımlı topal üstünlük təşkil edir, çəmənlər az inkişaf etmişdir.

Naxçıvan Muxtar Respublikasının landşaftı keçən əsrin 60-cı illərindən sonra ilk dəfə olaraq B.Ə.Budaqov və S.Y.Babayev tərəfindən tədqiq olunmuş və ərazinin iri miqyaslı xəritəsi tərtib edilmişdir. Müəlliflər aşağı taksonomik landşaft vahidi kimi 53 növ ayırmış və onların təsnifatını vermişlər [3, s.97-98].

Muxtar respublikanın olduqca mürəkkəb geoloji-geomorfoloji quruluşu, iqlim şəraiti, torpaq-bitki örtüyü olduqca zəngin və rəngarəng landşaft komplekslərinin formalaşmasına səbəb olmuşdur. Burada çox qısa məsafədə, Arazboyunda səhra-yarımsəhradan yüksək dağlıq qurşaqda buzlaq-nival landşaft komplekslərinə qədər müxtəlifliyi görmək mümkündür. Bu mürəkkəblik, eyni zamanda, tarixi məskunlaşmanın əsas səbəblərindən birinə çevrilmiş, xüsusi ilə köçəri heyvandarlığın inkişafına zəmin yaratmış, Arazboyu düzənliklərdən qış, yüksək dağ çəmənliklərindən isə yay otlaqları kimi istifadə olunmuşdur. Qədim karvan yollarının buradan keçməsinin əsas səbəblərindən biri də məhz ərazinin landşaftlarının rəngarəngliyi, zənginliyi, optimal yem və təchizat təminatının mövcudluğu olmuşdur.

Arid-denudasion dağətəyi düzənliklərdə səhra-yarımsəhra boz, boz-qonur torpaqları üzərində şoranlıq, yovşanlıq, gəngizlik və efemer bitkiləri landşaftı miosenin və pliosenin, qismən pleystosenin dəniz gilləri üzərində inkişaf etmişdir. Dağ göllərinin bozqır landşaftlarında müxtəlif ot bitkiləri ilə yanaşı, dağ kserofit kol bitkilərini, eləcə də gəvən, yovşan, topalotu, daşdayana və s. müşahidə edilməkdədir. Daha yuxarıda orta dağlıq zonada yerləşən arid kolluqlar kompleksi ekocoğrafi xüsusiyyətlərinə görə arid meşələrə xeyli yaxındır. Bu kompleks dağlara doğru dağçəmən-çöl kompleksləri ilə təmas yaratmaqdadır. Vaxtı ilə geniş areala malik olan dağ meşə landşaftları, zaman-zaman, xüsusi ilə ilkin orta əsrlərdən başlayaraq antropogen təsirlərə məruz qalaraq öz sahəsini xeyli azaltmış, yalnız Biçənək, Xurs və Nürgüt kəndlərindən şimalda qorunub saxlana bilmişdir. Meşələrin əsas növ tərkibini şərq palıdı, yemişan, itburnu, armud və s. təşkil edir.

Naxçıvan Muxtar Respublikası ərazisinin dağ çəmənlikləri landşaftı, xüsusilə subalp çəmənlikləri biokütlənin miqdarı və növ zənginliyinə görə fərqlənir. Rütubətli senozlarda ot örtüyünün boyu 1 m-ə çatır, bəzi yerlərdə isə daha yüksək olur. Bu cür yerlərdə quru kütlənin orta qiyməti 50 s/ha-dan artıq olur.

Ərazidə müasir nival-buzlaq kompleksləri ən uca zirvələri birləşdirən dar zolaq şəklində uzanır. Suayrıcıların dik, uçurumlu dağ yamacları və çay dərələri, geniş buzlaq sirkləri, karlar və troqlar landşaft üçün səciyyəvi relyef formalarıdır.

Burada torpaq və bitki örtüyünün tam inkişafı üçün əlverişli şərait yoxdur.

Muxtar respublikada landşaftın və onun ayrı-ayrı komponentlərinin qorunması üçün son zamanlar akademik H.Ə.Əliyev adına Ordubad Milli Parkı, "Şahbuz" və "Arpaçay" dövlət qoruqları, Arazboyu yasaqlıqları kimi dövlət tərəfindən mühafizə olunan ərazilər yaradılmışdır.

# I FƏSİL

## NAXÇIVAN QƏDİM DÖVRDƏ

**Arxeoloji mənbələr.** Naxçıvanın ərazisinin əlverişli təbii-coğrafi şəraiti burada insanların qədim dövrdən məskunlaşmasına imkan yaratmışdır. Naxçıvanın qədim tarixinin tədqiqində arxeoloji abidələr mühüm yer tutur. Bu abidələr hələ XIX əsrin 70-ci illərindən tədqiqatçıların diqqətini cəlb etmişdir. O, dövrdən keçən müddət ərzində Naxçıvanda xeyli arxeoloji abidə aşkar olunmuşdur. Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra abidələrimizin tədqiqi, qeydə alınması və qorunması sahəsində xeyli işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli sərəncamından sonra bu sahəyə diqqət daha da artırılmışdır. AMEA Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin əməkdaşları birlikdə apardığı məqsədyönlü tədqiqatlar nəticəsində muxtar respublika ərazisində 1200 tarix və mədəniyyət abidəsi qeydə alınmışdır ki, onların da əksəriyyəti arxeoloji abidədir. Arxeoloji abidələr Naxçıvanın qədim və Orta əsr tarixinin öyrənilməsi üçün dəyərli mənbədir. Bu abidələr Naxçıvanın qədim tarixini Daş dövründən başlayaraq izləməyə imkan verir. Muxtar respublika ərazisində qədim Daş dövrünə aid bir neçə daş alət və nukleuslar vardır. Belə tapıntılar Ovçulartəpəsindən və Şahtaxtı ərazisindən aşkar olunmuşdur. Naxçıvanda Daş dövrünün geniş tədqiqatlarla öyrənilmiş abidəsi Qazma mağarasıdır.

Daş dövrünün sonrakı mərhələsi kifayət qədər tədqiq edilməmişdir. Babək rayonunda yerləşən I Kültəpə abidəsinin alt təbəqəsi Neolit dövrünə aid edilmişdir. 2011-ci ildə aparılan araşdırmalar zamanı Sədərək yaşayış yerindən Neolit dövrünə aid daş toxa aşkar olunmuşdur [40, s. 15-18]. Naxçıvanda istehsal təsərrüfatının formalaşması və inkişafı, qədim mədəniyyətlərimizin Şərq ölkələri ilə əlaqələrinin öyrənilməsi üçün Neolit və Eneolit abidələrinin tədqiqinin olduqca mühüm əhəmiyyəti vardır. İndiyədək arxeoloji qazıntılarla yalnız I Kültəpə abidəsində Neolit dövrünün sonu və erkən Eneolit mədəniyyətinə aid maddi-mədəniyyət qalıqları öyrənilmişdir. Sirab ərazisində aparılan araşdırmalar zamanı xeyli Eneolit abidəsinin aşkar olunması bu dövrə aid abidələrin Naxçıvanda geniş yayıldığını göstərdi. Onu da qeyd etmək lazımdır ki, Cənubi Qafqazda qədim əkinçilik mədəniyyətlərinin öyrənilməsi məhz Naxçıvan Kültəpəsindən başlamışdır.

Eneolit dövrü abidələri arasında yalnız I Kültəpə və Ovçulartəpəsi geniş qazıntılarla öyrənilmişdir. Araşdırmalar e.ə.VI-IV minilliklərdə Naxçıvanda məskunlaşan qədim tayfaların məişətini, həyat tərzini, Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrini öyrənmək üçün zəngin material vermişdir. I Kültəpənin Eneolit təbəqəsindən aşkar olunan Xalaf tipli boyalı qab Naxçıvanın qədim sakinlərinin




***Daş və Eneolit dövrü abidələri***

Şimali Mesopotamiya ilə iqtisadi mədəni əlaqələrini göstərir [46, s. 188]. Bir qrup tədqiqatçılar arxeoloji materiallara əsaslanaraq müəyyən əhali qrupunun Şimali Mesopotamiyadan Naxçıvana gəldiyini söyləmişdir [71, s. 407]. Eneolit abidələrinin tədqiqi Mesopotamiyada formalaşan Ubeyd mədəniyyəti ilə olan əlaqələri də öyrənməyə imkan verir. Bu mədəniyyətin təsiri ilə Naxçıvanda boyalı keramika məmulatı ortaya çıxmışdır. Ovçulartəpəsində bir ədəd idxal malına da rast gəlinmişdir. Ovçulartəpəsindən [13, s. 11-15], Xələc [38, s. 31-86], Şortəpə [15, s. 156] və Uçan Ağıldan [12, s. 31-34] aşkar olunan boyalı keramikanın əksəriyyəti yerli istehsalın məhsuludur. Bu isə bəzi tədqiqatçıların iddia etdiyi kimi Eneolit mədəniyyətinin gətirilmədiyini, yerli istehsalın məhsulu olduğunu göstərir. Ovçulartəpəsində aparılan araşdırmalar Eneolit dövrünün sonunda Naxçıvanda yaşayan tayfaların iqtisadi-mədəni və sosial həyatında baş verən dəyişiklikləri izləmək üçün dəyərli nəticələr vermişdir. Araşdırmalar bu dövrdə ibtidai icma quruluşunun dağılma ərəfəsində olduğunu göstərir.

Arxeoloji tədqiqatlar zamanı Naxçıvan ərazisində Erkən Tunc dövrünə aid I Kültəpə, II Kültəpə, Ovçulartəpəsi, I Maxta Kültəpəsi, II Maxta Kültəpəsi, Şortəpə, Sədərək və onlarla digər yaşayış yerləri, Dizə nekropolu, Qarabulaq nekropolu, Plovdağ nekropolu və Xornu nekropolu kimi qəbir abidələri tədqiq edilmişdir. Erkən Tunc dövrü abidələrindən aşkar olunmuş arxeoloji mədəniyyət Kür-Araz mədəniyyəti adlandırılmışdır. Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrinin tədqiqi bu mədəniyyətin mənşəyi, xronologiyası və inkişaf xüsusiyyətləri ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirmişdir. Qafqaz, o cümlədən Azərbaycan arxeologiyasında mübahisəli olan bu məsələnin aydınlaşdırılmasında Naxçıvan abidələrinin müstəsna əhəmiyyəti olmuşdur. Ovçulartəpəsi yaşayış yerinin tədqiqi zamanı arxeoloji ədəbiyyatda "Proto Kür-Araz keramikası" adlandırılan mədəniyyət aşkar olunmuş və bu tapıntılardan sonra I Maxta Kültəpəsi, Ərəbyengicə, Xələc, Sədərək və digər abidələrdən aşkar olunan, Kür-Araz mədəniyyətinin formalaşma dövrünə aid materialları dəyərləndirmək mümkün olmuşdur. Tədqiqatların nəticələri Naxçıvanın Kür-Araz mədəniyyətinin formalaşdığı əsas regionlardan biri olduğunu göstərir.

Orta Tunc dövrünə aid arxeoloji abidələrin tədqiqi bu dövrdə Naxçıvanın Urmiya hövzəsi daxil olmaqla Azərbaycanın cənubu və Şərqi Anadolu ilə vahid iqtisadi-mədəni rayona daxil olduğunu göstərir. Bu dövrdə Naxçıvan boyalı qabları ilə fərqlənən Orta Tunc dövrü mədəniyyətinin mərkəzinə çevrilir. İqtisadiyyatın, xüsusilə sənətkarlıq və ticarətin inkişafı şəhər tipli yaşayış yerlərinin və şəhər dövlətlərin formalaşması ilə nəticələnir. Naxçıvan ərazisindəki arxeoloji abidələr Yaxın Şərqdə formalaşan Orta Tunc dövrü mədəniyyətinin bir sıra xarakterik cəhətlərini müəyyən etməyə imkan verir. Orta Tunc dövründə Yaxın Şərqdən fərqli olaraq Naxçıvanda oturaq həyat fasiləyə uğramada davam edir və qala tipli yaşayış yerləri meydana çıxır [44, s. 15-20]. Bunlar arasında II Bəzəkli qalası, Göynük qalası, Qazançıqala, Qızqalası, Qurddağ qalası strateji cəhətdən əlverişli mövqedə yerləşmiş yaşayış yerləridir. Bu tip abidələr cəmiyyətin iqtisadiyyatında və ictimai quruluşunda meydana gələn dəyişiklikləri izləməyə imkan verir.

Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrünə aid arxeoloji abidələri bu dövrdə Azərbaycanın cənub rayonlarında baş verən sosial-mədəni prosesləri, habelə şimal və cənub rayonları arasındakı iqtisadi-mədəni əlaqələri öyrənmək baxımından əhəmiyyətlidir. Araşdırmalar Son Tunc dövründə Naxçıvanda boyalı qablarla xarakterizə edilən mədəniyyətin davam etdiyini, eyni zamanda Azərbaycanın şimal rayonlarında yayılan Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan xüsusiyyətlərin bu əraziyə daxil olduğunu göstərir. Naxçıvan və Xudafərin ətrafında aparılan araşdırmalar Xocalı-Gədəbəy mədəniyyətinin Azərbaycanın cənubuna doğru yayıldığını göstərir. Fikrimizə görə bu, e.ə. II minilliyin sonu və I minilliyin əvvəlində Azərbaycanın cənub rayonlarında baş verən siyasi dəyişikliklər, o cümlədən yerli tayfaların xarici işğal təhlükəsinə qarşı birləşməsi prosesi ilə bağlı

olmuşdur. Bu dövrdə Naxçıvan ərazisində I Kültəpə, II Kültəpə, Şahtaxtı, Sədərək, Xələc, Şortəpə kimi iri yaşayış yerləri mövcud olmuşdur. Orta Tunc dövründə olduğu kimi bu dövrdə də qala tipli yaşayış yerləri mövcud olmuşdur. Əhali müdafiə olunmaq üçün Orta Tunc dövrünün qalaları ilə yanaşı yeni qalalar da inşa etmişdir. Sədərəkqala, Oğlanqala, Çalxanqala bu tip abidələr sırasına daxildir.

Dəmir dövrünün inkişaf etmiş mərhələsinə aid abidələr bu dövrün siyasi və iqtisadi mənzərəsini aydınlaşdırmaq üçün ən dəyərli mənbələrdir. Bu dövrə aid tədqiq edilmiş abidələr başlıca olaraq Şərur və Ordubad rayonları ərazisindədir. Xaraba-Gilanda yerləşən Xalı-Keşan, Mərdangöl, Muncuqlutəpə nekropollarının materialları bu dövrün xarakteristikasını vermək üçün dəyərli mənbədir. Bu dövrün tarixini öyrənmək üçün ən dəyərli abidə Oğlanqala yaşayış yeridir. 2008-2011-ci illərdə Azərbaycan-Amerika ekspedisiyasının apardığı araşdırmalar zamanı Naxçıvan tarixinin öyrənilməsi üçün maraqlı faktlar aşkar olunmuşdur. Müəyyən olunmuşdur ki, Oğlanqala e.ə. IX-VI əsrlərdə Şərur düzündə meydana gələn kiçik bir şəhər dövlətin paytaxtı olmuş və Urartu işğalçılarına qarşı mübarizə aparmışdır. Şərur rayonunda Qarasuqala, I Qızqala, Kəngərli rayonunda Yurdçu sərdabəsindən də bu dövrə aid maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının ərazisində Antik dövr abidələri arxeoloji tədqiqatlarla geniş öyrənilməmişdir. Lakin arxeoloji tapıntılar bu dövr haqqında müəyyən məlumat əldə etməyə imkan verir.

Orta əsrlər dövrünün də arxeoloji abidələri az öyrənilmişdir. Lakin çoxsaylı arxeoloji materiallar yazılı mənbələrin Naxçıvan haqqında verdiyi məlumatları tamamlamağa imkan verir.

**Yazılı mənbələr.** Naxçıvanın qədim tarixi ilə bağlı olan yazılı mənbələr olduqca azdır. Arxeoloji mənbələrin araşdırılması Naxçıvanın qədim tarixinin Urmiya regionu ilə sıx bağlı olduğunu göstərir. Lakin Şumer, Assur və Akkad mənbələri başlıca olaraq Urmiya ətrafı bölgələr haqqında məlumat vermişlər [1, s. 98 ]. Urartu mənbələri də başlıca olaraq Azərbaycanın cənubu, xüsusilə Manna haqqında məlumat vermişdir. Naxçıvanda indiyədək üç qədim kitabə aşkar olunmuşdur. Bu kitabələrin biri –Culfa rayonunun Xoşkeşin kəndi yaxınlığındadır. Həmin kitabə Urartu hökmdarı Menuaya aid edilmişdir. Kitabənin mətni urartuların bu əraziyə basqınlar etdiyini göstərir. Lakin onlar bu ərazini işğal edərək möhkəmlənə bilməmişlər. Çünki indiyədək aparılan araşdırmalar zamanı Naxçıvanda Urartu abidələri qeydə alınmamışdır. İkinci kitabə Batabat yaylağında "Fərhad evi" adlı abidənin üzərində aşkar olunub. Tədqiqat zamanı müəyyən olunub ki, bu abidə heç də əvvəllər qeyd edildiyi kimi karvansara deyil, Dəmir dövrünün qəbir abidəsidir. Abidənin üzərindəki kitabə isə şübhəsiz ki, dəfn edilənin kimliyi ilə bağlı olmuşdur. Lakin kitabə aşınaraq oxunmaz hala düşdüyündən onun hansı hökmdara aid olduğunu müəyyən etmək mümkün olmamışdır [10, s. 86-87]. Üçüncü kitabə AMEA Naxçıvan Bölməsinin binası təmir edilərkən, binanın təməlində aşkar

edilmişdir. Üzərində kitabə olan və tikinti materialı kimi binanın tikintisində istifadə edilmiş daş kitabə assuriyaşünas mütəxəssislər tərəfindən tədqiq olunmuşdur. Onların fikrinə görə bu kitabə əsil yazı olmamışdır. Ehtimal ki, yerli tayfalar Urartu yazısını öz dillərinə uyğunlaşdırmaq üçün müəyyən cəhdlər etmişlər. Bunu Oğlanqaladan aşkar edilən tapıntılar da sübut edir. Oğlanqalada aparılan qazıntılar zamanı üzərində mixi yazı olan bir neçə keramika parçası aşkar olunmuşdur. Mütəxəssislərin müəyyən etdiyinə görə bu yazıların bəzisi gil qabların tutumunu bildirmişdir [94, s. 1-53]. Digərləri isə Urartu mixi yazısının yerli istifadəsi ilə bağlı olmuşdur. Araşdırmalar Naxçıvanda yaşayan qədim tayfaların Urartu yazısından istifadə edərək özlərinəməxsus yazı və hesab sistemi yaratdığını deməyə əsas verir.

**Etnoqrafik mənbələr.** Naxçıvanın qədim tarixi xalq içərisində yaşayan əfsanə və inanclarımızda əks olunmuşdur. Bu baxımdan Nuh tufanı ilə bağlı əfsanə xüsusilə diqqətəlayiqdir. Bu əfsanədə Mesopotamiyada yaşayan qədim əhalinin Azərbaycana, o cümlədən Naxçıvana miqrasiyası ilə bağlı faktlar maddiləşmişdir. Arxeoloji araşdırmalar bu əfsanənin müəyyən aspektlərinin doğru olduğunu təsdiq edir. Hazırda Azərbaycan arxeoloqları tərəfindən qədim Mesopotamiya sakinlərinin Azərbaycana miqrasiyası ilə bağlı müxtəlif konsepsiyalar irəli sürülmüşdür [66, s. 82; 87, s. 95-121; 28, s. 57-58]. Azərbaycan xalqının qədim tarixi haqqında dəyərli mənbə olan maddi-mədəniyyət nümunələrinin folklor nümunələri və etnoqrafik materiallarla müqayisəli şəkildə öyrənilməsi Vətənimizin qədim sakinlərinin ideoloji təsəvvürlərini, o cümlədən mifologiyasını öyrənməyə imkan vermişdir. Maddi-mədəniyyət nümunələrində dünyanın və insanın yaranışı, dünyanın quruluşu ilə bağlı təsəvvürlər əks olunmuşdur. Həyatın faniliyi insanlarda dirilik suyu, həyatın başqa dünyada davam etməsi, şər qüvvələrin insanların həyatındakı sabitliyi pozması haqqında təsəvvürlərin yaranmasına səbəb olmuşdur. Dünyanın bir çox xalqlarında olduğu kimi Azərbaycan türklərinin də dünya haqqında təsəvvürləri müxtəlif olmuşdur. Bu təsəvvürlər mifoloji obraz və personajların fəaliyyəti ilə nə qədər mürəkkəbləşdirilsə də, insanları tarix boyu düşündürən bir fəlsəfəni - dünyanın yaranışı, həyat və ölüm anlayışlarını əks etdirmişdir. İnsanların dünyabaxışı bəzən animizm, ovsun və totemizmin sintezi şəklində qarşıya çıxsa da, bitkin bir təfəkkür tərzini əks etdirir. Bu təsəvvürlər etnoqrafik materiallarda və Azərbaycan folklorunda aydın şəkildə əks olunmuş, indiyədək qorunub saxlanmışdır [9, s. 5-33].

**Naxçıvanın arxeoloji tədqiqi.** Naxçıvan Muxtar Respublikasının qədim tarixi başlıca olaraq arxeoloji mənbələr əsasında öyrənilmişdir. Naxçıvan abidələrinin arxeoloji tədqiqinə XIX əsrin 70-ci illərindən başlanmışdır. Həmin illərdə dağmədən mühəndisi fon Koşkul qədim duz mədənlərindən daş çəkiclər aşkar etmiş və onları Peterburq Antropoloji muzeyinə vermişdir. Həmin illərdə Beyer tərəfindən aşkar olunan əmək alətlərinin bir qismi Peterburq və Tiflis muzeylərinə, bir qismi isə Naxçıvan şəhər məktəblərindən birinə verilmişdir. Naxçıvan şəhər məktəbinin

müfəttişi K.A.Nikitin əmək alətləri ilə tanış olmuş, onlardan qədim duz mədənlərində istifadə olunduğunu qeyd etmişdir.

1895-ci ildə Qafqazın arxeologiyası və etnoqrafiyası ilə məşğul olan P.N.Nadejdin tapıntılarla tanış olduqdan sonra onların duz çıxarmaq üçün istifadə olunduğunu qeyd etmişdir. Həmin ildə Qızılburun nekropolunun təsadüfən dağıdılması nəticəsində aşkar olunan arxeoloji materiallar bütün dünya alimlərinin diqqətini cəlb etmiş, 1896-cı ildə burada İmperator Arxeoloji Komissiyasının razılığı ilə N.V.Fyodorov [84, s. 3-15] arxeoloji tədqiqat aparmışdır. 1926-cı ildə A.A.Miller [73, s. 217] və İ.İ.Meşşaninovun [72, s. 217-240] rəhbərliyi ilə Naxçıvanda iki ekspedisiya işləmiş və kəşfiyyat xarkterli araşdırmalar aparılmışdır. Onlar Qızılburun nekropolunda bir neçə qəbir abidəsi tədqiq etmişlər.

1936-cı ildə Ə.K.Ələkbərov [51] Naxçıvana arxeoloji səfər təşkil etmiş, Şahtaxtı, Şortəpə və Oğlanqalada tədqiqatlar aparmışdır. 1951-ci ildə Naxçıvanın arxeoloji abidələrinin geniş araşdırılmasına başlanmışdır. O.H.Həbibullayev [46] 1951-1964-cü illərdə I Kültəpə yaşayış yerində araşdırmalar apararaq Naxçıvanın qədim tarixinin böyük bir dövrünü əhatə edən maddi mədəniyyət nümunələrini aşkara çıxararaq öyrənmişdir. Bu maddi mədəniyyət nümunələri e.ə. VII-I minillikləri əhatə edir. Bu abidənin tədqiqi ilə Cənubi Qafqazda ilk dəfə olaraq Eneolit mədəniyyəti aşkar olunaraq tədqiqata cəlb edilmişdir. 1968-ci ildən başlayaraq V.H.Əliyevin [21] rəhbərliyi ilə II Kültəpə abidəsinin tədqiqi də Naxçıvanın e.ə. IV-I minilliklərə aid tarixinin öyrənilməsi və qədim şəhər mədəniyyətinin üzə çıxarılması üçün mühüm əhəmiyyətə malikdir.

1960-1980-ci illərdə Naxçıvan ərazisində yüzlərlə abidə qeydə alınmış, onların bəzisində arxeoloji tədqiqatlar aparılmışdır. Bunlar arasında Qazma mağarası, Xaraba-Gilan, I Maxta Kültəpəsi, Şahtaxtı və Oğlanqalada aparılan tədqiqatlar Naxçıvanın qədim tarixinin öyrənilməsi ilə bağlı dəyərli material vermişdir. Qazma mağarasında aparılan araşdırmalar Naxçıvanın Son buzlaşma dövründə məskunlaşdığını, bəzi abidələrdən aşkar edilən tapıntılar isə qədim daş dövründən məskunlaşdığını deməyə əsas verir.

1992-1995-ci illərdə Naxçıvanın bir qrup arxeoloji abidəsi haqqında araşdırmalar toplu halında nəşr edilmişdir. Naxçıvan abidələrinin tədqiqində O.H.Həbibullayev, V.H.Əliyev, Ə.K.Ələkbərov, Q.M.Aslanov, S.M.Qaşqay, B.İ.İbrahimov, V.B.Baxşəliyev, A.Q.Seyidov, S.H.Aşurov, Q.H.Ağayev, Ə.İ.Novruzlu, N.Ə.Müseyibli, Ə.Q.Cəfərov, Ə.H.Bədəlov və digər arxeoloqların böyük əməyi olmuşdur.

1991-ci ildə Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Azərbaycan, o cümlədən Naxçıvan abidələrinin öyrənilməsində yeni mərhələ başlanmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tövsiyyəsi ilə Azərbaycan tarixi milli konsepsiya əsasında yenidən işlənmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun arxeoloji abidələrin öyrənilməsinə qayğısı bu sahədə mühüm

işlərin görülməsinə səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və sərəncamlarına uyğun olaraq Nuh peyğəmbərin qəbirüstü abidəsi arxeoloji tədqiqatlar nəticəsində aşkar olunaraq bərpa edilmişdir. Nuh peyğəmbər və dünya tufanı ilə bağlı beynəlxalq simpozium keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2001-2005-ci illərdə Gəmiqaya abidəsinə arxeoloji səfər təşkil edilmiş, minlərlə qayaüstü təsvir qeydə alınmışdır [9; 27]. Ali Məclis sədrinin sərəncamı əsasında 2006-2007-ci illərdə Naxçıvanın tarix və mədəniyyət abidələri qeydə alınaraq pasportlaşdırılmış və tədqiqatların yekunları ilə bağlı "Naxçıvan abidələri ensiklopediyası" çap olunmuşdur [29].

Dövlət qayğısının nəticəsidir ki, hazırda Naxçıvanda bir neçə arxeoloji ekspedisiya, o cümlədən iki beynəlxalq ekspedisiya fəaliyyət göstərir. AMEA Naxçıvan Bölməsinin ABŞ-ın Corciya, Pensilvaniya, Emori Universitetləri və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu ilə birlikdə təşkil etdiyi "Naxçıvan Arxeoloji Proyekti" adlı ekspedisiya II Kültəpə, I Maxta Kültəpəsi və Oğlanqala yaşayış yerlərində araşdırmalar aparmışdır. 2008-2012-ci illərdə Oğlanqalada aparılan tədqiqatlar Naxçıvan tarixinin öyrənilməmiş səhifələrini üzə çıxarmağa imkan vermişdir. Araşdırmalar e.ə. IX-VI əsrlərdə Oğlanqalanın müstəqil dövlətin mərkəzi olduğunu və urartulara qarşı müvəffəqiyyətlə mübarizə apardığını göstərir [57, s. 12-15]. Arxeoloji tapıntılar göstərir ki, bu dövrdə Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının Naxçıvanda məskunlaşması və Naxçıvan tayfalarının Göyçə ətrafındakı Etiuni tayfaları ilə ittifaq yaratması onun yadelli işğalçılara müqavimət göstərməsinə imkan yaratmışdır. Arxeoloji dəlillərə əsasən demək olar ki, e.ə. IV əsrdə Oğlanqala Atropatena dövlətinin əsas əyalət mərkəzlərindən biri olmuşdur [35, s. 39-65].

2006-2012-ci illərdə Ovçulartəpəsində aparılan araşdırmalar e.ə. V-III minilliklərdə Naxçıvanda yaşayan tayfaların həyat tərzini öyrənməyə imkan vermiş, Proto Kür-Araz mədəniyyətinin varlığı ortaya çıxarılmış, Kür-Araz mədəniyyətinin Son Eneolit mədəniyyətindən qaynaqlanaraq inkişaf etdiyi müəyyən olunmuşdur. Ovçulartəpəsində aşkar olunan arxeoloji materialların kompleksi onu "Ovçulartəpəsi mədəniyyəti" adlandırmağa imkan vermişdir. Ovçulartəpəsində aşkar olunan, üzərində qabarıq keçi və qoyun təsvirləri olan gil qablar Naxçıvanda professional təsviri sənətin səkkiz min il tarixi olduğunu təsdiq etmişdir.

2008-2012-ci illərdə Xaraba-Gilan, Xələc, Ərəbyengicə, I Maxta Kültəpəsi, Sirab və digər abidələrdə aparılan arxeoloji araşdırmalar zamanı yerli mədəniyyətlərin inkişaf xüsusiyyətləri ilə bağlı və Naxçıvan tarixinin Qədim Şərq ölkələri ilə əlaqələrinə dair xeyli yeni faktlar aşkar olunmuşdur.

**Qədim daş dövrü.** Naxçıvan ərazisində Daş dövrü yaxşı öyrənilmədiyindən onun bütün inkişaf mərhələlərini ardıcıllıqla izləmək mümkün olmamışdır. Lakin Naxçıvan Muxtar Respublikasının əlverişli təbii-coğrafi şəraiti qədim daş dövründən insanların burada məskən salmasına şərait yaratmışdır. Naxçıvandakı

bir sıra karst mağaralarında, o cümlədən Qara Zağa, Damlama, Qazma və digərlərində arxeoloji araşdırmalar aparılmışdır.

Arxeoloji araşdırmalar zamanı Kəngərli rayonunda Şahtaxtı yaşayış yerində və Şərur rayonunda Ovçulartəpəsi yaşayış yerində Daş dövrünə aid alətlər aşkar olunmuşdur. Bu alətlərin üçü xüsusi ilə diqqəti cəlb edir. Alətlər çay daşından hazırlanmışdır. Onların biri bir tərəfdən ağız kənarından mərkəzə doğru qəlpələnmə üsulu ilə hazırlanmışdır. Eyni texnika ilə hazırlanan digər daş alətlər hər iki üzdən qəlpələnmişdir. Bu alətlər Naxçıvanda insanların qədim Daş dövründən məskunlaşdığını təsdiq edir.

Qazma mağarasındakı tədqiqatlar xüsusilə dəyərli elmi nəticələr vermişdir. Mağarada qalınlığı 3 m olan altı mədəni təbəqə aşkar olunmuşdur [60, s. 270-274]. Bu təbəqələrin üçündən – IV, V, VI təbəqələrdən osteoloji materiallar, ocaq yerləri və Müstye mədəniyyətinə aid daş alətlər aşkar edilmişdir. Altıncı təbəqə maddi-mədəniyyət qalıqları ilə xüsusilə zəngin olmuşdur. Bu təbəqədə aşkar olunan ocaqların ağzı mağaranın içərisinə yönəldilmiş vəziyyətdə olmuşdur. Əmək alətlərinin hazırlanmasında əsasən obsidian [92,7%], qismən isə çaxmaqdaşı [21 ədəd] və daşlı şistdən [5 ədəd] istifadə edilmişdir. Yerli daş növlərindən hazırlanan əmək alətləri əsasən itiuclulardan və qaşovlardan ibarətdir. Xeyli miqdarda istehsal tullantısının – nukleus, qəlpə, obsidian və çaxmaqdaşı parçalarının aşkar edilməsi göstərir ki, daşın ilkin emalı mağarada olmuşdur.

Abidənin dördüncü təbəqəsindən daş alətlərlə bərabər sümük alətlər də tapılmışdır. Biz, bıçaq, kəsici və oyuculardan ibarət olan bu alətlər heyvanların parçalanmış lülə sümüklərindən hazırlanmışdır.

Qazma mağarasından aşkar edilmiş əmək alətləri Cənubi Qafqaz və Yaxın Şərqin Musye dövrünə aid həmdövr abidələrindən aşkar olunmuş əmək alətləri ilə bənzərdir. Arxeoloji materialların öyrənilməsi göstərir ki, mağarada məskən salan qədim insanların əsas məşğuliyyəti ovçuluq olmuş, yığıcılıq təsərrüfatda ikinci dərəcəli rol oynamışdır. Dördüncü təbəqənin arxeoloji materiallarında Üst Paleolit dövrü üçün xarakterik əlamətlərin izlənməsi qədim Qazma sakinlərinin qəbilə icmalarının yaranması ərəfəsində olduğunu göstərir.

Neolit dövrü Naxçıvanda e.ə. VII minilliyi əhatə edir. Araşdırmalar zamanı keramikasız Neolitə aid maddi-mədəniyyət qalıqları aşkar edilməmişdir. Naxçıvanın Neolit mədəniyyəti Yaxın Şərq ölkələrinin həmdövr mədəniyyəti ilə bir sıra ortaq xüsusiyyətlərə malik olmaqla yalnız keramikalı Neolit mərhələsini əks etdirir. I Kültəpənin “1a” təbəqəsindən əldə olunan maddi-mədəniyyət qalıqları Neolit dövrünün son mərhələsini izləməyə imkan vermişdir. Bu dövrdə daşın işlənmə texnikası inkişaf etmiş, qədim insanlar daşı cilalamağı və deşməyi öyrənmişdir. İnsanlar oturaq həyata keçmiş, istehsal təsərrüfatını mənimsəmişdir. I Kültəpədən aşkar olunan tikinti qalıqları Neolit dövründə insanların dördkünc formalı evlərdə yaşadığını, başlıca olaraq əkinçilik və maldarlıqla məşğul olduğunu göstərir [46, s.

37-39]. Qəbilənin təsərrüfat ehtiyaclarının ödənilməsində ovçuluğun da müəyyən rolu olmuşdur [46, s. 313]. Yaşayış binalarının döşəməsi saman qatılmış gillə suvanmış, evlərin qızdırılmasında dairəvi formalı ocaqlardan istifadə edilmişdir. Bəzi evlərin döşəməsində qamışdan toxunmuş həsir qalıqları saxlanmışdır. Bu dövrdə yaşayış yerində və evlərin döşəməsində dəfn etmə adəti mövcud olmuşdur. Dəfnlər tək və cüt olmuş, qəbirlərə əmək alətləri və bəzək əşyaları qoyulmuşdur. Skeletlərin bəzisi oxra ilə boyanmışdır [46, s. 38-40].

I Kültəpənin "1a" təbəqəsindən aşkar olunmuş oraq dişləri, obsidian plastinkalar, maral buynuzundan hazırlanmış oraq çərçivəsi əkinçilik mədəniyyətinin xeyli inkişaf etdiyini göstərir [46, s. 39]. Əkinçilik və maldarlıqla yanaşı ev sənətkarlığının digər sahələri, o cümlədən toxuculuq, dulusçuluq, daş və sümük işləmə də inkişaf etmişdi.

**Mis – daş dövrü (Eneolit).** Eneolit dövrü e.ə. VI-IV minillikləri əhatə edir. Bu dövrdə mis emalının və metalişləmənin əsası qoyulmuşdur. Misə süni aşqarlar qatılması texnologiyanın mənimsənilməsi texniki biliklərin yüksək inkişaf səviyyəsində olduğunu təsdiqləyir. Naxçıvanın mis yataqları ilə zəngin olması və bu ərazidə mis külçəsinə rast gəlinməsi mis emalının erkən meydana gəlməsi və inkişafı üçün şərait yaratmışdır. Eneolit dövründə iqtisadiyyatın inkişafı əhali artımına səbəb olmuş, yaşayış üçün əlverişli olan yeni ərazilər mənimsənilmişdir. Naxçıvanda Eneolit mədəniyyəti Daş dövrünə nisbətən daha geniş öyrənilmişdir. Bu dövrə aid I Kültəpə, Ovçulartəpəsi [13], Sədərək [40], Xələc [38], Ərəbyengicə [39] və digər abidələr qeydə alınmışdır. Son illər Babək rayonunun Sirab kəndi yaxınlığında aparılan araşdırmalar zamanı 17 Eneolit abidəsi aşkar olunmuşdur [70].

I Kültəpə yaşayış yerində aparılan araşdırmalar Eneolit mədəniyyətinin müxtəlif mərhələlərini izləməyə imkan vermişdir [46, s. 36-38]. Araşdırmalar təsdiq edir ki, Naxçıvanın Eneolit mədəniyyəti Urmiya hövzəsi və Mesopotamiyanın qədim mədəniyyətləri ilə iqtisadi mədəni əlaqələr şəraitində inkişaf etmişdir [46, s. 72-78]. I Kültəpənin erkən mərhələsində meydana gələn düzbucaqlı evlər Əliköməktəpə və İlanlıtəpənin bənzər tikintiləri kimi Urmiya hövzəsinin qədim arxitekturası ilə bağlıdır [76, s. 162]. Neolit və Eneolit dövrünə aid düzbucaqlı tikintilərə Urmiya hövzəsində Hacı-Firuz, Yanıqtəpə və Göytəpədə təsadüf edilmişdir. Keramika məmulatı və əmək alətlərinin bənzərliyi I Kültəpə, Pijdəlitəpə, Göytəpə, Tilkitəpə kimi abidələrin eyni mədəni rayona daxil olduğunu göstərir [46, s. 190]. I Kültəpənin Eneolit mədəniyyətinin Xalaf-Ubeyd mədəniyyəti ilə bağlılığı boyalı keramika və arxası üstə uzadılmış skeletlərin aşkar olunması ilə də təsdiq olunur. Belə qəbirlər I Kültəpədə 20,8 m. dərinlikdən başlayaraq müxtəlif dövrlərə aid tikinti qatlarından aşkar edilmişdir [46, s. 40-46]. Bu qəbirlərin birindən Mesopotamiyadan gətirildiyi təsdiq edilən boyalı çölmək aşkar olunmuşdur. Son Eneolit mədəniyyətinin təşəkkülündə Ubeyd tayfalarının xüsusilə böyük rolu olmuşdur. Arxeoloji abidələrin tədqiqi nəticəsində Ubeyd tayfalarının Azərbaycan

ərazisində yayılması ilə bağlı xeyli maddi dəlil ortaya çıxarılmışdır [77, s. 271-277]. Urmiya hövzəsində yayılan Eneolit dövrünə aid boyalı keramikanın Şimali Ubeydin lokal variantı olması [71, s. 21], Urmiya hövzəsinin qədim əkinçilik mədəniyyətinin formalaşmasında Şimali Mesopotamiyadan gələn tayfaların müəyyən rol oynadığını təsdiq edir. Ubeyd tayfaları Urmiya hövzəsindən bir neçə istiqamətdə Azərbaycan ərazisinə yayılmışdır. Şübhəsiz ki, bu miqrasiyalar Naxçıvanı da əhatə etmişdir. Məlum olduğu kimi, Ubeyd mədəniyyəti protoşumerlərə və şumerlərə aid edilmişdir [11, s. 17]. Şumer dili hind-avropa dilləri ilə qohum olmamış, onun türk dilləri ilə bağlı olmasına dair inkaredilməz dəlillər aşkar olunmuşdur [1, s. 83-85]. Bu mədəniyyət üçün xarakterik olan arxasıüstə uzadılmış skeletlərin Mesopotamiyada yayılması şumerlərin gəlişi ilə əlaqələndirilir [85, s. 190]. I Kültəpədən aşkar olunmuş skeletlərin tədqiqi onların antropoloji cəhətdən müasir azərbaycanlılarla oxşar olduğunu göstərmişdir [17, s. 22]. Mesopotamiya mənşəli boyalı keramikanın yalnız iqtisadi-mədəni əlaqələr nəticəsində deyil, həm də müəyyən əhali qrupunun, daha doğrusu, şumerlərin Naxçıvan ərazisinə gəlməsi ilə gətirildiyini söyləmək olar. Arxasıüstə uzadılmış qəbirlərin I Kültəpənin müxtəlif tikinti qatlarından aşkar olunması, bu tayfaların Naxçıvanda uzun müddət məskunlaşdığını təsdiq edən faktlardan biridir. Mesopotamiya sivilizasiyasının müəyyən nailliyyətlərinin mənimsənilməsi iqtisadiyyatın inkişafına, əhalinin daha geniş ərazilərə yayılmasına səbəb olmuşdur. Azərbaycanın cənub rayonları, o cümlədən I Kültəpə üçün xarakterik olan samanlı keramikanın Cənubi Qafqaz abidələrində yayılması qədim tayfaların cənubdan şimala doğru hərəkəti ilə bağlı olmuşdur. Urmiya hövzəsi və Naxçıvan üçün xarakterik olan Eneolit mədəniyyətinin indiki Ermənistan ərazisində yerləşən Mahaltəpə, Xatunarx, Texut, Kültəpə və digər abidələrdə izlənilməsi onların vahid etnik-mədəni rayona daxil olduğunu təsdiq edir.

Son illərin araşdırmaları zamanı Ovçulartəpəsindən aşkar olunan heyvan sümüyü qalıqlarının tədqiqi bu heyvanların vaxtilə qədim əkinçilik mədəniyyətlərinin ardınca Naxçıvana gəldiyini təsdiq edir. Lakin heyvanlar müəyyən dəyişikliyə uğrayaraq yerli şəraitə uyğunlaşmış və İkiçayarasında yaşayan əcdadlarından bir qədər fərqlənmişlər. Araşdırmalar bu heyvanların təqribən e.ə. VIII-VII minilliklərdə qədim əkinçilik mədəniyyətlərinin ardınca bu əraziyə yayıldığını göstərir [92, p. 80]. Ümumiyyətlə, son illər artan faktlar İkiçayarasının qədim əkinçilik mədəniyyətlərinin Cənubi Qafqaz, o cümlədən Naxçıvan ərazisində formalaşan mədəniyyətlərə müəyyən təsir etdiyini təsdiq edir. Bu təsir müəyyən istehsal sahələrinin inkişafını stimullaşdırmışdır. Belə nəticəyə gəlmək olar ki, Naxçıvan abidələrində yayılan boyalı keramika, o cümlədən Xələc boyalı keramikası Cənub mədəniyyətlərinin, xüsusilə Ubeyd mədəniyyətinin təsiri ilə ortaya çıxmışdır. Araşdırmalar göstərir ki, İkiçayarası tayfalarının Naxçıvanla iqtisadi-mədəni əlaqələrini gücləndirən əsas faktorlardan biri bu ərazinin təbii sərvətləri, xüsusilə mis yataqları olmuşdur.

Sirab ətrafında qeydə alınan Zirincli, Uçan Ağıl və digər yaşayış yerlərində mis filizinin minerallarına rast gəlinməsi, Zirincli yaşayış yerində isə mis baltalar tökmək üçün qəlibin aşkar olunması bunu bir daha təsdiq edir. Demək olar ki, Eneolit mədəniyyətinin Naxçıvanda yayılmasında və İkiçayarası ilə iqtisadi-mədəni əlaqələrin güclənməsində xammal ehtiyatlarına təlabatın artması da müəyyən rol oynamışdır. Bununla belə Naxçıvanın qədim əkinçilik mədəniyyətlərinin cənubdan gətirildiyi nəticəsinə gəlmək olmaz. Şübhəsiz ki, yerli mədəniyyətə təsir göstərsələr də onlarla qaynayıb qarışmış, vahid etnos halında formalaşmışdır.

Eneolit dövründə Naxçıvanın qədim sakinləri əsasən oturaq həyat sürmüş, dördkünc və dairəvi formalı evlərdə yaşamışlar. Evlərin döşəməsi saman qarışıq gillə suvanmış, onların qızdırılmasında dördkünc və dairəvi formalı sobalardan istifadə edilmişdir. I Kültəpənin XII tikinti qatında aşkar olunan tapıntılar yaşayış binalarının yaxınlığında qurulan mətbəx ocaqlarından da istifadə edildiyini göstərir [46, s. 31].

I Kültəpənin tədqiqi Eneolit evlərinin sadə daxili interyerə malik olduğunu göstərir. Evlərin içərisində və onların ətrafında təsərrüfat məqsədilə istifadə olunan müxtəlif qurğular olmuşdur. Ərzaq ehtiyyatı taxıl quyularında, yaxud təsərrüfat küplərində saxlanmışdır. Evlərin həyətində və təsərrüfat tikintilərinin ətrafında daş döşəmələrdən istifadə edilmişdir ki, bu da Eneolit tayfalarının dövrünə görə yüksək mədəni həyat səviyyəsinə malik olduğunu təsdiq edir.

I Kültəpənin VIII tikinti qatında aşkar olunan tikinti qalıqları, ritual məqsədlə istifadə olunan ocaqlar ev kultunun varlığını, yaşayış yerində ziyarətgahların olduğunu göstərir [46, s. 28]. Ön Asiya, o cümlədən Şərqi Anadolunun Neolit və Eneolit mədəniyyətləri üçün xarakterik olan ev ziyarətgahlarının interyeri yaşayış evlərindən o qədər də fərqlənməmişdir.

Son Eneolit dövründə dördkünc formalı təkotaqlı yarımqazma və dördkünc formalı çoxotaqlı evlərdən istifadə olunmuşdur.

Naxçıvan ərazisinin yumşaq və mülayim iqlimi, bu ərazinin yabanı bitən yumşaq buğda, bərk buğda, çovdarla zəngin olması [75, s. 55] əkinçilik mədəniyyətinin erkən meydana gəlib inkişaf etməsi üçün şərait yaratmışdır. I Kültəpədən aşkar olunmuş yumşaq buğda (Triticum sativum), şarşəkilli buğda (Triticum steriococum), cırtdan buğda (Triticum kompactum Hest), qılçıqsız arpa (Hordeum Sativum), butulkaşəkilli arpa (Hordenm Lagun culiforme) növləri əkinçiliyin müəyyən inkişaf səviyyəsində olduğunu göstərir [46, s. 211]. Arxeoloji qazıntılar zamanı əkinçiliklə bağlı əmək alətlərinin, xüsusilə toxalar, dən daşları, sürtkəclər, həvənglər, dəstələr və digər alətlərin aşkar olunması əkinçilik məhsullarının yaşayış yerində emal olunduğunu təsdiq edir. Əkinçilik mədəniyyətinin yüksək inkişaf səviyyəsi həmçinin buynuzdan hazırlanmış oraq çərçivəsi və çoxsaylı oraq dişləri ilə də sübut olunur. Oraq dişləri və bıçaqşəkilli alətlər həm yaşayış evlərindən, həm də qəbir abidələrindən aşkar olunmuşdur [46, s. 39-51]. Çoxsaylı əmək alətləri və becərilən bitkilərin

çeşidləri Naxçıvanda əkinçiliyin başlanğıc mərhələdə olmadığını təsdiq edir [46, s. 236]. Yaşayış yerlərinin çay kənarlarında, əlverişli mövqelərdə yerləşməsi nəinki dəmyə, həm də suvarma əkinçiliyi üçün əlverişli olmuşdur. Ovçulartəpəsinin tədqiqi Son Eneolit dövründə əhalinin başlıca olaraq arpa əkdiyini göstərir. Buğda olduqca az əkilmiş və buğdaya olan tələbatın bir qismi mübadilə vasitəsi ilə ödənilmişdir [92, 53-80]. Şübhəsiz ki, Eneolit dövründə əmək alətləri kifayət qədər təkmil olmadığından geniş əraziləri mənimsəmək və suvarma əkinçiliyini inkişaf etdirmək mümkün olmamışdır.

Kültəpənin Eneolit təbəqəsindən həm yabanı, həm də mədəni taxıl dənlərinin tapılması Naxçıvanın Cənubi Qafqazda dənli bitkilərin becərildiyi ilk ocaqlardan biri olduğunu göstərir [46, s. 211].

Eneolit dövründə iqtisadiyyatın aparıcı sahələrindən biri də maldarlıq olmuşdur. Eneolit dövrünün əvvəllərinə aid sümük qalıqlarının analizi iri buynuzlu maldarlığın təsərrüfatda əsas yer tutduğunu göstərir [46, s. 214]. Tədqiqatçıların fikrinə görə, bu dövrdə iqlimin mülayim və rütubətli olması iri buynuzlu maldarlıq üçün daha əlverişli şərait yaratmışdır [79, s. 173]. Son Eneolitdə maldarlıqda əsas yeri xırdabuynuzlu heyvanlar tutmuşdur [68, s. 18-19]. İnsanların həyatında köçmə maldarlığın müəyyən rolu olmuşdur. Ovçulartəpəsindən aşkar olunan obsidianların analizi onların başlıca olaraq Göyəm dağlarından gətirildiyini təsdiq edir. Sirab ətrafında Eneolit dövrünə aid mövsümi yaşayış yerlərinin aşkar olunması [15, s. 7-20] Eneolit dövrünün erkən və orta mərhələsindən başlayaraq yarımköçəri maldarlığın inkişaf etdiyini deməyə əsas verir.

Naxçıvanda yerləşən qədim tayfaların mədəni inkişafını göstərən faktlardan biri də metallurgiyanın meydana gəlməsi və inkişafıdır. I Kültəpənin Eneolit təbəqəsindən mis külçəsindən hazırlanmış əmək aləti aşkar olunmamışdır. Ehtimal ki, bu dövrdə metal yüksək qiymətləndirildiyi üçün təkrar emal olunmuşdur. Bu isə metal əşyaların az tapılmasının əsas səbəblərindən biridir. Lakın I Kültəpədən aşkar olunmuş metal əşyaların tədqiqi Eneolit dövründə iqtisadi tərəqqinin yüksək inkişaf səviyyəsində olduğunu sübut edir.

Eneolit dövrü metal əşyaların hazırlanmasında istifadə olunan ərintiləri üç tipə bölmək olar. Birinci tipə təmiz misdən, ikinci tipə mis-arsen ərintisindən hazırlanan əşyalar daxildir. Üçüncü tip mis-arsen-nikel ərintisi ilə təmsil edilmişdir.

Məlum olduğu kimi, mis-nikel ərintiləri Yaxın Şərq ölkələri üçün xarakterik olmuşdur. Tədqiqatçıların fikrinə görə, Cənubi Qafqazın nikel qarışığı olan əşyaları ya idxal olunmuş, ya da idxal olunmuş metal əsasında hazırlanmışdır.

Nikelə təbiətdə başlıca olaraq arsen və kükürdlə birləşmə halında rast gəlinir. Buna görə belə hesab edilir ki, mis-arsen-nikel ərintilərinin tərkibindəki nikel kupfernikel (NiAs) və arsen-nikel (Ni AsS) mineralları ilə bağlı olmuşdur. Bu minerallara arsen filizinin tərkibində çox təsadüf edilir. Bu, həm də onunla təsdiq olunur ki, mis-arsen-nikel ərintilərinin tətbiqi, arsenin misin əsas aşqarlayıcı

komponenti kimi aradan çıxması ilə kəsilmişdir. İ.R.Səlimxanov apardığı tədqiqatlara əsaslanaraq belə hesab edir ki, o dövrdə insanlar nikel metalı ilə tanış olmamışdır. Lakin nikelli tuncun bəzi xüsusiyyətlərinə bələd olan metallurq əritmə prosesində xəlitəyə nikelli filizi də əlavə etmişdir [81, s. 58].

I Kültəpənin birinci təbəqəsindən aşkar olunan metal əşyalar dövrünə görə olduqca inkişaf etmiş metallurgiyanın məhsuludur. Odur ki, aşkar olunan əşyalar mis metallurgiyasının erkən mərhələsini deyil, inkişaf etmiş mərhələsini təmsil edir. I Kültəpədən aşkar olunan metal əşyaların tədqiqi onların yerli istehsalın məhsulu olduğunu göstərmişdir. Bunu Ovçulartəpəsindən aşkar olunan metal əşyalar da təsdiq edir. Son Eneolit dövrünə aid qəbirlərin birindən tökmə üsulu ilə hazırlanmış üç ədəd təkmil baltanın, Ovçulartəpəsində körük ucluğunun tapılması, Zirinclidən isə, yastı baltalar tökmək üçün qəlibin aşkar olunması yerli istehsalın formalaşmasını təsdiq edir.

Dünyanın ən böyük arsen yataqlarından biri olan Darıdağ yatağının Naxçıvanda yerləşməsi mis-arsen metallurgiyasının yerli zəmində meydana gəlib inkişaf etməsini təmin edən əsas faktorlardan biri olmuşdur. Bu dövrdə misə süni aşqarlar qatılması texnologiyasının mənimsənilməsi texniki biliklərin yüksək inkişaf səviyyəsində olduğunu təsdiqləyir. Metallurgiya və metalişləmənin yüksək inkişafı iqtisadiyyatın digər sahələrinin ahəngdar inkişafı ilə təmin edilmişdir. Cənubi Qafqazın Eneolit abidələrindən, o cümlədən I Kültəpənin Eneolit təbəqəsindən aşkar olunan tapıntılar Kür-Araz mədəniyyəti dövründə inkişaf edən mis-arsen metallurgiyasının əsasının məhz Eneolit dövründə qoyulduğunu göstərir.

Arxeoloji araşdırmalara əsasən demək olar ki, I Kültəpədə həmçinin toxuculuq, dulusçuluq, sümükişləmə, daşişləmə və ev sənətkarlığının digər sahələri inkişaf etmişdir.

Eneolit sakinlərinin əsas məşğuliyyət sahələrindən biri dulusçuluq olmuşdur. Müxtəlif formalı gil qablarla təmsil olunan dulusçuluq məmulatı qum və saman qarışığı olan gildən əldə hazırlanaraq bişirilmişdir. O.H.Həbibullayevin fikrinə görə, qabların bişirilməsində dulus kürələrindən istifadə olunmuşdur [46, s. 66]. Keramika məmulatı əsasən çəhrayı, bəzən isə boz və qara rəng arasında dəyişməkdə olan rəng tonları ilə təmsil olunmuşdur. Abidələrin araşdırılması göstərir ki, saman qarışıq keramika Naxçıvanda Neolit dövründən istehsal edilmişdir. Bu tip keramika I Kültəpədə aparılan araşdırmalar zamanı aşkar olunmuşdur. Qeyd etmək lazımdır ki, burada başlıca olaraq sarı və qırmızı rəngdə bişirilmiş keramika yayılmışdır. Bununla belə boz, qəhvəyi və qara rəngli keramikaya da rast gəlinmişdir. Saman qarışığı olan qırmızı rəngdə bişirilmiş keramika Naxçıvanda Son Eneolit dövrünədək davam etmişdir. Son Eneolit dövründə əvəlki dövrlərə nisbətən keramika məmulatının çeşidi artmışdır. Məlum olduğu kimi, Azərbaycan abidələrində, o cümlədən Naxçıvanda daraqşəkilli ornamentlə naxışlanmış keramika Son Eneolit dövründə meydana çıxır.

I Kültəpədən aşkar olunan arxeoloji materiallar yüksək inkişaf etmiş bir sosial həyatın varlığını sübut edir. Eneolit təbəqəsində aşkar olunan evlərin sahəsi 19 - 56 kv.m, diametri isə 5 - 8,5 m arasındadır. Düzbucaqlı binalar çox dağıntıya uğradığından onların ölçüləri tam müəyyən edilməmişdir [46, s. 24-36, 238]. Evlərin sahəsi orta hesabla 37,5 kv.m olmuşdur [46, s. 238]. Belə hesab etmək olar ki, I Kültəpənin tək otaqlı dairəvi evlərində cüt nikaha əsaslanan ailə, onların bəzilərində isə böyük ailələr yaşamışdır. Bu baxımdan arakəsmələrlə ayrılan bina diqqətəlayiqdir. Etnoqrafik materiallar dairəvi formalı evlərdə böyük ailələrin yaşadığını göstərmişdir. Cüt nikaha əsaslanan ailənin Neolit dövründə formalaşdığı araşdırmalarla sübut olunmuşdur [71, s. 102]. Belə hesab etmək olar ki, Eneolit dövründə cüt nikaha əsaslanan ailənin daha böyük kollektivlərdə birləşməsi prosesi getmişdir. Naxçıvanın Eneolit iqtisadiyyatının əsasını cüt nikaha əsaslanan və böyük kollektivlərdə birləşmiş ailələr təşkil etmişdir. Böyük ailələrin meydana gəlməsi istehsal səylərinin birləşdirilməsi ilə də bağlı ola bilərdi. Analoji faktlar Azərbaycanın digər abidələrinin də tədqiqi zamanı ortaya çıxarılmışdır [76, s. 165-166]. Erkən əkinçilik mədəniyyətlərində qadınlar yüksək mövqeyə sahib olsa da, texnikanın və təsərrüfatın inkişafı kişinin rolunu artırmışdır. Ehtimal ki, Eneolit dövrünün sonunda 5-7 nəfərlik üzvdən ibarət ailəyə kişi rəhbərlik etmişdir [76, s. 165].

I Kültəpənin Eneolit dövrünə aid qəbir abidələrinin müəyyən bir qismində qəbir avadanlığına rast gəlinməsi, digərlərində isə ona təsadüf olunmaması xüsusi mülkiyyətin mövcudluğunu ehtimal etməyə imkan verir [71, s. 158]. Ovçulartəpəsi yaşayış yerinin tədqiqi insanların sosial həyatında bərabərsizliyin meydana gəldiyini təsdiq edir. Bu həmçinin yaşayış yerindən aşkar olunan, zəngin qəbir avadanlığı ilə dəfn olunmuş uşaq qəbiri ilə də təsdiq olunur.

Arxeoloji abidələrin tədqiqi göstərir ki, Eneolit dövründə iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etməsinə baxmayaraq, əkinçilik və maldarlıq təsərrüfatda aparıcı mövqe tutmuşdur. Məhsuldarlığın artırılması, qorunması, habelə təbii stixiyalara qarşı mübarizə qədim insanların ideoloji təsəvvürlərinin formalaşmasında mühüm rol oynamışdır. Qonşu Şərq ölkələrindən fərqli olaraq Naxçıvan sakinlərinin dairəvi formalı evlərə üstünlük verməsi ehtimal ki, onların ideoloji təsəvvürləri ilə də bağlı olmuşdur. Azərbaycan xalqı arasında yayılan inanclara görə insanın ətrafına çəkilmiş dairə onu bəd ruhlardan qoruya bilərmiş [4, s. 170]. Göyəm dağlarındakı bəzi qayaüstü rəsmlərdə insanlar dairənin içərisində təsvir edilmişdir. Ehtimal ki, evlərin dairəvi formada tikilməsi insanların təbii stixiyadan, bəd qüvvələrdən qorunması ilə bağlı təsəvvürlərini əks etdirmişdir. Tədqiqatlar bu dövrdə Günəş və Ayla bağlı inancların yayıldığını göstərir. Bu inanclar Eneolit dövründən sonra da arxeoloji materiallarda aydın şəkildə izlənmişdir. Daim işıq mənbəyi və təbiətin məhsuldar qüvvələrinin başlanğıcı olan Günəş insanlar tərəfindən ilahiləşdirilmiş sitayiş obyektinə çevrilmişdir.

Naxçıvanın qədim sakinlərinin dünyagörüşü ilə bağlı ən dəyərli materiallar qəbir abidələrinin tədqiqi zamanı aşkar olunmuşdur. Bu dövrə aid qəbir abidələri yalnız I Kültəpənin Eneolit təbəqəsindən aşkar olunmuşdur. Qəbir avadanlığı başlıca olaraq bəzək əşyalarından, əsasən muncuqlardan ibarət olmuşdur [46, s. 39-51]. Lakin qəbirlərin bəzilərində əmək alətlərinin qalıqlarına, o cümlədən oraq dişlərinə rast gəlinmişdir. Araşdırmalar Eneolit dövründə I Kültəpədə yaşayış binalarının altında və onların arasında dəfn etmə adətinin olduğunu göstərir. Qəbirlərin müəyyən istiqaməti yoxdur, skeletlər müxtəlif cəhətlərə yönəldilmiş vəziyyətdə aşkar edilmişdir. Bəzi qəbirlərin döşəməsi dəfndən əvvəl gillə suvanmış, bəzilərində isə dəfndən sonra qəbrin üzərinə gil suvaq çəkilmişdir. Skeletlərin böyük bir qrupunun üzərində həsir qalıqlarına rast gəlinməsi onların dəfn zamanı həsirə büküldüyünü göstərir [46, s. 39-54]. Skeletlər sol, yaxud sağ böyrü üstə, bəzən isə arxası üstə uzadılmış vəziyyətdə aşkar olunmuşdur. Qəbirlərin bəzisində mərhumun başının altına daş, yaxud gil qab parçası qoyulması adətinə təsadüf edilmişdir. Dəfnlər tək, cüt və kollektiv halda olmuşdur. Şübhəsiz ki, evin döşəməsində dəfn etmə adəti ulu əcdada sitayiş, mərhumun ruhunun daim evdə olması, evin, ocağın mühafizəsi, son nəticədə məhsuldarlığın təmin edilməsi ideyası ilə bağlı olmuşdur [77, s. 168]. Mifoloji şəkildə dərk edilən o biri dünya qədim insanların mövcudluğunun əsasını təşkil etmişdir. Qəbilə rəhbərinin evin altında dəfn edilməsi əcdadın ruhunun çağrılması, onların qəbrinə təmas edilməsi və s. vasitələrlə əcdadın ruhu ilə əlaqə yaradılışına sübutdur.

Qəbirlərin ikisində it skeletinə rast gəlinmişdir. Məlum olduğu kimi, it insanların əhliləşdirdiyi ilk heyvanlardan biridir. Araşdırmalar itlə dəfn etmənin Azərbaycanda uzun müddət davam etdiyini göstərir. İtlə bağlı dəfnə Naxçıvanda Sarıdərə nekropolunda [8, s. 65] və Xocalı-Gədəbəy [64, s. 74] mədəniyyətinə aid qəbir abidələrində də təsadüf edilməsi bunu təsdiq edir.

İtlə bağlı inancların yaranması maldarlığın yaranmasından xeyli əvvələ, ovçuluq dövrünə aiddir. İtlərin iy və iz bilmə keyfiyyətləri onlara böyük önəm qazandırmış, qədim ovçu tayfalar ovun axtarılması və tutulmasında böyük rolu olan itə sitayiş etmişlər [83, s. 265].

İstər Ön Asiya abidələrindən, istərsə də Azərbaycan abidələrindən aşkar olunan itlə bağlı dəfnlər bu adətin qədim ovçu-maldar tayfaların inancları ilə bağlı olduğunu təsdiq edir. İtlə bağlı dəfnlər müəyyən ritualla bağlı olmuş, sakral məna daşımışdır. Şübhəsiz ki, qədim insanların dini-mifoloji görüşlərinin formalaşmasında maldar tayfaların itin qoruyucu funksiyası ilə bağlı inancları da müəyyən rol oynamışdır. Etnoqrafik materiallar həyətlərdə it kəlləsi asılmasının insanların bəd ruhlardan qorunması ilə bağlı olduğunu göstərir [24, s. 75].

Məlum oluğu kimi, skif tayfa birliklərindən birinin rəhbəri İspaka adlanmışdır. İspaka sözünün midiya dilində sbaka [sobaka] sözünə zahirən bənzədiyinə əsaslanan bəzi tədqiqatçılar skiflərin irandilli olduğunu qeyd etmişdir. Lakin O.Süleymenov

iz-bak=ispak=sıbak (sbaka) çevrilməsinin mümkünlüyünü sübut etmiş və sobaka sözünün hind-iran dillərinə türk dilindən keçdiyini söyləmişdir [83, s. 258]. İtə sitayiş semitlərdə, hind-avropalılarda, fin-uqarlarda rast gəlinmişdir. Lakin qədim köçəri türk tayfaları itə Tanrı kimi sitayiş etmiş, miflərdə isə öz mənşələrini onunla bağlamışlar [83, s. 265]. Tobol tayfalarında ulu əcdad-əfsanəvi qəhrəman Ak-kobok (Ağ köpək) adlanmışdır. Ağ noqoylar da həmçinin Ak-koboku öz əcdadları hesab etmişlər. Kobyak (köpək) adı türk tayfaları arasında geniş yayılmış adlardan biri olmuşdur [83, s. 267]. Tayfa başçılarına it adı qoyulması onları bəd ruhlardan mühafizə etmək, onların yenilməzliyini təmin etmək məqsədi güdmüşdür. Başqırdlarda mövcud olan adətə görə qadının uşağı tez-tez öldükdə uşağı anadan ayırıb it südü ilə bəsləyirdilər. Yaxud azərbaycanlılar uşağı olmayan qadını və onun uşağını qurd dərisindən keçirirdilər [9, s. 108]. Araşdırmalar itlə dəfnetmənin və ona sitayişin türk xalqlarının mifologiyası ilə bağlı olduğunu təsdiq edir.

Qəbirlərin birində kəllənin ayrıca qoyulması adətinə rast gəlinmişdir [46, s. 46]. Kəllənin ayrıca qoyulması əcdada sitayişin formalarından biri hesab edilə bilər [45, s. 39-40]. Ön Asiya abidələrində aparılan araşdırmalarla müəyyən edilmişdir ki, dəfn zamanı qəbilə rəhbərlərinin başı bədənindən ayrılaraq boyanmış və evlərdə düzəldilmiş xüsusi səkilərin üzərində saxlanmışdır. Bəzi tədqiqatçılar kəllənin ayrıca dəfn edilməsini, yaxud evdə saxlanmasını kəlləyə sitayişlə əlaqələndirmişlər [52, s. 42].

Yuxarıda qeyd edildiyi kimi, I Kültəpə qəbirlərinin bəzisində mərhumun başının altına daş qoyulması adətinin mövcud olması aşkara çıxarılmışdır. Ön Asiyanın bir sıra abidələrinin tədqiqi zamanı mərhumun başının altına daş qoyulması müəyyən edilmişdir [11, s. 42]. Arxeoloji araşdırmalar bu adətin Azərbaycanda uzun müddət davam etdiyini göstərir [46, s. 51]. Belə hesab edilir ki, mərhumun başının altına daş qoyulması adəti türk xalqları içərisində geniş yayılan daşa sitayişlə bağlı olmuşdur. İnanca görə, insan dünyasını dəyişərkən, onun ruhu daşa keçir. Azərbaycan türklərinin folklorunda ruhun daşa keçməsi, insanların daşa dönməsi, daşın balalaması ilə bağlı xeyli inanclar vardır. Daşla niyyət etmə adəti Azərbaycan xalqı arasında indi də qalmaqda davam edir. I Kültəpə tapıntısı göstərir ki, Azərbaycan türkləri arasında yayılan daşa və dağa sitayişin tarixi kökləri olduqca qədimdir. Qədim dünyanın bir çox xalqlarında olduğu kimi Azərbaycanda məskən salan qədim tayfaların da dünyagörüşündə Tanrıların dağlarda məskən salması haqqında təsəvvürlər olmuşdur. Xalq arasında müqəddəs hesab edilən bir çox ziyarətgahların hündür dağlarda yerləşməsi də bununla bağlıdır. Dağların ziyarətgaha çevrilməsində, habelə bu bölgələrdə qaya təsvirlərinin yaranmasında dağa sitayişin mühüm rolu olmuşdur. Dağ ziyarətgahlarına Naxçıvan ərazisində çox təsadüf edilmişdir. Belə ziyarətgahların tipik nümunələrindən biri Əshabi-Kəhf ziyarətgahıdır. Bu ziyarətgah Azərbaycan xalqının islamaqədərki bir çox inanclarını qoruyub saxlamışdır [18, s. 42-46]. Burada daş atma, dilək daşı,

daşla niyyət etmə və digər inanclar daşa sitayişlə bağlıdır.

Eneolit dövrünə aid dəfn adətinin xarakterik cəhətlərindən biri skeletlərin oxra ilə boyanmasıdır [46, s. 41-46]. Skeletlərin oxra ilə boyanması məhsuldarlıqla bağlı olmuşdur [76, s. 168]. Araşdırmalar göstərir ki, skeletlərin oxra ilə boyanması insanların işıq və qaranlıq haqqındakı təsəvvürlərini əks etdirmişdir. Qırmızı rəng qədim insanların təsəvvürlərində od, işıq, Günəş rəmzi olmuşdur. Məhsuldarlığın və artımın başlıca mənbəyi hesab edilən Günəş kosmik başlanğıc kimi düşünülmüş, xaotik başlanğıca qarşı qoyulmuşdur. Skeletlərin oxra ilə boyanması, şübhəsiz ki, mərhumun məzarının işıqlandırılması, onun ruhunun bəd ruhlardan qorunması, dirilmə ideyası ilə bağlı olmuşdur. Naxçıvan abidələrinin tədqiqi göstərir ki, bu ideya qədim tayfalar arasında uzun müddət yaşamış və başlıca olaraq onların mifoloji təsəvvürləri ilə bağlı olmuşdur [9, s. 76-86].

**Qədim duz mədənləri.** Duzdağ Naxçıvan şəhərinin 10 kilometrliyində, Təbrizi İstanbulla birləşdirən əvvəlki Böyük ipək yolu üzərində yerləşir. Duzdağın yerləşdiyi ərazinin Cənubi Qafqazın əsas strateji marşrutları üzərində olduğunu nəzərə alaraq demək olar ki, onun zəngin duz layları qədim dövrdən diqqəti cəlb etmişdir. Mənbələrdə Naxçıvan Duzdağının Nuh peyğəmbər tərəfindən aşkar edilməsi haqqında əsatirlər vardır. Rəvayətə görə əfsanəvi gəmisi ilə bəşəriyyəti dünya tufanından xilas etmiş Nuh peyğəmbər Naxçıvan Duzdağını da kəşf etmiş, ikinci sivilizasiyanın əsasını qoymuşdur [29, s. 379-380].

Lakin 2007-ci ildə Fransız-Azərbaycan ekspedisiyasının qısamüddətli araşdırmaları zamanı yatağın cənub ətəklərindən Eneolit və Kür-Araz keramikasının aşkar olunması mədənin istismarının daha erkən başladığını ehtimal etməyə imkan verirdi [93, s. 229-244]. Daha əhatəli məlumat əldə etmək üçün 2008-ci ildə sistemli araşdırmalara başlanılmışdır.

Duzdağda aparılan araşdırmaların əsas məqsədlərindən biri duz mədənlərində erkən istismar izlərini aşkar etmək, tarixəqədərki dövrün ayrı-ayrı mərhələsində duzun çıxarılması üsullarını müəyyən etməkdən ibarətdir.

2008-ci ildə Duzdağda aparılan araşdırmalar göstərdi ki, arxeoloji tapıntılar, demək olar ki, Duzdağ yatağının hər yerində, gil çöküntülərinin üç başlıca səviyyəsinə uyğun olaraq yayılmışdır. Araşdırmalardan aydın olmuşdur ki, təpənin yalnız ağ-yaşıl rəngli gil qatları duz-mədən sənayesi üçün əlverişlidir. Qırmızı zolaqlar çöküntülərin daha qaba və lilli laylarındandır. Burada yatağı formalaşdıran duz kristalları kifayət miqdarda toplanmamışdır. Onları mədən sənayesinin ənənəvi üsulları ilə istismar etmək çətindir.

Duzdağda aşkar olunan arxeoloji materiallar çoxsaylı və müxtəlif formalı olması ilə fərqlənir. Onlar Türkiyədəki Tuzlucada olduğu kimi, yalnız bütün yataq boyu izlənən infrastrukturlardan ibarət olmayıb Xoy-Duzdağına oxşar vəziyyətlə təpənin ətəyi boyunca yayılan arxeoloji tapıntılardan ibarətdir. Sonuncudan fərqli olaraq Naxçıvan mədənlərindən yalnız keramika parçaları yox, həmçinin kiçik və

böyük daş alətər aşkar olunmuşdur. Naxçıvan Duzdağında təsadüfi olaraq mis və dəmir qalıqları da tapılmışdır.

Mədən sənayesinin ən maraqlı infrastrukturları ehtimal ki, qədim tunellər olmuşdur. Onlar duz yatağının ağ-yaşıl rəngli laylarında səpələnmişdir. Havadan çəkilmiş rəsmlərdən göründüyü kimi bu tunellər duz yatağının ortasında bir-birinin yaxınlığında qazılmışdır. İndiyədək qeydə alınan qədim tunellərin əksəriyyəti müxtəlif zamanlarda dağılmışdır, lakin onlardan biri saxlanmışdır. Həmin tunelin uzunluğu 4 m, eni 1,10 m-dir. Tunelin içərisindən heç bir tapıntı əldə edilməmişdir, belə ki, tunelin döşəməsi qalın çınqıl qatı ilə örtülmüşdü. Digər mühüm tapıntı tunelin girişində qayada sütunun yonulması idi. Bu tunel də dağılaraq sütunun kapitelinədək çınqılla dolmuşdur, lakin maraqlıdır ki, o da müasir şaxtaya aparan əsas dəhlizdən kənarda yerləşən digər sütunlara bənzəyirdi. Kür-Araz dövrünə aid keramika parçalarına əsasən onları eyni dövrlə tarixləndirsək, demək olar ki, biz Son Eneolit və Erkən Tunc dövrü ilə üst-üstə düşən mədən sənayesinin şəbəkəsi ilə rastlaşmışıq.

Duzdağda aparılan araşdırmaların əsas məqsədlərindən biri infrastrukturların istismar tarixinin müəyyənləşdirilməsi olmuşdur. Bu, arxeoloji tapıntılar, tunellər və karxanalar arasındakı korrelyasiyanın incəliklə öyrənilməsini tələb edir.

Duzdağdan aşkar olunmuş tapıntılar arasında geniş funksional və morfoloji diapozona malik olan böyük daş alətlər xüsusilə diqqət çəkicidir. Kiçik daş alətlər onlara nisbətən daha azdır. Onlar əsasən obsidianın qəlpələnməsi zamanı meydana gələn parçalardan ibarətdir. Kiçik bıçaqvari alətlər azdır. 2011-ci ilin mövsümündə 7-ci Pəncərədən daha təkmil obsidian tiyəsi tapılmış, lakin hələlik analiz olunmamışdır. Çaxmaqdaşı alətlər olduqca məhdud miqdardadır [14, s. 9, 19].

Duzdağ mədənlərində duzun çıxarılması və ilkin emalı üçün minlərlə böyük daş alətlərdən istifadə edilmişdir. Formasına, həcminə və daş cinsinə görə fərqlənən bu alətlər duz çıxarılan zonalarda toplanmış keramika ilə birlikdə təsadüf edilmişdir. 2011-ci ildə duz mədəninin müxtəlif hissələrindən əldə edilən səkkizyüzdən artıq alət qeydə alınaraq bilavasitə ərazidə və laboratoriyada tədqiq edilmişdir. Duzdağ mədənində duzun istismarı və emalı prosesi zamanı bu alətlərin dəqiq funksiyasını müəyyən etmək üçün onlar tam texnoloji analizdən keçirilərək alətlərdəki işlənmə izləri araşdırılmışdır [93, s. 229-244].

İlkin araşdırmalar göstərir ki, bu alətlərin əksəriyyəti çay daşlarından, ola bilsin ki, Duzdağın üzərində yerləşən allyuvial lisrlərin çöküntülərindən hazırlanmışdır. Toplanan materialların 80 faizi daş çəkiclərdir. Onların xammalı müxtəlif mənbələrdən götürülmüşdür. Qumlu çaydaşı, qranit və bazalt, ehtimal ki, Duzdağı təpəsinin səthində saxlanan allyuvial yataqlardan, ya da Naxçıvançaydan gətirilmişdir. Lakin müəyyən tip çəkiclərin istehsalı üçün dolorit və qabbro ailəsinə məxsus daş cinslərindən istifadə edilmişdir. Bu tip daş cinsləri göstərir ki, mədənçiləri xammalla təmin etmək üçün müəyyən təşkilati işlər görülmüşdür. Belə ki, bu daşların ən

yaxın geoloji mənbələri Şahbuz rayonundan iyirmi kilometr şimalda yerləşir.

Çəkiclərin müxtəlif funksional xüsusiyyəti göstərir ki, ayrı-ayrı dövrlərdə daş duzun çıxarılmasında fərqli üsullardan istifadə edilmişdir. Bəzi çəkiclər sadə çay daşlarıdır, onlar işlənmədən birbaşa istifadə edilmişdir. Bəzilərinin hər iki üzündə sadə işlənmə izləri vardır. Lakin alətlərin əksəriyyətinin uc, yan və üz tərəflərində dərin batıq zolaqlardan ibarət əyri və düz xətlərin müxtəlif konbinasiyasına rast gəlinir. Bu sadə və mürəkkəbləşdirilmiş kombinasiyalar həmin çəkiclərin insan əlinə adaptasiyası ilə bağlı olmuşdur. Bəzən onlarla kiloqram ağırlığında olan ağır daş alətləri əldə tutmaq mümkün olmamış, çətinliklər yaranmışdır. Ona görə bu tip alətlərin baş tərəfində olan üfiqi və şaquli batıq xətlər, böyük ehtimalla, ip bağlamaq üçün nəzərdə tutulmuşdur.

Çəkiclərdən istifadə üsullarının müxtəlifliyi və onların təkrar istifadəsi də işin təşkilində müxtəlif üsullardan istifadə olunduğunu təsdiq edir. Daş çəkiclərin bəzi tipləri dolerit və qabbro ailəsindən olan bərk daşdan hazırlanmışdır. Bu daş alətlər I Kültəpə və II Kültəpə yaşayış yerlərinin Kür-Araz mədəniyyətinə aid təbəqəsindən aşkar edilmişdir. Onlar ustalıqla hazırlanaraq cilalanmış və uca doğru ensizləşdirilmişdir. Çıxarma zonaları ilə paralel yerləşən iş yerlərində qalan müxtəlif tipli alətlərin qalıqları onların uzun müddət istifadə olunduğunu və müxtəlif inkişaf mərhələlərindən keçdiyini təsdiqləyir.

Orta Tunc dövrünə aid keramika məmulatı Pəncərələrdə, demək olar ki, rast gəlinməmişdir. Bəzi təsadüfi tapıntılar təpənin cənub yamacında aşkar olunmuşdur. Onların hamısı monoxrom boyalı olub, qırmızı rəng üzərindən qara rənglə naxışlanmışdır. Məlum olduğu kimi, Van da daxil olmaqla Cənubi Qafqazda Orta Tunc dövrünə aid keramika (Naxçıvan istisna olmaqla) başlıca olaraq qəbirlərdən aşkar olunmuşdur. Ehtimal ki, şaxtalarda Orta Tunc dövrünün əmək adamları tərəfindən istifadə olunan keramika müəyyən funksional mahiyyət daşımışdır, lakin bu hələlik tam aydınlanmamışdır.

Son Tunc və Erkən Dəmir dövrünə aid keramika parçaları texnoloji xüsusiyyətlərinə görə az fərqlənir. Onları ayırmaq üçün başqa dəlillər olmadığından bu tip keramikanı Son Tunc və Erkən Dəmir dövrünə aid etmək daha düzgün olardı. Lakin Duzdağda Son Tunc dövrünə aid naxışlanmış keramika parçalarına da rast gəlinmişdir. Onlar boz, boz-qara rəngli olub, qabların çiyin hissəsini əhatə edən çərtmə və qabarıq-batıq xətlətlərdən ibarətdir. Maraqlıdır ki, Son Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatı başlıca olaraq 2-ci Pəncərədən aşkar olunmuşdur.

Orta əsr keramikasına gəldikdə, demək olar ki, onların əksəriyyəti təpənin cənub yamacında aşkar olunmuşdur. Orta əsr keramikası təpənin şimal qurtaracağında daha çox toplanmışdır. Burada gips yataqları da aşkar edilmişdir. Lakin karxananın nə üçün açıldığı hələlik məlum deyildir. Karxanada gips, duz, yaxud onların hər ikisi çıxarıla bilərdi. Orta əsrlərə aid keramika gil məhluluna salınmış içərisində

dulus çarxının izləri qalan daraqvari ornamentlə naxışlanmış sadə keramikadan ibarətdir. Bununla bərabər Duzdağda göy şirli, yaşıl və qara rənglə naxışlanmış keramika daha çoxdur.

Daş alətlərin bir qismi tunellərdən duz çıxarmaq və birbaşa tunellərin qazılması üşün istifadə edilmişdir. İlkin nəticələr göstərir ki, bu tip istismar üsulu Son Eneolit və Erkən Tunc dövründən mövcud olmuşdur. Lakin II Kültəpədən aşkar olunan daş alətlər nəzərə alınarsa, demək olar ki, duz istehsalı Orta Tunc dövründə də davam etmişdir.

Duzdağda dörd mövsüm üzrə aparılan sistemli araşdırmalardan sonra onun tarixəqədərki dövrün son mərhələsində mühüm əhəmiyyət kəsb etdiyi göz önünə çıxarılmışdır. Duzdağın istismarının miqyasından da göründüyü kimi, duzun funksiyası "İkinci ərzaq inqilabı" zamanı e. ə. V - IV minilliklərdə Mesopotamiyanın böyük hissəsində və Qafqazda meydana gələn struktur dəyişikliklərini anlamaq üçün əsas açarlardan biridir. Bununla bağlı olaraq aşağıdakı əsas nəticələri çıxarmaq mümkündür:

Birinci və ikinci Pəncərədə mütəmadi aşkar olunan saman qarışıqlı keramikaya əsasən aydın olur ki, mədənin istismarına e. ə. V minilliyin ikinci yarısında başlanılmışdır. Bu onu göstərir ki, İspaniyadakı Kardona (La Müntania del Sal) ilə birlikdə Naxçıvan Duzdağı da dünyanın ən qədim mədənlərindən biridir. Kardonada duz yataqlarının ətrafında insan fəaliyyətinin ən qədim izləri e. ə. 4200 və 3600-cü illərə aid edilmişdir [93, s. 13]. Erkən mədən sənayesi ilə bağlı fikirlər uzun müddət ərzində antikvarlar və yerli kənd əhalisi tərəfindən toplanan 173 bütöv və sınmış daş alətlər əsasında söylənmişdir. Bu alətlər duz mədənindən aşkar olunan iki qəbrin oxşar daş alətləri ilə müqayisəsi əsasında tarixləndirilmişdir. Qəbirlərin özü isə aşkar olunan digər materiallar əsasında Orta Neolit dövrünə aid edilmişdir. Belə görünür ki, Duzdağda duzun erkən çıxarılması ilə bağlı məsələlər Kardonadakı faktlardan daha tutarlıdır. Belə ki, duz mədənində müxtəlif xronoloji dövrlərə aid keramika məmulatı ilə birlikdə yüzlərlə daş əmək aləti də aşkar olunmuşdur. Aydındır ki, Duzdağında aşkar olunan arxeoloji materiallar, xüsusilə xeyli informasiya verən keramika məmulatı tarixəqədərki dövrün son mərhələsindən başlayaraq müasir dövrədək duz sənayesinin inkişafının müxtəlif cəhətlərini öyrənmək üçün münasib imkan yaradır.

İkincisi, qeyd etmək lazımdır ki, Duzdağdakı erkən duz istehsalı prosesi intensivliyi ilə fərqlənir. Burada Son Eneolit və Erkən Tunc dövrü keramikasının proporsiyası xüsusilə yüksəkdir. Naxçıvanda, həmçinin qonşu Urmiya və Van rayonunda Son Eneolit və Erkən Tunc dövrünə aid qeydə alınan yaşayış yerləri ilə müqayisədə bu olduqca yüksək göstəricidir. E.ə. II minilliyin sonundan yaşayış yerlərinin artması, ehtimal ki, Dəmir dövrünə və Orta əsrlərə aid keramika məmulatının çoxalmasına səbəb olacaqdır. Hazırda duz mədənində yeddi pəncərədə aparılan sistemli araşdırmalar zamanı Kür-Araz keramikasının üstünlüyü tədqiqatların

məhdudluğu ilə bağlı deyildir. Müəyyən yerlərdə sayı dəyişsə də Kür-Araz keramikası Duzdağ mədəninin bütün ərazisində üstünlük təşkil edir. İndi qarşıda duran əsas sual bundan ibarətdir: Duzdağda mədənçilk işləri daha əvvəl Erkən Tunc dövründə, yoxsa Son Eneolit dövründə başlamışdır? Son illər Ovçulartəpəsində aşkar olunan tapıntılar Kür-Araz tayfalarının Naxçıvanda e. ə. V minilliyin sonundan məskunlaşdığını göstərir. Müəyyən edilmişdir ki, Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrin formalaşmasında Naxçıvanın xammal ehtiyatları, o cümlədən duz əsas yer tutmuşdur. Eneolit dövründən başlayaraq duz həmçinin mübadilə vasitəsi olmuş, ticarət məqsədilə Şərq ölkələrinə aparılmışdır. İnsanların məişətinə daxil olan duz onların ideologiyasının formalaşmasında müəyyən yer tutmuş, duzla bağlı inamlar yaranmışdır. Bu tip inamlar Azərbaycan xalqı arasında xüsusilə geniş yayılmış və çox qədim tarixə malikdir. Bütün bunlara görə Naxçıvan Duzdağının tarixini Eneolit dövrünə aid etmək lazımdır.

**Erkən Tunc dövrü.** E.ə. V minilliyin sonu və IV minilliyin əvvəlində - Erkən Tunc dövründə Naxçıvanda Kür-Araz mədəniyyəti formalaşmışdır. Bu dövrdə qədim Naxçıvan sakinlərinin tarixində əsaslı ictimai-iqtisadi dəyişikliklər olmuşdur. Eneolit dövründə əsası qoyulan tunc metallurgiyası inkişaf etmiş, maldarlıq əkinçilikdən ayrılmış, xış əkinçiliyi meydana gəlmiş, yaylaq maldarlığı inkişaf etmiş, tayfa ittifaqları yaranmışdır. İqtisadiyyatın inkişafı və əhalinin artması yeni yaşayış yerlərinin salınmasına səbəb olmuşdur. Bu dövrə aid I Kültəpə, II Kültəpə, Aşağıdaşarx, Ovçulartəpəsi, I Maxta Kültəpəsi, II Maxta Kültəpəsi, Xələc, Ərəbyengicə, Hovuzlu yaşayış yerləri, Dizə, Qarabulaq, Plovdağ, Xornu nekropolları qeydə alınmışdır.

Erkən Tunc dövrü abidələrində xüsusilə I Kültəpədə, II Kültəpə, Ovçulartəpəsi, I Maxta Kültəpəsində aparılan qazıntılar göstərir ki, Kür-Araz mədəniyyəti üçün dairəvi, yaxud düzbucaqlı artırmaları olan dairəvi evlər xarakterik olmuşdur [46, s. 100-103]. Kür-Araz mədəniyyətinin son mərhələsində düzbucaqlı binalardan da istifadə edilmişdir [82, s. 20-42; 37, s. 45]. Evlər düzbucaqlı və dairəvi formada olan ocaqlar və saxsı manqallar vasitəsilə qızdırılmışdır [46, s. 103; 82, s. 40-41]. II Kültəpədə düzbucaqlı ocaqların yaxınlığında mərkəzi insan fiquru formasında olan nal şəkilli sitayiş qurğularına da rast gəlinmişdir [58, s. 56-60]. Bu tip fiqurların bütün evlərdən tapılması insanlar arasında inanc birliyinin olduğunu və hər evin öz ziyarətgahı olduğunu göstərir.

Yaşayış yerlərində aparılan qazıntılar evlərin həcmi haqqında da müəyyən təsəvvür əldə etməyə imkan vermişdir. Hesablamalar göstərmişdir ki, ayrı - ayrı evlərdən ibarət olan II Kültəpə əhalisi 700-900 nəfərlik yaşayış məskəni tipində olmuşdur. II Kültəpənin XII təbəqəsində bütövlükdə açılan evin diametri 5,3 m-dir. Ümumiyyətlə, II Kültəpədəki evlərin diametri 5,5 - 7,5 m arasında dəyişməkdədir. I Kültəpədə aşkar edilən evlərin diametri isə 3,5 - 6,5 m arasındadır. Onlardan yalnız birinin diametri 7,3 m-dir [46, s. 81-100]. Şübhəsiz ki, bu tip evlər cüt

nikaha əsaslanan kiçik ailələrə, iri həcmli dairəvi evlər isə böyük ailələrə məxsus olmuşdur. Aşkar olunan evlərdən birinin sahəsinin 59 kv.m olması da onun böyük ailələr üçün nəzərdə tutulduğunu göstərir. Belə hesab edilir ki, cüt nikaha əsaslanan ailə istehsalın əsas özəyini təşkil etmişdir. İqtisadiyyatın inkişafı şübhəsiz ki, kiçik ailələri öz güclərini birləşdirməyə məcbur etmişdir. Ümumi ictimai binaların olması, ümumi idarə orqanlarının da olduğunu göstərir. I Kültəpə [46, s. 229] və II Kültəpədə aşkar olunan iri həcmli binalardan, həm də ümumi toplanış yeri kimi istifadə edildiyini söyləmək olar.

II Kültəpə yaşayış yerindən aşkar olunan ziyarətgahlar Naxçıvanın qədim sakinlərinin mənəvi mədəniyyəti və ideologiyasını öyənmək üçün dəyərli mənbələrdəndir. Belə ziyarətgahlardan birinə II Kültəpə yaşayış yerinin XI tikinti qatında təsadüf edilmişdir. O dairəvi formalı binanın qalıqlarından ibarət olmuşdur. Tədqiqat zamanı möhrə bloklardan hazırlanmış ocaq, ocağın içərisindən heyvan sümükləri və gil qab parçaları müəyyən olunmuş, onun ətrafındakı döşəmədə isə öküz buynuzu formasında hazırlanmış sitayiş əşyasının parçası aşkar olunmuşdur [82, s. 25].

II Kültəpənin statiqrafiyasına əsaslanaraq bu ziyarətgahı Kür-Araz mədəniyyətinin erkən mərhələsinə aid etmək olar.

İkinci ziyarətgah II Kültəpə yaşayış yerinin VI tikinti qatında aşkar olunmuşdur. Onun döşəməsi sarı rəngli gillə suvanmışdır. Divarın özülü çay daşlarından, yuxarısı isə çiy kərpicdən hörülmüşdür. Divarın şərq tərəfində çay daşlarından qurularaq gillə suvanan səki, səkinin yaxınlığında iki dən daşı aşkar olunmuşdur. Divarın qərb tərəfində içərisi küllə dolmuş dairəvi formalı ocaq, ocağın ətrafında kül yığını, heyvan sümükləri, gil qab parçaları aşkar olunmuşdur. Ocağın yaxınlığında qurbangah olduğu ehtimal olunan möhrədən düzəldilimiş dördkünc formalı səkinin olduğu müəyyən edilmişdir. Səkinin yaxınlığında öküz buynuzu formasında hazırlanmış iki sitayiş əşyasına rast gəlinmişdir [82, s.33].

I Kültəpə və II Kültəpədə aşkar olunan tapıntılar Erkən Tunc dövründə keçirilən müəyyən mərasimləri tam olmasa da müəyyən dərəcədə bərpa etməyə imkan verir. Başlıca olaraq məhsuldarlıqla bağlı olan bu mərasimlər cəmiyyətdə baş verən sosial-iqtisadi dəyişiklikləri və insanların həyat tərzini aydın şəkildə əks etdirmişdir. Nalşəkilli sitayiş qurğularından birinin mərkəzi çıxıntısının insan fiquru formasında hazırlanması ehtimal ki, kişinin cəmiyyətdə artan rolunu simvolizə etmişdir. Sitayiş qurğularının iribuynuzlu heyvanlara bənzədilməsi iribuynuzlu malın insanların həyatında böyük rol oynadığını göstərir. Eneolit dövründə və Kür-Araz mədəniyyətinin erkən mərhələsində maldarlıq və iribuynuzlu malın üstünlük təşkil etməsi də bunu təsdiq edir. Sitayiş qurğularının ətrafından aşkar olunan heyvan fiqurları mərasimlər zamanı onlardan da istifadə olunduğunu göstərir. Sitayiş qurğularının ətrafında xeyli kül yığınları, heyvan sümükləri və gil qab parçalarının aşkar olunması, bu mərasimlərin keçirilməsi zamanı müəyyən ye-

məklər verildiyini göstərir. Evlərdə aşkar olunan sitayiş qurğuları, Erkən Tunc dövrü sakinlərinin məişətində din və sitayişlə bağlı mərasimlərin mühüm yer tutduğunu, onların gündəlik həyatının məhsuldarlığı təmin edən ulu əcdad, qəbilə rəhbəri, iribuynuzlu və xırdabuynuzlu heyvanlarla bağlı olduğunu göstərir [58, s. 56-60]. Erkən Tunc dövründə öküz kultunun geniş yayılması, həm də xış əkinçiliyinin yaranması, iribuynuzlu maldan qoşqu qüvvəsi kimi istifadə edilməsi ilə bağlı olmuşdur.

I Maxta Kültəpəsinin yaxınlığında aşkar olunan ziyarətgah Erkən Tunc dövrünün son mərhələsində artıq ümumi qəbilə ziyarətgahlarının meydana çıxdığını göstərir. Dağıntıya uğramış ziyarətgahın yerində daşdan və möhrədən hörülmüş tikinti qalıqları saxlanmışdır [22, s. 38-40]. Dairəvi formalı ziyarətgahın içəri tərəfində bir sırada düzülmüş üç daş büt, bütlərin yaxınlığında nalşəkilli ocaq qurğusu aşkar olunmuşdur [22, s. 40].

Qara rəngli tuf daşından hazırlanan bütlər aşağıdan yuxarıya doğru ensizləşən stela şəklindədir. Onların başı yivşəkilli oyuqla bədənindən ayrılmışdır. Bütlərin hündürlüyü 85-99 sm, qalınlığı 11-15 sm arasındadır [22, s. 40]. Bütlərin ikisinin başında maili oyuq açılmışdır. Bütlərin ziyarətgahın içərisindən aşkar olunması onların sitayiş məqsədilə hazırlandığını göstərir. Ehtimal ki, onlar qədim insanların inandığı tanrıları, yaxud tanrılaşdırılmış tayfa rəhbərlərini, ulu əcdadı simvolizə etmişdir.

İlk Tunc dövrü sakinlərinin əsas məşğuliyyət formalarından biri əkinçilik olmuşdur. I Kültəpənin Erkən Tunc dövrü təbəqəsində aparılan qazıntılar zamanı arpa, buğda, noxud və darı qalıqları aşkar olunmuşdur [46, s. 212]. Bu tapıntılar əkinçiliyin çoxsahəli xarakter daşıdığını göstərir. Kür-Araz tayfalarının əkinçilik mədəniyyəti Eneolit dövründə qazanılan nailiyyətlərə əsaslanmışdır. Naxçıvanın təbii şəraiti həmçinin dəmyə əkinçilik üçün əlverişli olmuşdur. Lakin Naxçıvançay, Əlincəçay və Arpaçay vadisində süni suvarmadan da istifadə edilməsi üçün şərait olmuşdur. Naxçıvanın indiki əhalisi hər iki üsuldan bacarıqla istifadə edə bilirlər.

Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrindən xeyli miqdarda gil təkər modellərinin tapılması təkərli nəqliyyatın da inkişaf etdiyini göstərir. Araşdırmalar bu dövrdə xış əkinçiliyinin inkişaf etdiyini, iribuynuzlu heyvanlardan qoşqu qüvvəsi kimi istifadə olunduğunu təsdiq edir.

Kür-Araz mədəniyyəti tayfalarının əsas məşğuliyyət sahələrindən biri də maldarlıq olmuşdur. Bu dövrdə heyvandarlığın daha da inkişaf etməsi I Kültəpə və II Kültəpənin Erkən Tunc dövrü təbəqəsində iribuynuzlu və xırdabuynuzlu heyvanlara aid çox sayda osteoloji qalıqların aşkar olunması ilə sübut olunmuşdur. I Kültəpədə ev heyvanlarından öküz, keçi, donuz, qoyun, köpək sümüklərinə rast gəlinmişdir [46, s. 215].

Aşkar olunan osteoloji materialların analizi göstərir ki, Erkən Tunc dövrünün orta mərhələsində yaylaq maldarlığına keçidin başlanğıcı qoyulmuşdur [46, s.

216]. Kür-Araz mədəniyyətinin son mərhələsində xırdabuynuzlu mal artaraq maldarlıqda birinci yerə çıxmışdır. Bu dövrdə heyvandarlıqda xırdabuynuzlu heyvanların miqdarı 70 % olmuşdur [82, s. 122]. Xırdabuynuzlu maldarlığın üstünlük təşkil etməsi yarımköçəri yaylaq maldarlığının inkişafına səbəb olmuşdur. Naxçıvanın dağlıq və dağətəyi bölgələrində Erkən Tunc dövrünə aid qəbir abidələrinin aşkar olunması yaylaq maldarlığının inkişaf etdiyini təsdiq edən əsas faktlardan biridir. İlk Tunc dövrü yaşayış yerlərinin bir qrupunda, o cümlədən Ərəbyeycə, Xələc, Ovçulartəpəsi, I Maxta Kültəpəsində mədəni təbəqənin digər abidələrlə müqayisədə az yığılması bu yaşayış yerlərində həyatın yarımoturaq xarakterdə olduğunu, əhalinin yaylaq maldarlığını mənimsədiyini göstərir. Bu abidələrdə Orta Tunc dövrü təbəqəsinə rast gəlinməməsi, onların müəyyən dövrdən sonra tərk edildiyini təsdiq edir [11, s. 20].

Erkən Tunc dövründə metallurgiya yüksək inkişaf səviyyəsi ilə fərqlənir. Bu dövrdə mis-arsen ərintisindən yüksək keyfiyyətli əmək alətləri hazırlamaq texnikası artıq mənimsənilmişdi. Yaxın Şərq və Cənubi Qafqaz ölkələrində qalay yataqları olmadığından bu dövrdə misin aşqarlanması üçün mərgümüşdən istifadə edilmişdir. Yerli mis və mərgümüş yataqlarının mövcudluğu Naxçıvanda metallurgiyanın inkişafına şərait yaratmışdır.

Erkən Tunc dövründə metallurgiyanın inkişafını göstərən faktlardan biri də II Kültəpədə aşkar olunan metaləritmə kürəsi və metalişləmə emalatxanasının qalıqlarıdır.

I Kültəpə və II Kültəpədə aşkar olunan çoxsaylı metal əşyalar, habelə iki tərəfli gil qəlib, metalişləmə alətləri, o cümlədən körük ucluqlarının, metal emalı ilə bağlı ocaqların aşkar olunması Naxçıvan ərazisində metallurgiyanın yüksək inkişaf etdiyini göstərir [43, s. 25].

Erkən Tunc dövründə əsas istehsal sahələrindən biri dulusçuluq olmuşdur. Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrindən aşkar olunan dulus kürəsinin qalıqları və çoxsaylı keramika məmulatı dulusçuluğun yüksək inkişaf səviyyəsinə malik olduğunu, müxtəlif mərhələlərdən keçdiyini göstərir [5, s. 43-71; 82, s. 45-116]. Kür-Araz mədəniyyətinin erkən mərhələsinə aid olan qablar yaxşı yoğrulmuş gildən hazırlanmış, keyfiyyətli bişirilmiş və anqoblanmışdır. Erkən Tunc dövründə keramika məmulatı yalnız gil qablarla deyil, gil təkər modelləri, sitayiş fiqurları, heyvan fiqurları, qəliblərlə təmsil olunmuşdur. II Kültəpənin Kür-Araz mədəniyyəti təbəqəsindən aşkar olunan tikinti keramikasının qalığı bu dövrdə tikinti keramikasının istehsal olunduğunu, onun üzərindəki sxematik heyvan təsviri isə bu tip keramika məmulatının tikintidə dekorativ məqsədlə istifadə edildiyini göstərir [82].

Yuxarıda qeyd edilənlərə əsasən, belə nəticəyə gəlmək olar ki, bu dövrdə iqtisadiyyat inkişaf etmiş, sosial münasibətlərdə müəyyən irəliləyiş yaranmışdır. Əkinçilik və maldarlığın intensiv inkişafı izafi məhsul istehsalının yaranmasına, sənətkarlığın müxtəlif sahələrinin inkişafına stimul yaratmışdır. Bu dövrdə maldarlıq

əkinçilikdən ayrılmış, dulusçuluq, metalişləmə, daşişləmə sənətkarlığın əsas sahələri kimi inkişaf etmişdir [11, s. 22].

Erkən Tunc dövründə sosial iqtisadi inkişafı şərtləndirən əsas amillərdən biri də mədəni əlaqələrin inkişafı olmuşdur. Qeyd olunduğu kimi, Yaxın Şərq ölkələri və qonşu Cənubi Qafqaz xalqları ilə intensiv əlaqələr Eneolit dövründən mövcud olmuşdur. Bu dövrdə Kür-Araz mədəniyyətinin olduqca geniş ərazini əhatə etməsi, bu əlaqələrin çoxsahəli olmasından xəbər verir. Erkən Tunc dövründə Naxçıvan abidələri Urmiya rayonunun abidələri ilə vahid iqtisadi-mədəni rayona daxil olmuşdur. Bu rayonların arxeoloji abidələrindən aşkar edilən keramika məmulatı forma və bəzəmə formasına görə bir-birinə bənzərlik təşkil edir. Ehtimal ki, bu bölgənin dulusçuluq məmulatı Şərqi Anadoluya və Kiçik Qafqazın cənub şərq ətəklərinə doğru yayılmış və burada mədəni inkişafa müəyyən təsir göstərmişdir [82, s. 137].

I Kültəpə və II Kültəpənin Erkən Tunc dövrü təbəqəsindən aşkar olunan bir qrup keramika məmulatı və metal əşyalar Mesopotamiya ilə iqtisadi-mədəni əlaqələrin davam etdiyini aydın şəkildə göstərir [46, s. 123]. II Kültəpənin straqrafiyasına əsaslanaraq demək olar ki, Kür-Araz mədəniyyəti tayfalarının Ön Asiya ölkələri ilə iqtisadi mədəni əlaqələri Erkən Tunc dövrünün ilk mərhələsindən mövcud olmuşdur. Şübhəsiz ki, qədim Şərq ölkələri ilə əlaqələr qarşılıqlı xarakterdə olmuşdur. II Kültəpənin Kür-Araz mədəniyyətinə aid təbəqəsindən aşkar olunan mavi şirli pasta muncuq da Yaxın Şərq ölkələri ilə əlaqələrin olduğunu göstərir. Mavi şirli pasta muncuqların Misir və Mesopotamiyadan gətirildiyi araşdırmalarla müəyyən olunmuşdur [50, s. 189; 16, s. 55]. Araşdırmaların indiki səviyyəsinə dayanaraq demək olar ki, qədim Şərq ölkələri ilə ticarət əlaqələrində Naxçıvanda istehsal olunan duz, metal və dulusçuluq məmulatı mühüm yer tutmuşdur.

Naxçıvanın Erkən Tunc dövrünə aid arxeoloji abidələrin tədqiqi müxtəlif istehsal sahələrinin, o cümlədən daxili mübadilənin artdığını aydınlaşdırmışdır. Arxeoloji tapıntılar bu münasibətlərin Erkən Tunc dövrünün final mərhələsində xüsusilə inkişaf etdiyini göstərir. Daxili mübadilənin inkişafı sərvətin müəyyən qrup adamların əlində toplanmasına, sosial münasibətlərdə əsaslı dəyişikliyə səbəb olmuşdur. II Kültəpənin Erkən Tunc dövrü təbəqəsinin son mərhələsinə aid müəyyən planda tikilmiş dördkünc formalı bina qalıqları və müdafiə divarı sosial münasibətlərdə və ictimai quruluşda ciddi dəyişikliklərin olduğundan xəbər verir [82, s. 134].

Kür-Araz mədəniyyəti abidələrinin tədqiqi göstərir ki, bu dövrdə cəmiyyət inkişaf etmiş patriarxal münasibətlərlə xarakterizə edilir [46, s. 237; 68, s. 94,132; 11, s. 22;]. Şübhəsiz ki, istehsalın mürəkkəb və çoxsahəli xarakter alması cəmiyyətdə kişilərin rolunu artırmış, kişi əməyinin birinci yerə çıxmasına səbəb olmuşdur [11, s. 22]. Kişinin hökmran olduğu ailə cəmiyyətin özəyini təşkil etmişdir. Bu dövrə aid abidələrin tədqiqi zamanı böyük əmlak bərabərsizliyi aşkar olunmasa da,

böyük ailələrin formalaşması, istehsalın təşkili və mülkiyyətin qorunması müəyyən ictimai təşkilatların yaranmasını zəruri etmişdir [11, s. 23]. II Kültəpənin Kür-Araz mədəniyyətinə aid sonuncu tikinti qatında müdafiə divarının və çoxotaqlı evlərin aşkar olunması bununla əlaqədardır [82, s. 38]. Azərbaycanın Kür-Araz mədəniyyətinə aid yaşayış yerlərinin ətrafına müdafiə divarlarının çəkilməsi də bununla bağlı olmuşdur. Tayfalararası toqquşmaların mövcud olduğu bu dövrün idarə forması ehtimal ki, hərbi demokratiya olmuşdur [11, s. 24].

Kür-Araz mədəniyyətinin mənşəyi ilə bağlı tədqiqatçılar arasında müxtəlif fikirlər olmasına baxmayaraq, bu mədəniyyətin Cənubi Qafqazda formalaşdığı qəbul edilmişdir. Bəzilərinin fikrinə görə, bu mədəniyyət Qafqazda və Şimali İranda, digərlərinə görə isə Şərqi Anadoluda və Arazın orta axarlarında formalaşmışdır. Son illərin araşdırmaları göstərir ki, bu mədəniyyətin formalaşdığı əsas rayonlardan biri Naxçıvan ərazisidir. Ovçulartəpəsi yaşayış yerində aparılan tədqiqatlar zamanı Kür-Araz mədəniyyətinin formalaşma mərhələsinə aid maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Erkən mərhələyə aid keramika Eneolit dövründə olduğu kimi saman qarışığından hazırlanmışdır. Bu tip keramika "Proto Kür-Araz" [13, s. 16] keramikası adlandırılmışdır. Azərbaycan, o cümlədən Naxçıvan abidələrinin tədqiqi göstərir ki, Kür-Araz mədəniyyəti Eneolit mədəniyyəti əsasında inkişaf etmişdir. Kür-Araz mədəniyyətinin Eneolit mədəniyyəti ilə bağlılığı Urmiya hövzəsi və Naxçıvan abidələrində xüsusilə aydın izlənilir. Eneolit mədəniyyətindən Kür-Araz mədəniyyətinə keçid Ovçulartəpəsi, Göytəpə, Yanıqtəpə, Xələc, II Kültəpənin keramika məmulatında aydın şəkildə izlənmişdir. Ümumiyyətlə, Urmiya hövzəsi və Naxçıvanda yerləşən İlk Tunc dövrü abidələrində mədəni təbəqənin qalınlığı, Kür-Araz mədəniyyətinin bütün mərhələlərinin aydın izlənilməsi, Kür-Araz mədəniyyətinə aid təbəqənin Eneolit təbəqəsini örtməsi təsdiq edir ki, bu rayon Kür-Araz mədəniyyətinin formalaşdığı əsas ocaqlardan biri olmuşdur [43, s. 24; 11, s. 25]. Lakin qeyd etmək lazımdır ki, Urmiya hövzəsi ilə bağlı olan Naxçıvanın Kür-Araz keramikası bir sıra lokal xüsusiyyətlərinə görə digər regionların keramikasından fərqlənir. Bu fərqlər ocaq qurğuları və metal əşyalarda da özünü göstərir. Şimalda Şimali Qafqaz və Dağıstan, Cənubda Urmiya hövzəsi, qərbdə Suriya və Fələstinədək yayılan Kür-Araz mədəniyyəti müəyyən lokal xüsusiyyətləri ilə fərqlənmişdir. Kür-Araz mədəniyyətində lokal variantların izləndiyi digər tədqiqatçılar tərəfindən də qeyd edilmişdir. Tədqiqatçılar qəbir abidələrinin müxtəlifliyinə əsaslanaraq əhalinin etnik tərkibcə fərqli olduğunu qeyd etmişdir. Kür-Araz mədəniyyətini hind-avropalılara, Nax-Dağıstan dil qrupuna aid edən tədqiqatçıların fikirləri ilə razılaşmaq olmaz. Hər şeydən əvvəl bu mədəniyyətin yaranma ocağı Cənubi Qafqaz olduğundan onun kənardan gətirildiyini söyləmək olmaz. Digər tərəfdən olduqca geniş bir əraziyə yayılan və yerli xüsusiyyətlərlə fərqlənən Kür-Araz mədəniyyətini vahid etnosa aid etmək olmaz. Kür-Araz mədəniyyətinin lokal variantlarının müəyyən tayfalarla bağlanması tamamilə təbiidir. Azərbaycanın cə-

nubunda, o cümlədən Cənubi Azərbaycan və Naxçıvanda Kür-Araz mədəniyyətinin daşıyıcıları türkdilli kuti, lullubi, su və turukki tayfaları olmuşdur [1, s. 77-83]. Bu tayfaların Urmiya hövzəsi və Mesopotamiyadakı fəaliyyəti ilə bağlı yazılı mənbələrin məlumatları e.ə. III minilliyin sonuna aiddir. Tədqiqatlar e.ə. III-I minilliklərdə Cənubi Azərbaycan əhalisinin kuti və lullubilərdən ibarət olduğunu göstərmişdir [61, s. 5-8]. Bu tayfaların etnik baxımdan Elam və Zaqro-Elam dil qrupuna aid tayfalara yaxın olduğu da qeyd edilmişdir [49, s. 84, 105-107]. Tədqiqatlar bu dövrdə Azərbaycanda şumer dilinin də yayıldığını göstərir. İstər elam, istərsə də şumer dilinin türk dilləri ilə yaxın olduğu tədqiqatçılar tərəfindən qəbul edilmişdir. Şübhəsiz ki, Kür-Araz mədəniyyətinin formalaşmasında digər türkdilli tayfaların da rolu olmuşdur. Naxçıvanın zəngin toponimikası onların varlığından xəbər verir. Onlar arasında aparıcı rol kuti, lullubi və trukkilərə məxsus olmuş e.ə. III-II minilliklərdə Urmiya gölü hövzəsində bu tayfaların siyasi qurumları mövcud olmuşdur [80, s. 335-337].

**Gəmiqaya təsvirləri.** Nuh peyğəmbərin adı ilə bağlı olan Gəmiqayadan Sovet dövründə bəhs etmək qadağan olunmuşdu. Həzrəti Nuh peyğəmbərin gəmisinin gəlib çatması ehtimal olunan məşhur Gəmiqaya abidəsinin tədqiqi məsələsi siyasi rejimin prinsiplərinə uyğun gəlmədiyi üçün arxa plana keçirilmiş, az qala unutdurulmuşdu. Gəmiqaya mövzusu yenidən yalnız müstəqillik illərində gündəmə gəldi. Azərbaycan Respublikasının dövlət müstəqilliyi qazanması Gəmiqaya abidəsinin siyasi bəraət almasına şərait yaratdı.

Naxçıvan Nuh peyğəmbərin gəmisinin son dayanacağıdır. Bu yer dəniz səviyyəsindən üç min doqquz yüz altı metr yüksəklikdə olan Qapıcıq zirvəsidir. Bura Kiçik Qafqaz dağlarının ən yüksək nöqtəsidir. Qapıcıq toponimi də Gəmiqaya hadisəsi ilə səsləşir. Əfsanəyə görə Nuh peyğəmbərin gəmisinin bir neçə həftəlik səfərdən sonra gəlib yetişdiyi bu yerdə qapı boyda, baca şəklində torpaq sahəsi görünmüş və Nuh peyğəmbər burada gəmidən yerə enmişdir. Beləliklə, Qapıcıq- bəşəriyyətin yeni həyatına açılan kiçik qapı mənasını daşıyır [23, s. 3-9]. Yerli sakinlərin dediyinə görə Qapıcıq zirvəsinin altında, Gəmiqayanın ən yüksək nöqtələrindən birində qayadan çıxan Baca bulağı adlı çeşmə mövcuddur. Baca sözü Qapıcıq sözünün sinonimi kimi də başa düşülə bilər. Nuh peyğəmbərin ayağının ilk dəfə torpağa qoyulduğu yer qapıcıq, yaxud baca boyda imiş. Nuh peyğəmbərin əfsanəvi gəmisi ilə əlaqədar olan yerlərin heç birində Naxçıvan ərazisində olduğu qədər toponimə rast gəlinməyib [23, s. 3-9].

Məlumdur ki, Nuh əsatirinə görə əfsanəvi gəmidə proseslərə nəzarət edən Nuh peyğəmbər uzun bir vaxtdan sonra suyun azalıb-azalmadığını, torpaq əlamətlərinin olub-olmadığını öyrənmək üçün qaranquşu gəmidən havaya buraxmışdır. Nuh əsatirinin Türkiyə versiyasında qaranquş deyil, həmin quşun göyərçin olduğu öz əksini tapmışdır. Naxçıvandan toplanılan əsatirdə isə qaranquşdan bəhs olunur. Bir az sonra qaranquş dimdiyində dəfnə yarpağı geri qayıdır. Bundan başqa,

hadisə ilə bağlı əsas versiyalardan birində geri qayıdan qaranquşun caynaqlarında palçıq əlamətləri müşahidə olunur. Nuh peyğəmbər bu yolla suyun çəkilməkdə olduğunu müəyyən edə bilir. Yəni qaranquş məsələsi Qapıcıq zirvəsindən əvvəlki əhvalatdır. Torpaq əlamətlərinin müjdəsini gətirən qaranquşdur. Gəmiqaya yaxasındakı ən uca nöqtələrdən birində, təxminən Gəmiqayanın üç min yeddi yüz metrlik məsafəsində Qaranquş yaylağı yerləşir. Gəmiqayadakı əsas qayaüstü rəsmlər də Qaranquş yaylağındadır. Burada mindən çox daşın üzərində qayaüstü təsvirlər vardır.

Gəmiqaya yüksəkliklərindəki yer adlarından biri olan Nəbi yurdu da birbaşa Nuh peyğəmbərlə əlaqədar yaranan toponimdir. Məlum olduğu kimi, Nəbi sözünün əsas mənalarından biri də peyğəmbər deməkdir. Nəbi yurdu – peyğəmbər obası mənasını daşıyır. Əsatirdə adı çəkilən Nuhdaban yaşayış yeri də adından göründüyü kimi Nuh əhvalatı ilə əlaqədardır. Nuhdaban yaşayış yerinin yerləşməsi barədə müxtəlif mülahizələr mövcuddur. Xalq arasında Nuhdabanın Ordubad rayonundakı Nəsirvaz kəndindən yuxarıda, yəni Gəmiqaya ətəklərində yerləşdiyi qeyd olunur. Görkəmli rus tarixçi-şərqşünası Konstantin Nikolayeviç Smirnovun «Naxçıvan diyarının tarixi və etnoqrafiyasına dair materiallar» əsərində Nuhdabanın qədim Abbasabad qalasından bir qədər aralıda, Nuh peyğəmbərin məzarının olduğu yerdə mövcud olduğu göstərilir. Hətta K.N.Smirnova görə Nuh peyğəmbərin məzarı da Nuhdabandadır. Nuhdaban – Nuh peyğəmbər və övladlarının dabanlarını yerə basıb ilkin oturaq məskən saldıqları yer mənasını bildirir.

Gəmiqaya təsvirləri Naxçıvanın Tunc dövrü mədəniyyətinin ayrılmaz hissəsidir. Gəmiqaya Ordubad rayonunun Nəsirvaz kəndinin yaxınlığında yerləşir. Qayaüstü təsvirlər başlıca olaraq Qaranquş yaylağında toplansa da, bu tip təsvirlərə Qapıcıq zirvəsindən başlayaraq Nəbiyurdu və Camışölən yaylağınadək geniş bir ərazidə rast gəlmək mümkündür. Başlıca olaraq su qaynaqları ətrafında toplanan qaya təsvirləri qədim insanların təsərrüfatı və mənəvi mədəniyyətini öyrənmək üçün dəyərli mənbədir [9, s. 64-102]. Gəmiqaya təsvirlərini stilistik xüsusiyyətlərinə görə iki böyük qrupa ayırmaq olar. Birinci qrupa simvol-işarə və astral rəsmlər, ikinci qrupa isə sujetli təsvirlər daxildir. Birinci qrup təsvirlər arasında astral rəsmlər, xüsusilə Günəş təsvirləri mühüm yer tutur. İnsanların həyatdakı uğurları təbiətlə, o cümlədən Günəşlə bağlı olduğu üçün istər əkinçi, istər də maldar tayfaların inancında Günəşə sitayiş geniş yer tutmuşdur. Gəmiqayada Günəşi simvolizə edən təsvirlərin çoxluğu da bu inanclarla bağlı olmuşdur.

Gəmiqaya təsvirləri arasında Veneranı simvolizə edən rəsmlər xüsusilə diqqətəlayiqdir. Başlıca olaraq qoşa dairə şəklində verilən Venera ekizlər kultu ilə bağlı olmuşdur. Ekizliklə bağlı tapıntılara digər arxeoloji abidələrin tədqiqi zamanı da rast gəlinmişdir. Onlar qoşa spiral şəklində hazırlanmış asmalar, qoşa disklər və qoşa heyvan fiqurları ilə təmsil olunmuşdur. Mingəçevirdən aşkar olunmuş qoşa disklərdən birinin ortasında insan təsvirinin olması, onların insanların mifik

təfəkkürü ilə bağlı olduğunu deməyə imkan verir.

İkinci qrup rəsmlər insan, heyvan və astral rəsmlərin müxtəlif kompozisiyasından ibarətdir. Bu qrupa daxil olan rəsmlər başlıca olaraq qədim insanların mifik təfəkkürünü əks etdirir. Bu rəsmlər arasında məhsuldarlıq Tanrısı və məhsuldarlıqla bağlı inancları əks etdirən rəsmlər üstünlük təşkil edir. Bu təsvirlərin məzmununu təşkil edən başlıca ideya məhsuldarlığın təmin olunmasıdır. İnsanların yaşayışı üçün həyati əhəmiyyətə malik olan bu ideya təbii stixiyaların – quraqlığın, kütləvi məhvolmanın qarşısının alınması, ovun uğurluluğunun təmin olunması, bu məqsədlə gərəksiz ovun yasaq edilməsi ilə bağlı inancları əks etdirən rəsmlərdə ifadə olunmuşdur. Bu rəsmlərdə animizm, maqiya və totemizmlə bağlı ibtidai inancların qalıqları izlənməkdədir. Naxçıvanda məskənləşən qədim tayfaların ideoloji görüşlərinin xarakterik cəhətlərindən biri balıqla bağlı inanclardır. Balıqqulağı keçirilmiş sırğalar və boyunbağılar qədim geyimlərin ayrılmaz hissəsi olmuşdur. Sarıdərə nekropolundan aşkar olunmuş bəzək əşyalarının birinin üzərində yarıbalıq-yarıinsan mifoloji varlıq təsvir edilmişdir. Balıq təsvirlərinə Gəmiqayada da rast gəlinmişdir. Qədim dövrdə Naxçıvanda qəbirlərə balıqqulağı qoymaq adəti də mövcud olmuşdur. Balığa sitayiş Su Tanrısı ilə bağlı inancları əks etdirmişdir. Qədim Şərq sənətində, o cümlədən skiflərdə polimorf varlıqların xtonik xarakteri balıq quyruğu ilə ifadə edilmişdir. Rəsmlərdə əks olunan ikinci başlıca ideya əks başlanğıcların mübarizəsidir. Bu ideya yırtıcı heyvanların dırnaqlı heyvanları parçalaması səhnələrinin təsvirində aydın şəkildə göstərilmişdir.

Gəmiqaya təsvirlərində obrazlı şəkildə ifadə olunan Göy inancı, Göy cisimlərinə sitayiş, dağ kultu, Göy aləminin nizamlayıcı başlanğıc funksiyasını yerinə yetirməsi, bu dünya və o biri dünya anlayışlarının ikili müxalifət şəklində verilməsi türk xalqlarının mifologiyasında izlənmişdir. Bu düşüncə tərzi indiyədək Azərbaycan xalqının sənət əsərlərində, folklorunda və etnoqrafik materiallarda yaşamaqda davam edir. Azərbaycan ərazisində yaşayan qədim tayfaların mifoloji görüşlərinin formalaşmasına qədim Şərq mədəniyyəti, xüsusilə Şumer mədəniyyətinin müəyyən təsiri olmuşdur. Bu təsir digər arxeoloji abidələrdə olduğu kimi Gəmiqaya təsvirlərində özünü göstərir.

Naxçıvan arxeoloji abidələrinin tədqiqi bu ərazidə formalaşan mədəniyyətlərin Ön Asiya mədəniyyətləri ilə qarşılıqlı əlaqədə inkişaf etdiyini və qonşu ölkələrə təsir etdiyini təsdiq edir. Bəzi araşdırıcılar Maykop mədəniyyətində Misir mədəniyyətinin təsirini ortaya çıxarmağa, bu mədəniyyətin Balkanlar üzərindən Şimali Qafqaza gəlməsini sübut etməyə çalışsa da, Ön Asiya mədəniyyətinin Qafqaz üzərindən Şimala doğru yayıldığı çoxsaylı arxeoloji tapıntılarla sübut olunur. Gəmiqaya təsvirlərinin araşdırılması bir daha sübut edir ki, Azərbaycan ərazisi qədim Şərq mədəniyyətinin şimala doğru ötürülməsində bir körpü olmuşdur.

Gəmiqaya abidələrinin tarixləndirilməsi Azərbaycan arxeologiyasının aktual məsələlərindən biridir. Gəmiqaya təsvirlərinin araşdırılması burada müxtəlif

dövrlərə aid və müxtəlif xarakterli rəsmlərin olduğunu göstərir. Arxeoloji araşdırmalar Azərbaycanda mifoloji təsəvvürlərin Paleolit dövründə meydana çıxdığını təsdiq edir. Bu dövrdə axirət dünyasına inam, təbiət qüvvələrinə, ulu əcdada sitayiş, totem və ovsun kimi dini təsəvvürlər meydana çıxmışdır [1, s. 23]. Naxçıvan əhalisinin qədim dini təsəvvürlərini öyrənmək üçün ən qədim tapıntılar hələlik Neolit dövrünə aiddir. Neolit və Eneolit dövrünə aid qəbir abidələrinin tədqiqi qədim insanlarda mifoloji düşüncə tərzinin formalaşdığını təsdiq edir. Gil qablar üzərindəki təsvirlər və dəfn adətləri qədim insanların Günəşə, Aya və təbiət qüvvələrinə sitayiş etdiyini, məhsuldarlığın təmin olunması ilə bağlı müəyyən ayinlərin keçirdiyini deməyə imkan verir. Eneolit və Erkən Tunc dövrünə aid ev ziyarətgahları, Erkən Tunc dövrünə aid müxtəlif heyvan fiqurları və sitayiş əşyalarının aşkar olunması dini təsəvvürlərin insanların həyatında mühüm rol oynadığını deməyə əsas verir. Erkən Tunc dövründə maldarlığın insanların həyatında mühüm rol oynaması, o cümlədən iribuynuzlu heyvanlardan qoşqu qüvvəsi kimi istifadə olunması öküz kultunun geniş yayılmasına səbəb olmuş, sitayiş əşyaları öküz buynuzu formasında hazırlanmışdır.

Orta Tunc dövründə təsviri sənətin inkişafı qədim insanların ideoloji təsəvvürlərinin daha aydın ifadəsi üçün şərait yaratmışdır. Təsviri sənət nümunələrində dünyanın şaquli və üfüqi quruluşu ilə bağlı təsəvvürlər öz əksini tapmışdır. Türk mifologiyasında, o cümlədən Azərbaycan türklərində dünyanın quruluşu şaquli olaraq üç yerə bölündüyü kimi, üfüqi olaraq dörd yerə bölünmüşdür. Bu bölgü bəzən beşlik şəkilində – dünyanın mərkəzi və onun dörd tərəfi şəklində düşünülmüşdür. Boyalı qabların xarici səthinin üç qurşağa bölünərək naxışlanması, həyat ağacı təsvirləri, Qızılburun nekropolundan aşkar olunan beş çıxıntılı başlığı olan sancaqlar və digər faktlar bu ideoloji təsəvvürlərin mövcudluğunu təsdiq edir. Maday Qaradağın başındakı dörd qayın ağacından nənni asaraq yeni doğulmuş uşağını ora qoyur. Burada dağ yerin mərkəzi, qayın ağacları isə dünyanın dörd tərəfini simvolizə edir. Qayın ağacları uşağı dünyanın dörd tərəfindən, Qaradağ isə göydən gələn bəladan qorumalı idi. Yerüstü məkanın dörd hissəli strukturu haqqındakı təsəvvürlər, habelə onun dörd tərəfinin hər birinin qoruyucu Tanrısı olması haqqındakı inanclar türk xalqlarının mifologiyası üçün xarakterikdir. Bu qoruyucu Tanrılar bəzən zoomorf və antopomorf obrazlarla verilmişdir. Qədim mədəniyyət nümunələrində xaçşəkilli işarələrin yaranması bu ideologiya ilə bağlı olmuşdur. İlk nümunələrinə Şumer mədəniyyətində rast gəlinən bu tip xaçşəkilli təsvirlər Naxçıvanın e.ə. IV-I minilliyə aid mədəniyyət nümunələrində geniş şəkildə əks olunmuşdur.

Qədim insanların təsəvvürünə görə bu dünya və o biri dünya arasında daima mübarizə gedir, Göy aləmi və orda məskun olan Tanrılar bu mübarizəni nizamlayır və dünyada ədalətin təntənəsini qoruyur. Heyvanların mübarizəsi səhnəsi, heyvanbaşlı bilərziklər, çərxifələkşəkilli işarələr, müxtəlif heyvan təsvirləri və digər sənət nümunələrinin öyrənilməsi Naxçıvanın qədim sakinlərinin mifologiyası

ilə türk xalqlarının mifologiyası arasında genetik bağlılıq olduğunu təsdiq edir.

Qədim insanlar həyatın o biri dünyada davam etdiyinə inandıqları üçün axirət dünyasında insanların həyatını təmin etmək məqsədilə müxtəlif ayinlər icra etmişlər. Yuxarıda qeyd etdiyimiz kimi, Neolit və Eneolit dövründə ölülərin oxra ilə boyanması adəti mövcud olmuşdur. Tunc dövründə isə qəbirlərin üzərində kurqan düzəltmə, onların kromlexlərlə əhatə edilməsi adəti mövcud olmuşdur. Nəhəcir nekropolunda ikiqat kromlexlə əhatə olunmuş qəbirə də rast gəlinmişdir. Qəbirlərin üzərində kurqan düzəltmə və onların kromlexlərlə əhatə olunması qədim əkinçi-maldar tayfaların Günəşə inamı ilə bağlı olmuşdur [11, s. 46]. Kolanı nekropolunda daş qutu tipli qəbirlərin birinin divarında Günəş Tanrısını simvolizə edən təsvirin olması Günəşlə bağlı inancların geniş yayıldığını təsdiq edən dəlillərdən biridir. Qədim türklərin inamına görə cəmiyyətin seçilmiş üzvləri öldükdən sonra onların ruhu Göyə çəkilərək Günəşə qovuşurmuş.

Gəmiqaya abidələrinin tarixi dövrləri yerli arxeoloji mədəniyyətlərin inкişaf xüsusiyyətlərini və Ön Asiya mədəniyyətinin Cənubi Qafqaza erкən təsirini nəzərə almağı tələb edir. Araşdırmalar e. ə. VI-I minilliкlərdə Naxçıvan ərazisinin Cənubi Azərbaycan və Şərqi Anadolu ilə vahid iqtisadi mədəni rayona daxil olduğunu göstərir [43, s. 20-44]. Ovçulartəpəsindən aşkar olunan küpələr üzərindəki təsvirlər Naxçıvanda incəsənətin e.ə. V minillikdə inkişaf etmiş səviyyədə olduğunu göstərir. Fiкrimizcə, Gəmiqaya təsvirlərinin əкsəriyyətini e. ə. V-I minilliyə aid etmək olar. Bəzi rəsmlərin bənzərlərinə arxeoloji sənət əsərlərində rast gəlindiyindən onların nisbi xronologiyasını müəyyən etməк mümкündür.

Sənət nümunələrinin tədqiqi Naxçıvanın qədim tayfalarının bitkin mifoloji təfəkkür tərzinə yiyələndiyini göstərir. Qədim sənət əsərlərində, etnoqrafik materiallarda, folklor nümunələrində əks olunan təsəvvürlərə görə insanların yaşadığı dünyanın yuxarısında və aşağısında da bir dünya vardır. Tanrılar, xeyirxah qüvvələr Göydə, o biri dünya insanların yaşadığı dünyanın altında, yaxud onların ətrafındadır. Bir-birinə qarşı qoyulan bu dünya və o biri dünyadakı proseslər qarşılıqlı əlaqədədir. Ölüm həyatın dəyişilməz şərtidir, canlıların daimi intibahının və təzələnməsinin rəhnidir. Göyün, Yerin və o biri dünyanın sahibi mifoloji obrazlarla verilmişdir. Bu varlıqlarla əlaqə yaradılması, dua edilməsi, qurban kəsilməsi və digər ayinlərin icra edilməsi onların həyatındakı uğurların əsas təminatıdır. Arxeoloji sənət nümunələrindəki təsvirlər də bu inanclarla bağlıdır.

**Orta Tunc dövrü.** E.ə. III minilliyin sonunda Azərbaycanın cənub rayonlarında baş verən sosial-iqtisadi dəyişikliklər Naxçıvanı da əhatə etmiş və bu ərazidə boyalı qablarla xarakterizə edilən yeni bir mədəniyyət formalaşmışdır. Orta Tunc dövrü adlandırılan bu dövr I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızılburun, Nəhəcir, Şortəpə və digər abidələrdə aparılan araşdırmalarla öyrənilmişdir. II Kültəpə yaşayış yerində aparılan araşdırmalar zamanı qədim şəhər dövlətlər üçün xarakterik olan xüsusiyyətlər aşkar edilmişdir. V.H.Əliyevin apardığı araşdırmalar




*Naxçıvanın Orta Tunc dövrü mədəniyyəti və onun yayılma arealı*

göstərmişdir ki, II Kültəpə e.ə. II minilliyin əvvəlində ətrafı divarla əhatə olunmuş yaşayış yerinə çevrilmişdir [50, s. 161]. Narınqalanın divarları 2-2,5 m qalınlığındadır. O dördkünc formalı bürclər və kontrforslarla möhkəmləndirilmişdir. Arxeoloji qazıntılar zamanı yaşayış yerinin Narınqalasının planı tamamilə müəyyənləşdirilmiş, onun ilkin şəhərlər üçün xarakterik olan strukturu aşkara çıxarılmışdır. Narınqalanın proporsional arxitekturası, binaların küçələr boyunca yerləşməsi yaşayış yerinin əvvəlcədən müəyyən edilmiş plan əsasında tikildiyini deməyə imkan verir. Hakim təbəqənin və varlıların yaşadığı Narınqalanın yaşayış yerinin digər hissələrindən

qalın divarla ayrılması cəmiyyətdə kəskin sosial ziddiyyətlərin olduğunu göstərir. Bu dövrdə insanlar dördkünc formalı təkotaqlı və çoxotaqlı evlərdə yaşamışdır. İstehsal müəssisələri Narınqalanın xaricində yerləşdirilmişdir. Şəhərin bu qismində aparılan qazıntılar zamanı dulus kürələri, dulusçuluq emalatxanaları, metaləritmə sobalarının qalıqları aşkar olunmuşdur [50, s. 30-38].

Orta Tunc dövrünə aid yaşayış yerlərinin tədqiqi bu dövrdə Naxçıvanda güclü tayfa ittifaqlarının və şəhər dövlətlərin fomalaşdığını təsdiq edir. II Kültəpə, Şahtaxtı, Qızılburun kimi yaşayış yerləri həm mədəni, həm də mühüm inzibati-siyasi mərkəzlər rolunu oynamışdır. Əhali başlıca olaraq oturaq həyat tərzi keçirmiş, əkinçilik və yaylaq maldarlığı ilə məşğul olmuşdur. İqtisadiyyatın yüksək inkişafı sənətkarlığın xüsusi istehsal sahəsinə çevrilməsinə imkan vermişdir. Sənətkarlığın ən mühüm sahələri dulusçuluq, metalişləmə, toxuculuq və daşişləmə olmuşdur.

Naxçıvanın Orta Tunc dövrü mədəniyyətinin ən mükəmməl əsərləri boyalı keramikadır. Monoxrom və polixrom olaraq iki böyük qrupa ayrılan boyalı qabların dörd inkişaf mərhələsindən keçdiyi müəyyən edilmişdir [21, s. 43-90]. Lakin son illərin araşdırmaları bir neçə aralıq mərhələnin də olduğunu təsdiq edir [44, s. 32-33]. Naxçıvanın Orta Tunc dövrü üçün xarakterik olan boyalı qabların bənzərlərinə Urmiya hövzəsi, Mil düzü, Şimal-Şərqi Anadolu, Gürcüstan və indiki Ermənistan ərazisində rast gəlinmişdir. Bütöv olaraq götürüldükdə, müəyyən lokal fərqlər istisna olunmaqla Urmiya hövzəsi, Van gölü çevrəsi, Qafqaz dağlarının cənub ətəkləri, Mil-Muğan düzləri ilə hüdudlanan bir bölgənin ortaq mədəniyyətə malik olduğu aydın şəkildə görünür. Bu geniş ərazidə yayılan boyalı qabların bütün xüsusiyyətləri Naxçıvanda izlənmişdir. Gürcüstan və Ermənistanda yayılan tək stil boyalı qabların əksinə olaraq Naxçıvan, Şərqi Anadolu və Urmiya hövzəsində boyalı qablar daha çox çeşidlilik göstərmiş və müxtəlif mərhələlərdən keçmişdir. Şərqi Anadolu, Cənubi Qafqaz və Qərbi İranda ovalıqlarda yerləşən yaşayış yerlərində yaşayış kəsildiyi halda, Naxçıvanda oturaq həyat heç bir fasiləyə uğramadan davam etmişdir. Bununla birlikdə zəngin otlaq və su qaynaqlarına malik olan dağ ətəklərində yarımköçəri həyat tərzi davam etmişdir. Orta Tunc dövründə qala tipli yaşayış yerlərinin yayılması köçmə maldarlığın inkişafı, əhalinin müdafiə ehtiyacının artması ilə bağlı olmuşdur. Qala tipli yaşayış yerlərindən Orta Tunc dövrünün erkən mərhələsinə aid keramika məmulatının aşkar olunması bu proseslərin e.ə. III minilliyin ortalarından başladığını təsdiq edir. Naxçıvanın Orta Tunc dövrü yaşayış yerləri güclü müdafiə divarı ilə əhatə olunmuş, bu ərazidə güclü tayfa ittifaqları formalaşmışdır. Orta Tunc dövrünə aid ən möhtəşəm abidələrin Naxçıvanda yerləşməsi bu bölgənin Orta Tunc dövrü mədəniyyətinin əsas mərkəzi olduğunu təsdiq edir. Urmiya hövzəsi və Naxçıvandan fərqli olaraq Şərqi Anadoludakı yaşayış yerlərində Orta Tunc dövrü təbəqəsinə rast gəlinməməsi, bu dövrə aid arxeoloji abidələrin başlıca olaraq qəbristanlıqlarla təmsil olunması həyatın köçəri xarakterdə olduğunu göstərir [44, s. 55-58].

Arxeoloji araşdırmalar göstərir ki, Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda yaşayan tayfalar oturaq və köçəri həyat tərzi keçirmişdir. Oturaq tayfaların əsas məskənləri Naxçıvan və Urmiya hövzəsi, köçəri tayfaların məskəni isə Şərqi Anadolu olmuşdur. Gürcüstan və Ermənistan yaylaqlarında rast gəlinən qəbir abidələri bu tayfaların köç yolları üzərində salınmışdır. Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda boyalı qablar bütün qəbirlərdən tapıldığı halda Gürcüstanda yayılan Trialeti mədəniyyətində boyalı qablar yalnız varlılara aid qəbirlərdən aşkar olunmuşdur [63, s.163]. Bu da boyalı qabların Gürcüstana idxal malı olaraq daxil olduğunu təsdiq edir.  Naxçıvanda meydana gələn bu mədəniyyət Mil-Muğan düzünə, Göyçə ətrafına və Gürcüstanadək yayılmışdır [44, s. 58].

Bu dövrdə Cənubi Qafqazın böyük bir qismində, o cümlədən Gürcüstan, Ermənistan və Azərbaycanın şimal rayonlarında Orta Tunc dövrü mədəniyyəti qara rəngli, cilalı, bəzən isə basma naxışlı keramika məmulatı ilə xarakterizə edilmişdir. Bu mədəniyyətin Kür-Araz mədəniyyəti əsasında formalaşdığı düşünülməkdədir [43, s. 34]. Arxeoloji abidələrin araşdırılması Azərbaycanın cənubunda, o cümlədən Naxçıvanda Boyalı qablar mədəniyyətinin yayıldığı dövrdə Azərbaycanın şimal rayonlarında Kür-Araz mədəniyyəti tayfaların kompakt şəkildə yaşamaqda davam etdiyini təsdiq edir.  Kür-Araz mədəniyyəti tayfaları Azərbaycanın şimalına lullubi tayfaları tərəfindən sıxışdırılmışdır. Odur ki, Boyalı qablar mədəniyyətinin yaradılmasında bu tayfaların müəyyən rol oynadığı şübhəsizdir. Lullubi tayfalarının inanclarında səma cisimlərinə sitayiş mühüm yer tutmuşdur. Naxçıvan boyalı qabları üzərində səma cisimlərinin təsvirləri də bununla bağlıdır. II Kültəpə və Nəhəcirdən aşkar olunmuş boyalı qablar üzərində səkkizguşəli ulduz təsvirlərinə rast gəlinmişdir. Bu təsvirlər lullubi hökmdarı Anubaninin qələbə abidəsi üzərindəki ulduz təsvirinə bənzərdir. Anubaninin qələbə abidəsi üzərində təsvir edilən İlahənin geyimi ilə Qızılburun boyalı küpəsi üzərindəki qadının geyimi arasında da xeyli bənzərlik vardır. Boyalı qablar mədəniyyətinin yaradılmasında yazılı mənbələrdə xatırlanmayan naxçı tayfaları da müəyyən rol oynamışdır. Naxçıvanın Orta Tunc dövrü abidələrinin yaxınlığında naxçı tayfaları ilə bağlı toponimlərin saxlanması bunu təsdiq edir. Orta Tunc dövrü mədəniyyətinin formalaşmasında mühüm rolu olan tayfalardan biri də kassit [50, s. 165-166], yaxud kas tayfaları olmuşdur. Assuriya mənbələrində «kaşşu» adlandırılan bu tayfalarla bağlı Naxçıvanda xeyli yer adları qalmışdır.  Kosalı, Kasqalan, Qozakar, Qazançı, Miskinkas və başqaları buna misal ola bilər [36, s. 82-89].

Orta Tunc dövrünün erkən mərhələsi Naxçıvan ərazisində skeletsiz qəbirlərlə xarakterizə edilirsə, son mərhələdə tək, cüt və kollektiv dəfnlərə rast gəlinir. Orta Tunc dövrünün son mərhələsində dəfn adətində meydana gələn dəyişiklik, şübhəsiz ki, ölkənin siyasi həyatında yeni tayfaların rolunun artdığını göstərir. Ümumiyyətlə, skeletli və skeletsiz qəbirlər Naxçıvanda Erkən Tunc dövründən mövcud olmuşdur. Bu dəfn adətlərinə Azərbaycanın digər rayonlarında da təsadüf edilmişdir. Arxeoloji

araşdırmalar göstərir ki, ölkənin tarixi iqtisadi-siyasi dəyişikliklərə uyğun olaraq tarix səhnəsində müəyyən etnosların güclənməsi ilə əlamətdar olmuşdur. Bu dövrdə Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda polixrom boyalı qablarla xarakterizə edilən mədəniyyət yayılmış, Cənubi Qafqazın digər regionlarında isə buna rast gəlinməmişdir. Bu faktlar Azərbaycanda məskənləşən qədim tayfaların özünəməxsus mədəniyyəti olduğunu təsdiq etməklə, bu mədəniyyətin kənardan gətirilməsi ilə bağlı irəli sürülən qeyri-elmi iddiaları tamamilə rədd edir. Qeyd edilməlidir ki, skeletsiz qəbirlərin Erkən Tunc dövründən başlayaraq Son Tunc dövrünədək davam etməsi bu ərazidə müxtəlif etnik qrupların məskənləşdiyini, lakin onların vahid mədəniyyətə malik olduğunu və bir-biri ilə qaynayıb qarışdığını təsdiq edir.

**İlkin şəhər mədəniyyətinin yaranması.** Naxçıvan ərazisinin əlverişli coğrafi mövqeyi, onun Yaxın Şərq ölkələri ilə bilavasitə qonşuluqda yerləşməsi, Naxçıvan ərazisi Yaxın Şərqlə Cənubi Qafqaz arasında iqtisadi-mədəni əlaqələrin inkişafında mühüm rol oynamışdır. Naxçıvanın daş duz və mineral xammal mənbələri ilə zəngin olması, habelə bu ərazinin Cənubi Qafqazı Yaxın Şərqlə birləşdirən ticarət yolunun qovşağında yerləşməsi ticarətin və sənətkarlığın inkişafına əlverişli şərait yaratmışdır. Son illərin tədqiqatları e.ə. V-IV minilliklərdə Cənubi Qafqazı Yaxın Şərqlə birləşdirən obsidian ticarətində Naxçıvanın mühüm yer tutduğunu göstərir [90]. Birləşmiş Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının Duzdağda apardığı araşdırmalar e.ə. V minillikdə mədənçiliyin Naxçıvan sakinlərinin həyatında mühüm yer tutduğunu, duzun yalnız şəxsi istehlak üçün deyil, həm də ticarət məqsədilə istehsal edildiyini göstərir. Araşdırmalar Naxçıvanın həmçinin erkən metallurgiya mərkəzlərindən biri olduğunu təsdiq edir. İqtisadi-mədəni əlaqələrin, ticarətin və sənətkarlığın inkişafı bu ərazidə şəhər tipli yaşayış yerlərinin formalaşmasına səbəb olmuşdur[50].

Arxeoloji tədqiqatlar Naxçıvanda şəhər tipli yaşayış yerlərinin e.ə. III minillikdə, yəni beş min il bundan əvvəl formalaşdığını təsdiq etmişdir. Azərbaycanda şəhər mədəniyyəti öyrənilməsi sahəsində ilk addımlar V.H.Əliyev tərəfindən atılmışdır. O, II Kültəpədə apardığı araşdırmalarla Azərbaycanda, o cümlədən Naxçıvanda şəhər mədəniyyətinin olduğunu təsdiq etmişdir**.** Bu yaşayış yeri Babək rayonunun Yuxarı Uzunoba kəndi yaxınlığında Cəhriçayla Naxçıvançayın birləşdiyi ərazidə yerləşir. Birbaşa Erkən Tunc dövrü təbəqəsinin üzərində yerləşən Orta Tunc dövrü təbəqəsi 4,5 m qalınlığındadır [50, s. 25 – 26]. Araşdırmalar zamanı bu təbəqədə tikinti qalıqları ilə seçilən dörd mərhələnin varlığı ortaya çıxarılmışdır. II Kültəpə yaşayış yerini əhatə edən müdafiə divarı müəyyən məsafədə yerləşdirilən dördkünc formalı bürclərlə möhkəmləndirilmişdir [50, s. 27]. Müdafiə divarının möhkəmləndirilməsi, habelə onun memarlıq xüsusiyyətlərinin effektini artırmaq üçün dördkünc formalı kontrforslardan da istifadə edilmişdir [50, s. 27]. Divarların bəzi qismində çay daşlarından çəkilmiş üzlüyün qalıqları saxlanmışdır [50, s. 27].

Faκtlar göstərir κi, bu dövrdə divarların xarici görünüşünün mükəmməl olmasına xüsusi fiκir verilmişdir.

II Kültəpə yaşayış yerinin xaraκteriκ xüsusiyyətlərindən biri də κüçələrə daş döşənməsidir [50, s. 29]. Şəhər mədəniyyəti üçün xaraκteriκ olan bu xüsusiyyət yaşayış yerinin təmizliyinə də müəyyən diqqətin ayrıldığına sübutdur. V.H.Əliyevin apardığı araşdırmalar II Kültəpənin eni 3 m olan dərin xəndəκlə əhatə olunduğunu göstərir. Ehtimal κi, şəhərdəκi çirκab sularını şəhərdən xaricə çıxarmaq üçün də müəyyən κanallar olmuşdur. II Kültəpənin daxili struκturu κifayət qədər öyrənilməsə də, ən mühüm inzibati binaların və idarə mərκəzlərinin, habelə şəhərin haκim dairələrinin yaşayış evlərinin Narınqalada yerləşdiyi ehtimal olunur [50, s. 38]. Şəhərin bu qismində ərzaq anbarlarının olması ehtimalı da vardır.

II Kültəpə yaşayış yeri üçün xaraκteriκ olan cəhətlərdən biri də istehsal müəssisələrinin Narınqaladan κənarda yerləşdirilməsidir. Şəhərin qazıntıları zamanı Narınqalanın xaricində dulus κürələri, dulusçuluq emalatxanası, metaləritmə sobalarının qalıqları aşκar edilmişdir [50, s. 30-34]. Araşdırmalar göstərir κi, istehsalla məşğul olan əhali Narınqalanın xaricində məsκən salmışdır.

Orta Tunc dövründə ətrafı möhkəmləndirilmiş yaşayış yerlərindən biri də Şahtaxtı olmuşdur. 1979-1981-ci illərdə V.H.Əliyev və Q.H.Ağayevin rəhbərliyi ilə Şahtaxtı yaşayış yerində aparılan araşdırmalar zamanı Orta Tunc dövrünə aid divar qalıqları aşkar edilmişdir [1, s. 44-45]. Araşdırmalara əsasən demək olar ki yaşayış yeri bir neçə cərgə divarla əhatə olunmuşdur. Şübhəsiz ki onun Narınqala hissəsi hakim təbəqənin yaşaması üçün nəzərdə tutulmuşdur. Bu yaşayış yerində həyat dəmir dövrünədək davam etmiş, həmin dövrdə də yaşayış yeri qala-şəhər kimi mühüm inzibati mərkəz olmuşdur.

Naxçıvanda şəhər mədəniyyətinin izlərini yaşadan ərazilərdən biri də Nuhdaban yaşayış yeridir. Bu Naxçıvanın cənub tərəfində yerləşən ilkin şəhərdir. Fikrimizcə, Naxçıvan şəhərinin adı da Nuhçıxan sözündən yaranmışdır. Nuhdaban-Nuhçıxanın ilkin şəhər statusu qazanmış adıdır. Böyük ehtimalla “Köhnə qala” adlanan qala divarları da vaxtilə Nuhdaban şəhərinin üzərində salınmış, Nuh peyğəmbərin məzarı da bu qalanın içərisində mühafizə olunmuşdur. Həmin qalanın “Köhnə qala” adlandırılması da onun sasanilərdən əvvəl olduğunu, bu qalanın ətrafında və üzərində əsaslı yeniləşmə işlərinin aparıldığını göstərir. Rəvayətə görə Nuhdaban şəhəri adından da göründüyü kimi Nuh peyğəmbərin adı ilə bağlı olmuş ilkin şəhər tipli yaşayış yeridir. Nuhdabanda bir neçə təbəqədən ibarət qəbiristanlığın olması da burada məskunlaşmanın qədim tarixindən xəbər verir. Nuh peyğəmbərin dabanını basdığı, yəni oturaq həyatın başladığı yer mənasını ifadə edən Nuhdaban ilkin şəhəri sonralar genişlənərək Naxçıvan şəhərinə çevrilmişdir. Rəvayətlərdə Nuhdaban ərazisində üzüm bağlarının olmasına dair olan motivlər bu yaşayış yerinin oturaq həyata aid olduğunu göstərir. Əfsanədə üzüm bağlarının Nuh peyğəmbər tərəfindən salındığı bildirilir. Nuhdaban yaşayış yerinin Əshabi-

Kəhf ziyarətgahının yaxınlığında olması bu ziyarətgahın Nuh peyğəmbərin adı ilə bağlı olan tanrıçılığın əsas mərkəzlərindən biri olduğunu yəqinləşdirməyə əsas verir. Nuhdaban ərazisində yeraltı sığınacaq tipli mağaralar, bal və su mənbələri haqqında olan rəvayətlər də burada yaşayışın olduğunu təsdiqləyir. XX əsrin əvvəlində görkəmli rəssam Bəhruz Kəngərli Nuhun qəbrinin orijinaldan rəsmini çəkmişdir.

Bu dövrün qədim şəhərlərindən biri də Naxçıvan şəhəri olmuşdur. Qədim Naxçıvan nekropolu 1968-ci ildə tikinti işləri görülərkən təsadüfən aşkar olunmuşdur. O, şəhərin şimalında, Naxçıvan-Şahbuz yolunun sol tərəfində yerləşir, Nekropolun ərazisi hərbi şəhərciyin müasir tikililəri altında qalmışdır. 1968-ci ildə dağıdılmış qəbirlərin materialları toplanaraq Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Aşkar edilmiş materialların bir qismini V.H.Əliyev çap etdirmişdir. Aşkar edilmiş materiallar e.ə. II minilliyə aiddir. Bu materiallar Naxçıvanın digər abidələrindən aşkar olunmuş şəhər mədəniyyətinə aid keramika məmulatı ilə eyni xüsusiyyətlərə malikdir və burada qədim dövrdən yaşayışın olduğunu təsdiq edir. Naxçıvan şəhərinin qədim mədəniyyəti Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf edib təşəkkül tapmışdır. E.ə. III minilliyin sonunda iqtisadiyyatın və ticarətin inkişafı Naxçıvanda şəhər tipli yaşayış məskənlərinin yaranmasına imkan vermişdir. Naxçıvan şəhəri ərazisində aşkar edilmiş ən qədim tapıntılar e.ə. II minilliyin ikinci yarısına aiddir. Bu tapıntılar təsadüfən dağıdılmış qəbirlərdən aşkar edilmiş boyalı qablar, tunc əşyalar və başqa maddi-mədəniyyət nümunələrindən ibarətdir. Maddi-mədəniyyət qalıqlarına əsaslanaraq bəzi tədqiqatçılar Naxçıvan şəhərinin əsasının e.ə. III minillikdə qoyulduğunu qeyd etmişdir. Tədqiqatlar zamanı Naxçıvan şəhəri ərazisində Tunc dövrünə aid qəbir abidələri, Antik dövrə aid təsərrüfat binalarının qalıqları və qəbir abidələri aşkar olunmuşdur. Belə güman etmək olar ki, yaşayış yerinin qalıqları müasir tikintilərin altında qalmışdır. Naxçıvan şəhərinin ərazisində e.ə. III minillikdə yaşayışın olması heç bir şübhə doğurmur. Qədim Naxçıvan şəhərinin qalıqları indiki hərbi şəhərciyin müasir tikintiləri, yaxud Orta əsr Naxçıvan şəhərinin xarabalıqları altında qalmışdır. Qeyd etmək lazımdır ki, qədim Naxçıvan şəhərinin yaxınlığında e.ə. II minilliyin əvvəllərində bir neçə yerdə, o cümlədən Şahtaxtı, Qızılburun və Qarabağlarda şəhər tipli yaşayış yerləri mövcud olmuşdur. Naxçıvan şəhəri e.ə. III minillikdə təşəkkül tapan qədim şəhər mədəniyyətinin ən mühüm mərkəzlərindən biri olmuşdur

**Son Tunc və Erkən Dəmir dövrü.** E.ə. II minilliyin sonu və I minilliyin əvvəlində bu regionun tarixi mürəkkəb ictimai-siyasi hadisələrlə zəngin olmuşdur. Naxçıvanın bu dövrə aid mədəniyyət abidələrinin bir qrupu boyalı, digər qrupu isə boz rəngli keramikanın üstünlük təşkil etməsi ilə fərqlənir. Qızılburun və Plovdağdan aşkar olunmuş boyalı keramika ilə fərqlənən qəbir abidələri üçün tək, cüt və kollektiv dəfnlər xarakterikdir. Boz rəngli keramika ilə seçilən qəbir abidələrini üç

qrupa bölmək olar. Birinci qrupa skeletsiz qəbir abidələri daxildir. Arxeoloji materialların təhlilinə əsasən bu qrupun Orta Tunc dövrü mədəniyyətinin davamı olduğunu demək olar. İkinci qrupa kollektiv dəfnlərlə xarakterizə edilən torpaq qəbirlər, üçüncüyə isə kollektiv dəfnlərin xarakterik olduğu daş qutu tipli qəbirlər aiddir. Sonuncu iki qrupda Xocalı-Gədəbəy mədəniyyətinin təsiri əks olunmuşdur. Bu dövrdə Azərbaycan ərazisində Xocalı-Gədəbəy mədəniyyətinin formalaşması prosesi getmişdir. Azərbaycanın şimalında təşəkkül tapan bu mədəniyyət oradan Azərbaycanın cənub rayonlarına, o cümlədən Naxçıvana yayılmışdır. Naxçıvan ərazisində bu mədəniyyətin təsiri I Kültəpə, II Kültəpə, Şahtaxtı, Kolanı, Sarıdərə, Bayəhməd, Hakkıxlıq və digər abidələrdə izlənilmişdir [50, s. 124; 8, s. 73-74; 55, s. 217-227]. Naxçıvanın dağlıq və dağətəyi zonasında Xocalı-Gədəbəy mədəniyyətinin təsirini əks etdirən yaşayış yerlərində həyat mövsümi xarakterdə olduğu üçün mədəni təbəqə az yığılmışdır. Bu da həmin tayfaların köçəri həyat sürdüyünü və təsərrüfatda maldarlığın əsas yer tutduğunu təsdiq edir. Bu qrupa məxsus abidələrdən xeyli miqdarda silah tapılması, tayfa başçısına aid qəbirin aşkar olunması müəyyən hərbi qüvvəyə malik iri tayfa birliklərinin formalaşdığını göstərir. Bu dövrdə Naxçıvanda tayfa ittifaqlarının formalaşmasında Azərbaycanın şimalında və cənubunda məskənləşən aborigenlərin müəyyən rolu olmuşdur.

Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyətinin təsirini əks etdirən kurqanaltı torpaq qəbirlər və daş qutularda ağ inkrustasiyalı keramika aşkar olunmamış, kannelyur naxışlı keramika isə hər iki qrupa aid qəbir abidələrində tapılmışdır. Sarıdərə nekropolunda kurqanaltı torpaq qəbirlər və daş qutular eyni ərazidə, bir-birinin yaxınlığında aşkar olunmuşdur. Faktlar təsdiq edir ki, müəyyən etnik əlamətlərin saxlanmasına baxmayaraq bu dövrdə Xocalı-Gədəbəy mədəniyyətini yaradan etnosların siyasi və mədəni cəhətdən birləşmə prosesi başa çatmışdır.

Xocalı-Gədəbəy mədəniyyətinin Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinə təsiri bu tayfaların cənuba doğru hərəkəti ilə bağlı olmuşdur [8, s. 73]. Cənubi Azərbaycanda bu mədəniyyətin təsirini əks etdirən abidələrin aşkar olunması da bunu təsdiq edir. Bu dövrdə Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyətinin elemenləri ilə seçilən abidələrlə yanaşı boyalı qablarla xarakterizə olunan abidələrin mövcudluğu, Boyalı qablar mədəniyyəti üçün xarakterik olan elementlərin, o cümlədən çaynik tipli qabların Xocalı-Gədəbəy tipli abidələrdə və əksinə Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik elementlərin Boyalı qablar mədəniyyəti nümunələrində yayılması bu tayfalar arasında siyasi və mədəni birləşmə prosesinin getdiyini göstərir [43, s. 37]. Boyalı qablar mədəniyyətinin geniş yayıldığı I Kültəpə, II Kültəpə və Şahtaxtıda Xocalı-Gədəbəy mədəniyyətinə məxsus elementlərin izlənməsi müəyyən əhali qrupunun, ola bilsin ki, hərbi qarnizonların bu yaşayış yerlərində məskənləşdiyini göstərir. Şübhəsz ki, bu hadisələr Assuriyanın Azərbaycanın cənubuna fəal hərbi müdaxiləsi ilə əlaqədar tayfalar arasında yaranan hərbi-siyasi ittifaqla bağlı olmuşdur. E.ə. II minilliyin sonu və

I minilliyin əvvəlində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr və xarici işğal təhlükəsi lullubi və kutilərin Urmiya gölü hövzəsində yenidən möhkəmlənməsinə, Manna dövlətinin meydana gəlməsinə səbəb olmuşdur.

Son illər aparılan tədqiqatlarla təsdiq olunmuşdur ki, Xocalı-Gədəbəy mədəniyyəti müxtəlif etnik qruplar tərəfindən yaradılmışdır [64, s. 86]. Özünəməxsus keramika və dəfn adəti ilə seçilən üç qrup müəyyən edilmiş və arxeoloji komplekslər konkret etnoslara aid edilmişdir. Ağ inkrustasiyalı keramika ilə seçilən birinci qrup hurrilərə [64, s. 87], ağac konstruksiyalı qəbirlər, yandırma, at sümükləri və konnelyur ornamentli keramika ilə seçilən üçüncü qrup irandillilərə aid edilmişdir. Qeyd etmək lazımdır ki, bu qruplar, xüsusilə üçüncü qrup Xocalı-Gədəbəy mədəniyyəti içərisində olduqca azlıq təşkil edir. Belə ki, bu qrupa yalnız bir neçə kurqan aid edilmişdir. M.N.Poqrebova belə bir fikir irəli sürmüşdür ki, irandillilər bu ərazidə bir neçə əsr məskənləşərək yerli tayfaların mədəniyyətini qəbul etmiş və bu mədəniyyəti özləri ilə İran yaylasına aparmışlar [78, s. 133-173]. Lakin M.N.Poqrebova bu qrupun İrana daxil olarkən öz dilini və etnosunu nə dərəcədə saxladığını deməyə çətinlik çəkmişdir [78, s. 136]. Xocalı-Gədəbəy mədəniyyəti içərisində əksəriyyət təşkil edən, cızma və basma naxışlı boz keramika, daş qutular və zəngin tunc əşyalarla seçilən ikinci qrup şübhəsiz ki, yerli tayfalara məxsus olmuşdur. Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan abidələrdə M.N.Poqrebovanın irandillilərə aid etdiyi atla və kremasiya ilə bağlı elementlərin olduqca az izlənməsi gəlmələrin yerlilər içərisində əridiyini göstərir. Əgər nəzərə alsaq ki, silahların əksəriyyəti də ikinci qrup keramika ilə xarakterizə olunan daş qutu tipli qəbirlərdən aşkar olunmuşdur, belə nəticəyə gəlmək olar ki, siyasi hökmranlıq bu tayfalara məxsus olmuşdur. Digər tərəfdən kremasiya, at və itlə bağlı hər şeyin hind-avropalılarla, yaxud irandillilərlə bağlanması doğru deyildir. Azərbaycanda kremasiya adəti Erkən Tunc dövründən mövcud olmuşdur. Ağac konstruksiyalı qəbirlərin, at və itlə bağlı inamların digər xalqlarla, xüsusilə Türk xalqları ilə bağlanması, atın Ön Asiya və Azərbaycanda irandillilər gəlməmişdən xeyli əvvəl əhilləşdirilməsinə dair tutarlı dəlillər vardır. At minik vasitəsi kimi də Ön Asiyada erkən istifadə edilmişdir [89, s. 248]. Odur ki, atın minik vasitəsi kimi Ön Asiyada yalnız irandillilər gəldikdən sonra istifadə edilməsi haqqında bir qrup şərqşünas alimlərin fərziyyəsi inandırıcı deyil [65, s. 137-140]. E.A.Qrantovski və M.N.Poqrebova erkən Assuriya mixi yazılarında suvarilərin xatırlanmamasına əsaslanaraq belə bir fikir irəli sürmüşdür ki, Ön Asiyada atdan minik vastəsi kimi istifadə olunmamış, burada atlar yalnız arabaya qoşulmuşdur [65, s. 276-279; 78, s. 137-140]. Bu fərziyyə yalnız cüzi yazılı mənbə əsasında irəli sürülmüşdür. Arxeoloji faktlar isə onu təsdiq etmir. Şübhəsiz ki, e.ə. IV-III minilliklərdə Azərbaycanda, o cümlədən Naxçıvanda və Urmiya hövzəsində məskənləşən, geniş əraziyə yayılan əkinçi-maldar tayfalar atdan minik vasitəsi kimi istifadə etmədən mütəhərrik hərəkət edə bilməzdilər.

Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan dəfn adəti və keramika məmulatı Azərbaycanda V-II minilliklərdə geniş yayılmışdır. Kür-Araz mədəniyyətinin müəyyən xüsusiyyətləri e.ə. II minilliyin sonu və I minilliyin başlanğıcına aid abidələrdə kifayət qədər izlənmişdir [8, s. 58-59]. Azərbaycanın, o cümlədən Naxçıvanın Xocalı-Gədəbəy mədəniyyətinə aid qəbir abidələrində it, dələ kəlləsi, xırdabuynuzlu heyvanın çənə sümükləri ilə basdırılma adətinə təsadüf edilmişdir ki, bu da yerli xüsusiyyətləri əks etdirir. Antropolorq R.Qasımova Kolanı nekropolundan aşkar olunan kəllə sümüklərini tədqiq edərək onların yerli etnoslara aid olduğunu və müasir azərbaycanlıların etnogenezinin əsasında dayandığını qeyd etmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın cənub rayonlarında Boyalı qablar mədəniyyəti yayıldığı zaman Kür-Araz mədəniyyəti tayfaları Azərbaycanın şimalında kompakt halda yaşamaqda davam etmişdir. Odur ki, Xocalı-Gədəbəy mədəniyyətini yaradan tayfaların Kür-Araz mədəniyyəti tayfalarının varisləri olduğu və aborigenlərdən ibarət olduğu heç bir şübhə doğurmur [8, s. 58]. Naxçıvan ərazisində Xocalı-Gədəbəy mədəniyyəti abidələrinin aşkar olunması bu regionun Azərbaycanla vahid etnik-mədəni rayona daxil olduğunu təsdiq edən tutarlı dəlillərdən biridir.

**E.ə. VI-I minilliklərdə Naxçıvanda etnik mədəni proseslər.** Naxçıvanda yerləşən arxeoloji abidələrin tədqiqi bu ərazidə formalaşan qədim mədəniyyətlərin yerli etnoslar tərəfindən yaradıldığını təsdiq edir [46, s. 254-257]. Naxçıvanın qədim mədəniyyətləri Yaxın Şərq və Cənubi Qafqaz mədəniyyətləri ilə əlaqəli şəkildə inkişaf etmiş, mədəniyyətlərin formalaşmasında iqtisadi-mədəni əlaqələrin və miqrasiyaların da müəyyən rolu olmuşdur. Qədim Şərq ölkələri ilə mədəni əlaqələr hələ e.ə.VII-VI minilliklərdən başlamışdı. I Kültəpənin Eneolit təbəqəsindən aşkar olunan Xalaf tipli çölmək e.ə.VI minilliyə aid edilir [91, s. 63-70]. Tədqiqatçıların ümumi fikrinə görə bu çölmək Mesopotamiyadan gətirilmişdir [46, s. 73-74]. Çölmək I Kültəpədə arxasıüstə uzadılmış skeletlə birlikdə aşkar olunmuşdur. Əgər nəzərə alsaq ki, bu tip dəfn adəti Mesopotamiyada Xalaf mədəniyyətinin yayıldığı dövr üçün xarakterik olmuşdur, o zaman bu tip keramikanın müəyyən əhali qrupunun miqrasiyası ilə gətirildiyini demək olar. Bu dəfn adəti *şumerlərlə* bağlanmışdır [85, s. 1-90]. Şumerlərin türkdilli olması ilə bağlı bir sıra Avropa alimlərinin, o cümlədən mərhum alman alimi Q.Hüzingin, E.Forerin, F.Hommelin, V.Xristianın, B.Landsberqerin fikirləri sonradan siyasi məqsədlər xarakterinə inkar edilmişdir. F.Hommel şumerlərin Orta Asiyadan köçərək Ön Asiyaya gələn türk tayfaları olduğunu deməklə 350 şumer sözünün türkcə izahını vermişdir. Şumerlərdə Allah mənasını ifadə edən "Dinqir", türklərdə "Tenqri" sözləri, mifoloji və dil özəllikləri əski şumer dilinin türk dilinə uyğun olduğunu göstərir. Fikrimizcə, bu qruplar ticarət və sənətkarlardan ibarət olmuş yerli əhali ilə qaynayıb qarışmışdır. Ovçulartəpəsində aşkar olunan ev siçanlarının araşdırılması onların Mesopotamiya mənşəli olduğunu, lakin yerli şəraitə uyğunlaşaraq xeyli

dəyişdiyini göstərir. Araşdırmalar bu heyvanların qədim əkinçilik mədəniyyətlərini təqib edərək e.ə.VII-VI minilliklərdə Naxçıvana gəldiyini təsdiq edir [92, s. 80; 12, s. 31-34]. Lakin bütün bunlar heç də, bəzi tədqiqatçıların iddia etdiyi kimi, Naxçıvanın qədim əkinçilik mədəniyyətlərinin Mesopotamiyadan gətirildiyini təsdiq etmir [70, s. 407], əksinə onun yerli zəmində inkişaf etdiyini göstərir. Ümumiyyətlə, son illər artan faktlar İkiçayarasının qədim əkinçilik mədəniyyətlərinin Cənubi Qafqaz, o cümlədən Naxçıvan ərazisində formalaşan mədəniyyətlərə müəyyən təsir göstərdiyini təsdiq edir. Bu təsir müəyyən istehsal sahələrinin inkişafını stimullaşdırmışdır. Belə nəticəyə gəlmək olar ki, Naxçıvan abidələrində yayılan boyalı keramika, o cümlədən Xalac boyalı keramikası Cənub mədəniyyətlərinin, xüsusilə Ubeyd mədəniyyətinin təsiri ilə ortaya çıxmışdır. Araşdırmalar göstərir ki, İkiçayarası tayfalarının Naxçıvanla iqtisadi-mədəni əlaqələrini gücləndirən əsas faktorlardan biri bu ərazinin təbii sərvətləri, xüsusilə mis yataqları olmuşdur.

İ.H.Nərimanov Leylatəpə yaşayış yerini aşkar etdikdən sonra bu yaşayış yerinin Mesopotamiya tayfaları, xüsusilə Ubeyd-Uruk tayfaları tərəfindən salındığını qeyd etmişdir [76, s. 130]. Onun fikrinə görə, Naxçıvanda Xalaf mədəniyyətindən sonra, Ubeyd mədəniyyətinə mənsub tayfalar məskunlaşmışdır [34, s. 32]. Hazırda tədqiqatçıların bir qrupu tərəfindən Leylatəpə tipli abidələr Ubeyd mədəniyyətinə [27, c. 154], digərləri tərəfindən isə Uruk mədəniyyətinə aid edilməkdədir [66, s. 82].

E.ə.V-III minilliкlərdə bütün Azərbaycan ərazisində olduğu kimi Naxçıvanda da Кür-Araz mədəniyyəti yayılmışdır. Bəzi tədqiqatçıların fiкrinə görə, e.ə. III minilliкdə bu ərazidə hurri dili yayılmışdır [61, s. 5-8]. Laкin hurri dilinin yayılması yerli dillərin işlədildiyini istisna etmir. Araşdırmalar göstərir ki, Zaqros dağlarının qərb ətəklərində, Urmiyanın qərb vilayətlərində və digər yerlərdə yayılmış qədim tayfalardan biri də hurrilər idi [2, I cild, s. 99]. Hurrilərin vətəni Cənubi Qafqaz, İrəvan yaylası və Dağlıq Kürdüstan ərazisi idi [2, I cild, s. 100]. Hurri dili hind-Avropa dillərinə aid olmamışdır [2, I cild, s. 101]. Artıq müəyyən edilmişdir ki, bu dil Urartu dilinə qohumdur. Son dövrdə hurri (eləcə də Urartu) dilinin Şimal-Şərqi Qafqaz dilləri ailəsilə bağlayırlar [2, I cild, s. 101-102]. E.Forer e.ə. III-II minilliklərdə Ön Asiyada yaşayan hurrilərin dilinin türkoid bir dil olduğunu qeyd etmişdir. İ.M.Dyaкonovun fiкrincə, hurri etniк massivi Cənubi Azərbaycanı əhatə etməmiş və e.ə. III-II minilliкlərdə bu regionun əsas əhalisi *кuti və lullubilərdən* ibarət olmuşdur [61, s. 5-8]. İ.Q.Əliyev və Q.A.Meliкişvilinin [74, s.120] fiкrinə görə isə e.ə.III-II minilliкlərdə Cənubi Azərbaycanın əhalisi mədəni və etniк baxımdan zaqro-elam etnosu ilə yaxın olmuşdur [49, s. 84, 105-107]. Bu etnosun ural-altay dilləri ilə (türк dilləri ilə) bağlılığı irəli sürülmüşdür.

Məlum olduğu кimi, arxeoloji ədəbiyyatda Kür-Araz mədəniyyətinin loкal variantlarının yerli etnoslara aid edilməsinə cəhd edilmişdir [62, s. 114]. Кür-Araz mədəniyyətinin yayıldığı dövrdə Azərbaycanda *кuti, lullubi və su* tayfaları yaşamışdır. Onların içərisində höкmran mövqe кuti və lullubilərə məxsus olmuşdur.

E.ə. III minillikdə Urmiya hövzəsində kuti və lullubilərin siyasi qurumları da mövcud olmuşdur. E.ə. III minilliyin sonunda kutilərin Mesopotamiyadakı ağalığına son qoyulur, kuti və lullubilərin siyasi qurumları isə dağılır. İ.Q.Əliyev qeyd edir ki, "Urmiya gölünün qərb sahilində aşkar edilmiş və Cənubi Qafqaz mədəniyyətlərinə yaxın olan Göytəpə mədəniyyəti kutilərə məxsus imiş" [2, I cild, s. 101]. Tədqiqatçının "Göytəpə mədəniyyəti" adı altında nəyi nəzərdə tutduğu dəqiq məlum deyil. Lakin bu dövrdə geniş yayılmış arxeoloji mədəniyyət Kür-Araz mədəniyyəti idi.

Bu dövrdə Azərbaycanın cənub rayonlarında, xüsusilə Urmiya hövzəsi və Naxçıvanda Mesopotamiya və Elam mədəniyyətinin təsirini əks etdirən boyalı keramika yayılmağa başlayır. Bu mədəniyyət Urmiya hövzəsi, Şərqi Anadolu, Ermənistan və Gürcüstanın müəyyən qismini əhatə etmişdir. Lakin bu dövrdə Gürcüstanın və Şimali Azərbaycanın böyük bir qismində boz və qara rəngli cilalı keramika ilə xarakterizə edilən mədəniyyət mövcud olmuşdur. Fikrimizcə, qara rəngli keramika ilə xarakterizə edilən bu mədəniyyət Kür-Araz mədəniyyətindən törəmiş və onunla bağlı olmuşdur. Boyalı keramikanın yayılması tədqiqatçılar tərəfindən yeni etnosun miqrasiyası ilə bağlanmışdır [88, s. 87]. Şübhəsiz ki, qədim əhalinin müəyyən qrupu yeni etnosla qarışaraq əvvəlki yerində qalmış, digər bir qismi isə şimal rayonlara sıxışdırılaraq orada kompakt halda yaşamışdır [43, s. 34].

İ.M.Dyakonovun fikrincə, kutilər Cənubi Qafqaza güclənən lullubi tayfa ittiqafı tərəfindən sıxışdırılmışdır. Arxeoloji materialların təhlilinə əsasən demək olar ki, Kür-Araz mədəniyyəti tayfaları Boyalı qablar mədəniyyətini daşıyan tayfalar tərəfindən sıxışdırılmışdır. Məlum olduğu kimi, bu tayfalar nəinki Azərbaycanın, həmçinin Mesopotamiya və İranın tarixində mühüm rol oynamışdır. Əgər Boyalı qablar mədəniyyəti lullubilərlə bağlanırsa şübhəsiz ki, bu tayfaların məskunlaşdığı əsas rayonlardan biri də Naxçıvan olmuşdur.

Arxeoloji araşdırmalar Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadolunun e.ə. III-II minilliklərdə ortaq mədəniyyətə malik olduğunu göstərir. Bu baxımdan e.ə. II minillikdə Urmiya hövzəsində xatırlanan *turukkilərin* də Naxçıvan ərazisində məskunlaşdığını demək olar. Herodotda xatırlanan *iyurki,* Plini və Pomponiya Melada xatırlanan *turke* etnoniminin türklərlə bağlı olduğu tədqiqatçılar tərəfindən qəbul edilmişdir.

E.ə. II minilliyin birinci rübündə tarix səhnəsinə *kaşşu (kassit)* tayfa ittifaqı çıxdı. Onomastik materiallar bu tayfaların geniş əraziyə yayıldığını, o cümlədən Naxçıvanda məskunlaşdığını göstərir. Bəzi tədqiqatçıların fikrinə görə, yunanca "qalay" mənasını verən "kassiteros" sözü, kassitlərin adı ilə bağlıdır. Bu, kassit tayfalarının Orta Tunc dövrü mədəniyyətinin yaranmasında mühüm rol oynadığını təsdiq edir. Faktlar Azərbaycanda, o cümlədən Naxçıvanda formalaşan mədəniyyətlərin bir etnos tərəfindən deyil, bir-birinə qohum etnoslar tərəfindən yaradıldığını deməyə imkan verir. Orta Tunc dövrü abidələrinin tədqiqi "kassiteros"un, yəni qalayın e.ə.

III minilliyin sonlarından başlayaraq Azərbaycanda, eləcə də Naxçıvanda yayıldığını göstərir. Naxçıvanda bu tayfalarla bağlı xeyli yer adları qalmışdır [83, s. 82-89].

E.ə. II minilliyin sonu - I minilliyin əvvəlində Naxçıvan ərazisi mürəккəb sosial-mədəni və siyasi dəyişiкliкlərə məruz qalmışdır. Araşdırmalar göstərir кi, bu dövrdə Azərbaycanda Xocalı-Gədəbəy mədəniyyətinin formalaşması prosesi getmişdir. Azərbaycanın şimal rayonlarında formalaşan bu mədəniyyət buradan Cənubi Azərbaycana və Naxçıvana yayılmışdır. Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyətinin izlərinə I Кültəpə [46, s. 313], II Кültəpə [50, s. 124], Şahtaxtı, Yurdçu [33, s. 51], Кolanı, Sarıdərə [31, s. 42-52], Bayəhməd [32, s. 16-35], Haqqıxlıк [31, s. 57], Qarabulaq [33, s. 98], Zeyvə [33, s. 163] və digər abidələrdə rast gəlinmişdir. Abidələrin tədqiqi göstərir кi, bu mədəniyyəti yaradan tayfaların bir qismi maldarlıqla məşğul olaraq кöçəri həyat tərzi кeçirmişdir. Belə кi, bu mədəniyyətə aid abidələrdə yaşayış mövsümi xaraкterdə olduğundan mədəni təbəqə yığılmamışdır. I Кültəpə, II Кültəpə, Şahtaxtı, Yurdçu, Qızılburun və digər abidələrdə Xocalı-Gədəbəy mədəniyyəti elementlərinin ortaya çıxması bu tayfaların Naxçıvanın Arazboyu vadisini də ələ кeçirdiyini göstərir. Şübhəsiz кi, bu yaşayış yerlərində müəyyən əhali qrupu və hərbi qarnizonlar yerləşdirilmişdir. Ola bilsin кi, onların bir qismi də yerli əhali ilə qarışmış və əкinçiliкlə məşğul olmuşdur.

Silahlara yalnız müəyyən qəbirlərdə rast gəlinməsi, tayfa başçısının mifiк rəsmlərlə bəzədilmiş qəbirdə dəfn edilməsi cəmiyyətdə sosial təbəqələşmənin mövcud olduğunu göstərməklə bərabər müəyyən hərbi potensiala maliк böyüк tayfa ittifaqlarının da formalaşdığını göstərməkdədir.

Xocalı-Gədəbəy mədəniyyətinin formalaşmasında müxtəlif etniк qruplar iştiraк etmişdir [64, s. 86]. Bir qrup abidələr hurrilərə [64, s. 86], digərləri isə irandillilərə aid edilmişdir [78, s. 131-136]. Yeri gəlmişкən qeyd edəк кi, tədqiqatçıların at sкeletləri ilə əsaslandırılmış fiкirləri heç də həmişə doğru deyildir. Belə кi, Ə.К.Ələкbərov tərəfindən tədqiq edilən Şahtaxtı qəbiri uzun müddət arxeoloji ədəbiyyatda sкif qəbiri кimi qeyd edilmişdir. Halbuкi, bu abidənin sкif mədəniyyəti ilə heç bir əlaqəsi yoxdur. Digər tərəfdən bu abidələr irandillilərə aid olsa belə, onlar M.N.Poqrebovanın çıxardığı geniş nəticələr üçün əsas vermir. Bu qrupa daxil olan abidələr yalnız bir neçə кurqanla təmsil olunmuşdur. Atla və кremasiya ilə müşayiət olunan dəfn adəti isə yalnız irandillilər üçün deyil, digər xalqlar üçün də xaraкteriк olmuşdur. Məlum olduğu кimi at Ön Asiyada irandillilər gəlməmişdən xeyli əvvəl əhliləşdirilmişdir [89, s. 248]. Fiкrimizcə, irandillilərin yalnız Azərbaycandan кeçərəк İran yaylasına getdiyini söyləməк olar. Bu кeçiş zamanı Azərbaycanda yerləşən tayfalar yerli mədəniyyəti qəbul edərəк assimlyasiya olunmuşdur. Elə buna görə də M.N.Poqrebovanın irandillilərin Azərbaycan ərazisində uzun müddət məsкənləşərəк yerli mədəniyyəti qəbul etməsi, bu mədəniyyəti İran yaylasına aparması haqqındaкı fiкirləri də olduqca ziddiyyətli və subyeкtivdir. M.N.Poqrebova bu tayfaların İran yaylasına daxil olarкən öz dillərini

və etnosunu nə dərəcədə saxladığını söyləyə bilməmişdir [78, s. 136].

Xocalı-Gədəbəy mədəniyyətinin ikinci qrup abidələri ştamp və cızma naxışlı boz keramika, zəngin tunc inventarla xarakterizə edilən daş qutularla təmsil olunmuşdur. Yerli tayfalara mənsub olan bu abidələr indiyədək kifayət qədər təhlil edilməmişdir. Əgər nəzərə alsaq ki, tunc əşyalar, o cümlədən silahlar başlıca olaraq daş qutu tipli qəbirlərdən aşkar olunmuşdur, o zaman demək olar ki, bu tayfalar öz hökmran mövqeyini və hərbi potensialını saxlamışdır. Araşdırmalar Naxçıvan abidələrinin Xocalı-Gədəbəy mədəniyyətinin bu qolu ilə bağlı olduğunu göstərir.

Araşdırmalara dayanaraq deyə bilərik ki, Xocalı-Gədəbəy mədəniyyəti qədim dövrdən bu ərazidə məskənləşən aborigenlər tərəfindən yaradılmışdır. Məlum olduğu kimi, bu mədəniyyət başlıca olaraq boz rəngli keramika ilə xarakterizə edilir. Bu tip keramika e.ə. V-III minilliklərdə Azərbaycanda yayılan Kür-Araz mədəniyyəti üçün xarakterik olmuşdur. Xocalı-Gədəbəy mədəniyyəti isə bu mədəniyyətin davamı olmuşdur. Bu abidələr üçün xarakterik olan kollektiv dəfnlər Azərbaycanda və Naxçıvanda qədim dövrlərdən mövcud olmuşdur [46, s. 39-51; 62, s. 81-83].

Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan qəbir tipləri də Azərbaycanda e.ə. III minillikdə mövcud olmuşdur. Buna görə də Xocalı-Gədəbəy mədəniyyətinin Kür-Araz mədəniyyətinə qohum tayfalar tərəfindən yaradıldığını söyləmək olar. Faktlar göstərir ki, Xocalı-Gədəbəy mədəniyyətini yaradan tayfalar arasında mədəni və siyasi cəhətdən birləşmə prosesi getmişdir. Etnik-mədəni proseslərin formalaşmasında xarici təsirlərin də müəyyən rolu olmuşdur.

Bu tayfaların Azərbaycanın şimalından hərəkət edərək Naxçıvan, daha sonra isə Urmiya hövzəsində məskunlaşması Assuriya və Urartu tərəfindən işğal təhlükəsinin artması ilə bağlı olmuşdur. Mixi yazılar Urartu çarlarının Naxçıvana uğursuz reydi haqqında məlumat saxlamışdır [10, s.86-87]. Lakin Naxçıvan ərazisində birbaşa urartulara aid abidələrə rast gəlinmişdir. Tədqiqatlar göstərir ki, onların Naxçıvanda möhkəmlənə bilməməsinin səbəbi yerli tayfaların müqaviməti ilə bağlıdır. Qədim dövrdən Azərbaycanın cənubunda, o cümlədən Naxçıvanda məskunlaşan kuti və lullubi tayfaları e.ə. I minilliyin əvvəlində Azərbaycanın siyasi tarixində mühüm rol oynamışdır. Arxeoloji araşdırmalar Naxçıvanda yaşayan qədim tayfaların Göyçə gölü ətrafında formalaşan "Etiuni" konfederasiyası ilə sıx bağlı olduğunu göstərir.

Arxeoloji abidələrin tədqiqi e.ə. II minilliyin sonu, I minilliyin əvvəlində Naxçıvanda müxtəlif etnosların yaşadığını təsdiq edir. Bu hər şeydən əvvəl dəfn adətinin müxtəlifliyində və keramika məmulatında özünü göstərir. Bu baxımdan skeletli və skeletsiz qəbirlər diqqəti çəkir. Arxeoloji mədəniyyətləri konkret etnoslarla bağlamaq müəyyən çətinlik törətsə də onomastik materiallar qədim dövrdə Naxçıvanda yaşayan *as* tayfaları haqqında da müəyyən məlumat saxlamışdır.

Bu tayfalarla bağlı onomastik materiallar başlıca olaraq Kəngərli rayonunun Qarabağlar və Şahtaxtı ərazisində rast gəlinir. Bu etnosun adı Asnı çayının adında maddiləşmişdir. Bu çayla bağlı müxtəlif əfsanələr var. Rəvayətə görə Asnı gursulu imiş və Qarabağlardan axaraq indiki Şahtaxtı kəndinin yaxınlığında Araza qovuşurmuş. Qeyd etmək lazımdır ki, bu tayfaların adı Araz (*Ar-as*) çayının, Culfa rayonundakı Ərəzin (*Ər-əz-in // Ar-as-in*) kəndinin adında da qorunub saxlanmışdır. Naxçıvanın digər rayonlarında olan toponimlər bu tayfaların Naxçıvanda məskunlaşdığını göstərir. Urartu hökmdarı Menuanın Culfa rayonundan aşkar olunan kitabəsində bu toponim *Arsine* şəklində qeyd edilmişdir [20, s. 107].

Ordubad rayonunda yerləşən qəbir abidələrinin bir qrupu tədqiqatçılar tərəfindən qadın döyüşçülərə-amazonlara aid edilmişdir [25, s. 127-135]. Mənbələrin məlumatı amazonların “eorpat” adlandırıldığını göstərir ki, bu da Azərbaycan dilində qadın mənasını ifadə edir. Hazırda bu qəbir abidələrinin aşkar olunduğu nekropolun yaxınlığında Aza toponimi qalmışdır. Maraqlıdır ki, Azərbaycan dilində *as-az* sözü də qadın mənasını ifadə edir. Bu faktlar qadın döyüşçülərdən ibarət olan tayfaların olması ilə bağlı qədim miflərin müəyyən dərəcədə həqiqətə uyğun olduğunu göstərir. Ehtimal ki, bu qadınların kişilərlə bərabərhüquqlu döyüşçü olduğunu təsdiq edir [25, s. 130].

E.ə. I minilliyin birinci yarısında Naxçıvanda məskunlaşan *skiflərlə* bağlı abidələr indiyədək Naxçıvanda az aşkar edilmişdir. Lakin Kəngərli və Şahbuz rayonlarından aşkar olunan skif tipli ox ucluqları bu tayfaların Naxçıvanda olduğunu təsdiqləyən faktlardan biridir [33]. Assur mənbələrində skiflər *aşquz və işquz* kimi xatırlanmışdır. Skiflərin etnik mənşəyi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Skiflərin türk olduğunu qəbul etməyən və onları tamamilə irandillilərlə bağlayan mərhum akademik İ.H.Əliyev onlar içərisində türk xalqlarının olduğunu etiraf etmişdir. Aşşur qaynaqlarında xatırlanan “iç quz”, “aş quz” etnoniminin ərəb mənbələrində xatırlanan “quz”larla eyni olduğu və türklərə aid olduğu indi heç bir şübhə doğurmur. E.ə. I minilliyin birinci yarısında Ön Asiyanın tarixində mühüm rol oynayan tayfaların Naxçıvanda olmasını *sak* etnonimi ilə bağlı toponimlər də təsdiq edir. Ordubad rayonunda Sakkarsu çayının adı bu tayfalarla bağlıdır. Skif tayfalarının Yaxın Şərqə hərəkəti ilə bağlı tədqiqatçıların müxtəlif fikirləri vardır. Qafqaz Albaniyasına aid Arsax vilayətinin Naxçıvanın qonşuluğunda yerləşməsi sak tayfalarının bu regionun tarixində mühüm rola malik olduğunu göstərir. Ehtimal ki, skiflər Yaxın Şərqə müxtəlif yollarla irəliləmişlər. Şübhəsiz ki, bu yollardan biri də Naxçıvan ərazisindən keçmişdir. Sahbuz rayonunda skif tipli ox ucluqlarının tapılması bu tayfaların Batabat aşırımından keçid kimi istifadə etdiyinin göstəricisidir.

# II FƏSİL

## NAXÇIVAN E.Ə. IX – B.E. II ƏSRLƏRİNDƏ

**Naxçıvan e.ə. IX-VI əsrlərdə.** Naxçıvan tarixinin bu dövrü Assuriya və Urartu kimi qədim Şərq dövlətlərinin qüvvətləndiyi dövrə təsadüf edir. Van gölünün sahilində yerləşən Tuşpa şəhərini paytaxt edib möhkəmləndikdən sonra Urartu dövləti Yaxın Şərq ölkələrinə və Cənubi Qafqaza, o cümlədən Azərbaycan ərazisinə işğalçı yürüşlər təşkil edərək öz ərazisini genişləndirməyə çalışırdı. Naxçıvanda məskunlaşan qədim türkdilli tayfalar Urartu işğallarından qorunmaq üçün möhtəşəm qalalar inşa etmişdilər. Arxeoloji araşdırmalar zamanı aşkar olunan Oğlanqala, Çalxan, Qarasu qalası, Qız qalası, Külüs qalası, Sədərəkqala, Qazançıqala və digər yaşayış yerləri bu dövrü xarakterizə etmək üçün dəyərlidir. Bu abidələrdən e.ə. IX-VI əsrlərə aid keramika məmulatı toplansa da, geniş arxeoloji qazıntılar aparılmamışdır. Lakin Naxçıvanda aparılan arxeoloji araşdırmalar, o cümlədən Oğlanqalanın tədqiqi Urartu dövləti ilə həmdövr olan inkişaf etmiş Dəmir dövrü mədəniyyətinin mövcudluğunu ortaya qoymuşdur.

Araşdırmalar göstərir ki, e. ə. II minilliyin sonları və I minilliyin əvvəllərində Naxçıvanın ovalıq ərazisində, xüsusilə Şərur düzündə oturaq, dağlıq zonada isə köçəri həyat tərzi hökmran olmuşdur. Dağlıq ərazidə yaşayış yerlərinin azlığı, mədəni təbəqənin az yığılması, yaxud heç yığılmaması bununla bağlıdır. Bu abidələr başlıca olaraq qala tipli yaşayış yerləridir. Həmin abidələrdən aşkar olunan arxeoloji materiallar Azərbaycanın şimalında yayılan Xocalı-Gədəbəy mədəniyyəti abidələrinin materialları ilə bənzərdir. Lakin bu qrupa daxil olan arxeoloji abidələrdə Boyalı qablar mədəniyyəti və Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik əlamətlərin izlənməsi onlar arasında qovuşma prosesinin getdiyini göstərir. Bu abidələr başlıca olaraq boz rəngli keramika ilə xarakterizə edilir. Gil qablar cızma, kəsmə və çərtmələrlə, bəzən isə konnellyur ornamentlə naxışlanmışdır [24, s. 73-74] .

1999-cu ildə Qazançıqalada aparılan araşdırmalar burada həyatın Dəmir dövrünədək davam etdiyini göstərmişdir [23, s. 30]. Araşdırmalar zamanı həmçinin Dəmir dövrünə aid Narınqalanın olduğu müəyyən edilmişdir. Narınqalanın Dəmir dövrünə aid müdafiə divarları tikinti texnikasına görə Tunc dövrü divarlarından fərqlənir. Bu dövrə aid müdafiə divarları iri daş bloklardan hörülmüşdür. Bu hörgünün qalıqları abidənin şimal və şimal-şərq hissələrində daha yaxşı saxlanmışdır. Üst-üstə qoyulmuş iri daş bloklardan hörülən divarların hündürlüyü 1,5 - 1,8 m arasındadır [18].

Dəmir dövrünə aid memarlıq abidələrinin qalıqlarına Çalxan yaşayış yerində də rast gəlinmişdir. Abidədə arxeoloji qazıntılar aparılmasa da yerüstü tikinti qalıqları onun dördkünc planlı rizalitlərlə möhkəmləndirilmiş Narınqalaya malik olduğunu göstərir. 2001-ci ildə yaşayış yerində aparılan araşdırmalar zamanı inkişaf




*Tunc və İlk Dəmir dövrü abidələri*

etmiş Dəmir dövrü üçün xarakterik olan keramika məmulatı toplanmışdır.

Arxeoloji abidələrin tədqiqi Dəmir dövründə Naxçıvanın güclü müdafiə sisteminə malik olduğunu göstərir. Müdafiə tikintiləri başlıca olaraq Naxçıvan ərazisinə qərbdən və şimaldan daxil olan yollar üzərində qurulmuşdur. Qalaların tikilmə istiqaməti eyni zamanda yadelli basqınlarının istiqamətlərini də göstərir. Naxçıvanın cənub sərhədləri gursulu Araz çayı ilə qorunduğundan ehtimal ki, bu istiqamətdə hücumlar az olmuşdur. Şərur rayonunda Fərhad arxı boyunca salınan qala tipli yaşayış yerləri onlardan suvarma sistemlərinin və su mənbələrinin qorunması üçün istifadə olunduğunu göstərir. Fərhad arxı ətrafında aparılan araşdırmalar zamanı onun yaxınlığından keçən qədim yolun qalıqları da aşkar olunmuşdur. Yol qalıqlarına həmçinin Oğlanqalanın şimal yamacında rast gəlinmişdir. Aşkar olunan faktlar Dəmir dövründə Naxçıvanda məskunlaşan tayfalarda inkişaf etmiş əlaqələndirmə sisteminin olduğunun göstəricisidir. Dəmir dövrü yaşayış yerlərinin möhtəşəm müdafiə sistemi bu ərazidə məskunlaşan tayfaların böyük iqtisadi qüd-




***Dəmir və Antik Dövr abidələri***

rətə sahib olduğunu təsdiq edir. Strateji cəhətdən əlverişli mövqelərdə salınan qalalar hərbi-inzibati və siyasi mərkəz rolunu oynamışdır.

İnkişaf etmiş Dəmir dövrünə aid qəbir abidələri Xaraba-Gilanda, Muncuqlutəpə nekropolunda geniş tədqiqatlarla öyrənilmişdir. Muncuqlutəpə nekropolu üçün qurbangahları olan daş qutu tipli qəbirlər və kollektiv dəfnlər xarakterik olmuşdur. Tədqiqat zamanı qəbirlərdən silindir formalı möhürlər, tuncdan hazırlanmış silahlar, bəzək əşyaları, boyalı və boz rəngli keramika aşkar olunmuşdur [31, s. 7-64]. Tədqiqatçılar Muncuqlutəpə nekropolunu e.ə.VIII-VI əsrlərə aid etmişlər [31, s. 56]. Muncuqlutəpə qəbirlərinin kompleksində olan fibula tipli bəzək əşyası, ağzının kənarı lüləyi ilə birləşən çaynik tipli qablar bu dövrləşmənin doğru olduğunu göstərir. Qəbirlərin birində Urartu tipli möhürün tapılması da bunu təsdiq edir [44, s. 17]. Tədqiqatçılar Muncuqlutəpə möhürlərinin amulet kimi istifadə edildiyini qeyd etmişlər [44, s. 17].

Orijinal quruluşu ilə fərqlənən bu qəbirlər Naxçıvanın qədim sakinlərinin dəfn adətini öyrənmək üçün olduqca əhəmiyyətlidir. Qəbirlərdə dəhlizin və giriş qapısının olması təkrar dəfnlər zamanı qəbirlərin qapaq daşlarını qaldırmadan on-

lardan istifadə etməyə imkan vermişdir. Əvvəllər qeyd olunduğu kimi, Son Tunc və Erkən Dəmir dövründə təkrar dəfnlər qapaq daşları, yaxud yan daşları çıxarılaraq icra edilmişdir. Bu tip qəbir abidələri Dəmir dövründə Ön Asiya ölkələrində geniş yayılmışdır. Ehtimal ki, Xaraba-Gilan qəbirlərinin qurbangahları dəfndən sonra keçirilən qəbirüstü mərasimlər zamanı istifadə edilmiş, qurbangahlara dəfn edilənlərin ruhu üçün yemək və içki qoyulmuşdur.

Bu dövrə aid olan Yurdçu sərdabəsi təsərrüfat işləri görülərkən təsadüfən dağıdılmışdır. Aşkar olunan arxeoloji materiallar Şərur rayon tarix-diyarşünaslıq muzeyinin əməkdaşları tərəfindən kompleks şəkildə toplanmış və muzeyə təhvil verilmişdir. Dördkünc formalı olan qəbirin divarları iri daşlardan hörülərək qurulmuşdur. Qəbrin cənub divarında giriş qapısı, o biri divarlarında isə taxçalar olmuşdur [46, s. 5-23]. Onun üzəri iri həcmli sal daşlarla örtülmüşdür. Lakin qəbir kamerasının içərisi dağıdıldığından dəfn adətini müəyyənləşdirmək mümkün olmamışdır. Dağıdılmış qəbrin döşəməsində araşdırmalar zamanı skelet qalıqlarının olduğu müəyyən edilmişdir. Bu qəbir abidəsinin tam bənzərinə indiyədək təsadüf edilmişdir. Onun ölçüləri 3 X 1,8 X 1,6 m-dir. Qəbirdən müxtəlif keramika məmulatı, silahlar və bəzək əşyaları aşkar olunmuşdur. Qəbir kamerasına qapı qoyulması onun önündə dəhliz olduğunu və bu qəbrin təkrar dəfnlər üçün nəzərdə tutulduğunu göstərir.

Batabat yaylağında rast gəlinən və xalq arasında  Fərhad evi adlandırılan [10, s. 79-81] qaya məzarı vaxtilə talan edilmişdir [17, s. 38]. O, bir-biri içərisində yerləşdirilmiş, kobud yonulmuş otaqlardan ibarətdir. Bu qəbir Naxçıvanda qeydə alınan yeganə abidədir.

Dəmir dövrünə aid boyalı keramika məmulatı olduqca az aşkar olunmuşdur. Ümumiyyətlə, Naxçıvan ərazisində Dəmir dövrünə aid abidələr az öyrənildiyindən bu dövrə aid arxeoloji materiallar olduqca azdır. Arxeoloji materialların bir qismi keramika məmulatından ibarətdir.

1985-ci ildə təsadüfən dağıdılan Yurdçu sərdabəsində digər arxeoloji materiallarla bərabər  şirli qab parçaları da aşkar olunmuşdur [14, s. 52; 46, s. 12]. Küpə tipli qabın gövdəsinə aid olan bu parçalar ağ rəngli gildən hazırlanaraq yaxşı bişirilmiş, hər iki üzdən şəffaf şirlə örtülmüşdür. Onun xarici səthi mavi, ağ və qəhvəyi rənglərlə üç zolağa bölünmüşdür. Mavi zolaqda iti ucları aşağıya və yuxarıya çevrilmiş üçbucaqlar çəkilmişdir. Üçbucaqların bir qismi ağ, bir qismi isə qəhvəyi rənglə doldurulmuşdur [14, s. 53]. Azərbaycan abidələrindən olduqca az tapılan şirli qablar Xocalı kurqanından, Paşatəpə və II Kültəpədən aşkar edilmişdir. Tədqiqatçıların ümumi fikrinə görə, Erkən Dəmir və Dəmir dövrünə aid şirli qablar Ön Asiya mənşəli olmuşdur [36, s. 24-26].

Dəmir dövrü abidələrindən aşkar olunan keramika məmulatının bir qismi boyalı qablardan ibarətdir. Tək-tək əldə edilən bu tip keramika nümunələri təsadüfi tapıntılarla təmsil olunmuşdur. Bu dövrdə boyalı qabların naxışlanmasında qara və

qırmızı rəngdən istifadə edilmişdir. Oğlanqaladan aşkar olunan bəzi nümunələrin üzəri qırmızı boya ilə örtüldükdən sonra qara rənglə, enli şaquli xətlərlə naxışlanmışdır [14, s. 118]. Babatəpə yaşayış yerindən aşkar olunan kasa tipli qabın gövdəsinin yuxarı qismi narıncı boya üzərindən qırmızı rəngli enli xətlərlə naxışlanmışdır [14, s. 50]. Araşdırmalar Erkən Dəmir və Dəmir dövründə qırmızı rənglə naxışlanmanın geniş yayıldığını göstərir.

Dəmir dövrünə aid boyalı qab nümunələri Muncuqlutəpə nekropolunda aşkar olunmuşdur [31, s. 226]. Kasa tipli, konusvari gövdəli qabların ağzının kənarı qırmızı boya ilə çəkilmiş enli zolaqla, gövdəsi isə şüaşəkilli ornamentlə naxışlanmışdır. Bu tip bəzəmə stili Naxçıvanın Erkən Dəmir dövrü abidələri üçün xarakterik olmaqla I Kültəpə, Qızılburun, Şahtaxtı və Culfa abidələrindən məlumdur [18, s. 116-118].

Dəmir dövrünə aid keramika məmulatının böyük bir qismi narın qum qarışığı olan gildən hazırlanaraq çəhrayı rəngdə bişirilmiş gil qablardan ibarətdir. Onların bir qismi qırmızı boya ilə örtüldükdən sonra yaxşı cilalanmışdır [34, s. 111].

Dəmir dövrünə aid bədii metal məmulatı Yurdçu sərdabəsindən [46, s. 5-23] və Muncuqlutəpə nekropolundan [31, s. 221-233] aşkar edilmişdir. Aşkar olunan materialların əksəriyyəti Erkən Dəmir dövrünün metal əşyaları ilə bənzərlik təşkil edir. Lakin qeyd etmək olar ki, Yurdçu sərdabəsindən aşkar olunmuş metal məmulatının az bir qismi gümüşdən hazırlanmışdır. Onlar arasında orijinal xüsusiyyətləri ilə seçilən sırğalar və üzüklər vardır [46, s. 13].

Dəmir dövrünə aid  metal məmulatının bir qismi ilanbaşlı bilərziklərdən ibarətdir [33, s. 89-92]. Bu tip bilərziklər Şahtaxtı, Yurdçu və Qarabağlardan xeyli miqdarda əldə edilmişdir. İlanbaşlı  boyunbağılara Qızılburun tapıntıları arasında da təsadüf edilmişdir. Ehtimal ki, ilanbaşlı bilərziklərin və boyunbağıların hazırlanması onların qoruyucu məna daşıması ilə bağlı olmuşdur. Dəmir dövründə bu tip bilərziklər qədim Şərq ölkələrində geniş yayılmışdır [33, s. 13].

Bu dövrə aid metal əşyaların bir qrupu da xarici səthi dərin gəzlərlə naxışlanmış bilərzik və üzüklərdən ibarətdir. Bu tip əşyalar başlıca olaraq Qarabağlardan və Qızılburundan aşkar olunmuş, lakin nəşr edilməmişdir. Arxeoloji materiallar az olsa belə, bu dövrdə  metal məmulatı istehsalının yüksək inkişaf etdiyini göstərir.

**Urartuların Naxçıvana yürüşləri.** Tədqiqatlar bu dövrdə xarici işğal təhlükəsinin artdığını göstərir. Culfa rayonunun Xoşkeşin  kəndi yaxınlığında aşkar olunan İlandağ kitabəsi İşpuini və Menuanın adını xatırladır, e.ə. 820 və 810-cu illərdə onların hərbi hücumları və qələbələrindən bəhs edir. Bu yazıya görə İşpuini və Menua Arsinie və Ayanianu  torpaqlarını işğal etmələri, Pluadidə kitabə qoymaları, urartuların hərbi Allahı Xaldinin şərəfinə qurban vermələri ilə fəxr edirmişlər. Kitabənin mətni belədir: “İlahi Haldinin əzəməti ilə İşpuini Sardurinin oğlu və Meniua İşpuininin oğlu Arsine şəhərinin ölkəsini zəbt etdilər, İş

[....şəhərinin] ölkəsini, Arsikua şəhərinin ölkəsini, Ayanianu şəhərinin ölkəsini zəbt etdilər, dağıtdılar. Pluadi ölkəsində onlar ilahi Haldiyə lövhə ucaltdılar və əmr verdilər: Pluadi ölkəsində ilahi Haldiyə öküz və qoyun, Haldinin arvadına inək qurban kəsilsin"[12, s. 107]. Kitabənin təntənəli şəkildə yazılmasına baxmayaraq Urartular heç vaxt bu ərazini işğal etməmişlər. Çünki burada Urartu qalalarının tikilməsi haqqında heç bir epiqrafik və arxeoloji dəlil yoxdur. Kitabənin mətnindən görünür ki, bu ərazilər urartulara məxsus olmamışdır. Onlar bu əraziyə işğalçı yürüşlər etmiş, lakin burada möhkəmlənə bilməmişlər. Elə buna görə də ilahi Haldiyə həsr edilmiş lövhə Pluadidə ucaldılmışdır. Məlum olduğu kimi, Pluadi Culfanın qonşuluğunda, Arazın o biri tərəfində yerləşirdi.

Oğlanqalanın tədqiqatları göstərir ki, bu qalanın ətrafında yaranan kiçik dövlət müəyyən mərhələdə Urartuların e.ə. 9-cu və 8-ci əsrlərdə müharibələr apardığı və *Etiuni* adlandırdığı kiçik tayfaların və dövlətlərin birliyinə daxil olmuşdur. I Argiştinin kitabəsində deyilir : "İlahi Haldi yürüşə çıxdı, öz silahı ilə Etiuni ölkəsinə qalib gəldi. Kixuni şəhərinin ölkəsinə qalib gəldi, onları Argiştinin qarşısında məğlub etdi ... gölün sahilində yerləşən Kixuni şəhərinin ölkəsini zəbt etdim, Aliştu şəhərinə çatdım, kişiləri, qadınları oradan apardım"[12, s. 110]. Kitabənin mətnindən göründüyü kimi I Argiştinin yürüşləri zamanı *Etiuni* ölkəsinin bir qismi urartular tərəfindən işğal edilmişdi. Urartuların *Etiuni* tayfalarını uzaq şimalda, Göyçə gölünün yaxınlığında yerləşdiyini xatırlasa da, qeyd etmək lazımdır ki, bu tayfalar Naxçıvanın qonşuluğunda yerləşən böyük tayfa birliyi olmuşdur. Urartu hökmdarı II Argiştinin Sisian yaxınlığında tapılmış kitabəsində deyilir: "Mənim qarşıma ....Etiuni ölkəsinin çarı gəldi, ölkəsinin vergisini mənə verdi..."[12, s. 118]. Kitabənin mətni Göyçə gölü hövzəsində yaşayan Etiuni tayfa birliyinin Naxçıvan yaxınlığında yerləşdiyinə işarə edir və bu konfederasiyanın böyük ərazini əhatə etdiyini təsdiq edir. Kitabənin mətni həmçinin Etiuni konfederasiyasına daxil olan tayfaların xərac verməklə işğaldan yaxa qurtardığını, həmçinin onların urartulardan nisbi asılılığını göstərir.

Yuxarıda qeyd olunduğu kimi, bu dövrdə Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyəti yayılmışdı. Qeyd etmək lazımdır ki, Uti vilayətin lokallaklaşdırıldığı ərazi Xocalı-Gədəbəy mədəniyyətinin yayıldığı ərazi ilə üst-üstə düşür. Antik mənbələr bu tayfaların yaşadığı ərazini Otena adı ilə xatırlamışdır. Məlum olduğu kimi, bu tayfalar vaxtilə Naxçıvandan və Xudafərindən keçərək Azərbaycanın cənubunda məskunlaşmışlar. Araşdırmalar zamanı Oğlanqaladan Xocalı-Gədəbəy mədəniyyətinə aid keramika məmulatı da aşkar olunmuşdur. Son illər Naxçıvanda və Xudafərində aparılan araşdırmalar bunu sübut edir. Deməli, Naxçıvanda məskunlaşan tayfalar Xocalı-Gədəbəy, yaxud Etiuni tayfaları ilə sıx ittifaqda olduqları üçün urartular bu ərazini işğal edə bilməmişlər. E.ə. 8-ci və 7-ci əsrlərdə Yaxın Şərqin tarixində mühüm rol oynayan daha güclü bir tayfa olan *skiflər* ortaya çıxmışdı. Naxçıvandan aşkar olunan skif tipli ox ucluqları bu tayfaların Naxçıvanda məskun-

laşdığını təsdiq edir. Akademik B.B.Piotrovskinin fikrinə görə, Urartuların şimal qalaları skiflər tərəfindən dağıdılmışdır. Bu həmin qalaların divarlarına sancılmış skif tipli ox ucluqları ilə təsdiq olunur. Qeyd olunduğu kimi, Urartu Naxçıvanın lap qonşuluğunda yerləşirdi və onlar lovğalıqla işğal etdikləri hər yerdən bəhs edirdilər. B.B.Piotrovski qeyd edir ki, əgər mixi yazılar qonşular haqqında susursa bu, sərhəddə olan ağır döyüşlərdən və məğlubiyyətdən xəbər verir.

**Oğlanqala şəhər-dövləti.** E.ə. I minilliyin əvvəlində yadelli basqınlarının artması qala tipli yaşayış yerlərinin tikintisinə səbəb olmuşdur. Urartu kitabələrində mühüm inzibati-siyasi mərkəzlər qala, şəhər, ya da qala-şəhər adlandırılmışdır. Naxçıvanda inşa olunan belə qala-şəhərlərdən biri də Oğlanqala yaşayış yeridir. Oğlanqala şəhər-dövləti Urartuların amansız basqınlarına qarşı mübarizə apararaq öz müstəqilliyini qorumuşdur. Arpaçay vadisində mühüm strateji məntəqə olan Oğlanqala şimalda Arpaçay vadisinin yuxarı axarlarını, o cümlədən Göyçə gölü ətrafını, qərbdə Artaşata qədər olan əraziləri öz nəzarəti altında saxlamışdır. Oğlanqaladan və Şərurdan aşkar edilən maddi-mədəniyyət nümunələri Oğlanqala hökmdarlarının Urartu dövlətinin içərilərinə qədər irəliləyərək hərbi qənimət əldə etmək qüdrətinə malik olduqlarını göstərir.

Bu şəhər Şərur rayonunun Oğlanqala kəndi yaxınlığında Qaratəpə dağı üzərində yerləşir. İndiyədək saxlanmış müdafiə divarının qalıqları inkişaf etmiş Dəmir dövrünə aiddir. Yaşayış yerində həyatın Son Orta əsrlərədək davam etməsinə baxmayaraq, müdafiə divarlarının qalıqları olduqca yaxşı saxlanmışdır. Abidənin ən hündür yerində Narınqala salınmışdır. Narınqala dördkünc formalıdır. Araşdırmalar Narınqalanın ikiqat müdafiə divarı ilə əhatə olunduğunu göstərir. Divarlar iri daş bloklardan bərkidici məhlul olmadan inşa edilmişdir. Narınqalanın təhlükəsizliyinin təmin edilməsi üçün o əlavə müdafiə divarları ilə möhkəmləndirilmişdir. Olduqca mürəkkəb və özünəməxsus xüsusiyyətləri olan bu tip müdafiə sisteminə Naxçıvan abidələrinin heç birində rast gəlinməmişdir. Oğlanqala cənub-qərb tərəfdə səkkiz sıra, şimal-şərq tərəfdə isə dörd sıra müdafiə divarı ilə əhatə olunmuşdur. Müdafiə divarları bir-birinə paralel olaraq çəkilmiş və qalanın gərəkli hissələrinin müdafiəsi möhkəmləndirilmişdir. Qalanın cənub-qərb ətəyi boyunca uzanan müdafiə divarı üç yerdə yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir. Yonulmuş iri qaya parçalarından inşa edilən Şimal qala bürcü daha yaxşı saxlanmışdır. Qala bürcünün inşasında ağırlığı 2-3 ton olan daşlardan istifadə edilmişdir. Şimal qala bürcü digər bürclərdən tikinti texnikasının özünəməxsusluğu ilə fərqlənir. Qala bürcü iki sıra yarımdairəvi divardan ibarətdir. Öndəki divar arxadakına nisbətən bir qədər yüksəkdədir. Tədqiqatçıların fikrinə görə, divarlar arasındakı boşluq əsgərlərin hərəkəti üçün istifadə edilmiş, öndəki divar isə onların müdafiəsini təmin etmişdir [32, s. 189].

Oğlanqala yaşayış yerinin memarlıq xüsusiyyətlərindən biri istər Narınqalanın, istərsə də müdafiə divarlarının rizalitlərlə möhkəmləndirilməsidir. Rizal-

itlərin ölçüləri 2-4 m arasındadır. Onların qurulmasında yonulmuş daşlardan da istifadə edilmişdir. Müdafiə divarının rizalitlərlə möhkəmləndirilməsi Dəmir dövrü abidələri üçün xarakterik olmuşdur. Naxçıvanda bu tip tikintilərə Çalxan yaşayış yerində [38, s. 97-99], Qazançıqalada və Sədərəkqalanın tikintisində rast gəlinmişdir.

Dəmir dövrü abidələrindən yalnız Oğlanqala yaşayış yerində geniş arxeoloji qazıntılar aparılmışdır. Bu qala Dəmir dövründə Naxçıvanda ən böyük, Cənubi Qafqazda isə böyük qalalardan biri olmuşdur. Abidənin yerləşdiyi ərazi kənd təsərrüfatı üçün böyük əhəmiyyəti olan və Naxçıvanın ən məhsuldar ərazisi olan, öz başlanğıcını Kiçik Qafqaz dağlarından alan Arpaçayın keçdiyi Şərur düzənliyini nəzarətdə saxlamaq baxımından olduqca əhəmiyyətlidir. Oğlanqalada 1988-1989-cu illərin qazıntıları zamanı qalanın Erkən və Orta Dəmir dövründə bu ərazidə mühüm siyasi mərkəz olması ilə bağlı inkaredilməz dəlillər aşkar olunmuşdur [34, s. 106-120]. 2008-2011-ci illərdə Azərbaycan-Amerika ekspedisiyasının dörd il ərzində apardığı qazıntılar nəinki bu ilk mülahizələri təsdiq etdi, həmçinin göstərdi ki, Oğlanqala Erkən Dəmir dövründə müstəqil dövlətin paytaxtı olmuşdur [16, s. 39; 35, s. 12-15]. O, qonşu Urartu dövləti ilə iqtisadi və mədəni əlaqələr saxlamış, Əhəməni imperiyasının dağılmasından sonrakı yüzilliklərdə güclü müdafiə sistemi ilə əhatə olunmuş şəhər-dövlətin paytaxtı olmuşdu. 1988-1989-cu illərdə aparılan qazıntılar 280 kv. m sahəni əhatə etmişdir. Qazıntı zamanı yaşayış yerində dörd tikinti dövrü müəyyən edilmişdir. Arxeoloji tədqiqatlar 150 kv. m sahədə ana torpağadək davam etdirilmişdir. Məlum olmuşdur ki, qalanın müdafiə divarları təbii qayalıq üzərində salınmışdır. Mədəni təbəqənin qalınlığı yerin relyefindən asılı olaraq 2,5 - 4,5 m arasındadır [34, s. 106]. Araşdırmalar müdafiə divarının müxtəlif tikinti dövrlərində fəaliyyət göstərdiyini sübut edir. İri qaya parçalarından hörülən divar relyefdən asılı olaraq 1-2,7 m hündürlüyündə saxlanmışdı. Divarın ətrafında xeyli miqdarda çiy kərpic və möhrə qalıqlarının aşkar olunması, onun yuxarı qisminin çiy kərpiclə hörülərək tamamlandığını göstərir.

2008-2011-ci illərdə aparılan qazıntılar zamanı əsas Oğlanqalanın sitadeli və şimal bürcü yaxınlığındakı istehkamlar müəyyən edilmişdir. 2010-cu ildə şimal-qərbdəki dairəvi bürcün şimal divarının təməlindən götürülən kömür analizi göstərdi ki, bu müdafiə istehkamları təqribən e. ə. 800-cü ildə inşa olunmuşdur. Bu o deməkdir ki, Oğlanqalanın istehkamları Urartu imperiyasının Türkiyədə möhkəmləndiyi (təqribən e. ə. 850-600-cü il), Qafqazda və Şimal-Qərbi İranda [62] hərbi əməliyyatlar apardığı dövrdə tikilmişdir. Müdafiə istehkamlarının tikinti texnikası ciddi maraq doğurmuşdur. Oğlanqalanın mühəndisləri qalanı tikərkən Erkən Dəmir dövrü texnikasından, yoxsa öz nüfuzlu qonşuları olan urartuların tikinti texnikası və üsullarından istifadə etmişdilər? Urartu istehkamları fövqəladə dərəcədə standartlaşdırılmışdır, onlar müntəzəm möhkəmləndirmə, yonulmuş daşlardan ibarət və standart ölçülü kərpic tikinti ilə xarakterizə olunur [64, s. 103-115]. Ehtimal ki,

Urartu arxitektorları dövlətin daimiliyini təmin etmək üçün imperiya ərazisindəki bütün istehkamların tikintisini layihələşdirmişdilər.

Oğlanqalanın tədqiqi zamanı şimal istehkamların xüsusiyyəti 215 metrlik məsafədə izlənmişdi. Araşdırma göstərdi ki, Oğlanqalanın istehkamları Dəmir dövrünün erkən mərhələsinin tikintilərini xatırladır. Lakin ola bilsin ki, Urartunun bəzi xüsusiyyətləri də təqlid edilmişdir. Urartu divarlarının düz və dördkünc, topoqrafiyaya uymayan xüsusiyyətlərindən fərqli olaraq Oğlanqala istehkamları Qaratəpə dağının topoqrafiyasına uyğun olaraq inşa edilmişdir. Şimal divarlarının araşdırılması ciddi düşünülmüş, lakin bəzən qeyri-müntəzəm möhkəmləndirilmiş istehkamları ortaya çıxardı. Uzunluğu 7 m, eni 4 m olan divarın qərb tərəfinin təməli kifayət qədər davamlıdır. Onlar bir-birindən 15 m aralıda idi. Lakin şərqə doğru bu nümunə qırılır. Möhkəmləndirilmiş divarlar əvəzinə qeyri-müntəzəm işlənmiş divar ziqzaqları ortaya çıxır. Möhkəmləndirilmiş divarların Urartu arxitekturasının xüsusiyyəti olmasına baxmayaraq, onların bənzərləri Cənubi Qafqazın Dəmir dövrü arxitekturasından da mövcuddur.

Şimal istehkamlar blok halına salınmış əhəngdaşı parçalarından inşa olunmuş, daş blokların arasındakı boşluqları doldurmaq və divarı düzəltmək üçün isə kiçik həcmli daşlardan istifadə edilmişdir. Divarın müxtəlif hissəsindəki daşlar səliqə ilə düzülmüş yonulmamış daşlardan ibarətdir. Lakin divarın bəzi hissələrində, əhəngdaşı parçalarının böyük hissəsi kvadrat və düzbucaqlı blok şəklində yonulmuşdur. Bu tip blokların ölçüsü 30 və 70 $sm^2$ arasındadır. Digər hissələrdə isə divarlarında bir qədər yonulmuş və yonulmamış daşlardan istifadə edilmişdir. Daşyonanlar IV Dövrdə, ümumiyyətlə, divarlara yaxşı yonulmuş küncləri olan daşlar qoymağın qayğısını çəkməmişlər, ehtimal ki, bu hissələr zəif olduğundan eroziyaya məruz qalmışdır. Divar boyunca istifadə olunan kiçik həcmli daşların da miqdarı dəyişmişdir. Bu müdafiə divarı ana qaya üzərində tikilmiş, bununla belə müxtəlif tikinti üsullarından istifadə edilmişdir. Ümumiyyətlə, divar inşa edilməzdən əvvəl təməldəki otlar yandırılmış və buna görə də birbaşa divarların altında tünd boz rəngli kül layı saxlanmışdır. Təməlin üzərindəki bitki örtüyünün yandırılması əhəngdaşının keyfiyyətini dəyişdirmiş, onların üzərində daş ovuğu və çatlaqlar qalmışdır. Bundan sonra bənnalar əhəngdaşı bloklarını təməlin üzərinə qoymaq və müxtəlif üsullardan istifadə etməklə səviyyəni düzəltməyə və düzgün səth almağa çalışmışlar. Bəzən böyük blokların altı kiçik həcmli daşlarla düzəldilir, bəzən isə daş bloklar birbaşa qayanın üzərinə qoyulurdu. Urartu qalalarında olduğu kimi təməl üçün birbaşa qayanın düzəldilməsinə heç vaxt rast gəlinməmişdir. Urartularda pilləkən formasında yonulan qayalar birbaşa təməlin əsasını təşkil edirdi. Oğlanqalanın bu istehkamında müxtəlif tikinti üsullarının istifadə edilməsi qalanı inşa edən arxitektorlar və daşyonanlar haqqında müəyyən fikirlər deməyə imkan verir. Belə hesab edirik ki, qalanın müxtəlif hissələrinin tikilməsinə ayrıca şəxslər cavabdeh olmuş və tikintidə Urartu qalalarında olduğu kimi heç bir standartlaşdır-

maya ehtiyac duyulmamışdır.

Şimal müdafiə divarlarının daş istehkamları bəzi yerlərdə 2 m yüksəkliyində saxlanmışdır. Lakin, onların hündürlüyü 1-1,5 m-dən aşağı olmuşdur. Əlavə olaraq bu istehkamların üzəri ölçüləri 40X40X20 sm olan kərpic tikinti ilə tamamlanmışdır. Onlar həm inşa olunmuş divarların hündürlüyünü yüksəltmiş, həm də divarlar üçün terras rolunu oynamışdır. Divarların daş fasadı arxadan çınqılla doldurulurdu. Kərpic tikintilər daş təməl üzərində inşa olunurdu. Oğlanqalanın şimal tərəfinin araşdırılması göstərir ki, bu hissə kərpic terraslardan ibarət olmuş, divarların möhkəmliyini artıran çınqıl, daş divarlar kimi əsas tikinti materialı olmuş və təqribən e.ə. 800-cü ildə tikilmişdir. Terraslanmış sahənin ölçüsü təqribən 78 X 164 m olmuşdur. Sitadelin xarici divarı ilə müdafiə divarı arasındakı yüksəklik 35 m olmuşdur. Bu 2,42 ha olan sahənin terraslaşdırılmasına, karxana işlərinə, böyük əhəng blokları və milyonlarla kərpicin daşınmasına xeyli işçi qüvvəsi cəlb edilmişdir. Bu təqribən milyonlarla işçidən ibarət böyük işçi qüvvəsi tələb edirdi. Bu tikinti layihəsinin monumentallığı IV Dövr Oğlanqala liderlərinin böyük qüvvəsindən xəbər verir. Tikintinin möhtəşəmliyi özlüyündə siyasi hakimiyyətin qüdrətini göstərir.

Araşdırma zamanı şimal-şərq tərəfdə qapı olduğu zənn edilən bir boşluğa rast gəlinmişdir. Bu boşluğun eni 8,3 m idi. IV Dövrdə burada inşa olunan divar, ehtimal ki, sitadelə gedən orijinal qapı olmuşdur. Bu divarın şimal yamacın ən əlverişli mövqeyində yerləşməsi irəli sürülən ehtimalı təsdiq edir. Əlavə olaraq demək olar ki, burada çay daşlarından işlənmiş təmələ rastlanmamış, çay daşlarını kiçik hissələrə bölünmüş əhəng daşı ilə birləşdirən başqa bir üsuldan istifadə edilmişdir. Bu aralıqda, qərb tərəfdə ana qaya üzərində açılmış oyuq, böyük ehtimalla qapı oxu üçün nəzərdə tutulmuşdur. Bu pilləkənli sahə, ola bilsin ki, III Dövrdə sitateldə rastlanmış divara bənzər tikinti zamanı doldurulmuşdur. IV Dövrün son cərgələri kiçik həcmli yastı daşlarla işlənmiş və səviyyəni düzəltmək üşün istifadə edilmişdir. Bu tikintinin üzərinə iki cərgə kərpic tikinti, ondan sonra isə üç cərgə böyük daş bloklar qoyulmuşdur. Daş blokların əksəriyyəti IV Dövrdəki bənzərlərinə nisbətən çox kiçik idi. Ümumiyyətlə, yan-yana qoyulmuş 20-30 $sm^2$ ölçülü daşlar pis inşaat texnikasından xəbər verirdi, belə ki, bu tikintidə daşların bir çoxu bloklarla uyğun deyildi.

Ərazisi 1,2 ha olan sitadelin əsas binası şimal tərəfdə yerləşir və təqribən 4700 $m^2$ sahəni əhatə edir. Burada Sovet dövründə, 1988-1989-cu illərdə və bizim 2008-2011-ci illərdə apardığımız araşdırmalar zamanı binanın 1800 $m^2$ sahəni əhatə edən hissəsi açılmışdır. Radiokarbon analizlər göstərir ki, sitadel, əvvəlcə, təqribən e.ə. 800-cü ildə Oğlanqala IV dövründə tikilmişdir. Bu bürclərin və müdafiə istehkamlarının yaradılması ilə üst-üstə düşür [60, s. 321-362]. İstehkamların inşasında tətbiq edilən tikinti üsulları həmçinin sitadeldə istifadə olunmuşdur.

Oğlanqalanın IV Dövrünə aid sarayı ölçüləri 33 X 34 m, yaxud 1122 $m^2$ olan

böyük daxili həyətin ətrafında inşa olunmuşdur. Bu demək olar ki, Türkiyədəki Altıntəpə [20, s. 85-108] məbədini əhatə edən daxili həyətlə eyni ölçüdədir. Daxili həyət, ehtimal ki, sitadeldə ən mühüm ictimai yerlərdən biri olmuşdur. Onun hədsiz dərəcədə böyük ölçüsü qala hökmdarının güclü siyasi hakimiyyətini göstərir. Daxili həyətdən şərqə doğru bir neçə uzunsov, ensiz binalar aşkar edilmişdi. Ehtimal ki, onlar anbar, yaxud xidməti otaqlar olmuşdur.

Biz daxili həyətdə IV Dövrə aid, qalanın inzibati funksiyaları ilə bağlı olan böyük küplərin qalığına və Azərbaycanda ən qədim mixi yazı olan keramika üzərindəki kitabələrə rast gəldik. Lakin heç bir təsərrüfat küpü bütövlükdə aşkar edilmədi. Təsərrüfat küplərinin parçaları bədii cəhətdən olduqca yüksək səviyyəli hazırlanmışdı. Üzərində mixi yazı olan parçalar isə demək olar ki, bu sahənin bütün kontekstlərindən aşkar olunurdu. Küplərin üzərində fraqment halındakı yazılar, şübhəsiz ki, onların tutumunu göstərirdi. Rəqəmlərə aid *a-q (ar) və ru* kimi bəzi işarələr bərpa olunmuşdur, ehtimal ki, onlar *aqarqi i terusi* işarələrini və həcm ölçüsünü bildirmişdir [58, s. 80-82.].

2011-ci il mövsümündə tədqiqatlar zamanı şərqdə iç qalanın IV Dövrə aid istehkamları aşkar olunmuşdu. Burada müəyyən ara verilməklə divarlar qərbə doğru yönəlmişdi. Bu divarlar arasındakı məsafə qeyri-müntəzəm olub şərqə doğru 6,5 m – dən 7,5 m – dək genişlənirdi. Ehtimal ki, bu tikinti iç qalaya daxil olan əsas girişin qalığıdır. Burada aparılan qazıntılar zamanı daha əvvəlki dövrə aid divar qalıqları aşkar olunmuşdur. Lakin divarların əksəriyyəti kobud işlənmiş standart əhəngdaşı bloklarından inşa edilmişdir. Bu tip tikinti texnikası istehkamın və iç qalanın inşasında izlənmişdir. Bu divarda da ustalıqla yonulmuş yeddi daş blok var idi, onların ikisi standartlaşdırılmış formada olub 90X60 sm və 45X60 sm ölçüdə idi. Bu tip daş bloklar Bastam, Torpakqala, Çavuştəpə, Ayanis daxil olmaqla Türkiyə ərazisindəki Urartu yaşayış yerlərində və Şimal-Qərbi İranda aşkar edilmişdir. Bu bloklar Oğlanqalada olduğu kimi inzibati binanın təməlinin inşasında istifadə edilmişdir. Torpaqqalada belə bloklardan inşa edilmiş platforma üzərində Xaldinin məbədi inşa olunmuşdur [48, s. 162]. Ayanisdə bu tip texnika iç qalanın cənub istehkamlarının təməlinin inşasında istifadə edilmişdir [54]. Bu yaşayış yerlərinin hamısı 7-ci əsrdə inşa edilmiş və Erzen bu tikinti texnikasını həmin dövrə aid etmişdir [19, s. 25-26]. Oğlanqalanın iç qala, böyük ehtimalla, 7-ci əsrdən sonra qısa müddət ərzində tərk edilmişdir.

Arxeoloji araşdırmalar inkişaf etmiş Dəmir dövründə Naxçıvan abidələri üçün rizalitlərlə möhkəmləndirilmiş dördkünc planlı iç qalanın xarakterik olduğunu göstərir. Lakin yaşayış yerlərinin heç biri geniş qazıntılarla öyrənilmədiyindən onların daxili quruluşu haqqında müəyyən bir fikir söyləmək çətindir. Tədqiqatlarla müəyyən olunmuşdur ki, Oğlanqalanın Narınqalası iki sıra divarla əhatə olunmuşdur. Narınqaladan kənarda olan yaşayış binalarını əhatə edən müdafiə divarları relyefə uyğun olaraq tikilmişdir. Bu xüsusiyyətinə görə Naxçıvanın Dəmir dövrü

abidələri qonşu Urartu abidələrindən tamamilə fərqlənir.

Araşdırmalar müdafiə divarının xeyli yüksək olduğunu göstərir. Tədqiqatçılar divarların yuxarı qisminin çiy kərpiclə hörülərək tamamlandığını qeyd etmişlər [23, s. 41]. Oğlanqalanın müdafiə divarlarının bəzi qismlərdə 3 m yüksəkliyədək saxlandığını nəzərə aldıqda kərpic hörgü ilə birlikdə divarların hündürlüyünün 4-5 m-dək olduğunu söyləmək olar.

Oğlanqala yaşayış yerindən arpa, buğda, darı dənlərinin, üzüm çəyirdəklərinin aşkar olunması əkinçiliyin müxtəlif sahələrinin inkişaf etdiyini göstərir. Bu dövrdə suvarma əkinçiliyinin geniş inkişaf etdiyini Fərhad arxının qalıqları da göstərir [23, s. 44]. Bu qədim suvarma sistemi ətrafında apardığımız araşdırmalar zamanı müəyyən edilmişdir ki, arx iri daşlardan tikilmiş möhtəşəm divarla möhkəmləndirilmişdir. Divarların tikinti texnikası, xüsusilə onların bəzi qismlərdə düzbucaqlı rizalitlərlə təmin edilməsi Dəmir dövrü abidələri üçün xarakterikdir. Odur ki, bu arxın Dəmir dövründə də fəaliyyət göstərdiyi heç bir şübhə doğurmur.

Oğlanqalada aparılan araşdırmalar zamanı dəmirdən hazırlanmış əmək alətlərinə rast gəlinməmişdir. Lakin qala divarlarının inşasında yonulmuş iri daş bloklardan istifadə edilməsi bu dövrdə təkmil əmək alətlərinin olduğunu sübut edir. Dəmir dövrünün monumental müdafiə tikintiləri, məhz, belə alətlərdən istifadə edilməklə yaradılmışdır.

Dəmir dövrünə aid memarlıq abidələrinin xarici görünüşü ilə bağlı əlimizdə əsaslı dəlillər yoxdur. Bununla bağlı yalnız qonşu Şərq ölkələrinin memarlıq abidələrinə əsasən müəyyən fikirlər yürütmək mümkündür. Belə hesab etmək olar ki, Naxçıvan abidələri xarici görünüşünə görə qonşu Assuriya və Urartu qalaları ilə bənzər olmuşdur. V.H.Əliyev və D.A.Axundov Oğlanqalanın müdafiə sistemini Xett və Suriya - Xett qalalarının arxitekturası ilə müqayisə etmişdir [32, s. 189; 23, s. 43]. Lakin qeyd etmək istərdik ki, Naxçıvanın Dəmir dövrü abidələri yalnız ümumi əlamətlərinə görə Cənubi Qafqaz və Yaxın Şərq abidələri ilə müqayisə edilə bilər. Naxçıvan abidələrinin özünəməxsus arxitekturası onların yerli mədəniyyətin məhsulu kimi meydana gəldiyini sübut edir.

Ə.K.Ələkbərov Oğlanqala yaşayış yerində araşdırmalar apararkən əldə etdiyi boyalı qablara əsaslanaraq, Oğlanqala və Qızılburun mədəniyyətlərinin bənzər olduğunu göstərmişdir [27, s. 54]. Ə.K.Ələkbərov həmçinin bu boyalı qabları Van işğalları dövrünə aid etmiş, Oğlanqala yaşayış yerini Urartu qalası Arba ilə eyniləşdirmişdir [28, s. 254]. Aparılan araşdırmalar Oğlanqalanın Urartu abidələri ilə həmdövr olduğunu, lakin tikinti texnikası və quruluşuna görə Urartu abidələrindən tamamilə fərqləndiyini göstərmişdir. Oğlanqaladan aşkar olunan keramika məmulatı da bu fikirləri təsdiq edir [7, s. 20; 34, s. 120].

Mərkəzi Oğlanqala olan dövlətin sərhədlərini müəyyənləşdirmək üçün 2012-ci ildə Oğlanqalanın ətrafında geniş arxeoloji araşdırmalar aparıldı. Oğlanqala ətrafında aparılan araşdırmalar bu yaşayış yerinin böyük ərazini [487 hektar] əhatə

edən şəhər dövlətin paytaxtı olduğunu təsdiq edir. Müəyyən edildi ki, Qızqala da bu dövlətin ərazisinə daxil olmuş, Oğlanqala və Qızqala arasında olan müəyyən ərazilərdə qala divarı inşa olunmuşdur. Yaşayış yerini əhatə edən müdafiə divarlarının daha çox şimal istiqamətdə olması bu istiqamətdə hücumların intensiv olduğunu təsdiq edir.

**Naxçıvan Atropatena dövlətinin tərkibində.** Naxçıvanın bu dövr tarixinə aid yazılı mənbələr yoxdur. Naxçıvan ərazisində bu dövrə aid küp qəbirlərə və daş qutulara rast gəlinir. Naxçıvan şəhəri yaxınlığındakı Əliabad kəndi ərazisindəki küp qəbirlərin birində Makedoniyalı İsgəndərə aid gümüş sikkənin aşkar olunması [11, s. 73-84] Naxçıvanın bu imperiya ilə əlaqələrinin olduğundan xəbər verir. Makedoniyalı İsgəndərin ölümü və Makedoniya imperiyasının parçalanmasından sonra Azərbaycanın cənubunda Atropatena, şimalında isə Albaniya dövləti yaranmışdı. Bu dövrdə Naxçıvan Atropatena dövlətinin tərkibində olmuşdur. Atropatena dövləti Cənubi Azərbaycanı və Azərbaycan Respublikasının müəyyən hissəsini əhatə etmişdir. Makedoniya imperiyasının Şərqdə ağalığı dövründə öz müstəqilliyini saxlayan Atropatenada əkinçilik, maldarlıq, sənətkarlıq, ticarət, şəhərlər və şəhər həyatı inkişaf etmişdi. Xarici işğalçıların hücumlarını uğurla dəf edən Atropatena Makedoniya, Suriya, Parfiya və digər ölkələrin hökmdarları ilə əlaqə saxlayırdılar. Atropatena dövlətinin inkişafı Ellinizm dövrünə təsadüf etsə də yunan mədəniyyəti bu ölkəyə olduqca az təsir etmişdi. Bu dövrdə Azərbaycanda məskunlaşan kuti, lullubi, xurrit və digər xalqların vahid xalq halında birləşməsi prosesi getmiş, Azərbaycan xoroniminin əsasını təşkil edən Atropatena (*Atarpatakana*) anlayışı formalaşmışdır [25, s. 3]. Atropatenada məskunlaşan türkdilli tayfalar müasir Azərbaycan xalqının əsasını təşkil etmişdir.

Atropatena dövrünün geniş tədqiq olunan abidəsi Oğlanqaladır. Oğlanqaladan aşkar olunan maddi-mədəniyyət nümunələri, xüsusilə sütunlar, sütun altlıqları və keramika Atropatenanın mədəniyyəti üçün xarakterikdir.

Əldə olunan dəlillər e. ə. 400-250-ci illərdə Oğlanqaladakı iç qalanın yenidən məskunlaşdırıldığını, III Dövr memarlarının saray binasını bərpa etmək istədiyini göstərir. III Dövrün sarayı həmin ərazini əhatə edirdi və əvvəlki dövrlərdəki strukturların düzəldilməsi ilə inşa edilmişdi. Onun düzgün formada inşa edilmiş bəzi divarları IV Dövr arxitekturasını bərpa etmişdi, lakin daxili həyətin şimal, cənub və şərq divarları III Dövrdə yenidən istifadə olunmuş, yaxud yenidən inşa edilmişdi. Ümumiyyətlə, III Dövr sarayının binaları çoxsaylı və kiçik həcmlidir. III Dövrün daş hörgüləri özündən əvvəlki IV Dövrdəkindən daha az möhtəşəmdir. III Dövr divarlarının bənnaları gil məhlulu ilə bərkidilmiş, yonulmamış kiçik daşlardan istifadə etmişlər. Divarların düzəldilməsi üçün kiçik daşlardan daha istifadə edilməmişdir və divarlar IV Dövrdəkilərə nisbətən ensizdir. Onların eni 1 və 2 metrlər arasında dəyişir, tikintinin əksər hissələrində isə 1 metrdir. Stratiqrafik dəlillər göstərir ki, III Dövr arxitektorları inşaat apararkən IV Dövrə

aid maddi qalıqları dağıtmışlar. Onlar IV Dövr bənnalarının inşa etdiyi sahəni doldurmuş və III Dövrün kərpic teretuarları birbaşa ana qaya üzərində deyil torpağın üzərində inşa olunmuşdur. Lakin daş hörgülər əvvəlki kimi möhtəşəm deyildilər və əlimizdə olan faktlar onların tamamlanmış hissələrinin çox gözəl görünüşə malik olduğunu təsdiq edir. Bu binanın müxtəlif yerlərində, xüsusilə III Dövrün qərb və şərq hissələrində yonulmuş daşlardan istifadənin əlamətləri qalmışdır. Yonulmuş daşlar əvvəlki dövrdə olduğu kimi Qaratəpə dağının əsasını təşkil edən və arxitekturada geniş istifadə edilən mərmərləşmiş əhəngdaşından deyil, tuflaşmış əhəngdaşından və qum daşından hazırlanmışdır.

Bu binanın ən böyük qismi əvvəlki daxili həyətin yerində yerləşən iri otaqdan ibarətdir. III Dövrə aid bu otaq IV dövrdəki bənzərinə nisbətən daha kiçik olub ölçüsü 27 X 33 m-dir. Bəzi faktlar, xüsusilə bu otağın şimal tərəfində cəmləşən 29 ədəddən ibarət tikinti materialı göstərir ki, III Dövrün arxitektorları əvvəlki daxili həyətin yerində sütunlu salon tikməyi planlaşdırmışdılar. Bu faktlar sütun barabanları, sütun altlıqları, kapitel və kvadratşəkilli postamentlərdən ibarətdir. Bu tkinti materiallarının heç biri sonadək işlənib tamamlanmamışdır. Qaldırılabilən sütun barabanlarının heç biri tam işlənməmiş, son istifadə üçün cilanmamış və bədii formaya salınmamışdır. Bu sahədə aşkar edilən sütun altlıqları və sütun barabanları, sahənin hər tərəfinə yayılsa da, Əhəməni apadanalarına bənzər həyətlərin yaradılması üçün kifayət deyil. Onların başa çatmamış formasını nəzərə alaraq demək olar ki, dövlət binanın böyük hissəsinin tikintisini başa çatdırmamışdır. Buna görə də sütun altlıqları və barabanların bu geniş sahədə necə istifadə edildiyini söyləmək çətindir.

Sütunlu salonlar Yaxın Şərq abidələrindən yaxşı məlumdur. Şərqi Türkiyədə və Qafqazda bu tip bir neçə saray qazılıb aşkar edilmişdir. Oğlanqalanın salonu Altıntəpə və Erebuninin salonlarından kiçikdir, ehtimal ki, onlar satraplıq mərkəzi olmuşlar. Lakin onların forması və həcmi bənzərdir. Oğlanqala sütunlarının birbaşa bənzərlərinin tapılmaması çətinlik törətsə də, onların başa çatmamış forması, xüsusilə zəng tipli sütun altlıqlarını Qaracəmilli, Sarıtəpə, Qumbati və Bencaminin [45, s. 31-35; 50, s. 197-220] qazıntıları zamanı aşkar edilmiş nümunələrlə müqayisə etmək olar. Sütunların digər elementləri, xüsusilə yonulmamış gövdə, hədsiz dərəcədə kiçik olan barabanlar öz yaxın bənzərlərini İran (Nahavənd) və Əfqanıstan (Yunan-Baktriya, Ay-Xenum) Selevkidlərinin 2-ci əsrə aid kontekstlərində tapır [49; 59]. Postəhəməni tapıntılarını nəzərə alsaq, ehtimal ki, sütun barabanları bir-birinin üzərinə qoyulmuş və sütun başlıqları onların üst qismini tamamlamışdır. Qazıntı zamanı digər elementlərin aşkar olunmaması Əhəməni mərkəzlərində, satraplıqların və inzibati əyalətlərin mərkəzində daş əsaslar üzərində ağac və kərpic sütunlardan istifadə edildiyini göstərir. III Dövrün təməlindən və sütunların altındakı kül laylarından götürülən kömürün radiokarbon analizi göstərir ki, bu tikintilərin ehtimal olunan tarixi e.ə. 4-3-cü əsrlərdir. Binanın bərpası iki tarixi dövrdən

birinə, ya Əhəməni imperiyasının son 50 ilinə, ya da post Əhəməni dövrünə, Selevkidlərin onların imperiyasını özlərinə birləşdirdiyi dövrə aiddir. Belə olduğu halda layihənin yarımçıq qalmasının səbəbi ya III Daranın ölümü və Əhəməni imperiyasının dağılması, ya da Makedoniyalı İsgəndərin imperiyasının süqutu ilə bağlı olmuşdur. İkincisi, bu, 4-cü əsrin sonunda imperiyanın dağılmasından sonrakı qarışıq onilliklərdə burada Midiya-Atropatena dövlətinin yaranması ilə bağlı ola bilər. Oğlanqala sitadelinin çoxsaylı özünəməxsus xüsusiyyətlərini nəzərə alaraq bu binanın tikintisini ikinci dövrə aid etmək olar. Oğlanqala Qafqazda farsların birbaşa olduqları Qaracəmilli, Qumbati və Bencamindən əsaslı şəkildə fərqlənir. Oğlanqalada hakimiyyətin simvollarından biri kimi böyük sütunlu salon mövcuddur. O tamamilə yerli üslubda inşa olunmuşdur. Onun tikilməsini sifariş edən şəxs yerli əhaliyə məxsus olmuş, Şərur düzənliyini və ola bilsin ki, daha böyük əraziləri öz hakimiyyəti altında birləşdirmək istəmişdir. Ola bilsin ki, onun hakimiyyəti uzun sürməmiş, buna görə də tikinti yarımçıq qalmışdır. Bu binada tapılan çoxsaylı ox ucluqları və sapand daşları bu dövrün güclü dağıntıya məruz qaldığını göstərir. Əhəməni imperiyası dağıldıqdan sonra onun Qafqazda güclü təsiri Qərbi Gürcüstanda Kolxidanın və Vanın qazıntılarından məlumdur. Ola bilsin ki, buna bənzər hadisə Oğlanqalada da olmuşdur [55, s. 3-19].

II Dövrə sitadelin tikintisi ilə bağlı əsas dəlillərdən biri də III Dövr sarayının xarabalıqlarında qazılmış 30-dan artıq çuxurdur. Onların qeyri-adi tapıntıları ziyafətlərin keçirilməsi və başqa ictimai hadisələrdən xəbər verərək göstərir ki, sarayın bu monumental binası tərk edildikdən təqribən yüz illər sonra bura Oğlanqala sakinlərinin gündəlik gəldikləri yerlərdən biri olmuşdur. Təpənin digər yerlərində aparılan geofiziki analizlər təqribən e.ə. 100 və bizim eranın 100-cü ilini göstərmişdir. Bu dövrdə Oğlanqala, ola bilsin, Strabonun Qafqazda Olane adı ilə xatırladığı möhkəmləndirilmiş şəhər olmuşdur.

Qərb divarı boyunca aparılan təmizləmə işləri zamanı Oğlanqalanın II Dövrünə aid küp qəbirlərə rast gəlinmişdir. Burada qəbirlərin olması təsdiq edir ki, tikinti və bərpa işlərindən sonra onlar öz funksiyasını itirmişdir. Bu qəbirlərdə cinsi məlum olmayan və pis saxlanmış yaşlı adam skeleti qalıqlarının bir hissəsi aşkar edildi. Lakin küp qəbirin qərb tərəfində aşkar olunan iki qulplu küpə bilavasitə Oğlanqalanın yerli insanlarına aid idi. Bu adam Roma imperiyasından gətirildiyi zənn edilən olduqca zəngin avadanlıqla dəfn edilmişdi. Əvvəlcə qəbirdən imperator Avqustun portretini göstərən dörd gümüş sikkə tapıldı. Lakin sikkələr paslanmış və bir qədər dağılmışdı. Buna baxmayaraq onların eyni tipli olduğu və üzərində iki kitabə olduğu aydın seçilirdi. Sikkələrin üz tərəfində dəfnə yarpağından tac qoyan Avqustun sağ tərəfdən şəkili var idi. Onun kənarında "CAESAR AVGVSTVS DIVI F PATER PATRIAE" sözləri yazılmışdı. Sikkənin arxa tərəfində Sezarın Qayus və Lusiusunun iki təsviri verilmişdir. Şəkil üz tərəfdən arxasında nizələr olan qalxana söykənmiş vəziyyətdə təsvir edilmişdir. Kənarda isə "VGVSTI F COS DESIG

PRINC IVVENT, C L CAESARES” kitabəsi yazılmışdır. Sikkələrin üçü numizmatik araşdırmalardan yaxşı məlumdur və ehtimal ki, e.ə. 2-ci il və bizim eranın 12-ci ilində kəsilmişdir. Digər sikkələr isə daha kiçik diapozona malik olub e. ə. 2-ci il, bizim eranın 4-cü ili ilə tarixlənir [43]. Bundan başqa dəfn edilənin bir tunc və dörd qaşlı üzüyü var idi. Onların üzərində inək və medalyon təsviri var idi. Bundan başqa qəbir inventarına yuvarlaq şəkilli şüşə flakon və bu tip flakona aid parçalar da daxil idi. Bunlarla bərabər Finikiya mənşəli şirli muncuq da aşkar edilmişdir.

Oğlanqala şəhərindən əldə edilən maddi-mədəniyyət nümunələri Atropatena dövləti üçün xarakterik olmaqla Naxçıvanın Atropatenanın tərkib hissəsi olduğunu təsdiq edir.

**Massagetlərin yürüşləri.** Eramızdan əvvəl I- bizim eranın II əslərinə aid mənbələrdə Naxçıvanla bağlı kifayət qədər məlumat yoxdur. Həmin dövrdə Atropatena Parfiya və Romanın döyüş meydanına çevrilmişdi. Ölkəmizin ərazisi yadelli işğalçılar tərəfindən qarət və talanlara məruz qalırdı. Şəraitdən asılı olaraq Atropatenada gah parfiyalıların, gah da romalıların mövqeyi güclənirdi [25, s.78]. Əldə olan faktlar bu dövrün hadisələri haqqında məlumat əldə etməyə imkan verir. Şahbuz rayonunun Ağbulaq kəndində aşkar olunan küp qəbirdən tapılmış Arşaki (Parfiya) hökmdarı I Qotarza aid mis sikkə, Naxçıvan yaxınlığındakı *Urud* (Orod-Arşaki hökmdarı – V.B.) toponimi Arşakilərin təsirini əks etdirir. Tassit Cənubi Qafqazda baş verən hadisələrdən bəhs edərkən Parfiya hökmdarı Orodla albanlar, iberlər və sarmatların birləşmiş qüvvələri arasında olan döyüşdən bəhs etmişdir [1, s. 333].

Oğlanqaladan aşkar olunan Roma sikkələri hələlik geniş nəticələr çıxarmaq üçün kifayət deyil, lakin bu tapıntılar ən azından Roma ilə əlaqələrin olduğunu, pul dövriyyəsinin inkişaf etdiyini təsdiq edir.

Bu dövrdə Azərbaycana, o cümlədən Naxçıvana massaget, sarmat və alanların yürüşləri başlayır [2, s. 21]. Kəngərli rayonunun Böyükdüz kəndi yaxınlığındakı daş qutu qəbirləri tədqiqatçılar Sarmat-alan yürüşləri ilə bağlamışlar. Onların fikrinə görə bu qəbirlərin avadanlığı sarmat-alanlar üçün xarakterikdir [25, s. 183]. Bu qəbirlər e.ə. I - bizim eranın I-III əsrlərinə aid edilmişdir. Ümumiyyətlə, bu tayfalar tarixi ədəbiyyatda massaget-alan [25, s. 184] və massaget-sarmat tayfaları [1, s. 329] da adlandırılmış, Maskutlar çarlığı ilə bağlanmışdır [25, s. 184] . Bizim eranın I əsrində sarmat-alanlar Atropatenaya hücum etmiş, cənubi Qafqaz ölkələrində dağıntı törətmiş və böyük qənimətlə geri qayıtmışlar. Araşdırmalar Böyükdüz qəbirlərinin sarmat-alanların müttəfiqləri ilə bağlı olduğunu göstərir [25, s. 183]. Mənbələr alan tayfalarının Şimalda yaşayan dağlıları ittifaqa cəlb edərək Cənubi Qafqaza hücum etdiyini təsdiq edir. Gürcü mənbələrində bu dağlılar *paçanik* (peçeneq- V.B.), *ciq, durzuk* və digər adlarla xatırlanır [25, s. 186]. Son zamanlar Böyükdüz qəbirlərinin bənzərləri Şahbuz rayonunun Biçənək, Culfa rayonunun

Göynük kəndi yaxınlığındada aşkar edilmişdir. Araşdırmalar Biçənək oykoniminin peçeneq tayfaları ilə bağlı olduğunu göstərmişdir [5, s. 112-113].

Bu dövrdə utilərin də Naxçıvanda yaşaması arxeoloji faktlarla təsdiq olunur [35, s. 12-15]. Azərbaycanın böyük tayfalarından biri olan utilər haqqında məlumat verən antik müəlliflər onların Araz çayı boyunda müqlərin qonşuluğunda, Atropatenanın sərhəddində yaşadığını göstərirlər [25, s. 8]. İqrar Əliyev bunları Qafqaz Albaniyasının Otena vilayətində yaşayan utilərlə eyniləşdirir [25, s. 8]. Məlum olduğu kimi, Qay Sezar e.ə. 1-ci ildə Ermənistanı işğal edərək bu ölkəni Atropatenanın hakimiyyətinə verir. Bizim eranın 2-ci ilində parfiyalılar tərəfindən qızışdırılan ermənilər Ariobarzana qarşı üsyan qaldırır. Bu Roma sərkərdəsinin ikinci dəfə Ermənistana yürüşünə səbəb olur. Bu yürüş zamanı ermənilər məğlub olur və Atropaten hökmdarı Ariobarzan bu iki ölkə arasında nifaqa səbəb olan Albaka vilayətini geri alır [25, s. 102]. Tədqiqatçılar bu vilayətin Vanla Urmiya arasında, Ağrı dağından şərqdə yerələşdiyini, əhalisinin marlardan ibarət olduğunu göstərirlər [25, s. 102]. Albakada murasan nəslindən olan Ajdahakanın törəmələri yaşayırdılar [25, s. 102-103]. E.ə. I əsrlə eramızın II əsrinə aid dövrdə Naxçıvan və Qoxtan haqqında məlumatlar digər mənbələrdə də var. Mənbələrin məlumatına görə, Naxçıvanın hakimi murasan qəbiləsinin Əjdahaka nəslindən olmuşdur. Belə çıxır ki, Naxçıvan o zaman Albaka vilayətinin tərkibində olub. Bu nəsildən olan sərkərdə Arğam indiki Ermənistan ərazisində taxt-tac uğrunda mübarizədə tərəflərdən gah birinə, gah da o birinə kömək edərək onları zəiflətmişdir [13, s. 100]. Mənbələrin məlumatına görə Qoxtanda olan rabsodlar [gəzərgi müğənnilər] mahnılarında Ağramı tərənnüm etmişlər [13, s. 101]. Belə nəticəyə gəlmək olarki, o dövrdə Naxçıvanın əhalisi marlar, utilər, peçeneklər, çovdeylər həmçinin, digər qəbilələr məskunlaşmışdılar. Onlar mənşəcə türkdilli idilər [15, s. 43-79].

**Sosial-iqtisadi münasibətlər.** Bu dövrdə Naxçıvanda məskunlaşan əhali içərisində ictimai bərabərsizlik daha da güclənmişdir. Oğlanqala, Sədərəkqala, Qarasu qalası, Qazançıqala kimi müdafiə istehkamlarının inşası, şübhəsiz ki, iqtisadiyyatın və təsərrüfatın təşkili sahəsində müəyyən idarə aparatının mövcud olmasını tələb edirdi. Oğlanqalanın şimal qala bürcü bir neçə ton ağırlığı olan yonulmuş daşlardan inşa edilmişdi. Ümumiyyətlə, qala divarları yonulmuş, yaxud qaba şəkildə düzəldilmiş iri daş bloklarından tikilmiş, onların üzəri isə çiy kərpiclərlə tamamlanmışdı. İlkin hesablamalar qala divarının tikintisində minlərlə kərpicdən istifadə olunduğunu göstərir. Bu Oğlanqala hökmdarlarının böyük gücə sahib olduğunu bildirir. Yuxarıda qeyd edildiyi kimi, Oğlanqala ilə Qızqalanın əhatəsində olan 487 hektarlıq ərazidə müdafiə divarları inşa olunmuş və şübhəsiz ki, bu divarların qorunması təşkil edilmişdir. Bu isə qul əməyindən istifadə olunduğunu təsdiq edir.

Oğlanqala, Qazançıqala, Qızqala və Qarasu qalasında sitadelin mövcudluğu artıq hakim təbəqənin mövcudluğunu göstərir. Hakim təbəqənin əhalinin digər

hissəsindən qala divarları ilə mühafizə olunan xüsusi yerdə-Narınqalada yaşaması cəmiyyətdə sosial ziddiyyətlərin və xüsusi mülkiyyətin mövcudluğunu təsdiq edir. Bu, Oğlanqalada daha aydın şəkildə özünü göstərir. Burada Narınqala ikiqat müdafiə divarı ilə əhatə olunmuş, Narınqalanın ətrafındakı yaşayış sahəsi isə əlavə müdafiə divarı ilə möhkəmləndirilmişdir. Bu divarların möhtəşəmliyi hakim təbəqənin aşağı təbəqələrin də qayğısına qaldığını göstərir.

Oğlanqalanın mərkəzi hissəsində 1800 kv.m sahədə saray binasının inşası sübut edir ki, cəmiyyəti idarə edən hakim təbəqə mövcud olmuşdur. İctimai bina yalnız yerli hökmdarların yaşayışı üçün deyil, həmçinin diplomatik nümayəndələrin qəbulu üçün nəzərdə tutulmuşdur. Mərkəzi monumental binaya birləşik şəkildə inşa olunan kiçik həcmli dördkünc formalı otaqlar, ehtimal ki, saray xidmətçiləri üçün nəzərdə tutulmuşdur.

Yaşayış yerlərinin tədqiqi cəmiyyətdə kəskin bərabərsizliyin olduğunu göstərir. Bu dövrdə hökmdarlara aid möhtəşəm qəbir abidələri, yuxarıda qeyd edildiyi kimi, "Fərhad evi" və Yurdçu sərdabəsi ilə təmsil olunmuşdur. Hər iki qəbir abidəsi qarət edilsə də, onların möhtəşəmliyi hakim təbəqənin qüdrətini göstərir. Yurdçu sərdabəsindən xeyli gümüş bəzək əşyasının və o dövr üçün nadir olan şirli qab parçasının tapılması bunu sübut edir [46, s. 5-23]. "Fərhad evi" üzərində kitabə olan yeganə qaya məzarıdır.

Dəmir dövrünə aid möhtəşəm qəbir abidələrinin biri də Oğlanqala yaxınlığında yerləşən kurqan idi. Bu abidə Oğlanqaladan 100 m şimal-qərbdə yerləşən kiçik təpədən ibarət idi. Təpə ətraf ərazidən təqribən 2 m hündürlükdə yerləşirdi, onun diametri 65 m idi. 2008-2009-cu illərdə aparılan qazıntılar zamanı Xocalı-Gədəbəy mədəniyyətinə aid keramika məmulatı və bir quş fiquru aşkar edilmişdi, onlar Azərbaycanın digər abidələrindən aşkar olunan materiallarla oxşar idi və Erkən Dəmir dövrünə aid idi [60, s. 321-361]. Bu kurqanın qalanın tikilməsinin ilk dövrü ilə tarixlənən materiallar verməsi xüsusilə maraq doğururdu. Burada dəfn edilənlər haqqında məlumat əldə etməklə biz Oğlanqalanın kimlər tərəfindən tikildiyini, nə üçün bu qədər böyük tikintinin aparılması haqqında məlumat əldə edə bilərdik. Lakin təəssüf ki, abidənin tədqiqi başa çatmamışdır. Qazıntı zamanı diametri 3 m olan böyük bir kromlex, kromlexin qazıntısı zamanı keramika parçaları və dörd quş fiquru aşkar olundu. Onların oxşarları Naxçıvanın digər abidələrindən də məlum idi.

Naxçıvanın bütün regionlarını əhatə edən suvarma şəbəkəsi, şübhəsiz ki, ictimai, yaxud məcburi əmək olmadan mümkün deyildi.

İctimai, yaxud məcburi əməyin tətbiqi su kanallarının tikintisindən də aydın olur. Naxçıvan Muxtar Respublikası ərazisində indiyədək qeydə alınan ən qədim su kanalı Şahbuz rayonunun Kükü kəndi yaxınlığında yerləşən kanaldır [7, s. 65]. Kanal öz mənbəyini Küküçaydan götürür. Küküçayın suyu kanal vasitəsi ilə yaxınlıqdakı düzənliyə çıxarılmış və ətraf ərazilərin suvarılması üçün istifadə edilmişdir.

Kanalın dağın ətəyi boyunca çəkilməsi Naxçıvan ərazisi üçün xarakterikdir. Kanalın möhkəmliyini təmin etmək üçün dağın ətəyi boyunca iri daşlardan hörülmüş xüsusi bənd çəkilmişdir. Bu bəndin qalıqları indiyədək qalmaqdadır. Aparılan araşdırmalar zamanı kanalın yaxınlığında qədim yaşayış yeri qeydə alınmışdır. Su kanalı yamacda salınan yaşayış yerinin altından keçmişdir. Yaşayış yerindən əldə olunan keramika nümunələri e.ə. II minilliyin sonu və I minilliyin əvvəllərinə aid edilir.

Xalq arasında "Fərhad arxı", "Qalacıq arxı" adı ilə tanınan suvarma kanalları bu dövrdə süni suvarma şəbəkəsinin olduğundan xəbər verir. Su kanalına aid daş tikintilərin bir qismi Sədərək kəndinin cənubunda indi də qalmaqdadır. Xalq arasında bu tikintilər "div hörən", "Fərhad arxı" adlanır. Fərhad arxının yaxınlığında aşkar olunan tikintilər e.ə.VIII-VII əsrlərə aiddir. Fərhad arxının mənbəyində tikilən Qız qalasının tədqiqi burada müxtəlif dövrlərdə yaşayış olduğunu göstərir. Lakin kanalın müasir dövrə gəlib çatan tikinti qalıqları e.ə. VII-VI əsrlərin memarlığı üçün xarakterik xüsusiyyətlərə malikdir. Bu ərazidə aparılan araşdırmalar zamanı Dəmir dövrünün son mərhələsinə aid keramika parçaları əldə edilmişdir. Ehtimal ki, kanal dəfələrlə bərpa olunaraq uzun illər istifadə olunmuşdur. Hazırda kanalın içərisi sel sularının gətirdiyi çöküntülərlə dolmuşdur.

Qədim su kanalının qalıqları Culfa rayonunun Dizə kəndi yaxınlığında da aşkar edilmişdir. Su kanalı Cərəcür çayının suyunun Dizə kəndi ətrafındakı torpaqlara çıxarmaq üçün çəkilmişdir. Çayın qabağı kəsilərək su torpaqda qazılmış kanala yönəldilmişdir. Kanalın suyunun dağın ətəyindən keçirmək üçün mürəkkəb hidrotexniki qurğu inşa olunmuşdur. Qurğu çayın və sel suyunun qarşısını almaq üçün qaya parçalarından hörülən hündür divardan ibarətdir. Divarın hündürlüyü bəzi yerlərdə dörd metrdən artıq olmuşdur. Aparılan araşdırmalar göstərir ki, sel sularının axması üçün divarda xüsusi novdanlar qoyulmuş və onun təbiətin gözlənilməz təhlükələrindən qorunması təmin edilmişdir. Araşdırmalar zamanı kanalın ətrafında salınan mövsümi yaşayış yerindən eramızın ilk əsrlərinə aid çəhrayı rəngdə bişirilmiş, qırmızı cilalı keramika nümunələri tapılmışdır. Demək olar ki su kanalı eramızın əvvəllərindən başlayaraq müxtəlif dövrlərdə istifadə edilmişdir.

Yuxarıdakı faktlara əsasən belə nəticəyə gəlmək olar ki, bu dövrdə Naxçıvanda sosial bərabərsizlik güclənmiş və dövlətlər formalaşmışdır. Şübhəsiz ki, bu dövrdə müəyyən ərazini əhatə edən kiçik dövlətlər olmuşdur. Bu dövlətlərin vahid bir ittifaqda birləşməsinə aid yetərli dəlillər yoxdur. Arxeoloji qazıntılar hələlik mərkəzi Oğlanqala olan qədim dövlətin varlığını ortaya çıxarmağa imkan vermişdir. İlkin araşdırmalar bu dövlətin "Etiuni" konfederasiyası ilə ittifaqda olduğunu deməyə imkan verir.

**Dini inamlar.** Bu dövrün dini inamları ilə bağlı məlumatlar qəbir abidələrinin tədqiqi zamanı əldə edilmişdir. Muncuqlutəpə nekropolunun materiallarına əsaslanaraq demək olar ki, qəbirlər qurbangahları olan daş qutular şəkilində olmuşdur. Qurbangahlardakı əşyalar müəyyən dini ayinlərin icrasından sonra ora

qoyulmuşdur. Kolanı və Sarıdərə nekropollarının tədqiqi e.ə. I minilliyin əvvəlində dəfn zamanı qəbiristanlıqda yemək və içki ilə müşayiət olunan müəyyən ayinlərin icra olunduğunu göstərir. Bilavasitə Dəmir dövrü üçün xarakterik olan "Fərhad evi"ndə skelet qalıqları aşkar edilməmişdir, Yurdçu sərdabəsində isə pis saxlanmış skelet qalıqlarına rast gəlinmişdir. Lakin bu abidələr dəfn adətini tam şəkildə izləməyə imkan vermir. E.ə. II minilliyin sonu I minilliyin əvvəli üçün xarakterik olan qəbir abidələrinin tədqiqi skeletli və skeletsiz qəbirlərin olduğunu göstərir. Bu dövrdə daş qutu tipli qəbirlər və kurqanlar geniş yayılmışdır. Bu abidələrin tədqiqi axirət dünyasına, insanların o biri dünyada yaşayacağına inamın mövcud olduğunu göstərir. Yurdçu sərdabəsinin evi xatırlatması heç də təsadüfi deyildir. Bu qəbir abidəsi divarlarında taxçalar olan otaq şəklindədir.

Keramika məmulatı üzərindəki təsvirlər də insanların dini inamları haqqında məlumat verir. Tədqiqatlar göstərir ki, gil qablar üzərində olan həndəsi bəzəmələr dağları, səmanı, Günəşi, yağışı və təbiətin digər atributlarını simvolizə etmişdir. Bu rəsmlər məxsus olduqları xalqların kainat haqqında təsəvvürlərini əks etdirməklə, onların zəngin mənəvi aləmə malik olduğunu göstərir. Dövrünə görə yüksək inkişaf etmiş iqtisadiyyata və zəngin mənəvi aləmə malik olan bu xalqların formalaşmasında, şübhəsiz ki, qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələrin inkişafı müəyyən rol oynamışdır. Arxeoloji tapıntılar bu əlaqələrin şərqdə Çinə, qərbdə Misirə, cənubda Mesopotamiyaya, şimalda Qara dəniz sahillərinə qədər uzandığını göstərir. Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr, mühüm əhəmiyyət daşımışdır. Azərbaycanda Xocalıdan, II Kültəpədən və Yurdçu qəbirlərindən aşkar olunan şirli qablar Assuriya ilə iqtisadi-mədəni əlaqələrin olduğunu göstərir. Xocalıda 11 №-li kurqandan əldə edilən muncuğun üzərində Assur çarı Adadnirarinin adına rast gəlinməsi də bununla bağlıdır. Assuriya ilə olan əlaqələr nəticəsində, şübhəsiz ki, Azərbaycanın qalaya və nikelə olan tələbatı da ödənilmişdir. Çünki yuxarıda qeyd etdiyimiz kimi e.ə. I minillikdə qalay ticarətində assurlu tacirlər mühüm rol oynamış və qalayın Ön Asiya ölkələrinə Assuriya vasitəsilə yayıldığı tədqiqatçılar tərəfindən qeyd edilmişdir.

Tanrılarla əlaqə yaradılması insanları qədim dövrlərdən düşündürmüşdür. İqtisadiyyatın və mədəniyyətin inkişafı insanların təbiətdən asılılığını müəyyən qədər azaltsa da, təbii fəlakətlərin, quraqlığın, subasmaların insanların həyatındakı nizamı pozması onları Tanrıya üz tutmağa, onunla əlaqə yaratmağa çalışmışlar.

Araşdırmalar bu dövrdə dünyanın dördhissəli, yaxud beşhissəli sturukturu ilə bağlı inancların yayıldığını göstərir. Yerüstü məkanın dörd hissəli strukturu haqqındakı təsəvvürlər, habelə onun dörd tərəfinin hər birinin qoruyucu Tanrısı olması haqqındakı inanclar türk xalqlarının mifologiyası üçün xarakterikdir.

Naxçıvanda Dəmir dövründə yaşayan qədim insanların ideoloji görüşlərini əks etdirən maraqlı sənət əsərlərindən biri də ilanbaşlı bilərziklər və boyunbağılardır. İlanbaşlı bilərziklər praktiki olaraq insanları bəd qüvvələrdən qorumalı

və onların həyatını təminat altına almalıydı. Şübhəsiz ki, Naxçıvandan aşkar olunan boyalı qabların üzərindəki ilan təsvirləri də qoruyucu funsiyaya malik olmuşdur. Şərurdan aşkar olunan tunc möhürün üzərində dağ keçisi və onu halqa şəklində əhatə edən ilan təsviri verilmişdir. Bu tip rəsmlərdə mifoloji dünya ikili müxalifət halında təsvir edilmiş, həyatın hər zaman ölümlə bitə biləcəyi fikri ifadə edilmişdir.

**Mədəniyyət.** Oğlanqala Urartunun sərhədləri yaxınlığında yerləşmiş və onun ilk tarixi Urartulara qarşı mübarizə ilə bağlı olmuşdur. Oğlanqaladan tapılan keramika və digər nümunələr Oğlanqalanın Urartu ilə, həmçinin İran və Gürcüstanın digər cəmiyyətləri ilə ticarət əlaqələri saxladığını təsdiq edir. Saraydan tapılan və üzərində mixi işarələr olan təsərrüfat küpünün parçaları Oğlanqalanın yazı sistemini də Urartudan mənimsədiyini göstərir. Oğlanqaladan aşkar olunan mixi yazılar həmçinin hesab sisteminin də mənimsənildiyini göstərir.

Dəmir dövrü incəsənətinin öyrənilməsi üçün 1983-cü ildə Şərur rayonunun Şahtaxtı və Təzəkənd kəndləri arasında təsadüfən aşkar olunan iki tunc əşya olduqca qiymətlidir. Onlardan biri Tunc kəmər parçası, digəri isə zınqırov formalı tunc möhürdür.

Tunc kəmərin parçası nazik təbəqədən hazırlanmışdır. Onun üzərindəki naxışlar əvvəlcə basma texnikası ilə işlənmiş, sonra kəsmə və cızma üsulu ilə tamamlanmışdır. Kəmər parçasının hər iki yanı iki qabarıq zolaqla məhdudlaşdırılmış, qabarıq zolaqlar boyunca kiçik oval deşiklər açılmışdır. Kəmərin üzərində hərbi-mifi səhnə təsvir olunmuşdur. Sol tərəfdə dal ayaqları üzərində duran qrifonlar təsvir edilmişdir. Onlar bir qədər yuxarı qalxan ensiz qanadlı, şir bədənli, tək buynuzu olan şir başlı, yuxarıya doğru qıvrılmış quyruğu olan mifik varlıqlardır. Qrifonların biri dırnaqlı, digəri isə pişik kimilərə məxsus pəncə ilə təsvir edilmişdir. Gözləri kiçik oyuqlarla ifadə edilmişdir. Mifik varlıqların əzələləri olduqca gərgin vəziyyətdə verilmişdir. Boynunun və bədəninin əzələləri paralel xətlərlə ifadə olunmuşdur. Onların ifadə edilməsi üçün bucaq və qövsvari xətlərdən də istifadə edilmişdir. Bədəninin tükü yalnız sinə hissəsində paralel xətlər qrupu ilə ifadə edilmişdir. Quyruğunun tükləri onlardan ayrılan kiçik xətlərlə bildirilmişdir. Qanadlarının lələkləri isə paralel xətlər arasına alınmış çərtmələrlə ifadə edilmişdir. Hər iki qrifon profildən və dinamik hərəkət vəziyyətində təsvir edilmişdir.

Qrifonlardan arxada Günəşi simvolizə edən içərisi şüa ilə doldurulan, iç-içə çəkilmiş dairələr təsvir edilmişdir. Günəş simvollarından arxada iki atlı təsvir edilmişdir. Atlılar şiş dəbilqəli, dairəvi qalxanlıdır.  Arxa tərəflərində ox qabları vardır. Bir-birindən fərqlənən atlılar bir əlləri ilə atların yüyənini, digər əllləri ilə isə nizələrdən tutmuşlar. Gödəkçə geyən atlılardan biri saqqallıdır. İkinci əsgər saqqalsızdır. O da əvvəlki əsgər kimi qısa gödəkcə geymişdir. Əsgərlərin qalxanları da bir-birindən fərqlənir. İkinci əsgərin qalxanı birincidən fərqli olaraq ortada qabarıqdır. Atlar dinamik hərəkət, sıçrayış vəziyyətindədir. Onların quyruğu ortadan bağlanmışdır. Atların sinəsində dəbdəbəli çul, başlarında dairəvi bəzəklər vardır.

Budlarının əzələləri qövsşəkilli, ayaqlarınınkı isə düz və sınıq xətlərlə verilmişdir. Gözləri və burunları kiçik dairələrlə bildirilmişdir. Atların başı qövsşəkilli xətlərin bacarıqla birləşdirilməsi ilə yaradılmışdır.

Atlıların arasında qanadları yanlara açılmış vəhşi quş dimdiyində insan başını aparır. Quşun bədəni yuxarıdan təsvir edilmiş, gözləri kiçik dairələrlə, qanadları paralel xətlər arasına alınmış çərtmələrlə bildirilmişdir. İnsan başı isə profildən təsvir edilmişdir. Quşun quyruğu iki şaquli və bir sınıq xətlə bildirilmişdir. Quşun apardığı insan başı iti başlıqlı baş örtüyündə təsvir edilmişdir. Onun gözləri batıq nöqtə, ağzı kiçik çərtmə ilə bildirilmişdir. İnsanın burnu və çənəsi aydın ifadə edilmişdir.

Atlılardan arxada kəsilmiş başının yerindən qan fısqıran çılpaq insan meyidi təsvir edilmişdir. Mərhumun ayağı profildən, bədəni isə anfasdan təsvir edilmiş, döş qəfəsi bir qrup paralel xətlərlə ifadə edilmişdir.

Bu təsvirlərdən arxada kəmərin yuxarı hissəsində Günəşi simvolizə edən təsvir, aşağı hissəsində isə hansısa rəsmlərin anlaşılmayan qalıqları saxlanmışdır.

Bu nümunədəki təsvirlər Yaxın Şərq və Cənubi Qafqaz kəmərləri ilə ümumi xüsusiyyətlərə malik olmaqla onlardan fərqlənir. Qeyd edək ki, Qədim Şərq kəmərlərinin heç birində bu tip səhnəyə rast gəlinməmişdir. Lakin onun müəyyən detalları Yaxın Şərq, xüsusilə Urartu kəmərləri ilə bənzərdir.

Rəsmlər içərisində, xüsusilə Urartu atlılarına bənzəyən təsvirlər diqqəti çəkir. Bu tip təsvirlərə Altıntəpə kəmərlərində, Karmirblurdan aşkar olunmuş ox qabları və dəbilqələrdə [41, s. 63-69] rast gəlinmişdir. Bu tip atlıların təsvirinə Mitaniya barelyeflərində də təsadüf edilmişdir [51]. Lakin Urartu kəmərlərində bu təsvirlərin daha da inkişaf etmiş forması ilə rastlaşırıq. Bizim təsvir etdiyimiz kəmərdəki atlılar bəzi detalları ilə Urartu nümunələrindən fərqlənir. Məsələn, ox qabları dairəvi başlıqlı təsvir edilmişdir. Fikrimizcə, onlara Urartu kəmərlərində rast gəlinmir və müəyyən dərəcədə Zakim kəməri üzərindəki təsvirlərə bənzəyir.

Bizim nümunədə atların başlıqları dairəvi olduğu halda, Urartu kəmərlərində yelpikşəkillidir. Atların quyruğunun təsvirində də müəyyən fərqlər vardır. Urartu kəmərlərində atların quyruqları saçaqlı olmaqla aşağı tökülür, lakin Şərur kəmərində atların quyruğunun tükləri yığılıb bağlanmışdır. Bütün bu fərqli cəhətləri ilə Şərur kəməri Assuriya incəsənəti ilə daha yaxından səsləşir [57, s. 624].

Dimdiyində insan başı tutan vəhşi quşlar Assur incəsənətindən yaxşı məlumdur [57]. Tellodan aşkar olunan stela parçası üzərində dimdiyində insan başı və insan bədəninin müxtəlif hissələrini aparan vəhşi quşlar təsvir edilmişdir. Qanadları kənara açılan quş təsvirlərinin təsvir edilmə üslubu Mesopotamiya incəsənəti üçün xarakterikdir. Assuriya və Mitaniya barelyeflərində quşların başı yandan, Telloda isə üz tərəfdən təsvir edilmişdir. Ağaca keçirilmiş bu tip quş fiqurlarından hərbi nişan kimi istifadə edilməsi [57, s. 591] və quşların insan başı ilə təsvir edilməsi əks başlanğıcların mübarizəsini göstərməklə bərabər, vəhşi quşların ölümgətirici

xüsusiyyətini də əks etdirir. Ehtimal ki, bu, bir tayfanın digər tayfa üzərində qələbəsinin simvolu olmuşdur.

Mərhumun paltarsız təsvir edilməsi Assuriya incəsənəti üçün xarakterikdir. Bu tip təsvirlərə bir çox barelyeflərdə rast gəlinmişdir [52]. Burada həmçinin başları vurulmuş əsirlərə də rast gəlinir. Bizim kəmərin üzərindəki əsirin duruşu tamamilə Assuriya nümunələrini xatırladır.

Qrifonların yaxın oxşarlarına Manna incəsənətində təsadüf edilmişdir. Saqqız dəfinəsindən tapılan qızıl lövhə üzərində də belə təsvirlər vardır [53]. Onların bəzi detalları Urartu nümunələrinə bənzəsə də, belə qrifonlar Urartu əşyalarından məlum deyildir.

Günəş rəsmləri də özünəməxsus xüsusiyyətləri ilə seçilir. Onlar qədim Şərq incəsənətində rast gəlinən bəzəkləri xatırladır. Lakin belə rozetkalar Naxçıvanın keramika nümunələrindən də bəllidir. Onların qədim nümunələrinə Mesopotamiya [56] və İran [47, s. 80] əşyalarında rast gəlinmişdir.

Şərurdan aşkar olunmuş kəmərin bir çox detallarının fərqlənməsi onun Yaxın Şərq ənənələri ilə yaxından tanış olan yerli ustalar tərəfindən hazırlandığını göstərir. Kəmərin üzərindəki təsvirlər Mesopotamiya ilə Manna incəsənəti arasında sıx əlaqənin olduğunu göstərir. Lakin atlı fiqurlar urartuların təsirini açıqca əks etdirir. Bu ola bilsin ki, onların Cənubi Qafqazda möhkəmləndiyi dövrə, e. ə. VIII-VII əsrlərə təsadüf edir.

İkinci tapıntı zınqırov şəkilli möhürdən ibarətdir. Onun yuxarısında zəncir keçirmək üçün halqa vardır. Həmin halqaya keçirilən zəncir kəsikdə dairəvi olan tunc məftildən hazırlanmışdır. Möhürün əsası oval formadadır. Onun üzərində qanadlı, ayaqları qarnına bükülmüş, buynuzları isə arxaya qatlanmış dağ keçisi təsvir edilmişdir. Kəmərin kənarında keçini halqaya alan ilan təsviri verilmişdir. Onun quyruğu keçinin buynuzunun yaxınlığında, başı isə qarnının altındadır. Keçinin ilanla birlikdə təsviri Mesopotamiya və Cənubi Azərbaycan möhür sənəti üçün geniş yayılmış motivlərindəndir [28, s. 13-32]. Təəssüf ki, möhürün bir qismi zərər görmüşdür. Buna baxmayaraq, qədim Şərq mifologiyası üçün xarakterik olan motiv aydın şəkildə verilmişdir.

Məlum olduğu kimi, ayaqları qarnına qatlanmış heyvan fiqurları qədim Şərq incəsənəti üçün xarakterikdir. Bu tip keçi təsvirlərinə Ras-Samra, Qezer və Ağaevlərdən tapılmış möhürlər üzərində rast gəlinir [63, s. 410]. Lakin bizim nümunə müəyyən oxşarlıqlara baxmayaraq, onlardan tamamilə fərqlənir. Burada keçinin ayaqlarının bükülməsi Manna-Skif incəsənəti üçün xarakterik forma almışdır. Ehtimal ki, möhür Manna və Skiflərlə bağlı olan hökmdara aid olmuşdur. Hər iki tapıntını tipoloji bənzərlərinə əsasən e. ə. VIII-VII əsrlərə aid etmək olar.

Atropatena dövrünə aid mədəniyyət nümunələri keramika məmulatı ilə təmsil olunmuşdur. Demək olar ki, halqa dabanlı, üzəri qırmızı və narıncı rənglə örtülmüş kasaların parçaları, ehtimal ki, II Dövrdə daha geniş yayılmışdır. Bu

kasaların dairəvi, halqaşəkilli oturacaqları Parfiya və İran Azərbaycanının yaşayış yerləri üçün xarakterik deyil. Lakin bəzi nümunələr Pasarqaddan, İranın digər yerlərindən və Cənubi Qafqazın Ellin dövrü qəbiristanlıqlarından məlumdur. Kənarında yiv açılmış kasaların ağız kənarları xaricə doğru çıxıntılı olub qapaq qoyulmaq üçün nəzərdə tutulmuşdur. Bu tiplər daha çox yerüstü materiallar arasında yayılmış və həmin dövrlə tarixləndirilə bilərlər. Ağzının kənarı xaricə doğru çıxıntılı olan küpələr Cənub-Qərbi və Qərbi İranda Əhəməni dövründən Parfiya dövrünə keçən təbəqələrdən məlumdur və Oğlanqalanın II Dövrü üçün tipikdir.

# III FƏSİL

## NAXÇIVAN ƏHALİSİNİN ETNOGENEZİ TARİXİ

### 1.Naxçıvan əhalisinin etnik tərkibi
*(e.ə. VI- b.e. I minillikləri)*

Zaman-zaman siyasi proseslərin meydanına çevrilən qədim Naxçıvan ərazisi minillər boyu sivilizasiya mərkəzlərindən biri kimi formalaşmış, burada yaranan qədim mədəniyyətlərin izləri dövrümüzə qədər gəlib çatmışdır. Naxçıvan əhalisinin tarixi, etnik mənşəyi, onların təşəkkülü, eləcə də bu tayfaların siyasi proseslərdə iştirakı məsələləri düzgün araşdırılmamış və təhrif edilmişdir.

Sovetlər dövrü Azərbaycan ensiklopediyasında Naxçıvanın ərazisi, şəhər və rayonları, Duzdağ mədəni, memarlıq abidələri və digər məsələlər haqqında danışılsa da, əhalinin etnik tərkibindən söhbət açılmamışdır. Ensiklopediyada "Naxçıvan" sözündən əvvəl gələn Naxər tayfa adı "Naxarar" yazılışında "öndə duran" mənasında İran, Ermənistan, Qafqaz Albaniyasında feodal nəslinin başçılarına aid edilmiş, əsl tarix saxtalaşdırılmışdır [4, s. 169]. 2007-ci ildə nəşr olunan "Azərbaycan tarixi"nin I cildində ən qədim dövrdən eranın III əsrinə qədərki məlumatlarda Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvan əhalisinin etnogenezi haqqında da səthi və yanlış məlumatlar verilmişdir. Kitabın I fəslində ovçular-yığıcılar haqqındakı məlumatlarda Paleolit, Orta Aşel, Mustye mədəniyyətləri dövrləri şərh olunmuş, yerli əhali "Azərbaycan sakinləri" adlandırılmışdır [7, s. 53-81]. V fəslə qədər Eneolit (e.ə. VI-IV minilliklər) dövründə əhali "əkinçi maldar", Xalaf mədəniyyəti dövründə isə (e.ə. VI-V minilliklər) "Xalaf mədəniyyəti qəbilələri" kimi göstərilmişdir. Burada bu mədəniyyətin Naxçıvanda qeydə alınmadığı ayrıca vurğulanır [7, s. 98-102]. I cildin VI fəsli Azərbaycan tayfalarına həsr edilmiş, e.ə. II minillikdə Naxçıvan ərazisi mədəniyyətinin çox inkişaflı olduğu, Urmiya gölü ətrafı mədəniyyətə oxşarlığından bəhs edilmişdir. Bu mədəniyyətin daşıyıcılarının isə məlum olmadığı göstərilmişdir. Yalnız e.ə. II minilliyin sonunda Azərbaycan etnogenezində hürrü, lulubi, kutilərin adları çəkilmiş, kutilərin isə e.ə. I minillikdə qəti olaraq tarixdən silindikləri göstərilmişdir. Naxçıvan əhalisinin etnik tərkibi haqqında heç bir bilgi verməyən bu kitabda əhali "Qafqaz xalqları" Talış-Muğan etnik birləşmələrinə aid edilmiş, dilləri haqqında müxtəlif fərziyyələrin olduğu vurğulanmışdır [7, s. 150-155]. Kitabda VII fəsil əhalinin tərkibindən bəhs edərək tayfalar "irandilli" kimi göstərilmiş (?) kimmer, skif, sak prototürkləri də bura daxil edilməklə Araz çayı boyu tayfalar "gəlmə" kimi təqdim olunmuş, kimlikləri haqqında məlumat verilməmişdir [7, s. 161-165, 169-179, 182]. Burada indiyədək tarixdə qeydə alınmayan daha bir məlumat, "Midiyalıların Cənub Azərbaycana hücumu" (?) kimi anlaşılmayan fikir irəli sürülmüşdür [7, s. 243, 257]. Bu fikri göstərilən minilliklərin etnogenezinə dair mənbə və tədqiqatlardakı Bütöv Azərbaycan

(Şimal, Cənub, Qərb) əhalisinin qədim türükkü, hürrü, lulubəy, kuti, şu, şubar, koman və b. tayfalardan ibarət olduğuna dair yüzlərlə tarixi faktları təkzib edir [96, s. 107-115, 247, 381-385]. Azərbaycan, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan tarixi haqqında bu cür təhriflər heç bir tarixi faktla təsdiqlənmir.

Mənbələrdə Naxçıvan ölkə adı e.ə. II minillikdə Misir fironu III Tutmosa aid salnamələrdə "NAXAR"ain yazılışında Mitan ölkəsi kimi qeyd olunur [67, s. 174, 223-235]. Urartu yazılarında isə MÂTU NAKRU–"Naxru ölkəsi" kimi Lulubəy türkləri ilə bir ittifaqda göstərilir [132, s. 21-29]. Bu tarixi faktlar ərazidə əhalinin təşəkkülünün bu tarixlərdən xeyli öncə baş verdiyini, ərazinin bütöv ölkə halında olduğunu göstərir.

E.ə. I əsrin əvvəllərində yəhudi tarixçisi İ.Flavi Naxçıvan ərazisini bəşər nəslinin ilk beşiyi, Nuhun saldığı ilk şəhər kimi təqdim etməklə [22, s. 10-12; 111, s. 14] Naxçıvanın ilkin sivilizasiya məkanı olmasını göstərmişdir. Antik və Orta əsr müəlliflərinin əsərlərində də Naxçıvan ərazisi qədim sivilizasiya mərkəzi kimi şərh olunmuşdur [121, XXII, s. 252, 254].

Son dövrlərdə aşkarlanan Assur, Hett, Boğazköy, Dügər və s. yazılara yeni elmi baxış və aşkar edilmiş gil lövhəli salnamələr də Naxçıvanda e.ə. VI-IV minilliklərdə türk tayfa birliklərinin ittifaq şəklində siyasi proseslərdə iştirakını göstərir. Gəmiqayadakı rəsmli daşların əhatə etdiyi ərazilərdə Nuhla bağlı **Nəbi** yurdu, Qaranquş yaylağı, Qəzər yurdu və **Nəsir**vaz, **Qudu** yurdu, **Bil**bil yeri, **İrni** yeri, **Sarı** dağı kimi coğrafi adların "Bilqamıs" dastanında da təkrarı təsadüf deyil. Şumerlərdə Kudur Enlil, İrnini, Şar kimi tanrı adları və Nisir, Saria kimi coğrafi adların [13, s. 42, 44, 90] ərazidə bu cür təkrarı Naxçıvanın coğrafi adlardakı 6 min illik bir tarixinin göstəriciləridir. Mənbə və bu tarixi faktlar e.ə. VI-III minilliklərdə Naxçıvan- Mesopotamiya ortaq mədəniyyətindən xəbər verməklə Naxçıvan ərazilərindəki tayfaların vahid mənşə və dilə sahib olduğunu təsdiq edir.

Son dövrlərdə Naxçıvanda əcnəbi və yerli arxeoloqlar Ovçulartəpəsi, Duzdağ, e.ə. II minilliyə aid Sum qalası, Qarabulaq, Xoşkeşin, Biçənək ərazilərində isə e.ə. III minilliyə aid kurqan, kromlex məzarlar, qədim şəhər yerləri və abidələr aşkar etmişlər [19, s. 11]. Bütün bunlar ərazinin qədim mədəniyyət beşiyi olduğunun maddi-mədəniyyət nümunələri ilə bir daha təsdiqidir. Xələc, II Kültəpə, Ovçulartəpəsi, Şortəpə yaşayış yerlərində məskunlaşma tarixi bu mədəniyyətlərin e.ə. V-III minilliklərdən mövcud olduğuna dair yetərli elmi dəlillərdir [50, 5, 42, 60; 63, s. 9-11, 17-19].

Qədim mənbə məlumatları Naxər ölkəsindəki əski tayfaların prototürklər ittifaqında Urmiya gölü, Araz hövzəsi, Dəclə və Fəratın yuxarı axarları, Van gölü ətrafında qarşısı alınmaz güclü tayfa olması haqqında bilgi verir [30, s. 17; 93, s. 192, 286, 311, 550]. Qaynaqlar və salnamələr bu tayfaların e.ə. VI-I minilliklərdə Naxər ölkəsində də yaşadığını, e.ə. II minilliklərdə isə şimala doğru axınlarını göstərir. Bu tarixi faktlar e.ə. VI minilliklərdən Naxçıvan-Naxər ərazilərində protoazərbaycanlıların böyük gücə sahib olduqlarını və əhalinin etnogenezində

mühüm rol oynadığını da təsdiq edir.

**As proto Azərbaycan boyları.** Bütöv Azərbaycan və Naxçıvan əhalisinin etnogenezi tarixinə, qaynaq və salnamələrə adını qətiyyətlə möhürləyən bu tayfa birliyi e.ə. VI minillikdən tarix səhnəsinə öz əlifbası və yazıları ilə çıxmış, geniş türk arealını öz nəzarətləri altına almışlar. Məhz bu tayfaların adı Azərbaycan-Asərbaykan dövləti adında əbədiləşsə də yenidən nəşr olunan "Azərbaycan tarixi"nin I cildində Asər türkləri haqqında heç bir məlumat verilməmişdir [5, s. 54, 213, 226]. Onların Naxçıvan ərazisində yerli xalqlar olması xeyli sayda mənbə məlumatlarında öz əksini tapır. Qədim mənbələr isə onların e.ə. VI minilliklərdən Bütöv Azərbaycan ərazisində yerli sakinləri olduğuna dair yetərincə tarixi faktlar göstərir.

Herodot aslar haqqında ayrıca məlumat verməsə də, onun məlumatlarında Cənub Azərbaycan və onun tərkib hissəsi olmuş qədim İrəvan torpaqları arasında Assiriya adında əyalət, şəhər və bölgə adı qeyd olunur. Bu ərazilər Naxçıvan əhalisinin etnogenezində iştirakı olmuş qədim As türklərinin adını daşıyırdı. Burada asların Yunan ölkəsində həmişə çarın sağında dayandığı, Yunan çarlarına dövlət idarəçiliyində məsləhətlər verdiyini, bu tayfaların Midiyada da əsas güc olmaqla Astiaq, Azan şəxs adlarında, Suriyada isə Askalon (As qalan) şəhər adında izlərini saxladığı qeyd edilir. Qədim məlumatlarda müxtəlif dövrlərdə türk boyları kass, kuti, lulubi, trukki, sak, kimmer, arizant, manq, bus və başqalarının yaşadığı ərazilərin Asay-Asiya adlandığı qeyd olunur [99, I 46, 100, II 17; III 105; IV 45, 198; V 119; VI 70; VII 122, 185, IX 116]. Strabonun yazılarında As boylarının xeyli tayfa birliyinə sahib olduğu, etrusk, turdetan, bastul-turdetan, qiksos (gök As) və qarqarların As nəslindən gəldiyi xüsusi vurğulanır. Burada asların Araz çayı boyunda ayrıca Azar-Asər adlı ölkəyə sahibliyindən, Turdetaniya ölkəsində Onoba, Ason oba, Menoba kimi vilayətlərdən və turdilərin As birliyinə daxil olduqlarından da xəbər verilir [154, IX, XI; XI, 14; 3, s. 137-138]. Bəzi mənbələr hələ e.ə. II minillikdən də qabaq aslarda "Ares" (Ər As) tanrı adından bəhs edir [93, s. 671].

K.Ptolomey Cənub Qafqazda Asturkan türk boylarının adını çəkmiş [17, s. 12], Roma tarixçisi Plutarx isə e.ə. V-IV əsrlərdə Azərbaycanı (Şimal, Cənub və Qərb) Ön Asiya və şərqi Anadolunu Kiçik Asiya adlandırmaqla onların əlifbaya sahib olduqlarını qeyd etmişdir [148, XX, s. 127-128, 236; XLVII s. 562]. Tit Liviy isə e.ə. III əsrdə Romada asların adına zərb edilmiş qızıl pullardan bəhs etmişdir [158, s. 98-99]. Bu tarixi məlumatlar Asların ölkəyə, dövlət quruluşuna və öz puluna sahibliyini, proto Azərbaycan tayfaları olduğunu bir daha təsdiq edir.

F.Ağasıoğlu XIII əsr İsland müəllifi S.Sturlusonun yazıları və "Kiçik Edda" əsərinə istinadən As boylarının Trovadan çıxaraq Avropanın Saks ölkəsinə, oradan Norveç və İsveç ərazilərinə yayıldıqları, orada Aslauq, Aslis, Asqard kimi məntəqələr yaratdıqları haqda məlumat verir. O, As boy adının A.Vamberi, Z.V.Toğan, Təbəri, M.Kaşğarinin yazılarında da xatırlandığını, e.ə. VIII əsrdə Assur çarı II Sarqon dövründə Azari adlı şəhərin olduğunu, burada Lulu, Turuk, Zəngi, Koman

türklərinin də yaşadığını yazır [17, s. 12-15, 17-19].

Strabon Turdetaniya ölkəsini "Tartes"-Dörd As adlandırmış, onların e.ə. VI minillikdə ən qədim əlifbaya sahib olduqlarını və turdilərin As birliyi tərkibində olduğunu yazmışdır [154, s. 137-138]. İoqannes Fridrix Turdetan sözünün izahında da asları Tört As adlandırmış, onların əlifba tarixini e.ə. VI minilliyə aid etmişdir [162, s. 119]. Bu isə Asər-Azər türklərinin 8 minillik əlifba tarixinin təkzibolunmaz sübutudur. Bu əlifba Finikiya, latın, gürcü və başqa xalqların əlifbalarının yaranmasına da təsir etmiş, onların əlifba sistemində də bu işarələr təkrarlanmışdır. Gəmiqayada və əvvəllər Azərbaycan torpağı olmuş Nüvədi ərazilərində As əlifba işarələrinin mövcudluğu Arazboyu ərazilərdə asların aborigen-yerli sakinlər olduğunun birmənalı şəkildə təsdiqidir [15, s. 51, 89-98; 158, s. 17-19].

Asların şimala tarixi köçü, VI əsrdə göytürklərin Kül Tigin, Tonyukuk, Bilgə xaqan abidələrində Az budun-As/Az xalqı və vətəni "As çölü", "As eltəbər" ifadələrində qalmış və Gökmən dağlarında məskun olduqları göstərilmişdir [21, s. 20; 37, s. 79; 53, s. 91, 382-384]. S.E.Malovun yazılarındakı Eki asda ay iq tek er biz-Biz iki asda aydan arı tək ərik ifadələr isə asların ərazidə böyük, hakim güc olduğuna dair tarixi sübutlardır [15, s. 63].

Herodot, Strabon, K.Ptolomey və digərləri Azərbaycanı Ön Asiya, Türkiyə ərazisini Kiçik Asiya və Xəzərdən şərqə türklərin ərazisini Orta Asiya adlandırmaqla, hər üç ərazinin Asay-Asiya türklərinin nəzarəti altında olduğunu göstərmişlər [99, VII, 37; 121, XXIV s. 252, 254; 148, XX, s. 127-128, 236].

E.ə. VI minillikdə As türkləri əlifbaya sahib olmaqla, onları öz varisləri turdilərə miras qoymuş, bu işarələr Naxçıvan ərazisindəki Gəmiqaya, Nüvədi yazılarında da öz əksini tapmışdır.

Asların adı Azərbaycan vətənimizin adı ilə bərabər Astara, Astan, Astaf, Azok, Asok kimi 1300-dən yuxarı coğrafi adlarda qalmışdır [3, s. 9, 11, 14, 80]. Naxçıvan ərazisində 1554-cü ilə aid Üsküb-Askab sancaq adı, 1590-cı ilə aid qaynaqlarda Asni, Aza kimi məntəqə adları bu tayfaların adını özlərində yaşatmışdır [49, s. 23-36; 73, s. 15]. Təkcə Naxçıvanda sancaqlara, səyyahların əsərləri və arxiv sənədlərinə daxil olan Maku, Sürməli, İğdır, Aralıq kimi nahiyələrin ərazilərində Asayaş, Asti, Azad, Asqəmər, Asabkəf, Astabad, Araz, Asak, Azadciran kimi 54 məntəqə və nahiyə adları qeydə alınıb [44, s. 28, 35, 45-46; 49, s. 25-36]. Bütün bunlar Naxçıvan ərazisinin qədim as yurdu olduğunu bir daha təsdiq edir.

**Naxər boyları.** Hələ e.ə. III minillikdə qədim Naxçıvan ərazisi "Naxarin" yazılışında Naxər protoazərbaycanlılarının adı ilə qaynaqlara düşmüş, yerli əhalinin etnogenezinin formalaşmasında böyük rol oynamışlar. Ümumdünya və Şərq tarixi Matiena-Mitan haqqındakı məlumatlarında Naxər ölkəsini Mitan dövlətinin şimal-qərbində bir əyalət kimi göstərir və onun Dəclə və Fəratın yuxarı axarlarından Urmiya gölü ətrafına qədərki əraziləri əhatə etdiyini göstərir [67, s. 174, 223-235; 93, s. 315-320, 344-346]. Bu isə hazırkı və əzəli Naxçıvan ərazilərini, Araz çayı

hövzəsini əhatə edirdi. Herodotun məlumatlarında isə Araz çayının məhz Matiena (Mitan) dağlarından Naxarin ölkəsinə axdığı qeyd olunur [99 I, 202; III 36; IV 11, 40; V, 52; 93, s. 315-320, 344-346].

Naxər ölkəsi Urartu yazılarında MÂTU NAKRU- "düşmən ölkə" kimi təqdim edilirdi. Lakin eyni mətndə MÂTU LULU ifadəsi "Lulubi ölkəsi" kimi verilmişdir [131, s. 21-29]. Bu isə məlumatın siyasi mahiyyətini ortalığa çıxarır. Tədqiqatlarda naxərlərin cənubi Mesopotamiyada və qədim Naxçıvan ərazisi olan Türkiyənin Diqor-Dügər mahalında "Naxçıvan" adında 2 şəhəri olduğu haqda məlumat verilir. Adlar "Nax-Nuh övladlarının məkanı" mənasını daşımışdır [72, s. 40]. Strabon, Pliniy, Ptolomeyin yazıları Naxər türklərinin XIV əsrə qədər Gürcüstan ərazisində də "Naxçta" adlı əyalətinin olduğunu göstərir [83, s. 5-11].

Tədqiqatçılar naxərlərin Qafqazda xəzərlərlə döyüşdüyünü, e.ə. III əsrdə as-xəzər ittifaqının möhkəmlənməsi ilə naxərlərin də yüksəldiyini, onların inkişafının orta əsrlərə qədər davam etdiyini yazırlar [138, s. 137]. Bəzi tədqiqatçılar bu tayfa adının e.ə. III minillikdə Hürrüt yazılarında Nax yazılışında olduğunu, bu adda tayfaların Naxçıvan ərazisindən İrak, Çeçen ərazilərinə hərəkət etdiyini göstərirlər. Naxçıvanın e.ə. III minilliyin əvvəlində qədim mədəniyyət mərkəzi olması, Nax dilinin prototürk dili olduğu, sarmat dilinin Nax dilindən gəldiyi haqqında da məlumatlar mövcuddur [88, s. 159, 160, 170-182].

Herodot və III Tutmosun yazılarına əsasən tərtib olunmuş bu xəritədə Naxər-Naxçıvan ölkəsi qədim İrəvanxanlığı, Zəngəzur, İğdır, Ağrı, Kars, Kağızman, Ərzurum, Maku, Poldəşt və s. bölgələri əhatə etmiş, Göyçə gölü də daxil olan sərhədlərlə məhdudlaşmışdır [31; 49].



Naxərlər qədim Naxçıvan ərazisində as, kuti, lulubəy, hürrü, türükkü, kassit, koman, su, subar, bulqar və s. protoazərbaycanlılarla ittifaqda məskun olmuşlar. Bu tayfalar Mitan, Aratta, Manna, Midiya, və Atropatena dövlətlərindəki xalqlarla eyni mənşəyə malik olmuş, onlarla bir ittifaqda XIX əsrin əvvəllərinədək bu dövlətlər daxilində, göstərilən ərazidən siyasi proseslərə qoşulmuşlar. XII-XVII əsr tarixini əks etdirən Osmanlı qaynaqları və digər sənədlər də bu haqda məlumat verir [67, s. 339; 93, s. 260-261; 73, s. 24, 31, 73].

Midiyanın süqutu və Atropatenanın yarandığı dövrlərdə naxərlər massagetlərlə bərabər Makedoniyalı İsgəndərə qarşı vuruşmuşlar [67, s. 400; 93, s. 425]. Strabon, Arrian Marselli və Plutarxın məlumatları Naxər ölkəsinin İsgəndərin hücumuna məruz qalmadığını, onların qədim Azərbaycan boylarına kömək məqsədi ilə bu döyüşlərdə iştirakını göstərir [148, s. 380-383; 154, VII, 16, 1].

Naxər türkləri e.ə. VI-III minilliklər Sub+ər, Kas+ər, Xəz+ər, Bulq+ər və s. tayfalar kimi türk mif və adverma prinsipinə uyğun "Nuh" adından "Nuh+ər", "Nax+ər" şəklində etnos adına çevrilmişdir. Alban ərazisində güclü tayfa və ordu birliyi kimi çar Arşak-Sak ərinin hakimiyyəti dövründə (e.ə. 247-ci il) saray mühafizəsinə rəhbərlik etmişlər [67, s. 400; 93, s. 425]. Mitan dövlətinin Naxər ölkəsi, o dövr bu ərazidəki quti, lulubi, su-şu, hürrü, subar, türükkü və b. proto Azərbaycan türkləri ilə tarixi proseslərə qatılmış və Urmiya, Van gölləri, Araz, Dəclə və Fərat axarlarında güclü tayfa birliyi olmuşlar [93, s. 192, 286, 311].

Hürrü tayfaları haqqındakı mənbələrdən birində hələ e.ə. IV minillikdə, Mitan ayrıca dövlət halına gəlməmişdən hürrülərlə naxərlərin Naxura ("Naxların qurduğu") adında çarlıqları olduğu göstərilir. Bunu son dövrlər Kiçik Asiya deyilən müasir Türkiyə ərazisinin Kamışlı şəhərindən 30 kilometr aralı Çakar Bazardan tapılmış e.ə. II minilliyə aid sənədlər də [181] sübut edir.

Qaynaqlar qədim Naxçıvan ərazisindəki Dərəkənd, Sair Məvazi, Ağsaqlı kimi mahal və nahiyələrdə Nax tayfa adı ilə bağlı Asnax, Bornax, Naxçıvancıq, Xunax, Naxadək kimi 50-yə yaxın təkcə yaşayış məntəqə adını qeyd edir. Bunlardan 23 məntəqə bu gün də əhalisi bütövlükdə azərbaycanlılardan ibarət olmaqla məntəqə kimi qalmaqdadır [31, s. 28-29, 163-187].

**Türükkü proto Azərbaycan boyları.** Naxçıvan əhalisinin etnogenezinin təşəkkülündə Turukku-türükkü tayfalarının da xüsusi rolu olmuşdur. Hett, Assur yazıları Urmiya və Araz hövzəsi ərazilərində türükküləri hürrü, şu, şubar, kuti, lulubi, naxərlərlə bir ittifaqda göstərir [93, s. 310, 480, 514]. Onlar e.ə. IV minilliklərdə istər Mesopotamiya, Ön və Kiçik Asiya, Avrasiya çöllərində, istərsə də Qafqaz, Naxçıvan, İkiçayarası, Urmiya, Van gölü ətrafı ərazilərində yerli sakinlər olmuşlar. Qaynaqlara "turukki", "türküt", türkay", "turkiş" və s. adlarla düşən bu tayfalar Aratta, Kuti, Lulubi, Mitan ərazilərində böyük güc idilər [67, s. 338]. Assur-Babil mənbələri turukki adını ölkə və tayfa adı kimi mât tu-ru-ki-i yazılışında göstərirdi [107, s. 265-266]. Yazıdakı mat/bat- "ölkə", "yurd", "vətən" mənalı sözlər

Naxər, Kuti, Lulubəy, türklərinin də adı ilə birgə salnamələrdə əks olunmuşdur [79, s. 173, 205; 109, s. 10-11]. Ordubad, Astabat, Ekbatan kimi adlardakı bat- “ölkə” komponenti Azərbaycan, onun ayrılmaz torpağı Naxər yurdunun və prototürklərin qədimlərdən ölkəyə sahibliyini sübut edən dil faktorudur. M.ö. II minilliyin ortalarında Adadnerarinin (XIV əsr) yazısında da Turuki ölkəsi tu-ru-ki-i şəklində qeyd olunur [17, s. 40-46]. Ümumiləşdirilmiş nəşrlər e.ə. IX əsr hadisələrinə dair yazılarda türükkülərin Tarxan nəslindən olan Tarku-Türki tanrı adından gəldiyini yazmış, onları turdi varisləri etrusklarla bağlamışlar [93, s. 632-633]. Bəzi tarixi mənbələr, eləcə də əcnəbi alimləri K.Riemşnayder, V.P.Yaylenko, C.Myürrer, V.Erenberq isə bu boyların e.ə. XIII-XII əsr Yunan mənbələrində trichaik-“turkik”, türeik-“türk” yazılışında “tayfa” kimi qəbul etmiş, türükkülərin etrusklardan öncə tarix səhnəsində olduğunu göstərmişlər [171, s. 3-14]. Türükkü tayfalarının e.ə. XX – XIX əsrlər Xəzərin cənubunda yerli xalq olduqları İssık-Kul gölü yaxınlığından tapılan əşyalar və yazılarla da sübut olunur. Türükkülər e.ə. III minillikdə Cənubi Azərbaycanda Urmiya gölü ətrafında yerləşmiş, Quti dövlətinin süqutundan sonra gələcək Midiya dövləti ərazisində kiçik çarlıq yaratmışlar [35, s. 36-39; 97, s. 25, 56, 93]. Şərq tarixinə dair məlumatlar da e.ə. III minillikdə Aratta türk-Azərbaycan dövləti dövründə də türükküləri xüsusi olaraq qeyd edir [168, s. 21-22, 33-38].

Kuma-Manıç çökəkliyi və şimali-qərb Kaspi ətrafının arxeologiyasını tədqiq edən N.İ.Şişlin buradakı mədəniyyəti e.ə. IV minilliyə aid edib Kür-Araz mədəniyyəti ilə eyni olduğunu, onların Anadoluda da təkrarlandığını yazır. O, türükkülərin Araz və Dəclə Fərat arasından Kuma-Manıç çökəkliyi, Kaspi ərazilərinə yayıldığını elmi faktlarla təsdiq edir [165, s. 17-39]. Göstərilən bu tarixi faktlar **türükkü** adlanan boyların e.ə. IV minillikdə Araz və Dəclə Fərat arası ərazilərdə sivil bir xalq kimi mövcudluğunu ortaya çıxarır.

Z.İ.Yampolski hələ e.ə. XIV əsrdə Dərbənddən Urmiya gölü ətrafına qədər Türükkü boylarının məskunlaşdığını qəti olaraq bildirməklə, onların daha qədim dövrlərdən Azərbaycan tayfaları olduğunu qeyd edir. Müəllif Urartu dövlətində də bir tayfanın “turux” adlandığını mənbələrlə əsaslandırır [169, s. 62-64]. Assur yazıları da Urmiyanın cənubunda “Turukki ölkəsi” olduğunu, Assur hökmdarı I Şamşi-Adadın isə Tukriş ölkəsindən xərac aldığını yazır [67, s. 254]. Beləliklə, tarixdə Turukki, Tukriş ölkəsi adında iki ölkə göstərilir və hər iki ölkə Urmiya gölünün cənub sərhəddi ilə Mesopotamiyanın şimalında əski Mitan türk dövləti sərhədləri arasında göstərilir. Bu tayfalar Aratta, Kuti-Lulubi dövlətlərinin tarixi ilə sıx bağlı olmuşdur [107, s. 265-266]. Türükkülər kuti, lulubi, naxər, şu, su subarlarla birgə Şuşşara uğrunda Assurlara qarşı vuruşmuşlar. Assur çarları su-turukkilərin bu bölgələrə hücumlarının qarşısını ala bilməmiş, bu məqsədlə onlara qızıl pul ödəmişlər [42, s. 45-75; 93, s. 314-318; 126, s. 9-18; 163, s. 196]. Bu salnamə yazıları türükkülərin qədim Naxər-Naxçıvan ölkəsi ərazilərində aborigen sakinlər olduğunu, bu ərazilərdən isə Kuma-Manıç çökəkliyi, Kaspi ərazilərinə yayıldığını

bir daha təsdiq edir.

Akkad çarı Naram Sinin (e.ə. III minillik) yazılarını təhlil edən Luis Delaporte və N.Q.Quterbok burada tourki-turki, qədim Assurların e.ə. II minilliyə aid yazılarını təhlil edən Q.Dossi və C.F.Çarlz isə yazılarda Turukku boy adını aşkar edirlər. I Adadnerarinin yazılarında türükkü boyları kassit, kuti, lulubəy, naxərlərlə bərabər bu ərazilərin siyasi hadisələrində iştirak edirlər [93, s. 319]. Bu isə ümumilikdə adı çəkilən bütün prototürklərin vahid bir ittifaqda siyasi hadisələrə təsir etdiyinə tarixi sübutdur.

Azərbaycan, eləcə də Naxçıvan əhalisinin etnogenezi tarixində ayrıca yeri olan türükkülər Herodot və Strabonun yazılarında da xatırlanır. E.ə. VI minilliklərin hadisələrində bu tayfalar tirsen, tirit, Turas kimi qeydə alınır. Strabon ayrıca olaraq turdetanların türükkülərin ulu babaları olduğunu qeyd edir [99, I 94; IV 51; IV 22; V 49; 154, s. 137-138]. Bu faktları geniş tədqiq edən P.İ.Şafarik, E.Eyxvald, İ.Pototski, A.Herman, Z.Y.Yampolski və digərləri də bu tayfa adının "Türk" olduğunu, M.E.Matye isə türükkü kimi Aratta, Mitan boyları quti, lulubi, su-şu, naxər, hürrü, subar boylarla eyni kökdən gəldiyini yazırlar [130, s. 26, 41, 45-48]. Bu tayfa ittifaqı türükkülərlə birgə e.ə. IV minillikdən günümüzə doğru Araz boyu, Şərqi Anadolu, Şimali Mesopotamiya ərazilərini "Türklərin ana yurdu" hesab etmişdir. Göstərilən ərazilərin e.ə. VI-III minilliyə aid mədəniyyətinin Altaylarla eyniliyi də tarixi faktlarla sübut olunmuşdur. Naxçıvan Arpaçay vadisi və Kültəpə ərazilərindən e.ə. V minilliyə aid tapılmış əşyalar, eləcə də Bağdaddan cənuba Ras-Əl-Amiyə məntəqəsindən aşkarlanmış arxeoloji nümunələrlə qədim yazılarda oxunan turukki sözü də e.ə. V minilliyə aid edilmişdir [170, s. 80-84]. Bu tapıntıların eyni dövrlə bağlılığı türükkülərin e.ə. V-III minilliklərdən Mesopotamiyada, Dəclə və Fərat çaylarının yuxarı axarlarında, qədim Azərbaycanın qüdrətli əyaləti, o dövrkü Naxçıvan torpaqlarında yerli xalqlar olduğunu bir daha təsdiq edir. Assuriyanın Midiya, skif, sak, kimmer tayfaları tərəfindən işğalından sonra bu türklər Bəsrə körfəzi, Urmiya gölü, qədim Kərkük, Naxçıvan, Doğu Anadolu ərazilərindən Dərbənd qapılarına qədərki Azərbaycan ellərindən Volqaboyu, Orta Asiya ucqarlarına axın etmişlər. E.ə. VI əsrdə isə, hələ 200 il keçməmiş onlar Kamçatkadan Qara dənizə, Baykal gölü, Tibetin şimalına dayanmaqla tərkibinə Şivziy, Xuse, Ediza, Basman, Terqeşi, Çula, Xarəzm, Soqdi, Quz və s. ölkələri qataraq böyük Türküt imperiyasını qurmuşlar [104, s. 39]. 1590-1936-cı illərə aid qaynaqlarda Türükkü proto Azərbaycan boyları Naxçıvana aid 25 nahiyə və mahalda Türkəli, Türkeş, Türküt, Türük (21 məntəqə) kimi məntəqələrdə məskun olmuşlar [31, s. 159, 164-183].

**Kuti proto Azərbaycan boyları**. Bu tayfa birliyi Şumer-Akkad, Babil, Assur, Hett, yazılarında Kuti-im, Gutu-um, Quteu, Guti kimi xatırlanmışdır. Onlar e.ə. III minilliklərdən Azərbaycan, o cümlədən Naxçıvan ərazisi əhalisinin etnogenezində xüsusi rol oynayan yerli tayfalar idi. Dəclə və Fəratdan şimal-şərqə, Bütöv Azər-

baycanın Bəsrə körfəzindən Dərbənd ellərinə qədərki ərazilərində məskunlaşan kutilər, e.ə. I minillikdə Azərbaycanın Qafqaz Albaniyasındakı alban, uti və udinlərlə qohum tayfalar idilər [67, s. 53; 93, s. 192; 94, s. 283].

Akkad çarı Sarqona (e.ə. 2316-2261) aid yazılarda onun "Yuxarı ölkəyə"-kuti, subər yurduna Kutik və Kutium ölkələrinə hücumundan, lulubi kuti birliyindən bəhs olunur. Akkad və Elam salnamələri e.ə. III minilliyin II yarısında Kuti adlı tayfaların Azərbaycan ərazisində Aratta dövlətindən sonra Kuti-Quti elinin ilk ən qüdrətli türk dövləti olduğunu göstərir [17, s. 147-153; 67, s. 79-85]. III Salmansar, Asarxaddon və II Sarqonun yazılarında kuti adı Urartular üçün işlək söz olmuş, Assur yazıları urartuları kuti adlandırmış və ərazidə əsas güc kimi göstərilmişdir [132, s. 7-8]. Onlar e.ə. IV-III minilliklərdə qədim Azərbaycan torpağı olan Naxçıvanda, Araz çayının sağ və sol axarları boyu, Göyçə gölü və onun ətrafı ərazilərdə məskun idilər. Kutilərin bu ərazilərdə türüккü, lulubəy, turdi, şu, tus, subar, naxər, kassit, massaget, bulqar kimi qədim Azərbaycan türkləri ilə kompakt şəkildə yaşadıqları xüsusi qeyd olunur [93, s. 314-318; 94, s. 21, 283, 653; 126, s. 9-18; 130, s. 45-75]. E.ə. III minilliyə aid mənbələr "Kuti", "Kutium" dövlətinin ərazilərini mərkəzi Kuti (Zaqros) dağlarından Akkad sərhəddinə, aşağı Dialadan Xabur, Aşağı Zab çayının yuxarı axarları və Ninevanın şimalından Kuman ölkəsinin cənubu, Araz axarları boyuna qədər əhatə etdiyini göstərir. Bu qaynaqlar İkiçayarasında m.ö. III minillikdə Kut və Kutu şəhər adlarını qeyd edir. Tədqiqatlar kutilərin Kürdən cənubda, Arazın aşağı axarından cənub-qərbə doğru məskunlaşdığı, Andiya ərazisində hürrülərlə birgə yaşamaqla sonralar bu ərazilərdə məskunlaşdıqlarını yazır [79, s. 64-66; 100, s. 280].

Akkad çarı Salmansarın salnamələrində "göydə ulduzlar qədər miqdarı bilinməyən kutilər" ifadəsi [108, s. 265-266] onların e.ə. III minilliklərdə böyük güc olduğunu, Naxər -Naxçıvan ölkəsinin bu siyasi proseslərin mərkəzlərindən biri kimi mövcudluğunu sübut edir. Bu ölkə adı Urartu çarı I Argiştinin yazılarına Xuşani, II Argiştinin yazılarına isə, Qituxani-Kuti xan, Kas türklərinin çarlıq titulu kimi Urartuya tabe olmayan müstəqil ölkə kimi düşmüşdür [132, s. 247-248, 279, 345]. Karol Adab Liqalamund Şərq və Qərb ölkələri haqqındakı məlumatlarında da Kuti ölkəsinin Elam və Subər ölkələrindən qərbə doğru Urmiya və Van gölləri arası Araz hövzəsini əhatə etdiyi yazılır [93, s. 192, 212-215]. II Sarqon (1275-1245) və VI Salmansarın (781-772) salnamələri isə Ağrı ətrafındakı çarlığı "Kuti ölkəsi", Korduen dağlarını "Kuti dağları" adlandırır [107, s. 265-266]. Qaynaqlarda qədimdən əhalisi tamamilə Azərbaycan türklərindən ibarət İrəvan xanlığının bütün ərazisi, eləcə də Sürməli mahalının Ağrı, İğdır, Maku, Kars və s. nahiyələri qədim Naxər-Naxçıvan torpaqları idi [31, s. 164-183]. Salnamələrin bu məlumatları Naxər ölkəsində kutilərin məskun olduqlarını bir daha təsdiq edir. 1590-cı ilə aid xeyli sayda mənbələr, eləcə də 1774-1828-ci illərin arxiv sənədləri Naxçıvanda Küt, Kütan, Tuquti, Kütüs, Kətili, Kutiltavr, Kütüs kimi 22 məntəqə adını qeydə edir

[31, s. 41-42, 62, 159; 45]. Bu qədim Kuti prototürk adları isə, o dövrlər Naxər-Naxçıvan ölkəsi ərazisində kutilərin kompakt şəkildə məskun olduqlarına bir tarixi sübutdur.

**Lulubəy boyları.** Ümumdünya və Şərq tarixinə aid məlumatlarda e.ə. IV-III minilliklərdə Lulu, Lulubbum, Lulubi yazılışları ilə xatırlanan bu Azərbaycan boyları qədim Naxər-Naxçıvan ərazilərində məskun olmuşlar. Şumer, Akkad, Assur, Het yazılı salnamələrində e.ə. IV-III minilliklərdə bu boylar Şimali Mesopotamiya, Naxər ölkəsi, Urmiya ətrafından Vana qədərki ərazilərdə yayılmışlar. Bu məlumatlarda lulubəylərin eyni ərazilərdə kuti, elam, hürrü, subər, kas və kaspilərlə bərabər yaşadığı, eyni mənşə və dil mənsubluğu qeyd olunur [93, s. 192; 106, s. 99-112].

Elamlardan şimalda yaşayan və Şumer-Akkad mədəniyyəti ilə əlaqəli olan lulubəylərin Bağdad və Həmədan arası Sarpul, eləcə də Persepol və Suz arası ərazilərdə yazılı abidələri aşkar edilmişdir [78, s. 23-27, 219]. Hett yazıları hürrü boylarının bu ölkəyə hücumundan bəhs edərkən Salaxsuvı, Xattusa, Nenassı ölkə adları ilə yanaşı, Ullaummı lulubəylər ölkəsinin də adını çəkir [98, s. 78-83]. Digər mənbə və Elam yazıları isə, çar Kutikin kuti, kassi, lulubəylərə məxsus olan 81 şəhəri tutduğunu, burada "Kuti-Lulubi" cəmiyyətinin olduğunu, bu birliyin İkiçayarasını yüz ilə yaxın öz hakimiyyətlərinə tabe etdiyini yazır [145, s. 64-65].

Tədqiqatlar e.ə. II minillikdəki tarixi proseslərdə Lulubəy tayfalarını lulabi-bu yazılışı ilə göstərilməklə hürrü-naxç tayfalarının Urartu dövlətinin süqutundan 2 min il əvvəl bu torpaqlarda yaşadıqlarını və Qafqazda da məskun olduqlarını qeyd edir [102, s. 28-29]. Antik Roma yazılarında lulubəylər e.ə. IV əsrdə Siciliyada məskun olmuş, buradakı müasir Marsala şəhəri Lilibey adlanmışdır. Mənbə daha sonra İtaliyadan gələn 20 gəminin və yerli əhalinin Lilibey şəhərini tutmasını da qeyd edir [157, s. 169]. Bu tarixi faktlar lulubəylərin təkcə qədim Azərbaycanın Xəzər ətrafı, Araz hövzəsi-Naxər ölkəsi, Kərkük türkmən, İkiçayarası, Doğu Anadolu torpaqlarında deyil, Siciliya adasında da məskun olduqlarını təsdiq edir.

Lulubəy tayfalarının e.ə. III minillikdə su/şu, turukku, kutilərlə birlikdə Aratta dövlətində bir ittifaqda olması, Cənub Azərbaycanın qərbində, qədim Naxər torpaqlarında dövlət yaratdıqları da mənbələrdə qeydə alınır [67, s. 52-54]. Buna lulubəylərin Anubanini, Simaş, Banan Nuzi, Mu-Turran, Şilvan, Xumurtum, Xuxnur, Kimaş kimi çar, tanrı şəhər adlarına paralel olaraq Naxçıvan ərazisində eynilə təkrarlanan Anuban-Anabat, Banan+yar, Xumurtum-Xumurut suyu, Kimaş-Kimaş dağ, Kəmki dağ, Nizi şəhər və tanrı adına Nizi/Nisay piri adları da tarixi sübutlardır [55, s. 118-123]. Əgər Akkad çarı Naramsinin yazılarına diqqət etsək, burada lulubəylər ölkəsi Maqan adlanırdı ki, biz Naxçıvanda Arpaçay vadisinin də qaynaqlarda "Muğan" adlandığını görürük [58, s. 86-89].

Lulubəylərin bir prototürk boyları olması qədim Urartu mənbələrindəki yazılarda MÂTU LUİU şəklində Naxər ölkə adı ilə yanaşı yazıya alınır [131, s. 21-29]. II Sardurun yazısındakı MÂTU LUİU ifadəsinin konkret olaraq ölkəyə aidliyi

tarixi faktlarla təsdiqlənir [147, s. 84]. Herodot da məlumatlarında mat/bat "ölkə" sözünü Savramat-"subər yurdu" Kaspatir-"kas əri yurdu", Zabat-"Su yurdu" kimi göstərir [99, II 158; III 102; IV 59, 123; V 52].

Lulubəy Hürrü tayfa ittifaqı Mesopotamiya və Ön Asiyaya yayılarkən böyük bir mədəni dirçəlişə təkan vermiş, yerli əhaliyə toxunmamış, hər şeyi dinc yolla həll etmişlər. Arxeoloji mədəniyyət nümunələri Lulubəy-Hürrülərin yerli mədəniyyətə misilsiz xidmətlərini təsdiq edir [119, s. 185]. Bu tayfa ittifaqının mədəni izləri Fələstinin şimalı və Suriya ərazilərində Ras-Şamar kurqanlarından tapılan e.ə. III minilliyə aid qızıl sikkələrlə də təsdiq olunur [115, s. 185; 133, s. 166]. Bu isə Naxçıvanın yerli sakinləri olan bu tayfa ittifaqının geniş arealda böyük güc olduğunu göstərir. Arxeoloqlar e.ə. II minillikdə göstərilən ərazi və Nablusa yaxınlığında Tel-Əl-Fara kurqanlarını lulubəy-hürrülərə aid etmiş, onların Cənub Qafqazın mədəniyyət nümunələrini təkrarladığını yazmışlar [101, s. 34].

Bəzi mənbələr e.ə. IV-III minilliklərdə lulubəylərin Cənub Azərbaycanın qərbindən şərqə doğru Suz, Qaur təpə, Arpaçay, Turəng təpə, Tel xələf, Sialk təpə kimi ərazilərdə əkinçilik və oturaq mədəniyyətə sahib olduğunu, bəzən Şumer mədəniyyətini belə qabaqladığını göstərir [93, s. 192]. Bu mədəniyyətin e.ə. IV-III minilliklər Kür-Araz mədəniyyəti ilə eyniliyi, Naxçıvan ərazisi arxeoloji mədəniyyətin Dəclə və Fərat arası Mesopotamiyada, Şərqi Anadoluda təkrarı [63, s. 61-64; 77, s. 15, 179-186] ərazilərin mədəni əlaqələrindən və proto Azərbaycan mədəniyyətinin bu ərazilərə təsirindən xəbər verir. Bütün bunlar Naxçıvan ərazisinin qədim şəhərsalma mərkəzlərindən biri olduğunu bir daha təsdiq edir. Bu qədim ölkədə Lulu, Lalabəyli, Uluqlu kimi 28 məntəqə adı Lulubəy tayfalarının izlərini özündə əbədiləşdirmişdir.

**Hürrü boyları.** Tarix səhnəsində siyasi güc kimi e.ə. IV-III minilliklərdə görünən bu tayfalar da Naxçıvan əhalisinin təşəkkülündə xüsusi rol oynamışlar. Q.Vilhelm onların e.ə. IV-II minilliklərdə Qafqazdan-Şimali Azərbaycandan cənuba doğru yayılaraq e.ə. III minillikdə Mitan dövlətini yaratdıqlarını yazır [91, s. 27]. Digər bir mənbə hürrülərin Cənubi Azərbaycanda Urmiya dağları və qədim Naxər ərazilərində Simessi, Simmuru, Simaşki, Tukriş, Karaxar adda dövlətlər yaratdıqlarını göstərir [93, s. 192]. Bu tayfalar kuti, naxər, lulubəy, subar, şumer boyları ilə eyni mənşə, dil və inanca mənsub olmuş, e.ə. III minillikdə böyük güc kimi Kiçik Asiya, Suriya ərazilərində yayılmışlar. E.ə. 2200-ci ildə Fələstin və Şimali Mesopotamiyanı işğal edən Hürrü boyları, burada özlərinin Urkeş paytaxt şəhərini qurmuşlar [91, s. 27; 110, s. 118-130]. Onlar Hett, Assur, Elam, Babil, Kaskey ərazilərində də geniş yayılmış, özlərinin "Arapxi" – "Şanlı qardaş ərlər" cəmiyyəti, birliyi adı altında Mitan ölkəsi olan Kərkük ellərində də yayılmışlar [93, s. 316]. Kiçik Asiyada e.ə. III minillikdə böyük tayfa birliyi olan hürrülər öz varisləri Subər türklərini İkiçayarasının şimalında yerləşdirmişlər. Onlar şumer mənbələrində Subir, akkad mənbələrində isə Şubartu kimi xatırlanır [67, s. 52; 93, s. 311]. Hür-

rülərin qədim tarixə, dilə və mədəniyyətə sahibliyi və bu siyasi proseslər Kərkük, Boğazköy ərazilərindən Hürrü dilində aşkar edilən bir neçə min nüsxə sənədlərlə, müqəddəs kitab "Əhdi-Ətiq", Akkad və Hett mixi yazıları ilə də təsdiq olunur [91, s. 23, 29, 37].

III Tutmosun salnaməsində Mitannanın ərazisi və onun şimalında yerləşən Naxarin (Naxçıvan) ölkəsinin Hürrü boylarının vətəni olduğu, Xananda eyni kökdən gələn xalqların ittifaqı göstərilir. Mənbədə bu birliyin qədim abidələrdə "Mitan-mentu Hürrü boyları" Qiksos- Gök As boyları ilə bir ittifaqı da tarixi faktlarla təsdiqlənir [87, s. 203]. Qədim Naxər torpağı olmuş əzəli İrəvan əraziləri haqqındakı tarixi məlumatlarda Hürrü boyları e.ə. III minilliklərdə bu ərazilərdə yaşamış, Zaqafqaziya, Şərqi Anadolu xalqları ilə eyni mədəniyyətə və dilə sahib olmuşlar [112, s. 13]. Bu tarixi faktlar hələ e.ə. VI-III minilliklərdə əski Hürrü dilinin Ön və Kiçik Asiya və adı çəkilən ölkələrin ərazilərində ümumünsiyyət dili olmasına, bu tayfa və ölkələrin eyni kökə, mədəniyyətə, dilə və ərazilərə sahibliyinə tarixi sübutdur. Sənədlərdə Naxçıvan əraziləri daxilində qeydə alınan Hürmeşin, Hürendüz, Hürevadik, Horadiz kimi 25 məntəqə adı bu tayfaların Naxər-Naxçıvan ölkəsində aborigen-yerli xalqlar olduğunu bir daha təsdiq edir.

**Kas proto Azərbaycan boyları.** Naxçıvan əhalisinin etnogenezi tarixində xüsusi yeri olmuş bu proto Azərbaycan tayfaları e.ə. III-II minilliklərdə Urmiya gölü ətrafında, qədim Naxçıvan ərazisi və Arazboyu axarlarda, Kiçik Asiya və Qara dəniz sahillərində böyük güc kimi qeydə alınırlar. E.ə. II minilliyin əvvəllərində onların Babilistanı işğal edərək 1518-ci ildə kuti, lulubəy, turukku, subərlərlə bərabər burada çarlıq yaratmaqla 300 ilə qədər (1204-cü ilədək) bu ərazini idarə etdikləri göstərilir [93, s. 216, 317, 229]. Kassi çarı II Aqumun (e.ə. 1595-1571) yazılarında Kas türklərinin çar rütbəsi "xan", sarayın adı isə bat/bati-"ev, yurd" deyimində əski türk dilində olmuşdur [124, s. 102]. Onlar e.ə. XVIII əsrdə Mesopotamiyanın şimalını, XVI əsrdə isə cənubunu tutaraq paytaxt şəhəri Terke olmaqla qədim Xanan çarlığını yaratmışlar. Çarlığı evlərə-bitulara bölən kaslar evin böyüyünü "biti" adlandırmışlar [115, s. 351-369, 490-504; 176].

Alman alimləri Q.Huzinq və Fridrix Delic e.ə. II minillikdə Kas dilinin bütün Azərbaycanda yayıldığını [35, s. 16-18], rus alimi İ.A.Klimişin isə onların tarixinin çar Xammurapi dövründən, e.ə. 1795-ci ildən başlandığını yazmışdır [122, s. 113, 243]. Kas tayfaları kassi, kaşşi adında Diyala çayının cənubunda turukku və lulubəylərlə qonşuluqda yaşamış, e.ə. II minilliyin ortalarında İkiçayarasında hakimiyyəti ələ keçirmişlər. Kassilərin bu ərazilərə Xəzər sahillərindən gəldikləri, kassi, kissi, kossey adları ilə Urmiya, Araz boyu ərazilərdə məskunlaşdıqları da mənbələrdə yer alır [6, s. 85]. Şərq tarixinə dair məlumatlarda isə, Kas sülaləsi e.ə. III minilliyin sonunda Babilistanın şərqində Urmiya dağlarında yaşamışdır. Burada onların 1742-ci ildə Babilistanı işğal edib Kassi çarlığı yaratdığı, ərazini 500 il idarə etməklə Assur, İkiçayarası ölkələrə də hücumları qeyd olunur [67, s. 104-105]. Bu

məlumatlar Kas dilinin proto Azərbaycan dili olduğunu, qədim tayfalarımızla eyni mənşə və əraziyə mənsub olduğunu göstərir.

İngilis alimi A.F.Elford Babil dövlətinin Kas türkləri tərəfindən işğalı dövründən əvvəl onların Urmiya dağlarından şimal-şərqdə "gözəgörünməz" xalq kimi məskun olduqlarını, e.ə. III minillikdə metal əritmə ilə məşğul olmaqla buna görə "varvar" adlandıqlarını yazır. Müəllif, bu sözün "vəhşi" sözü ilə heç bir əlaqəsi olmadığını vurğulayaraq, sözün "özgə dildə danışan", "yadelli" mənaları daşıdığına dair tarixi faktlar göstərmişdir. O, Suz şəhərinin inkişaf etmiş mədəniyyət mərkəzi, e.ə. IV minillikdə kasların ana yurdu olduğunu da qeyd edir. A.F.Elford buradan Mesopotamiyaya ilk tunc və dəmir əşyaları gətirildiyinə dair xeyli sübutlar gətirir, kasların ilkin məskəninin Qafqazın Cənub yamacları, Araz çayı hövzəsi olduğunu göstərir [167, s. 63, 147-149]. Bu faktlar Kas boylarının qədim Naxçıvan ərazisində yerli sakinlər olduğuna dair yetərli sübutdur. Müəllif daha sonra kaslardan başlanan metaləritmə ənənəsinin sonralar Kaspi, Kaşk, Xəzər, Savromat, Qiksos (gok As), Hun və b. prototürklərə də adladığını, bu səbəbdən də onların var-var adlanmalarını yazır [182]. Məlumatlardan da göründüyü kimi, oturaq həyata ilk dəfə keçən qədim türklər atı və digər heyvanları əhilləşdirməklə yanaşı, hələ e.ə. IV minillikdə metaləritmə ilə də ilk dəfə məşğul olan tayfalar olmuşlar.

Bu tayfalar turukku, hürrü, kuti, lulubəy, naxər, subər, koman və b. prototürklərlə eyni inanclara sahib olmuş, An/Anu, Şum/Şumakun, Şamaş, Umay, Şar, Kaş, Harbe, Kiur, Enlil, Tork, Şax kimi tanrılara ibadət etmişlər [107, s. 130-134]. Qədim Naxçıvan ərazisində İl-An dağ, Kiur-na, Şur-ut, Şax-taxtı kimi qədim tanrı adları vardır. Bu ölkədə e.ə. IV minillikdən I minilliyə doğru gələn I və II Kültəpə, Oğlanqala, Xoşkeşin, Nəhəcir, Maxta və s. məntəqələrin kromlex qəbirləri və arxeoloji mədəniyyət nümunələri də buna əsaslı sübutlardır [63]. Naxçıvan ərazisində onların aborigen sakinlər olmasını Kasil, Keştaz, Keçil, Kisək, Kasən, Kaskalan kimi 48 etnooykonimin adı da təsdiq edir.

**Subər tayfaları.** Qədim Naxçıvan əhalisinin etnogenezi tarixində xüsusi rolu olmaqla mənbələrə subar, şubar, suvar, sabir, subər və s. yazılışlarla düşən bu tayfalar Xəzərlərdən öncə tarix səhnəsində olmuşlar [159, s. 16-17, 42, 187]. Onlar e.ə. IV minillikdə Şumer-Akkad yazılarında Subartı kimi Bağdadın yuxarı ərazilərinə sahib olmuş, Mitan, Naxarin ölkələrinin bir boyu kimi as, turuk, kuti, lulu, koman və b. türk boyları ilə e.ə. II minillikdə Assur, Şürri-Mitanni, Babil və Elam dövlətlərinə qarşı vuruşmuşlar. Hett, Assur, Elam yazılarında onların Dəclənin yuxarı axarında Turxi-Türki adında şəhərləri olduğu qeyd olunur [99, I, 189; V, 52; 17, s. 39]. Bu tayfalar İkiçayarasının yuxarı axarlarında böyük güc kimi e.ə. II minillikdə şərq və qərb qollarını birləşdirərək Subar dövləti yaratmış, Assur, Şuşarra kimi dövlətlərə güclü təzyiq etmişlər [68, s. 138]. Hələ e.ə. II minilliyin sonlarında Tiqr, Frat (indiki Dəclə, Fərat) çayının şimalında Şubir ölkəsinə sahib olmuşlar. Onlar sonralar Bütöv Azərbaycan torpaqlarından Kiçik Asiya, Misir, Suriya ellərinə

qədər yayılmışlar.

Hürrü boylarının əcdadları, ərazinin ən qədim sakinləri hesab edilən subərlər, Qərb və Şərq subarlara bölünməklə Şumer yazılarına Subir, Akkad yazılarına isə Subartu kimi düşmüşlər [67, s. 52-53; 93, s. 311, 515-516, 521-524]. E.ə. IV-III minilliklərdə qədim Şərq və Şimali Mesopotamiyada Dəclə, Fərat çayları axarlarında məskunlaşan subərlərin adı, e.ə. II minillikdə hürrü adı ilə paralel işlənmişdir. Akkad çarı Sarqonun (e.ə. 2316-2261-ci illər) yazılarında subərlərin bu ərazilərdə Subərti-Şubərti adda ölkəsinin adı çəkilir [117, s. 74, 88]. Onlar Akkad çarı Sarqonun dövründə Subar, III Ur sülaləsi Şalqu çarlığı dövründə isə Subartu kimi qeyd olunurlar. Subərlər e.ə. III minilliyin sonlarında Şumer və Utidən şərqdə "Şubur-Hamzi", e.ə. II-I minilliklərdə orta Assur, Urartu, Yeni Assur dövrlərində isə Subar türkləri kimi qeydə alınırlar [33, s. 261; 118, s. 239]. Qədim Azərbaycan ərazisində as, hürrü, şu, kuti, lulubi, koman, türükkü, turdi və b. tayfalarla ittifaqda olan subərlər, e.ə. V-I minilliklər arası "Azzi Subar", "Hürrü-Subar" ölkəsi, "Kuti, Lulubi subərlərin yurdu", "Koman-Subar birliyi" kimi adlanmışlar [155, s. 63-81]. Tarixi faktlar bu protoazərbaycanlıların eyni mənşə və dilə mənsubluğunu bir daha təsdiq edir.

Bütöv Azərbaycanın qədim torpağı Naxçıvan ərazisində e.ə. V minillikdə məskun olmuş bu boyların izləri 1590-cı ilin məlumatlarında keçmiş Əlincə, Şürəgel, Zebil, Talin və s. nahiyələrdə Subzadur, Suvarlı, Subərçi, Subarton, Şebran kimi 23 məntəqə adında qalmışdır [31, s. 124, 168, 179; 49, s. 27, 32]. Naxçıvanın Şərur, Babək, Ordubad, Şahbuz, Culfa bölgələrində hazırda da aktiv fonda daxil olan Subartan, Şapurqala- Subarqala coğrafi məkanlarından e.ə. IV-II minilliklərə aid arxeoloji mədəniyyət nümunələrinin aşkarlanması, subarlar yaşayan bu ərazilərdə şəhər mədəniyyəti və məskunlaşma prosesinin e.ə. V minillikdən öncə baş verdiyinə əsaslı tarixi faktlardır [44, s. 356; 51, s. 13-14].

**Şu-Su tayfaları.** Tarixi keçmişimizdə xüsusi rolu olan bu tayfalar Naxçıvan əhalisinin etnogenezində hələ e.ə. III minilliklərin tarixi proseslərində yer alır. Şumer yazılarında e.ə. III minillikdə Ur sülaləsinin varislərindən Şulgi və onun varisi Şu-Sin ("şöhrətli Şu") haqqında bilgi verilir. Ur sülaləsinin e.ə. 2003-cü ildə zəiflədiyi dövrdə bu ərazilərə və Ur şəhərinə elamlıların, eləcə də Şu tayfalarının hücumu olmuşdur. Şu/Su boyları e.ə. III-II minilliklərdə Böyük və Kiçik Zab çaylarının mənsəbində, Urmiya gölünün cənubunda yerləşən qədim türükkülərin Şuşarra ölkəsinə iddiada olmuşlar [67, s. 89-91; 93, s. 219, 310-319]. Şumer mətnləri Su tayfalarını Subir yazılışında subərlərlə bir tayfa kimi tarix səhnəsində kuti, lulubi, türükkü, subər, kassi boylarından əvvəl göründüklərini yazır. Mesopotamiyanın şimalında bu tayfalarla bir ittifaqda olan hürrü boyları Qafqazdakı qədim tayfalarla yaxın dildə danışan xalqlar kimi təqdim olunurlar. Burada Su tayfalarının qolları olan subarlar bir qədər şərqdə, Urmiya gölü ətrafındakı tayfalarla ittifaqda göstərilir [93, s. 311; 67, s. 339 ]. Bu tayfalar e.ə. II minillikdə şimala

doğru hərəkət edərək Su adlı şəhər salmış, e.ə. 255-210-cu illərdə Türküstandakı Yueci şəhərində məskunlaşmaqla buradakı türklərlə Çin qaynaqlarına Su, Şu adında düşmüşlər. Onlar e.ə. 72-ci ildə Yarkənd hökmdarlığı və paytaxt şəhərinə "Şa"-ce adı ilə öz adlarını vermişlər [10, s. 99; 72, s. 31].

Şu tayfalarının saklarla ittifaqı və e.ə. II minillikdə qədim Naxçıvan ərazisində məskunlaşması arxeoloji tapıntılarla təsdiq olunur [59, s. 233-242]. Bu tayfa adı Kas tayfalarının tanrısı Şixu adından gəlirdi [106, s. 129-132]. Şu tayfalarına məxsus şəxs və coğrafi adlar onların hürrü boyları və Qafqazda sıx məskun olan kas, koman, tal, doray və b. tayfa dilləri ilə eyni mənşədən gəldiyini sübut edir [35, s. 15-19; 93, s. 311; 129, s. 127]. 1877-1878-ci illər Rus-Türk müharibəsi zaman rus ordularının ilk zərbələrinə məruz qalan Qara dəniz sahilində, qədim Naxər-Naxçıvan torpaqlarına qonşu olan Şumen-Ulu Şu şəhəri olmuşdur [120, s. 69]. Qədim Şu tayfaları Azərbaycanda Şuşa, Şüvələn, Şulu kimi yüzlərlə coğrafi adla yanaşı Naxçıvan ərazisində Şuşad, Şurut, Suyu, Şada kimi 21 məntəqə adında öz adlarını əbədiləşdirmişlər.

**Tal tayfaları.** Naxçıvan əhalisinin etnogenezində xüsusi yeri olan tallar e.ə. III minillikdə Urmiya gölündən qərbdə, Kiçik Asiya və Araz ətrafı ərazilərdə məskun idilər. Onlar bu dövrdə qaynaqlara Sicilyadakı Sirakuz şəhərində tal tayfa adı kimi düşmüşlər [67, s. 138; 93, s. 311, 515;]. Qay Yuliy Solinin yazılarında tallar şərqdə, Kaspi dənizi sahillərində çay ağzında yaşayan tayfalar kimi [172], Assur yazılarında isə Təbriz ətrafında Talay ölkə adı olaraq qeyd olunur. Onlar e.ə. II minilliklərdə buradan ətraf ölkələrə yayılmışlar [108, s. 49]. Qədim Naxər ölkəsinin torpaqları olmuş hazırkı Gürcüstanın şərqində məskunlaşan tallar orada Tela, Axtal, Qistol, Talat kimi şəhər qəsəbə və dağ adlarına öz adlarını vermişlər. Gürcülər də bu adların başqa dildən gəldiyini yazırlar [153, s. 25, 154, 180].

Tədqiqatlar e.ə. 150-ci illərdə Sarı Uysın tayfalarının arasında Talay boylarının adını çəkir və onları Sır-Dəryanın cənubunda göstərir [164, s. 24, 55]. Yunan mifologiyasında isə Arqos çarı-allahı Talay (Tal, Talayon) adı qeyd olunur [136, s. 977-978]. Son dövr Koban arxeoloji abidələrindən aşkarlanan at rəsmli baltalar e.ə. II minilliyə, Son Tunc dövrünə aid edilmiş, Kaş və Talay tayfalarına məxsus olduğu təsdiq olunmuşdur [156, s. 28-32]. 1920-ci ilə qədər Naxçıvan ərazisi olmuş Sürməli-Iğdir bölgəsində rus arxeoloqları Talay-Tilay məzarlığını da aşkar etmişlər. Burada Tal-Til adda hansısa bir tayfanın olduğu qeyd olunur [90, s. 114-122]. Tədqiqatlar Şimal Sibirdə də Topa Tal Artı rayonunda Tal məzarlığını, burada 200-dən yuxarı kurqan olduğunu göstərir [143, s. 108-142].

Tal tayfa adının qədim yazılara TURUĤ TAL KUN ifadəsi ilə düşməsinə aid yazılar da mövcuddur. Burada onlar e.ə. III minilliyin sonu, II minilliyin əvvəllərinə aid edilmişdir [144, s. 447-448]. Mətnlərdəki TURUĤ TAL KUN ifadəsi qədim Azərbaycan dilində "tal ərazisi" mənasını daşıyırdı [35, s. 83; 36, s. 55-57;

105, s. 444; 134, s. 52, 210]. Qədim mənbələr e.ə. III minillikdə hürrü, subar, koman boylarının yurdu Urmiya dağlarından şimal-şərqdə e.ə. IV-III minilliyə aid Tal-Arpaçiya, Tal-Brak, Tal-Xalaf adlanan qədim şəhər qalıqları haqda məlumat verir [93, s. 192, 311]. Bu ərazilər isə qədim Naxər torpaqlarına aid idi.

Bəzi mənbələr Naxçıvan əhalisinin etnogenezində iştirakı olmuş komanları Tal/Tele türklərinin 15 tayfa birliyindən birinə aid etmişdir [103, s. 247]. Mənbələrdə "Ey, əhli Til..." ifadəsi də talların bu ərazilərin yerli sakinləri olduğunu göstərir [29, s. 128]. Bu tarixi dəlillərdə Diqor mahalı, eləcə də Arpaçay vadisi e.ə. IV minillikdən eramızın XII əsrinə qədər Naxər ölkəsinə, o cümlədən eramızın XVIII əsrinə qədər Naxçıvan ərazisinə məxsus olmaqla talların məskun olduğu torpaqlar olmuşdur. Arxiv sənədləri Naxçıvan ərazisində Tulud, Talin, Tal, Talcan adda Tal tayfa adını yaşadan 11 məntəqə adını qeyd edir.

**Koman tayfaları.** Hələ e.ə. III minillikdə Naxçıvan ərazisində məskun olan komanlar Kiçik Asiyanın mərkəzində, eləcə də o dövr qədim Naxər ölkəsinin Göyçə gölü ətrafında özünün kiçik dövləti və ölkəsini yaratmışdır. Assur-Urartu yazıları, mənbələr və tədqiqatların elmi nəticələri e.ə. XIII əsrdə bu tayfaların ölkəsi olduğunu qeyd edir. Onlar e.ə. II minillikdə Tal-Subar ittifaqında birləşmiş, Urartu yazılarında Naxçıvan-Naxər ölkəsinin ərazisi olan Göyçə gölü ətrafına qədər məskun olmuşlar [17, s. 45-53; 93 s. 515].

E.ə. II minilliyin sonlarında bu tayfaların Araz hövzəsindəki Kumen dövləti Tanrı kultunun, daha doğrusu, yağış və ildırım allahı kultunun mərkəzi olmuşdur. E.ə. IX əsrdə Koman və Kumaxa əraziləri kaskey boylarından cənubda, şubərlərdən şimal-qərbdə yerləşirdi. Daha sonra e.ə. IV əsrin əvvəllərində Qara dəniz ətrafında Koman məbədi və şəhəri salınmış, əhali qədim Kuman tayfalarının Ma allahına ibadət etmişdir [93, s. 515-517; 94, s. 257]. E.ə. XI əsrdə kumanlar kuman-qıpçaq, xəzər-qıpçaq-uz ittifaqında birləşmişlər [54, s. 166-167].

L.N.Qumilyev, A.P.Dulzon, D.E.Yeremeyev, L.P.Potapov, D.Q.Savinov, S.A.Starostin kimi əcnəbi tədqiqatçılar komanların "koman", "kuman", "kiman" adı ilə uyğur türklərinin içərisində 3 min il yaşayaraq daha sonra eramızın 601-ci ilində ətraf ərazilərə yayıldıqlarından bəhs edirlər [175]. Digər bir məlumatda isə komanların e.ə. III minilliyin ortalarında (e.ə. 2339-cu ilə) Cənubi Azərbaycanın Urmiya dağlarının ətəyindən başlayaraq Şimali Azərbaycanda Naxçıvan və Albaniya ərazilərinə, daha sonra isə Monqolustan, Altay Sayan, İrtış və s. ərazilərə yayıldıqları göstərilir [93, s. 515-516]. Onların dili və tarixinə dair mənbə və araşdırmalar bu tayfa dilini e.ə. III minilliyin ortaları və II minilliyin əvvəllərində qədim Subər, Hürrü, Naxər, Skif-Oğuz və b. türk boylarının dillərinə aid etməklə eyni kökə və əraziyə mənsubluqlarından xəbər verir [22; 28]. Qədim arxiv sənədləri və sancaq məlumatları Naxçıvan ərazisində Kumanlı, Kəmud, Kəməngəlül, Kamiyab kimi 8 məntəqə adını göstərir.

**Tur/Turdi tayfaları.** Qədim qaynaqlarda tarixi kökü e.ə. V-IV minilliyə

dayanan, Turdi boyları As boylarının varisləri kimi təqdim olunur. Naxər-Naxçıvan torpağının aborigen-yerli sakinlərindən biri olan bu tayfa adı qədim dilimizdə "hörmətli, sayılan", , "müdrik başçı" mənalarını daşıyırdı [105, s. 580]. Herodotun "Tarix" əsəri Skiflər ölkəsində tiritlərin adını çəkir [99, II 44, 112; IV 51]. Turdilər Strabonun "Coğrafiya" və İohannes Fridrixin "Yazı tarixi" əsərlərində e.ə. V-IV minilliklərdə Turdetaniya adlı ölkədə Turdetan, Turdul, Törtas -"Dörd As" tayfa adı kimi qeyd olunurlar. Burada onlar qədim Naxçıvan və Azərbaycanda, bütöv Qafqazda məskun olan xalqlar kimi təsvir edilmişlər [154, VI, s. 139, VIII, s. 139, IX, s. 141]. Bu məlumatlarda turdilərin etrusk, bastul-turdetan, qarqarlarla birlikdə As soyundan gəldikləri göstərilir (154, XI, XIV,). Antik müəllif Tit Livi də e.ə. IV-III əsr Romadakı hadisələrdən danışarkən Turi-Tavri tayfalarının adını çəkir və onların Turin şəhərini qeyd edir [157, s. 156-157].

Daha bir tarixi qaynaq e.ə. XII-XI əsrlərdə Urmiya gölü ətrafı və Qara dənizdən cənuba doğru prototürk tayfalarının adlarını və yerləşdikləri əraziləri göstərir. Bu məlumatda dənizə yaxın sahillərdə kaskeylər, Fərat çayının yuxarı axarlarına doğru Sakma, Koman, Kumık, onlardan şərqə doğru isə Turqu və Şubar tayfalarının yerləşdikləri xəritə ilə qeyd olunur [93, s. 514-517]. Bu məlumat hələ e.ə. II minillikdə Kiçik Asiya-Anadoluda Turdi boylarının müəyyən bir əraziyə-ölkəyə sahib olduqlarını da təsdiq edir.

Turdi boyları As boylarının tərkibində e.ə. IV minillikdən böyük güc kimi Ön və Kiçik Asiyanın avtoxton- yerli sakinləri olaraq qeyd olunurlar. E.ə. II minillikdə bu tayfalar da Urmiya ətrafı və Araz boyu ərazilərin sakinləri qədim Kassit, Subar, Şu, Bulqar, Sak və b. protoazərbaycanlıların ittifaqında şimala doğru yayılmışlar. Onlar e.ə. II-I minilliklərdə İspaniyada Turdetaniya adlanan ölkələrini yaratmış, e.ə. VI əsr karfaqenlərin İspaniyaya daxil olduqları dövrə qədər qədim Tur koloniyasını saxlamışlar [93, s. 468, 502]. Turdi boyları qədim Naxçıvan ərazilərində kompakt şəkildə yaşamaqla Turcanlı, Tir, Turmuş, Turub və s. məntəqə adlarında (cəmi 12) öz izlərini qoymuş, bu ərazilərin bütövlükdə prototürk-azərbaycanlılara mənsub olduğunu bir daha təsdiq etmişlər.

**Pal-pala tayfaları.** Azərbaycan xalqının, eləcə də Naxçıvan əhalisinin etnogenezi tarixində xüsusi iştirakı olmuş, qədim Pal proto Azərbaycan boyları e.ə. III minillikdən tarixi qaynaqlarda yer alır. Pal adlı tayfalar tarixi məlumatlarda Doğu Anadolu, Bütöv Azərbaycan ərazilərində, o cümlədən bu torpaqlardan zorla qoparılmış hazırkı Gürcüstan, İrəvan xanlığı və Dərbəndə qədərki ərazilərdə məskun olmuşlar.

Qaynaqlar Araz axarları boyu və "Kiçik Asiya" adlanan indiki Türkiyə ərazilərində e.ə. III minilliyin sonu II minilliyin əvvəllərində Pal tayfaları və Pala dilinin mövcud olduğunu göstərir. Burada Luvi və Hett dillərinin Pala dilinin parçalanmasından yaranması elmi cəhətdən əsaslandırılır [67, s. 230]. Bu məlumat və tarixi faktlar Pal/Palay tayfalarının Hett dövlətinin yarandığı tarixdən də əvvəl

Naxçıvan-Naxər ölkəsində məskun olduğunu təsdiq edir. Pal prototürk dilinin parçalanması və buradan Luvi, Hett dilinin yaranması məlumatı isə qədim proto Azərbaycan dilindən bir qrup dillərin də formalaşdığına tarixi işarədir.

Pal tayfaları e.ə. II minilliyin əvvəllərində birlik kimi mövcud olmuş, hələ e.ə. IV minillikdə Azərbaycan torpaqları Kərkük türkmənlərinin Bağdad, Bəsrə, Mosul və b. ərazilərində Paleqaur adı altında fəaliyyət göstərmişlər. Karim şəhər ərazisindən tapılan əşyalar da bunu sübut edir [93, s. 125]. "Paleqaur" sözü etimoloji baxımdan Pal+oqur "pal oğuzlar" və ya Pal+Kiur şəklində kaslardakı Kiur tanrı adından formalaşdığını göstərir [84, s. 13-18].

Herodot Tus tayfalarına dair məlumat verərkən pelasq-"uca, qüvvətli Pal" tayfalarının da adını çəkir, tusların onlardan cənubda yaşadıqlarını qeyd edir [99, I, 57, 94, 166; VI 17]. Palların dil quruluşu Şumer və elamların dil quruluşunu təkrarlayırdı [108, s. 43, 116]. Son dövr tədqiqatları isə Şumer dilinin türk prototürk dili olduğunu təsdiq edir [68, s. 151].

Antik qaynaqlar, tarixi faktlar və mənbə məlumatları Pal tayfalarının qədim Naxçıvan ərazisində məskun olduqlarına dair xeyli sayda sübutlar və dəlillər göstərir. Bu tayfalar haqqında əhatəli tarixi faktlara "Ümumdünya tarixi", "Şərq tarixi" kitabları və Y.Yusifov, İ.A.Jukovskaya, İ.M.Dyakonov, N.A.Baskakov kimi alimlərin tədqiqatlarında rast gəlmək olur. Qədim Naxçıvan ərazisində Palaçı, Palu, Pal, Pul kimi 17 məntəqə adında "Pal" tayfalarının izləri onların bu ərazidə yerli-aborigen xalqlar olduğunu söyləməyə əsas verir.

**Tus tayfaları**. Tarixi qaynaqlara "tuski", "turş", "tirsen" kimi düşmüş bu tayfaların qədim Naxçıvan əhalisinin etnogenezində xüsusi rolu olmuşdur. Yunan tarixçisi Herodot Tus tayfa adını "Tirsen" kimi göstərir və onların ayrıca Tirseniya adlı ölkələrindən bəhs edir. Bu ərazinin etrusklara aidliyini və İtaliya ərazilərinə köçlərini qeyd edən müəllif onların burada öz dillərini qoruduqlarını, mənşəcə Kiçik Asiyalı xalqlar olduqlarını da yazır [99, I, 57, 94, 166; VI 17].

Qədim Misir fironu Merneptaxenin (e.ə. XVIII əsr) "dəniz xalqları" haqqındakı yazılarından bəhs edən Əs-Səbua salnaməsi Turş-Tus tayfalarının Kiçik Asiyanın cənub-qərbində məskunlaşdığını, etrusklar olduğunu göstərir [116, s. 415-421]. K.Ptolemeyin yazıları Azərbaycanda Kür-Araz arası bir əyalətin Tosaren-Tusaran yəni, "Tus ərlərinə məxsus" əyalət adlandığı haqda məlumat verir [121, V, 12, 9]. Bu məlumat Tus boylarının Azərbaycan, o cümlədən də Naxçıvan ərazilərində məskun olduqlarını göstərir.

Mənbələrdə tusların şimala doğru hərəkəti qeyd olunmaqla bu proses etrusklarla bağlanmış, onların Urmiya ətrafı, Kür-Araz arası və Kiçik Asiyadan köçərək mərkəzi İtaliyada, Etruri ölkəsində məskunlaşdıqları göstərilmişdir. Bu məlumatlarda Roma imperatoru Klavdinin "Etrusk tarixi" yazdığı, İtaliyada ayrıca Tus kağanlığı, Toskan ölkəsinin olduğu haqda da faktlar göstərilir. Toskan ölkəsinin şimal ərazisindən e.ə. IX-VII əsrlərdə tusların varisləri etrusklara aid qrafitlər aşkar

edilmiş, onların etrusk Monteric və Venel nümunələri ilə eyniliyi təsdiq edilmişdir [141, s. 237-244].

Q.V.Nosovski, A.T.Fomenko, V.Ç.Vorovskaya, S.Ferri, E.V.Belova və b. etruskların əcdadları olan Tus boylarının e.ə. XV əsrlərdə Urmiya gölündən şimal qərbə Naxər ölkəsi və Kiçik Asiyaya qədər yayıldığını, özlərini "Tusk-sabin-rasen" adlandırdıqlarını yazırlar [160, s. 48, 177]. Mənbələrdən də göründüyü kimi, Tus boyları Ön Asiya və Qafqazlarda yerli türk-azərbaycanlılar olmuş, buradan Kiçik Asiyaya yayılmışlar.

Plutarxın məlumatları Tus varisləri etruskların özlərini "Tarxun" adlandırdıqlarını, çar Atilla dövründə onların "Hun", "Xun" olduqlarını vurğulayır [125, s. 42-44, 123]. Rus alimi A.Aleksey Tus və etruskların dili məsələsini araşdıraraq A.Korneyevin fikirlərini də əsas götürüb "...etrusk yazıları türklərə aiddir və etrusk yazıları rus dilində oxunmur!!!" kimi qəti fikrini bildirmiş, Şamil Minqazov isə xeyli etrusk sözlərinin etrusk, rus, tatar dilində müqayisələrini verməklə, onların türk olaraq Ön və Kiçik Asiyada yaşamaqla "Tusk" adlandıqlarını yazmışdır [135, s. 53-61]. Tus və etrusk dili Ön və Orta Asiya, Altay xalqlarının dilləri ilə eyni olmuş, onlar e.ə. III-II minilliklərdə Ön və Kiçik Asiyadan digər ərazilərə yayılmışlar [70, s. 59-61]. Qədim Naxçıvan torpaqları isə bütün bu ərazilərin mərkəzində olmuşdur.

Bütöv Azərbaycan, eləcə də Naxçıvanın Gəmiqaya və Nüvədi ərazilərində mövcud olan əlifba işarələrin Etrusk əlifba işarələri ilə müqayisəsi də bu işarələrin eyni kökdən gəldiyini göstərir. Gəmiqayadakı rəsmli daşlarda da bu işarələr təkrarlanır [57, s. 113-122]. As, Turdi, Bastul Turdetan, Etrusk yazıları Naxçıvan ərazilərindəki yazılarla müqayisə edilmiş, onların birbaşa bağlılığı tədqiqatlarda öz geniş əksini tapmışdır [15, s. 51, 89-98; 17, s. 47-52; 158, s. 17-19]. Etrusk yazılarındakı xeyli işarələrin qədim Azərbaycan ərazisindəki işarə yazılarla eyniliyi də diqqəti cəlb edir. Bu yazı işarələrdə A, E, F, İ, K, L, M, N, P, R, S, Ş, T, U, Ü [15] hərfləri As ər-Azərbaycan əlifba işarələri və Turdi hərf işarələri ilə tamamilə eyni yazılışda olmuşdur. Bu işarələrin əksəriyyəti Gəmiqaya, Nüvədi, Şamaxı, Pirallahı, Gəncə və Təbriz işarələrində də təkrarlanmaqla, bu əlifba sisteminin eyni kökdən gəldiyini dil faktları kimi təsdiq edir [F.R.Proetnosı Ası, s. 132-136]. Naxçıvanın qədim Azərbaycan torpaqları tərkibində e.ə. III minilliyin I yarısından bu türklərin ana yurdu olduğuna həm yazı işarələri, həm də "Tus" tərkibli Tusmanlı, Tus, Ərtus, Ketus kimi 16 məntəqə adı da canlı dil sübutlarıdır.

**Doray tayfaları.** Tarixi kökümüzün formalaşmasında ayrıca yeri olan bu tayfalar da As, Turdi, Tal, Naxər, Pal, Paralat protoazərbaycanlıları kimi, Bütöv Azərbaycan (o cümlədən də Naxçıvan) tarixi və etnogenezindən kənarda qalmışdır [6, s. 77-87]. Lakin Herodotun "Tarix" əsərində bu tayfa adı "aziat doriyləri", yəni Asiya dorayları adlanmaqla yaşadıqları ərazi Ön Asiya kimi göstərilmiş, Dor adını Ellinin oğlu adlandırmaqla onu dorayların eponimi-nəsl adı kimi yazmışdır. Daha

sonra Herodot pelasqların da sonradan “doray” adlandıqlarını, onların Midiya sakinləri olmaqla, ərazi baxımdan XI mahalda, kaspi, pavsik və pantimaflarla qonşuluqda yaşadıqları haqda məlumat vermişdir [99, I 6, 56-57, 139,146; II 171; III 92, 93; VII 102]. Bu ərazi isə Təbriz ərazisində idi və Assur mənbələri dorayları “teurlay” kimi göstərirdi [173].

Bu tayfalar hələ e.ə. III minillikdə qədim Naxər ərazisinin yerli sakinləri olmuş, e.ə. II minilliyin əvvəllərində Kiçik Asiya ərazilərinə doriylər adı altında hücumlar etmiş, antik mənbələr isə bunu yeni hücumlar adlandırmışdır [93, s. 411]. Afina ərazisindəki arxeoloji nümunələrin elmi nəticələri də e.ə. II minillikdə (1190-1165) Troyanın süqutundan sonra dorayların bu ərazidə məskunlaşdığından bəhs edir. Onların məhz bu ərazilərdən Assuriya, Finikiya və Misirə belə yayılaraq, Peleponnesdə Axaya və Elida ərazilərində məskunlaşmışlar (93 , s. 421, 637, 640). Doray boyları Yunan ərazilərinə yayılmaqla Doridoy əyaləti yaratmış, e.ə. II minillikdə Kiçik Asiya tayfa koloniyaları da onların ardınca Yunan ərazilərinə adlayaraq burdakı mədəniyyətin baniləri olmuşlar [174].

Mənbə və tədqiqatlar e.ə. XVI-XIII əsrlərdə yunanlarda tunc dövrü miken mədəniyyətinin süqutunu əraziyə dorayların hücumu ilə bağlayaraq tənəzzülün bu hadisə nəticəsində baş verdiyini göstərir [127, s. 49, 81]. Bir çox mənbələr və “Sparta dövlətinin formalaşması” haqqında məlumatlar e.ə. II minillikdə dorayların Yunan ərazilərinə gəldiklərini, Yunanıstanda Afina və Spartanın Peloponnesdə dövlətə çevrilməyini onlarla bağlayır. Bu tayfaların “yeni əraziyə”, Lakoniyaya ilk hücumu və məskunlaşması e.ə. II minilliyin I yarısına aid edilir. Burada yunan tayfalarının düşdüyü vəziyyətdən də bəhs olunur [146, s. 215].

Yunan coğrafiyaşünası Strabon, Şimali Qafqazda Azov dənizi kənarında Toreat-Doray tayfalarının adını çəkir, onların dondarlarla qonşu olduqlarına dair məlumat verir [154, XI, II, 10-12]. Doray boylarının skiflərlə bərabər Araz çayını keçərək kimmerlər ölkəsinə gəlişini M.İ.Artamanov e.ə. IX əsrə aid edir [82, s. 23]. Bu məlumatlar isə, dorayların öncə Şimali Azərbaycanda, o cümlədən Naxçıvan ərazilərində məskun olduğunu da sübut edir.

Rus tədqiqatçısı V.Naydış e.ə. XIV əsrdə (II minillik) şimal Balkan xalqları friq və illiriylərin adını çəkərkən dorayları “yunan-doray” kimi təqdim edir. Bunun ardınca isə müəllif Yunan ərazilərinin Doray tayfaları tərəfindən işğal olunduğunu, bununla bağlı yunanların “qaranlıq əsri”nin başlandığını yazmaqla onların “varvar” olduqlarını xüsusi vurğulayır [140, s. 21-27, 46, 77]. Bu tarixi faktlar e.ə. II minillikdə Bütöv Azərbaycan ərazisində varvar-“metal əritmə” sənayesinin təşəkkül tapdığını sübut edir. Friqlərin bu dövr Balkanlarda olması məlumatı isə bir daha erməni tarixinin uydurma olduğunu onların əsl yurdunun Azərbaycandan kənarda olduğunu göstərir.

Doray tayfa adı qədim türk mifindəki Dor tanrı adından gəlmiş, bu mif Yunan ərazilərinin doraylar tərəfindən işğalından sonra onların mifinə adlamış,

yunan dilində -os adlıq hal şəkilçisi ilə Doros şəklində Ellinin oğlu kimi göstərilmişdir [137, I c., s. 392]. Prototürk dillərində "uca", "sahib" kimi mənalar daşıyan dor sözü omonim kimi "nəsil" mənalarını da ifadə etmiş, bütövlükdə türk inancı və qədim türk dili sözlərindən yaranmışdır. Sözün ikinci "ay" tərkibi də türklərin Ay tanrısı inancından gəlirdi və bu mifdə "Ay tanrısı Günəşlə bərabər Meteni hakim təyin etmişdir" [69, s. 99].

Antik müəlliflərin yazıları, qaynaqlar və tədqiqat əsərlərinin elmi nəticələri dorayların Ön Asiya-Azərbaycan ərazilərində yerli xalqlar olduğunu, böyük güc kimi Midiya tayfa ittifaqında tarixi proseslərə qoşulduğunu təsdiq edir. Bu tayfalar qədim dövlətlərimiz Aratta, Mitan, Manna, Midiya, Atropatena ərazilərinin qüdrətli əyaləti olan Naxçıvan ərazilərində də yerli sakinlər olmuş, Dorşat, Dırnıs, Dorakçı, Dor, Dar kimi 11 məntəqə adında öz izlərini qoymuşlar.

**Oğuzlar.** Tarixşünaslığa F.Rəşidəddinin, eləcə də Uyğur variantının "Oğuznamə"ləri ilə öz möhürünü vuran Oğuz boyları və onların tarixi M.Seyidov, T.Hacıyev, K.Nərimanoğlu, F.Kırzıoğlu, F.Sumər, B.Ögəl, E.Kemal, M.Köprülü, Ə.Ərcilasun, V.Radlov, V.Bartold, A.Şerbak kimi çoxsaylı Azərbaycan, Türkiyə və rus alimləri tərəfindən tədqiq edilmişdir. Oğuzlar qədim qaynaqlara İç və Dış/Daş oğuz adlarında düşmüş, Naxçıvanın demək olar ki, bütün ərazilərində məskunlaşmış, Əlincə qala, Qara dərə, Dərəşam, Şərur, Alagöz, Şürəküz, Iğdır, Maku kimi coğrafi adlarda öz əksini tapmışdır [22, s. 185; 23, s. 22; 32, s. 110; 64, s. 83-85]. Tarixləri VI-VII əsrlərə aid olunan bu tayfalar [41, s. 296] əslində e.ə. II minillikdə tarix səhnəsində olmuşlar. Oğuznamələrdə tanrının bəşər kimi ağlaması [23, s. 13], oğuzların su pərisi ilə evlənməsi, Əzraili görməsi və s. [32, s. 79, 89] kimi məsələlərlə əsl tarixin İslam dinindən xeyli öncə yazıldığını sübut edir. Bütün bunlarla yanaşı, F.Rəşidəddinin "Oğuznamə"sində bir məlumat oğuzların e.ə. II minillikdən tarix səhnəsində olduğunu göstərir. Burada Oğuz xan, övladları və nəslinin hakimiyyətləri dövrü 2075 il davam etmişdir. Sonuncu xan, Toksurmuş İçinin oğlu Toğrulun hakimiyyəti Məhəmmədin peyğəmbərliyinə, 622-ci ilə qədər göstərilir. Göstərilən tarixləri cəmləyərkən əldə olunan 1467 ildən peyğəmbərin tarix səhnəsinə çıxdığı dövr, 622-i çıxılarsa, oğuzların tarixə gəlişi e.ə. 1453-cü ilə, XV əsrə, yəni II minilliyin ortalarına təsadüf edir. Təbii ki bu, siyasi proseslərdə iki dəfə böyük gücə çevrilmiş oğuzların tarixidir [58, s. 133-134]. Oğuzların adı əski inanclarımızla bağlı olub "Oğuznamədə" də yazıldığı kimi "oddan, işıqdan yaranmış oğullar" mənasındadır [166, s. 6-7]. Qədim tarixi əraziyə malik olan Naxçıvan ərazisində e.ə. II minillikdən eramızın XIX əsrinə qədər Bozok boyları Kayı, Bayat, Alkaravlı, Qara Avul, Yazır, Dögər, Durdurqa, Yarurlu-Cəyirli, Avşar, Kızık, Beqdili-Bəydilli, Karçın, Uçok-Üçok boyları Bayandur, Beçənə-Beçeneq, Çavuldur, Çəpni, Salur, Eymur, Alayutlu, Ürükür, Yığdır-İğdır, Yiva, Buqdüz və Kınıqlar məskun olmuşlar. Daha sonra bu boyların varisləri Xələc, Kəngər, Kənəsər, Tona, Ediz, Edizkər, Uz, İzgillər tarix səhnəsinə çıxmışlar [23, s. 39-41; 53, s. 359; 54, s.

24 ]. Naxçıvan ərazisində e.ə. II minillikdən günümüzə gələn Oğuzbatır, Əzti, Oğuzdaş, Qarabəy, Salur, Üznüz, Nüsnüs, Dügər kimi (72) məntəqə adı bu tarixin izləridir [31, s. 147, 159, 165].

Oğuz qolu Peçeneqlərin Yavdı Erdim, Bortolmat, Kabuksin Çula, Suru Kulbey, Kuerçi Çur, Karabay, Karabaq, Yazı kapan, Börü Tolmaç, Bula Çoban kimi varisləri Naxçıvan ərazisində öz adları ilə xeyli məntəqə adları yaratmışlar [71, s. 91; 97, s. 355]. Strabon oğuzları e.ə. IV əsrdə Şimali Qafqaz, Xəzər və Azov dənizi arasında Panksan əyalətində göstərmiş [154, XI 8, 2], Gürcü mənbələri isə e.ə. VI əsr tarixi hadisələrində Paçaniket-peçeneqlər ölkəsinin adını qeyd etmişdir [97, s. 105]. Bu tarixi faktlara əsasən oğuzlar e.ə. II minillikdən tarix səhnəsində olmuşlar. Qədim Naxçıvan ərazisində hələ e.ə. II minillikdən məskun olan oğuz qolu peçeneqlər qədim Naxçıvan torpaqlarında Biçənək, Parçi, Beç, Bulğan, Kafan, Pul Tolmaç, Pişənnk, Çul, Qarabağlar kimi 49 kənd adlarında öz izlərini qoymuşlar [43, s. 43-45, 426].

**Skif-Sak, Massaget və kimmerlər.** Bu tayfa adları Herodotun "Tarix" əsərinin bütün 9 kitabında e.ə. VII əsr hadisələri ilə bağlı başda Medi olmaqla geniş təsvir edilmiş, onlar ümumtürk birliyində Avropa və Asiyada çox geniş bir coğrafi arealda tarixi proseslərə təsir etmişlər. Burada skiflər elə saklar, massagetlər kimi vurğulanmış, bəzən tarixdə skit adlanmışlar [99, I 153; II 110, 167; III 93; IV 1, 8, 48, 70, 99; V 24; VI 6, 113; VII 64, 96; VIII 113; IX 31, 71]. Bu tayfalar öncəki proto Azərbaycan boyları ilə eyni adətə, məişət və inanca sahib olmuşlar.

Assur mənbələri skit boylarını aşquzay, işquzay kimi göstərmiş [100, s. 73, 89; 106, s. 243], onlar Ön və Kiçik Asiyadan tutmuş Mesopotamiyanın şimalından Qara dəniz ətrafı, Orta Asiya, Qırğız, Uyğur və Sibirə qədərki ərazidə öz tarixi, geyim adətləri, məişətləri ilə məskunlaşmışlar. Bu qədim tayfalar bütün tarixi proseslərdə birgə iştirak etmiş, sak, skif, skit, skutay, işquzay qomer, qamir, kimmer, massaqet-baş saklar adlarında ilkin mədəniyyətlərini Ön Asiyadan başlamışlar. Bir çox mənbələrdə skiflər və qimmer-kimmerlər də sak kimi yazılmış, Bisütun yazılarında, akkad və elam dillərində də bu hadisə təkrarlanmışdır [97, s. 277]. İran tarixinin tədqiqatçıları sakları skiflər olaraq göstərmişlər [106, s. 243, 264].

Avesta və Bisütun yazılarında e.ə. VII-VI əsrlər, Orta Asiya, Qazaxıstan əraziləri ilə bağlı e.ə. I minillikdə tarixə düşən Sak, Skif, Massaget və Kimmer boyları, eləcə də skiflərin Avxat, Traspi, Yirik, Akatsir, İssedon, Skolt, Paralat və s. qolları qeydə alınır [99, I 201; IV 6, 25-27]. Onlar Naxçıvanın qədim xalqları kimi, ərazidə Yürəkir, Baralanbulaq Əyrək, Ərəki, İsidsan, İssidingil, Parağa, Baratlı kimi 27 məntəqə adında öz adlarını əbədiləşdirmişlər [31, s. 167, 173].

Skif-Sak-kimmer və massaget məişəti və adət-ənənələri, baş geyimi və digər geyimləri tamamilə qədim Azərbaycan türkləri ilə eynilik təşkil etmiş, mənşə və mədəniyyətcə eyni kökə dayanmışlar [123, s. 120-126]. Bu tayfa birliyi özündə skito, sak, turan, qoq, maqoq, axvat, katiar, abarıç, parlat, sayqat, massaqi, alan,

abazıç, aqafirz, yuşi, iskit, bastrano, bolqar, xəzər, avar boylarından təşkil olunmuşlar [40, s. 30-31]. Tədqiqatlar Volqaboyu və Cənub Uralın e.ə. II minilliyə aid arxeoloji mədəniyyətini "Andronov tayfa" mədəniyyəti hesab etmiş, onu e.ə. II minillikdə Cənubdan-Urmiya və Araz ətrafından gələn və yerli xalqa qarışan köçəri maldar skif-sak, massaget və kimmerlərlə bağlamışlar. Assur mənbələri Ön Asiyada kimmer sak-skif birliyini qeyd etməklə bu tarixi prosesin e.ə. VIII əsrdə baş verdiyini təsdiq edir. Mənbələr isə bu tayfaların xeyli hissəsinin qədim Naxçıvan ərazisində skif-skut-sak-massaget-kimmer boyları kimi məskun olduğunu yazır [36, s. 87; 93, s. 457, 522, 591].

Tədqiqatlar qədim Naxçıvanın İrəvan bölgəsinin bütünlükdə saklara və kimmerlərə aid olduğunu, İrəvan və Göyçə gölü ərazilərindən xeyli skif-sak tipli əşyaların tapıldığını, ərazidə ayrıca Sisakan əyalətinin olduğunu göstərir [36, s. 87].

1895-ci ildə Naxçıvanın Qızılburun ərazisindən N.V.Fedorov tərəfindən aşkarlanan, e.ə. II minilliyə aid edilən bir kişi heykəlinin hündürlüyü 20 sm idi. O, çuxa, məst geyib kəmər bağlamışdır və şişpapaqlı idi. E.ə. II minilliyə aid olan və eramızın II minilliyindəki milli geyimlərimizlə eynilik daşıyan bu geyim əşyalarının və digər nümunələrin sak, massaget geyimləri olduğu təsdiqlənmişdir [42, s. 18]. Tarixi faktlar bu tayfaların Naxçıvan ərazilərində məskun olduğunu bir daha sübut edir. Bu tapıntı dünya tarixşünaslığında e.ə. II minillikdə cənubdan Orta Asiyaya gələn köçəri maldar sak, massagetlərin e.ə. IX əsrə qədər Amu-Dəryadan cənuba mövcud olan qəbir kurqanlar versiyasını da tamamilə təsdiq etmişdir [93, s. 457, 591].

Kimmerlərin kimmer-skif-sak padşahlığının yaranmasında mannalılara kömək etdiyi və bu padşahlığın Şimali Azərbaycanı bürüdüyü də qaynaqlarda yer alır [67, s. 353-355]. Cənubi Azərbaycan ərazisində indi də Qomar, Kemer, Kamarabad adda xeyli kənd vardır və bu tarixi adlar işğal altında olan ərazilərimizdə işğalçılar tərəfindən sürətlə dəyişdirilir. Təkcə Ərdəbildə Al Kəmər-Əli Kəmər, Kültəpə-Koltappe, Kolasar-Kelesər, Xələc-Xailəc, Kolan-Kəulən kimi məntəqə adlarını formalaşdıran kimmer kol, kəngər, şirak və s. tayfa adları ilə bağlı 72 kənd adı farslaşdırılmışdır. Bununla bərabər, fars tarixçiləri özlərini sak, kimmer türklərinin əcdadları kimi kitablara salmışlar [109, s. 7-9]. Hələ e.ə. II minillikdən qədim Naxçıvan ərazisində məskun olan, Skif-Sak, Massaget və Kimmer boyları Naxçıvan və onun tarixi torpaqları olan İrəvan xanlığı, İğdır, Maku, Gürcüstandakı torpaqlarımızda günümüzə qədər gəlmiş kimmerlərin tayfa adlarından yaranmış Trialet, Qameri, Qamris, Gömür, Qamri, Qamrik, Qəmərli [31, s. 159] və b. 16 şəhər, qəsəbə adları arxiv sənədlərində bu gün də qalmaqdadır. Skif-saklarla bağlı Səng, Şikəm, Şəkikli, Çaklı, Saklı, Ağsaq, Əlincə, Ərəfsaq kimi 73 məntəqə, 4 mahal adı (Qimri, Əlincə, Ağcaqala, Sisakan) isə bu tayfaların yurd yerlərimizdəki coğrafi adlar toplusudur [31; 49; 36, s. 87]. Bu cür adlar Naxçıvan ərazisindən zorla qoparılmış Cənubi Azərbaycanda Şəkər, Ərşaq, Arsaq kimi yüzlərlə yaşayış mən-

təqə adlarında da qalmaqdadır. Bu tayfa adı Saqa, Sakay, Saka, Saklar, Sakak, Sakiş yazılışlarında Orxon-Yenisey abidələrində, qazax, özbək, qırğız, türkmən və Osmanlı türklərinin coğrafi adlar sistemində də etnonim və toponimlər [37, s. 98; 53, s. 387] kimi bu günə qədər gələn qədim bir tarixin izləridir.

**Naxçıvanda Midiya tayfaları.** Herodotun "Tarix" əsərinin elə I kitabında Midiya tayfalarının buslar, partagenlər, struxatlar, arizantlar, budilər və maqlar olduğu göstərilir [99, I 101 ]. Bu tayfaların Midiyanın qüdrətli əyaləti olan Naxçıvan ərazisində məskunlaşma tarixi bu dövlətin yaranma tarixindən qabağa, e.ə. II minilliyin sonları, I minilliyin əvvəllərinə təsadüf edir. Qaynaqlar Manna və Midiya dövlətlərinin ərazisini Urmiya gölü hövzəsi, onun cənub-qərb, cənub və cənub-şərqində Buştu, Alatae, Kassi və Subarman ölkələri daxil olmaqla qədim Azərbaycan dövləti Mitannanın ərazisində olduğunu göstərir. Bu ərazilərdə isə adı hələ e.ə. III minillikdən tarixdə çəkilən lulubi, kuti, subar, türükkü, hürrü və mitan protoazərbaycanlıları yerli sakinlər idi [67, s. 345-347; 93, s. 553, 561]. Bus, Arizant, Maq, Budi, Struxat və Partagen boyları e.ə. V-III minilliklərdə qeydə alınan proto Azərbaycan tayfalarının varisləri olmuş və Midiyanın qədim əyaləti Naxçıvanın da aborigen-yerli xalqları idilər.

Manna dövlətində aparıcı rolu olan manq tayfa adı sonrakı yüzilliklərdə tunqus-mancur adında, Altayda mansu, qırğızlarda monquş, Tuvada menqi kimi türk tayfalarının adında da yayılmışdır [104, s. 34]. Arizantlar isə Qafqaz, Orta Asiya, Altay, Qazan tatarları, Sibir, Saxa, Uyğur xalqları arasında qeydə alınırlar [71, s. 91]. Tədqiqatlar bu tayfa adının arış, oruş boyları adından gəldiyini yazmışdır [35, s. 119]. Bu tarixi faktlar ilk "tarixi köçlərin" cənubdan şimala olduğunu bir daha təsdiq edir.

Naxçıvan bölgələrində bus tayfaları Buzqov, Şahbuz, Bəsri, Ərmus, Bist, Bazur, manqlar Ağmanqan, Maxta, Muğancıq, Məngik, Ayrımanq, partagenlər Partav, Purtak, Bardak, arizantlar isə Ərəzin, Ərzincan Arzini, Arzanda kimi 53 məntəqə-etnooykonim adında öz adlarını əbədiləşdirmişlər [31, s. 162- 166, 182]. Bu oykonimlər həm aktiv fondda, həm də arxiv sənədlərində qeydə alınmaqdadır [46].

**Sir-şirak tayfaları.** Qədim Naxçıvan ərazilərində xeyli sayda yer və nahiyə adlarını öz adları ilə adlandıran bu tayfalar Strabonun məlumatlarında e.ə. II yüzillikdə Qafqaza axın etmiş, eranın 49-cu ilində Mitridat VIII Rim Vors ordusuna dair yazılarda qeyd olunmuşdur [92, s. 108]. M.İ.Artamanov, B.V.Lunun, N.İ.Veselevski, M.Seyidovun elmi axtarışları şiraqların e.ə. III əsrdə ərazilərimizdə mövcud olduqlarını, Sirak adlı sak oğlunun e.ə. IV əsrdə Dara ordusunu səhraya aparıb məhv etdiyini qeyd edir [64, s. 48-50]. Bu tayfaların tarixi haqqında məlumat verən Feofilakt Simoktta, Strabon, N.Q.Adons, P.K.Patkanov, M.Xorenlinin məlumatlarında Atropatenada, sonra isə Cənubi Azərbaycanda, Naxçıvana aid İrəvan xanlığı torpaqlarında bu tayfalarla bağlı Şoragel, Şirakqala, Şirak qəsəbə və əyalət adları

göstərilir [36, s. 104-107; 97, s. 350-351]. Bu faktlar şirakların Naxçıvan ərazilərində sıx məskunlaşdığını təsdiq edir.

Şərq tarixi və qaynaqlar türklərin kompakt şəkildə yaşadığı Qaradəniz sahilində **Sur** yarımadasının adını çəkir və buradakı arxeoloji nümunələrin e.ə. IV minilliyə aid olduğunu yazır. Şumer mətnlərində e.ə. III minillikdə Şaria dağı, Şuruppak şəhəri Beleet-Ser şəxs adları xatırlanır [13, s. 44, 61; 93, s. 108, 114]. II Sarqonun e.ə. 714-cü il Mannaya hücumunu təsvir edən yazılar burada Surikaş vilayəti və Sirdakka qalasının da adını çəkir [67, s. 352, 354]. Göstərilən vilayət və qala adı e.ə. VIII əsrdə Manna türklərinə aid olmaqla bu dildə idi. Beynəlxalq aləmdə məntəqə adlarının əsasən tayfa adlarından yaranması konsepsiyasının sübutu adı çəkilən şəhər, vilayət, qala adlarının Sir-Şir tayfa adından formalaşdığını göstərir. Günəşlə bağlı mifdən Şirak-"Uca işıq" mənasında adını götürən tayfalar heç şübhəsiz Sur adasındakı e.ə. IV minilliyə aid mədəniyyətlə bağlı olmuşdur. Şumerlərdə, eləcə də Manna və Midiya və onların qüdrətli əyaləti olan Naxçıvanda şur, şar, şer- şir, sur, zar tərkibli dağ, şəhər, məntəqə, şəxs adları isə şir-şirak türklərinin e.ə. IV və I minilliklər arası bu ərazilərdə qədim tarixi izlərdir.

Əski Aratta, Kuti, Mitan, Manna, Midiya kimi proto Azərbaycan dövlətlərində çar və tayfa adları bu dövlətlərdəki xalqların mifoloji inanclarını əks etdirən Tanrı adları ilə adlanırdı [35, s. 51; 106 s. 130-131]. Şir-Şirak tayfa adının da əski türk inanclarımızla bağlı olub, Şumer tanrısı Şar tanrısının adından gəlməsi türk inancı ilə bağlı idi.

Naxçıvan torpaqlarında Şirakan Şüragel- Şirak eli, Şərur, Zar kimi adlarla böyük əyalət və nahiyələr yaratmış, qədim Şirak türk boyları e.ə. IV-III minilliklərdən I minilliyin sonları və eramızın XIX əsrinə qədər bu ərazinin yerli sakinləri olmuşlar. Naxçıvan ərazisində erkən minilliklərdən məskunlaşan **Şirak** türk tayfaları ərazilərimizdə Şürəgel, Sürəmərik, Sirav, Şürənağ, Əlişir, Şərur, Xınzirək, Zərzəmin kimi 53 nahiyə və məntəqə adlarında öz izlərini qoymuşlar [31, s. 46, 63, 120; 49, s. 26-32]. Bunlar şirakların Naxçıvan əhalisinin etnogenezindəki iştirakının, qədim tarixlərdən yerli-aborigen xalqlar olmasının tarixi təsdiqidir.

**Qıpçaq boyları.** Bu tayfaların taleyi və tarixi proseslərdə iştirakı, e.ə. VIII və eramızın XIX əsrlərinə qədər Naxçıvan əraziləri ilə bağlı olmuşdur. Tədqiqat və mənbələrdə Qıpçaq adı "ağac içində doğulan uşağa verilən ad" kimi oğuz boylarına aid edilir. Onlar e.ə. I minillikdə hunların bir qolu, e.ə. II əsrdə isə xəzərlərə aid etmişlər [40, s. 34, 193]. Bu tayfalar eramızın V-VII əsrlərində həm Şir həm də Qıpçaq adı ilə, kumanlarla bərabər XI əsrdən tarix səhnəsində kuman-qıpçaq, xəzər-qıpçaq-uz ittifaqında fəaliyyət göstərmişlər [23, s. 18; 37, s. 92-93; 97, s. 117]. Naxçıvan əhalisinin etnogenezində qıpçaq-peçeneq, peçeneq-bulqar, bulqar-xəzər, xəzər-qıpçaq-üz ittifaqları kimi yer alan bu tayfalar və qıpçaqların varisləri Kolmat, Kol, Kul boyları xeyli sayda məntəqə adlarında öz adlarını əbədiləşdirmişlər [54, s. 166-167]. Mənbələr qıpçaqların fəaliyyətlərini e.ə. VIII əsrdən başlayaraq ilk və

son Qıpçaq dövrlərinə bölmüşlər. İlk dövr e.ə. VIII və eramızın VI əsrinə aid edilməklə bu əsrləri təsdiq edən "Uyğur", "Uzunkörpü", "Dədə Qorqud" və s. oğuznamələr və Kartlis-Gürcü mənbələrindən tarixi faktlar göstərilmişdir. Bu mənbələrdə onlar sak, kuman, beçeneq, barsil, xəzər ittifaqlarında göstərilir [72, s. 3-16, 31-35].

Son dövr tədqiqatlar və bir çox mənbələr yaşı 5 min illə ölçülən Naxçıvan şəhəri və onun bölgələrində Qıpçaq boylarının məskunlaşmasını e.ə. III minilliyin əvvəllərindən başlandığını təsdiq edir. As, Subar, Bulqar, Naxər, Barsil/abarsil, Kass, onun qolları Kaspi, Xəzər, Qazax və Sak türklərin ərazilərimizdə yerli xalqlar olmaqla sonralardan Qıpçaq adlanması, Qıpçaq ittifaqında birləşmələri e.ə. II minilliyin sonları, I minilliyin əvvəllərinə təsadüf edirdi [72, s. 13-14].

Mənbələr qıpçaqların hələ e.ə. III minilliyin əvvəllərindən Koman/Kuman-Qıpçaq birliyində proto tayfalarımızla eyni mənşə və ittifaqa birləşməklə Ma tanrısına ibadət etdiyini göstərir [93, s. 515-517; 94, s. 257]. Onların bu ittifaqı bütün Naxçıvanın qədim torpaqlarını əhatə etmişdir. Atropatenanın Sakasen əyaləti Naxçıvan ərazisinin tərkibində idi və burada eyni dilli bulqar, qıpçaq, xəzər və peçeneqlər yaşayırdı [97, s. 14]. N.A.Baskakov və N.A.Aristov qıpçaqların e.ə. III əsrdə özünə qaraberk, tuk, urus, kuç və s. tayfalarını birləşdirərək hunlara qatıldıqlarını qeyd edirlər [84, s. 138]. Qıpçaqlarla ittifaqda olan protobulqar və Şir boyları V.Bartold, O.Gökyay, H.Araslı, M.Ergin kimi tədqiqatçıların "Şerüküz", "Şürük", "Şirokuvən", "Şərur" kimi adlandırdıqları "Dədə Qorqud" dastanında adı çəkilən Şirokuz elinə, Şərur və Şirakan ellərində məskun idilər [32, s. 264]. Bundan sonra ümum Qıpçaq boyları Gümrü-kimmerlərin bölgəsində Qıpçaq kəndi, Qıpçaq-Vank, Qıpçaq-Yurdu ərazilərinin də aborigen sakinləri idilər. Naxçıvanda məskun olan Çankı, Çala, Sığalı, Çala-Berd, Qarabulak, Çarık, Qaraağac, Ertüş qıpçaq boyları e.ə. II minilliyin sonlarından XIX əsrə qədər bölgələrimizdə Qala-Berd, Qaraağac, Kür Çulu, Qor-Çulu, Cəkni, Qaraçuq, Kalaçık, Kasaberdi Lizberd, Çınık, Qarabulak, Çərikni-Çarıklı kimi 31 məntəqədə məskun olmuşlar [31, s. 165-170, 178, 181; 47; 49, s. 25-36]. Qıpçaq türklərinin digər qolları küçət, cuğrak, qaraberk, tuk, urus, kuçlar qədim Naxçıvana aid nahiyələrdə Cuğa, Pirus, Tuk, Kanurəs, Kükü, Tuklu, Xurs kimi 27 məntəqədə məskun idilər [22, s. 76-77; 31, s. 124, 149, 171; 40, s. 39-40; 49, s. 27-36;].

**Hun və Xaçmatak türkləri.** Tarixi e.ə. III minillikdən Çin qaynaqlarına düşən, Doqquz Oğuz birliyində Buğu, Bayırku, Tonqra, Eskil, Ediz, Apa isi, Kulun-vuku, Ki-pi boyları arasında adı keçən hunlar öz tərkibində Tonqut, Syanbi, Kul, Tibet, Tile, Ağ-hun, Kuşan-Kara-hun, Ağqoyunlu, Qaraqoyunlu, Sabar, Salor, Salqur, Bulqar, Hunqar, Salcaq boylarını birləşdirmişdir [10; 40]. Ammian Marseli e.ə. IV əsrdə Qavqamel döyüşü ilə əlaqədar Albaniya və albanların adını çəkir, Strabon isə bu dövlətin şimal sərhəddini Karahun dağına qədər göstərir [80, II 2, 4; 154, XI 4, 1]. Tarixi proseslərdə oronimlər-dağ adları oykonimlər-məntəqə adlarından

daha az təsirə məruz qalır. Karahun dağ adı e.ə. II minillikdə ilk Hun imperatoru Teuman-Tuman xanın dövründəki hadisələrlə bağlı idi [10, s. 63-65]. Tədqiqatlarda hunqarlar Kəngər adlandırılmış və bu türklərin əsas güc tərkibi Kəngər, Qarapapaq, Cəyirli, Qarabörk, Hun-Kəngər ittifaqında Var- avar, Arsuk, Bokola Batır, Kapkan, Çulluk, Bağan, Yurguş, Çunu, Bayan, Tudin və b. tayfalarla, eləcə də hun və Qıpçaq ittifaqına daxil olan bulqarların varisləri kuvyar, çakar, kuriqir, oxsun, kazan, kul, iskil boyları ilə bağlı olmuşdur [40, 35-38; 71, s. 91]. Qədim Naxçıvan ərazilərində 3 Qazançı kəndi, Kuloba, Qafan, Qarabba, Diyadin, Çəkər, Çaklı, Qalubus, Kültəpə, Külüş, Kilid, Kolanı, Gal, Vənənd, Bulğan kimi xeyli sayda məntəqə adları bu tayfaların izlərini qorumaqdadır [31, s. 172, 175]. Bu proses e.ə. II minilliyin sonlarından eramızın XIX əsrinədək bütöv türk ittifaqında zaman-zaman baş vermiş, Naxçıvan ərazilərində Yuxarı Qarqın, Aşağı Qarqın, Hun dağı yer adları da bu siyasi proseslə bağlı olmuşdur.

V əsrə aid qaynaqlarda buntürk, hun, bulqar, qıpçaq kimi türk boyları ilə yanaşı, xaçmatak türklərinin də adı çəkilir [18, s. 19]. "Uca xaç yurdu" mənalı bu tayfaya məxsus xaç işarəsi xristianlıqdan xeyli əvvəl e.ə. III-II minilliklərdə yaranmışdır. Gəmiqaya, Altay, Qobustan kimi qayaüstü yazılarda dünyanın horizontal inkişaf modelini göstərmiş bu işarə Tanrı-Tenqri kultu ilə bağlı olmuşdur. Xaçmatak türkləri xaç işarəsini bayraqlarında gəzdirəndə, hələ V əsrdə də xristianlar İisusun təsvirini verməmişdilər. A.A.Neyxardt xaç işarətlərini e.ə. VI yüzilliklərə aid etmiş, xristianların Apokalipsisdə xaçı "vəhşilik" rəmzi saydığını, III əsrdə Felikis Minusiyun xaçı bütpərəstliklə bağladığını göstərmişdir [139, s. 57, 201]. Bu isə Naxçıvan ərazisində xaç işarətlərinin e.ə. II minillikdən mövcud olmaqla xristianlara heç bir bağlılığının olmadığını və Tenqrianlıqla bağlılığını bir daha sübut edir. Qədim Naxər ərazisindəki Xoçkəri, Xoçaberd, Ağxaç, Qaraxaç, Xaçlıbulaq, Xaçaparaq, Xaçlı kimi 40-a yaxın yer adı xristianlıqdan 1500 il əvvəl Xaçmatak türklərinə aid olmuşdur. Həsən Cəlalın dövründə (1215-1261) Azərbaycanda Alban Xaçın knyazlığı da xaçmataklarla bağlı idi. Gəmiqaya rəsmlərində bu işarələr ilk və orta tunc dövrlərinə e.ə. II-I minilliyə aiddir və o dövrdə xristianlıq hələ tarix səhnəsində yox idi [56, s. 116-124].

Adları verilmiş bütün türk boyları zaman-zaman şimala doğru axınlar etmişdir. Bu tayfalarla bərabər ərazimizdə e.ə. II minillikdə Cənubdan-Urmiya və Araz ətrafından skiflərin ardınca gələn massagetlərin məşhur get, çet, alan qolları, bulqarların ayrı-ayrı Vund, Kuvar, Kol, Kul, İskil, Qazan, Çakar Vanand qolları, Aran, Qoroz kimi tayfalar yerli xalqlara qarışmışlar [93, s. 457, 591; 97, s. 133-134, 154-157]. Bu türk boyları Naxçıvan bölgələrində Vənənd, Xurs, Kələki, Kilit, Qazançı, Arvan məntəqə və qalalarında məskunlaşmışlar. Bu qədim torpaqlarda Oğuz boylarının 24 varisi əfşar, bayat, bayandur, bəydilli, yivə, eymur, kurbay, kanık-kınıq, salor, çebni, çavundur, karaçuq kimi tayfalar da oğuz tarixini davam etdirmişlər [22, s. 76-77]. Onlar "Kitabi-Dədə Qorqud" dastanında da yer almaqla

[32, s. 34, 42] ərazidəki adlarda öz izlərini qoymuşlar. XI əsrdə yenidən öz yurdlarına dönən Səlcuq qolları Ayrum boylarının Şahsevən, Elrum, Şamlı, İnallı, Təklə Bəydilli, Şahsevən qolundan ayrılan Dəmirbəy, Kurbay, Poladbəy, Kozatlı Axsax, Saatlı, Çolaxlı boylarının adları da Naxçıvan coğrafi adlar sistemində olduğu kimi qalmaqdadır. Bu tarixi proses Bəydilli qolundan ayrılan Çilovdarlı, Çaxırla, Kobadlı, İnallı qolundan ayrılan Eyvatlı, Rzabəyli, Qomuşlu, Əhmədli, Tərkə, Bayat qolundan ayrılan Sincan, Umut tayfaları ilə də bağlıdır. Tarixşünaslıq Kai boylarında öz adını Sirtak Noyan xanın oğlu Qacardan alan Qacar, Əfşar, Padar, Ustac, Ləak, Şəkiyak, xələclərdən ayrılan Candarlı, Qarahəsənli, Güdəkli kimi yüzdən yuxarı türk boylarını da bura aid edir. Naxçıvan diyarının bölgələrində Xələc, Qarahəsənli, Dəmirçi, Bəyəhməd, Gödəkli, Şəkiyak kimi yüzlərlə məntəqə adları bu tayfaların izlərini qoruyur [31, s. 164-183; 40, s. 45; 49, s. 9-25].

Beləliklə, qədim Naxçıvan əhalisinin etnogenezi tarixi e.ə. VI minilliklərdən başlayaraq qədim Azərbaycan torpaqlarında qurulmuş Aratta, Mitan, Manna, Midiya, Atropatena türk-Azərbaycan dövlətlərindəki prototürk boyları ilə təşəkkül tapmışdır. Qədim, əzəli türk yurdu olan Naxçıvan-Naxər ölkəsində bu protoazərbaycanlıların inancları ilə bağlı An, Şar, Kiur, Kudur Enlil, Nisay kimi tanrı adları ərazidə Ansır- "Anunun işığı" (3 kənd), Kırna-"Kiurun verdiyi", Şarur-"Şar yurdu", Şurut-"Şar yurdu" kimi onlarla məntəqə adında Nisay, Kudu yurdu, İlan-"An yurdu" kimi dağ və pir adlarında qalmışlar. Bütün bu prototürk inanc və tayfa adlarını özündə yaşadan bu qədim torpaq 8 min illik bir tarixi dövrdə protoazərbaycanlıların ana yurdu olmuşdur.

## 2. Naxçıvan sözünün mənşəyi

Hələ e.ə. qədim Naxçıvan ərazisini "Naxarin"-Naxər yazılışında qaynaqlara salan ərazini "Nuhun saldığı şəhər" kimi əbədiləşdirən, əhalisinin isə etnogenezində əsaslı iştirakı olan əski **NAXƏR** prototürk-Azərbaycan boyları e.ə. III minillikdən zamanımıza qədər şanlı tarixi bir yol keçmişdir. Lakin onların tarixi haqqında araşdırma aparılmamış, bu məsələ başqa millətlərin tədqiqat mövzusuna çevrilmişdir. "Naxçıvan" adını yaradan, "Naxər" tayfa adının mənasının nə ilə bağlılığı, onların tarixi, inancı və ərazisi də tədqiq olunmamışdır.

Sovetlər dönəmində nəşr edilmiş Azərbaycan Sovet Ensiklopediyası Naxçıvan adının Nuhla bağlılığını səhv fikir hesab etmiş, onun etimoloji izahı Nəşəva və Nəqşi-cahan "Cahanın naxışı" ifadəsi ilə yekunlaşmışdır [4, s. 165-170].

Naxər tayfalarının "Naxçıvan" şəhər adının yaranmasında iştirakı çoxsaylı mənbə məlumatları ilə təsdiq olunsa da "Naxçıvan" sözünün etimoloji mənası fərqli, yanlış izahlarla verilmişdir. Təbii ki, etimoloji izahlarda elm adamlarının diqqətini ilk olaraq cəlb edən sözün "nax" tərkibi olmuşdur. Bu tərkib isə əsasən "nax", "naxç", "naxık" yazılış formalarında tədqiq edilmiş, bu morfemlərə müxtəlif

aspektlərdən fərqli mənalarda, bəzən isə etnos kimi yanaşılmışdır. Lakin tayfaların kimliyi, məskun olduqları ərazi, tarix səhnəsinə çıxdıqları dövrə dair elmi dəlillər və tarixi faktlar göstərilməmişdir. Bir qrup tədqiqatçılar onu Nuhun adı ilə bağlamış, digərləri "bərk yer", "ov yeri" mənasında ərəb-fars sözləri ilə izah etməyə çalışmışlar. "Naxçıvan" sözünün etimoloji izahına toxunan tədqiqatçıların irəli sürdükləri konsepsiyalar, sözün tayfa adı və ya hansısa məna daşıması problem məsələ kimi həll olunmamış qalmışdır.

1996-cı ildə keçirilmiş "Tarixi qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumda məruzə edən A.Axundov Naxçıvanı Nuh tufanı ilə bağlamış, "Nax" tərkibini "Nuh" sözünün təhrifi kimi qəbul etmiş, **-çı** şəkilçisinin türk dillərində isim düzəldən şəkilçi kimi versə də, **"van"** komponentinin qədim İran dilində "yer", "məskən" leksik vahidi olduğunu qeyd etmişdir [1, s. 47]. Təbii ki, söz yarı türk, yarı fars kəlmələri hesabına formalaşmır.

"Naxçıvan" sözünün mənşəyini araşdıran bir qrup müəlliflərin yazılarında sözün fars dilində **Nəxçirvan-** "ov yeri" mənası daşıması fikirləri səslənir. Bu etimoloji izahlara L.Hüseynzadənin, K.Allahyarovun yazılarında rast gəlirik. Müəlliflər "Naxçıvan" sözünün bir neçə deyiminə nəzər salaraq onu "dağ keçisi", "ov yeri" kimi izah etməklə əski parfiya-fars dilindəki **nəxcir**-"ov heyvanı" və **van-** "məkan" sözünə üstünlük verərək onu "ov heyvanlarının bol olduğu yer" kimi izah etmişlər. Sonradan yenə bu mövzuya qayıdan K. Allahyarov, sözü "**naxçi**" şəklində Urartuların varisləri kimi göstərmiş, çeçenlərin də özlərini "naxçi" adlandırmaqla "Naxçıvan" adının da buradan gəlməsi versiyasından çıxış etmişdir [2, s. 27-30]. Müəllif R.Məmmədovun "Naxçıvan şəhərinin tarixi oçerki" kitabının 26-27-ci səhifələrini olduğu kimi təkrarlamış, V.S.Rastarquevanın qərəzli təhrifini dəstəkləmişdir [42, s. 27-30]. Bir sözlə müəllif daha çox özgələri təbliğ etməyə səy göstərmiş, sözün mənasını əsasən yad dillərdə axtarmışdır.

Qədim "Naxçıvan" adının yaranması haqqında danışan türk araşdırıcısı F.Kırzıoğlu buradakı "Nakçı" sözünün Kazıkumık dilində "yurdda qalan, köçməyən" mənasını verdiyi qənaətində dayanaraq, "Naxçıvan" adda yaşayış yerinin Türkiyənin Dügər (Diqor) mahalında da olduğunu yazmışdır [72, s. 40]. Son dövr türk tədqiqatçısı Y.Kalafat dağlı çeçen, inquşlar haqqında danışarkən onların Qıpçaq türkləri olduğunu yazmış və Naxçıvan adındakı "çı/ço" komponentini "adam" mənasında izah etməklə, sözü "Noh adamı" mənasında izah etmişdir [75, s. 43]. Təbii ki, bu etimoloji izahlar yanlışdır və heç bir elmi mənbəyə əsaslanmır. Naxərlər tarix səhnəsinə çıxdıqları dövrlər fars tayfaları, kazıkumuk, Qıpçaq və çeçen türkləri bir tayfa kimi mövcud deyildilər. Digər bir tərəfdən Azərbaycanın başqa bölgələri, o cümlədən fars hakimiyyəti altında olan Cənubi Azərbaycan ov heyvanları ilə daha zəngindir və bu ərazilərdə, eləcə də fars dili lüğətində **nəxcir**-"ov heyvanı" və **van**-"məkan" tərkibli heç bir söz kökünə rast gəlinmir. Burada sözün kökünə oxşar **naxon**-"dırnaq", **nəheyr/nəxeyr-** "xeyr, yox", **negər/nəcir** -

“baxmaq” və s. [20, s. 473-474] kimi sözlərin isə **Nax** söz kökü ilə heç bir əlaqəsi yoxdur. Əlavə olaraq onu da deyək ki, qədim Parsua-fars ərazisində ov yeri çox olsa da, burada “Naxçıvan” adlı coğrafi ada təsadüf etmirik. Urartu məsələsinə gəldikdə isə onların tarix səhnəsində olduğu dövr Naxər türklərindən xeyli sonradır və bu iddianın da elmi əsası yoxdur. Sözdəki **van**-“məkan” sözü isə qədim prototürklərin dilindən fars və erməni dillərinə adlamışdır. Areal türk coğrafi adlarının istər qədim, istərsə də müasir laylarında Van, Vaskovan, Tatvan, Tavukvan İrəvan, Sevan, Ayqavan, İcevan, Bədrəvan, Şirvan, Zərgəvan, Mincivan kimi yüzlərlə belə coğrafi adlara təsadüf edirik. Bu adlarda əski türk tayfa adları və söz köklərindəki van tərkibi çuvaş, tunqus dialektlərində 10 sayını bəzən isə daha çox “yer, məkan”, ban/van-”uca” mənalarını ifadə etmişdir [76, s.102-103; 105, s. 455-456; 109, s. 469].

Bir qrup tədqiqatlarda nax söz kökü heç bir elmi əsası olmayan “sərt yer”, “qayalıq ərazi”, “naqqal”, “tərs”, “yetkin oğul” mənaları ilə izah edilmişdir [60, s. 300-308]. Bu cür etimoloji izahlar Q.Budaqovanın da araşdırmalarında təsadüf olunur. O, “Naxçıvan” sözünü “Naksuan” yazılışında təqdim edərək sözü “xoş su” mənasında fars sözü ilə izah etmişdir [14, s. 9]. C.Cəfərzadə isə “Naxçıvan” sözünün elmi şərhinə yeni aspektdən yanaşaraq onu dörd hissəyə bölüb, ak, üç, eb, on sözlərinə ayırmış, adı “otuz ağ ərlərin vətəni” mənasında oğuz türkləri ilə bağlamışdır [15, s. 17-23]. M.Elli də iki dəfə mövzu ətrafında araşdırma aparmaqla, “Naxçıvan” sözünü qədim Şumer tanrısı “Nusku” adı ilə və qədim türk dilində “nax”, “naxra”, “nakra” yazılışlarında izah etməyə çalışmışdır [60, s. 300-308]. Göründüyü kimi müəlliflər sabit fikirdən çıxış etməmişlər.

Naxçıvan ərazisi və adının Nuh tufanı ilə əlaqəsi haqqında fikirlərə Ə.Hüseyni, S.Rüstəmxanlı və başqalarının da əsərlərində rast gəlinir [61, s. 6-14]. Lakin elmdə yer adları, eləcə də oykonimlərin nominasiyası-adlanması zamanı əsasən tayfa adları üstünlük təşkil etmişdir. Böyük bir şəhər adının “sərt yer”, “qayalıq ərazi”, “naqqal”, “tərs”, “ov yeri” kimi mənalarını daşıması təbii ki, elmi cəhətdən özünü doğrultmur. Tarixi mənbələr Oğuz türklərini Azərbaycan ərazilərinə “gəlmə” hesab edir və “skif”, “skit”, “aşquzai”, “işquzai” adlanan oğuzların Urmiya ətrafı bölgələrə, o cümlədən Naxçıvan ərazilərinə e.ə. VII əsrdə yayıldığını göstərir [99, I, 103-106; II 110, III 134]. Bundan sonra Azərbaycan ərazilərində oğuzlar türk-Azərbaycan yazılı dastanı “Kitabi-Dədə Qorqud”da yeni eranın VII əsri, daha sonra isə və X-XI əsrlərdə göstərilir [F.S. Oğuzlar]. Adın oğuzlarla bağlılığı izahı da naxər türklərinin tarix səhnəsində olduğu tarixi dövrlə uyğun deyil. F.Rəşidəddinin “Oğuznamə” əsəri üzərində aparılan araşdırmalar oğuzların ərazilərimizdə e.ə. II minilliyin ortalarında, daha doğrusu 1443-cü illərdən mövcud olduğunu göstərir [58, s. 133-134]. Əgər tarixi fərqlərə diqqət edilərsə e.ə. 1443-cü il tarixi ilə sonuncu tarix arasında tam 2600 il zaman kəsiyi mövcuddur. Naxçıvan isə VII əsrdə deyil, hələ eramızın I əsrindən yunan coğrafiyaşünası Strabonun “Coğrafiya”

əsərinə, yəhudi tarixçisi İ.Flavinin yazılarına düşüb. Əgər biz F.Rəşidəddinin "Oğuznamə" əsəri və skif oğuzları-"işquzai"lərlə bu sözü izah etmək istəsək, təbii ki, onlarda "Akçıbon" antroponimi haqqında məlumata rast gəlməyəcəyik. Deməli, Ə.Fərzəli, C.Cəfərov, Q.Budaqova, M.Elli və digərlərinin "Naxçıvan" sözünün etimologiyası ilə bağlı elmi konsepsiyaları tarix, etnogenez və dil baxımdan özünü təsdiq etmir.

1996-cı ildə Naxçıvanın tarixi ilə əlaqədar keçirilmiş beynəlxalq elmi simpoziumda "Naxçıvan" sözünün etimologiyasına dair qiymətli elmi fikirlər söylənilmişdir. Bu elmi toplantıda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvanın tarixi və şəhərin meydanagəlmə prosesi haqqında geniş məlumat vermişdir. Vasif Talıbov Azərbaycan elmində, qaynaqlarda, əcnəbi səyyah və coğrafiyaşünasların, eləcə də tədqiqatçıların əsərlərində Nuh və Naxçıvan əlaqələrinin mövcudluğuna, bu eyniliyin təsadüfü olmadığına dair xeyli elmi dəlillər gətirmiş, ərazinin e.ə. minilliklərlə bağlılığı ilə əlaqədar antik müəlliflərin əsərlərinə istinadən tutarlı tarixi faktlar göstərmişdir [67, s. 12].

Simpoziumda çıxış edən акad. İ.Həbibbəyli S.Zelinsкi, К.Niкitin, Y.Pasxalov, V.Devitsкi kimi tədqiqatçıların əsərlərindən maraqlı məqamlara toxunaraq mənbə və tədqiqatlara istinadən şəhərin Nuh tərəfindən salındığına dair tarixi faktlar göstərmişdir. O, 20-dən yuxarı əcnəbi müəlliflərinin bu istiqamətdəki araşdırmalarını təhlil edərək şəhərin adını Nuhla bağlamaqla Naxçıvanı "Nuhçıxan" kimi təqdim edərək, onun yaşının 5 min ildən yuxarı olduğuna dair tarixi məlumatları diqqətə çatdırmışdır [26, s. 9-13; 27, s. 20-28]. İ.Hacıyev, F.Rzayevin tədqiqatlarında da bu problem qədim mənbələr, antik müəlliflərin əsərləri və ümumtürk arealındakı adlar sistemi ilə geniş araşdırılmışdır. Adın Nax etnos adından gəldiyini göstərən müəlliflər əski türk mifinə istinadən onun Nuh adı ilə bağlılığı fikrində dayanmışlar [25, s. 303-312; 60, s. 300-308].

V.H.Əliyev öz tədqiqatlarında və beynəlxalq simpoziumlarda adın etnos adından yarandığına dair faktlara müraciət edərək e.ə. II minilliyin başlanğıcında Naxçıvan ərazisində "naxç" tayfalarının yaşadığını, bu tayfanın isə kaspi tipinə məxsus olduğunu yazmışdır [19, s. 15]. Eyni fikir N.Xudiyevin yazılarında da təkrarlanmış, adın Naxçı tayfa adından yarandığı qeyd olunmuşdur [30, s. 17]. Mənbələrə müraciət edən Ə.Quliyev də "nəxiç" komponentini tayfa adı kimi götürmüş, adın ərəb-fars dilindən gəlmədiyini qədim Naxçı tayfa adından yarandığını söyləmişdir [38, s. 27-30]. Q.Qədirzadənin son dövrlər nəşr olunmuş monoqrafiyalarında da tufanla bağlı xeyli mənbələr izlənilmiş, tufanın ərazisi, başvermə səbəbi, müddəti, gəminin ölçüsü və s. məsələlər geniş araşdırılmaqla Naxçıvanın Nuh yurdu olması fikri əsas götürülmüşdür [34, s. 21, 43, 50-54].

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin və 10-dan artıq elm adamlarının tarixi dəlillərlə bu sözü Nuhla bağlı tayfa adı və ya "naxç" yazılışında tayfa kimi qəbul etmələri, bu istiqamətdə gətirdikləri elmi faktlar həqiqətən şəhər

adının tayfa adından yarandığını sübut edən qiymətli elmi nəticələrdir.

Naxçıvan toponimlərini tədqiq edən A.Bağırovun əsərlərində də “Naxçıvan” sözünün etimologiyasına yer verilmiş, son dövrə qədər bu söz haqqında mövcud olan konsepsiyaların demək olar ki, hamısı təhlil edilmişdir. Müəllif, bir qrup versiyalara elmi təkzib vermiş, Naxçıvan, eləcə də Nəhəcir, Nuhdaban adlarının Nuh peyğəmbərin adından yaranması fikri üzərində dayanmışdır [11, s. 172-173].

2009-cu ildə Naxçıvanda keçirilən “Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan” adlı daha bir beynəlxalq simpoziumu giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxçıvan” sözünün “Naksuana”, “Nəşəva”, “Nəqşi-cahan” yazılışlarını iştirakçıların diqqətinə çatdırmış, hələ miladdan öncəki minilliklərdən qeydə alınan bu adın məhz Nuh peyğəmbərlə bağlı olduğuna dair tarixi faktlara müraciət etmişdir [65, s. 10-16]. Simpozium iştirakçıları Y.Mahmudovun və N.Cəfərovun məruzələrində də şəhərin Nuhla bağlılığı məsələsi önə çəkilmişdir. Bu toplantıda akademiklər İ.Həbibbəyli və İ.Hacıyev Sümer əfsanəsini geniş təhlil etməklə bərabər İ.Flavi, J.B.Tavernye, Dübüa-de-Monpere, İ.Şopen, K.Nikitin, V.Sısoyev, V.Qriqoriyev və başqalarına istinadən yetərincə tarixi dəlillər göstərmişlər. 30-dan çox əcnəbi, türk və Azərbaycan müəlliflərinin əsərlərindəki Nuh motivinə diqqət yetirilmiş, Naxçıvan şəhərinin Nuh tərəfindən salındığı, adın onun adı ilə bağlılığı tarixi, dil, etnoqrafik baxımdan elmi cəhətdən əsaslandırılmışdır. Bununla bərabər bölmələr üzrə türk və azərbaycanlı alimləri Y.Kalafat, X.İvgin, G.Öz, N.Tan, T.Öcal, Ə.Quliyev, Q.Qədirzadə, V.Baxşəliyev, A.Bağırov, F.Səfərli, F.Rzayev, B.İbrahimov, V.Məmmədov, N.Babab əyli, N.Alıyev və başqaları Nuh tufanı ilə bağlı tarix, dil, coğrafi, etnoqrafik və arxeoloji aspektdən yeni elmi nəticələrlə məruzə etmişlər [52, s. 17-30, 40-43, 55-68].

Tədqiqatlarında bu mövzuya toxunan F.Rzayev antik mənbə və müasir araşdırmalara müraciət etməklə, Naxçıvan adının Misir fironu III Tutmosa dair salnamə və Urartu yazılarındakı yazılışını diqqətə almış, adın e.ə. III minillikdə tarix səhnəsində olmuş Naxər tayfa adı ilə bağlı olduğunu yazmışdır. O dövr prototürklərin adlanmasında teofor adların əsas amil olduğunu üzə çıxaran müəllif, adlanmadakı kas+ər (xəzər), sub+ər, kəng+ər, dög+ər dil qanunu və ad formalarını nəzərə almaqla tayfa adının Nuh+ər- Naxər yazılışlarını Nuhla bağlayaraq onun teofor ad olduğuna üstünlük vermişdir [60, s. 300-308].

Tarixi qaynaqların da göstərdiyi kimi şəhərin Nuh tufanı ilə bağlılığı haqqında ilk fikir İ.Flaviyə məxsus olmuş, tufan haqqında ilkin məlumatlar isə şumerlərdən digər xalqların mifologiyasına daxil olmuşdur [33, s. 178-179, 220]. Məhz bu dastan və tarixi faktlara istinad edən F.Səfərli Naxçıvanın Nuhla bağlılığına dair xeyli tarixi məlumat və faktlar göstərmişdir [62, s. 243-250]. Beləliklə, bu problem ətrafında bütün tədqiqatlar və etimoloji izahlar əsasən üç elmi konsepsiyada birləşmişdir.

**Birinci konsepsiyada** L.Hüseynzadə, A.Axundov, K.Allahyarov, Ə.Fərzəli,

İ.Mollayev və b. adın əsasən qədim ərəb-fars dilindən gəlməsi versiyasına və xalq etimologiyası ilə söz tərkiblərindən yaranması izahına üstünlük vermiş, bəzən də Urartu dövlətinin etnik birliyinə (K.Allahyarov) istinad etməklə, bütün hallarda yad mənbə və dil elementlərinə əsaslanmışlar.

**İkinci konsepsiya müəllifləri** F.Kırzıoğlu, C.Cəfərzadə, Q.Budaqova, M.Elli və başqalarının bu adı, əsasən türk dili və Şumer mifi ilə izah etmə cəhdləri milli baxımdan təqdir ediləsi hal olsa da, yenə burada qədim Şumer tanrısı "Nusku" adı, "nax", "naxra", "nakra" "nakç" sözlərinin "bərk", "möhkəm", "xoş su" "yurdda qalan" mənaları türk, bəzən də fars dili elementləri ilə tam olaraq elmi izahını tapmamış, etnosların iştirakı nəzərə alınmamışdır.

**Sonuncu, üçüncü konsepsiyanın** müəllifləri Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun, AMEA-nın həqiqi üzvləri İ.Həbibbəyli, İ.Hacıyev, AMEA-nın müxbir üzvləri Y.Mahmudov, V.Əliyev, Ə.Quliyev, V.Baxşəliyev, Q.Qədirzadə, eləcə də elmlər doktorları N.Xudiyev, A.Bağırov, F.Səfərli, dosent F.Rzayev və digərlərinin fikirləri daha çox elmi dəlillərlə bağlı olmuşdur. Burada Naxçıvan və Nuh bağlılığı, o cümlədən "nax", "naxç", "naxçı" tərkibinin etnos-tayfa adı olması konsepsiyası həm tarixi, həm dil, etnogenez, həm də türk mifik təfəkkürü və nominasiya-adlanma ənənəsi baxımından önə çəkilmişdir. Bu konsepsiya tarixi və dil faktlarına əsaslanmaqla xüsusi elmi əhəmiyyətə malikdir. Belə ki, sonuncu konsepsiya tarixi faktlar və qaynaq məlumatları ilə də təsdiq olunmaqla "Naxçıvan" sözündə "nax" tərkibinin bir prototürk-protoazərbaycan tayfası olduğunu, bu adın həm də Nuh adı ilə əlaqəsini elmi cəhətdən sübut edir.

Son dövrlər bu mövzu əcnəbi alimlərinin də tədqiqatlarında yer almış, Naxər türklərinin ərazisi və tayfa olması haqqında tarixi faktlara müraciət etmişlər. "Nax/naxç" sözünün tayfa adı olması Q.V.Nosovski, A.T.Fomenko və A.N.Fomenko kimi rus tədqiqatçıları tərəfindən araşdırılmış, lakin Naxər ölkəsinin ərazisini siyasətə uyğun başqa ərazilərdə lokalizə etmişlər. Burada Naxər boylarının salnamədəki "naxarain" ölkə adı naxa+rain kimi götürülməklə rain sözü Rona şəklində "çay" mənasında Volqa çayının əzəlki adı "Ra" komponenti ilə bağlanmışdır. Daha sonra müəlliflər adı noqaylara aid etməklə "naxarain" ölkə adını "Noqay çayı" kimi izah etmişlər. Sözün "naxar" yazılışında "məlum Noqay ordası", kazax noqayları, Vizantiya, Naxarin ölkəsi, Noqay çayı kimi göstərən müəlliflər onların II Yekaterina dövründə tamamilə məhv edildiklərini yazmışlar. Onlar Naxər boylarının imperiya şəklində Yunan torpaqlarında, kənar bölgədə Çar-Paytaxt ərazisi kimi göstərmişlər [178].

Tədqiqatlarda Strabon, Ptolomeyə istinadən çeçenlərin "naxçamatep", "naxçamatyan", "noxçi/naxçi" adlandıqları, XIV əsrdə Gürcüstan ərazisində "Naxçta" adda əyaləti olduğu [83, s. 5-11], naxçıların minilliklər boyu şimal ərazilərində məskunlaşmaları, alanların onların varisləri olduğu da göstərilir [81, s. 97]. Bu tədqiqatlar Qafqazda naxç tayfalarının xəzərlərə məğlub olaraq şərq və

qərb dağlılara parçalandığı, e.ə. III əsrdə as-xəzər ittifaqının möhkəmlənməsi ilə naxların yüksəlişi də qeyd olunur [95, s. 29].

Qaynaqlara istinadən araşdırmalar Naxər türklərini xəzərlərdən xeyli əvvəl göstərir və bəy naxların təşəkkülünün neolit dövründən orta əsrlərə qədər davam etdiyini təsdiq edir [138, s.137]. Y.Vahabov isə naxların əvvəllər Şimali-Qafqaza yaxın düzənlərdə məskunlaşıb sarmatlar arasında yayıldıqlarını, Nax dilinin burada aparıcı dil olduğunu göstərir. O, naxların genetik cəhətdən sarmatlarla əlaqəli olduğunu, sarmat dilinin Nax dilindən gəldiyini, bu tayfaların e.ə. V əsrdə Midiya tərkibində olduqlarını yazır. Daha sonra müəllif Nax tayfa adını Nuhla bağlayaraq Naxç tayfalarının əcdadlarının Naxçıvan ərazisindən gəldiyini göstərir. O, e.ə. III minillikdə Hürrüt yazılarında Nax tayfa adının olduğunu, Naxçıvan ərazisinin qədim mədəniyyət mərkəzi kimi e.ə. III minilliyin əvvəllərindən mövcudluğunu qeyd edir [88, s. 170-182].

Tarixi faktlar və tədqiqatlar III konsepsiya müəlliflərinin NAX tərkibini "naxç", "nax", "naxçı" yazılışlarında tayfa adı kimi qəbul etmələrinin doğru olduğunu Naxər tayfalarının qədim bir türk boyu olmaqla Nuh adından gəldiyini bir daha sübut edir. Bunu Misir salnamələri, Urartu və Boğazköy yazıları da təsdiq edir. Bu qaynaqlar Naxçıvan ərazisinin bu xalqların dil imkanları hesabına e.ə. II minilliyin əvvəllərində Naxərən (Nax ərənləri) Mitan dövlətinin ölkəsi kimi qeyd edir. Urartu yazılarında isə e.ə. IX əsrdə ölkə adı Matu Nakru-"Naxru/Naxər ölkəsi" kimi Lulubəy türkləri ilə yanaşı urartulara "düşmən ölkə" kimi xatırlanır [67, s. 174; 131, s. 21-29]. Naxər ərazisi bu tarixi proseslərdən ən azı 1500 il qabaqkı bir dövrdə tayfa birliyi və ölkə şəklində mövcud olmuşdur. Mənbələrdə Urartuların Naxər ölkəsini düşmən ölkə hesab etmələri isə Naxçıvanın-Naxər ölkəsinin Urartu dövləti qarşısında əsl güc olduğunu bir daha sübut edir.

Herodotun, eləcə də ümumdünya və şərq tarixinin məlumatları Araz çayının məhz Matean dağlarından Naxarin ölkəsinə axdığını göstərir [99, I 202; V 52; 93, s. 315-320; 68, s. 223-235]. Müqəddəs Bibliyada isə Naxər (kitabda Naxor) həm ölkə, həm də şəhər kimi göstərilmiş, onun elçisinin Naxər övladlarının yurdu Harrana-Arana çatdığı bildirilir [86, Bıtie 24, 10, c. 32; Bıtie 29, 4-5, c. 39]. Mənbələrdə isə Naxçıvan ərazisindən keçən Araz çayı və Arpaçayı vadilərinin Arran-Muğan adlandığı göstərilir [59, s. 86-92]. Q.Qədirzadə öz tədqiqatlarında Recinad Artur Uelkerə istinadən Araz adının Bibliyada adı çəkilən Qixon çayı olduğunu göstərir [34].

Bütün bu tarixi faktlar Naxər türklərinin güclü bir tayfa olduğunu və ölkəyə sahibliyini bir daha təsdiq edir. Naxər ölkəsi tayfalarının Misirə qarşı dayandığını, massagetlərlə bərabər Aleksandr Makedonski dövründə makedoniyalılara qarşı mübarizəsini qaynaqlar və tədqiqatlar da təsdiq edir [67, s. 400; 94, s. 425; 96, s. 49, 157, 191]. Ölkənin ərazisi isə, o dövr Naxçıvanın əzəli torpaqları olmuş, hazırkı uydurma "Ermənistan dövlətinin" -İrəvan xanlığının bütün ərazisini, İğdır, Ağrı,

Kars, Kağızman, Ərzurum, Maku, Xoy, Poldəşt kimi bölgələrlə Araz hövzəsi boyunca Göyçə gölü də daxil olan sərhədləri əhatə edirdi [31; 49]. Bu ölkə əhalisinin etnik tərkibi naxar, as, qiksos-gök as, kaskey, kassit, mentu, türükkü, su, subar, bulqar, kuti, lulubəy və s. protoazərbaycanlılardan ibarət olmuşdur [178]. Adı çəkilən tayfalar müasir azərbaycanlıların ulu babaları olmaqla Mitan, Aratta, Manna, Midiya və Atropatena dövlətlərində bir ittifaqda yaşamışdır. Onların izləri bugünkü Naxçıvan toponimik sistemində minə qədər coğrafi adda öz əksini tapmaqdadır. Bu ölkənin ərazisi Manna, Midiya və Atropatena dövlətləri zamanında və XIX əsrin əvvəllərinədək XII-XVII əsrin tarixini əks etdirən Osmanlı qaynaqları və digər sənədlərdə də qalmaqdadır [31, s. 35-41; 66, s. 339; 73, s. 24, 31, 73; 93, s. 260-261].

"Nax" tayfa adının III Tutmosun yazılarında "naxərin"-naxər yazılışındakı mənası isə türk dillərində "nek" yazılışında "böyük", "nük" yazılışında "varis" və "döyüş dostu" mənaları daşımışdır [105, s. 354, 357, 361]. Bu tayfaların bir qismi e.ə. II minilliyin sonları və I minilliyin əvvəllərində birlikdə prototürk ittifaqında şimala doğru yayılmışlar. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Yakutiya, Xakas (Xa Kaslar) türkləri, Gürcüstan və Dağıstanda türk ərazilərində Naxçedəniz, Orta naxara, Nuxa, Naxorta, Nahdam, Xatınqnax, Nakru, Naksos, Naxtankan, Nakuru, Nixani, Nixandağ, Naxra, Nuxbat, Nuhbatı kimi yüzlərlə coğrafi adda təkrarlanmışdır [128, s. 28, 40-41, 54-55, 70-76, 99; 153, s. 232 ]. Bu coğrafi adlarda Nax/naxç tayfa adının "Nax", "Nak", "Naxar/ər", "Nah" "Nuh" formalarında yazılışı adın Nuhla bağlılığının tarixi sübutlarıdır. Naxər sözünün həm tayfa adı, həm də Nuh peyğəmbərin adından əmələ gəlməsi də istər dil, istərsə də tarixi faktlarla sübut olunur.

Naxər adındakı "ər" sözü hazırkı leksikonumuzda "ərlik", "ərən", "ər", "kişilik", "igid", "igidlik" mənalarında ümumişlək sözdür. Bu söz türk tayfa adlarının həm sonu, həm də əvvəlinə as-Ər, (Asərbaycan-Azərbaycan adını öz adları ilə adlandıran As boyları) kas-ƏR, sub-ƏR, bulq-ar/ƏR, kimm-er/ƏR, xəz-ƏR, kəng-ƏR, kənəs-Ər, dög-Ər, hunq-ar/ƏR, av-ar/ƏR, kati-ar/ƏR şəkillərində, bəzən isə ƏR-tus, ƏR-sak, ƏR-alat, ƏR/ar-suk və s. şəkillərdə artırılmışdır [37, s. 82; 52, s. 339; 84, s. 226]. Naxçıvan sözündəki qədim -cı, -an "məxsusluq, mənsubluq" şəkilçisi əski tayfa adlar sistemində həm də "tayfa" sözünü ifadə etmişdir [149, s. 1451]. Bu tip tirə, boy adlarının türk dil imkanları hesabına formalaşması, adlanma üslubu türk dilləri üçün xarakterik bir hal olmuşdur. Qədim arxaik tərkiblərdən olan "van"-"məkan, yer" sözü isə [89, s. 627-638], e.ə. IX-VIII yüzilliklərdən Midiya və Manna toponimlərində və Naxçıvan ərazisindəki adlarda təkrarlanmaqla bu adların qədim bir tarixə bağlılığını göstərən dil faktlarıdır. Herodotun məlumatlarında e.ə. IX-VIII əsrlərdə Midiya ərazisində Naxər düzənliyi böyük Nisay kimi xatırlanmışdır [99, VII, 327]. Buradakı Nisay-Naxay düzənliyi yunan dilində təhriflə qeydə alınan Naxərlərə aid bir düzənlik olmuşdur. Yaqut əl-Həməvi "Mucəm əl-Buldan"

əsərində: “Nəqcuan” və o kökdən olmayan “Nəşəva” (Niseya) sözünü Naxçıvan adının bəziləri tərəfindən deyimidir” ifadəsini işlədir [24, s. 10-12, 18-21]. Bu da adın təhrif olunduğunu, düzənliyin Naxər türklərinə aidliyini göstərən tarixi sübutdur.

“Naxçıvan” sözünün Nuhla bağlı olması da qədim türk advermə ənənəsi tarixi faktı ilə təsdiq olunur. Coğrafi adlarda və qaynaqlarda “Naxç”, “Nax”, “Nak”, “Naxar/ər”, “Nah” “Nuh” sözlərinin tayfa etnos adına keçmə ehtimalı müəyyən mənada doğru olsa da, sözün Nuhla bağlı olması aşağıdakı tarixi faktora söykənir. Qədim prototürk tayfalarının adlandırılmasında mifik düşüncə və inanclar əsas amil sayılmışdır. Qaynaqlarda As, Türükkü, Kuti, Lulubi, Hürrü, Naxər, Şu, Subar, Bulqar, Kas, Sak kimi yüzə yaxın prototürk boylarının adlanma prosesində e.ə. V-I minilliklərin mifik təfəkkür təsiri aydın müşahidə edilir [67, s. 251, 305; 93, s. 192, 299, 304]. Bu tayfa adlarının bir qismi Assur, Het, Misir salnamələri, antik müəlliflərdən Herodotun, Strabonun əsərlərində [99, I 153; III 93; 154, s. 137-138], digər bir qismi isə tarixi qaynaqların məlumatları və yüzlərlə tədqiqat əsərlərində xatırlanır.

Araşdırmalar belə türk tayfa adlarının əsasən, teofor adlardan-Tanrı adlarından yarandığını və mifik inanclarla bağlı olduğunu sübut edir. Şumer türklərinin tanrıları An-Anu, Enlil, Huma, Şar, Luma, Şumukan və başqaları [13, s. 12, 15, 56-58] sonralar bu xalqın Şu, Şirak tayfa adlarında, daha sonra isə, onların varisləri Kuti, Lubəy, Türükkü, Kassit və s. prototürk boylarının Saralqab, Elilumeş, Kadaşman Harbe, Kudur Enlil kimi çar adlarında təkrarlanmışdır [35, s. 50-51, 61; 106, s. 128]. Şumerlərdə Huma tanrı adı Altay türklərinə Umay şəklində, Şar tanrı adı taras, buryat, hunqar-macar miflərində Şara-Tanqa, Şarkan kimi təkrarlanmışdır [137, I c., s. 647-648; II c., s. 640]. Bu Tanrı adları müasir Humay, Umay, Sara adlarımızda qalmaqdadır. “Türk” tayfa adının e.ə. IV-III minilliklər Tork tanrı adından yarandığı onun qədim Mitan və türükkülərdə mövcudluğu qaynaqlarda təsdiq olunur [137, II c., s. 521, 606]. Sonralar Tork tanrı adına rus siyasəti ilə ermənilər sahiblənmək istəmişlər. Lakin bu dövrdə ermənilərin ulu babaları friqlər hələ tarix səhnəsinə çıxmamışdır.

Elə o dövr və sonrakı dövrlərdə biz Kaşşu tanrı adı ilə Kaşşu, Kas+it, Kaş+key tayfa adlarını, Harbe tanrı adı ilə Hürrü tayfa adının yarandığını görürük [67, s. 251]. Bu proses digər prototürk boylarının mifologiyasında da təkrarlanır. Kas tayfalarının mifindəki Şuxi tanrı adı və yenə də həmin dövrdə Şu, Şubar tayfa və sülalələri [67, s. 304-305; 93 s. 448, 515, 316, 379], Kamulda tanrı adı və Kom+an tayfa adı [93, s. 515; 97, s. 355], Sax tanrı adı və Sak-Saka türkləri [94, s. 457; 99, II, 23; 100, s. 84], İmmiriya tanrı adı və Kimmer (kimmeriya yalnız əvvəlinə k/ku-“şanlı” sözü artırılmaqla) türkləri [99, I 6, 103; IV 11-13; VII 20] və s. bu cür teofor adların tayfa adlarında təkrarının təkzibolunmaz sübutlarıdır. Ümumən, e.ə. V-I minilliklər prototürk tayfa adlarına diqqət etdikdə biz Ki və Utu Şumer tanrı adından

Ki+utu-Kuti türk tayfasının, Şar tanrı adından Şir+ak, Şir tayfasının, Şumukan tanrı adından Şu+mu+kan-Şu tayfa adlarının yarandığını görürük. Bu eynilik Nuh+ər və Nax+ər türklərində də təkrar olunmuşdur. Bu isə bir təsadüf deyil, qədim bir xalqın adlanma-nominasiya prosesində onun mifik təfəkkürünün rolunun göstəricisidir. Bu gün də dilimizdə Xudaverdi, Tanrıqulu, Allahyar, Allahverdi kimi teofor-inancdan gələn antroponimik-şəxs adlarının tayfa adlarına çevrilməsi prosesini izləyirik.

Bir daha qeyd edək ki, Nuh obrazı Şumer-türk dastanından dünya mifinə adlamışdır [13, s. 178-179, 220; 33, s. 6] və əgər "Nuh" obrazının bu qədimliyi nəzərə alınarsa, o zaman bu addan adını götürən Naxər türklərinin də tarixi o dövrə dayanır. Nuh-Untapişti adından formalaşan Naxər boyları e.ə. VI- IV minilliklərdə yaşamış şumerlərin "Bilqamıs" dastanı ilə eyni tarixi dövrə aid olur ki, o dövrdə bu tayfaların Nuh mifi ilə adlanması-nominasiyası üst-üstə düşür.

Naxçıvanda ilk Tunc dövrü ilə səsləşən Gəmiqaya tarixi abidəsi, buradakı türk mifologiyasından gələn rəsmlər və yazı işarələri, kromlex qəbirlər Nuh-Naxçıvan paralelliyinin tarixi həqiqətinə canlı sübutdur. Onların ümumtürk yazı və rəsmləri ilə eyniliyi ərazini ən qədim mədəniyyət mərkəzi-sivilizasiyanın başlandığı bir məkan kimi təsdiq edir [12, s.16-21; 57, s. 113-122].

Naxçıvan Muxtar Respublikası və ona aid əski Dərəkənd, Sair Məvazi, Ağsaqlı və başqa mahal və nahiyələrindəki "Nuh/nax" tərkibli Nəsəncan, Naxçedəniz, Naxçıvancıq, Nahdam, Nehrəm, Nəhəcir, Naxşı Nərgiz, Nağdı kimi 50-yə yaxın məntəqə, çay, bulaq, və s. adlarda türk boyları olan "Naxər" türklərinin adı yaşamaqdadır [25, s. 303-312].

Elmi nəticələr "Nax" tayfa adının qədim türk mifində olan Nuh adından gəldiyini birmənalı təsdiq etməklə, ərazinin qədim bir sivilizasiya mərkəzi olduğunu da tamamilə təsdiq edir. "Nuh tayfalarının yurdu" (Nax+çı+van) mənasında olan bu tayfalar as, kuti, hürrü, lulubəy, kas, koman, bulqar, sak və digər prototürklərin yayıldığı, yaşadığı ərazilərdə yaşamış, e.ə. IV-II minillikdə Naxçıvan ərazisində aborigen-yerli xalqlar olmuşlar. Bu minilliklərdən sonra isə onların varisləri ata yurdun sahiblərinə çevrilmişlər.

# IV FƏSİL

## NAXÇIVAN ERKƏN ORTA ƏSRLƏR DÖVRÜNDƏ

### 1. Feodal münasibətlərinin yaranması

Tarixin müxtəlif mərhələlərində Atropatenanın tərkibində olan Naxçıvanda feodal münasibətləri digər Şərq ölkələrində olduğu kimi erkən meydana gəlmişdir. Naxçıvanda feodal münasibətlərinin meydana çıxmasını təsdiqləyən faktlar azdır, ancaq erkən orta əsrlərə aid arxeoloji abidələrin tədqiqi az da olsa, torpaq üzərində feodal mülkiyyətinin meydana çıxdığını göstərir. Bu münasibətlər III əsrdən başlayaraq formalaşmağa başlamışdır. Naxçıvanda feodal münasibətləri Şərqdə olduğu kimi, feodalların öz təsərrüfatlarını yaratması ilə deyil, kəndlilərdən renta alınması yolu ilə inkişaf etmişdir. İstehsalın əsasını kəndli əməyi təşkil edirdi. Kəndlilər şəxsən azad idilər, onlar əkinçilərə, maldarlara və bağçılara bölünürdülər [36, s. 157]. Az da olsa qul əməyindən istifadə olunurdu [2, s. 33-34].

Naxçıvanın əlverişli təbii şəraiti, xüsusilə Araz vadisinin və Araz çayına qovuşan çayların vadilərindəki münbit torpaqlar, dağlıq ərazidəki maldarlıq üçün əlverişli otlaqlar feodal mülkiyyətinin inkişafına, daha mütərəqqi quruluşun formalaşmasına əlverişli şərait yaradırdı. Naxçıvanın təbii-coğrafi şəraiti süni suvarmanın olmasını tələb edirdi. Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvanda hələ qədim dövrlərdən suvarma kanallarından istifadə edilmiş, bu ənənə Erkən Orta əsrlərdə də davam etdirilmişdir. Həmin dövrə aid su kanallarının qalıqları Naxçıvanda indi də qalmaqdadır. Araza qovuşan dağ çaylarından çəkilən kanallar vasitəsilə çayların suyu vadiyə çıxarılmış, əkinçiliyin inkişafı üçün şərait yaradılmışdır. Maldarlıqda köçmə yaylaq maldarlığına üstünlük verilmişdir. İstər əkinçilik, istərsə də maldarlığın inkişafı digər təsərrüfat sahələrinin də inkişafını stimullaşdırmış, Naxçıvanın iqtisadi və siyasi müstəqilliyi üçün əsas olmuşdur. Erkən Orta əsrlərdə Naxçıvan hakimlərinin müstəqil siyasət yürütməsinin səbəblərindən biri də budur.

Musa Kalankaytuklunun verdiyi məlumata görə mənşəcə Sisakandan (indiki Naxçıvan) olan Aran Araz çayından başlayaraq Hunan qalasınadək uzanan ölkənin düzənliklərini və dağlarını miras olaraq almışdı [25, s.17]. Bu, artıq torpaq üzərində irsi mülkiyyətin olduğunu təsdiq edir. Tarixi mənbələrin hakim sinfin nümayəndələrinə vilayətlərin və kəndlərin bağışlanması, hakim sinfin öz mülklərini oğulları arasında bölüşdürməsi haqqındakı məlumatları torpaq sahibliyinin dövlət formasının üstün olduğunu göstərir. Sasanilərin və ərəblərin hökmdarlara bütöv vilayətlər bağışlaması, onların isə öz vassallarına torpaq paylaması dövlət və feodal torpaqlarını artırır, kəndlilərin onlardan asılılığını gücləndirirdi. Hökmdarların yeritdiyi siyasət kəndlilərin təbəqələşməsini sürətləndirdi.

Kəndlilərin istismar olunmasının əsas forması vergi və mükəlləfiyyətlər idi. Kənd icmalarında təbəqələşmə və onların bir qisminin feodallardan asılı vəziyyətə




*Naxçıvan Atropatena və Sasanilər dövründə (IV-VI əsrlər)*

düşməsi IV-VII yüzilliklər boyu davam etmişdir [34, s.157]. Bununla belə qeyd etməliyik ki, icma torpaqlarının mövcud olması ilə bağlı məlumat azdır. Ehtimal ki, otlaqlardan istifadə edən maldar qəbilələr hökmdar xəzinəsinə vergilər verir və müəyyən mükəlləfiyyətləri icra edirdilər. Həmin mənbədə ölkədə güclü təbəqələşmənin olmasına işarə edən məlumatlar da vardır.

Feodalizm dövrünün əsas sinifləri feodallar və asılı kəndlilər idi. Bu iki sinfin formalaşması bir-biri ilə bağlı idi. Feodalların formalaşması iki yolla gedirdi. Bir tərəfdən azad icmalar arasında təbəqələşmə nəticəsində varlıların yeni qruplaşmaları yaranır və adlı-sanlı əyanlarla birləşərək feodal sinfinin əsasını təşkil edirdi. Digər tərəfdən isə vilayət hakimləri vəzifələrini irsiləşdirərək atadan oğula vermək hüququ alırdılar [34, s.157]. Sünik hakiminin öz mülklərini oğlanları Qor və Qazan arasında bölməsi haqqında olan məlumatlar bu baxımdan diqqətəlayiqdir [25, s.31].

Feodalizmin inkişafı ilə feodallar arasında da təbəqələşmə gedirdi. Onlar arasında üstün mövqe tutan vilayətin, yaxud əyalətin hakimləri idi. Əlincə və Qoxtan daxil olmaqla Sünikdə [mərkəzi Naxçıvan] on iki vilayət olduğunu nəzərə alsaq artıq feodal iyerarxiyasının olduğunu deyə bilərik. Sasanilərin zamanında feodal iyerarxiyası rütbə cədvəli ilə müəyyənləşdirilmişdi. Mənbələrdə verilən məlumatlar göstərir ki, rütbə cədvəli tərtib edilərkən feodalların keçmiş əsl-nəcabəti də nəzərə alınırdı. Vilayət hakimləri hökmdarın yanında rütbələrinə görə otururdu. Sünik hakiminə uyğun yer verilmədiyi üçün onlar Sasani hökmdarlarından incimiş və üsyan etmişdilər [25, s. 28-29].

Erkən Orta əsrlərdə Albaniya və Atropatenada irsi (*dastakert*) və şərti torpaq mülkiyyəti (*xostak*) mövcud olmuş, şərti torpaq mülkiyyətinin irsi mülkiyyətə çevrilməsi prosesi getmişdir. Dastakertin sahibi hökmdar və iri feodallar, xostakın sahibi isə xırda zadəganlar (*azatlar*) idilər [2, s. 33]. Naxçıvanda vilayət hakiminin şəxsində irsi mülkiyyət daha üstün yer tutmuşdur. Böyük imperiyaların tərkibində Naxçıvanın müstəqil siyasət yeritməsi bununla bağlı olmuşdur. Feodal torpaq sahibliyinin formalarından biri də dini torpaqlar idi. Dini torpaqlar və məbədlərə məxsus torpaqlar toxunulmaz idi və inanca görə tanrı tərəfindən qorunurdu. Sünik vilayətində baş verən üsyan zamanı feodalların öz qiymətli əşyalarını Şalat məbədində gizlətməsi, sasanilərin bu təpəyə çıxarkən zəlzələ olması buna işarədir [25, s. 29].

Erkən Orta əsrlərdə Azərbaycanın digər yerlərində olduğu kimi Naxçıvanda da hakim feodallar sinfinin mənafeyini müdafiə edən dövlət hakimiyyəti mövcud idi [36, s. 167]. Bu dövrdə Naxçıvanın müəyyən müddət ərzində müstəqil siyasət yeritdiyini nəzərə alsaq ali dövlət hakimiyyətinin vilayət hakiminin əlində cəmləşdiyini demək olar. Şahbuz rayonundan, Ağbulaq nekropolundan aşkar olunan üzük möhürlər [39, s. 62] yerli hakimlərin və feodalların möhürə malik olduğunu təsdiq edir. Əyalət hakimləri vilayət hakimlərinə tabe idilər. Həmin dövrdə Naxçıvan hakimi öz növbəsində Atropatena hökmdarından asılı idi. Son Antik və Erkən Orta əsrlərə aid yaşayış yerlərinin tədqiqi vilayət hakimlərinin saraylara malik

olduğunu göstərir. Bəzi qalalarda sitadellərin mövcudluğu hakim təbəqənin qala divarları ilə mühafizə olunan xüsusi sahədə yaşadığını deməyə imkan verir.

Vilayət hakimlərinin həmçinin özünə tabe olan ordusu var idi. Sünik vilayətinin ordusu o qədər qüvvətli idi ki, onların gücündən Dərbənd keçidini mühafizə etmək üçün istifadə olunurdu. Mənbələrdə Sünik hakiminin öz ordusu ilə Mədainə hücum etməsi [27, s. 29], İran dövlətinin paytaxtında keçirilən ümumi hərbi keçiddə onun öz dəstəsi ilə iştirak etməsi haqqında məlumatlar vardır [ 25, s. 117].

## 2. Türkdilli tayfaların yenidən məskunlaşması

Erkən Orta əsrlərdə türk tayfalarının Azərbaycanda, o cümlədən Naxçıvanda yenidən məskunlaşması prosesi davam etmişdir. Hun türklərinin (xəzər, şabir, onoqur və s.) II əsrdə Şimali Qara dəniz sahillərində, yaxud Xəzərin şimalında yaşaması haqqında Bizans tarixçisi Dionisi və yunan coğrafiyaçısı Klavdi Ptolomey məlumat vermişlər. V.N.Qabiaşvili göstərir ki, qədim gürcü mənbələrində türk xalqları e.ə. IV-III əsrlərə aid hadisələrlə bağlı olaraq xatırlanır [83]. Bu mənbələrdə Makedoniyalı İsgəndərin Cənubi Qafqaza yürüşü zamanı buntürklərlə qarşılaşdığı göstərilir. Birinci fəsildə qeyd olunduğu kimi, Heredot eramızdan əvvəlki hadisələrdən bəhs edərək türklərin Azərbaycanda məskunlaşdığını göstərmişdir. Bəzi tədqiqatçılar kəngərli tayfalarının Naxçıvanda I əsrdən məskunlaşdığını göstərir [26]. Lakin Midiya ərazisində olan bəzi toponimlər- məsələn, Kinqarakku, Kinqibira, Kinqikanqi və digərləri ehtimal ki, bu tayfalarla bağlıdır [7, s. 42; 67]. B.A.Serebrennikov tədqiqatlarına əsaslanaraq yazır ki, hun dəstələrinin cənuba, o cümlədən Azərbaycana yürüşləri maksimum III əsrə aid edilə bilər [108, s. 38-43].

Erkən Orta əsrlərdə Şimali Qafqazdan keçərək Azərbaycana və Naxçıvana gələn tayfalardan biri *hunlar* idi. Bu tayfaların Şimali Qafqazda məskunlaşması tədqiqatçılar tərəfindən II əsrə aid edilmişdir [109, s.79]. Culfa rayonunda mövcud olan *Əbrəqunus- Əbrə-hun-us, Qarxun- Qara hun* [V.B.] toponimləri [5, s. 84] bu tayfaların Naxçıvanda məskunlaşdığını təsdiq edən faktlardandır. P.Qolden Cənubi Qafqazda hun tayfalarının meydana çıxmasının konkret tarixini 363, 370 və 395-ci illərə aid edir [86, s. 33-54;109, s. 81]. Artamanov qeyd edir ki, IV əsrdə, bəlkə də bir qədər əvvəl hunların Xəzəryanı çöllərin şərq hissəsində meydana çıxması mümkün idi [72, s. 53].

E.Yeremeyev "Türklərin etnogenezi" kitabında yazır ki, III-IV əsrlərdə türk tayfaları Kiçik Asiya, Qafqaz və Balkan xalqlarının çoxsaylı və daimi qonşuları idilər [92, s.53]. Digər tədqiqatçı A.P. Novoselçev hun türklərinin I minilliyin birinci yarısında Cənubi Qafqazda yayıldığını qeyd edir [105, s. 56]. Sasani şahı II Yezdigerd ermənilərin üsyanına qarşı mübarizədə türklərdən istifadə etmişdir. Y.Q.Cəfərovun tədqiqatlarında hunların protobulqar və qədim türk tayfaları olduğu göstərilir. Tədqiqat işinin "Onoqur birliyi və Albaniya (395-466)", "Sabir birliyi və Albaniya (466-558)" bölümlərində türk xalqları ilə Albaniyanın münasibətləri

aydın şəkildə izah edilir [88]. Suriya tarixçisi Zaxari Mitilenski V əsrin sonu VI əsrin əvvəlində Dərbənd yaxınlığında 13 türk tayfasının: sabir, avar, bulqar, xəzər və digərlərinin məskunlaşdığını qeyd edir [109, s.82]. Bu barədə həmçinin Favstos Buzand, Eqişe, Sebeos, Parpeçi, Musa Kalankaytuklu və başqa müəlliflərin əsərlərində məlumatlar vardır. «Alban tarixi»ndə Sabir tayfalarının yeni axınlarının VI əsrdə Azərbaycanda məskunlaşması ilə də bağlı məlumatlar vardır.

Adil Bağırov Naxçıvan şəhəri yaxınlığındakı Bulqan toponiminin bolqar tayfaları ilə bağlı olduğunu göstərmişdir [5, s.169]. Azərbaycanda məskunlaşan bu tayfalar kuvyar, çakar, kuruqir, qul qazan, iskilv kimi qollara ayrılmışdır [5, s.169; 29, s.35]. Naxçıvan ərazisində olan Qazan və Vənənd oykonimləri də bolqarlarla bağlıdır [6, s. 85]. Bu tayfaların Azərbaycanda məskunlaşmasının tarixi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür.

Erkən Orta əsrlərdə Bəkdüz (Böyük-düz –V.B) tayfaları indiki Böyükdüz kəndinin yaxınlığındakı yaşayış yerində məskunlaşmışdılar [8, s. 201]. Bu tayfa haqqında orta əsr müəlliflərindən M.Kaşğarinin, Rəşidəddinin, Əbülqazi Bahadır xanın əsərlərində və "Kitabi-Dədə Qorqud"da məlumat vardır. Bu tayfanın adı ilə bağlı həmçinin bir sıra ərəb və fars mənbələrində də məlumat verilmişdir. Yuxarıda qeyd edilən mənbələrdə bu tayfanın adı "Buqdur", "Bəkdəz", "Bukdüz", "Bəkdüz", "Böyükdüz" şəklində xatırlanmışdır [4, s.131; 8, s. 201;]. Böyükdüz tayfaları M.Kaşğarinin qeyd etdiyi iyirmi dörd oğuz tayfasından biridir. Bu tayfanın özünəməxsus damğası və quşu olmuşdur. Damğa, içərisində diaqonal boyunca xətt çəkilən düzbucaqlı təsvirlərdən ibarətdir. Böyükdüz tayfasının quşu şahindir. Əbülqazi Bahadır xanın "Türkmənlərin şəcərəsi" əsərində Büqdüz Oğuz xanın altıncı oğlu kimi xatırlanmış və xidmət etmək mənasında açıqlanmışdır [55].

"Kitabi-Dədə Qorqud"da Bəkdüz Əmən Bayandır xanın və Qazan xanın yaxın silahdaşı kimi xatırlanır. Mənbələrdə yad edilən rəvayətlərə görə Bəkdüz Əmən Məhəmməd Peyğəmbərlə görüşmüş, oğuzlar içərisində ilk dəfə islamı qəbul etmiş və onu yaymışdır. Araşdırmalar Böyükdüz kənd adının oğuzların bəğdüz tayfaları ilə bağlı olduğunu göstərir [6, s. 79].

Bu dövrdə Naxçıvanda məskunlaşan tayfalardan biri də *xəzərlər* idi. Ziya Bünyadov yazır ki, 531-ci ildən gec olmayaraq xəzərlər Cənubi Qafqaza basqınlar edirdilər [10, s. 42]. Məlum olduğu kimi, hələ V əsrdə xəzərlər Qəbələni ələ keçirmiş, Albaniyanın paytaxtı Qəbələdən Bərdəyə köçürülmüşdü [34, s. 105-106]. Naxçıvanda indiyədək qalan toponimlər – məsələn Qarxun [6, s. 84], Şada [6, s.187] və digərləri hunların, bolqarların, xəzərlərin Erkən Orta əsrlərdə bu regionda yerləşdiyini təsdiq edir. Şad Cebu Xaqanın oğlu, Azərbaycana yürüş edən xəzərlərin sərkərdəsi idi [25, s. 108]. Naxçıvan və İrəvanda bir çox yaşayış yerləri qarxun sözünün əlavə edilməsi ilə yaranmışdır. Adil Bağırov karxun sözünü oğuzların karkın tayfaları ilə bağlamışdır [6, s.84]. Şübhəsiz ki, bu, Azərbaycanda, o cümlədən Naxçıvanda məskunlaşan tayfalar arasında etnik birləşmə prosesinin getdiyini

təsdiq edir. “Alban tarixi” müəllifinin xəzərlərdən bəhs edərkən onların ölkəsini “Yacuc” adlandırması da diqqəti çəkir [25, s. 151.]. Fikrimizcə, bunlar həmin yacuclardır ki, İncildə xatırlanmış və Naxçıvandakı Yaycı oykonimində [6, s. 202] qorunub saxlanmışdır. Səlcuq-oğuzların bir qolu olan yaycılar [32, s. 67] yerləşdiyi yerlərə öz adlarını vermişlər.

V əsrdə Naxçıvan, indiki Ermənistan və Cənubi Azərbaycan ərazisini əhatə edən böyük bir ərazidə güclü *kəngərli* birliyi mövcud olmuşdur. V əsrdə kəngərli ittifaqı Sasanilər imperiyası kimi böyük dövlətə də qorxu yaratmaq qüdrətində idi [109, s. 88]. Heredota əsaslansaq bu tayfaların Azərbaycanda e.ə. VII-VI əsrlərdə məskunlaşdığını deyə bilərik. Suriya müəllifi Mar-Aba 542-ci ildə Xosrov Ənuşirəvanın Naxçıvan və onun ətrafında kəngərlilərlə müharibə apardığını göstərir [80, s. 140; 109, s. 88 ]. Naxçıvanda kəngərli tayfaları ilə bağlı çoxsaylı oykonimlər – məsələn Keçili, Yurtçu, Qaraçuq, Qaraxanbəyli, Didivar, Ərəfsə, Xalxal, Qarabağlar, Sələsüz və digərləri [5, s. 66-67, 70-71] həmin tayfaların yadigarıdır. V.Qriqoryev V əsrdə Naxçıvana gələn bu tayfaların 20 tayfadan ibarət olduğunu və 120 tirəyə bölündüyünü yazır [87, s. 32]. K.N.Smirnov Naxçıvanda 28 kəngərli tayfasının olduğunu yazmışdır [107, s. 29-30].

Ərəblər Azərbaycana hücuma hazırlaşarkən xəlifəyə verilən məlumatda Azərbaycanın türk ölkəsi olduğu bildirilmişdir [3, s. 57]. Deyilənlər göstərir ki, I-VII əsrlər boyu türkdilli xalqlar Azərbaycan ərazisində üstünlük təşkil etmiş və nəinki buradakı, bütün Cənubi Qafqaz və Yaxın Şərqdəki siyasi hadisələrə qarışmışlar. Xristianlığın yayıldığı dövrdə türk qıpçaqlar, sabirlər, onoqurlar xristianlığı qəbul etmişdir. Türk xalqlarının Cənubi Qafqazda oynadığı rolu erməni və gürcü dillərində qalan türk sözləri də təsdiq edir. Bu məsələyə ilk dəfə diqqət yetirən doktor Mordman qeyd etmişdir ki, ermənilər hind-avropalı xalqlar sırasına daxil olsalar da onların dili türk dilinin böyük təsirinə məruz qalmışdır. O, qeyd edir ki, mən bu sözləri deyərkən osmanlılardan keçən təsiri yox, IV,V, VII əsrlərdə yazı dilində işlədilən türk sözlərini nəzərdə tuturam, o vaxtı ki, səlcuqlar və osmanlılar haqqında heç kəs hələ heç nə bilmirdi [80, s. 140; 109, s. 88]. Erkən Orta əsrlərdə Cənubi Qafqaz və Yaxın Şərqdə məskunlaşan türk xalqlarının, bəzi tədqiqatçıların dediyi kimi, “vəhşi” olmadığını, bir çox xalqların yazılı ədəbiyyatına təsir edəcək mədəni səviyyəyə malik olduğunu sübut edən faktlardan biri də “İqor polku haqqında dastan”da olan türk sözləridir.

Şübhəsiz ki, etnoslar müxtəlif etnik qrupların birləşməsi nəticəsində formalaşmışdı. Onomastik materiallar Erkən Orta əsrlərdə Naxçıvanda hun, xəzər, sabir, bolqar, peçenek, oğuz, suvar, xurs və onlarla digər türkdilli tayfaların Naxçıvanda məskunlaşdığını göstərir [6, s. 64-205]. Arxeoloji və onomastik materialların araşdırılması Naxçıvanda formalaşan mədəniyyətlərin qədim türkdilli tayfalar tərəfindən yaradıldığını, bu tayfaların regionun ictimai-siyasi həyatında mühüm rol oynadığını göstərir.

## 3. Sünik (Sisakan) hakimliyi

Alban tarixçisi Musa Kalankaytuklunun verdiyi məlumata görə I əsrdə Albaniyanın sərhədləri cənubda Araz çayına qədər uzanırdı [25, s. 17]. Bu dövrdə, mənbələrin məlumatına görə, Naxçıvan Sünik knyazlığının tərkibində olmuşdur. Qərbdə Ermənistan, cənubda Araz çayı ilə həmsərhəd olub, Göyçə gölündən cənubda yerləşən Sünikin mərkəzi bu dövrdə Naxçıvan idi. Əlincə və Qoxtan bu vilayətin əyalətləri idi [34, s. 98]. Sünik əhalisi avtoxton idi [2, s.14]. Sünikin əhalisi türk dilinin müxtəlif ləhcələrində danışırdı. Bu həmin ərazidir ki, Urartu mixi yazılarında "Etiuni" adı ilə xatırlanmışdır. Urartulular Göyçə gölünün cənubundakı bəzi əraziləri işğal etmiş, digərləri isə müstəqilliyini qorumuşdur.

Mənbələrin məlumatına görə Qoxtan əhalisi ilə Azərbaycanın qədim əhalisi olan utilər, qardmanlar və çodeylər arasında genetik qohumluq var idi [34, s. 101]. Onların hamısı Sisak nəslindən idi.Yuxarıda qeyd olunduğu kimi, Etiuni konfederasiyasına daxil olan utilər Naxçıvanda qədim dövrdən məskunlaşmış və urartulara qarşı mübarizə aparmışlar [8, s.12-15]. Utilərin türksoylu olması ilə bağlı fikirlər artıq çoxdan elmə məlumdur [32, s. 142-151; 37, s. 58-59]. Musa Kalankaytuklunun verdiyi məlumata görə Mesrop Alban əlifbasını yaratmaq istərkən Sünikdən Bencamin adlı tərcüməçi dəvət edir və Sünik knyazı Vasak onu Albaniyaya göndərir. Onlar birlikdə çətin səslənən qarqar [gərgər] dilinin əlifbasını yaratdılar [25, 33]. Bu məlumatdan görünür ki, Mesrop qarqar dilini bilmirmiş, Sünikdə isə qarqar-türk dilini gözəl bilirmişlər. Naxçıvan əyalətində Ses, Sisian, Sus [5, s. 182, 6, s.187], Cənubi Azərbaycandakı Sisar toponimləri heç şübhə yoxdur ki, ses, yaxud sisak eponimi ilə bağlı olmuş və bu qədim vilayətin adında saxlanmışdır. Moisey Xorenlinin Naxçıvanın II əsrdə ermənilər tərəfindən işğal edilməsi haqqındakı məlumarları həqiqətə uyğun deyil. Bu sinxron mənbələrin məlumatları ilə təsdiq olunmur [34, s. 101].

Tədqiqatçıların fikrinə görə, Sünik ifadəsi Sisakandan daha qədim olmuş və albanların qonşusu kimi xatırlanmışdır [34, s. 95; 100, s. 180]. Sisakan adı ilk dəfə III əsrə aid Kəbə Zərdüşt kitabəsində, sonra isə suriyalı Zaxari Ritorun əsərində VI əsrdə xatırlanmışdır [34, s. 95]. Bu müəllifin əsərində Sisakan Aran, Qurzan və Ermənistandan ayrı ölkə kimi təqdim edilir. Bir çox orta əsr mənbələrində də Sisakan ifadəsi Sünik ifadəsindən sonra meydana çıxır. Alban tarixçisi Musa Kalankaytuklunun əsərində Sünik və Sisakan ifadələri ilə bərabər həmçinin Sünestan ifadəsi işlədilmişdir [34, s. 95]. Erkən Orta əsr mənbələrinin verdiyi məlumata görə Sünik 12 vilayətdən ibarət olmuş, etnik, mədəni və siyasi baxımdan daha çox Atropatena ilə bağlı olmuşdur. K.V.Treverin fikrinə görə, Sünik ilk alban qəbilə ittifaqına daxil olmamışdır [110, s.146]. Sasani-Roma müharibələri dövründə Sünik ayrı-ayrı dövrlərdə Atropatenadan asılı olmuş və öz müstəqilliyini qorumuşdur. Sünikdə Sünik dilində danışılmış və bu dil qonşu xalqların dilinə təsir etmişdir [34,

s. 100]. Bu dil türk dilləri ilə uyğun olmuşdur. Ermənilərin mənafeyini müdafiə edən Adonts və digər tədqiqatçılar da Sünikin mülki baxımından müstəqil və etnik baxımdan fərqli olduğunu deməyə məcbur olmuşdur.

Mənbələrdə və epiqrafik abidələrdə, eləcə də Kəbə Zərdüşt kitabəsində-Sasani şahı I Şapura aid kitabədə Sünik müstəqil ölkə kimi xatırlanır ("Atropatena, İberiya, Ermənistan, Sünik, Albaniya"). Sünik siyasi baxımdan güclü vilayət və qüdrətli süvari orduya malik olmuşdur [34, s.96]. Sünik o qədər qüdrətli olmuşdur ki, Sasani şahları onlarla hesablaşmış Dərbənd keçidini qorumağı onlara tapşırmışdır. Musa Kalankaytuklu yazır ki, Vologez (bəzi müəlliflərə görə Valarşak) şimal tayfaları üzərində öz hakimiyyətini bərqərar etdikdən sonra, şimal düzənliklərində, Qafqaz dağları ətəklərində və dağlardan cənubda yaşayan "vəhşi" qəbilələrin başçılarını çağırıb vergilərin itaətlə ödənilməsini əmr etdi. Yafəs nəslindən və Sisakan (Sünik) soyundan olan Aran onlara hakim təyin edildi [25, s. 17]. Daha sonra müəllif Aranın Araz çayından başlayaraq Xunan qalasına qədər olan dağları və düzənlikləri miras aldığını göstərir [25, s. 17]. Müəllif göstərir ki, Alban ölkəsi öz adını (Ağvan-Alban) Arandan almışdır, çünki onu yumşaq xasiyyətinə görə "ağu"("mehriban") çağırırdılar [25, s. 17]. Alban tarixçisi yazır ki, Arandan Cəsur Vaçaqana qədər keçən günlər məlum deyil [25, s. 17]. Araşdırmalar göstərir ki, Sünik 387-ci ilədək nəinki öz müstəqilliyini qoruyub saxlamışdır, həmçinin qonşu ərazilərə də nəzarət etmişdir [34, s. 97]. Bunun səbəbi Erkən Orta əsrlərdə Naxçıvanda qüdrətli Kəngərli tayfa ittifaqının mövcud olması idi. Bu tayfalar V əsrdə Sasani şahları üçün ciddi təhlükə idi [106, s. 88]. Sasani Bizans müharibələri zamanı İran şahı Ənuşirəvan 542-ci ildə Naxçıvandakı kəngərlilərlə mübarizə aparmalı olmuşdur [80, s.140]. Bu tayfaların türk dilində danışdığını erməni müəllifləri də etiraf etmişlər. Erkən Orta əsrlərə aid gürcü mənbələrindəki türk sözləri bunu bir daha təsdiq edir.

Sasanilərlə mübarizə aparan Sünik müqavimət göstərsə də Ənuşirəvanın vassallığını qəbul etməyi üstün tutdu [34, s.97]. 571-ci ildə Sünik hakimi Sasani şahı Xosrovdan xahiş edir ki, Sünik torpaqlarının arxivlərini Dvindən Paytarakana köçürsün, onların şəhərini isə Atropatenanın hüdudlarına daxil etsin [34, s.97]. Bu zaman Paytakaran Albaniyanın tərkibində idi. Bu məlumat bəzi vilayətlərin vaxtilə Atropatenanın daxilinə qatıldığını göstərməklə indiki Ermənistan və Şimal Şərqi Anadolunun bir qisminin də Sünik vilayətinə bağlı olduğunu təsdiq edir.

591-ci il müqaviləsinə görə Vaspurakan, Sünik və Dvin vilayətləri II Xosrovun hakimiyyətinə keçir. Sünik vassal asılılığı qəbul edir. Müəyyən dövrlərdə Sünik siyasi cəhətdən həm də Mehranilər sülaləsinə tabe olmuşdur [25, s. 17]. Ərəblərin Azərbaycana hücumunadək Aran, Sünik və Gürcüstanın bir hissəsi xəzərlərin əlində idi [10, s. 39-60]. Bəzi erməni müəlliflərinə görə Vaspurakan və Qoxtan Böyük Ermənistanın tərkibində olmuşdur. Lakin məlum olduğu kimi, Böyük Ermənistan e.ə. I əsrdə süqut etmişdi. Vaspurakan ifadəsi isə VI-VII əsrlərdən

işlədilməyə başlanmışdır. Elə buna görə də Yeremyanın xəritələrində "Vaspurakan" ifadəsi yoxdur.

Mənbələrin təhlili VI-VII əsrlərdə Vaspurakan, Sünik və Dvinin bilavasitə Sasanilərin hakimiyyəti altında olduğunu göstərir [34, s. 100]. Tarixçilər Vaspurkan vilayətlərinin siyahısını verərkən Naxçıvan və Qoxtan havarlarını xatırlamamışdır. Onlar yazır ki, Naxçıvan 210 il bundan əvvəl, Qoxtan isə 186 il əvvəl Vaspurakandan ayrılmışdır [34, s. 100]. Bu məlumat Naxçıvan və Qoxtanın, qısa müddət ərzində, 591-ci ildən VII əsrə qədər Vaspurakanla birlikdə Sasanilər dövlətinin tərkibində olduğunu göstərir.

Araşdırmalar göstərir ki, Naxçıvan və Qoxtan I-VI əsrlərdə Sünikin tərkibində olmuş, 591-ci il müqaviləsinə əsasən Vaspurakanın tərkibində Süniklə birlikdə Sasanilərə tabe olmuşdur. Bu Ermənistan, İberiya, Albaniya və Atropatena ilə bərabər Vaspurakan və Sünikin daxil olduğu Şimal Kustakı və Albaniyada Arşakilərin hakimiyyətinin ləğvi ilə bağlı idi [34, s. 103]. Naxçıvan və Qoxtan VII əsrdə Vaspurakandan ayrılmış, Sünik öz müstəqilliyini qorumuşdur.

654-cü ildə Albaniya, İberiya və Ermənistanla birlikdə Sünik də ərəb işğalına məruz qaldı. VIII əsrdə Sünik Albaniyanın müstəqil ucqar vilayəti olaraq qalırdı. Alban hökmdarı Cavanşirin Sünik knyazının qızı ilə evlənməsi əlaqələri bir qədər də möhkəmləndirir [34, s. 98]. Daha sonra xəlifə Süniki Cavanşirin tabeliyinə vermişdi [25, s. 137]. Ərəb sərkərdəsi Sevadın Sünikə basqını zamanı Sünik knyazı Vasak Babəkə müraciət edir. Babək ərəb qoşunlarını məğlub etdikdən sonra Sünik knyazının qızı ilə evlənir. IX əsrdə Aranda ərəblərdən asılı olan knyazlıqlar arasında Sünik də var idi. Ərəb mənbələrində Naxçıvan həm Aran şəhəri kimi təqdim edilmiş, həm də Azərbaycanın ucqar əyaləti kimi qeyd edilmişdir [78, s. 56-57]. Yaqut Həməvi yazır: "Nəşəva (Naxçıvan) Azərbaycandadır, bəziləri deyirlər ki, Arandadır Ermənistana yaxındır. O xalq arasında Nəxcuan adı ilə məhşurdur" [10, s. 42; 35, s. 25]. Bəzi erməni tədqiqatçılarının tarixi-memarlıq abidələri əsasında Naxçıvana qarşı irəli sürdüyü iddialar tamamilə əsasızdır, çünki üzərində erməni kitabəsi olan memarlıq abidələri Naxçıvanda yoxdur. Araşdırmalar mərkəzi Naxçıvan olan Sünikin tarixin müəyyən mərhələlərində müstəqil siyasət yeritdiyini, müəyyən vaxtlarda isə sasanilərdən asılı olduğunu göstərir.

### 4. Naxçıvan Sasanilər dövlətinin tərkibində

226-cı ildə Ərdəşirin şah titulu qəbul etməsilə Sasanilər dövlətinin əsası qoyuldu. Naxçıvanın III-VII əsrlər tarixi Sasanilər dövləti ilə bağlıdır. Yuxarıda qeyd olunduğu kimi, Sasani şahı I Şapura məxsus kitabədə Sünik müstəqil ölkə kimi xatırlanmışdır. I Şapurun ölümündən sonra Sasani-Roma müharibələri yenidən gücləndi. Bu müharibələr 283-cü ildə romalıların xeyrinə bağlanan sazişlə başa çatdı [89, s. 263]. Bu dövrdə digər şəhərlərlə birlikdə Naxçıvan da Sasanilərin

hakimiyyəti altından çıxır. Amid döyüşündən sonra 359-cu ildə Sasanilərlə romalılar arasında bağlanan müqaviləyə görə Arsax, Marlar ölkəsi (Naxçıvan) və Kaspiana sasanilər tərəfindən tutulur. 364-367-ci illərdə II Şapurun Cənubi Qafqaza yürüşü zamanı Naxçıvan yenidən dağıntılara məruz qalır. Erkən Orta əsr mənbələrinin verdiyi məlumata görə II Şapurun talançı yürüşləri zamanı səkkiz şəhər dağıdılmışdı ki, onlardan biri də Naxçıvan idi [34, s.101; 35, s. 29]. Bu dövrdə Cənubi Qafqazın digər ölkələri ilə birlikdə Naxçıvan da sasanilər tərəfindən talan və qarətlərə məruz qalır. Mənbələr göstərir ki, əsir edilmiş əhali Cənubi Qafqazın digər yerlərindən İran ordugahının yerləşdiyi Naxçıvana gətirilirdi. Sonda Naxçıvan şəhəri də dağıdılıb talan edildi [34, s.102]. Əhali sürgün edilib yad ölkələrə aparılırdı. II Şapurun istilaları zamanı Naxçıvanda 18 min ailə əsir edilmişdi [35, s. 29]. İşğal edilmiş şəhərlərin sasanilər tərəfindən verilən siyahısı və Sasani ordularının keçdiyi yolların təsviri bu Naxçıvanın Araz çayı üzərində olan Naxçıvan olduğunu göstərir [34, s.102].

Mənbələr yazır ki, bütün Azərbaycan və Naxçıvan ərazisi Sasani Roma ordularının döyüş meydanına çevrilmişdir. Bununla bərabər köçəri alan və hun tayfaları da buraya gəlirdilər. Hunlar tez-tez yerli əhalinin Sasanilərə qarşı mübarizəsinə müdaxilə edirdilər. Romalılar atəşpərəst məbədlərini dağıdır, yerində xristian kilsələri tikirdilər. Roma ilə İran arasında bağlanan 387-ci il müqaviləsinə görə Naxçıvan Sasanilərin tərkibində qaldı [35, s. 29- 30]. Musa Kalankaytuklunun "Alban tarixi" əsərində Sünik əhalisinin Sasani şahı II Şapura qarşı mübarizəsi haqqında maraqlı məlumat verilmişdir. Həmin məlumata görə II Şapur Cənubi Qafqazı işğal etdikdən sonra yerli hakimlərdən onların nəslinin qədim olduğunu təsdiq edən kitab tələb etmişdi. Kitab təqdim etməyənlər rütbə dərəcəsindən və əmlakdan məhrum edilirdi [25, s. 28]. Ona verilən on dördüncü rütbədən narazı qalan Sünik hakimi Andoka acıq edib şahın qonaqlığından imtina etmişdi. Bundan sonra şaha xəbər verirlər ki, saysız-hesabsız xəzərlər Çola keçidini aşaraq hücuma keçib. Xəzərlərə qarşı vuruşmaq üçün şah Atropaten vilayətlərindən, eləcə də alban, gürcü, iranlı və digər xalqlardan ordu toplayaraq xəzərlərə qarşı çıxmış [25, s. 28], lakin Sünik hakimi Andoka İran şahına kömək etməmişdi. Sonra o, Mədainə hücum edərək xəzinələri qarət etmiş və öz ölkəsinə gətirmişdi. O, Sünik əhalisinə əmr etmişdir ki, evlərini yandırıb ölkədən qaçsınlar. Onlar bütün sərvətlərini, daş-qaşlarını Şalat məbədində gizlədərək məbədi torpaqla örtüb üzərində təpə düzəltdilər və çıxıb getdilər. Musa Kalankaytuklu yazır ki, "... O gündən etibarən Sünikün adını heç kəs çəkmədi və bu vilayət 25 il ərzində əhalisiz qalıb viran olmuşdu" [25, s. 29]. Müharibənin sonunda Mədain xərabələrini görən Şapur yenidən Sünikə hücum edir, lakin heç bir şey edə bilmir. Sasani qoşunları Şalat məbədi olan təpənin üzərinə çıxanda şiddətli zəlzələ olur və Sasani qoşunları tezliklə ölkəni tərk edir [25, s. 29]. Geri qayıdarkən Sünik əhalisinin sığındığı qalaya hücum edirlər, lakin qalanı ala bilmirlər. Onların ikinci və üçüncü yürüşləri də uğursuz olur. Mühasirə davam

edərkən Sünik hakimi Andoka əlverişli vəziyyətdən istifadə edərək qaladan çıxıb Romaya gedir, orada şöhrət qazanır və öz əcəli ilə ölür [25, s. 30].

Bu zaman hunların sasanilərə qarşı yeni yürüşü başlanır. Musa Kalankaytuklu bu haqda məlumat verərək yazır ki, "İran ölkəsini qarət edən hunlar ölkəsindən Honoqur adlı birisi qəlir. O, şah Şapurun yanına adam göndərib dedi: "Bu qırğın kimə lazımdır? Çıx qabağıma üz-üzə gələk". Bu müraciətdən göründüyü kimi sasanilər türk əhalisinə qarşı qırğın törətmişlər. Mənbənin verdiyi məlumata görə, Sasani şahı II Şapur Sünik şahzadəsindən, daha doğrusu Andokanın oğlundan hunlara qarşı mübarizədə istifadə edir. Oxbatmaz bu güclü sərkərdəni yalnız o məğlub edir. Deyilənə görə II Şapurun sarayında içərisi küllə dolu olan bir həvəng və dəstək varmış. "Onun yanından keçən hər bir adam dəstəklə vurub deməli idi: "Qoy Sünik torpağı varıyla, dövlətiylə məhv olub bu külə dönsün!" [25, s.30]. Andokanın oğlu Hun sərkərdəsi ilə döyüşə razı olub İran şahının arzusunu yerinə yetirdiyi üçün o da oğlanın istəyini yerinə yetirir-həvəngin saraydan çıxarılması əmr edilir [25, s. 30-31]. Andokanın oğlu Babək bir gün ova çıxarkən təpənin altında gizlənən məbədi tapır. Onun oğlanları Qor və Qazan öz dinlərini ataraq xristian olurlar. Araşdırmalar göstərir ki, *qazan* tayfası bolqarların bir qolu olmuşdur [5, s. 169]. Bu fakt Sünik əhalisinin bolqar türklərindən ibarət olduğunu təsdiq edir. Qor və Qazan adlı iki qardaşın *oğuz* (*oğur*) türklərinin adlı-sanlı nəslindən olduğu da müəyyən edilmişdir [2, s. 24]. Mənbələrdə Cənubi Azərbaycan, Naxçıvan və ona yaxın ərazilərdə məskunlaşan kəngərlilərin yaşadığı yer "Kəngərlilərin vilayəti", oradakı dağ isə "Kəngərlilərin dağı" adlandırılmışdır [2, s. 24]. Musa Kalankaytuklu yazır ki, "bütün bunlar xristian dinini məhv edib və bizi zərdüşt dininə bağlamaq istəyən II Yezdəgirdin (438-454) taxta çıxmasından iyirmi il qabaq olub", yəni 418-ci ildə.

II Şapur (309-379) hunların (xəzərlərin) hücumuna qarşı mübarizə aparsa da, xəzərlərə qarşı ciddi mübarizə I Qubadın (446-531) zamanında olmuşdu. O, Dinavərədək irəliləyən xəzərləri geri çəkilməyə məcbur etmiş Gürcüstan və Aranı geri almışdı. Ərəb mənbələri bu haqda məlumat verərək yazırdı: "O, Arran ölkəsinə daxil oldu və ər-Ras (Araz) adı ilə məhşur olan çayla Şirvan arasında olan bütün torpaqları tutdu [10, s.41; 17, s.194]. I Xosrov Ənuşirəvanın (531-578) dövründə xəzərlərə qarşı mübarizə daha da artdı. O, Dərbənd keçidini möhkəmləndirdi [10, s.41].

Bir tərəfdən hunların hücumları, digər tərəfdən isə İranın Bizansla müharibələri ölkənin təsərrüfatına ziyan vurduğu və ölkə başdan başa talan edildiyi üçün Ənuşirəvanın dövründə Sünik hakimi sasanilərin vassallığını qəbul edir.

Ərəb mənbələrində Naxçıvan Aranın bir vilayəti olan Basfurcanın mərkəzi kimi göstərilir. Yaqut Həməvi yazır ki, "Basfurcan Arranda bir vilayətdir. Paytaxtı Nəşəva, ona Naxçıvan da deyirlər" [ 10, s.42; 49, s. 625]. Bu mənbələrdə Basfurcan və Sisacan ayrı-ayrı ölkələr kimi xatırlanır. Yəqubi xəzərlər haqqında məlumat

verərək yazır ki, “onlara xaqan adlanan padşah başçılıq edir. Onun Arran, Curzan, Basfurcan və Sisacan üzərində Yəzid Balaş adlı canişini vardır. Yaqut Həməvi və Bəlazurinin məlumatına görə Sasani şahı Ənuşirəvanın Sisacanda (Sünik) Vays, al-Kilab və *aş-Şahabuş* qalalarını bərpa etdiyi haqqında məlumat vermişdir. Sonuncu Naxçıvanda olan Şahbuz oykonimi ilə uyğundur [78, s. 69]. Hazırda Şahbuz rayonunun Şahbuz kəndi (Kənd Şahbuz) yaxınlığında eyni adlı qala var. Bu qala xalq arasında Şapurqala da adlanır [8, s. 244].

Ərəb mənbələrinin məlumatları xəzərlərin VI əsrdə (531-ci ildən gec olmayaraq) Naxçıvan ərazisində məskunlaşdığını göstərir [10, s.42]. Xəzərlər sasanilərin aldıqları əraziləri yenidən ələ keçirirlər. Naxçıvanda xəzər sərkərdələrinin adı ilə bağlı yer adları bunu bir daha təsdiq edir. Şahbuz rayonunda Şada [5, s. 138], Ordubadda Vənənd, Şərurdakı Qarxun toponimləri hun, xəzər, bolqar sərkərdələrinin adı ilə bağlıdır. Lakin sasanilər müəyyən müddət yerli əhalini tabe etsə də onlar müstəqilliklərini qorumuş, sasanilər isə onlarla hesablaşmalı olmuşlar. Təsadüfi deyil ki, sasanilər Dərbənd keçidini qorumaq üçün Sünik ordusundan istifadə etmişdir [34, s. 96].

Cənubi Qafqaz hakimlərinin İranın paytaxtında keçirilən hərbi keçid ilə bağlı Musa Kalankaytuklu maraqlı məlumat verir. Bu məlumata görə hərbi mərasimdə alban və erməni sərkərdələri ilə bərabər Sünik sərkərdəsi də iştirak etmişdir. Daha sonra keçidə digər sərkərdələrdən daha tez qatılan Alban hökmdarı Cavanşirə göstərilən ehtiramdan bəhs edilir [25, s.117]

Mənbələrin məlumatları erkən orta əsrlərdə Naxçıvanın Cənubi Qafqazın sosial-siyasi həyatında mühüm rol oynadığını göstərir. Naxçıvan şəhəri sasanilərin Cənubi Qafqazda əsas dayaq məntəqələrindən biri olmuşdur. Naxçıvanın rolu o qədər mühüm olmuşdur ki, müəyyən dövrlərdə Sasani mərzbanlarının iqamətgahı Dvindən Naxçıvana köçürülmüşdür [99, s.15].

VII əsrin əvvəlində Naxçıvan yenidən Sasani-Bizans müharibələrinin meydanına çevrilir. Bizans sasanilərin tərkibində olan Naxçıvana bir neçə dəfə hücum edərək şəhəri mühasirəyə almışdılar. Lakin II Xosrov Pərvizin göndərdiyi ordu şəhəri mühasirədən azad edir [35, s.33; 102, s. 268-269]. Müharibənin gedişində Bizans hökmdarı İraklinin xeyirinə dəyişiklik yarandıqdan sonra II Xosrov İrakli üçün əlverişli müqavilə bağlamaqdan imtina edir. O, 625-ci ildə 120 min nəfərlik qoşunla Naxçıvana hücum edir və şəhəri dağıdır [96. s. 107]. Naxçıvanı işğal etdikdən sonra İrakli Arazı keçir və Cənubi Azərbaycanın paytaxtı Qazaka şəhərini tutur. Atəşpərəstlərin bu şəhərdəki baş məbədi bizanslılar tərəfindən dağıdıldı [10, s. 44-45]. İrakli çoxlu əsir və qənimətlə qışlamaq üçün Arana getdi. Bunun səbəbi Bizansın xəzərlərlə müttəfiq olması idi.

Bizans işğalı uzun sürmədi. Bir müddətdən sonra sasanilər Naxçıvanı yenidən ələ keçirdilər. Rəvayətə görə Sasani şahı III Yezdəgird Naxçıvan qalasında bərpa və təmir işləri aparmışdır [35, s.33]. Buna görə qala bir müddət “Yezidabad”

adlandırılmışdır. Ümumiyyətlə, Sasanilər Naxçıvan ərazisində olan bir sıra yaşayış məntəqələrində bərpa işləri aparmışdılar. Lakin bəzi mənbələrin bu qalaların Sasanilər tərəfindən inşa olunması ilə bağlı məlumatları həqiqətə uyğun deyil.

Naxçıvan strateji cəhətdən əlverişli mövqedə yerləşdiyindən burada sasanilərə məxsus zərbxana olmuşdur. Bu həm də Naxçıvanın mühüm sənətkarlıq və ticarət mərkəzi olması ilə bağlı idi. Bu zərbxana Azərbaycanın ən qədim zərbxanalarından biridir [35, s.32]. Y.A.Paxomov müəyyən etmişdir ki, üzərində "naxç" işarəsi olan sikkələr məhz Naxçıvanda zərb olunmuşdur [100, s. 17-32; 99, s. 46]. Digər zərbxanalara nisbətən daha böyük olan Naxçıvan zərbxanası ərəb istilasınadək fəaliyyət göstərmişdir [99, s. 34]. Naxçıvan zərbxanasında ilk sikkə 533-cü ildə Sasani şahı I Xosrovun adından, son sikkə isə 638-ci ildə III Yezdəgirdin adından kəsilmişdir. Sikkələr IV Hörmüzd [579-590], VI Bəhram [590-591], III Yezdəgird [632-651] və digər Sasani şahlarının adından kəsilmişdir [101, s. 114]. Sasani şahların adından kəsilən draxmalar yüksək əyarlı gümüşdən idi. Sübhəsiz ki, bunun səbəblərindən biri də Şərur rayonunda gümüşlə zəngin sink-qurğuşun yatağının olması idi.

Bu dövrdə Naxçıvan "dünyanın ən gözəl və məşhur şəhərlərindən" biri idi [104, s.113]. Naxçıvan Şərq ölkələrini Cənubi Qafqaz və Avropa ilə birləşdirən ticarət yollarının mərkəzində yerləşirdi və Şərqlə Qərb arasında körpü rolunu oynayırdı. Araşdırmalar Naxçıvanın hələ qədim dövrdən Şərq ölkələri ilə münasibətdə mühüm rol oynadığını, bu şəhərin Araz boyunca keçən qədim ticarət yolu üzərində mühüm məntəqə olduğunu təsdiq edir. Şərqi Qərblə birləşdirən qədim İpək Yolu da Naxçıvandan keçmişdir [9, s. 4, 58, 84]. Bəzi mənbələrin məlumatına görə bu dövrdə Naxçıvanda 30 minə qədər yaşayış evi və 150 min əhali olmuşdur [35, s.32].

Ərəblərin yürüşü ərəfəsində Naxçıvan Oğuz eli, türk torpağı idi. Naxçıvanda oğuzlarla bağlı çox sayda oykonimlər vardır. "Kitabi-Dədə Qorqud" dastanında xatırlanan Bəkdüz, Əyrək, Xələc və onların tirələrinə aid oykonimlər oğuz kökənlidir [6, s. 76-80]. Bu dövrdə artıq Azərbaycanda məskunlaşan türkdilli tayfaların vahid etnik birliyi formalaşmışdı. Bu baxımdan Müaviyənin Übeyd ibn Şəriyyə ilə söhbətləri diqqətçəkicidir. Müaviyə Übeyddən Azərbaycan haqqında məlumat istədikdə o belə cavab vermişdi: "Ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri ilə qarışmış və təkmilləşmişlər [3, s.56].

## 5. İslamaqədərki dövrdə Naxçıvan və çevrəsində etnik-mədəni münasibətlər

Naxçıvan tarixinin önəmli məqamlardan biri İslamaqədərki dövrdə, xüsusən islamın yayıldığı ilk illərdə bölgə əhalisinin etnik və dini kimliyi məsələsidir. Problemi aktuallaşdıran əsas şərtlərdən biri digər məsələlərdə olduğu kimi, bir sıra erməni araşdırıcılarının və onların havadarlarının tarixi Naxçıvan əraziləri ilə bağlı

əsassız uydurmalardır. Guya islamdan öncə adı çəkilən ərazilərin əhalisi erməni kökənli olmuş, onların böyük bir hissəsi islamlaşma ilə dinlərini dəyişmiş və sonra türkləşmişlər. Həmin dövrdə Naxçıvan və çevrəsində, qədim Albaniya ərazisində müəyyən etnik-mədəni proses baş vermişdir. Bölgənin xristian dinində və digər inanclarında olan əhalisinin əsas hissəsi islamı qəbul etsə də, bir qismi islam dininin kitab əhlinə tətbiq olunan güzəştindən istifadə edərək cizyə vergisi ödəməklə xristian dinində qaldılar. Beləliklə, əhalisi əsasən türklərdən ibarət olan Qərbi Azərbaycan, dini cəhətdən iki hissəyə-müsəlmanlara və xristianlara ayrıldı. Zaman keçdikcə xristian türklərin bir hissəsi erməniləşdi. Bunu əldə olan bir sıra tarixi mənbələr, ermənilərin soy adları, məişət münasibətləri, qədim inamlar sistemi, onların əksəriyyətinin ata-baba dillərini-türk dili bilmələri, yaşadıqları ərazilərin toponimikası və bu qəbildən olan çoxsaylı dəlillər də sübut edir.

Ermənilər indi dünyanın müxtəlif ölkələrində əsassız olaraq Naxçıvanı tarixi erməni torpağı kimi təbliğ etməkdədirlər. Əgər əvvəllər bu problemlə, əsasən, erməni və bəzi rus alimləri məşğul olurdularsa, hazırda dünyanın bir sıra araşdırıcılarını da bu işə qoşmuşlar. Bu baxımdan son illərdə nəşr edilmiş iki kitab xüsusi ilə diqqətimizi cəlb etmişdir. Bunlar ingilis alimləri Devid Rol və Devid Lenqin kitablarıdır. Devid Rolun kitabı rus dilinə çevrilərək 2002-ci ildə, Moskvanın “Эксмо” nəşriyyatında çap edilmişdir [90]. Devid Lenqin kitabı isə 2004-cü ildə Moskvadakı “Центрполиграф” nəşriyyatı tərəfindən rus dilində buraxılmışdır [91].

Hər iki kitabda başlıca məqsəd ermənilərin indi yaşadıqları və özlərinin “Böyük Ermənistan”, “Tarixi Ermənistan” adlandırdıqları ərazilərin ilkin sakinləri olduqlarını sübut etməkdir. Onlar “sübut etməyə” çalışırlar ki, guya islamaqədərki dövrdə və ondan sonrakı ilk illərdə Naxçıvan Ermənistanın tərkibində olmuş, əhalisi isə ermənilərdən ibarət imiş. Xilafətin güclənməsi ilə onların əksəriyyəti islamlaşmış və sonrakı mərhələdə türklər tərəfindən assimilyasiya olunmuşlar. Qeyd edək ki, bu cür elmdən kənar iddialara Azərbaycanın tanınmış şərqşünas tarixçisi Nailə Vəlixanlı tərəfindən [79, s.5-24] elmi cavab verilmişdir. Eyni zamanda Naxçıvanın tarixən Azərbaycana bağlılığı, buradakı əhalinin isə indiki Azərbaycan türklərinin ulu babaları olduqları digər mənbələr əsasında sübut edilmişdir.

Siyasət elmləri doktoru Aleksandır Svarantsın “Noev kovçek” qəzetinin 2009-cu il yanvar nömrəsində nəşr edilmiş “Нахичевань на стыке трех цивилизаций” məqaləsində bir sıra məsələlərlə yanaşı, iddia edilir ki, Naxçıvandakı əhali azərbaycanlı deyil, onlar yerli türklərin, iranlıların və kürdlərin assimilyasiya edilməsi nəticəsində azərbaycanlı adlanırlar və onların Azərbaycanla heç bir soy əlaqəsi yoxdur. Guya buranın yerli əhalisi Ermənstana birləşməklə özünün etnik kimliyini, mədəniyyətini bərpa edə bilər və firavan yaşayar. Sanki onun Azərbaycanda yaşayan Azərbaycan türklərinin azərbaycanlı adlanmasından xəbəri yoxdur. Belə ağ yalanlar, iftiralar bütün məqalə boyu davam edir, müəllif erməniləri Naxçı-

van uğrunda mübarizəyə, hətta müharibəyə çağırır və sərsəmcəsinə yazır ki, bu məsələdə yerli əhali bizi müdafiə edəcəkdir. Onu da qeyd edək ki, böyük tirajla yayılan bu qəzetin demək olar ki, hər nömrəsində bu cür uydurma müzakirələr açılır. Erməni-rus müəllifləri ilə yanaşı, bəzi qərb müəlliflərinin əsərlərində də belə cəhdlər yer almaqdadır. Heç bir elmi arqument və tarixi mənbəyə istinad olunmayan bu nəşrlərdə iddia olunur ki, guya dünya tufanından tutmuş xristianlaşmaya qədər və ondan sonrakı dövrlərdə bölgənin aborigen əhalisi ermənilər olmuşdur. Məsələ o dərəcədə "erməniləşdirilir" ki, bu ərazilərin əhalisinin mənşəcə erməni olduqları, islamlaşma ilə əlaqədar dinlərini və dillərini dəyişdirdikləri qeyd olunur. Ermənilər tarixdə tanındıqları dövrdən günümüzə qədər hələ də türk soylu adlar daşıdıqlarının fərqinə varmırlar. Onlarda türk mənşəli soy adları bu gün də işlənir: Köçəri-Köçəryan, Ağabəy-Aqanbekyan, Dəmirçi-Dəmirçiyan, Eyvaz-Eyvaziyan, Ağa-Ağayan, Bala-Balayan. Diqqət yetirilsə, aydın olar ki, qədim erməni tarixçisi adlandırılanların böyük əksəriyyətinin "yan" sonluqlu soyadı ilə əlaqəsi yoxdur. Maraqlıdır ki, onların əsərlərindən istifadə edən və ya həmin əsərləri müasir erməni, rus dilinə çevirənlərin əksəriyyəti əsərlərin orijinallarını vermirlər. Yəni, məsələni istədikləri kimi şərh edirlər. Lakin bu əsərlərin böyük əksəriyyəti nisbətən reallığa yaxın vəziyyətdə Avropanın bir sıra ölkələrində, xüsusən, Fransada fransız dilinə çevrilərək nəşr edilmişdir. Türk araşdırıcılarının qarşılıqlı tutuşdurmaları erməni müəlliflərinin rus və müasir erməni dillərinə tərcümə edilmiş əsərlərin orijinallarından xeyli fərqləndiyini göstərir. Yəni, Avropa dillərinə çevirmələrin müəyyən qismində orijinala yaxınlıq nisbətən qorunub saxlanmışdır. Buna görə də, baş verən prosesləri daha dəqiq öyrənmək üçün qədim erməni və digər xalqların dilində yazılmış əsərlərin orijinalından və ya buna yaxın tərcümələrdən istifadə edilməlidir. Ancaq bu, olduqca çətin məsələdir. Çünki onların bir çoxunun əsli ermənilər tərəfindən gizlədilir. XX əsrin ortalarından başlayaraq dünyanın bir sıra ölkələrində problemə baxışda dəyişikliklər baş vermişdir. Bu baxımdan turk alimlərindən M.F.Kırzıoğlunun, Abdürrəhman Kiçiyin və digər müəlliflərin əsərləri diqqəti cəlb edir. Ümumiyyətlə, Türkiyədə son dövrlərdə bu istiqamətdə geniş araşdırmalar aparılmaqdadır. Həmin tədqiqatların əksəriyyətində təkcə islamaqədərki dönəmdə deyil, hətta xristianlaşmaya qədər və xristianlaşma zamanı Ermənistan adlanan bölgənin əsas aparıcı etnosunun türk boyları olduğu, "Ermənistan" termininin isə türkcə "Yuxarı ellər" anlamında işləndiyi çoxsaylı mənbələr əsasında sübut edilir. Sonrakı dövrlərdə köçürülüb gətirilmə yolu ilə məskunlaşan haylara gəlincə, bütün tarixi mənbələr onların Anadoluya və indi yayıldıqları bölgələrə gəlmə olduqlarını təsdiq edir. Bunun üçün "Народы Кавказа" [98, s.443], "Всемирная история" [82, s.139, 157] və onlarla digər mənbələrə baxmaq kifayətdir. Tarixi mənbələr sübut edir ki, qarışıq soya malik haylar Frakiyadan və Balkanlardan gəlmiş və zaman keçdikcə kilsənin təsiri altında erməniləşən, lakin soy adını, məişət münasibətlərini, dualarında və öz aralarında ünsüyyət vasitəsi olan türk dilini qoruyub

saxlayan xristianlaşmış türklərlə qarışmışlar. Onların əksəriyyəti türk dilini gözəl bilirdilər və hələ də unutmamışdılar. Bu, 1828-ci ildə və ondan sonrakı dövrlərdə ermənilərin indiki əraziyə köçürülməsinə qədər, hətta ondan sonrakı dövrlərdə də belə idi. Tarixi həqiqət belədir. İslamlaşmaya qədər bu coğrafiyada yaşayanların erməni olduqlarını iddia edənlər, nədən bunlara, on minlərlə yer adlarına, bəzən insan ayağı dəyə bilməyən dağa, dərəyə verilmiş türk mənşəli sözlərə, Ermənistan adlandırılan indiki ərazidəki toponimlərə diqqət yetirmirlər? 1828-ci ildə rus işğalından sonra nə qədər dəyişdirilsə də indiki Ermənistan ərazisindəki türk yer adlarını aradan qaldıra bilmirlər. İstər-istəməz düşünməli olursan, əgər insanlar islamlaşma ilə dəyişiblərsə, nədən bu bölgənin təbiəti ilə, ətraf aləmlə, flora və faunası ilə bağlı adların hamısı türkcədir? Cavab aydındır, çünki indi Ermənistan adlanan bölgə də daxil olmaqla, tarixi Azərbaycan ərazisində yaşayanlar qədim zamanlardan, xalqın dili ilə desək, Nuh əyyamından türklərdir. İslamlaşma dövründə də ərazilərin əhalisi türklər idi. Ərəb orduları Azərbaycana gələrkən burada türklərlə qarşılaşmışlar, onlarla döyüşmüşlər. VIII-IX əsrin əvvəllərində yaşamış ərəb tarixçisi Əbu Məhəmməd Əbdülməlik ibn Hişam bu məsələdən bəhs edərək "Kitabültican fi mülk Himyər" əsərində yazır ki, xəlifə Müaviyə Azərbaycana yürüş etmiş sərkərdə Übeydə ibn Şəriyə əl-Cürumidən Azərbaycan haqqında soruşduqda o cavab verir ki, ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri ilə qarışmış və təkmilləşmişlər [3, s.68; 85, s.19].

Əl-Kufi yazır ki, xəlifə Müaviyə Ubeyd ibn Şəriyədən soruşur : "Allah xatirinə, söylə bizə, sən Azərbaycan haqqında nə öyrəndin? Ubeyd ibn Şəriyə dedi: "Azərbaycan-bu türk torpağıdır. Onlar qədimlərdən orada cəmləşmiş (formalaşmış-Q.Q), bir-biri ilə qaynayıb qarışmış, inkişaf etmiş və güclənmişlər." Əl-Kufi "Kitabi al-Futux" əsərində bu fikrinə davam edərək yazır ki, türklər Azərbaycanda VII əsrdə, yəni ərəblər bura gələndə və ondan da çox əvvəllər burada sakin idilər.

Əsərdə verilmiş "təkmilləşmişlər" ifadəsi Azərbaycan türklərinin vahid etnos kimi formalaşmaqla özünəməxsus etnik mədəniyyətə, dövlət qurumuna malik olduqlarını göstərir. Tanınmış türk tarixcisi Əhməd Zəki Vəldi Toğan "Azərbaycan" əsərində çoxsaylı mənbələrə söykənərək ərəblərin yürüşünə qədər Azərbaycanda aparıcı etnosun türk toplumları olduğunu geniş şəkildə şərh etmişdir [15, s.26-35]. Tarixi mənbələrdə göstərildiyi kimi islamlaşmaya qədər Naxçıvan və çevrəsinin əhalisi necə vardısa, eləcə də qalmış, din dəyişilsə də, etnik kimlik dəyişilməmiş, assimilasiya olunmamışdır. Tarixi qaynaqlar da göstərir ki, Azərbaycan türkləri buralarda ermənilər yox ikən var idilər və bu bölgəyə xristianlığı da türklər gətirmiş, özləri qəbul etməklə yanaşı, digər etnik qruplar arasında da yaymışlar. Bu, belə olmalı idi. Çünki tarixən Tək Tanrıçı olmuş türklər dövrünün mütərəqqi və səmavi dini olan xristianlıqdan kənarda qala bilməzdilər.

Unudulmamalıdır ki, söhbət islamaqədərki dövrdən gedir. Bütün bu məsələlərə aydınlıq gətirmək üçün bəzi məqamlara diqqət yönəltməyi məqsə-

dəuyğun hesab edirik. Bir sıra Azərbaycan və digər ölkələrin alimlərinin də sübut etdiyi kimi, bu ərazilərin ilkin sakinləri indiki Azərbaycan türklərinin ulu babaları-oğuz, qıpçaq, kuman, bulqar, kəngər, hun və s. türkləridir. Hansı dində olmalarına baxmayaraq onlar qədim türklər idi, islamdan öncəki Tək Tanrıçı, xristian-qriqoryan türklər. Bəlli olduğu kimi, xəzər türklərinin müəyyən hissəsi yəhudi dinində idi. Yəni türklər bu regionda yayılmış hər üç səmavi dinin, həmçinin əski inanclar sisteminin daşıyıcısı idilər. İslamlaşmaya qədər onlar Cənubi Qafqazda, o cümlədən indiki Ermənistan deyilən ərazidə ilkin sakinlər idilər. Vaxtında xristian-qıpcaq mədəniyyətinə sahib çıxılmaması saxtakar erməni araşdırıcılarının əl-qolunu açmışdır. “Kitabi Dədə Qorqud”da türklükləri açıq-aşkar bəlli olan Qıpçaq Məlik, Şöklü Məlik, Qara Təkur, Qara Aslan Məlik və digərlərinin Oğuz elləri ilə mübarizə apardıqları önə çəkilərək onların soyuna lazımi maraq göstərilməmişdir. Məgər eyni soydan və dindən olan türklər bir-biri ilə döyüşməmişlərmi? Çox təəssüf ki, zamanında müsəlman türkçülüyümüzə aludəlik islamaqədərki inamlarımıza, dinimizə, xüsusən, xristianlığa diqqəti gündəlikdən çıxarmışdır. Ermənilər isə bu məsələdən məharətlə istifadə edib, qədim xristian-qıpcaq, daha dəqiq desək Qriqoryan qıpcaq türklərinə məxsus nə varsa öz adlarına çıxmışlar. O cümlədən tarixin müəyyən mərhələsində Albaniya tayfa birliyini və dövlətini. Bununla da tarixi mənbələr saxtalaşdırılmışdır. Qriqoryanlıqla bağlı olaraq Alban, sonralar erməni əlifbası ilə qıpcaq türkcəsində yazılmış əsərlərin orijinalı yox edilmiş, onların saxta tərcümələri yayılmışdır. Bu məsələ ilə bağlı türk tədqiqatçısı M.Sadi Koçaş 1990-cı ildə İstanbulda nəşr edilmiş “Tarixdə ermənilər və türk-erməni münasibətləri” kitabında yazır ki, erməni tarixi haqqında məlumat verən qədim əsərlərin əksəriyyəti erməni olmayan başqa millətlər tərəfindən yunan və başqa dillərdə yazılmış, bir-birini inkar edən yazılardır. Bu əsərlərin çoxunda sənədlərə deyil, mifoloji hekayələrə istinad edilir [65, s.7].

Bir vaxtlar Naxçıvandakı Keçəl dağda, Qanlı gölün ətrafında araşdırmalar aparılarkən Böyük Qəbirli, Kiçik Qəbirli, Matəm ağacı adlanan ərazilərdə türk soylarına məxsus yüzlərlə qəbirlər, daş qoç fiqurları, sənduqələr və digər qəbirüstü abidələr aşkara çıxarılmışdı. Tanınmış arxeoloq, AMEA-nın müxbir üzvü V.Əliyev burada üzərində ərəb əlifbası ilə “Bulqar Bahadır” yazılan başdaşının estampını götürmüşdü. Həmin kitabənin prof. F.Səfərli tərəfindən bir sıra tarixi mənbələrlə qarşılıqlı araşdırılması bulqarların Azərbaycan ərazisində, o cümlədən bu bölgədə miladdan öncə yaşadıqlarını sübut edir [43]. “Kitabi Dədə Qorqud”dun “Qazılıq qoca oğlu Yegnək” boyunda Yegnəkin yuxusunda bolqar ər gördüyündən və onu vurmaq istəyərkən dayısı Bəkdüz Əmən olduğunu söylədiyindən söhbət gedir [27, s.112]. Ümumiyyətlə, bulqar/bolqar etnonimi, onların türk mənşəli olması, e.ə. Azərbaycan ərazisində məskunlaşması, yerli türk toplumları ilə qaynayıb qarışması ilə bağlı tarixi mənbələrdə geniş məlumatlar vardır. Onlar bir zamanlar Qərbi Azərbaycanın böyük bir hissəsində hakim olmuş Vənənd Çarlığının tərkibinə daxil idilər.

Burada bir məsələyə xüsusilə toxunmaq yerinə düşər. Bir sıra müəlliflər qıpçağı Oğuzdan ayırırlar ki, bu, tam yalnış fikirdır. Araşdırmalar göstərir ki, qıpçaq adlanan qola ad verən Oğuz xaqandır. Qıpçaq sadəcə olaraq Oğuzlardan ayrılan ilk qollardan biridir. Əbülqazi Bahadır Xanın 1660-cı ildə cığatay türkcəsində yazılmış və dünyanın müxtəlif dillərinə tərcümə edilmiş "Şecere-i Terakime" əsərində bu ayrılma təqribən 5 min il bundan əvvələ aid edilir [55, s.8-10]. Tanınmış türk tarixçisi F.M.Kırzıoğlu bir neçə əsərində, xüsusən "Yukarı Kür ve Çoruk boylarında kıpçaklar" [58]; "Gence-Karabağ / Aran ve Şirvandan oluşan Kuzey Azerbaycanda islam fethi öncesi türklüyü tanıtan "Albanlar tarihi" (e.ə. IV-m.s. X yüz yıllar) üzerine" [59] əsərlərində bu məsələdən bəhs edərək yazır ki, sonrakı mərhələlərdə Dəşti Qıpçaq adlanan geniş bir ərazidə 3 min ilə qədər oturan qıpçaqlar cənub istiqamətində hərəkət edərək e.ə. VIII yüzillikdən yuxarı Kür, eradan əvvəl IV-II yüzilliklərdə Qərbi Azərbaycan, Doğu Anadolunun Qars, İğdır, Ərzurum yörələrinə yayılmış, tarixən bu ərazilərin ilkin sakinləri olan yerli türk etnosları ilə qaynayıb qarışmış, müxtəlif dövlət birliklərinin tərkibinə daxil olmuşlar. O cümlədən, onlar Albaniyanın xristianlıqdan əvvəl və xristianlıq dönəmində aparıcı etnosu idilər. F.M.Kırzıoğlu bir sıra qədim mənbələrə əsaslanaraq yazdığı "Dede Korkut Oğuznameleri" əsərində qıpçaq türklərinin Baqratidlər, Orbelilər hakimiyyətinin, həmçinin digər türklərlə birlikdə Arşakid / Arsaklı səltənətinin qurucuları olduqlarını bildirir [60, s.4-5,12-13].

Tarixdə özlərini xristianlığı ilk qəbul edən millət kimi göstərməyə çalışan ermənilər bu məsələdə də xristian türklərin, daha dəqiq desək, qriqoryan qıpçaqların mənəvi dəyərlərinə sahib çıxmağa çalışırlar. Bu işdə erməni kilsəsi xüsusi rol oynayır. Lakin əldə olan geniş tarixi məlumatlar Qriqorun mənşəcə Arsaq olduğunu sübüt edir. Murad Adcı "Европа, тюрки, Великая Степь" kitabında onun qıpçaq türkləri ilə doğma dildə danışaraq xristianlığın Qriqoryanlıq qolunu yaydığını göstərir [97, s.285-286]. Qriqoryan vənənd, qırçaq, bulqar türklərindən bəhs edən F.Kırzıoğlu onların yayıldığı və Armeniya adlanan ərazinin türkcədə "Yuxarı ellər" anlamına gəldiyini, Əziz Qriqorun, Vartan, Vardan adlı sərkərdələrin türklüyünü, erməni əlifbası adlanan əlifbanın yaradıcısı Əziz Mesropun türk soylu mamıkonlulardan (erməniləşdirilmiş variantı Mamikonyan) olduğunu çoxsaylı mənbələr əsasında sübut edir [58, s. 35-36, 211-213, 257.].

Ağqoyunlular tarixindən bəhs edən "Kitabi Diyarbekriyye"dəki məlumatlara əsaslanan F.Kırzıoğlu Ağqoyunluların nəsil şəcərəsinin Bayandır xana dayandığını, həmin nəslin İslamdan öncə Göyçə gölü ətrafında və Ələyəz dağı yaylalarında yaşayaraq sonradan xristianlaşdıqlarını göstərir.

1471-ci ildə Əbubəkr-i Tihrani tərəfindən qələmə alınmış və 2001-ci ildə Ankarada türk dilində nəşr edilmiş "Kitabi Diyarbekriyye" əsərində yazılır ki, Bayandır xanın övladından Ağqoyunlu hökmdarı Uzun Həsənin 29-cu arxa babası İlək Bəy Hz. İsa dinində xristian idi. Sonralar onun yurdunda (Naxçıvanda) olan

Əlincə qalası qıpçaqların (qıpçaq türklərinin-Q.Q.) əlinə keçmişdir [54, s.213]. Əbubəkr-i Tihrani yazır ki, Uzun Həsənin 23-cü babası Sunqur bəy nəbilərin sonuncusu, peyğəmbərlərin əfəndisi Məhəmməd bin. Abdullah bin. Əbdül Mütəllib (Allahın salamı onun və ailəsinin üzərinə olsun) zamanında yaşamışdır. Tovhid dinində idi. Amma İslam dövləti gəlib onlara yetişməmişdi. Daima kafirlərlə savaşıb mücadilə edərdi. Çox sayda boya, əskərə (haşəm) və qəbiləyə sahib idi. Türküstanda 70 il əmirlik etdi. Oradan Qıpçaq çölünə gəldi, 20 il oranın yaylaq və qışlaqlarında dolaşdı. Ondan sonra Ələyəz və Göyçə Dənizi arasında yerləşdi. O, sərhəd boyunda kafərlərlə savaşdı [54, s.26]. Buradakı "kafərlər" ifadəsi bütpərəst və atəşpərəst kəsimlərə aid edilməlidir. Çünki müəllif Tovhid dini deyərkən xristianlığı nəzərdə tutur. Açıq yazılıb ki, hələ İslam bu ərazilərdə yayılmamışdı. Deməli, İslamdan əvvəl Naxçıvan da daxil olmaqla bu coğrafiyada aparıcı etnos türklər olmuşdur. Eyni fikirlər "Kitabi-Dədə Qorqud"da daha aydın şəkildə verilmişdir.

Ə.Tihrani Uzun Həsənin 52-ci babası Bayandır xandan danışarkən qeyd edir ki, o, padşahlığı sırasında İran, Turan, Misir, Şam, Firənk, Xata və Dəşdi Qıpçaq məmləkətlərini tamam aldı. Kiçik qardaşı Becankı Sayram şəhərinə hakim təyin edib, özü Qarabağ qışlaqlarına və Göyçə dənizi yaylaqlarına yerləşdi [54, s. 30]. Müəllifin verdiyi soy şəcərəsindən bəlli olur ki, Bayındır xan Nuh peyğəmbərin oğlu Yafəsin 6-cı nəvəsidir. Deməli, tarixin ilk çağlarından türklər Qarabağ, Göyçə gölü, Naxçıvan hüdudlarının əzəli sakinləridirlər. Onlar bu bölgələrdə xristianlıqdan min illər öncə yaşamışlar. Tarixi proseslərə diqqət verilsə, sonrakı dövrlərdə də Tək Tanrıçı olaraq xristianlığı da ilk qəbul etmiş və yaymışlar. Bütün bunlara əsaslanaraq görkəmli türk tarixçisi F.M.Kırzıoğlu yazır: "Kiçik qardaşı Baçanakı Doğu ölkələrində idarəçi olaraq Sayram (Çimkent/ Espiçap) şəhərində hakim qoyan Bayındır xan ordusu ilə Qarabağ qışlaqlarına və Göyçə dəniz (Göyçə gölü) yaylaqlarına gəldi". Burada "Ulu Dərnək toplayıb, Böyük toy" verdikdən və malını böldükdən sonra öz əcəli ilə öldü. Buradakı Bayındır xanın övladlarından Uzun Həsənin 29-cu babası İlək xan ("Kitabi Diyarbekiriyye"də 28-ci – Q.Q.). Hz. İsa dinində (Qriqoryan xristian) idi. Bunun üç göbək torunu və Uzun Həsənin 25-cı arxa babası Sonqur bəy Həzrəti Məhəmmədin İslamı yaydığı çağda Ələngəz dağı ilə Göyçə gölü bölgəsində yaşayırdı. Onun yurdlarından olan (Naxçıvandakı) Əlincə qalası Xəlifə Hadi və Harunun zamanlarında (785-786-cı illərdə) Buluncan idarəsində gələn xəzərlərdən ibarət qıpçaqların əlinə keçmişdi. Uzun Həsənin 5-ci arxa babası Pəhləvan bəy (əski atalar mülkündən) Əlincə qalasına hakim ikən Çingizli ordusunun Başbuğunu (1239) məğlub etmişdir [58, s. 213].

Tarixi varislik məsələlərini incələdikcə türklərin Ələyəz dərəsi-Dərələyəz, Gözəldərə, Göyçə gölü çevrəsi, ümumiyyətlə, Qərbi Arpaçayın hüdudlarından tutmuş Naxçıvan da daxil olmaqla bütün Qərbi Azərbaycanın ən qədim sakinləri olduqları ortaya çıxır. Burada bir türk idarəçiliyi digərini əvəz etmiş, zaman- zaman

şərqdən gələn yeni türklərlə qaynayıb qarışmışlar. Oğuz xaqanın övladlarının 24 boyundan formalaşan həmin ictimai-siyasi, hərbi qurumlar sonrakı inkişaf mərhələlərində müstəqil dövlətlər qurmaqla bəzən öz aralarında müharibə edirdilər. Bu müharibələr, əsasən, siyasi hakimiyyət və ərazi uğrunda olsa da, bir çox halda dini zəmində baş vermişdir. Xüsusən, xristianlıq dönəmində sasanilərlə baş verən müharibələrdə türklərin xristian ordularında fəal iştirakları bunu sübut edir.

Tarixi mənbələrə söykənərək F.Kırzıoğlu yazır ki, Vanant-Bulqar boyları xristianların atəşpərəst iranlılarla apardıqları döyüşlərdə fəal iştirak etmişlər. 451- ci ildə Maku yaxınlığında baş vermiş Roma- İran döyüşündə 66 minlik xristian ordusunun dörd qolundan üçüncüsünə igid sərkərdə Vanantlı Tatul rəhbərlik edirdi [58, s.36]. Müəllif əsərində Ani-Qars çevrəsindən başlamış Qərbi Azərbaycanın böyük bir hissəsini əhatə edən kıpçaq, vənənd, kuman və digər türk toplumlarının qurduqları Vənənd çarlığından, onun bölgədə oynadığı roldan bəhs edir. Bütün bunlar regionda islamlaşmadan çox öncə baş vermiş hadisələrdir ki, onun da əsasında türklər dayanır. Təbii ki, hadisələr İslamdan əvvəl, xristianlıq dönəmində olduğundan ərazidəki türklər də Tək Tanrıçılıq dini olan xristian dinində idilər. Tarixi mənbələrə əsaslanaraq demək olar ki, ərazidəki türklər IV əsrin birinci yarısından başlayaraq xristianlığı qəbul etmiş və yaymışlar.

Ümumiyyətlə, bölgənin xristianlaşması, xristianlaşma ilə əlaqəli olaraq sonrakı mərhələlərdə türk kökənli oğuz, qıpçaq, kuman, bulqar və digər toplumların erməniləşməsi məsələsi tarixşünaslığın qarşısında duran ciddi problemlərdəndir. Məsələnin gündəmə gətirilməsinin başlıca səbəblərindən biri də bəzi erməni tarixçilərinin guya buralardakı əhalinin xristian erməni olduğunu, islamlaşmadan sonra türkləşdiklərini iddia etmələridir. Yuxarıda bir sıra mənbələr əsasında, belə iddiaların olmadığı, ermənilərin bir etnos kimi bölgədə görünmədikləri dövrdə türklərin burada yaşadıqlarını, sonrakı mərhələdə xristianlığı qəbul edib yaydıqlarını göstərdik. Dinlə bağlı assimilyasiya olunmağa gəlincə, buna ermənilər deyil, xristianlıqla əlaqəli olaraq türklər məruz qalmışlar. Bu məsələdən bəhs edərək tanınmış türk tarixçisi, görkəmli türkoloq A.Zeki Velidi Toğan "Umumi Türk tarihine giriş" əsərində yazır ki, bir sıra tarixi mənbələr erməni kralı adlanan Tiridadın və Ermənistanı xristianlaşdıran Qreqorun partlı, partların Arsaklı-Arşaklı, Arşaklıların da türk olduqlarını qəbul etməkdədirlər [50, s.46-47].

Ümumiyyətlə, bu gün ermənilərin "Tarixi Ermənistan" adlandırdıqları ərazilərdə 428- ci ilə qədərki mənbələrdə qriqoryan erməni adı yoxdur. Yaşar Kalafat tarixi qaynaqlara soykənərək, "Kuzey Azerbaycan-Doğu Anadolu və Kuzey İrakta eski Türk dini izleri" əsərində yazır ki, bu gün özlərini erməni adlandıranların böyük bir qismi vaxtı ilə qriqoryanlaşmış türklərdir [57, s.35]. Bu məsələ Əbdürrəhman Kiçiyin çoxsaylı tarixi mənbələrə, xüsusən fransız, ingilis, italyan dillərində nəşr edilmiş əsərlərə, həmçinin erməni dilindən tərcümə edilmiş mənbələrə əsaslanaraq yazdığı "Ermeni kilisesi ve türkler" əsərində daha ətraflı

şəkildə verilmiş [61], əsərin V bölümü bu məsələyə həsr edilmişdir. Müəllif tutarlı faktlarla qriqoryan kilsəsinin türklər tərəfindən qurulduğunu, indi özlərini erməni adlandıranların böyük bir hissəsinin xristian türklər olduğunu sübüt edir [61, s.223-230]. Problemin geostrateji və siyasi mahiyyəti ilə əlaqəli Aleksandır Duqinin maraqlı fikirləri vardır. [53,s.78]. Bu məsələ ilə əlaqəli mühacirətdə yaşamış Azərbaycan tarixçisi Mirzə Balanın 1951-ci ildə Ankarada nəşr edilmiş "Azerbaycan tarihinde Türk Albaniya" əsərində dəyərli məlumatlar vardır. Əsərin 20-22-ci səhifələrində türklərin erməniləşməsi haqqında yazılır ki, Ermənistan adlanan ərazidə əhalinin əksəriyyətini erməniləşmiş türklər təşkil edir [63]. M.Eroz 1983-cü ildə Ankarada nəşr edilmiş "Hıristiyanlaşan türkler" əsərində Doğu Anadoluda bulqar, kuman, qıpçaq, avar, uz, peceneq türklərinin böyük bir hissəsinin erməni kilsəsinə bağlı olduqlarını, onların türkcə danışdıqlarını, incillərinin türkcə olduğunu və ibadətlərini, dualarını türk dilində etdiklərini yazır [57, s.43-44].

Bu məsələ ilə bağlı Azərbaycanda da geniş araşdırmalar aparılmaqdadır. Həmin araşdırmalarda ermənilərin xristianlıqdan siyasi məqsədlə istifadə etdikləri, qriqoryanlığın tarixən onlarla əlaqəli olmadığı, Əziz Qriqorun mənşəcə türklərlə bağlılığı elmi şəkildə əsaslandırılır. Bu baxımdan Emin Arifin 2006-cı ildə nəşr edilmiş "Erməni iddialarının siyasi mahiyyət" adlı əsəri diqqəti cəlb edir. Əsərin "Xristianlıq, Erməni kilsəsi və terror" adlanan ikinci fəslinin böyük bir hissəsi bu məsələyə həsr edilmişdir [4, s.40-61].

Müxtəlif dillərdə olan tarixi qaynaqların müqayisəli, tənqidi araşdırılması, mövzuya dair onlarla tədqiqat işlərinin öyrənilməsi, elmi süzgəcdən keçirilməsi nəticəsində ərsəyə gəlmiş bu əsərdə siyasi tarixə daha çox üstünlük verilmişdir. Bu təkcə ona görə deyil ki, alimlərimiz istər Naxçıvanın arxeoloji tədqiqi, istər mədəni həyatı və s. haqqında kifayət qədər yazmışlar. Bu, həmçinin, ona görədir ki, mədəniyyət tarixi ilə yanaşı, məhz siyasi tarixin daim izlənilməsi də Naxçıvan diyarının ümumazərbaycan tarixində tutduğu mövqeni daha da aydınlaşdırır, onun adını ta qədimdən başlayaraq "erməni şəhərləri" sırasında çəkən erməni tarixçilərinin və onların havadarlarının əsassız iddialarını alt-üst edir. Bu baxımdan AMEA-nın müxbir üzvü S.Babayevin araşdırmaları böyük əhəmiyyətə malikdir [12].

Qadir Qədirzadənin "Əshabi Kəhf: müqəddəslik, tarixilik, inamların genezisi"[28], "Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan" [29], "Naxçıvan: Nuh baba və Türk atadan gələn yol" [30], "İslamaqədərki dövrdə Naxçıvan və çevrəsində etnik-mədəni münasibətlər" [31] və digər əsərlərində problemdən geniş bəhs edilmişdir. Beləliklə, çoxsaylı mənbələrə əsaslanaraq demək olar ki, tarixin bütün mərhələlərində, xüsusən islamlaşmaya qədər Naxçıvanın və onun ətrafında olan bölgənin əhalisi türk soylarından ibarət olmuş, islamlaşma ilə əlaqəli olaraq ermənilərin türkləşməsi deyil, əksinə xristianlaşma ilə bağlı olaraq türklərin bir hissəsinin erməniləşməsi, assimilasiya olunması baş vermişdir.

## 6. Xilafət ordularının Naxçıvanı tutması

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan tarixinin mühüm məqamlarından biri, ərəblərin istilası və ondan sonrakı xilafət dönəmində burada baş vermiş hərbi-siyasi, sosial-iqtisadi, inzibati-ərazi münasibətlərinin öyrənilməsidir. Bu problem, onunla bağlı bir sıra məsələlər orta əsrlər dövrünə aid ərəb, fars və digər dillərdə nəşr olunmuş tarixi mənbələrdə, eyni zamanda sonrakı dönəmlərdə Avropanın, Rusiyanın və digər ölkələrin müəlliflərinin həmin məlumatlar əsasında hazırlanmış araşdırmalarında öz əksini tapmışdır. Mənbələrlə tanışlıq sübut edir ki, bir sıra ərəb müəllifləri hadisələri şərh edərkən müəyyən məsələlərdə, xüsusən, istila zamanı baş vermiş hadisələrin şərhində, ərəb üsul-idarəsinə qarşı narazılıqlarda ərəb təəsübkeşliyindən xilas ola bilməmişlər.

Burada diqqət yetiriləcək ən ciddi məqamlardan biri də ərəb istilasına qədər Cənubi Qafqazda, o cümlədən Azərbaycandakı durumu real şəkildə təqdim etməkdir. Daha dəqiq ifadə etsək, İran-Bizans, ərəb, bir çox halda erməni mövqeyindən yazılmış məlumatlara ciddi diqqət verilməlidir. Problemin vacibliyini, tarixi reallığın hər çürə baxışdan öndə olduğunu qeyd edərək tanınmış tarixçı Nailə Vəlixanlı Naxçıvanın bu dövrü ilə əlaqəli, çox dəyərli əsəri olan "Naxçıvan-ərəblərdən monqollaradək (VII – XII əsrlər)" kitabının ön sözündə xüsusi olaraq vurğulayır: "Tarix yazmaq obyektivlik, düzlük, diqqət tələb edir. Düşmən gözü qalmış torpaqlarımızın tarixini yazarkən, xüsusilə, diqqətli olmaq, emosiyadan, sözçülükdən uzaq, elmi dəlillərə, ilkin mənbələrə söykənən obyektiv materialla çıxış etmək vacibdir. Sözün əsl mənasında həqiqət lazımdır" [46, s.4] Əsərlə tanış olduqda müəllifin çoxsaylı mənbələr əsasında o dövrlə əlaqəli reallığı ortaya qoyduğunun şahidi oluruq. Kitabda tarixi məlumatlara, ayrı-ayrı müəlliflərin fikirlərinə yaradıcı və tənqidi yanaşılmaqla, tarixi həqiqətlər ortaya qoyulmuşdur. Onu da qeyd etməkdə fayda vardır ki, araşdırıcıların əksəriyyətinin dediyi kimi birbaşa hadisələrin baş verdiyi dövrdə qələmə alınmış məlumatlar çox azdır. Buna baxmayaraq N.Vəlixanlı qarşısına qoyduğu məqsədə nail olmuşdur. Materialların nəşrə hazırlanmasında N.Vəlixanlının digər araşdırmalarından, həmçinin dövrün gözəl bilicisi Ziya Bunyadovun əsərlərindən [10; 11], onun böyük müvəffəqiyyətlə rus və Azərbaycan dilinə etdiyi tərcümələrdən, Rauf Məmmədovun [35] və digər Azərbaycan alimlərinin araşdırmalarından, tanınmış rus alimləri V.V.Bartoldun [52; 71], A.İ.Kolesnikovun [93; 94], O.Q. Bolşakovun [75;76] və digərlərinin əsərlərindən faydalanmışıq.

VII əsrin əvvəllərində Ərəbistan yarımadasında bütün dünyada düşüncə tərzini, qüvvələr nisbətini dəyişdirəcək hadisələr baş verdi. Bu dövrdə Yaxın və Orta Şərqdə nüfuz dairəsi uğrunda Bizans imperiyası ilə Sasani imperiyası arasında gərgin mübarizə gedirdi. Qısa müddətdə Ərəbistan yarımadasında İslam ideologiyası əsasında meydana gələn dövlət yeni ideologiyanı və dünya baxışını digər

ərəb xalqları arasında yaymaqla qüvvətlənə bildi. VII əsrin əvvəllərində tarixi Azərbaycan ərazisinin də daxil olduğu Cənubi Qafqaz regionu Orta Şərqin çox hissəsi kimi Bizans imperiyası ilə İran Sasanilər dövlətinin tabeliyində və ya nüfuz dairəsində idi. Tarixin belə ziddiyyətli, imperiyaların nüfuz dairəsi uğrunda mübarizə apardığı dövrdə, köçəri həyat tərzi keçirən, cahiliyyət dövründə yaşayan Ərəbistanda tarixin axınını dəyişən, insanlığı haqqa, ədalətə dəvət edən, bütpərəstliyi aradan qaldırıb insanları tovit dininə-İslama dəvət edən ideologiya qısa müddətdə böyük bir ərazini əhatə etdi. 622-ci ildə bir qrup tərəfdarı ilə böyük basqılar üzündən Mədinəyə hicrət edən Məhəmməd peyğəmbər (s.ə.v.) on il sonra boyük qüvvə ilə Məkkəyə qayıtdı. Tarixə "Vida həcci" kimi düşən bu hadisə Ərəbistan yarımadasında, Yaxın Şərqdə, bütövlükdə dünyada yeni bir qüvvənin - Ərəb dövlətinin yaranmasına, az müddət ərzində İslam dininin qonşu dövlətlərdə, sonra isə dünyanın bir sıra ölkələrində yayılmasına səbəb oldu. Yeni yaranmış Ərəb xilafəti qonşu dövlətlərin, o cümlədən Bizans imperiyasının bir sıra torpaqlarını işğal etdi və Sasani imperiyasının varlığına son qoydu. Baş verən hadisələr digər xalqlarla yanaşı, tarixən Cənubi Qafqazın geniş bir coğrafiyasına yayılmış Azərbaycan türklərinin, burada yaşayan etnik qrupların həyatında əsaslı dəyişikliklərə səbəb oldu.

İslam dininin və Ərəb xilafətinin zəfər qazanması elə bir ərazidə baş vermişdir ki, Salih Surucun dediyi kimi, burada insan adına olan hər şey ayaqlar altına atılmış, dil və ədəbiyyat istisna olmaqla hər şey yolundan çıxmış, bütövlükdə insani sistem pozulmuşdur [66, s.121].

Daha çox köçəri həyatı yaşayan ərəblərin böyük əksəriyyəti inkarçı həyat sürür, onlar üçün bir düşüncə vardır-biz doğuluruq, yaşayırıq və ölürük, bizi öldürən zamandır. Digər bir toplum Allaha və axirət gününə inansa da, insandan peyğəmbər ola biləcəyini qəbul etmirdilər.

Əhalinin böyük hissəsi bütə tapınırdı. Bunlarla yanaşı, Hz. İbrahimin tovhid dininin izlərini qoruyanlar da var idi. Dini inancları ilə yanaşı ərəblərin sosial münasibətləri dözülməz bir vəziyyətdə idi. Zülm həddini aşmışdı, qadınlar, xüsusən cariyələr heç bir hüquqa malik deyildilər, onlarla istənilən kimi rəftar edilir, doğulan qız uşaqlar çox vaxt diri-diri basdırılırdı.

İslamaqədərki dövrdə ərəblərin siyasi və hərbi birlikləri yox idi, ayrı-ayrı tayfalar arasında düşmənçilik hökm sürürdü. Saymaqla bitməyəcək çatışmazlıqların mövcud olduğu və "cahiliyyət" adlanan bu dövrdə hər şeyə rəğmən ədəbiyyat, bəlağət inkişaf etmişdi.

İslamın Ərəbistan yarımadasından sonra yayıldığı ərazilərdə daha çox köçəri və yarımköçəri ərəblərdən hərbi qüvvə kimi istifadə edirdilər. Əvvəllər mövcud olmuş döyüş taktikasına görə döyüşlərdə qadınlar və uşaqlar da iştirak edir, yaralılara yardım göstərir, özlərinə aid olan işləri görürdülər. Lakin, ət-Təbəri yazır ki, İranın paytaxtı Ktesifona (Mədainə) hücum zamanı xəlifə Ömər tələb etmişdir ki, qadınlar və uşaqlar döyüşdə iştirak etməsinlər. Məlumatı şərh edən

A.İ.Kolesnikov bunu daha çox təbii-coğrafi şəraitlə, həmçinin ərəb ailələrinin kütləvi surətdə məhv edilməsinin qarşısını almaq məqsədi ilə həyata keçirildiyini yazır. Bizcə, burada digər bir önəmli cəhət də vardır-ərəb adətinə görə döyüşdə silahsız qadınlara və uşaqlara toxunulmurdu. Bəzi mənbələrə görə döyüşdə iştirak edən ərəb qadınları tanınmağından asılı olmayaraq bütün yaralılara yardım göstərirdilər. Artıq, qeyri-ərəblərlə (əcəmlərlə) döyüşlərdə buna əməl etmək mümkün deyildi. [94, s. 95]. Digər mühüm cəhət tanış olmayan ərazilərdə qadın və uşaqların kütləvi tələf olma təhlükəsi idi [94, s. 96 ].

Tarixi qaynaqlara söykənərək demək olar ki, ərəblərin Sasanilərə qarşı ilk yürüşlərində böyük müvəffəqiyyət qazanmaları onları daha da ruhlandırdı. Bu tarixə qədər Qafqazda və Yaxın Şərqdə Bizans imperiyası ilə nüfuz dairəsi uğrunda mübarizə aparan bir dövlət qısa müddətdə çökdü. Ət-Təbəriyə istinadən bu üstünlüklərindən bəhs edərək A.İ. Kolesnikov yazır ki, başlıca şərtlərdən biri hələ ilk hücumları zamanı, 632-ci ilin sonu və ya 633-cü ilin əvəllərində ərəb xilafətinin İran istiqamətinə yürüşə başladığı bir dövrdə sasani sarayında çəkişmələrinin qüvvətlənməsi, hakimiyyətə yenicə keçmiş 16 yaşlı III Yəzdigərdin təcrübəsizliyi, bir sıra ordu rəhbərlərinin onu qəbul etməməsi və ordu başçıları arasında ziddiyətlərin olması idi [94, s. 112].

Ərəblərin İran üzərinə ilk hücumları 632-ci ildə, Əbu-Bəkrin xəlifəliyi dönəmində baş vermişdir. Bu yürüşlərdən bəhs edərək N. Vəlixanlı yazır: “Ərəblərin ilkin hücumlarını dəf etməyə cəhd göstərən İran şahənşahı III Yəzdigərd ona tabe ölkə və vilayətlərin hakimlərinə müraciət edərək, köməkçi qoşun dəstələri göndərmələrini tələb etdi. Yerli hakim və ya qoşun başçılarının rəhbərlik etdiyi müxtəlif yerlərdən, o cümlədən, tarixi Azərbaycan torpaqlarından olan yüz minədək könüllü bu çağırışa cavab olaraq, döyüşlərin getdiyi İraq ərazisinə yollandı” [46, s.5]. Yenə həmin mənbənin özündən əvvəlki qaynaqlara əsaslanaraq verdiyi məlumata görə 634-cü ildən döyüşlər daha kəskin xarakter alır. III Yəzdigərd İran ordusunun baş komandanı vəzifəsinə Fərruxzad oğlu Rüstəmi təyin edir. Ərəblərlə aparılan döyüşlərdə imperiyanın digər əyalətlərindən olduğu kimi, Azərbaycandan da olan ordu bölmələri, xüsusən, baş komandanın topladığı 80 min nəfər və Cavanşirin üç minlik dəstəsi digər ordu birləşmələri ilə birlikdə 637-ci ildə, Sasanilərin paytaxt şəhəri Ktesifon (Mədain) uğrunda döyüşlərdə iştirak etmişlər. Döyüş Xilafət ordusunun qələbəsi, Ktesifonun alınması, III Yəzdigərdin qaçması və İran ordusunun dağılması ilə nəticələnir. Döyüşdə Cavanşir ağır yaralanır və sağaldıqdan sonra 639-640-cı ildə vətəninə qayıdır [46, s.5].

Bundan sonra ərəblərin Şərq və Qafqaz istiqamətində irəliləmələri asanlaşdı. 642-ci ildə xəlifə Ömərin orduları Nəhavənd yaxınlığındakı döyüşlərdə İran ordusunu ağır məğlubiyyətə uğratmaqla maddi və mənəvi cəhətdən böyük üstünlüklər qazandı. Bundan sonra Sasani ordusu parçalandı, hər əyalət özünün müdafiəsinə qalxdı, bu isə uğursuzluğa səbəb olmaqla İranın işğalını sürətləndirdi.

Ərəblər on illik mübarizə dövründə Sasani imperiyasının daha çox cənub əyalətlərinə sahib ola bilmişdilər. Ərəb ordularının imperiyanın şimalına, Cənubi Qafqaza doğru irəliləməsi 642-ci ildə Nəhavəndin ərəb orduları tərəfindən işğalından sonra sürətləndi. Tarixi mənbələrdən, xüsusən ət-Təbərinin məlumatından aydın olur ki,  baş vermiş hadisələr Sasani imperiyasının süqutuna səbəb oldu. Bundan sonra ərəblərin yerlərdə möhkələnməsi, ayrı-ayrı əyalətlərlə barışıga gəlməklə ərəb üsul-idarəsinin qüvvəyə minməsi başladı. Bu isə onların işğalçılıq hərakatının güclənməsinə, imperiyanın digər ərazilərinin tutulmasına imkan yaratdı. Belə bir vəziyyətdə hücumların istiqaməti cənubdan və ya işğal edilmiş Xəzərsahili ərazilərdən deyil, cənubi-qərbdən gücləndirildi. Mənbələrə əsaslanaraq bunu bir neçə şərtlə əlaqələndirmək olar. Başlıca amil Bizans imperiyasının Azərbaycandakı nüfuzunu sarsıtmaq, onun bölgənin xristian əhalisinin, xüsusən, Cavanşirin idarəsində və nüfuz daiəsində olan Albaniya və ətrafdakıların köməyindən istifadə etmələrinə imkan verməmək idi. Yuxarıdakı mənbələrə söykənərək  deyə bilərik ki, bu dövrdə  Qərbi Arpaçay, Göyçə gölü, Naxçıvan və çevrəsindəki əhalinin əksəriyyəti xristian türklər idi. Təbii ki, bununla yanaşı, N.Vəlixanlının da mənbələrə istinadən yazdığı kimi  Sasanilərin təsiri altında olan əhalinin müəyyən qismi atəşpərəst, həmçinin o dövrdə aralarında yəhudiliyin üstünlük təşkil etdiyi xəzər türkləri də mövcud idi [46, s.5]. Yuxarıda deyildiyi kimi, ərəblərin hücumu ərəfəsində adı qeyd olunan bölgələrin əhalisinin əksəriyyətini müxtəlif dinlərdə və fərqli inancda olan türklər təşkil edirdilər. “Kitabi Dədə Qorqud”da oğuz igidlərini tərif edərkən onların yayıldıqları, yürüş etdikləri geniş coğrafi məkan-Trabzon, Fərat suları, Abxaz eli, Mərdin qalası, Həmədan, bütövlükdə tarixi Azərbaycan  göz önünə gəlir. Bu isə ərəb yürüşləri dövrünə aiddir.

643-cü ildə ərəb qoşunları Azərbaycan ərazisinə yeni hücuma başladılar. İlk illərdəki hücumlar zamanı güclü ərəb orduları qarşısında tab gətirə bilməyən yerli əhalinin böyük bir hissəsi, xüsusən, tovhid dinində olan xristian və yəhüdi əhali cizyə verməklə, ərəblərlə müəyyən razılaşmaya, muqavilələr imzalamağa müvəffəq oldular. İslamı qəbul edənlərə isə güzəştlər olunur, ərəblərlə birlikdə yürüşlərdə iştirak edən yerlilər xidmətləri əvəzində vergidən azad edildilər. Nailə Vəlixanlı “Ərəb Xilafəti və Azərbaycan” əsərində tarixi mənbələrə istinadən yazır ki, xəlifə Ömərin öldürülməsindən sonra ərəblərin mərkəzi hakimiyyətində müəyyən ixtilaflar baş verir, bundan istifadə edən işğal olunmuş ərazilərin xalqları arasında müəyyən narazılıq başlayır [45, s. 129; 46, s. 5].

Qeyd edilməlidir ki, Xilafətin yeni başçısı Osman (644-656) vəziyyətə nəzarəti ələ alır və sərkərdə əl-Valid ibn Ukbanın rəhbərlik etdiyi ordunu Azərbaycana göndərir. Bu ərəblərin Azərbaycana ikinci geniş yürüşü idi. Sərkərdə Səlman ibn Rəbiənin başçılığı ilə 12 minlik ərəb ordusunun ön dəstəsi Arazı keçərək Albaniya ərazisinə də hücum edir, oranı talayıb çapır, zəngin qənimət və əsirlərlə əl-Validin qərargahına qayıdır. Ət-Təbərinin bu xəbərinə və digər mənbələrə əsaslanaraq

N.Vəlixanlı yazır ki, ərəblər digər vilayətləri və Naxçıvan obalarını viran qoydular; kişilərin bir çoxunu öldürdülər, qalanlarını isə arvad-uşaqları ilə əsir götürüb, Culfa keçidindən Arazın o tayına apardılar. Beləliklə, ərəblərin Naxçıvan ərazisinə ilkin hücumu ötəri basqın xarakteri daşısa da, nəticə etibarilə ağır idi: kəndlər, obalar qarət edilmiş, əhalinin bir hissəsi öldürülmüş, bir hissəsi vətənindən didərgin salınaraq, uzaq Ərəbistana əsir aparılmışdı [46, s.6].

Mənbələrin müqayisəli təhlili göstərir ki, Naxçıvanın ərəblər tərəfindən işğalı da birdəfəyə mümkün olmamış, Xilafət qüvvələri bu əraziyə bir neçə dəfə hücumlar etmişlər. İbn Əcəm əl-Kufi yazır ki, təkcə ərəblər deyil, öz növbəsində xəzər yürüşləri də Azərbaycana böyük ziyan vururdu. Ərəblər Sasani imperiyasının varlığına son qoyduqdan sonra Cənubi Qafqazda nüfuz dairəsi uğrunda mübarizənin xarakteri dəyişir. Sürətlə güclənən Xilafət orduları bir tərəfdən Anadoluda, digər tərəfdən tarixi Azərbaycan ərazisində Bizans imperiyası ilə kəskin mübarizə aparırdı. Bizanslıların xristian birliyinə güvənib Azərbaycanda müvəffəqiyyət qazanmaq düşüncələrinin əksinə olaraq müxtəlif üsullarla şirnikləndirilən xiristian əhalinin bir qismi, müəyyən güzəştlər müqabilində ərəblərə rəğbətlə yanaşır, islamı qəbul edirdilər. Xilafətə meylin digər səbəbi Bizans imperiyasının zəifləməsi və ərəblər qarşısında nüfuzunun aşağı düşməsi idi. Bu müvəffəqiyyətlərdən istifadə edərək 644-cü ildə xəlifə Osmanın göstərişilə ərəb ordularının regiona yeni hücumları başlanılır. Bu yürüşlər digər bölgələrlə yanaşı, Naxçıvana da böyük zərər verir. Bununla əlaqəli mənbələrə, xüsusən Əl-Bəlazurinin məlumatlarına əsaslanan N.Vəlixanlı yazır ki, bu dəfə ərəb qoşunlarına Kiçik Asiya ərazisində bizanslılarla vuruşan sərkərdə Həbib ibn Məsləmə başçılıq edirdi. Xəlifə bu yerlərə yaxşı bələd olan, Qafqaz yürüşlərində iki dəfə iştirak etmiş Səlman ibn Rəbiəni də Həbibin köməyinə göndərir. Bu yürüşlər zamanı mənbələrdə Nəşavə adlandırılan Naxçıvan işğal olunur və sülh müqaviləsi bağlanması ilə nəticələnir [43, s.6]. Bir sıra tarixçilər, xüsusən N.Vəlixanlı tərəfindən tez-tez müraciət edilən Əl-Bəlazuri dövrünün tanınmış tarixçilərindən olmuşdur. Onun “Футуh эл-булдан” (“Ölkələrin fəthi”) əsəri ərəb işğalı ilə bağlı əldə olan etibarlı mənbələrdən biridir. Əl-Məsudi (X əsr) onun kitabı haqqında yazır ki, biz ərəb istilası ilə əlaqəli bu kitabdan yaxşısını bilmirik. Təbii ki, ərəblərin yürüşləri ilə əlaqəli digər müəlliflərin də dəyərli əsərləri vardır. Bu baxımdan ət-Təbərinin “Tarix” əsəri də diqqəti cəlb edir. Amma Əl-Bəlazuri təsvir etdiyi hadisələrin bir qismini yaşamış, müəyyən hissəsini fars dilindən ərəb dilinə tərcümə etmişdir. O, 847-869-cu illərdə hakimiyyətdə olmuş 3 Abbasi xəlifəsinə yaxınlığı ilə tanınmış, lakin sonrakı dövrdə gözdən salınmış və 892-ci ildə yoxsulluq içərisində vəfat etmişdir. Əl-Bəzuri və digər müəlliflərlə yanaşı, mərhum akademik Z. Bunyadovun ilk dəfə olaraq rus dilinə tərcümə etdiyi Əhməd ibn Əsam əl-Kufinin “Kitab al-fütuh (“Книга завоеваний”) əsərində ərəblərin Əbubəkrin xəlifəliyindən (632) 866-cı ilə, xəlifə əl-Müstəinin ölümünə qədərki hadisələr, o cümlədən Azərbaycan

ərazisinin işğalı, ərəb üsul-idarəsi, Babək hərəkatı və s. haqqında geniş məlumat vardır [69].

Maraqlıdır ki, o dörün hücumları ilə əlaqəli dəqiq məlumat olmadığından digər müəlliflərə də əsaslanmaqla Ziya Bünyadov və onun ardınca Rauf Məmmədov Naxçıvanın ərəb ordusu tərəfindən işğalını "Xəlifə Osmanın (644-656) dövrünə", Dağıstan tarixçisi Ə. Şıxsəidov isə 24/644-645-cü illərə aid edir. Burada maraqlı məqam Ə. Şıxsəidovun Naxçıvanın tam işğalının ərəblərin ikinci yürüşündə-652-653-cü illərdə başa çatdığını göstərməsidir ki, bu fikir N.Vəlixanlı tərəfindən də təsdiqlənir [46, s.6]. O da qeyd edilməlidir ki, ərəblər Naxçıvanı işğal etməmişdən öncə Dəbil və ətrafındakı bütün əraziləri ələ keçirir, Dəbil əhalisi ilə sülh müqaviləsi bağlayan Həbib ibn Məsləmə yerli hakimlərlə sülh müqaviləsi imzalayır. Beləliklə, arxasını möhkəmləndirən ərəb orduları Naxçıvanı işğal edərək şəhər əhalisi ilə Dəbillə bağlanılan müqaviləyə oxşar müqavilə bağlaması haqqında məlumat verirlər. Həmin müqavilələrin oxşarlığını nəzərə alaraq, ərəblərin Dəbil əhalisi ilə bağladığı müqaviləni təqdim edirik: "Mərhəmətli və rəhm edən Allahın adı ilə. Bu kağız Həbib ibn Məsləmədən Dəbilin həm (burada) olan, həm də olmayan xristian əhalisinə, onun atəşpərəstlərinə (məcus) və yəhudilərinədir. Mən sizin özünüzün, malınızın, kilsələrinizin, sinaqoqlarınızın *(biyaikum),* şəhərlərinizin divarlarının (toxunmazlığına) təminat verirəm. Siz aman olunursunuz. Biz sizinlə (bağlanılan) müqaviləyə əməl edəcəyik, nə qədər ki, Siz ona riayət edəcək, cizyəni və xəracı ödəyəcəksiniz. Allah şahiddir, Allahın şahidliyi kifayətdir. Möhürlədi Həbib ibn Məsləmə" Müqavilənin əsli olmadığından Dəbillə bağlanmış müqaviləni əsas götürərək bu müqavilənin mətni N.Vəlixanlı tərəfindən tərtib edilmişdir [46, s.7]. Müqavilədə göstərilən dini və inanc baxımından fərqli olan əhalinin əksəriyyətini xristian, yəhudi dinində və atəşpərəstlik inamında olan türklər təşkil etmişdir. "Kitabi Dədə Qorqud" boylarında qıpçaqlarla əlaqəli məsələlərdə onların xristian dininə, fərqli inanca, hətta ayrıca şivəyə malik olduqları (sasu dinli, quzğun dilli) ilə tez-tez rastlaşırıq [27, s.60, 70]. Aşağıda, islamın yayılması ilə bağlı bölümdə bu məsələdən geniş bəhs ediləcəkdir. Yəhudu əhaliyə gəlincə N.Vəlixanlının da mənbələrə əsaslanaraq onları xəzər türkləri ilə əlaqələndirməsi [46, s.8] qanunauyğun haldır. Hələ ərəblərdən çox əvvəl xəzərlərin bu ərazilərə yürüşləri, onların Naxçıvan ərazisində məskunlaşmaları tarixi həqiqətdir. Bunu bu bölgədə xəzərlərlə bağlı yayılmış çox saylı toponimlər də sübut edir. Xəzərlərdən bəhs edərkən ərəb orduları ilə əlaqəli bir hadisənin qeyd edilməsinin faydası vardır. Ərəb mənbələrinin məlumatına görə xilafət orduları 645-646-cı illərdə Dərbənd istiqamətində hücum edərkən xəzərlər arasında belə bir fikir yayılmışdı ki, islam ordusunun əskərlərinə ox batmır, onları qılınc kəsmir. Sərkərdə Səlman ibn Rəbiənin 10 min nəfərlik orduları qarşısında tabeliyində 300 min nəfərdən artıq əskər olan xəzər xaqanı Dərbənd şəhərini tərk edib şimala çəkilir. Dərbəndi döyüşsüz tutan ərəb sərkərdəsi burada uç gün qaldıqdan sonra xəzər ordularını tamamilə məhv

etmək və şimal istiqamətində irəliləmək üçün onu izləməyə başlayır. Sıx meşəlik ərazidən keçən ərəb opdusundan olan əskər soyunub buradakı çayda yuyunmağa başlayır. Bunu kolluqdan izləyən bir xəzər əskəri söylənənlərin düz olub olmadığını yoxlamaq üçün ona ox atır və ərəbi öldürür. Sonra yaxınlaşıb onun başını kəsir paltarlarını da götürüb xaqanın düşərgəsinə gəlir və hadisələri ona danışır. Xaqan ordunu toplayıb geri qayıdır və Səlman ibn Rəbiə də daxil olmaqla ərəblərin hamısını qılıncdan keçirir [69, s. 10]. Bundan ruhlanan xəzərlər Azərbaycanın içərilərinə doğru hərəkət edirlər və Azərbaycanın çox hissəsi yenidən ərəblərin itaətindən çıxır. Lakin bu da uzun sürmür, 2 il keçməmiş Həbib ibn Məsləmənin orduları Azərbaycanı, o cümlədən Naxçıvanı yenidən işğal edirlər. Tutulan ərazilərdə ərəb üsul-idarəsi bərpa olunur. Mənbələrə istinad edərək N.Vəlixanlı yazır ki, bilavasitə Naxçıvanın özündən söhbət getməsə də, biri digərini əvəz edən bu yürüşlərin, sözsüz ki, Naxçıvandan da yan keçmədiyi anlaşılır. Ərəb mənbələrində (əl-Bəlazuri, əl-Kufı, əl-Yəqubi) olan məlumata görə, xəlifə Osman Cənubi Qafqazda işğal edilmiş yerləri, o cümlədən, Naxçıvanı öz idarəsi altında birləşdirə bilən Həbib ibn Məsləməni, çox keçmədən (görünür, elə həmin 654-cü ildə) yeni vali, Hüzeyfə ibn əl-Yəmən əl-Əbsi  əvəz edir və o da digər yerlərə olduğu kimi Naxçıvana da öz vergi məmurlarını *(ummal)* göndərir [46, s.10]. Lakin az sonra xəlifənin yeni əmri ilə Hüzeyfə Mədinə şəhərinə qaytarılır. Onun yerini müvəqqəti olaraq Hüzeyfənin işlərini aparan "əmisinin qohumlarından"  Sıla ben Zufar tutur və az müddət bu vəzifədə olmasına baxmayaraq xalqa zülm edir. Belə bir dövrdə Xilafətin mərkəzində hadisələr kəskinləşir, Osmanın təyin etdiyi valilərin özbaşınalığı, bir sıra vəzifələrə qohumlarını təyin etməsi və sairə onun müxaliflərinin baş qaldırmasına və xilafətdaxili ziddiyyətlərin kəskinləşməsinə səbəb olur. Bundan istifadə edən Bizansın aktivləşməsi, eyni zamanda, Cavanşirin onunla yaxınlaşmağa çalışması açıq şəkildə görünməkdə idi. Nəticədə II Konstant öz ordusunu İveriya, Ağvan və Sünikə göndərir və qısa müddətə də olsa, həmin yerləri, həmçinin Naxçıvanı işğal edə bilir. Belə bir vəziyyətdə Cavanşir çevik siyasət yeritməklə Bizans imperatoru ilə görüşür və onun təbəəliyini qəbul edir. Bundan sonra Naxçıvandakı hadisələrlə əlaqəli tarixi mənbələrdə geniş məlumat olmadığından onları şərh etmək çətindir. Lakin bir məsələ bəllidir ki, bu dövrdə Cənubi Qafqazda mövqe uğrunda bizanslarla ərəblər arasında olduğu kimi xəzərlər də aktivliyini artırmışdır.

Ərəb mənbəyi (əl-Bəlazuri) məhz bu zaman, yəni Osmanın xəlifəliyi dövründə, Azərbaycan və Ərminiyədə Huzeyfədən sonra rəsmi surətdə valilik edən məşhur sərkərdə Muğirə ibn Şubənin, ondan sonra isə daha iki şəxsin adlarını çəkir. Hz.Əlinin xəlifəliyi dönəmində isə bütün həyatı boyu ona düşmən münasibət bəsləyən və ondan əvvəl Şama vali təyin edilmiş Əbu Süfyan oğlu Müaviyə ilə  münasibətlər kəskin vəziyyətdə idi. Osmanın öldürülməsini bəhanə edən Müaviyə Hz.Əliyə biət etməməklə onunla döyüş vəziyyətinə gəldi. Təbii ki, bütün bunlar yerlərdə Xilafətin mövqeyini sarsıtmışdır. Hz. Əlinin hakimiyyəti illərində (656-

661) isə onun Cənubi Qafqazdakı valisi əl-Əşas ibn Qeys olmuşdur. 661-ci ildə Hz.Əli xaincəsinə qətl edildikdən sonra xəlifə seçilən İmam Həsən altı aydan sonra qan tökülməsinin qarşısını almaq, daxili ziddiyyətlərə son qoymaq üçün müəyyən şərtlər daxilində hakimiyyəti Əməvilər sülaləsinin nümayəndəsi, Şam valisi Müaviyəyə buraxdı. Müaviyənin [661-680] yürütdüyü siyasət Xilafət-Bizans münasibətlərini bir qədər də gərginləşdirmiş, bu imperiyalarla bilavasitə əlaqədə olan Cənubi Qafqaz xalqlarını, o cümlədən azərbaycanlıları, münaqişənin nəticələrindən asılı vəziyyətdə qoymuşdu. Bütün çətinliklərə baxmayaraq, Qafqazdakı mövqelərini möhkəmlətmək fıkrindən dönməyən hər iki imperiyanın başının biri-birinə qarışması 662-ci ildə xəzərlərin yeni hücumlarına rəvac vermişdi. Belə ki, onlar bu zaman Dərbənddə yerləşmiş ərəb qoşun hissəsini məğlub edərək, ölkənin içərilərinə irəliləmiş, lakin Kür çayını keçərək onların qarşısını kəsən Cavanşirin ordusu tərəfındən basılmışdı. Belə gərgin mübarizə digər ərazilərlə yanaşı, Naxçıvan əhalisinə  də xeyli zərər vermişdi.

Xəzər hücumlarının arası yalnız 664-cü ildə, Araz sahillərinədək hər yerə basqınlar etmiş “hunların hökmdarı” ilə Cavanşir arasında dostluq sazişi bağlanandan, Alban hökmdarı onun qızı ilə evlənəndən sonra kəsildi.

Əlbəttə, xəzərlərlə yaranmış ittifaq nəticəsində onların Cənubi Qafqaza qarşı iddialarının gerçəkləşməsi hələ də burada ayrı-ayrı qoşun hissələri və canişin saxlayan Xilafəti narahat etməyə bilməzdi. Siyasi vəziyyəti böyük səriştə ilə dərk edən Cavanşir də ərəblərdən özünü zorla qoruyan Bizansa arxalanmağın faydasız olduğunu dərk edir.  Qohumluq əlaqələri yaratdığı və dostluq sazişi  bağladığı xəzərlərə etibar etmədiyi üçün Cavanşir siyasi xəttini dəyişmək, ərəblərlə yaxınlaşmaq məcburiyyətində qalır.

Qeyd edilməlidir ki, hələ xəlifə Osmanın göndərdıyı qoşunlar Cənubi Qafqazda işğal etdikləri yerlərdə, o cümlədən Naxçıvanda, möhkəmləndikdən sonra da siyasi hakimiyyəti saxlamağı bacarmış Cavanşir, bütün cidd-cəhdlərinə baxmayaraq ərəblərin təbəəliyindən tam çıxa bilməmiş, hətta Bərdədə iqamət qurmuş ərəb valisinə *(amilinə)* müəyyən qədər vergi də ödəməli olmuşdu. 661-ci ildə sonuncu “rəşidi” xəlifə Əli ibn Əbu Talibin (656-661) öldürülməsindən sonra Xilafətdə baş verən siyasi çevriliş - Əməvilər sülaləsinin hakimiyyət başına gəlməsi Cavanşiri öz siyasi xəttini dəyişməyə vadar edir. O, Azərbaycana ola biləcək yeni ərəb yürüşlərinin qarşısını almaq məqsədilə ilk Əməvi xəlifəsi Müaviyə ilə danışığa girir. Cavanşir bunun üçün iki dəfə - 667 və 670-ci illərdə Xilafətin Əməvilər dövrü paytaxtı Dəməşqə gedir. Nəticədə Albaniya rəsmi olaraq Xilafətə tabe dövlət elan edilir. Lakin yürütdüyü çevik siyasəti ilə Mehranilərin daxili müstəqilliyini qoruya bilən Cavanşir Albaniyadan Xilafət xəzinəsinə axan vergilərin miqdarının əvvəlkinin üçdə birinədək azaldılmasına nail olur [2, s.138]. Beləliklə, siyasi müstəqilliyin saxlanılmasına cəhd göstərilsə də, Xilafətin vassalı kimi vergi ödəmək şərti ilə asılı vəziyyətə salınmış şimal torpaqları bütövlüklə Cavanşirin idarəsində

qalsa da, xəlifə Müaviyənin təyin etdiyi valilər də burada öz vəzifələrini icra etməkdə davam edir, ərəblərin Cənubi Qafqazda yürütdükləri vergi siyasətini həyata keçirməyə çalışırdılar. Bununla yanaşı, öz mövqelərini mökəmləndirmək, həmçinin xəzərlərin və bizanslıların ola biləcək hücumlarından qorumaq üçün Dərbənddə və Naxçıvanda qoşun hissələri yerləşdirmişdilər.

Cavanşirin öldürülməsi və Maviyənin ölümündən sonra, digər bölgələrdə olduğu kimi Azərbaycanda da yaranmış vəziyyəti şərh edərək N.Vəlixanlı yazır ki, bu hadisələr xəzərlərin Azərbaycana yeni və daha şiddətli hücumlarına səbəb olmuş, Cənubi Qafqaz xalqları "30 illik itaətdən sonra" ərəblərə verilən vergini kəsdilər. Belə bir vəziyyətdə Azərbaycan, o cümlədən Naxçıvan əhalisi xəzərlərin, bizanslıların və ərəblərin yeni hücümlarına məruz qaldı. Öncə bizansların, sonra yeni xəlifə Əbdülməlik Mərvanın (685-705) göndərdiyi ordular bölgədə böyük qırğınlar və talanlar törətdilər. Xüsusən, Naxçıvan ərazisində (indiki Culfa və Ordubad tərəflərdə) misli görünməmiş özbaşınalıqlar həyata keçirilmişdi [46, s.11]. Mövqeyini möhkəmləndirmək və Cənubi Qafqazda məsələni birdəfəlik həll etmək üçün 693-cü ildə xəlifə Əbdülməlik qardaşı Məhəmməd ibn Mərvanı bu bölgəyə vali təyin edir. Məhz onun valiliyi dövründə (693-709) ərəblərin Cənubi Qafqazda möhkəmlənməsi prosesi özünün həlledici mərhələsinə daxil olur və ərəb hakimiyyətinin xeyli güclənməsinə, bölgənin bir çox yerlərində olduğu kimi strateji əhəmiyyətli Naxçıvanda da yeni ərəb qoşun hissələrinin yerləşdirilməsinə gətirib çıxarır.

Ərəblər Azərbaycanı tutduqdan sonra xalq ilə rəftarları çox pis idi. Əhalinin əmlakı talan edilir, onlarla istədikləri kimi davranırdılar. Bu, xəlifə Osmanın hakimiyyət illərində daha kəskin xarakter almışdı. Zülmün həddini aşması bir sıra tarixi mənbələrlə yanaşı, Hz. Əli xəlifə seçildikdən sonra Hz. Osman tərəfindən Azərbaycana vali təyin edilmiş Əşəs bin Qeysə göndərdiyi məktub da təsdiq edir: "Səni müstəqil hakim kimi mən təyin etməmişəm. Sadəcə olaraq sənin boynunda bir əmanət var və səndən yuxarıda olanın buyruğu altındasan. Xalqa istədiyini edə biləcəyin kimi təhlükəli bir işə də girişə bilməzsən..." [21, s.270]. Göründüyü kimi, vali xalqla qanunlar çərçivəsində deyil, istədiyi kimi hərəkət etmişdir. Hz.Əlidən sonrakı Əməvilər və Abbasilər dönəmində vəziyyət daha kəskin olduğundan ciddi narazılıqlar, kütləvi üsyanlar baş vermişdir. Bütün bu ziddiyyətlər ərəblərin Cənubi Qafqazı tam şəkildə istilalarından, həmçinin Bizans imperiyasının mövqeyinin bölgədə nəzərəçarpacaq dərəcədə zəifləməsi, xəzərlərin müəyyən hissəsinin islamı qəbul etmələri və onların təhlükələrinin azalması nəticəsində daha da kəskinləşmişdi. Əgər əvvəllər ərəblər daha çox sabitliyi saxlamaq, öz nüfuz dairələrini genişləndirmək üçün kitab əhlinə, həmçinin müxtəlif inam kəsimində olan yerli əhali ilə müəyyən vergilər almaqla keçinirdisə, indi daha sərt tədbirlər görülürdü. Bu məsələdən bəhs edən A.İ.Kolesnikov tarixçi Bəlazuriyə istinadən yazır ki, Ömərin xəlifəliyi dövründə yerli hakimlərin, mal-mülk sahiblərinin işlərinə çox

qarışılmır, onların torpaqları, sərvətləri əlindən alınmırdı. Hətta onlardan islamı qəbul edənlərə daha hörmətlə yanaşılır, onlardan cizyə vergisi toplanmır, idarəçilik işlərində irəli çəkilirdilər [94, s.172].

Əməvilər dövründə ərəblərin yerlərdəki hakimləri soyğunçuluq edir, əhali üzərinə qoyulan vergiləri günü-gündən artırırdılar. Oxşar vəziyyət abbasilərin hakimiyyəti zamanı da davam etdirilmişdir. O.Q.Bolşakov vəziyyətin dözülməz olduğunu bildirən o dövrün məlumatlarına söykənərək yazır ki, aclıq və vəba yayıldığı illərdə cizyə vermədən ölənlərin dəfn edilməsinə icazə vermirdilər. Onların vergiləri qohumları tərəfindən ödəndikdən sonra dəfn edilə bilərdilər [77, s. 41]. Tarixi məlumatlar əsasında belə hadisələrin tez-tez baş verdiyinin söyləmək olar. Digər məsələlərdə olduğu kimi ermənilər belə hadisələrdən də yararlanmağa, erməni xislətini gizlətmədən sui-istifadə etməyə çalışırlar. Vali Məhəmməd ibn Mərvanın ermənilərin irəli gələnlərini öldürməsi hadisəsini Naxçıvan şəhəri ilə əlaqələndirirlər. Hər şeydən öncə bu hadisənin törənmə səbəbi və onu törədənin ərəb valisi olduğu diqqəti çəkir. Naxçıvan şəhəri məsələsinə gəlincə, akademik Ziya Bünyadov çoxsaylı mənbələr əsasında hadisənin Naxçıvan şəhərində deyil, Türkiyənin Qars vilayətindəki Naxçıvan yaşayış məntəqəsində baş verdiyini sübut edir. Elmi, siyasi, etnik-milli əhəmiyyətini nəzərə alaraq Ziya Bünyadovun gəldiyi nəticəni olduğu kimi təqdim edirik: "Yuxarıda gətirilmiş tutarlı dəlillər göstərir ki,burada söhbət məhz Məhəmməd ibn Mərvanın erməni knyazlarını yandırdığı məbəddən gedir. Bu məbəd Türkiyənin Qars vilayətinin Kağızman mahalında yerləşən Naxçıvan şəhərindədir" [11, s.192].

Beləliklə, aydın olur ki, ərəb sərkərdəsinin məbədlərdə təsvir olunan əməliyyatının-bizans-erməni qoşunlarının darmadağın edilməsi, erməni knyazlarının əsir edilib, Naxçıvandakı məbəddə yandırılması-bütün bunların Arazüstü Naxçıvanla heç bir əlaqəsi yoxdur [11, s.193]. Akademik Ziya Bünyadov sözünə davam edərək yazır ki, aparılan arxeoloji qazıntılar zamanı Azərbaycanın Naxçıvan şəhəri ərazisində o dövrə dair heç bir kilsə və xristianlığa məxsus digər tikililərin qalıqları aşkar edilməmişdir [11, s.193].

## 7. İslam dininin qəbul olunması

Ət-Təbərinin məlumatına görə, hələ xəlifə I Ömər (634-644) dövründə işğal edilmiş Sasani vilayətlərinin dehqanları könüllü surətdə islamı qəbul etmişdilər. Müəllifin fikrincə, ərəb sərkərdəsi müsəlman Zuhra ilə İran sərkərdəsi atəşpərəst Rüstəm arasında aparılan danışıqlarda Zuhranın mənəvi üstünlük qazanması bir çoxlarının islamı qəbul etməsinə səbəb olmuşdu.

Bütpərəstlərə qarşı (o cümlədən xristianlığı qəbul etməmiş bütpərəst albanlara və Azərbaycanın bütpərəst türk əhalisinə) zor işlədən ərəblərin "əhli Kitab"ı xristian və yəhudilərlə yanaşı, "əhli Kitab" hesab etmədikləri atəşpərəstlərə də işğalın ilk

dövründə iltifat göstərmələri daha çox siyasi baxımdan, yəni Qafqazın Bizansa qarşı mübarizədə mühüm strateji əhəmiyyəti ilə də izah oluna bilər. Lakin çox keçmədən islam bütpərəstliklə yanaşı, atəşpərəstliyi də aradan götürdü. Tədqiqatçıların fikrincə, Allah qarşısında bütün müsəlmanların bərabərliyini elan edən yeni ideologiya Sasani imperiyasının qeyri-iranlı əhalisi, o cümlədən azərbaycanlılar arasında daha tez yayıldı. Tarixçi əl-Bəlazurinin məlumatını şişirdilmiş fakt kimi qəbul etməsək, Cənubi Azərbaycan əhalisi artıq xəlifə Əlinin dövründə (656-661) islamı qəbul etmiş, Allaha, Qurana və Məhəmməd peyğəmbərə inanmışdır.

Bütövlükdə Cənubi Qafqaz və Azərbaycan üçün xarakterik olmuş bu vəziyyətə daha çox Oğuz türkləri ilə bağlı, birbaşa ilkin mənbədən-"Kitabi Dədə Qorqud"dan alınmış bəzi məqamları əlavə etməklə daha dəqiq məlumat əldə etmək olar. Oğuzun bilicisi Dədə Qorqud Məhəmməd peyğəmbər [s.ə.v.] zamanına yaxın yaşamışdır: "Rəsul əleyhissəlam zamanına yaqın Bayat boyından, Qorqut ata diyərlər bir ər qopdı" [27, s.31]. Oğuzların islamı erkən qəbul etməsi ilə əlaqəli digər tutarlı dəlil dastanda Oğuz alpanı Bugdüz Əmənlə bağlı məlumatdır: "Varıban peyğəmbərin yüzini görən, gəlübəni Oğuzda səhabəsi olan, acığı tutanda bığlarından qan çıqan bığı qanlu Buğdüz Əmən çapar yetdi" [27, s.50]. Deməli, Buğdüz Əmən Məhəmməd peyğəmbərin (s.ə.v.) yanında olmuş, onun mübarək üzünü görmüş, səhabəsi səviyyəsinə yüksəlmişdir. Mənbələrdə Naxçıvanın ərəblər tərəfindən işğalı ilə əlaqəli fərqli tarix göstərilsə də, Buğdüz Əmən bu hadisədən ən azı 13-15 il əvvəl Peyğəmbərin yanında olmuşdur. Belə bir mötəbər, təkzib edilməsi heç çürə mümkün olmayan qaynağa söykənərək demək olar ki, Buğdüz Əmən qayıtdıqdan sonra Oğuzda İslamın yayıcısı olmuşdur. Burada üç məqama da diqqət yetirmək gərəkdir: onun adındakı Buğdüz-çox düzgün, adın ikinci tərəfi-Əmən, üçüncü tərəfi-bəlkə də, onun möcüzəsi olan acığı tutanda bığından qan çıxması. Dastanda onun Əmən adlanması ilə əlaqəli məlumat olmasa da, istər-istəməz düşünməli oluruq: "Bu adın etibarlılıqla, əminliklə bağlılığı varmı?! Unudulmamalıdır ki, Hz. Peyğəmbərimizə peyğəmbərlikdən öncə xalq arasında verilən adlardan biri "güvənilir" anlamındakı Əmin adıdır.

Dinlər, etnik münasibətlər və İslamın yayılması məsələsindən bəhs edərək Naxçıvanla bağlı bir məqama da açıqlama gətirmək yerinə düşərdi. Məlum olduğu kimi "Kitabi Dədə Qorqudun" "Uşun qoca oğlu Səkrək boyunu bəyan edər" boyunda Əgrəkin akın edib kafərin Əlincə qalasındakı qoruğuna gəlməsindən, düşmənə əsir düşməsindən və qardaşının gəlib kafərlə döyüşüb onu xilas etməsindən danışılır [27, s.110-115]. Uzun illər həmin "kafərin" kimliyi ilə bağlı olaraq çox ehtiyatlı bəhs olunmuşdur. Baxmayaraq ki, onların türk kökənli xristian olmaları ilə əlaqəli istənilən qədər tarixi mənbələr mövcud idi. Araşdırmalar dərinləşdirildikcə yeni dəlillər ortaya çıxdı. Hər şeydən öncə bütün dünyanın 1300 illiyini rəsmən qəbul etdiyi "Kitabi Dədə Qorqud"da Abxaziyadan İran yaylasına, Xəzər dənizindən Anadolunun mərkəzinə qədər böyük bir coğrafiyada yürüşlər edən Oğuz bəyləri hər yerdə türk dilində danışırlar, dustaq olduqları qalalarda da yerlilərlə tər-

cüməsiz, birbaşa danışırlar. Dastanda Oğuzların ermənilərlə qonşuluqda yaşamasından, ümumiyyətlə, bu etnosun adından belə bəhs olunmur. Əgrək və Səgrək də Əlincə qalasındakı "kafərlə" eyni dildə danışır. Evi yağmalanan Qazan xan da düşmənə türk dilində müraciət edir. Ümumiyyətlə, dastanda bu coğrafiyada yaşayanların özgə dildə deyil, ancaq türk dilində danışdıqları, din ayrı eyni etnik birliyə mənsubluqları təsdiqlənir. Tarixi mənbələr dastanda Əlincə qalası ilə bağlı kafər adlandırılanların Uzun Həsənin xristianlıq dinindəki babalarının olduqlarını sübut edir. Deməli, bu mubarizə xristian və müsəlman türkləri arasındadır.

Bir tərəfdə uzun illərdən bəri xristianlığı qəbul etmiş türk – Qıpçaq Məlik, Şöklü Məlik, Aslan Məlik, Ağ Məlik, Sufi Sandal Məlik, Buğacıq Məlik, keşişləri Yayxan, digər tərəfdə islamı qəbul etmiş, lakin onun hökmlərinə tam əməl etməyən, şərab məclisləri təşkil edən, şərabın istisi başına vuran Qazan xan və digərləri dayanır. O Qazan xan ki, bəy Yeğnək ona "keşiş" Qazan deyir. Məlumdur ki, Qazan bir alpandır, alpanlar başçısıdır. Görəsən, bu keşişliyin arxasında nə dayanır. Bir bilginlik, mənəvi rəhbərlikmi? Yoxsa, soyundan, qəhrəmanlığından irəli gələn, ləqəbləri bitmək bilməyən – "Ulaş oğlu", "Tülü quşunun yavrusu", "bizə miskin umudu", "Amit soyunun aslanı", "Qaraçuğun qaplanı", "Qonur atın yiyəsi", "xan Uruzun atası", "Bayandır xanın göygüsü", "Qalın Oğuzun dövləti", "qalmış yeğit arxası" Salur Qazana bu nə ləqəbdir deyilir? Bəlkə, islamdan öncəki inamla bağlıdır bu? Axı, Oğuzlar hələ də islama tam əməl etmirlər. İkili inam hakimdir. Şərab içib başına bəla açan Qazan bəy və digər Oğuz bəyləri düşmənlə döyüşdən öncə: "Arı sudan abdəst aldılar. Ağ alınlarını yerə qoydular. İki rükət namaz qıldılar. Adı görklü Məhəmmədə salavat götürdülər". Formasından görünür ki, Oğuz bəyləri iki rükətli "Hacət namazı" qılmış, Allahdan və onun rəsulu Hz. Peyğəmbərimizdən kömək diləmişlər. Şərab adlı maye ilə şərə, bəlaya düşsələr də, "Arı sudan" (İndi də xalq arasında təmizlik rəmzi olaraq "Aydan arı, sudan duru" ifadəsi işlədilir), yəni pak sudan dəstamaz almış və şərdən təmizlənmişlər.

Döyüşlərdə Oğuz bəyləri ancaq düşmənin silahlıları ilə vuruşur: "Qaçanı Qazan bəğ qomadı, aman deyəni öldürmədi". Ancaq bir boyda, "Qazlıq qoca oğlu Yegnək boyu"nda Qazlıq qocanın şərab içib sərxoş olduqdan sonra Bayındır xandan axın için ordu dilədiyini görürük. Yəni heç bir əsas olmadan Düzmürd qalasına hücüm edir. Nəticədə məğlub olub 16 il qalada dustaq kimi saxlanılır. Eyni hadisə Əgrəyin də başına gəlir. Bu kafir nə kafirdirsə, oğuzların onlarla əlaqələri var. Lazım gələndə onların ellərinə sığınırlar. Dirsə xanı dustaq edən yoldaşları: "Gəlin Dirsə xanı tutalım, ağ əllərini ardına bağlayalım, qıl sıcım ağ boynuna taqalım, alıbanı kafər ellərinə yonalalım " dedilər [27, s.40].

Oğuzlar düşmənlərini "kafər" adlandırırlar. Nə dərəcədə "kafər" olsalar belə, düşmən hücum etmədikcə oğuzlar kimsəyə zərər vermirlər. Düşməni məğlub etdikdən sonra onların əraziləri işğal olunmur. Onları islama dəvət etdikləri bəlli olur: "Kafəri kəlisasını yığdılar, yerinə məscid yapdılar. Keşişlərdən öldürdilər. Ban ban-

latdılar. Əziz tənri adını qüdbə oqıtdılar" [27, s.97, 122].

Dastanda "kafər"lərlə evlənmə adəti var. Qanturalı Trabzon təkurunun qızı Selcan xatunla evlənir. Dastanda Baybican bəyin qızı Banuçiçəyi Bayburud hasarı bəyinə evləndirmək istədiyi bəlli olur: "Nə oturarsan, sultanım, Baybican bək ol sana verəcəgi qızı Beyrəgə verdi..." [27, s.57]. Bayburud qalasında dustaq olan Beyrəyin qaçmasına kafər bəyinin qızı kömək edir. Şərtləşirlər ki, Beyrək qayıdıb onu halallıqla alacaqdır. Beyrək and içir [27, s.59]. Lakin sonda Beyrəyin andına əməl etməsinə rast gəlmirik.

Atasının ona qarşı münasibətindən narazı qalan Uruz deyir:

Qalqubanı yerimdən mən turaram,
Qara gözlü yigitlərimi boynuma aluram,
Qan Abqaz elinə mən gedərəm,
Altun xaca mən əlümi basaram.
Pilon geyən keşişin əlini öpərəm,
Qara gözlü kafər qızını mən aluram [27, s.68].

Bu ifadələrdən aydın görünür ki, nə dərəcədə ağır olsa da, kafər elinə getmək, xaça and içib xristianlığı qəbul etmək olarmış. Qan Abqaz eli o eldir ki, yuxarıda deyildiyi kimi burada miladdan öncə VIII yüzilliklərdən başlayaraq qıpçaqlar hakimdirlər [58].

O dövrdə köhnə dindən dönmə və yeni dinə gəlmə prosesi sürətli olmamış, azərbaycanlıların atəşpərəst, bütpərəst və ya xristian ulu babaları ərəblərin çox yerdə zor gücünə qazandıqları siyasi üstünlüyə baxmayaraq, əvvəlki etiqadlarından xoşluqla, birdəfəlik üz döndərməmişdilər. Şimali və Cənubi Azərbaycanın xristian əhalisi ilə yanaşı, ölkənin aran və dağ yerlərinin atəşpərəst və bütpərəst əhalisi də islamaqədərki etiqadlarında qalmışdılar. Əl-İstəxrinin məlumatına görə, onun bu yerlərdə olduğu vaxt, yəni təqribən X əsrin 20-30-cu illərində də Qabh (Qafqaz) dağında bir çox müxtəlif dilli "kafirlər" yaşayırdılar.

Tədqiqatçıların fikrincə, islamın erkən çağında onu ilk növbədə ərəblərin simasında özlərinə arxa tapmaq istəyən yerli əyanlar qəbul edirdilər. İslamı qəbul etməklə onlar öz mülklərini və torpaqlarını da qorumuş olurdular. Mənbələrin və arxeoloji materialların öyrənilməsi sübut edir ki, islam Azərbaycanın şimalında, cənubunda olduğundan daha gec mənimsənilmişdi. Şəhərlilər islamı kəndlilərə nisbətən daha həvəslə qəbul edirdilər. Akademik Z.Bünyadovun yazdığına görə, ərəb işğalı dövründə kəndlilərə nisbətən daha ağır cizyə ilə yüklənmiş şəhərlilərin, xüsusilə tacir və sənətkarların islamı ilk növbədə qəbul etmələri onların öz varidatlarını qorumaq cəhdindən, ərəb üsul-idarəsinin isə tacir və sənətkarlara daha böyük güzəştlər verməsindən irəli gəlir. X əsr mənbələri (əl-Məsudi) müsəlman şəhərlilər və xristian kəndlilər haqqında məlumat verirlər. Görünür, buna görə də xəlifə I Ömərin fərmanına görə, islamı qəbul etmiş kəndli, hətta xəzinədən mükafat da alırdı. Bundan başqa, islamı qəbul etmək həmin adamları nəzəri olaraq müsəlman

ərəblərlə bərabərləşdirirdi. Yeni dinə keçənlərin böyük bir hissəsi müsəlman ordusuna yazılır, bununla da ərəblərlə bağlanılmış müqavilələrin şərtinə görə cizyədən azad edilir, müharibə qənimətlərindən ərəblərlə bərabər istifadə edirdi. İslamı qəbul etmiş qeyri-ərəblər yerli əhalinin "məvla" (cəmdə - "məvali") adlandırılan qrupunu təşkil edirdilər [2, s.158].

## 8. Xilafət dövründə Naxçıvanın idarə sistemi

Ərəb üsul-idarə sistemi ilə tanışlıq sübut edir ki, xilafətin ilk dövründə bəzi sahələrdə şəriət hakim olsa da, dövlətçilik, ordu quruculuğu, xarici əlaqələrdə Bizans və Sasani idarə sisteminin əlamətləri özünü göstərirdi. Bunun bir sıra səbəbləri vardı. Hər şeydən öncə İslamın ilk yayıldığı ölkələr bu dövlətlərin təsir dairəsində olmaqla onlarda həmin dövlətlərə məxsus idarəçilik mövcud olmuşdur. Digər başlıca amil Bizans və Sasani imperiyalarında qədim dövlətçilik ənənələrinin, idarə sisteminin olması idi. İnzibati ərazi bölgüsü və idarə sistemi ilə əlaqəli materialları ümumiləşdirərək Xilafətdə idarəçiliyi aşağıdakı kimi qruplaşdırmaq olar:

Vilayətlərin idarəsi. İstila olunmuş ərazilərin etnik, dini mənsubiyyətinə deyil, təbii-coğrafi şəraitə uyğun olaraq inzibati bölgüsü [vilayətlər] və bunların idarə edilməsi üçün valilərin təyin edilməsi.

Valiliklərdə idarə sisteminin əsasını ədliyə, ordu, polis, maliyə və həc əmirliyi təşkil edirdi. Bunlar da öz növbəsində müəyyən təşkilatlara ayrılırdılar. Ümümiyyətlə, idarə sistemi xəlifədən, bir çox halda valilər və digər məmurlardan asılı olduğundan onların pozulması halları, xüsusən, əməvilər və abbasilər dövründə tez-tez baş verirdi. Xilafətdə valilərin idarə sisteminə örnək Hz.Əlinin Malik Əştəri Misirə vali təyin edərkən verdiyi fərmannamədir [21, s.329-344].

Azərbaycanda xilafət tam möhkəmləndikdən sonra müəyyən quruculuq işləri başlanır və şəhərlərin inkişafına xüsusi diqqət yetirilir. Bərdə, Beyləqan kimi böyük şəhərlərlə yanaşı Naxçıvanın da yenidən dirçəldilməsi üçün əhəmiyyətli işlər görülürdü. Sözsüz ki, bu mühüm ticarət yolu üzərində yerləşən Naxçıvanın ərəb işğalının ilk illərindən başlayaraq biri digərini əvəz edən ərəb-bizans-xəzər hücumları nəticəsində böyük zərər çəkdiyini təsdiqləməklə yanaşı, onun strateji əhəmiyyətindən də xəbər verir.

Mövcud hərbi siyasi durumla əlaqədar Qafqazdakı mövqelərini, demək olar əldən vermis bizanslılara qarşı Kiçik Asiya ərazisində qızğın döyüşlərin hələ də davam etdiyi bu dövrdə Xilafət özünün ikinci böyük rəqibi-xəzərlərə qarşı cihad elan edir. VIII əsrin axırınadək uzun bir dövrü əhatə edən, gah bu, gah da digər tərəfin uğuru ilə nəticələnən, qanlı döyüşlərlə müşayiət edilən ərəb-xəzər qarşıdurması başlanır. Belə ki, şimaldan hücum edən xəzərlər dəfələrlə ölkənin içərilərinə doğru irəliləmiş, Naxçıvandan yan keçməyən yürüşlər təşkil etmişdilər. Həm ərəb, həm də yerli mənbələr xəzər ordusunun Dərbənd keçidindən başlayan hücumlarının

hətta əl-Cəzirə və Mosuladək yetişməsi, bu hücumlar zamanı Arazı keçən xəzərlərin bir çox şəhər və kəndləri (Beyləqan, Atəşi Baquan, Ərdəbil, Təbriz və s.) ələ keçirərək dağıtması, ərəblərlə onlar arasında Azərbaycan ərazisində baş verən qanlı döyüşlərdən xəbər verirlər.

Azərbaycanın şimalında - Albaniyada yerli dövlətçilik sistemi ləğv edildikdən sonra Xilafətin regiondakı təmsilçisi olan vali ölkənin şəriksiz idarəedicisinə çevrilir. Bərdədə iqamətgah qurmuş bu vali ərəblərin cəza tədbirlərindən yaxa qurtara bilmiş yerli əyanların hakimiyyətlərini məhdudlaşdırmaqda davam edir, onları ağır vergilərə məruz qoyur, ölkənin ayrı-ayrı yerlərində, o cümlədən, Naxçıvan torpaqlarında Ərəbistandan gəlmə tayfa və qəbilələrin yerləşdirilməsi üçün şərait yaratmağa çalışırdı.

Nailə Vəlixanlı dövrü xarakterizə edərək yazır: "VIII əsrin ortalarında Xilafətin mərkəzində baş verən hakimiyyət dəyişikliyi - Əməvilər sülaləsi nümayəndələrinin Abbasilərdən olan xəlifələrlə əvəz olunması da ərəblərin Cənubi Qafqazda apardıqları siyasəti dəyişmədi. Ərəb idarə sisteminin ağır şərtləri, xüsusən, valilərin özbaşınalığı yerlərdə ciddi narazılığa səbəb olmuşdur. Bu, Xuzeymənin ikinci valiliyi dövründə [803-806-cı illər] daha kəskin xarakter alır. Yerli qaynağın yazdığı kimi Xilafətə qarşı mübarizənin daha da dərinləşdiyi bu illərdə xəlifə valiləri, hər bir çıxışı amansızlıqla yatırırdılar. Gevondun, hələ Xuzeymənin birinci valiliyi dövründə, Vaspurakanda feodal mülk sahiblərindən olan Arsrunin qardaşlarına qarşı həyata keçirdiyi cəza tədbirləri haqqında olan məlumatı bu dövrdə ərəb üsul-idarəsinin öz mülklərində yaşamaqda davam edən və yalnız öz nahiyəsini qoruyan yerli feodallara olan münasibətini ifadə edir. Əl-Yəqubi də Xuzeymənin, xüsusilə, ikinci dəfə vali təyin edildiyi dövrdə, daha qəddar tədbirlərə əl atması, "batrikləri və məliklərin oğlanlarını tutaraq boyunlarını vurdurması, onlarla çox pis rəftar etməsi haqqında" xəbər verir. Harun ər-Rəşid dövründə Azərbaycan (Atrpatakan), Ermənistan, Gürcüstan və Albaniyada biri digərini əvəz edən və mənbədəki ifadəyə görə "Allah qorxusu bilməyən" xəlifə valilərinin Cənubi Qafqaz ərazisində, eləcə də Naxçıvanda törətdikləri dəhşətli zorakılıq, ikiqat vergi boyunduruğu haqqında olan məlumat başqa mənbələrlə də (Əl-Yəqubi, Əbu Yusif və b.) təsdiq edilir. Xalqın qəzəb kasasının dolduğu bu ağır illərdə ərəblərin hələ Əməvilər dövründə başlayan ərəb qəbilələrinin Cənubi Qafqazda yerləşdirmə siyasətində yeni mərhələ açılır: Abbasilərin arxalandıqları cənub ərəb tayfalarının axını ilə güclənən bu köçürmə zamanı Arran və Azərbaycanın bir çox şəhər və kəndlərində xəlifə Harun ər-Rəşidin şimal və cənub qəbilələri arasında yaranmış münaqişəni aradan götürmək məqsədilə yürütdüyü siyasət nəticəsində Şeybani və Suləmi nəsillərinə mənsub şimal ərəbləri də məskən salırlar. Mənbələrin məlumatına görə, Xuzeymə ibn Xazimin birinci dəfə vali təyin edildiyi dövrdən sonra Harun ər-Rəşidin adından şimal vilayətlərində vali olan Yusif ibn Rəşid əs-Suləmi buraya

yenidən şimal ərəb qəbilələrindən olan nizariləri, ondan sonra məşhur Məzyədilər-Şeybanilər nəslindən "Azərbaycan, Ərminiyə, Arran və Bab əl-Əbvabda ilk vali olan" Yəzid ibn Məzyəd əş-Şeybani isə rəbiə qəbiləsinə mənsub olanları yerləşdirdi [46, s.14]. Ərəb idarəçilərinin törətdikləri vəhşiliklər, xalqa edilən zülm, köçürmə siyasətinin davam etdirilməsi vəziyyəti son həddə çatdırmışdır. Buna görə də həyata keçirilən tədbirlər ərəblərə qarşı yönəldilmiş çıxışların qarşısını ala bilmədi. Mənbələrdəki (əl-Yəqubi, əl-Kufı) məlumatın müqayisəli təhlili bu çıxışların da verginin ağırlığı nəticəsində baş verdiyinə dəlalət edir. Hələ 794-cü ildə ona verilən "əş-şəri" (hərfən: şər, şərəşur adam) ləqəbindən "xaricilər" təriqətinə mənsubluğu ("şurat" - xaricilər təriqətinə mənsub olanların erkən ləqəblərindən biridir) anlaşılan məşhur 15 qiyamçı Əbu Müslimin rəhbərliyi ilə Beyləqanda başlanan və sonra bölgənin bir çox yerlərini, o cümlədən, Naxçıvanı da əhatə edən hərəkata səbəb bərdəlilərin xəlifə tərəfindən xərac toplamaq üçün ora göndərilən Əbu-s-Sabahı öldürmələri olmuşdu. V.V.Bartold "Museylima" adlı əsərində və şərqşünas N.P.Ostroumova yazdığı nəşr edilməmiş məktubunda qeyd edir ki, Məhəmmədin (Məhəmməd peyğəmbərin-Q.Q.) vəfatından sonra baş vermiş üsyanların, çıxışların heç birində keçmiş dinə-bütpərəsliyə qayıtmaq istənilməmişdir. Üsyan başçılarının əsas məqsədi o idi ki, hər şey Peyğəmbərin zamanındakı kimi olsun, Onun buyuruqlarına əməl olunsun. Deməli, insanlar İslamdan deyil, idarəçilikdən narazı olmuşlar [73, s. 549-574].

Əldə edilmiş mənbələrdən bəlli olur ki, Əbu Müslimin rəhbərliyi ilə Beyləqanda başlanan və sonra bölgənin bir çox yerlərini, o cümlədən, Naxçıvanı da əhatə edən hərəkatda da hakimiyyətin zülmündən narazılıq əsas amil idi. Babək hərakatı ilə əlaqəli ərəb, fars, bizans və s. mənbələrdə geniş məlumat vardır. Sonrakı dövrlərdə həmin mənbələrin bir qismi digər dillərə tərcümə edilmiş, hərəkatla bağlı Qərbi Avropa, rus, Yaxın və Orta Şərq xalqlarının dillərində müxtəlif məzmunlu əsərlər nəşr olunmuşdur. Mənbələrə görə Babək 795 və ya 796-cı ildə Ərtəvildə (indiki Ərdəbil), Bilalabadda anadan olmuşdur. Onun haqqındakı məlumatlar ziddiyyətli xarakter daşıyır və bir-birindən fərqlənir. Xüsusən, ərəb dilli mənbələrin çoxunda onun şəxsiyyəti ilə əlaqəli məlumatlar daha çox mübahisə doğurur. Bu da, təbii ki, onun ərəb idarəçiliyinə qarşı mübarizəsi ilə bağlıdır. Babəkin ordusunun tərkibi yerli feodallardan və kəndlilərdən ibarət idi. "Azərbaycan tarixi"nin II cildində müxtəlif mənbələrə əsaslanaraq Babəklə əlaqəli yazılan məlumat diqqəti cəlb edir: "1.Məşhur ərəb alimi İbn ən-Nədim (X əsr) yazırdı ki, xürrəmilər mənşələrinə görə məcusdurlar (yəni atəşpərəstdilər); onun dediyinə görə, Babək iddia edirdi ki, o, Allahdır. Yenə də onun yazdığına görə, ruhunun Babəkin bədəninə keçəcəyini vəsiyyət edən Cavidan öz ardıcıllarına belə deyirdi: "Babək sizin üçün elə işlər görəcək ki, ondan əvvəl heç kəs onu görməyib və ondan sonra da gör-

məyəcək. O, torpaqlar ələ keçirəcək, zalımları məhv edəcək, məzdəkiliyi dirçəldəcəkdir". 2.Orta əsr ərəb alimi Əbu Mənsur Əl-Bağdadinin yazdığına görə, "babəkilər öz dinlərinin meydana gəlməsini Şirvin adlı əmirə isnad verirlər ki, o da islamdan əvvəl olmuşdur... Onlar iddia edirlər ki, Məhəmməd və digər peyğəmbərlərə nisbətən Şirvin daha ləyaqətli idi. Onlar dağda müsəlmanlar üçün məscid tikmişlər, öz uşaqlarına Quranı öyrədir, lakin gizlicə namaz qılmır, oruc tutmur, kafirlərə qarşı cihadı məcburi bilmirlər.... Məzyədin ardıcılları ... zahirdə islama pərəstiş edir, batində isə onu istəmədiklərini gizləyirlər". Batinilərin dini təbliğinin ilk dəfə xəlifə əl-Məmunun dövründə meydana çıxdığını göstərən bu tarixçi də "məzdəkilərin dini təlimini qəbul etmiş xürrəmilərin... batinilərlə əlbir olduğunu" qeyd edir. 3. Xürrəmdinilərlə batinilərin əlaqəsindən bəhs edən Nizamülmülk yazırdı: "Xürrəmdinilər və batinilər bir-birlərinə yaxındırlar, nə yolla olursa - olsun, islamı yox etmək istəyirlər…" [2, s.199- 200]. Göründüyü kimi, tarixi mənbələrdə Babəkin kimliyi, nəsil şəcərəsi, xurrəmilər haqqında ziddiyyətli məlumatlar mövcuddur. Yıldız Hakkı Dursun "Afşin" adlı yazısında qeyd edir ki, Babəkin ailə şəcərəsi haqqında müxtəlif rəvayətlər vardır; ancaq bunların hansının doğru olduğunu sübut etmək tam mümkün deyil [68, s.441-442]. Osman Turan müxtəlif tarixi mənbələrə söykənərək "Babək" məqaləsində Babək haqqında dəyərli məlumat verir. O qeyd edir ki, Məsudi Babəkin əsl adının Həsən olduğunu söyləyir. Dinəvəri isə Babəkin şəcərəsinin və məzhəbinin mübahisəli olduğunu qeyd edərək yazır ki, onun atası Xurrəmiyə məzhəbinin bir qolu olan Fatimilərin qurucusu Əbu Müslimin qızı Fatimənin oğlu olan Muxtardır. Osman Türan İbn Əl-Nadim və Maqsudiyə əsaslanaraq yazır ki, Babək Azərbaycanda doğulub və böyüyüb. On yaşına qədər uşaq əmizdirməklə (süd analığı etməklə-Q.Q) keçinən anasının yanında qalmış, sonra 18 yaşına kimi Təbriz yaxınlığında karvanda sarvanlıq etmişdir. Xürrəmilərin lideri Cavidan Bəzz qalasına gedərkən onu görmüş, cəsarətinə görə onu özü ilə aparmışdır. Bir müddətdən sonra Xürrəmilərin lideri olmaq istəyən Əbu İmranla Cavidan arasındakı döyüşdə hər ikisi ölür. Ərinin ölümündən sonra Babəkə aşiq olan Cavidanın arvadı ərinin ölərkən "ruhunun Babəkə keçdiyini və hər kəsin ona itaət etməsini vəsiyyət etdiyini" söyləməklə onu xurrəmilərin lideri səviyyəsinə qaldırdı [67, s.170-174].

1941-ci ildə Bakıda Z.Yampolskinin "Babək üsyanı" adlı kitabı nəşr edilir və Babək oxuculara Azərbaycan xalqının milli qəhrəmanı kimi təqdim olunur. Müəllif heç bir mənbəyə söykənmədən onun adının Həsən olduğunu yazır. Bəzilərinə görə Babəkin atası Mədaindən Bilalabada köçmüş, xırda ticarətlə, yağ satmaqla məşğul olmuş və burada evlənmişdir. Bu nikahdan doğulan Babək kiçik yaşlarında ikən atasını quldurlar öldürmüşlər. O, on yaşından başlayaraq çobanlıq, sonralar dəvə karvanlarında sarvanlıq etmişdir.

D.S.Margoliouth "Hurremiye" məqaləsində Babəkin şəxsiyyəti, apardığı

mübarizənin xarakteri ilə bağlı dəyərli məlumat verərək onun Xəlifə Məmun və Mütasim dövründə Abbasi hakimiyyətinə qarşı mübarizə aparan xurrəmilərin lideri olduğunu xüsusi vurğulayır [62, s.596-597].

Avstriya tarixçisi Erix Fayql Babək hərəkatından, onun ideyalarından bəhs edərək belə bir sual ortaya qoyur-Babək məğlub oldumu? Müəllif sualın cavabının Babəkin oğluna yazdığı ifadələrdə olduğunu vurğulayır: “Bir gün azad yaşamaq qırx il kölə kimi sürünməkdən üstündür” (14, s.50). Azərbaycan tarixi ilə tanışlıq sübut edir ki, sonrakı dövrlərdə Azərbaycan xalqı apardığı azadlıq mübarizəsində Babəki nümunə götürmüşdür. Müəllif bir məsələni də xüsusi vurğulayır “Babək məsələsi hansısa dini etiqad deyil, bu Azərbaycana etiqaddır” (14, s.55).

C.Bayramlı Babəkin başçılıq etdiyi xürrəmilik ideyalarını İslami nöqteyi-nəzərdən təhlil edərək onların digər İslami məzhəb ideyaları ilə eyniyyət təşkil etdiyini vurğulayır (13).

Tarixi mənbələrə söykənərək N.Vəlixanlı Babək hərəkatını Əbu Müslimin başlatmış olduğu üsyanın davamı kimi dəyərləndirir: “Geniş yayılmış bu üsyanın yatırılması üçün xəlifənin göndərdiyi bir neçə ordu üsyançılar tərəfindən məhv edilmiş, xəlifə qoşunlarının nəzarət etdiyi bəzi şəhərlər, o cümlədən Naxçıvan, üsyançıların əlinə keçmişdi. Əl-Kufinin yazdığına görə, artıq üç xəlifə ordusunu məğlub etmiş Əbu Müslim “Naxçıvan şəhərinə (əlyazmasında Nəşavə əvəzinə səhvən Kəsavə yazılmışdır, *-N.V.)* girib onu tutur, xərac toplayıb, onu öz silahdaşları (əshabları) arasında bölüşdürür. Buradan o, Dəbil şəhərinə tərəf gedir...” [46, s.14].

Dövrün mənbələrində VIII əsrin sonu IX əsrin əvvəllərində Xilafətin bir çox vilayətlərini, o cümlədən, Arran və Azərbaycanı bürüyən üsyan və çıxışların nəhayət böyük bir hərəkata - Xürrəmilər hərəkatına çevrilməsi, Babəkin başçılıq etdiyi xürrəmi qoşunlarının digər yerli qüvvələrlə birləşərək Xilafətə, ərəb üsul-idarəsinə qarşı mübarizə aparması haqqında geniş məlumat vardır. Qeyd etməliyik ki, bu dövrdə Naxçıvan istər yerli, istərsə də ərəb mənbələrinin xüsusi tədqiqat obyekti olmasa da, baş verən hadisələrin axarında onun bu və ya digər münasibətlə bağlı adının çəkilməsi, öyrənilən dövrdə bu şəhər və onun ətrafında cərəyan edən hadisələri izləmək imkanı verir. Azərbaycan tarixşünaslığında Babək hərəkatı ilə əlaqəli geniş məlumat olduğundan burada Naxçıvanda Babək hərəkatı, babəkilərlə əlaqəli bəzi məqamların açıqlanmağı məqsədəuyğun hesab edilir.

Problemlə əlaqəli bir sıra müəlliflərlə yanaşı Həmzə Vəlinin “Babək Xürrəmidinin son taleyi” kitabı diqqəti cəlb edir. Müəllif bir sıra dəlillərlə yanaşı Ordubad bölgəsində, Tivi kəndinin yaxınlığında, Gilançayın sağ sahilində, indi də əzəməti ilə diqqəti cəlb edən Babək qalasının olmasına, yerli əhali arasında Babəkin bu qalaya sığınması, onun düşmənlərlə mübarizə aparması ilə bağlı söyləntilərə, həmçinin bir sıra tarixi mənbələrə söykənərək Babək hərəkatının tarixi Naxçıvan

ərazisində, onunla sıx sürətdə bağlı olan Zəngəzurda geniş yayıldığını yazır. Müəllif yazır ki, Afşin Buğa Əl-Kəbirə 5 min nəfər verib Ordubaddan keçib Mehri ərazisinə daxil olub buranı Babəkilərdən təmizləməyi əmr edir. Özü isə 10 minlik ordu ilə Gilançay boyunca hərəkət edərək Gilan şəhərini dağıdır. Çay boyu hərəkət edən ərəb orduları Babək qalasını tutur [20, s.50-51]. Kitabda Ordubad şəhərinin şimal-şərqindəki Malik İbrahim qəbiristanlığı da ərəblərin Azərbaycandakı hakimi İbrahim əl-Ləis ibn-Fədlin burada dəfn edilməsi və onun məqbərəsi ilə əlaqələndirilir [20, s.91]. Kitabın sonunda verilmiş xəritədə Babək hərəkatı daha çox Zəngəzur və Ordubad bölgəsindəki Gilançayın sol sahilinə qədərki ərazilərdə yayıldığı göstərilir. Lakin Naxçıvanın qərb bölgələrində, xüsusən Şərur rayonu ərazisindəki Babəki kəndi, həmin kəndin ərazisindəki orta əsrlər dövrünə aid Babəki yaşayış məskəni, eyni adlı qəbiristanlıq, xalq arasından toplanmış materiallar Babək hərəkatının bu bölgələrdə də geniş yayıldığını söyləməyə imkan verir. Əgər 2012-ci ildə sosial-siyasi, iqtisadi cəhətdən Naxçıvanla böyük tarixi  əlaqələrə malik olan İğdır ərazısindən toplanmış materialları da əlavə etsək hərəkatın coğrafi dairəsi daha da genişlənər. Toplanmış materiallar nəticəsində məlum olmuşdur ki, burada Babəkin adı ilə bağlı mağara mövcuddur. Rəvayətə görə mağara geniş əraziyə malik olmaqla orada daşdan yonulmuş səkilər, düşməndən qorunmaq üçün əlverişli şərait vardır. Bir məsələyə də açıqlama gətirək ki, müəllifin bir sıra tarixi qaynaqlara, rəvayətlərə və öz müşahidələrinə əsasən hərəkatın mərkəzi hesab etdiyi Mehri və ətrafındakı ərazilər tarixən Naxçıvanla sıx şəkildə bağlı olmuşdur. Məsələ bunlarla bitmir. Hazırda Naxçıvanda xalq arasında Babəkin adı ilə bağlı rəvayətlər, toponimlər mövcuddur. Bunları da iki yerə ayırmaq olar-1.Babək hərəkatı və babəkilərlə birbaşa əlaqəli olan qalalar, yaşayış məskənləri, qəbiristanlıq və s. 2. Babəkin adını əbədiləşdirmək üçün qoyulmuş xatirə abidələri, onun adının verildiyi rayon, qəsəbə, meydan, küçə, park və s.

**Babək qalası** – Ordubad rayonunda, Biləv kəndi yaxınlığında, Gilan çayın sağ sahilində, e.ə. II-I minilliklərə və II–XIV əsrlərə aid arxeoloji abidə. Rəvayətə görə xalq qəhrəmanı Babək bu qalaya sığındığından onun adı ilə adlandırılmışdır. Yaxınlığında orta əsrlərə aid ikiaşırımlı körpü var. Bu bölgədən Əlincə qalaya gedən yolun üstündə yerləşən Babək qalası strateji baxımdan əlverişli mövqedə, uca zirvədə tikilmişdir. Xüsusi memarlıq xüsusiyyətlərinə malik qala yonulmuş daşdan inşa olunmuşdur [35, s.35-36; 36, s.69-70].

**Babəki** – Şərur rayonunda eyni adlı kəndin yaxınlığında orta əsrlərə aid yaşayış yeri. Sahəsi 3 hektara yaxındır. Hazırda əkin sahələrinin altında qalmışdır [35, s.36; 36, s.73].

**Babəki qəbirstanlığı** (Orta əsrlər dövrü)

**Babəki-** Şərur rayonunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi [36, s.73].




*Naxçıvan Xürrəmilər hərəkatı dövründə*
*(VIII əsrin sonu – IX əsrin I yarısı)*

## 9. Şəhərlər, sənətkarlıq, ticarət

VII əsrdə Cənubi Qafqazın digər əraziləri kimi, Naxçıvan ərazisi də Ərəb xilafətinin hücumuna məruz qalır. Ərəblərlə bizanslılar arasında gedən müharibələr Naxçıvanın iqtisadi və mədəni inkişafına mənfi təsir göstərir. 654-cü ildə Naxçıvan ərəblər tərəfindən tutulur. Azərbaycan ərazisi tamamilə ərəblərin hakimiyyəti altına

keçdikdən sonra, Xilafət öz mövqelərini möhkəmləndirmək üçün yeni inzibati və siyasi kurs tətbiq etmişdir. Vahid Azərbaycan ərazisi 5 hissəyə- Azərbaycan, Arran Muğan, Şirvan və Şəki mahallarına bölünmüşdü. Ölkə ərazisində Girdiman, Kambisena, Şakaşena, Tabasaran, Məsqət, Leyzan, Xursan, Muğaniyyə, Sisakan, Bəzzeyn və s. mahallar mövcud idi. İri şəhərlər sırasında (Marağa, Ərdəbil, Bərdə, Təbriz, Bakı, Şamaxı, Şirvan, Şabran, Dərbənd, Qəbələ, Şəki, Gəncə, Şəmkir, Beyləqan, Xoy, Salmas, Urmiya, Uşniya, Zəncan, Mərənd, Sərab və s.) Naxçıvanın xüsusi çoğrafi əhəmiyyəti var idi [40, s. 49-50]. Bunun üçün də, Naxçıvan bölgəsi işğal edildikdən sonra tezliklə xilafətin əsas hərbi və inzibati mərkəzlərindən birinə çevrildi [42, s. 33].

Bölgəyə təyin edilmiş yeni vali, Əbdüləziz ibn Hatim ən-Numan əl-Bəhili ilk olaraq quruculuq işlərini həyata keçirməyə başlayır. Əl-Bəlazurinin verdiyi məlumata görə valinin tikdirdiyi şəhərlər içərisində Nəşavə (Naxçıvan) şəhəri də var idi [46, s. 33]. Müəllif quruculuq tədbirlərini bu dövrdə Naxçıvan şəhərinin tamamilə dağıdılması ilə əlaqələndirir. N.Vəlixanlının fikrincə bu dövrdə Bərdə, Beyləqan kimi şəhərlərlə yanaşı, Naxçıvanın da yenidən dirçəldilməsi, mühüm ticarət yolu üzərində yerləşən bu şəhərin ərəb işğalının ilk illərindən başlayaraq biri digərini əvəz edən ərəb-Bizans-xəzər hücumları nəticəsində böyük zərər çəkdiyini təsdiqləməklə yanaşı, onun strateji əhəmiyyətindən də xəbər verir [46, s. 34].

Mənbələr təsdiq edir ki, bu dövrdə Naxçıvan ərazisi nəinki Azərbaycan, eyni zamanda Cənubi Qafqaz üçün tranzit əhəmiyyətə malik olmuş, Orta Asiya və İran tacirlərinin istifadə etdiyi əsas marşurutlar buradan keçmişdir [23, s. 86]. Bu yollardan biri Marağadan başlayaraq Mərəndə qədər davam edir, orada iki istiqamətə ayrılırdı ki, bu istiqamətlərdən biri də məhz Naxçıvan-Dəbil yolu idi [45, s.117]. Tranzit ticarət yolları vasitəsilə Naxçıvan Cənubi Qafqazın, həmçinin Yaxın və Orta Şərqin bir sıra ölkələri, xüsusilə Gürcüstan, İran, Bizans, Orta Asiya ilə ticarət əlaqəsi saxlayırdı. Orta əsr ərəb səyyah və coğrafiyaşünasları IX – XII əsrlərdə Naxçıvandan keçən mühüm ticarət yollarından öz əsərlərində bəhs edərək aşağıdakı marşrutları göstərmişlər: İbn Xordadbeh: “Kitab əl-masalik və-l-mamalik”, “Mərənddən Araz vadisinədək on fərsəng, sonra Nəşavəyədək on fərsəng, sonra Dəbilədək iyirmi fərsəng” [35, s.57]. Əl-İstəxri: - “Kitab masalik əl-məmalik”: “Marağadan Urmiyaya 30 fərsəng, Urmiyadan Səlmasa 14 fərsəng , Səlmasdan Xuveyə 7 fərsəng, Xoydan Nəşəvaya 3 gün və Nəşəvadan Dəbilədək 4 mənzil” [17, s.115]. Əl-Müqəddəsi “Əhsən ət-təqasim fi mərifət əl-əqalim”: “Dəbildən Nəşəvaya 4 mənzil, sonra Xoya qədər üç gün, sonra Səlmasa qədər 2 mənzil” [35, s.57]. İbn Havqəl: “Kitab əl-masalik və–l-mamalik”: Marağadan Dəbilə yol: “Urmiyadan və Səlmasdan keçərək Xoya qədər 53 fərsəng, Xoydan Nəşəvaya üç gün və Nəşəvadan Dəbilə dörd mənzil” [33, s.254]. Əbu əl-Fərəc Qudama: “Kitab əl-xərac və sanət əl-kitab”: “Mərənddən vadi üzrə əc-Cariyə on fərsəng, vadidən Nəşəvaya on fərsəng, Nəşəvadan Dəbilə iyirmi fərsəng”. Əl-İdrisi: “Nuzhat əl-muştaq fihtirak əl-afaq”: “Xoydan Nəşavaya beş mənzil, Nəşavadan Dəbilə dörd mənzil” [35, s.57].

Müəlliflərin məlumatlarından bir daha aydın olur ki, Naxçıvan-Mərənd, Xoy, Təbriz, Marağa, Urmiya, Səlmas, Xarrakan, Dəbil və s. şəhərləri birləşdirən tranzit-ticarət yolu üzərində yerləşmişdir.

Naxçıvan ərazisi, eyni zamanda Azərbaycanın ayrı-ayrı şəhərləri arasında iqtisadi əlaqələrin genişlənməsində mühüm rol oynamışdır. Azərbaycanın cənub rayonları ilə şimali Azərbaycan şəhərlərini bir-birinə bağlayan Naxçıvan ərazisi bu dövrdə Ərdəbil-Bərdə, Ərdəbil-Dərbənd, Marağa-Dəbil yolunda aparılan ticarət əlaqələrində mühüm rol oynayırdı [47, s.54]. Naxçıvan şəhəri Xilafətin digər ölkələrlə ticarətində fəal iştirak edirdi. Digər Azərbaycan şəhərləri kimi, Naxçıvan şəhərinin bazarları da əsas ticarət mərkəzlərindən hesab edilməklə, bütün Şərqin və Qərbin diqqətini cəlb edirdi. Ölkənin və dünyanın müxtəlif yerlərindən buraya gələn tacirlər gətirdikləri malları asanlıqla satır və özlərinə lazım olan yerli mallar alırdılar. O dövrdə bu ərazidə yerləşən ən mühüm nəqliyyat qovşağı Marağa idi. Buradan müxtəlif istiqamətlərə aparan bir neçə karvan yolu keçirdi. Dehxərqana, oradan isə Təbrizdən keçərək Mərəndə aparan şimal yolu Mərənddə iki istiqamətə yönəlirdi. Onlardan biri Xoydan Amidə (Türkiyədəki müasir Diyarbəkrə), o biri isə Naxçıvana, Sisyana, Dəbilə və s. aparırdı.

IX əsrdə Xilafətə tabe olan ölkələrdə azadlıq müharibələrinin genişlənməsi, feodallaşma prosesinin inkişafı mərkəzi hakimiyyətə tabe olmaq istəməyən qüvvələrin artmasına və daxili çəkişmələrin qüvvətlənməsinə səbəb olduğundan xilafət getdikcə zəiflədi. Uzun illər Xilafətin əsarətində qalan Azərbaycan ərazisi feodallıqlara parçalandı. Lakin bu dövrdə də sənətkarlıq və ticarət inkişaf etməkdə idi. Sənətkarlıq və ticarətin inkişafı ilə şəhərlər də inkişaf edirdi. Ayrı-ayrı şəhərlərin inkişafı ilə yanaşı Azərbaycan şəhərləri arasında olan münasibətlər də inkişaf edirdi.

X əsrin son rübündən başlayaraq tarixi Azərbaycan ərazisi, əsasən, üç sülalə – qədim Şirvan torpağında ərəblərdən əvvəlki şirvanşah titulunu və dövlətini bərpa etmiş Məzyədilər (Yəzidilər) əvvəl Sacilərə, sonra isə Salarilərə məxsus Azərbaycan torpaqlarında dövlət yaradaraq, qədim (Albaniyaya məxsus) arranşah titulunu daşıyan Şəddadilər və Arazdan cənubdakı torpaqlarımızda Azərbaycanşah titulunu bərpa edən və onu daşıyan Rəvvadilər tərəfindən idarə olunurdu. Bu regionda yerləşən onlarla feodal mülk sahibi tabeçiliklərində olan ərazini demək olar, müstəqil idarə edir və ya hər hansı bir münasibətdən asılı olaraq müstəqil olmağa cəhd göstərirdi. Belə mülk sahiblərindən biri də Qoğtən (Ordubad və Əylis ərazisi. – E.İ.) əmiri adlandırılan Əbu Duləf idi. M.Şərifli Əbu Duləf nəslinin 983-cü ildən bəri mərkəzi Naxçıvan olan Naxçıvanşahlığa başçılıq etdiyini və bu dövlətin 1065-66-cı illərdə Səlcuq sultanı Alp Arslan tərəfindən ləğv olunaraq Səlcuq dövlətinə tabe edildiyini göstərir.

İlk mənbələrdə Azərbaycan şəhərlərində çoxlu tacirlərin yaşadığı göstərilir. Azərbaycan şəhərlərindən bəhs edilən zaman Xoy və Naxçıvanda çoxlu bəzirganın, yəni tacirlərin yaşadığı qeyd edilir. Şəhərlərin daxili və xarici ticarəti məhz bu ta-

cirlərin əlində idi. Bu dövrdə Azərbaycan şəhərləri yalnız xarici ölkələrə daxildə istehsal edilən malları göndərməklə kifayətlənmirdilər. O zaman Azərbaycan şəhərləri Şərq və Qərb ölkələri, xəzərlər və slavyanlarla ticarət edir, qonşu və uzaq ölkələrdən Azərbaycana bir sıra mallar gətirilirdi [24, s.32-40].

IX əsrin sonlarından başlayaraq beynəlxalq və daxili ticarətdə Naxçıvanın rolu daha da artmağa başlayır. Çünki Abbasilərin hakimiyyətinin qüdrətli dövründə Qərb ilə Şərq ölkələri arasında karvan ticarəti Orta Asiya, Xorasan, Həmədan, Bağdad və oradan Aralıq dənizi sahili ölkələrinə getdiyi halda, xilafətin zəiflədiyi və yerli dövlətlərin yaranması ilə dünya karvan ticarəti şimala çəkilmişdi. Artıq Sacilərin hakimiyyəti dövründə Şərqdən gələn karvan ticarət yolu Naxçıvan-Dəbil-Ani xətti ilə Kiçik Asiyada olan Trabzona gedirdi.

V.Minorskinin fikrincə, karvan ticarət yolu Araz çayının Naxçıvan yaxınlığından şimala keçib, oradan Dəbil (Dvin) şəhərinə gedirdi. Beləliklə, Hindistan və Orta Asiyadan gələn karvan ticarət yolu Azərbaycan ərazisindən keçərək Kiçik Asiyaya və oradan da qərbə yollanırdı.

X əsrin ərəb tarixçisi Əl-İstəxri öz məlumatlarında Azərbaycandan keçən karvan ticarət yollarından bəhs edərkən yenə də Naxçıvanın adını çəkir və şəhərlərarası əsas marşrutlardan biri kimi Urmu-Səlmas-Xoy-Naxçıvan-Dəbil xəttini göstərir [45, s.194]. Azərbaycan Ərəb xilafəti dağıldıqdan sonra xırda feodallıqlara parçalansa da, ticarət və ticarət yollarının fəaliyyəti davam etmiş və mənbələrdən də göründüyü kimi, Naxçıvan ərazisi bu ticarət yolu üzərində çox əhəmiyyətli məntəqə olmuşdur.

Xilafətin hakimiyyəti illərində Naxçıvanın təsərrüfat həyatında sənətkarlıq çox mühüm yer tutmuşdur. Bu dövrdə şəhərdə bacarıqlı memarlar, dülgərlər, bənnalar, dulusçular, dəmirçilər, toxucular, dabbaqlar, bəzzazlar, başmaqçılar, oymaçılar, xalçaçılar, zərgərlər, boyaqçılar və digər peşə sahibləri yaşamışdır. Bu sənətkarların hazırladıqları məhsullar Şərq-Qərb ticarəti üçün əsas mallardan olmuşdur.

Azərbaycan əraziləri kimi, Naxçıvan ərazisi də ərəblərin hakimiyyəti illərində Böyük İpək yolunda strateji tranzit keçid məntəqəsi olaraq fəaliyyət göstərmişdir. Yaxın Şərq ölkələri, Orta Asiya və Hindistana uzanan yolların mühüm hissəsi məhz Naxçıvan ərazisindən keçmişdir. Bu dövrdə Naxçıvandan ölkənin digər şəhərlərinə, eləcə də Yaxın Şərq ölkələrinə duz, mis, pambıq, taxıl, meyvə qurusu, balıq, həmçinin zərif parçalar, cürbəcür bəzəklər, incə naxışlı taxta və saxsı qablar aparılmışdır. Yaxın Şərq ölkələrindən isə Naxçıvana ipək parçalar, şirli saxsı qablar, metal əşyalar, silahlar, ədviyyat və s. gətirilmişdir [19, s.130].

## 10. Epiqrafik abidələr

Azərbaycan ərəb qoşunları tərəfindən tutulduqdan sonra əhali islam dinini qəbul etdi və ərazidə islam mədəniyyətinin inkişafı üçün şərait yarandı. İslamın Azərbaycanda yayılması və bərqərar olması nəinki Azərbaycan mədəniyyətinin

inkişafını ləngitdi, əksinə özünəməxsus mədəniyyətə malik olan bu ölkənin mənəvi həyatında yüksəliş üçün güclü bir stimul oldu, onun mədəni tərəqqisinə yeni təkan verdi. Əvvəllər yaranıb, inkişaf etmiş Azərbaycan mədəniyyəti qazandığı nailiyyətləri ilə birlikdə islam mədəniyyətinin tərkib hissəsinə çevrildi və özünəməxsus xüsusiyyətləri ilə ümumislam mədəniyyəti konteksində inkişaf edərək yeni əxlaqi keyfiyyətlər və dəyərlər kəsb etdi. Artıq bu zamandan etibarən Azərbaycan mədəniyyəti islam mədəniyyətinin bir hissəsi kimi səciyyələndirilməyə başlandı. Aərbaycanda yeni mədəniyyət abidələri, o cümlədən məscidlər, mədrəsələr, türbələr, xanəgahlar və s. yarandı.

Xilafətin hər yerində olduğu kimi, Azərbaycanda, o cümlədən onun mühüm elm, təhsil və mədəniyyət mərkəzlərindən olan Naxçıvanda da dövlət dili ərəb dili - Quran dili oldu. Həmin dövrdə ərəb dili islam dünyasında latın dilinin Avropada oynadığı rolu oynayırdı. Bu dil yeni dini və mədəni birliyin dili kimi, Quran və şəriət dili kimi Xilafətin bütün ərazilərində bir çox danışıq dillərini və ədəbi dilləri sıxışdırmış, dövlət, elm və təhsil dili kimi qəbul edilmişdi. Ərəb dilinin tez yayılması üçün islamın ilk dövrlərindən başlayaraq hər yerdə ərəb dilində məktəblər açılır, Quranın düzgün qiraəti üçün məscidlərdə məşğələlər keçirilir, ərəb dilinin qayda qanunları ciddi şəkildə öyrədilirdi. Məhz bunun nəticəsində Yaxın Şərqin, Şimali Afrikanın, cənubi Avropanın bir hissəsinin, Hindistanın, İranın, Orta Asiyanın və Qafqazın, o cümlədən Azərbaycanın elm, mədəniyyətin dili dəyişdi. Xilafətin tərkibində birləşdirilmiş xalqların, həmçinin Azərbaycanın qədim mədəniyyətləri hicrətin I əsrindən (VII-VIII əsrlər) etibarən tarixdə ilk dəfə olaraq vahid bir dildə, bütün Yaxın və Orta Şərq xalqlarının oxuya bildiyi və başa düşdüyü ərəb dilində ifadə olunmağa başladı. Beləliklə, ərəb istilaları ilə birlikdə tarix səhnəsinə, xilafət adlanan məkana təkcə yeni və son din olan islam deyil, həm də ərəb dilinin timsalında Qurani-Kərim dili olan yeni dil də daxil oldu.

Bu zamandan başlayaraq Azərbaycan mədəniyyəti islam mədəniyyətinin tərkib hissəsi, onun ötürücüsü və ünsiyyət vasitəsi kimi ərəb dilində inkişaf edir. Ərazidə türk dili danışıq vasitəsi kimi qüvvədə qalsa da, xalq içərisindən çıxmış ziyalılar ərəb dilini də öyrənir, bu dili bilməyi özləri üçün borc və şərəf sayırdılar. Çünki Quran bu dildə oxunur, namaz ərəb dilində qılınırdı. Bu dili ziyalıların öyrənməsini vacib edən şərtlərdən biri də ondan ibarət idi ki, ərəb dilinin köməyi ilə islam dünyasında baş verən hadisələrlə, elm və mədəniyyət nailiyyətləri ilə tanış ola bilirdilər. Həmçinin, dünya ölkələrinin ən gözəl elmi və bədii əsərləri, ərəb dilinə tərcümə edilərək xilafət ərazisində yayılırdı. Ərəb dili bu əsərləri oxumaq üçün bir açar idi. Məhz bu səbəbdən də ərəb dilinin öyrənilməsinə maraq böyük idi.

Həmçinin, Xilafətdə çox incə dil siyasəti yeridilir, ərəb dilini bilməyənlərə heç bir dini və mülki idarələrdə məsul iş tapşırılmırdı. Bu isə eyni zamanda ərəb dilinə yaxşı və mükəmməl yiyələnməyi tələb edirdi. Azərbaycan ziyalılarının özləri

də artıq öz əsərlərini bu dildə yazırdılar. Azərbaycanda elə alim və şairlər yetişirdi ki, onlar nəinki ərəb dilinin incəliklərinə yiyələnmişdilər, həmçinin, bu dilin inkişafında müstəsna xidmətləri olmuşdur. Ərəb dili və ərəb əlifbası xalqın məişətinə daxil olur, ərəb dili ilə yanaşı təbii ki, ərəb əlifbası da qəbul edilirdi. Məktəb və mədrəsələrdə yazı və oxu işləri bu əlifba ilə aparılır, dövlət idarələrində ondan istifadə edilirdi. Artıq bu zamandan etibarən memarlıq və qəbirüstü xatirə abidələri üzərində ərəb qrafikası ilə yazılmış kitabələr də meydana çıxmağa başlayır və getdikcə genişlənərək kütləvi hal alırdı.

Görkəmli ərəbşünas V.A.Kraçkovskayanın yazdığı kimi, ərəb dilində ifadə olunan islamın qəbulu qeyri-semit mənşəli bir çox xalqların məişətinə Quranla birlikdə daxil olmuş, ərəb mədəniyyəti genişlənmiş, həmin ərazilərdə ərəb qrafikası da qəbul edilmişdi. Ərəb epiqrafikası abidələri İran, türk, monqol mənşəli xalqlarda belə əmələ gəlmişdir [95, s. 127].

Naxçıvan ərazisində indiyədək müxtəlif tip arxeoloji abidələr, etnoqrafik, numizmatik, antropoloji və s. materiallarla yanaşı, çoxlu sayda müsəlman epiqrafikası abidələri də gəlib çıxmışdır. Zaman keçdikcə bir qismi baş verən təbii fəlakətlər (zəlzələlər, daşqınlar və s.), müharibələr, yanğınlar və s. nəticəsində məhv olmuş, böyük bir hissəsi təbii qüvvələrin (yağış, qar, külək, isti, soyuq) təsirindən aşınaraq sıradan çıxmış, müəyyən bir qrupu isə tamamilə salamat, yaxud orta və yaxşı vəziyyətdə qalan bu kitabələr nadir hallar istisna olmaqla yarandığı dövrdə necə olmuşdursa elə, təhrif olunmadan zəmanəmizədək gəlib çatmışdır.

Tədqiqatçılar tərəfindən "kiçik mənbələr", "abidələrin daş pasportu" kimi qiymətləndirilən, dəqiq və mübahisə doğurmayan faktlarla zəngin olan bu abidələr tədqiqatçılara daim yeni, heç bir mənbədən məlum olmayan dəyərli faktlar təqdim edir. Onlar digər qaynaqlarla birlikdə orta əsr tarix və mədəniyyətimizin bir sıra problemlərinin obyektiv, dərindən və hərtərəfli araşdırılmasında müstəsna rol oynayırlar. Kitabələrdə əks olunan faktlar bir sıra mühüm tarixi məsələlərin aydınlaşdırılmasında xüsusi əhəmiyyətə malik olduqları kimi, tarix-mədəniyyət, memarlıq abidələrinin təyinatı, inşa tarixi, sifarişçisi, memarı, yaşayış məskənlərinin və qəbiristanlıqların dövrü, orta əsrlər zamanı bölgədə yaşamış görkəmli şəxsiyyətlərin adı, atasının adı, dəfn olunduğu yer, daşıdığı titullar, yaşadığı dövrün ictimai-siyasi həyatında tutduğu mövqe və s. haqqında da dəqiq və müfəssəl məlumatlar təqdim edirlər.

Bölgədən toplanılan çöl materialları və tədqiqatçıların məlumatları təsdiq edir ki, islamın qəbulundan sonrakı ilk dövrlərdən başlayaraq Naxçıvan bölgəsində müsəlman epiqrafikası abidələri meydana gəlmişdir. Zaman keçdikcə bu kitabələrin çoxu təbii və s. qüvvələrin təsirindən aşınmış, məhv olmuş, zəmanəmizədək gəlib çatmamışlar. Ancaq həmin kitabələrdən bəzi nümunələr XIX yüzillikdə və XX yüzilliyin əvvəllərində tədqiqatçılar tərəfindən qeydə alınaraq tədqiq olunmuşlar.

1901-ci ildə Naxçıvan bölgəsinin ikinci böyük şəhəri olan Ordubad şəhər Came

məscidinin ətrafında bərpa və abadlıq işləri aparılarkən torpağın altından üstündə ərəb əlifbası ilə “Harun” şəxs adlı və hicri 111-ci il tarixi həkk edilmiş bir kitabə tapılmışdır [41]. Bu kitabə sübut edir ki, şəhərin mərkəzində əzəmətlə ucalan Came məscidinin əsası hicri qəməri təqvimi ilə 111-ci ildə (miladi ilə 729-cu ildə) qoyulmuşdur. Deməli, Ordubad şəhəri hələ islamın qəbul olunduğu ilk vaxtlarda inkişaf etmiş yaşayış məskəni olmuşdur ki, orada ilk məscidlərdən biri inşa edilmişdir.

Bəzi tədqiqatçılar kitabədə qeyd olunan “Harun” şəxs adını Abbasi xəlifələrindən Harun ər-Rəşidlə eyniləşdirərək Ordubad Came məscidinin IX yüzillikdə inşa edilməsi qənaətinə gəlmişdir [106, s. 42]. Ancaq məlumdur ki, Harun ər-Rəşid 766-809-cu illərdə hakimiyyətdə olmuşdur. Kitabə isə hicri 111-ci (miladi 729) ildə həkk edilmişdir. Fikrimizcə, adı kitabədə qeyd olunan Harun Azərbaycan, o cümlədən Naxçıvan islamlaşdırıldıqdan sonra əraziyə gələn ərəb din xadimlərindən biri olmuşdur. Görünür, islam qayda-qanunlarını əhaliyə öyrətmək məqsədilə Ordubada gələn Harun adlı bu adam orada həm də islamı yeni qəbul etmiş insanların ibadət etməsi üçün məscid binası inşa etdirmişdir.

Rus diplomatı və şərqşünası N.V.Xanıkov XIX yüzilliyin ortalarında Naxçıvanda tədqiqatlar aparmış və tədqiqatlarının nəticələrinə həsr olunmuş məqaləsində yazmışdır ki, Arxangelski Ordubad şəhər qəbiristanlığında onun üçün hicri 227-ci il tarixli, kufi xətti ilə həkk edilmiş kitabə qeydə almış və həmin kitabənin estampını götürmüşdür [75, s. 10]. Miladi təqvimi ilə 842-ci ilə aid olan bu kitabə Naxçıvan bölgəsində xronoloji cəhətdən elmə məlum olan ikinci kitabədir. Ancaq bu və Ordubad Came məscidində aşkar olunmuş hicri 111-ci il tarixli kitabə indiyədək qalmamışdır.

Bu kitabələrin tarixləri Ordubad şəhərinin əsasının qoyulmasının XII əsrə aid olması haqqında bəzi ədəbiyyat materiallarının məlumatlarını təkzib edir və şəhərin bir yaşayış məskəni kimi daha əvvəlki zamanlarda yaranmasını sübuta yetirir.

# V FƏSİL

## NAXÇIVAN X-XIII ƏSRİN I RÜBÜNDƏ

### 1. Naxçıvan Azərbaycan feodal dövlətlərinin tərkibində

Ərəb xilafətinin hakimiyyəti dövründə inzibati-ərazi bölgü baxımından bəzi dəyişikliklər baş versə də, Naxçıvan Azərbaycanın tərkib hissəsi olaraq qalmaqda idi. Xilafət dövründə tarixi Albaniya ərazisi "Arran" istilahı adı ilə adlanmağa başlamışdı. Ərəb müəllifi əl-İstəxri (820-934) Arranın hüdudlarının Dərbənddən Tiflisə, oradan isə Naxçıvan da daxil olmaqla Araz çayına kimi uzandığını xəbər verir [59, s.59]. Naxçıvan şəhəri Arranın tərkibində mövcud olan və Azərbaycan ərazisi olan Naxçıvan ərəb inzibati ərazisinin birinci bölgəsinə daxil idi [39, s. 34-37].

İslam dininin yayılması, ticarət və mədəniyyətin inkişafı üçün əlverişli şəraitin meydana gəlməsi Naxçıvanın da inkişafına təsir göstərirdi. Lakin xilafətin ağır vergi siyasəti, Azərbaycan xalqının əsarət altında yaşamaq istəməməsi əhalini mübarizə aparmağa sövq edirdi. Babəkin başçılığı ilə xürrəmilərin azadlıq müharibəsi (816-837) xilafət ordularının məğlub edilməsində mühüm rol oynadı. Naxçıvanlılar da Ərəb xilafətinə qarşı azadlıq hərəkatında fəal iştirak edirdilər.

Xilafətin zəifləməsi nəticəsində Azərbaycanda feodal dövlətlər təşəkkül tapır və inkişaf edirdi. Vaxtilə Ərəb xilafətinə tabe olan Azərbaycan şəhərləri getdikcə müstəqillik əldə etməyə başlayan Azərbaycan feodal dövlətlərinin iqtisadi, siyasi və mədəni mərkəzlərinə çevrilirdilər. Bu şəhərlər içərisində Marağa, Ərdəbil, Təbriz, Mərənd, Bərdə, Gəncə ilə yanaşı, Naxçıvan şəhəri də mühüm rol oynayırdı [18, s. 67].

Azərbaycan ərazisində müstəqil Şirvanşahlar (861-1538), Sacilər (879-941), Salarilər (941-981/3), Rəvvadilər (X əsrin 80-ci illəri- 1116/7), Şəddadilər (971-1075) dövlətləri meydana gəldi. IX əsrin sonlarında Naxçıvan Sacilər dövlətinin tərkibinə daxil edildi [18, s. 67] və X əsrin 30-cu illərinədək onun hakimiyyətində qaldı [23, s. 63]. 893-894-cü illərdə xilafətin Azərbaycan üzrə hakimi Məhəmməd ibn Əbu-s Sac böyük bir ordu ilə Naxçıvandan keçərək Dəbilə (Dvinə) gəldi. Onun bura gəlməkdə məqsədi I Smbatı (894-914) cəzalandırmaq idi [7, s. 200]. Məhəmməd ibn Əbu-s Sac öldükdən sonra Naxçıvan onun varislərindən Yusif ibn Əbu-s Sacın torpaqları sırasına daxil olmuşdu. 910-cu ildə Yusif ibn Əbu-s Sac Naxçıvana gəlib, bir müddət burada qalır. I Smbat 915-ci ildə Yusif ibn Əbu-s Sac tərəfindən əsir alınır və edam olunur [7, s. 204]. Bundan sonra Yusif Azərbaycanda hakimiyyətini möhkəmləndirir. Sacilər dövləti qərbdə Ani və Dvin şəhərlərindən, şərqdə Xəzər dənizinədək, cənubda Zəncandan, şimalda Dərbənd şəhərinədək uzanan çox böyük ərazini tutmuş bir dövlət oldu [32, s. 54]. Yusif ibn Əbu-s Sacın dövründə (901-927) Azərbaycan torpaqları ilk dəfə vahid dövlətin hüdudlarında birləşdirildi.




*Naxçıvan Azərbaycan feodal dövlətləri dövründə (IX-X əsrlər)*

Mənşə etibarilə türk olan Sacilərin hakimiyyətdə olmaları indiki Azərbaycan dili və eyni sistemə daxil olan türk dilinin danışıq dili olaraq yayılması prosesini daha da inkişaf etdirdi. Yarım əsrdən çox bir tarixi dövr ərzində bütün Azərbaycan torpaqlarının vahid Azərbaycan türk dövlətinin – Sacilər dövlətinin tərkibində olması bütün ölkə miqyasında iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsinə, etnik fərqlərin aradan qalxmasına, vahid Azərbaycan türk xalqının formalaşması prosesinin sürətlənməsinə müsbət təsir göstərdi [16, s. 11].

Sacilər xanədanı süquta uğradıqdan (942) sonra Naxçıvan bir müddət Saci əmiri Deysəm ibn İbrahimin (932-937) hakimiyyəti altında qalmış, sonra Salarilər dövlətinin tərkibinə daxil olmuşdur [18, s. 67-69]. Salarilər dövləti təxminən 40 il fəaliyyət göstərmiş, Qafqaz və Ön Asiyanın ən qüdrətli feodal dövlətlərindən biri olmuş və Azərbaycanın bütün ərazilərini vahid şəkildə birləşdirmişdi. Salarilər Deyləm vilayətindən (*indiki Gilan – İ.H.)* idi. Salarilər sülaləsi öz mənşəyi etibarilə deyləmilərə mənsubdur [37, s. 126]. Salarilər dövlətinin Azərbaycanda birinci hakimi Salar Mərzuban ibn Məhəmməd (941-957) olmuşdu. Mənbələr Salar Mərzubanın öz dövrünün böyük hökmdarlarından biri, cəsur və mərd bir şəxs olduğunu göstərir.

Salarilər dövlətinin paytaxtı Ərdəbil şəhəri idi. Dövlətin ərazisi Qafqaz sıra dağlarından İraq və Mesopotamiya hüdudlarına qədər uzanırdı. Tarixin müəyyən dövrlərində Baqratilər, Arsrunilər, eləcə də Tiflis əmirliyi, Sənariyə hakimləri Salarilərin asılılığında olmuşlar. Salarilər dövlətinin tərkibinə Azərbaycanın cənub əraziləri ilə bərabər Arran, Şirvan (vassal kimi), Şəki, Dərbənd əraziləri də daxil idi. Əvvəl həmdanilər tərəfindən tutulan Naxçıvan və Dəbil şəhərləri Deysəm tərəfindən geri qaytarılır [37, s. 163]. Naxçıvan şəhəri 942-981-ci illərdə Salarilər dövlətinin əhatə etdiyi ərazinin tərkibinə daxil oldu [17, s. 68-69]. Sacilər və Salarilər dövründə Azərbaycan ərazisi vahid dövlətin tərkibində idi.

X əsrin 70-80-ci illərində Azərbaycan ərazisində yeni dövlətlər meydana gəldi. Salari hakiminin Rey hakimi ilə apardığı müharibədə əsir düşməsi, Mərzuban ibn Məhəmmədin ölümündən sonra onun oğlanları ilə qardaşı arasında hakimiyyət üstündə ara müharibələrinin getməsi mərkəzi hakimiyyətin zəifləməsinə səbəb oldu.

X-XII əsrlərdə Cənubi Qafqazda fəaliyyət göstərmiş feodal dövlətlərindən biri də Şəddadilər dövləti idi. Dövlətin əsasını Məhəmməd ibn Şəddad qoymuşdur. Şəddadilər dövləti Səlcuqlarla müttəfiqlik sayəsində XI əsrdə Cənubi Qafqazda ən qüdrətli dövlətlərdən birinə çevrilmişdir [32, s.56]. Salarilər dövlətinin zəifləməsindən istifadə edən Məhəmməd ibn Şəddad 951-ci ildə Dəbili ələ keçirib müstəqil Dəbil əmirliyini yaratdı [4, s. 209] və 971-ci ildə Gəncəni tutaraq Azərbaycan Şəddadilər dövlətinin əsasını qoydu, bir il sonra isə Ani əmirliyini yaratdı. Şəddadilər dövləti əslində həmin sülalə tərəfindən idarə olunan üç əmirliyin federasiyasından ibarət idi: Dvin əmirliyi (951-1130), Gəncə əmirliyi (971-1065) və Ani əmirliyi (1072-1199). Gəncə əmirliyinin ərazisi Kür və Araz çayları arasındakı

torpaqları əhatə edirdi. Naxçıvan, Sünik, Qafan və Arranın digər əraziləri də bu əmirliyin tərkibində idi. Şəddadilər dövlətinin ərazisi Kür çayı, Araz çayı, şərqdə Beyləqan nahiyəsi, qərbdə Xunan qalasına qədər uzanan Arran torpaqlarını əhatə edirdi. Arranın sərhəddi isə Dərbənddən Tiflisə və Araz çayı yaxınlığında Naxçıvana qədər çatırdı.

Fəzl ibn Məhəmmədin (985-1030) hakimiyyəti dövründə Şəddadilər dövləti daha da qüvvətləndi. O, Gəncə ətrafındakı bütün xırda feodal mülklərini aradan qaldırıb mərkəzi hakimiyyəti gücləndirdi. Onun hakimiyyəti illərində hərbi məqsədlə Araz çayı üzərində salınan Xudafərin körpüsü (1027) Azərbaycanın şimal və cənub torpaqları arasında iqtisadi və mədəni əlaqələrin genişlənməsində mühüm rol oynadı.

Tarixi Azərbaycan ərazisi X əsrin son rübündən başlayaraq Məzyədilər, Şəddadilər və Rəvvadilər tərəfindən idarə olunurdu. Naxçıvan X əsrin sonundan başlayaraq təqribən bir əsr ərzində Azərbaycanın tarixində mühüm rol oynamış Rəvvadilər dövlətinin tərkibində idi [25, s. 64]. Rəvvadilərin fəaliyyəti iki dövrdən ibarət olmuşdur. Rəvvadilər ilk pillədə 983-1065-ci illərdə, onların davamçıları sayılan Ağsunqurilər isə sonralar, 1107-1117-ci illərdə fəaliyyət göstərmişlər. Mənşəcə ərəb olan Rəvvadilər hələ VIII əsrdən başlayaraq Təbriz, Marağa, Əhər və Qaradağda hakimiyyətdə olmuş və öz müstəqillikləri uğrunda ciddi mübarizə aparmışlar.

Rəvvadi Əbül-Hica 983-cü ildə hakimi olduğu Əhərdə özünü müstəqil elan etdi və Rəvvadilər dövlətinin əsasını qoydu [32, s. 56]. Bu dövlətin ərazisi, əsasən, indiki Cənubi Azərbaycanı əhatə edirdi. İbn Xordadbeh Azərbaycan şəhərlərini və Azərbaycan vilayətlərində meydana gələn hökmdarlar haqqında yazır ki, Marağa, Miyanic, Ərdəbil, Barsan, Sisər, Bərzə, Saburxast və Təbriz Məhəmməd ibn ər-Rəvvad əl-Əzdinin hakimiyyəti altında idi [58, s. 107]. Rəvvadilər mütərəqqi bir addım ataraq ölkənin paytaxtını Ərdəbildən Təbrizə köçürdülər. Buna səbəb Təbrizin Ərdəbilə nisbətən tərəqqi etməsi, iqtisadi, siyasi və mədəni cəhətdən irəliləməsi olmuşdur.

Rəvvadilərin hakimiyyəti dövründə Azərbaycanın aborigen sakinləri olan Oğuz türklərinin mövqeyi daha da möhkəmləndi. 1028-ci ildən sonra təqribən iki min oğuz ailəsi Azərbaycana köçdü, öz soydaşlarına qovuşdular.

Beləliklə, aydın olur ki, Azərbaycan feodal dövlətlərindən olan Şirvanşah Məzyədilər, Sacilər və Rəvvadilər dövləti Xilafətə qarşı mübarizədə, Salarilər, Naxçıvan əmirliyi və Şəddadilər dövləti isə daxili mübarizə şəraitində yaranmışdır.

## 2. Naxçıvanşahlıq

Ərəb xilafətinin parçalandığı dövrdə yeni yaranan feodal dövlətləri bir-biri ilə ərazi üstündə çəkişirdilər. Bundan istifadə edən feodallar mülkün sahibi

tabeliyində olan torpaqları müstəqil idarə etməyə cəhd edir və müstəqil olmağa çalışırdı. Belə mülk sahiblərindən biri də Əmir Əbu Duləf idi. Əbu Duləf adına ilk dəfə IX-X əsrlər ərəb müəlliflərinin əsərlərində rast gəlinir. Duləfilər xanədanı Həmədanla İsfahan arasında olan yerlərə sahib idi [43, s. 67].

X əsrin 80-ci illərində ölkədə yaranmış siyasi vəziyyətlə əlaqədar Naxçıvanda müstəqil, yaxud yarımmüstəqil dövlət qurumu – "Naxçıvanşahlıq" meydana gəlir. Naxçıvanşahlıq ərəb xilafətinin süqutundan sonra təşəkkül tapmış Azərbaycan feodal dövlətlərindən biri idi. Naxçıvanşahlıq Salarilər dövlətinin son vaxtlarında meydana gəlmiş və Rəvvadilər dövləti ilə yanaşı fəaliyyət göstərmişdir [31, s.7]. Naxçıvanşahlıq adlanan feodallığın təşəkkülü Rəvvadilər dövlətinin adı ilə sıx bağlıdır. Bu feodallığın başında Əbu Duləfilər sülaləsinin nümayəndələri dururdu [18, s. 69]. Duləfilərin idarə etdiyi, Ordubadla Əylis arasında yerləşən Qoğtən əmirliyinin hakimi Əbu Duləf 982-ci ildə Salarilərin son nümayəndəsi Dvin hakimi Əbül Hica ibn İbrahimi məğlubiyyətə uğradaraq, Dvin, Naxçıvan və digər şəhərləri tutur və Basfurracan da daxil olmaqla həmin ərazilərdə möhkəmlənməyə çalışır. Lakin o, buna nail ola bilmir, ancaq onun nəvəsi Əbu Duləf sonralar Dvini yenidən tutur və "Naxçıvanşah" titulunu qəbul edərək şahlığı idarə edir. Bu feodal dövləti Naxçıvan, Qoğtən (Qoltan, Ordubad, Əylis) əmirliyi və Dvin ərazisini əhatə edirdi. Naxçıvanşahlıq 80 ilə yaxın (983-1065/66) mövcud olmuşdur. Qeyd etməliyik ki, Əbu Duləf "xüsusi xidmətlərinə görə" Yusif ibn Əbu-s Sacın köməyi ilə Naxçıvan və Qoğtənə sahib olmuşdu [43, s. 68]. Lakin M.Şərifliyə görə Əbu Duləf tutduğu yerləri 987-ci ilə qədər əlində saxlaya bilmişdi [38, s. 29], 987-988-ci illərdə Əbu Duləfin qoşunu Əbülheycə ibn Rəvvad tərəfindən məğlubiyyətə uğradılır. Nəticədə Əbu Duləfin ələ keçirdiyi torpaqlar Rəvvadilər tərəfindən geri alınır, 988-ci ildə Rəvvadi hökmdarının ölümü Əbu Duləfin yenidən Naxçıvan və Dvində möhkəmlənməsi üçün şərait yaradır [41, s. 123]. N.Vəlixanlı qeyd edir ki, "Əbu Duləfin adı çox uzun, təqribən 77 il müddətinə tarixi qaynaqların səhifələrindən çıxır və yalnız XI əsrin 60-cı illərinin ortalarına yaxın öz mədhiyyələri ilə məşhur olan Qətran Təbrizinin və Tusdan olan Əli Əsədinin əsərlərində görünür" [43, s. 71]. Qətran Təbrizinin qəsidələrində, Əsədi Tusinin "Gərşasbnamə" əsərində Əbu Duləf "ədalətli şahənşah", "Naxçıvan şahı", "ölkələr hakimi" kimi adlandırılır. R.Məmmədov, M.Şərifli, V.Piriyev və b. tarixçilər Naxçıvanşahlığı müstəqil feodal dövləti kimi tədqiq etsələr də, N.Vəlixanlı bunu "müstəqil dövlət deyil, Şəddadilər dövlətinin tərkib hissəsi olduğu, bu dövlətin Gəncə-Naxçıvan (Arran) əmirliyinə tabe olduğunu qeyd edir [41, s. 126-127]. Müəllifin fikrincə, Duləfilərin idarə etdikləri Naxçıvan dövlət deyil, feodal hakimlərin idarə etdikləri şəhər və ya vilayət idi [43, s. 77]. Duləfilərin idarə etdiyi Naxçıvan bu dövrdə Şəddadilər dövlətinin tərkibndə bir əmirlik idi. XI əsrdə hakim sülalə olan Əbu Duləfilər Naxçıvanda iri feodallar hesab olunurdular [18, s.64].

Naxçıvanşah Əbu Duləf Azərbaycan hakimi Rəvvadi Vəhsudan ilə dost

olub, onunla hərbi ittifaqa girmiş, rumlulara (Bizansa) və başqa düşmənlərə qarşı birgə vuruşmuşlar. Rəvvadi hökmdarı əmir Vahsudanla Şəddadi hökmdarı Əbülhəsən II Ləşkəri arasında əldə edilmiş dostluq və ittifaq, sözsüz ki, duləfilərin hakimlik etdikləri Naxçıvanda əmin-amanlığın bərpası üçün şərait yaratmışdı. Rəvvadilərlə qohumluq əlaqələri olan Duləfilərin idarə etdiyi Naxçıvan bu dövrdə də Şəddadilərə tabe idi.

Naxçıvanşahlığın son dövrü haqqında məxəzlərdə məlumata təsadüf edilməmişdir. Yalnız bu məlumdur ki, Səlcuq hökmdarı Alp Arslan (1063-1072) Azərbaycanın cənub vilayətlərində Rəvvadilər sülaləsinin hakimiyyətinə son qoyduqdan sonra, 1064-cü ildə Naxçıvana yiyələnmiş və buradan Ani şəhərinə hücum edərək onu tutmuşdu. M.Şəriflinin fikrincə, “Alp Arslan Naxçıvan şahlığını ləğv edərək, Səlcuq dövlətinə tabe etmiş, Naxçıvana öz əmirini təyin etmişdi” [38, s. 32]. N.Vəlixanlıya görə isə “Naxçıvan əmirliyi sultan Alp Arslanın bu əmirliyi ləğvindən sonra da Şəddadilər dövləti süqut edənədək (1075) onun tərkibində qalmışdır” [43, s. 80].

## 3. Səlcuq türkləri və Naxçıvan

XI əsrin ortalarında Yaxın və Orta Şərqin tarixində mühüm dönüş dövrü başladı. Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər ərazilər Böyük Səlcuq imperatorluğunun tərkibində idi. Bu dövlət, ümumdünya tarixinin gedişinə fəal təsir göstərmiş, Yaxın və Orta Şərqin etnik, hərbi-siyasi və ictimai-iqtisadi tarixində dərin iz buraxmışdı.

Səlcuqlar oğuz türkləri idilər. Onların adı məşhur türk sərkərdəsi Səlcuğun adından yaranmışdır. Səlcuq özü oğuz-türk tayfalarından biri olan Qınıq tayfasının başçısı olmuş, X əsrdə islam dinini qəbul etdikdən sonra oğuz-səlcuq tayfalarına başçılıq etmişdir [4, s. 214].

1038-ci ildə paytaxtı Nişapur şəhəri olan ilk Səlcuq dövləti meydana gəldi. Səlcuğun nəvəsi Toğrul bəy (1038-1063) sultan elan olundu. Sultan Alp Arslanın (1063-1072) və Məlikşahın (1072-1092) hakimiyyəti illərində səlcuq türkləri daha geniş əraziyə yayıldılar. Alp Arslan bütün Kiçik Asiyanı işğal etdi. Sonralar Suriya, Fələstin, Qərbi Azərbaycan və Gürcüstan, Orta Asiyada isə Amu Dərya ilə Sır Dərya çayları arasındakı torpaqlar səlcuq türklərindən asılı vəziyyətə düşdü.

XI əsrin ilk rübündə oğuz dəstələri Cənubi Qafqaz ərazisində göründülər. Araz çayını keçən oğuzlar, cənub istiqamətindən Arran torpaqlarına soxularaq, Naxçıvan, sonra isə Dəbil şəhərlərinə yetişdilər. Qəznəvilər tərəfindən təqub olunan oğuzlar XI əsrin 30-cu illərində Cənubi Azərbaycan ərazisinə gəldilər. Rəvvadi hökmdarı onları təbəəliyə qəbul etdi. Ölkənin cənub vilayətləri türk qəbilələrinin məskəninə çevrildi. Xüsusilə, Toğrul bəyin hakimiyyəti dövründə oğuz türklərinin Azərbaycana köçləri başladı [27, s. 515]. Oğuzların Azərbaycana gəlişi Rəvvadi

Vəhsudanın dəvəti ilə olmuşdu. İbn əl-Əsir Toğrul bəyin Azərbaycana səfəri ərəfəsində ölkədəki vəziyyəti belə izah edir: "Hicri 446-cı ildə (1054/55) Toğrul bəy Azərbaycana hərəkət edərək Təbrizə gəldi. O vaxt Təbrizin hakimi olan Əmir Əbu Mənsur Vəhsudan ibn Məhəmməd Rəvvadi, Toğrul bəyə tabe olduğunu bildirdi, adına xütbələr oxutdurdu və sikkələr üzərində zərb etdirdi, hədiyyələr göndərərək qəlbini ələ aldı və oğlunu girov olaraq onun yanına göndərdi" [13, s. 223]. Beləliklə, Toğrul bəy qədim türk yurdu Azərbaycana sahib oldu. Azərbaycan türkləri Səlcuq türklərinə özlərinin təbii müttəfiqi kimi baxırdılar. Burada yaşayan oğuz tayfaları səlcuq türklərinin soydaşları idilər. Böyük Səlcuq imperiyasının meydana gəlməsindən çox qabaq Azərbaycan qədim türk tayfalarının, o sıradan oğuz türklərinin yaşadığı ümumi əraziyə daxil idi. Səlcuq axınları zamanı türk boylarının yeni toplumları Azərbaycanda yerləşdilər. Eyni kökdən olan səlcuq türkləri ilə Azərbaycan türkləri tez bir zamanda qaynayıb-qarışdılar.

Toğrul bəy Əbu Duləfin hakim olduğu Naxçıvana yollandı və onun sahibinin səlcuqiləri süzeren (vassal) kimi tanımasına nail oldu. İkinci səlcuq sultanı Alp Arslan Azərbaycandakı feodal mülklərin səlcuqilərin vassalı olan sahibləri üzərində təsir gücünü artırmaq üçün Cənubi Qafqaza yürüş etdi [3, s. 391]. Alp Arslan Səlcuq sultanı olduğu illərdə ilk səfəri Təbriz-Mərənd yolu ilə Naxçıvan bölgəsinə oldu. O, 1064-cü ildə Naxçıvana yiyələndi və burada özü üçün xüsusi iqamətgah tikdirdi [32, s. 105].

Alp Arslan Naxçıvanda olarkən özünü orduya və ölkəyə tanıtmaq üçün 14 yaşlı oğlu Məlikşahı vəliəhd elan etdi və ordunun bir hissəsini onun ixtiyarına verdi. Baş vəzir Nizamülmülk və Gəncə-Dvin hakimi əmir Şavur da ordusu ilə birlikdə şahzadəyə yardım göstərdi. Alp Arslan oğlu Məlikşahı və vəziri Nizamülmülkü öz yerində qoyub şəhəri tərk etdi. Məlikşah və Nizamülmülk Naxçıvanda olan müddət ərzində bir sıra qalalar, o cümlədən Sərmari, Kulp-Tuzluca qalalarını fəth edib, Naxçıvan əmirinin sərəncamına verdilər. Az sonra onlar da Naxçıvanı tərk etməli oldular. Buradan məlum olur ki, səlcuqlar artıq Naxçıvan şahlığına son qoyaraq, oraya öz əmirlərini təyin etmişdilər.

Səlcuqlar imperiyanı qoruyub saxlamaq, daxili çəkişmələrdən və separatizmdən uzaq olmaq üçün qəbilə başçılarına, sərkərdələrə iqta payı verirdilər. Nizamülmülkün təşəbbüsü ilə həyata keçirilən iqta sistemi Azərbaycanda da tətbiq edildi. Məlikşah öz qohumlarına, vassallarına, sərkərdələrinə iqta payı verməyə başladı. Azərbaycanı, Arranı, o cümlədən səlcuq əmirlərinin strateji yeri hesab etdikləri Naxçıvanı da Məlikşah öz əmisi oğlu İsmayıla verdi [43, s. 88]. İsmayıl ibn Yaquti Məlikşahın vəfatından sonra da bir müddət Naxçıvanın valisi olmuşdur. 1092-ci ildə Məlikşahın ölümündən sonra Səlcuq imperiyası bir neçə müstəqil dövlətə parçalandı və Azərbaycanda Səlcuq hökmdarlarının təsiri getdikcə zəiflədi. Arran və Azərbaycanın cənub şəhərləri, o cümlədən Naxçıvan müəyyən müddət səlcuq sultanlarından asılı vəziyyətdə qalmışdı. Səlcuqların Azərbaycan üzrə

canişini Naxçıvanda əyləşirdi [18, s.72; 33, s.105]. Sultanlıq taxtı üstündə Börküyarıq ilə Mahmud arasında mübarizə gedirdi. Börküyarığın qardaşı Məhəmməd Tapar bu vaxt Gəncədə idi. Börküyarıq (1092-1104) ilə Məhəmməd Tapar arasında 1101-ci ildə Həmədan yaxınlığındakı döyüş Börküyarığın qələbəsi ilə qurtarsa da, sultan Səncərin işə qarışması və Məhəmməd Taparın adına xütbə oxunması qardaşlar arasında mübarizənin davam etməsinə səbəb oldu [43, s. 89]. 1103-cü ildə Xoy yaxınlığında baş verən döyüş Börküyarığın qələbəsi ilə nəticələndi və uzun müzakirələrdən sonra 1104-cü ildə tərəflər arasında anlaşma bağlandı. Anlaşmaya görə Börküyarıq sultanlıqda qaldı, Məhəmməd Tapar isə varis elan olundu. Diyarbəkir, Əl-Cəzirə, Mosul, Azərbaycan və eləcə də Naxçıvan Məhəmməd Taparın hakimiyyəti altında qaldı. Lakin əldə edilən barışıq çox çəkmir, yenidən qarşıdurmaya rəvac verilir. İbn əl-Əsir yazırdı: "Bunların arasındakı müharibələr uzandı və hər yeri fitnə-fəsad bürüdü, var-dövlətlər talan olundu, qanlar axıdıldı, şəhərlər xarabaya döndərilib, kəndlər yandırıldı. Börküyarıq vəfat etdiyindən (1104) onun varis elan etdiyi oğlu II Məlikşah hakimiyyətə keçir. Lakin Səlcuq dövlətinin yeni başçısı sultanlıq taxtını saxlaya bilmir və əmisi Məhəmməd Taparın itaətinə keçir. İmperiyanın bir hissəsinə, o cümlədən Naxçıvana sahib olan Məhəmməd Tapar Böyük Səlcuqlu taxtında oturur (1105-1118). II Məlikşahın hakimiyyəti isə ancaq ay yarım davam etdi. Məhəmməd Taparın ölümü ilə sultanlıq taxt-tacı üstündə mübarizə yenidən qızışdı. Mahmud və qardaşları arasında olan hakimiyyət çəkişməsi birincinin hakimiyyətə gəlməsinə imkan vermədi. Save döyüşündə (1119) Mahmudun ordusunun məğlub olması Səncər ibn Məlikşahın Səlcuq dövlətinin sultanı olması yolunu asanlaşdırdı. Məğlubiyyətdən sonra döyüş meydanından qaçan Mahmud ilə Səncər arasında aparılan danışıqlar 1119-cu ilin noyabr ayında tamamlandı. Səncər ilə Mahmudun görüşməsi nəticəsində Böyük Səlcuq dövləti iki hissəyə bölündü: Şərqi Səlcuqlular və Qərbi Səlcuqlular. Şərqi Səlcuqluların başında duran Səncər ibn Məlikşah, eyni zamanda, "böyük sultan" sifətiylə bütün Səlcuq coğrafiyasının hakimi oldu. Bu danışıqlarda torpaqlar da paylaşdırılmışdı. Gəncə ilə birlikdə "bütün Arran və Araz çayınadək Naxçıvan Toğrula tabe olur". Sultan Mahmud vəfat edənədək (1131) Toğrul Naxçıvanda qalaraq, ona iqta hüququnda verilmiş bu ərazini idarə edir.

Beləliklə, ilk səlcuq hücumları dövründən başlayaraq hərbi-strateji əhəmiyyətinə görə Naxçıvan səlcuq əmirlərinin iqamətgahı olub. Maraqlıdır ki, sultanlıq taxtına çıxanadək, demək olar ki, əksər səlcuq sultanları I Məlikşah, Məhəmməd Tapar, Məsud, Toğrul imperiyanın bu mühüm bölgəsində fəaliyyət göstərmişlər [43, s. 93]. Toğrul hələ Naxçıvanın əmiri olduğu vaxt, sultanlığın paytaxtına gedənədək, arvadı Möminə xatın və oğlu Arslan şahla Naxçıvanda da yaşamışdır. Naxçıvan bu illərdə Atabəy Qara Sunqurun vasitəsi ilə bölgəyə sahiblik edən Əmir Məsudun idarə sisteminə daxil idi.

Göründüyü kimi, Səlcuqlar dövlətinin meydana çıxması, çiçəklənməsi və

nəhayət, parçalanma dövrləri Yaxın və Orta Şərqin bir çox ölkələrinin, o cümlədən Azərbaycanın, eləcə də Naxçıvanın tarixi taleyində mühüm yer tutur.

### 4. Naxçıvan Azərbaycan Atabəyləri dövlətinin tərkibində

Böyük Səlcuq imperiyasının tənəzzülü dövründə bir sıra müstəqil dövlətlər meydana gəlmişdi. Belə dövlətlərdən biri də Azərbaycan atabəylərinin idarə etdiyi Eldənizlər dövləti idi. Eldənizlər dövlətinin ərazisi əvvəllər İraq Səlcuq sultanlığının tərkibində idi. İraq Səlcuq sultanlığı (1118-1194) İraqı, İranı və Kür çayından cənubdakı Azərbaycan torpaqları daxil olmaqla, Cənubi Qafqazın bir hissəsini əhatə edirdi.




*Naxçıvan Azərbaycan Atabəylər (Eldənizlər) dövləti dövründə (1136-1225-ci illər)*

Azərbaycan Atabəyləri dövlətinin yaranması Eldənizlər sülaləsinin banisi Atabəy Şəmsəddin Eldənizin adı ilə bağlıdır. Şəmsəddin Eldəniz Dərbənd bazarından alınmış qıpçaq qullarından olmuşdur. Eldəniz zirəkliyi və fərasəti ilə diqqəti cəlb etmiş, səlcuq sultanının etimadını qazanmış, yalnız inanılmış adamlara həvalə olunan sultan mətbəxinin başçısı vəzifəsinə irəli çəkilmişdi [25, s. 302]. II Toğrulun dövründə (1132-1135) sultanın şəxsi məmlükləri sırasına keçən Eldəniz sultanın arvadı Mömünə xatının xüsusi hörmətini qazanmışdı. O, İraq, Səlcuq sultanlığının başçısı II Toğrula  sədaqət müqabilində “əmir” titulu almış və hökmdarın azyaşlı oğlu Arslan şahın atabəyi təyin edilmişdi. II Toğrulun ölümündən sonra hakimiyyətə gəlmiş sultan Məsud (1135-1152) Eldənizi mərhum sultanın dul qalmış arvadı Mömünə xatınla evləndirir, 1136-cı ildə isə Arranı iqta kimi ona verib, Bərdəyə yola salır. Şəmsəddin Eldəniz Arranda hələ də nüfuz sahibi olan Qara Sunqurun Gəncədəki və Naxçıvandakı mövqeyinin möhkəm olduğunu nəzərə alaraq, artıq əvvəlki qüdrətini əldən vermiş Bərdə şəhərində qərarlaşır. Bu zaman Gəncə, Naxçıvan və Arranın Arazdan şimalda bir çox torpaqları sultan Məsudun atabəyi Qara Sunqurun idarəsində idi. Şəmsəddin Eldəniz Şirvanı da bir süzeren-vassal kimi öz hakimiyyətinə tabe etmişdi. Qara Sunqurdan sonra onun yerini tutan əmir Çavlının qəfil ölümündən sonra (1146) Şəmsəddin Eldəniz Naxçıvan vilayətini öz mülklərinə birləşdirir və iqamətgahını Bərdədən Naxçıvana köçürür. O, sultan sarayından iqta aldığı Arrandan başqa, Azərbaycanın bütün cənub rayonlarını, habelə Naxçıvanı müstəqil idarə etməyə və öz adından pul kəsdirməyə başlayır. 1146-cı ildə Atabəy Naxçıvan vilayətini öz torpaqlarına birləşdirir və həmin dövrdən başlayaraq Naxçıvan şəhəri və vilayəti Eldəniz nəslinin irsi iqtasına çevrilir. Bəhs edilən dövrün hadisələrində Şəmsəddin Eldənizin adı “Gəncə və Arranın sahibi” (İbn əl-Əsir), “Naxçıvan şəhəri və vilayətinin hakimi” (Mxitar Qoş) kimi çəkilir. Mənbələr Eldənizin bu dövrdə Naxçıvanda möhkəmlənməsi, “daim Naxçıvanda olması” haqqında məlumat verir. XI əsrin II yarısından başlayaraq Naxçıvan şəhəri səlcuq əmirlərinin əsas iqamətgahlarından biri idi. Yaqut-əl Həməvinin Azərbaycanın böyük şəhəri adlandırdığı “Naxçıvan (Nəşavə)” şəhəri artıq XII əsrin 40-cı illərindən başlayaraq Eldənizlər sülaləsinin nümayəndələri olan Azərbaycan atabəylərinin doğma (xass) mülk-tac şəhərinə çevrilir. Şəmsəddin Eldəniz ailəsi Mömünə xatın və övladları ilə birlikdə burada yaşayır.

Azərbaycan Atabəyləri dövləti dövründə Naxçıvan sərhəd vilayəti kimi xüsusi rejimdə idi. Burada başqa dinə - xristianlığa etiqat edənlərin nüfuzu məhdudlaşdırılmışdı və islamın mühafizəsi üçün ciddi nəzarət mövcud idi [8, s. 170-181]. Naxçıvan vilayəti divan əl-xassə və ya divan əl-əla adlanan Ali divana tabe idi. Şəmsəddin Eldəniz müstəqil hökmdar kimi fəaliyyət göstərdiyi dövrdə (1136-1175) dövlətin idarə olunmasında fəal iştirak edirdi. O, səlcuq sarayında görkəmli sərkərdə və uzaqgörən siyasi xadim kimi böyük nüfuza malik idi [3, s. 404].  Şəmsəddin Eldəniz 1160-cı ildə “Böyük Atabəy” titulu aldı və oğulluğu Arslan şahın sultan elan

edilməsinə nail oldu. 1160-cı ilin noyabr ayında Eldəniz Arslan şahla Həmədana gəldi, burada Arslan şahı sultan taxtında əyləşdirdi və başına tac qoydu. Şəmsəddin Eldənizin böyük oğlu və sultanın ana tərəfdən qardaşı Nüsrətəddin Cahan Pəhləvan sultanın əmir-hacibi oldu, ikinci oğlu Müzəffərəddin Osman Qızıl Arslan isə sultan ordularının ali baş komandanı təyin edildi. Eldəniz özünün bütün əmirlərini dövlətdə yüksək vəzifələrə təyin etdi. Beləliklə, İraq Səlcuq sultanlığı Eldənizlər evinin hakimiyyəti altına düşdü. Bundan sonra İraq Səlcuq sultanlığı əslində Azərbaycan sultanlığına çevrildi. Azərbaycan torpaqları, əslində, vahid dövlət halında birləşdirildi.

Şəmsəddin Eldəniz bütün İraq sultanlığının gerçək sahibi, sultan Arslan şah isə dövlət başçısı rolunun formal icrası ilə məhdudlaşdırılmış şəxs idi. “Atabəy Eldəniz əsl hökmdar idi. Əmrləri o verir, torpaqları o paylayır, dövlət xəzinəsinə o nəzarət edirdi. Toğrulun oğlu sultan Arslanşahın isə ancaq adı hökmdar idi” [25, s. 303]. Sultanın adından fəaliyyət göstərmək imkanını əldə etmiş Eldəniz öz mövqeyindən sülalə mülklərini genişləndirmək üçün istifadə edirdi. O, Qafqaz dağlarından Fars körfəzinədək uzanan böyük ərazini öz hakimiyyətinə tabe etdi: “Bağdad və ətraf istisna olmaqla bütün ölkələr” Eldənizin hakimiyyəti altına düşdü. Əl-Hüseyninin məlumatına görə, onun mülkləri “Tiflis qapılarından Məkranadək” uzanırdı. O, Azərbaycan, Arran, Şirvan, Cibəl, Həmədan, Gilan, Mazandaran, İsfahan və Rey vilayətlərinin sahibi idi. Eldənizin vassalları olan Mosul, Kirman və Fars atabəyləri, Şirvan, Xuzistan, Xilat, Ərzən ər-Rum və Marağa hakimləri onun adını xütbələrdə çəkir, adına pul kəsdirirdilər [3, s. 406; 13, s. 119].

Azərbaycan Atabəyləri – Eldənizlər dövləti o vaxta qədər Azərbaycanda yaranan bütün feodal dövlətlərdən hərbi-siyasi və iqtisadi baxımdan ən güclüsü olmuşdur. Bu dövlət Azərbaycanda məhsuldar qüvvələrin inkişafının və onun davamı olaraq feodal istehsal üsulunun tam hakim mövqeyə keçməsinin nəticəsi idi.

Tədqiqatçılar Azərbaycan Eldənizlər dövlətinin və onu idarə edən sülalənin tarixini təşəkkül (1136-1160), çiçəklənmə (1161-1191) və tənəzzül (1191-1225) dövrünə bölürlər. Birinci və ikinci dövrlərdə əldə edilən nailiyyətlər Eldənizin və oğlanlarının adı ilə bağlıdır.

İraq Səlcuq sultanı Arslan şahın iqamətgahı olan Həmədan Azərbaycan Atabəylər dövlətinə başçılıq edən Şəmsəddin Eldənizin əsas şəhəri, dövlətin paytaxtı olur. Bununla belə, özünün ilkin paytaxt və Eldəniz nəslinin şəxsi mülki statusunu saxlayan Naxçıvan siyasi-mədəni mərkəz və strateji mövqe kimi əhəmiyyətini itirmədi. Məlumdur ki, Naxçıvan şəhəri bir müddət Eldənizlərin paytaxtı olmuş və XII əsrin 70-ci illərindən mərkəzi şəhər kimi fəaliyyət göstərmişdi. Bu zaman Atabəylərin xəzinəsi həmişə atabəyin olduğu yerdə saxlanılır, əsas xəzinə isə Naxçıvan yaxınlığındakı Əlincə qalasında mühafizə olunurdu. Şəmsəddin Eldənizin hakimiyyəti dövründən dövlətin bütün gəlirləri burada toplanırdı [33, s. 7]. Şəmsəddin Eldənizin oğlu Məhəmməd Cahan Pəhləvanın dövründə (1174-1186)

paytaxt Naxçıvandan Həmədana (1175), sonra isə Təbrizə köçürülür. Bununla belə, Şəmsəddin Eldəniz vaxtaşırı Naxçıvanda olur, ölkəni buradan da idarə edirdi. Mənbələrdən bu da məlumdur ki, Sultanın anası və atabəyin arvadı olan Mömünə xatının əsas iqamətgahı Naxçıvan şəhəri olmuşdur.

Şəmsəddin Eldənizin hakimiyyəti illərində Azərbaycan Atabəyləri dövlətinin bir sıra əraziləri və şəhərləri qonşu gürcülərin intensiv xarakter daşıyan hücumlarına məruz qalırdı. Gürcü çarı III Georgi 1161-ci ilin yayında 30 min nəfərlik qoşunla Gəncəyə və Dəbil şəhərinə soxulub oranı qarət etdi [5, s. 313]. Gürcü hakiminin bu vəhşi hərəkətinə cavab olaraq Atabəy Eldəniz 1163-cü ilin yanvarında öz vassalları ilə birlikdə Gürcüstana hücum edərək xeyli adam öldürdü, əsir götürdü və hərbi qənimət ələ keçirdi. Bu məğlubiyyətin acı nəticələrindən ibrət dərsi almayan gürcü çarı 1164 və 1166-cı illərdə yenidən Azərbaycana hücumlar etmiş, Gəncəyə gəlmiş, qətlə və talana başlamışdı [5, s. 313]. Eldənizlər hər dəfə gürcülərin hücumlarını daha ağır zərbələrlə dəf etmişlər. 1174-cü ildə gürcü qoşunları Naxçıvana hücum etdi. Gürcü qoşunlarını geri oturdan Şəmsəddin Eldəniz Ağşəhər qalasını ələ keçirdi və Naxçıvana qayıtdı [8, s. 64]. Gürcü qoşunları 1174-cü ildə Aniyə, 1175-ci ildə isə Dvinə hücum etdilər. Atabəy Eldənizin rəhbərliyi ilə gürcü qoşunları ağır məğlubiyyətə düçar edildi, "çar III Georgi güc-bəla ilə əsir düşməkdən qurtardı, abxazlar darmadağın edildi, müsəlmanlar elə bir qələbə çaldı ki, beləsini kimsə xatırlaya bilmirdi" [8, s. 66].

1175-ci ilin noyabrında Şəmsəddin Eldənizin arvadı və Səlcuqlu tarixinin ən məşhur xatınlarından olan Mömünə xatın Naxçıvanda vəfat etdi. Dövlətin təşəkkül və ilkin inkişaf mərhələsində mühüm rol oynayan, siyasi həyatında fəal iştirak edən bu qadın İraq sultanlığının başçısı olmuş, böyük oğlu Arslan şahla atabəy Şəmsəddin arasında münasibətlərin tənzimlənməsinə nail ola bilmişdi [43, s. 102]. Mömünə xatının oğluna müraciətində bu cəhətlər özünü göstərir: "Fikir vermə! Bu adam (*yəni Eldəniz – İ.H.*) öz həyatını təhlükə altına qoyub, dəfələrlə amansız döyüşlərə atılıb. Bundan başqa, səni sultan edənədək özünün ən əziz malından keçib, neçə qulamını və adamını ölümə göndərib. Səndən də yaşca böyük, nə qədər səlcuqlar var ki, həbsxanalardadır, dara düşüblər. Yerlərindən hərəkət edə bilsəydilər, muradlarına çatardılar. Ancaq edə bilmirlər. Sən isə sultanlıq taxtındasan, o və onun hər iki oğlu sənin xidmətində və sənin əlinin altındadır. Sənin düşmənlərinlə döyüşür, sənin rəqiblərinə qalib gəlirlər. Sənin canın bütün bunlardan azaddır. Atabəy nə qərar qəbul etsə - bağışlasa və ya əlindən tutub alsa, bunlar sənin dövlətinin möhkəmlənməsi, hakimiyyətinin davamlı olması üçündür. Qoy onun əməlləri səni sıxmasın, onun tədbirləri səni darıxdırmasın: axı o, sənin məmlükündür" [43, s. 102].

Azərbaycan Atabəyləri dövlətinin siyasi həyatında mühüm rol oynayan, bu ağıllı qadın Naxçıvanda torpağa tapşırıldı. Atabəy Eldəniz onun qəbri üzərində məqbərə tikdirməyə başladı. Lakin Mömünə xatından bir ay sonra, zəmanəsinin

böyük siyasi xadimi, Azərbaycan Atabəyləri dövlətinin yaradıcısı, bu dövlətin, eləcə də Naxçıvanın ictimai-siyasi həyatında mühüm rol oynamış Şəmsəddin Eldənizin özü də vəfat etdi [24, s. 49]. Məqbərənin tikintisi Atabəy Cahan Pəhləvanın vaxtında başa çatdırıldı. Türbənin uca gövdəsini yuxarıda qapayan yazı qurşağında – abidənin baş kitabəsində yazılmışdır: "...Bu məqbərəni dünyanın elmli adil məliki, böyük qalib Şəmsəddin Nüsrət əl-islam və vəl-müslimin Cahan Pəhləvan atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəniz... dünyanın və dinin cəlalı, islamın və müsəlmanların namusu Möminə xatının xatirinə tikməyi əmr etdi!.." Baştağ çərçivəsinin üstündə abidənin tikilmə tarixinin "məhərrəm 582" - (1186)-ci ilin yaz çağı olduğunu aydınlaşdıran Ə.Ələsgərzadə türbə yaxınlığında olmuş baştağın kitabəsindəki məlumata, eləcə də tarixi qaynaqlara əsaslanaraq belə bir məntiqi nəticəyə gəlmişdi ki, "...türbə Cahan Pəhləvanın ölümündən bir az öncə bitmiş, baştağ isə onun ölümündən sonra tikilmişdir. Şübhəsiz ki, Cahan Pəhləvanın özü də bu türbədə dəfn edilmişdir" [11, s. 90; 55, s. 57].

Azərbaycan Atabəyləri dövləti Şəmsəddin Eldənizin oğlu Məhəmməd Cahan Pəhləvanın (1175-1186) hakimiyyəti illərində daha da gücləndi. O, Səlcuq sultanı III Toğrulun (1176-1194) atabəyi idi. Azyaşlı III Toğrul Azərbaycan hökmdarının himayəsi altında Naxçıvanda yaşayırdı [4, s. 222]. Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti dövründə Azərbaycanı onun kiçik qardaşı Qızıl Arslan idarə edirdi. Qızıl Arslan həm də Məhəmməd Cahan Pəhləvanın oğulları Əbubəkrin və Özbəyin atabəyi idi.

Valideynlərinin vəfatından sonra, o vaxtadək Həmədanda, sultan sarayında yaşayan, sultanlıqda vəzirdən sonra üçüncü vəzifə olan "hacib" (kamerger) vəzifəsini alaraq "əmir əl-hacib əl-kəbir" titulunu daşıyan Cahan Pəhləvan ata mülkünə - Naxçıvana qayıtdı. Dövlətin buradakı xəzinəsini, taxt-tacın əmlakını, eləcə də bütün süvari və piyada qoşunlarını öz nəzarəti altına aldı [8, s. 73]. Məhəmməd Cahan Pəhləvan bütün dövlət vəzifələrinə özünün ən yaxın adamlarını təyin etdi. Öz tərəfdarlarına çoxlu torpaq mülkləri paylamaqla mərkəzi hakimiyyəti xeyli qüvvətləndirdi. Atası kimi onun da 50 min nəfərlik nizamlı və güclü atlı ordusu vardı. Ölkədə əsil hakimiyyət Cahan Pəhləvanın əlinə keçdi. Ətraf torpaqların sahibləri və vassallarından heç biri buna müqavimət göstərmirdi, çünki Pəhləvandan "bütün hakimlər qorxurdular" [60, s. 97]. Ölkə əmirləri və xəzinə - hamısı Cahan Pəhləvanın sərəncamında idi [13, s. 119]. İbn əl-Əsirin məlumatına görə, Cahan Pəhləvana "Arran, Azərbaycan, Həmədan, əl-Cibal ölkəsi, İsfahan, Rey və bunların arasında yerləşən torpaqlar tabe idi və ona Farsın və Xuzistanın hakimləri itaət edirdilər" [13, s. 118].

Cahan Pəhləvanın çox böyük uğurlarından biri Ağsunqurilər xanədanına mənsub Təbriz şəhərini öz mülklərinə qatması idi. Atabəy Cahan Pəhləvanın inzibati bacarığı və sərt tələbkarlığı sayəsində dövlət idarəsinin bütün sahələrində qayda-qanun möhkəmləndirilmişdi. Atabəyin hakimiyyətinin on ili ərzində dövlət

heç bir xarici basqına məruz qalmamışdı. Məhz onun hakimiyyəti dövründə "gürcülər onunla sülh bağlamış, onun tələblərini qəbul etmişlər". Bu dövrdə Azərbaycan torpaqlarını Məhəmməd Cahan Pəhləvanın kiçik qardaşı Qızıl Arslan (1186-1191) idarə edirdi. Məhəmməd Cahan Pəhləvan Azərbaycan və Arranı tərk edərək sultanlığın paytaxtı Həmədana gəldiyi üçün, ilk vaxtlar qardaşı Müzəffərrəddin Qızıl Arslanı öz yerinə qoydu [41, s. 48]. Cahan Pəhləvanın oğlanları Əbubəkr və Özbəyin hakimiyyəti dövründə paytaxt Təbriz olsa da, Naxçıvan iqtisadi və mədəni mərkəz kimi mühüm rol oynamışdır. Bu dövrə aid Naxçıvanda möhtəşəm abidələr vardır. Əbubəkr hələ atasının sağlığında Azərbaycan və Arrana vali təyin olunduğu vaxtdan Naxçıvanda yaşayırdı. Naxçıvan sərhəd vilayətində yerləşən xüsusi rejimli bölgə olduğu üçün, buraya, demək olar ki, həmişə Eldənizlər xanədanı üzvlərindən olan valilər təyin olunurdu [43, s. 109]. Şəhərləri isə valinin adından "adətən tanınmış yerli nəsildən olan" rəislər idarə edirdilər. Onların vəzifəsi irsən atadan oğula keçirdi. İlk Azərbaycan atabəyləri dövründə Naxçıvanda yaşayan Yusif Küseyir oğlu belə rəislərdən olmuşdur. Ona "xacə, tanınmış rəis" titulu verilmişdir [55, s. 51].

Məhəmməd Cahan Pəhləvan 1186-cı il martın 23-də vəfat etdi [8, s. 83]. Atabəyin müasiri İbn əl-Əsir Cahan Pəhləvan haqqında bunları söyləyib: "...O, xoş xasiyyətli insan, ədalətli, müdrik və səbirli hakim idi. Onun hakimiyyəti illərində [tabeliyində olan] ölkələr əmin-əmanlıq, təbəələri isə dinclik şəraitində yaşayırdılar" [13, s. 118]. Eyni zamanda məlumdur ki, o, misilsiz miras qoymuşdur: onun 5000-dən artıq şəxsi məmlükü və 70 min atı, qatırı və dəvəsi var idi [8, s. 83]. Cahan Pəhləvan özündən sonra kimsənin yığa bilmədiyi miqdarda var-dövlət qoyub getmişdir. Onun var-dövlətinin bir hissəsi Deyləm dağlarında yerləşən Sərcahan qalasında, qalanı isə Naxçıvan yaxınlığındakı Əlincə qalasındakı xəzinədə qorunurdu. Sərcahandakı xəzinəyə onun yoldaşı İnanc xatın sahib olmuş, Əlincə qalasındakı xəzinə isə Cahan Pəhləvanın Naxçıvanda yaşayan ikinci yoldaşı Zahidə xatının ixtiyarında qalmışdı [60, s. 154, 156].

Cahan Pəhləvandan sonra İnanc xatının və tərəfdarlarının təşəbbüsünə baxmayaraq, hakimiyyətə atabəy Qızıl Arslan keçdi [1186-1191]. Cahan Pəhləvan sağlığında "Azərbaycan və Arranın idarə olunmasını oğlu Əbubəkrə tapşırmış və onun tərbiyəsini əmisi Qızıl Arslana həvalə etmişdi. Qızıl Arslanın hakimiyyəti dövründə də Naxçıvan özünün Azərbaycan atabəylərinin mərkəzi şəhəri statusunu saxlayırdı. Naxçıvanda yaşayan Zahidə xatın həm şəhərin idarəsini, həm də Əlincə qalasındakı dövlət xəzinəsini ələ keçirir [60, s. 154]. Bu bacarıqlı qadın dövrünün tanınmış şəxsiyyətlərindən olub, Eldənizlər dövlətinin siyasi həyatında mühüm mövqe tutmuşdu. Zahidə xatın əsasən, Naxçıvanda yaşamış, hakim kimi Azərbaycanın bu vilayətini idarə etmişdir. Zahidə xatın vəfat etdikdən sonra müəyyən müddət Naxçıvanın hakimi əl-Cəlaliyyə olmuşdur. Ehtimala görə əl-Cəlaliyyə Cahan Pəhləvan və Zahidə xatının qızıdır [8, s. 84].

Qızıl Arslan hakimiyyətdə möhkəmlənməmiş sultan III Toğrul, İnanc xatın və bir sıra əmirlər ona qarşı çıxırlar. Qızıl Arslan qardaşı arvadı İnanc xatınla evlənməklə onun özü və oğlanları ilə barışığa nail ola bilir. Sultan III Toğrul isə Qızıl Arslanın hakimiyyətdə olması ilə barışmaq istəmir. Nəticədə, 1188-1190-cı illərdə III Toğrulla əmisi Qızıl Arslan arasında qarşıdurma birincinin məğlubiyyəti ilə qurtarır. "III Toğrulun əl-qolu qandallanıb, Naxçıvan yaxınlığındakı Qəhrəm qalasına salınır" [8, s.94; 43, s.110]. Qızıl Arslan İraq sultanlığının müttəfiq hakimi olur. Atabəy Azərbaycan, Arran, Həmədan, İsfahan, Rey vilayətlərinə, onlara bitişik ərazilərə sahiblik edir, Fars və Xuzistan hakimləri vassal kimi ona tabe olur. Qızıl Arslanın mövqeyi möhkəmlənir, ordu onun tərəfinə keçir və hakimiyyəti az qala əlindən çıxacaq Atabəy o dərəcədə qüvvətlənir ki, artıq ciddi rəqib görmürdü [8, s. 89]. Xəlifə ən-Nasirin məsləhəti ilə Atabəy Qızıl Arslan sultan taxtını tutur.

İnanc xatın və onun tərəfdarları Qızıl Arslana qarşı sui-qəsd hazırlayırlar. 1191-ci il sentyabrın 21-də o, yatağında öldürüldü. Eldənizlərin yaratdığı mərkəzi hakimiyyət parçalandı. İraq, Rey, Mosul, İsfahan onların asılılığından xilas oldu. Eldənizlərin əlində, ancaq Azərbaycan torpaqları qaldı. Azərbaycanda hakimiyyəti Qızıl Arslanın qardaşı oğlu, həm də onun qəyyumluğu altında tərbiyə olunmuş Əbubəkr (1191-1210) ələ keçirdi. Əbubəkr tezliklə Naxçıvana gəlir. Əlincəqalaya və xəzinəyə sahib olur [8, s. 98]. Atabəy Əbubəkrin hakimiyyətə gəlməsi ilə Naxçıvan şəhəri yenidən ölkənin əsas idarə mərkəzinə çevrilir. Naxçıvanın və Əlincənin valiləri Əbubəkrin ali hakimiyyətini tanıyırlar. Bu işdə analığı Zahidə xatın ona yardımçı olur. "Bütün Azərbaycan və Arran" Əbubəkrə tabe olur [43, s. 112].

Atabəy Əbubəkr öz sələflərindən fərqli olaraq hakimiyyətinin əksər illərini Naxçıvanda qalır, yalnız Azərbaycana və Arrana hakimlik etməklə kifayətlənməli olur [3, s. 419]. Ara müharibələri və feodal çəkişmələri, xüsusilə də gürcü qoşunlarının Azərbaycan torpaqlarına dağıdıcı yürüşləri dövlətin tənəzzülünü sürətləndirir. 1202-1203-cü illərdə gürcü qoşunları Gəncəni mühasirəyə alır, Dvini işğal və qarət edərək, Naxçıvana doğru istiqamət götürür. Gürcülərin Dvini tutduğunu bilən və onların ölkənin içərilərinə soxulacağından qorxan Əbubəkr Naxçıvandan Təbrizə yola düşür [8, s. 110]. Zəif iradəli Əbubəkr sələflərinin ənənələrini yaşada bilmədi, təmsil etdiyi sülalənin nüfuzunu zəiflətdi, dövlətin süqutunun qarşısını ala bilmədi.

Atabəy Əbubəkrin ölümündən sonra (1210) ona tabe olan torpaqlar qardaşı Müzəffərəddin Özbəyin ixtiyarına keçdi [5, s. 317]. Onun hakimiyyətinin ilk ilində (1210-1211) gürcü qoşunları yenidən Azərbaycana hücum edirlər. Bu, gürcülərin Azərbaycana təşkil etdikləri ən böyük hərbi yürüşlərdən idi. Əvvəlcə Naxçıvana hücum edən gürcülər şəhəri ələ keçirə bilmir, Culfaya doğru yönələrək Dəvədüz dərəsini keçib Mərəndi talayır və Təbrizi mühasirəyə alırlar [3, s. 426]. Şəhər hakimi Zahidə xatın çoxlu pul, daş-qaş və sənətkarlıq məhsulları verib şəhəri dağıntıdan qurtarır. Atabəy Əbubəkrdən fərqli olaraq Naxçıvanda deyil, Təbrizdə yaşayan

“...Özbək Xarəzmşahının adına xütbə oxutdurub tabeliyinə daxil olur” [13, s. 130]. Atabəylərin bütün xəzinəsi Xarəzmşahın əlinə keçir.

Naxçıvanda isə bu zaman Özbəyin anadangəlmə lal-kar olduğu üçün Xamuş ləqəbli oğlu atabəy Qızıl Arslan, yəni əl-Məlik Xamuş hakimlik edirdi. Gürcü hücumlarının səngidiyi bu illərdə Naxçıvanda da nisbi əmin-amanlıq hökm sürürdü.

1221-ci ilin yanvarında Xorasan və İraq Əcəmindən keçərək Azərbaycan ərazisinə soxulan monqolların dağıdıcı və viranedici hücumları, nəhayət Naxçıvana da yetişdi. Monqolların hücumlarının davam etdiyini görən Özbək “Təbrizi tərk edib, Naxçıvana gedir...” [8, s. 128]. Atabəy Özbək Əlincə qalasında gizlənir. Qırğınlar yalnız Atabəyin Naxçıvanın sahibi olan oğlu Qızıl Arslan Xamuş monqollara üzrxahlıqla “günahı boynuna götürüb” müraciətindən sonra dayandırılır [8, s. 128]. Bununla belə, atabəylərin böyük zövqlə abadlaşdırdıqları Naxçıvan şəhəri və onun ətrafı böyük dağıntılara məruz qaldı, insanları məhv edildi, əsir aparıldı.

Atabəy Özbəyin müasiri İbn əl-Əsir onun bir dövlət başçısı kimi bu dövr fəaliyyətini kəskin tənqid etmişdir. Çünki monqollar Azərbaycanı tərk etdikdən sonra Özbək Naxçıvanı tərk edərək yenidən Təbrizə qayıtmış, arvadı, III Toğrulun qızı Məleykə xatın isə ərinin ölkəsinə hakimlik etmişdir [13, s. 147]. Naxçıvan isə bu zaman Zahidə xatının qızı, Özbəyin atabir bacısı məlikə Cəlaliyyənin əlində idi [43, s. 117]. Xarəzmşahlar dövlətinin hökmdarı sultan Məhəmmədin oğlu Qiyasəddin Pirşah Azərbaycana yürüş etdikdə, bu hücumların qarşısını ala bilməyən atabəy Özbək bacısı Cəlaliyyəni ona ərə verir və bu yolla barışıq əldə edir. Beləliklə, Naxçıvan Qiyasəddin Pirşahın tabeliyinə keçir. Atabəy Özbək Əlincə qalasında olarkən arvadı Məlikə xatının Cəlaləddin ilə evləndiyini eşidir. Bu xəbərdən sonra Özbək vaxtını içki içməklə keçirir və 1225-ci ilin ikinci yarısında Əlincə qalasında vəfat edir. Atabəy Özbəyin vəfatı ilə dövrün ən qüdrətli dövlətlərindən olan Azərbaycan Atabəyləri dövlətinə son qoyuldu. Şəmsəddin Eldənizin övladlarına tabe olan ərazilər 1231-ci ilədək Azərbaycanda, Arranda, Şirvanda və Gürcüstanda ağalıq edən Xarəzmşah Cəlaləddin Manqburnının əlinə keçir.

Məlikə Cəlaliyyə Naxçıvanda yaşayırdı və bu ərazilər onun mülki olaraq qalırdı. O, Naxçıvanı və ona aid torpaqları idarə edirdi. Atabəylərin Naxçıvandakı iqamətgahında hökmdarlara məxsus cah-cəlalla yaşayan Cəlaliyyənin öz mühafizə dəstəsi, şəhəri və ətraf mahalları müdafiə edə biləcək qoşunu, inzibati idarə sistemi və saray xadiməsi vardı. Cəlaləddin Manqburnının vəziri Şərəf əl-Mülk Eldənizlər nəslindən olan məlikə Cəlaliyyənin öz oğlu kimi böyütdüyü Aytuğmış adlı gəncdən istifadə edir. Şərəf əl-Mülkün şərtinə görə Aytuğmış şəhəri ələ keçirməli, məlikə Cəlaliyyə həbs edilməli və Aytuğmış onun yerini tutmalıdır. Lakin Cəlaliyyə Aytuğmışın bu planından vaxtında xəbər tutmuş və onun qoşununu məğlub etmişdi. Naxçıvan canişini olan məlikə Cəlaliyyənin sarayında bütün vəzifələri demək olar ki, yalnız qadınlar tuturdu [43, s. 120].

Qiyasəddin Pirşah Azərbaycanda olarkən, o, öz hacibini Naxçıvan vilayətinin

vəziri təyin etdi. Vəzir Sədrəddin Əbül-Bərakət əl-Osmaniyə aşağıdakı vəzifələri yerinə yetirməli idi: "...Kafirlərin ağalığı nəticəsində yaranmış itkiləri aradan qaldırmalı, ədaləti bərpa etməli, dini cəmiyyətlərin, müsəlman və bütpərəstlərin vəziyyətlərini yaxşılaşdırmalı, hər bir kəslə öz ləyaqətinə görə rəftar etməli, yalnız köhnədən təyin olunmuş vergiləri – müsəlmanlardan xəracı və zimmilərdən cizyəni almalıdır" [8, s.198]. Bütün məsələlərdə ona səlahiyyətlər verilmiş və sarayda onun tərəfindən qoyulmuş qaydaların qanun qüvvəsinə malik olması göstərilmişdir.

Vəzir Şərəf əl-Mülkün planları baş tutmur. Lakin o, məlikə Cəlaliyyə ilə bağlı yeni planlar hazırlayırdı. Bu vaxt, 1229-cu ildə Cəlaliyyənin əri Qiyasəddin Pirşah qətlə yetirilir. Bundan sonra Naxçıvanı tabeliyində saxlamaq üçün məlikə Cəlaliyyəni qaynı Xarəzmşah Cəlaləddinə ərə getməyə vadar edir [43, s.122]. Məlikə Cəlaliyyənin dəvəti ilə sultan Cəlaləddin Naxçıvana gəlir və onların izdivacı baş tutur. 1231-ci ildə Cəlaləddin də qətl edilir və monqollar Naxçıvanı ələ keçirir, talan və qarət edir, dağıdır və yandırırlar.

Azərbaycan atabəylərinin hakimiyyəti dövründə özünün ən parlaq çağını keçirən, müasirlərin və xələflərin "Nəqşi-cahan" adlandırdıqları, monqolların isə "demək olar boş səhraya çevirdikləri" bu gözəl şəhər başqa Azərbaycan şəhərələri kimi Monqol xaqanlığının tabeliyinə keçir.

## 5. İqtisadi həyat

**Kənd təsərrüfatı**. Azərbaycanın xilafət zülmündən azad olması, müstəqil yerli dövlətlərin meydana gəlməsi, iqtisadi inkişafın sürətlənməsinə səbəb oldu. Naxçıvanın təbii-coğrafi şəraiti, münbit torpaqları, çayları, qədim zamanlardan burada əhalinin kənd təsərrüfatı ilə məşğul olmasına imkan yaratmışdı.

Ərəb mənbələrinin məlumatları təsdiq edir ki, X-XIII əsrlərdə Azərbaycan Yaxın və Orta Şərqin, bütün islam dünyasının ən inkişaf etmiş ölkələrindən biri idi. "Burada hər şey o qədər boldur ki, öz gözləri ilə görməyənlər belə bolluğa inanmırlar" (əl-İstəxri). Azərbaycanın hər yeri "buğda zəmiləri ilə örtülüdür. Bu yerlərin heç biri çaylarına, bağlarına və yaşayış məntəqələrinə görə o birisindən geri qalmır. Əksinə, hər cür mal-nemətlə zəngin və Allahın xeyir-bərəkəti ilə doludur" (ibn Hövqəl).

Azərbaycanda, o cümlədən Naxçıvanda əkinçilik əhalinin əsas məşğuliyyət sahəsi idi. Naxçıvan ərazisi havasının təmizliyi, suyunun bolluğu və torpağının münbitliyinə görə seçilirdi. Əhali əkinçilik, maldarlıq, sənətkarlıq və ticarətlə məşğul olurdu. Əlverişli təbii şərait Naxçıvanda təsərrüfatın bütün sahələrinin inkişafına imkan verirdi. Naxçıvanda dənli bitkilərdən yüksək keyfiyyətli buğda, arpa və çəltik, bostan bitkilərindən qarpız, texniki bitkilərdən müxtəlif pambıq növləri becərilirdi.

X-XII əsrlərdə Naxçıvanda kənd təsərrüfatının mühüm sahələrindən birini

bağçılıq təşkil edirdi. İlk mənbələrdə Azərbaycanda, eləcə də Naxçıvanda orta əsrlərdə bağçılıq və onun məhsulları haqqında bir sıra məlumat verilir. Bu məlumatdan aydın olur ki, Naxçıvanda dünyanın başqa yerlərində olmayan müxtəlif növ alma, armud, üzüm, zoğal, sarı ərik, şaftalı, gilas, heyva, qoz, gavalı, alça, tut və s. bu kimi gözəl meyvələr yetişirdi. Mənbələrdə Naxçıvan şəhərinin ətraf yerlərində və həyətlərdə çoxlu bağ, bağça, meyvə ağacları olduğu göstərilir. Naxçıvanda becərilən müxtəlif çeşidli meyvələr yüksək keyfiyyətə malik idi. Təsadüfi deyildir ki, orta əsr məxəzi "burada (*Naxçıvanda – İ.H.)* becərilən gözəl üzümə dünyanın heç bir yerində təsadüf etmək mümkün deyildir", - deyə yazırdı [29, s.135]. "Naxçıvan üzümündən yaxşısı və xeyirlisi yoxdur. Ordubad ərazisi bağçılığın, dənli bitkilərin və üzümçülüyün məskəni idi" [25, s.202]. Ordubadda suvarma sistemi Qafan dağlarından axan çayın hesabına həyata keçirilirdi [57, s.51]. Bununla yanaşı, Naxçıvan əyalətində bulaqlar da az deyildi. Naxçıvanda bağların, bostanların və əkinlərin becərilməsində şəhərdən bir qədər kənarda axan Araz və Naxçıvan çayının suyundan, həmçinin kəhriz və axar bulaq sularından istifadə olunurdu [56, s.209].

Naxçıvanda maldarlıq, arıçılıq və s. sahələr də inkişaf edirdi və diyarda yağ, bal istehsal olunurdu. Arıçılıq, bal və mum ixracı Naxçıvanın iqtisadi həyatında mühüm rol oynayırdı. Geniş otlaqları, örüşləri və yaylaqları olan Naxçıvan əhalisi maldarlıqla məşğul olurdu. Mənbələrdən məlum olur ki, Naxçıvan ərazisi heyvandarlıq üçün çox əlverişli olduğuna görə orta əsrlərdə burada çoxlu xırdabuynuzlu heyvan, mal-qara, at, dəvə və sair heyvanlar saxlanılır, dəvə, at, öküz, keçi və sair heyvanlardan geniş istifadə edilirdi. Araz çayından müxtəlif növ çay balıqlarının tutulması haqqında məlumatlar vardır. Şürmahi (şəmayı) balığının Arazdan başqa heç bir çayda yetişmədiyi göstərilir.

**Torpaq mülkiyyəti formaları**. **Vergilər.** Feodalizm münasibətlərinin meydana gəlməsi ilə feodal və kəndli sinifləri yaranmışdı. Azərbaycan kəndliləri, başlıca olaraq uluclara və azad kəndlilərə bölünürdülər. Uluclar asılı kəndlilər idilər [4, s.228]. Kəndlilərin bir hissəsi ayrı-ayrı ərəb varlılarının himayəsinə sığınırdı. Nəticədə, kəndlilərə məxsus torpaqlar ərəblərin ixtiyarına keçirdi. Belə torpaqlar ilcə torpaqları adlanırdı. Bu torpaqlarda yaşayan kəndlilər uluclar adlanırdılar. Onlar əsasən, düzən rayonlarda, azad kəndlilər isə dağlıq ərazilərdə yaşayırdılar. Böyük feodallar hakimiyyəti öz əllərinə almışdılar. Məzyədilər Şirvanda, sacilər və əmirlər Azərbaycanın cənub vilayətlərində, salarilər Ərdəbil, Urmiya, Marağa, Bərdə vilayətlərində, şəddadilər Arranda, Əbu Duləfilər isə Naxçıvanda böyük torpaq sahələrinə yiyələnmişdilər [37, s.269]. Sacilər hakimiyyətinin sonunda Azərbaycan hakimi Deysəm ibn İbrahimin malikanə və torpaqlarından əldə etdiyi illik gəlirin miqdarı 30 min dinar idi [37, s.269].

Naxçıvan torpaqları tarixən olduğu kimi, bu dövrdə də səltənət ailəsi, şahzadələr və iri feodalların əlində cəmləşmişdi. Torpqasız kəndli kütlələri feodalların və ya dövlətin ixtiyarında olan torpaqlarda sakin olub, ağır şərtlərlə onlar üçün

işləyirdilər.

Azərbaycanda mövcud torpaq mülkiyyəti formaları – divan, tac və ya xass, iqta, vəqf, mülk və icma (camaat) torpaqları idi. Dövlətə məxsus olan, yəni gəliri birbaşa xəzinəyə axan torpaqlara divani, yaxud, divan torpaqları deyilirdi [4, s.229]. Tac və ya xass torpaqları səlcuq sultanları və Azərbaycan atabəylərinin ixtiyarında idi. Bu torpaqlardan ancaq hakim sülalənin nümayəndələrinə iqta payı verilirdi. Azərbaycan Atabəyləri dövlətində Naxçıvan vilayəti başqa torpaqlarla birlikdə Şəmsəddin Eldənizin xass torpaqları idi [3, s.446]. Xass torpaqlarını yerli hakim sülalələrin qadın və qızları ilə kəsilən nikahlar nəticəsində də əldə etmək olurdu. Torpaq üzərində mülkiyyət formalarından biri iqta adlanırdı. Bu şərti torpaq mülkiyyət forması idi. Torpaqların iqta şəklində ayrı-ayrı şəxslərə verilməsi Xilafətin ilk dövründən başlamışdı. Eldənizlər dövlətinin hökmdarları özlərinə yaxın olan adamlara iqta adı ilə iri şəhərlər, bütöv əyalətlər və torpaq sahələri verirdi. İqta xidmətə görə verildiyi üçün irsi mülkiyyət hesab edilmirdi [5, s.323]. Səlcuqlar dövründə qoşun başçılarına - əmirlərə hərbi xidmətlərinə görə iqta torpaqları verilirdi. Hər hansı bir əmir iqta alıb iqtadar olanda, ona yazılı tapşırıq verilirdi ki, o, mömin olmalı, təbəələrinə ədalətli olmalı, qayğı göstərməli, onların təhlükəsizliyini və əmin-amanlığını təmin etməli, yoxsulları və gücsüzləri varlıların və güclülərin təqibindən qorumalıdır [8, s.237].

Eldənizlər dövlətində iqta torpaq sistemindən istifadə edilmişdi. Atabəy Eldəniz Rey və onun ətrafını tutandan sonra oranı oğlu Cahan Pəhləvana iqta kimi vermişdi. Atabəy Cahan Pəhləvan bütün dövlət torpaqlarını özünün 70-ə yaxın məmlükü arasında iqta pay torpağı kimi bölüşdürdü.

Məscidlərin, ruhani və xeyriyyə təşkilatlarının, müqəddəs yerlərin ixtiyarında olan torpaq sahələri vəqf adlanırdı [5, s.323]. Vəqf dini müəssisələrin xeyrinə verilən ianələr idi. Nəzir və qurbanlıq əmlakları da belə adlanırdı. Gəliri məscidlərin, məqbərə, mədrəsə, zaviyə, xanəgah və başqa ictimai tikintilərin, həmçinin onlarla əlaqəsi olan adamların saxlanılmasına xərclənən sahələr dini ianələr idi. Vəqfləri ianəçilərin özləri tərəfindən seçilmiş mütəvəllilər idarə edirdi. Həmin mütəvəllilər vəqfin gəlirindən aylıq alırdılar. Adı sənədlərdə göstərilən ianəçilərdən biri Naxçıvanın şihnəsi Seyfəddin Aybəy idi. O, Həccə gedib Məkkədən qayıtdıqdan sonra, Naxçıvanda öz varı hesabına məscidlər və zaviyələr tikdirdi, irsən ona yetişən və özünün qazandığı bütün daşınan və daşınmaz əmlakını həmin müəssisələrə ianə verdi [8, s.239].

Vəqf torpaqları ruhanilərə, dini və xeyriyyə müəssisələrinə, məscidlərə, mədrəsələrə verilirdi. Vəqf olaraq, ancaq torpaq deyil, bağlar, dəyirmanlar, mədənlər, meşələr, otlaqlar da verilirdi. Bu torpaqlarda yaşayan kəndlilər vergini vəqf sahibinə və ya müəssisəsinə verirdilər.

Feodalların və əyanların əllərində olan xüsusi torpaqlar var idi ki, bu, mülk adlanırdı. Mülk torpaqları irsi olaraq nəsildən-nəslə keçə bilirdi. Həmin torpaqlar

satıla və başqasına bağışlana da bilirdi. Mülk böyük və ya kiçik ərazini əhatə edən və burada sakin olan kəndlilərlə birlikdə satıla bilən və nəslə keçən torpaq üzərindəki xüsusi mülkiyyətin bir növü idi [37, s.271]. Mülk sahibi dövlətə xərac vergisi verirdi. Səlcuqlar zamanı və onlardan sonra mülk torpaqlarının alqı-satqısı xeyli geniş miqyas aldı.

Kənd icmalarının ixtiyarında olan torpaqlara icma və yaxud "camaat" torpaqları deyilirdi. Bu torpaqlara bəzən əkin yerləri, örüşlər, otlaqlar, meşələr, bataqlıqlar və s. torpaq sahələri daxil olurdu. Belə torpaqlar dövlətin xüsusi mülki hesab olunurdu. Buna görə də həmin torpaqlardan birgə istifadə edən camaat bunun müqabilində dövlətə vergi-xərac verirdi [4, s.229].

Feodal münasibətləri inkişaf edib möhkəmləndikcə kəndlilərin və sənətkarların istismarı da güclənirdi. Mükəlləfiyyətli kəndlilər – rəiyyət torpaq sahibinə vergi verir və müxtəlif mükəlləfiyyəti yerinə yetirirdilər. Kəndlilərin ikinci qismini heç bir torpaq payı, istehsal alətləri olmayan və torpaq sahiblərinin təsərrüfatlarında işləməyə məcbur edilən kəndlilər - əkərlər təşkil edirdilər [5, s.323].

Azərbaycanda, eləcə də Naxçıvanda kəndliləri var-yoxdan çıxaran müxtəlif vergilər və onların toplanmasi idi. Kəndlilər və sənətkarlar istehsal etdikləri məhsulun 70 faizə qədərini feodallara və xəzinəyə verməli olurdular. Eldənizlər dövlətində vergilərin miqdarı 8,5 milyon abbasi dinarı həcmində idi [5, s.324]. Azərbaycan Atabəyləri dövlətində 15 vergi növü – xərac, cizyə, uşr, haqq, alət, nüzl, mənnə, inam, mənəl, marafiq, avariz, qismət, təyyarət, təhəkkümat və dəraib – tətbiq edilirdi [8, s.242-247].

Torpaqdan istifadə müqabilində kəndlidən alınan vergi uşr (onda bir), sonralar isə xərac adlanırdı. XII əsrdə və XIII əsrin başlanğıcında xərac əsas vergi kimi öz əhəmiyyətini saxlayırdı. Onu pul ya da natura şəklində alırdılar. Bu, Azərbaycanda əmtəə-pul münasibətlərinin yüksək inkişaf etdiyini göstərir [4, s.229]. IX əsrdə ərəblər Azərbaycandan ildə 4-4,5 milyon dirhəm xərac alırdılar. Sacilərin hakimiyyəti dövründə isə bu 2 milyon dirhəm olmuşdu. Salari hökmdarı İbrahimin dövründə də bu qədər xərac toplandığı məlumdur.

Xərac vergisi əhalini var-yoxdan çıxaran və onu istismar edən ağır yük idi. Kəndliləri əsarətə almağın başlıca vasitələrindən biri, vergilərin toplanması sistemi idi. Eldənizlər dövlətində dövlət və iri feodallar vergilərin toplanmasını bəzən icarəyə verirdilər. İcarədarlar isə bundan sui-istifadə edərək, verginin miqdarını daha da artırır və xalqı soyub talayırdılar [5, s.324]. Xərac toplayan vergi məmurları amil və ya mütəqəbbil, maliyyə müfəttişləri isə mütəsərrif adlanırdılar.

Müsəlman əhali öz əmlakına görə zəkat və ya sədəqə verirdi. Müsəlman olmayan əhalidən can vergisi – cizyə alınırdı. Köçəri maldar otlaqlardan istifadə etdikləri üçün xəzinəyə haqq deyilən vergi verirdilər. Gömrük və gözləmə haqqı üçün təhəkümat vergisi verilirdi.

Vergilərin ağırlığı və zorla toplanması torpaqsız və yoxsul kəndlilərin

vəziyyətini son dərəcə ağırlaşdırdı. Nəticədə cana doymuş kəndlilər feodalların və vergi toplayanların üzərinə basqınlar edirdilər.

**Sənətkarlıq, ticarət və şəhərlər.** X-XII əsrlərdə Naxçıvanın təsərrüfat həyatında sənətkarlıq üstün yerlərdən birini tuturdu. Sənətkarlığın inkişafı Naxçıvanın iqtisadiyyatında mühüm əhəmiyyət kəsb edirdi. Burada müxtəlif sənət növləri ilə məşğul olan ustalar çalışırdı. Şəhərdə bacarıqlı memarlar, dülgərlər, bənnalar, dulusçular, dəmirçilər, toxucular, dabbaqlar, bəzzazlar, başmaqçılar, həkkaklar, xalçaçılar, zərgərlər, boyaqçılar və başqa sənət adamları yaşayırdı [18, s.44-45]. Şəhərlərin bəzilərində otuzdan artıq sənət növü vardı. İnkişaf etmiş feodalizm dövründə Azərbaycanda bir neçə yüz sənət və peşə sahəsi olmuşdur.

Naxçıvan Atabəylərin hakimiyyəti dövründə inkişaf etmiş sənətkarlıq istehsalına malik idi. Şəhərdə müxtəlif sənət sahələrini təmsil edən çoxlu mahir ustalar – toxucular, bənnalar, çini qab və ağac emaletmə ustaları, zərgərlər və b. çalışırdılar. Şəhərin sənətkarlıq istehsalında toxuculuq və onunla bağlı olan sahələr – zərif örtük, xətai parçası, xalça, keçə, çuxalıq yun parça, hamam fitələr üçün nazik şal və pambıq parça istehsalı mühüm rol oynayırdı [3, s.449].

Naxçıvan sənətkarlarının hazırladıqları məmulatlar keyfiyyətləri ilə seçilir, nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda da şöhrət qazanırdı. Bir sıra orta əsr müəllifləri Naxçıvandan bəhs edərək yazırdılar ki, “buranın sənətkarları gözəl sənətləri bilir və yaxşı yaşayırlar” [56, s.210]. Naxçıvanda müxtəlif növ məmulatlar: qəşəng parçalar, zərif örtüklər, keçə, çuxa, fitə, kasa, ağac tabaqlar və s. hazırlanırdı [56, s.210]. Naxçıvan ustalarının ağacdan hazırladıqları naxışlı və rəngli kasa, tabaq, təhnə, qaşıq və s. məmulatlar hədiyyə olaraq dünyanın müxtəlif ölkələrinə aparılırdı. “Naxçıvan əhalisi ağac və taxta məmulatları, müxtəlif təsərrüfat qabları hazırlamaqda böyük məharətə malikdirlər”, - deyə mənbələrdə məlumatlar verilirdi.

Naxçıvanda toxuculuq sənəti də inkişaf etmişdi. Came xitai (çin parçası) adında qiymətli parça istehsal olunurdu. Çox güman ki, “bu parça öz xüsusiyyətlərinə görə Çindən gətirilən parçalara bənzədiyindən belə adlandırılırdı” [18, s.46]. Naxçıvan sənətkarları tərəfindən xalılar da toxunurdu. Sənətkarların toxuduğu xalı, zili, qaytan və s. xüsusi ilə bəyənilirdi.

Naxçıvan sənətkarları dulusçuluq sahəsində də çalışırdılar. Burada saxsı məmulatı hazırlayan emalatxanalar fəaliyyət göstərirdi. Naxçıvanda dulusçuluğun inkişafı üçün lazım olan təbii şəraitin mövcud olması, əldə edilmiş saxsı qab fraqmentləri Naxçıvnda bu növ məmulatlar istehsalının mühüm yer tutduğunu söyləməyə əsas verir. Dulusçuluq emalatxanalarında istər şirsiz, istərsə də şirli saxsı məmulatı istehsal olunurdu. Naxçıvan dulusçuları şirsiz qablarda olduğu kimi, şirli qab istehsalında da müvəffəqiyyət qazanmışdılar. Şirli qablara boşqab, kasa, piyalə, dolça, ədviyyat qabları, çıraq və s. aid etmək olar. Şirli qablarda əsasən göy, mavi, yaşıl, qəhvəyi, sarı, bənövşəyi, ağ, qara rənglərdən istifadə edilmişdir. Bu qabların

əsas naxışlarını həndəsi və nəbati naxışlar təşkil edirdi. Naxçıvanda yerli əhalinin məişətində saxsı qablar üstün rol oynayırdı. Bunun da əsas səbəbi saxsı qabların metal qablara nisbətən daha ucuz olması idi. Naxçıvan dulusçuları kürə-konusvari, üzəri dayaz qrafik-cizgili naxışlanmış qablar da istehsal etmişlər. Bu dövrdə təkcə Azərbaycanda, eləcə də Naxçıvanda deyil, Yaxın Şərq ölkələrinin əksəriyyətində bəzi sənətkarlıq sahələri Qərb ölkələrinə nisbətən xeyli yüksəkdə dururdu [18, s.53]. Naxçıvanda şəhər əhalisinin müxtəlif təbəqələrinin sənətkarlıq məhsullarına olan tələbatının artması əmtəə məhsulunun inkişafı üçün əlverişli şərait yaratmışdı. Şəhər sənətkarları daha çox bazar üçün məhsul istehsal edirdilər. Sənətkarlıq texnikasındakı təkamül, əmtəə istehsalının inkişafı da öz növbəsində məhsulun çeşidinin artmasına səbəb olurdu.

Naxçıvanda istehsal olunan kənd təsərrüfatı məhsulları və sənətkarlar tərəfindən hazırlanan müxtəlif növ əşyaların müəyyən qismi şəhər əhalisinin istehlakına sərf olunurdusa, bir hissəsi də bazara çıxarılır və başqa yerlərə ixrac edilirdi. Bu isə iqtisadi əlaqələrin, ticarətin artması və canlanmasına səbəb olurdu. XI əsrin ilk illərində ümumi iqtisadi inkişaf daha böyük vüsət alır. 1027-ci ildə Şəddadi hökmdarı II Fəzlunun dövründə Araz çayı üzərində onbirtağlı Xudafərin körpüsünün tikilməsi daxili və xarici ticarət əlaqələrinin inkişafı zərurətindən irəli gəlmişdi [3, s.455].

X-XII əsrlərdə Naxçıvan bazarı əvvəlki dövrlərə nisbətən xeyli genişlənmişdi. Daxili bazarın genişlənməsi, əmtəə istehsalının və əmtəə tədavülünün artması Naxçıvan şəhərinin beynəlxalq ticarətdə mövqeyini xeyli möhkəmlətmişdi. Naxçıvandan bir sıra tranzit ticarət yolları keçirdi. Naxçıvan Qafqazyanı ölkələrin, həmçinin, Yaxın və Orta Şərqin bir sıra şəhərləri ilə ticarət əlaqələri saxlayırdı.

IX-XII əsrlərdə Naxçıvandan keçən mühüm ticarət yollarını ərəb müəllifləri aşağıdakı kimi göstərmişlər: 1.Mərənd-Nəşəva-Dəbil. 2.Xoy-Nəşəva-Dəbil. 3.Dəbil-Nəşəva-Xoy-Salmas. 4.Mərənd-Sariyə-Nəşəva-Dəbil və s. Ərəb müəlliflərinin verdikləri məlumatda Naxçıvan Mərənd, Xoy, Təbriz, Marağa, Urmiya, Səlmas, Xarrakan, Dəbil və s. şəhərləri birləşdirən tranzit ticarət yolu üzərində yerləşmişdi: Naxçıvandan Mərəndə məsafə 20 fərsəng (*1 fərsəng 6 km-ə yaxındır),* Xoya 25 fərsəng, Səlmasa 32 fərsəng, Urmiyaya 46 fərsəng, Marağaya 76 fərsəng, Dəbilə 32 fərsəng idi. Sacilərin hakimiyyəti dövründə Şərqdən gələn karvan ticarət yolu Naxçıvan-Dəbil-Ani xətti ilə Kiçik Asiyada olan Trabzona gedirdi. V.Minorskinin fikrincə, karvan ticarət yolu Araz çayının Naxçıvan yaxınlığından şimala keçib, ordan Dəbil şəhərinə gedirdi.

Səlcuq imperiyasının yaranması Azərbaycanın ticarət-iqtisadi əlaqələrinin genişlənməsi üçün əlverişli şərait yaratdı. Məlikşahın hakimiyyəti dövründə ölçü sisteminin tənzimlənməsi və yeganə pul vahidinin müəyyənləşdirilməsi sahəsində görülən tədbirlər ticarətin yüksək inkişaf səviyyəsinə çatdığını göstərir.

Mənbələr Azərbaycan şəhərlərində, o cümlədən Naxçıvanda çoxlu tacirlərin

yaşadığını göstərir. Ticarətin inkişafı ilə əlaqədar olaraq çoxlu karvansara inşa edilmişdi. Bu karvansaralar təkcə ticarət malları saxlamaq üçün anbar rolunu oynamaqla qalmır, eyni zamanda tacirlərin düşərgə və alver yerlərini də təşkil edirdi.

Azərbaycanda müstəqil dövlətlərin yaranması, fəaliyyət göstərməsi, feodal münasibətlərinin inkişafı və möhkəmlənməsi, məhsuldar qüvvələrin inkişafı və əmtəə mübadiləsinin genişlənməsi şəhərlərin böyüməsinə və yüksəlişinə şərait yaratdı.

XII əsrdə Azərbaycanın Təbriz, Marağa, Ərdəbil, Urmiya, Səlmas, Xoy, Naxçıvan, Gəncə, Beyləqan, Şamaxı, Bakı, Dərbənd kimi şəhərləri öz qaynar həyatı, gözəlliyi və əhalisinin sayına görə Avropanın inkişaf etmiş şəhərlərindən heç də fərqlənmirdi [5, s.320-321]. XII-XIII əsrin əvvəllərində Azərbaycanda 70-dək iri, orta və kiçik şəhərlər vardı [4, s.462]. Bu zaman şəhərlər sürətlə inkişaf edir, onlarda tacir-sənətkar elementlərinin sayı artır, şəhər həyatında sənətkarlıq və ticarətin xüsusi çəkisi yüksəlir, şəhərlərin daxili və xarici bazarlarla əlaqəsi genişlənirdi. Azərbaycan şəhərlərində sənətkarlıq və ticarət xeyli inkişaf edirdi. Şəhərlər əsas etibarilə düşməndən müdafiə olunmaq, təsadüfi basqın və hücumlardan mühafizə olunmaq üçün hasar və xəndəklərlə əhatə olunurdu.

Anonim coğrafiya əsəri "Hüdudəlaləm"də Azərbaycan şəhərləri, məşhur qəsəbələr, bəzi qalalar və sair haqqında çox qiymətli məlumat verilir. Bu əsərdə Bərdə və Marağanın böyük, Ərdəbil, Beyləqan, Təbriz, Naxçıvan, Şəki, Şabran, Girdman, Gəncə, Şəmkir, Xoy və Səlmasın abad, xürrəm və nemətli şəhər olduğu göstərilir. İbn Hövqəl Azərbaycan şəhərlərini sayaraq qeyd edir ki, bu şəhərlərin hamısı ağaclarla bürünmüş, taxıl zəmiləri və ərik ağacları ilə örtülmüş, çaylar və bağlarla əhatə edilmişdir. Yaşayış cəhətdən bu vilayətlərin heç biri digərindən geri qalmır. Onların meyvələri çox ucuz, yeyinti şeyləri isə demək olar ki, havayıdır [37, s.284]. Başqa bir ərəb müəllifi əl-Müqəddəsi isə qeyd etmişdir ki, "Bu vilayətin (*Azərbaycanın – İ.H.)* bütün şəhərləri gözəldir, ərzaq və mədənlərlə zəngindir; meyvə, hər cür ət bol və ucuzdur" [4, s.233].

Azərbaycan şəhərləri içərisində Naxçıvan şəhəri özünəməxsus yer tuturdu. Orta əsr ərəb müəlliflərinin məlumatlarına görə Naxçıvan şəhəri Araz çayının sol sahilində yüksək bir yerdə yerləşmişdir. Beş min illik tarixə malik olan Naxçıvan şəhərinin "ən parlaq dövrü X-XI əsrlərdə Əbu Duləfilərin, habelə XII əsrdə Azərbaycan Atabəyləri dövlətinin paytaxtı və mərkəzi şəhəri olduğu dövrə təsadüf edir" [37, s.308]. Naxçıvan şəhərinin ətrafına möhkəm divar çəkilmişdi və şəhər hərbi istehkama malik idi [57, s.99]. Naxçıvanda gözəl saraylar, mədrəsələr, məscidlər, köşklər, məbədlər və məqbərələr var idi. Atabəy və Səlcuqların hakimiyyəti dövründə Naxçıvanın sənətkarlıq və ticarət mərkəzi kimi rol və nüfuzu xeyli artmışdı. Şəhərin yüksək tərəqqisi bu vaxta təsadüf edir. Məhəmməd Naxçıvani Naxçıvan şəhərindən bəhs edərkən yazırdı ki, "Təbriz və Bağdaddan sonra Naxçıvan kimi cəlallı və əzəmətli şəhər yox idi" [20, s.467]. "Əcaib əd-dünya" ("Dünyanın qəribəlikləri")

əsərində Naxçıvan haqqında danışılarkən göstərilir ki, "Bu şəhər Azərbaycandadır, böyük və əhalisi çoxdur, hündür yerdədir, çox möhkəmdir. Orada çoxlu saraylar, köşklər, eyvanlar tikilib, şəhərin yanında daşdan qala tikiblər, qalada isə məscid və mədrəsə inşa ediblər, qalada şirin sulu bulaq var. Deyirlər ki, yer üzündə bundan çox əhalisi olan şəhər yoxdur, bütün tikililər alibastrdan və bişmiş kərpicdən tikilib. Köşklərin əksəriyyəti qalalar kimi üç-dörd mərtəbəlidir. Şəhərin ətraf kəndləri gözəldir, axar suyu var, bağları və yaşıllıqları boldur. Araz çayı şəhərin hüdudlarından keçir..." [29, s.135].

Naxçıvan öz əhalisinin sayına görə Yaxın Şərqin tanınmış iri şəhərləri ilə eyni səviyyədə olmuşdur. Bu dövrdə Naxçıvan şəhərində təxminən 150-200 min əhali yaşayırdı [18, s.61; 53, s.31]. Əhalinin əksəriyyəti azərbaycanlılar olub islamın şiə, sünni və şafei təriqətlərinə mənsub idilər. Əhalinin ictimai tərkibi feodal şəhər zadəganları, ruhaniləri, sənətkalar, tacirlər, məmurlar, əsgərlər, nökərlər, şəhər yoxsullarından ibarət idi [18, s.61]. Naxçıvan Eldənizlər dövründə yüksək tərəqqiyə çatdı. Orada padşahlıq iqamətgahı və dövlətxana təsis etdilər. Feodal tipli şəhərə çevrilmiş Naxçıvan qala divarları içərisində yerləşən şəhristandan, geniş bazar və karvansaraları olan rəbatdan ibarət idi. Yaxşı möhkəmləndirilmiş şəhristan hissəsində gözəl memarlıq xüsusiyyətlərinə malik çoxlu bina tikilmişdi [25, s.64]. Sənətkarlıq və ticarətlə məşğul olan əhalinin əksəriyyəti isə rəbatda yaşayırdı. Yerli sənətkarlar üç-dörd mərtəbəli yaşayış evləri, məqbərələr, saraylar, məscidlər, körpülər, karvansaralar, dəyirmanlar tikmişdilər. Naxçıvan memarlıq məktəbi xüsusilə inkişaf etmişdi.

X-XIII əsrlərdə Azərbaycan şəhərlərində bu və ya başqa məhsulun, sənətkarlıq məmulatının istehsalı üzrə "ixtisaslaşma" prosesi gedirdi. Məsələn, Beyləqan şəhəri keramika məmulatı, Naxçıvan isə ağacdan hazırlanmış incə naxışlı sənətkarlıq məmulatları ilə məşhur idi. Orta əsr Azərbaycan şəhərlərinin inkişafında onun mühüm beynəlxalq ticarət yolları qovşağında yerləşməsi, sənətkarlıq və ticarətin əhəmiyyəti olduqca böyük idi. Bunlar şəhərlərin, eləcə də Naxçıvan şəhərinin iqtisadi inkişafı üçün əlverişli şərait yaradırdı. Naxçıvanın mühüm ticarət yolları üzərində yerləşməsi, Şərq və Qərb ölkələri arasında bir növ körpü və ya keçici rolunu oynaması şəhərin iqtisadi əhəmiyyətini getdikcə artırırdı. Naxçıvandan İrana, Hindistana, Orta Asiyaya gedən yollar onu Şərqin ən böyük şəhərləri ilə qovuşdururdu. Naxçıvan həm də Azərbaycanın cənub hüdudunda yerləşən Həmədandan keçib qərb ölkələrinə gedən karvan yolu üzərində mühüm ticarət məntəqəsi hesab olunurdu.

X-XIII əsrlərdə Azərbaycanda mövcud olan 67 şəhərin [53, s.25] 5-i Naxçıvan ərazisində idi: Naxçıvan, Ordubad, Azad, Culfa (Culahə), Əncan. Şəhərlər içərisində böyük, orta və kiçik şəhərlər mövcud idi. Həmdullah Qəzvini "Nüzhət əl-külub" ("Qəlblərin əyləncəsi") əsərində Naxçıvan tüməninə daxil olan şəhərlərdən bəhs edərkən Ordubad şəhəri haqqında yazmışdır: "Ordubad - əyalət

şəhəridir, bağlarla əhatə olunmuşdur. Burada gözəl üzüm, taxıl və pambıq yetişdirilir. Su əsasən Qafan dağlarından daxil olur...” [57, s.51]. Ordubad Azərbaycanın ən maraqlı şəhərlərindən biri olub xüsusi şəhərsalma quruluşuna malikdir. Şəhərin memarlıq abidələri buraya xüsusi kalorit verir. X-XIII əsrlərdə Ordubadın meyvə bağları, dağ bulaqları, kəhrizləri və sağlam ab-havası bir çox tarixçi və səyyahların diqqətini cəlb etmişdir. Mənbələrdə Ordubadın çoxlu meyvə bağları ilə əhatə olunduğu, çeşidi, növü və dadı ilə şöhrət qazanmış üzüm bağlarının, dənli bitkilərinin olduğu, ipəkçiliyin inkişaf etdiyi haqqında xəbər verilir. Həmdullah Qəzvini Naxçıvan şəhərlərindən bəhs edərkən Azad şəhərinin də adını göstərir. Bu şəhər Ordubadın 20 km-liyində, Gilançayın sahilində yerləşirdi. XI-XII əsrlərdə Yaxın və Orta Şərq ölkələri ilə Azad şəhərinin ticarət əlaqələri xeyli artmışdı. İran tarixçisi H.Qəzvini (1281-1350) Azad şəhəri haqqında məlumat vermişdir: “Azad bol taxıl, üzüm, pambıq məhsulları ilə şöhrət tapmış kiçik şəhərdir. Buranın üzüm bağları çox məşhurdur. Şəhərin suyu Qafan dağlarından gəlir və artığı Araz çayına axır... Əhalisi ağbənizdir” [25, s.45-46; 57, s.51]. Şəhər ildə 18.300 dinar vergi verirdi. [57, s.51].

Bəzi tədqiqatçılar orta əsr yazılı qaynaqlarında adı çəkilən Culahə yaşayış məntəqəsini Culfa şəhəri ilə eyniləşdirirlər. Orta əsrlərdə Culfa nəinki Naxçıvan bölgəsinin, eləcə də Azərbaycanın iqtisadi həyatında əhəmiyyətli şəhərə çevrilmişdi. Araz çayı üzərində Ziyaülmülk körpüsü salınmışdı. Körpünün salınması ilə qədim şəhərin – Culahənin Böyük İpək Yolu üzərində mühüm mərkəz kimi əhəmiyyəti artmışdı [25, s.374]. Həmdullah Qəzviniyə görə körpünü Ziyaülmülk Naxçıvani tikdirmişdir. Möhkəm, hamar və gözəl görünüşə malik körpünün iki yüksək və geniş tağı olmuşdur. Tağlardan birinin altından karvansara kimi istifadə edilirdi. Mənbələrdə adı çəkilən şəhərlərdən biri də Əncandır [57, s.51]. Dövrün mənbələrində Naxçıvan mis mədənləri və mis emalı ilə bağlı karxanalar barədə məlumat az deyildir. Həmdullah Qəzvini Naxçıvan şəhəri yaxınlığındakı Əncan şəhərinin eyni zamanda “Karxana” kimi tanındığını yazır. Bunun səbəbi burada mis mədənlərinin olması idi. Naxçıvan mis mədənlərinin işi XIII və sonrakı əsrdə əvvəlki dövrlərə nisbətən tənəzzülə uğramışdı. Bununla əlaqədar Məhəmməd Naxçıvani yazırdı: “Naxçıvan mədəninə aid, məliklərə və sultanlara layiq alət (dəzgah) və əmtəələr bütünlüklə məhv olmuş, onun sənətkarları yer üzərinə səpələnmişlər” [33, s.46].

## 6. Mədəniyyət

**Məktəb və elm.** IX-XI əsrlərdə yaranan müstəqil feodal dövlətləri, daha sonra yenidən bərpa edilən Şirvanşahlar və Azərbaycan Atabəyləri dövlətlərinin yaranması xalqın taleyinə və tarixi inkişafına güclü təsir göstərir. Bu dövrlərdə şəhərlər inkişaf edir, əhali artır və məhsuldar qüvvələr xeyli inkişaf edirdi. Azərbaycanın siyasi və iqtisadi həyatında baş verən dəyişikliklər öz əksini mədəniyyət

sahəsində daha qabarıq şəkildə büruzə verirdi.

XII əsr Azərbaycan mədəniyyətinin "qızıl dövrü", "intibah dövrü" hesab edilir. Bu dövrdə Azərbaycan mədəniyyətinin bütün sahələrində əsaslı dəyişiklik və inkişaf baş vermişdir. X-XII əsrdə Naxçıvan Yaxın və Orta Şərqin mədəni mərkəzlərindən birinə çevrilmişdi. Naxçıvan şəhərinin əvvəlcə Naxçıvanşahlığın, sonra isə Azərbaycan Atabəyləri dövlətinin mərkəzinə çevrilməsi şəhərin siyasi və mədəni inkişafı üçün şərait yaratmışdır. Şəhərdə orta əsr müsəlman tədris müəssisələri – mədrəsə, ruhani məhəllə məktəbləri, təkyələr mövcud idi. Eldənizlərin hakimiyyəti dövründə Naxçıvan şəhərində iki mədrəsə tikilmiş və dini xeyriyyə idarəsinə məxsus vəqf kimi fəaliyyət göstərmişdir. Naxçıvan mədrəsələri Möminə xatın və Yusif Kuseyir oğlu türbələrilə əlaqəli olmuşdur [18, s.140-141]. Mədrəsələrin adı göstərilən məqbərələrin nəzdində olması təsadüfi deyildir. Çünki müsəlman şərqində hökmdar türbələri nəzdində mədrəsə, kitabxana, xəstəxana və sair ictimai müəssisələr olmuş, bu ənənə Azərbaycan Atabəyləri dövləti tərəfindən davam etdirilmişdi. Naxçıvan mədrəsələrinin xərcləri Möminə xatın və Yusif Küseyir oğlu türbələri vəqflərinin gəliri hesabına ödənilirdi. Bu mədrəsələrdə dini sxolastik elmlərlə yanaşı, dünyəvi-təbii elmlər də öyrədilirdi [18, s.141]. Məscidlərin yanında fəaliyyət göstərən ibtidai məktəblərdə şagirdlərə Quran öyrədilir, müxtəlif bilik sahələrinə dair ilkin məlumatlar verilirdi. Mədrəsələrdə və mollaxanalarda Quranla yanaşı, şəriət qanunları, məntiq, şərq dilləri öyrədilirdi. Müxtəlif təbiət elmlərinin öyrənilməsinə də ehtiyac və maraq artırdı.

Məxəzlərdən məlumdur ki, Eldənizlər ölkədə və eləcə də dövlətin mərkəzi olmuş Naxçıvanda mədəniyyətin müxtəlif sahələrinin inkişafına qayğı göstərmişlər. Şəmsəddin Eldənizin özü Naxçıvanda məktəblər açdırıb, mədrəsələr, məscidlər tikdirmişdi. Naxçıvanda, Ordubadda məscidlərin nəzdində məktəb və mədrəsələr fəaliyyət göstərirdi. Naxçıvan mədrəsəsi XX əsrin əvvəllərinədək mövcud olmuşdur.

IX-XII əsrlərdə Azərbaycan alimləri qiymətli elmi əsərləri ilə dünya elmi və mədəniyyətinin zənginləşməsində böyük xidmətlər göstərmişlər. Yaqut Həməvi Şərqin böyük şəhərlərində təhsil alan, yaşayıb-yaradan onlarla azərbaycanlı alimin adını qeyd edir. Dünya mədəniyyətinə Xaqanilər, Nizamilər bəxş etmiş Azərbaycan müsəlman intibahı adlanan məşhur mədəni oyanışın ən mühüm mərkəzlərindən biri idi. Azərbaycan alimləri müxtəlif elm sahələrinin, o cümlədən təbabət, fəlsəfə, astronomiya, tarix və coğrafiyanın inkişafında dünya elminin önündə gedirdilər. Azərbaycan elmi vahid islam mədəniyyəti adlanan mədəniyyətin tərkib hissəsi kimi inkişaf edirdi.

Naxçıvan Naxçıvanşahlığın mərkəzi olduğu dövrdə Yaxın Şərqin bir sıra ölkələrindən buraya çoxlu şair, alim və mütəfəkkirlər gəlmişlər. Naxçıvan Eldənizlər dövlətinin paytaxtı olanda elm və mədəniyyətin inkişafına böyük şərait yaradılmışdır. Naxçıvan hakimi Əbu Duləf elm və mədəniyyət xadimlərinə xüsusi

rəğbət bəsləmiş və onları saray ətrafında toplamışdı. Atabəylər elm və mədəniyyətə himayədarlıq edirdilər. Onlar öz saraylarında görkəmli alimləri toplayır və onlara elmi əsərlər yazmağı sifariş edirdilər. Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan elmə, ədəbiyyata, incəsənətə ən çox himayədarlıq edir və qayğı göstərirdi [1, s.539]. Naxçıvan Eldənizlər dövlətinin paytaxtı olarkən burada çoxlu alim, mütəfəkkir, şair, memar yaşayırdı. Ərəb alimlərindən Yaqut Həməvi özünün "Mucəm əl-bul-dan" əsərində Naxçıvan şəhərindən çoxlu alim çıxdığını və onların ən-Nəşəvi nis-bəsilə məşhur olduqlarını göstərir [44, s.784]. Bu alimlər dövrün elm və mədəniyyət mərkəzləri hesab olunan Dəməşq, Tunis, Bağdad kimi şəhərlərdə təhsil almışdılar. X-XI əsrlərdə Naxçıvanda Həddad ibn Asim Əbül Fədl ən-Nəşəvi, əl-Müfərric ibn Əbu Əbdüllah ən-Nəşəvi, Əbu Əbdüllah əl-Hafiz ən-Nəşəvi, Əbu Abbas ən-Həb-hanı ən-Nəşəvi, Əhməd ibn əl Hacaf Əbübəkr əl-Arəzli ən-Nəşəvi kimi alim və mütəfəkkirlər yetişmişdir [18, s.142-143]. Əbu Əbdullah əl-Müfərruc ən-Nəşəvi dövrünün görkəmli fakihlərindən (*dinin, şəriətin qaydalarını şərh edən hüquqşü-nas)* hesab olunurdu.

XI əsrdə Naxçıvandan çıxmış görkəmli təbiblərdən Əkmələddin Naxçı-vaninin adı böyük şöhrət tapmışdı. O, ən görkəmli həkimlərdən biri kimi mövlana Cəlaləddin ər-Ruminin yaxın dostu və müalicə həkimi idi [8, s. 257]. Orta əsrdə yaranmış əsərlərdən birinin müəllifi onu "Müdriklərin ağası, təbiblərin sultanı, dünya həkimlərinin rəisi" və bir çox başqa ləqəblərlə adlandırır [45, s. 111-115, 117-119].

XI əsrin birinci yarısında yaşamış Azərbaycan filosofları içərisində naxçı-vanlı Əbü Ömərin adı xüsusi yer tutur. Əbu Ömər Naxçıvani öz dövrünün Şeyx Əbdüllah Bakuvi, Pir Hüseyn Şirvani, Məhəmməd əli Bakuvi (Kuhi), Əbu Nəsr Şirvani kimi görkəmli mütəfəkkirləri ilə bir səviyyədə durur və Azərbaycanın bu dövrdəki dini, fəlsəfi fikir tarixində öz əsərləri və fəaliyyətilə mühüm yer tuturdu [18, s. 144].

XIII əsrdə yaşamış alim Nəcməddin Naxçıvani məşhur Əbu Əli ibn Sinanın "Qanun" əsərini şərh və təhlil etmişdir. Nəcməddin Naxçıvani bu kitabında ibn Sinanın "Qanun" əsərinin müsbət və qüsurlu cəhətlərini göstərmişdir. O, ibn Sinanın bir sıra nəzəri mühakimələrilə razılaşmadığını yazmışdır.

Dahi Azərbaycan alimi, böyük ensiklopediyaçı mütəfəkkir, filosof, ictimai-siyasi xadim kimi tanınan Nəsirəddin Tusi (1201-1274) dünya elminə bir sıra ye-niliklər gətirmişdir. Onun dünya elmi və mədəniyyəti tarixində ən böyük xidmətlərindən biri 1259-cu ildə Marağa rəsədxanasını təşkil etməsidir. Rəsədxana nəzdində fəaliyyət göstərən mədrəsədə o dövrün bütün bilik sahələri, elmi, dini, fəlsəfi və ictimai-siyasi təlimləri öyrənilirdi. N.Tusinin ilahiyyat, fəlsəfə, siyasət və etikaya dair əsərlərində onun dünyagörüşü geniş əks olunmuş, etik və ictimai-siyasi görüşləri, əsas etibarilə 1235-ci ildə yazdığı "Əxlaqi-Nasiri" əsərində əksini tapmışdır [17, s. 29]. N.Tusinin başqa bir əsəri olan "Zic-Elxani"də planetlərin

geosentrik orbitinin əsas elementləri verilmiş, onların sutkalıq orta hərəkəti dəqiq təyin edilmişdir. Onun "Evklidin şərhi", "Həndəsənin əsasları" əsərlərində Evklidin 5-ci postulatı haqqında öz nəzəriyyəsini vermiş, üçbucağın daxili bucaqlarının cəmi arasında əlaqəni tapmışdır. Nəsirəddin Tusi Arximedin nisbətlər nəzəriyyəsini inkişaf etdirmişdir. Onun verdiyi ədəd anlayışı müasir təsəvvürə uyğun gəlir və o, bu sahədə Avropa riyaziyyatçılarını xeyli qabaqlamışdı. Mənbələrdə Nəsirəddin Tusiyə fövqəladə qabiliyyətinə, dərin zəkasına və misilsiz xidmətlərinə görə "on birinci əql" (şərq peripatetizmi on əql növünün mövcudluğunu qəbul edirdi) və "bəşər ustadı" deyilmişdir.

Həsən ibn Ömər Naxçıvani (1206-1298) Naxçıvanda anadan olmuş, sonra ailəsi ilə birlikdə Xoy şəhərinə köçmüşdür. O, uzun müddət Volqa boyunda, sonra Buxarada, Kirmanda, Marağada və Təbrizdə yaşamışdır. Onun əsərləri bizə çatmasa da, məxəzlərdə Həsən ibn Ömər Naxçıvaninin geniş bilik sahibi olduğu göstərilir.

Göründüyü kimi, X-XII əsrlərdə ümumi iqtisadi inkişafla əlaqədar Azərbaycanda, eləcə də Naxçıvanda maarif və elm sahəsində də diqqəti cəlb edən dəyişikliklər baş vermişdi.

**Memarlıq və incəsənət.** IX-XII əsrlərdə Azərbaycanda memarlıq sahəsində də intibah baş verdi. Bu zaman Azərbaycanda dünya memarlığının nadir inciləri yarandı. İslam dini Azərbaycan memarlığına yeni üslub gətirdi. Azərbaycanın bir sıra şəhərlərində olduğu kimi, Naxçıvan, Ordubad və Culfa şəhərlərində, iri yaşayış məntəqələrində gözəl imarətlər, məscidlər, minarələr, türbələr ucaldıldı. Azərbaycan hakimləri, iri feodallar və varlı tacirlər dəbdəbəli saraylar, möhtəşəm və gözəl imarətlər ucaltmaqda bir-birilə yarışır, bu işə dövrün ən mahir sənətkarlarını cəlb edirdilər.

Naxçıvan şəhərinin Azərbaycan Atabəylərinin iqamətgahına çevrilməsi nəticəsində Naxçıvanda memarlıq yüksəliş dövrünə çatmış, Əcəmi Əbubəkr oğlu Naxçıvani (XII əsrin 20-ci illəri – XII əsrin sonu) fəaliyyəti ilə Yaxın Şərq memarlığında əhəmiyyətli rol oynamışdır [25, s. 92]. Əcəminin yaratdığı məktəb təkcə Naxçıvanı əhatə etmir, onun memarlıq üslubu, memarlıq məktəbi Şərq aləminin böyük bir hissəsində davam edib, kompozisiyalı abidələr yaratmışdır. O, Naxçıvanda Yusif Küseyir (Qasir) oğlu türbəsi (1162), Möminə xatın türbəsi (1186), Qoşaminarə (1187), Cümə məscidi, Darülmülk (Eldənizlər sarayı) və başqa nadir memarlıq abidələri ucaltmışdı. Böyük sənətkar özündən əvvəlki memarlıq ənənələrini daha da zənginləşdirmiş, təkmilləşdirmiş və riyazi hesablamalara əsaslanan mürəkkəb memarlıq kompleksləri yaratmışdır. Yusif Küseyir oğlu və Möminə xatın türbələrində kufi xətlə yazılmış kitabələrlə mürəkkəb həndəsi naxışlar arasında yaradılmış misilsiz bəzək ahəngi memarlıq sənətinin çox böyük nailiyyətidir. Əcəmi Əbubəkr oğlu Naxçıvan memarlıq məktəbinin banisi hesab edilir. Çünki Əcəmi Naxçıvani həmin məktəbin yüksək nailiyyətlərinin yaradıcısı, bu məktəbin çiçəklənməsini təmin edən memarlıq təzahürünün klassiki və Naxçıvan

memarlıq məktəbini geniş beynəlxalq səhnəyə çıxaran memar olmuşdur [35, s. 52]. Əcəminin yaradıcılığı orta əsr Azərbaycan memarlığına yeni istiqamət vermiş, Yaxın Şərq memarlığına güclü təsir göstərmişdir. Əcəminin adı XII əsr Azərbaycan intibahının görkəmli simaları arasında şərəfli yer tutur. Şərqin böyük dühaları ona "şeyxül-mühəndis" (mühəndislərin başçısı) fəxri adı vermişdilər.

Əcəmi Əbubəkr oğlunun yaratdığı ilk əsər Yusif Küseyir oğlunun türbəsidir. Bu türbə el arasında "Atababa günbəzi" adı ilə də adlandırılır. Türbənin qapısı üstündəki kitabədə yazılır ki, "Bu türbə xacə, canlı rəis, dinin zəkası, islamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunun sərdabəsidir". Həmin kitabədə türbənin beş yüz əlli yeddinci ilin şəvval ayında (1162) tikildiyi bildirilir. Qonşu üzdəki kitabədə isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməli" məlumatı yazılmışdır.

Şeyxlər başçısının türbəsi ikiqatlı olub, hər iki qatı planda səkkizbucaqlı biçimdədir. Sərdabə yer altına salındığından türbə bayırdan birqatlı qüllə kimi görünür. Yusif Küseyir oğlu türbəsi ilk baxışdan "tutumunun həndəsi təmizliyi, nisbətlərinin incəliyi və harmonik gözəlliyi ilə diqqəti cəlb edir" [15, s. 92].

Ornamentli üzlərin yuxarısı boyunca friz şəklində üzəri iri kufi kitabə ilə doldurulmuş enli qurşaq keçir. Həmin kitabənin girişinin sonundakı üzə keçən hissəsində Naxçıvan memarlıq məktəbinin banisinin adı yazılmışdır. Sonrakı illərdən fərqli olaraq bu halda Əcəmi öz adını "Nəşvi" şəklində vermişdir. Frizin ardınca dərhal bəzəksiz, piramidavari çadır-günbəz başlanır [36, s. 103]. Sərdabə səkkizüzlü plana uyğun ortası yastı olan günbəzlə örtülüdür.

Naxçıvanın tarixi şəhər mərkəzi olan iri Atabəylər memarlıq ansamblından indiyə qədər salamat qalmış abidələrdən biri də Möminə xatın türbəsidir. El yaddaşında "Atabəy günbəzi" adı ilə tanınan bu nadir memarlıq əsərini, kompleksin elmə bəlli başqa binaları kimi, Atabəylərin Naxçıvan sarayının baş memarı Əcəmi Əbubəkr oğlu Naxçıvani ucaltmışdır. Türbənin tikintisinə Şəmsəddin Eldənizin vaxtında başlanmış (1175), Məhəmməd Cahan Pəhləvanın dövründə bitmişdir (1186). Baştağ isə onun ölümündən sonra tikilmişdir. Türbə Möminə xatının şərəfinə tikilsə də, burada Möminə xatın, əri Şəmsəddin Eldəniz və oğlu Cahan Pəhləvan dəfn edilmişdir.

Onguşəli Möminə xatın türbəsi özünün iri ölçüləri, monumental biçimləri, dinamik silueti ilə böyük bir memarlıq kompleksinin dominantı, memarlıq prinsiplərinin təkmilləşməsi və mürəkkəbləşməsi əsasında yaradılmış monumental abidədir. Əcəmi Möminə xatın türbəsini Yusif Küseyir oğlu türbəsindən 26 il sonra tikmişdir. Ona görə, bu sənət əsərində sənətkarların ustalığının, müdrikliyinin artması ilə yanaşı, sifarişçinin gücü, böyüklüyü də əks olunmuşdur. Möminə xatın türbəsinin ümumi quruluşu – sərdabə və qüllə, kompozisiyanın inkişaf yolu, memarlıq tutumlarının dürümü Yusif Küseyir oğlu türbəsində olduğu kimi dəyişməz qalır [15, s. 95]. Lakin bu türbə öz sələfini ilk öncə ölçü iriliyi və plan biçiminin mürəkkəbliyi ilə örtmüşdür. Türbənin sərdabəsi planda onbucaqlıdır. Aşırımı 10 metrə yaxın

(Yusif Küseyir oğlu türbəsində 5,2 m) sərdabəni yastı kərpic günbəzlə örtmək olmazdı, ona görə memar alt qatın möhkəmliyinə xüsusi fikir vermiş, əvvəllər Qırmızı günbəz sərdabəsində işlədilən konstruktiv fəndi inkişaf etdirərək sərdabənin ortasında qalan onüzlü dayaq qoymuşdur. Türbənin davamlı və uzunömürlüyü ilk olaraq onun mühəndis həllinin bitkinliyi ilə bağlıdır. Əcəmi öz şah əsərində təkcə bədii təfəkkürün dərinliyi, zövq incəliyi deyil, eləcə də geniş riyazi biliyə və zəngin yaradıcılıq təcrübəsinə əsaslanan mühəndislik dühası nümayiş etdirmişdir.

Möminə xatın türbəsinin kürsülüyü onüzlü biçimdə olub cilalanmış iri diorit lövhələri ilə üzlənmişdir. Onun üzərində eyni biçimli qüllənin uca kərpic tutumu yüksəlir. Üst piramidal örtüyü uçulmuş türbənin indiki yerüstü ucalığı 25 metrə yaxındır. İlkin halında isə onun hündürlüyü 35 metrə çatırmış. Türbənin yerüstü qurğusu 10 güşəli, daxildən isə dairəvi plandadır. Türbənin xarici səthləri müxtəlif ölçülü kərpiclərdən qurulmuş ərəb əlifbasından ibarət kitabələr, həndəsi ornamentlər və gəc üzərində nəbati təsvirlərlə çox yüksək bədii tərtibatla bəzədilmişdir. Türbədə olan kitabələrin ümumi uzunluğu 500 metrə yaxındır [15, s. 99]. Bu kitabələri oxumuş Ə.Ələsgərzadə belə nəticəyə gəlmişdir: “Onüzlü türbənin bütün üzləri kənarlardan “Yasin” surəsinin mətni ilə haşiyələnmişdir. İki dəfə təkrar olunmaqla bu surə, bir dəfə I üzdən V-yə, o biri dəfə VI-dan X üzədək davam edir. Hər üzdə yazı sağda aşağıdan başlayıb yuxarı qalxır, sonra yuxarıda üfüqi davam edir və soldan aşağı enir” [11, s. 54]. Yasin sürəsi ilə haşiyələnmiş üzləri lap yuxarıda başqa bir yazı qurşağı birləşdirir. Bu, türbənin sifarişçisini (...Şəmsəddin Eldəniz) və kimin xatirəsinə (Möminə xatının) ucaldıldığını bildirən baş kitabədir.

Möminə xatın türbəsi üzərindəki bəzəklər Əcəminin tükənməz fantaziyaya malik sənətkar olduğunu göstərir. Türbənin səthləri əsasən 5-6-8 güşəli ulduzlar, 6-8 bucaqlı həndəsi ornamentlərlə bəzədilmişdir [10, s. 55]. Memarın adını daşıyan kitabə giriş tağından yuxarıda verilmişdir. Türbənin yuxarı hissəsi kufi yazılarla və firuzəyi kaşılarla bəzədilmiş qurşaqla əhatələnir. Türbənin daxilində yeganə bəzək elementi günbəzin iç tərəfində yerləşdirilmiş dörd qönçədir. Bu qönçələr – medalyonlar nəbati ornamentlərlə bəzədilmiş, onların içərisində kufi xətlə kitabələr yerləşdirilmişdir.

Nəbati naxışlı birinci medalyonun bəzəyinin qrafik strukturu səkkiz dəfə təkrar olunan “Məhəmməd” sözlərinin toplusundan ibarətdir. İkinci medalyonda “Allah, Məhəmməd, Əbubəkr, Ömər, Osman, Əli”, üçüncü medalyonda “Allah, Məhəmməd, Ömər, Əbubəkr, Osman, Əli, Həsən, Hüseyn”, dördüncüdə “Allah, Məhəmməd, Əbubəkr, Ömər, Osman, Əli” sözləri həkk edilmişdir. Abidənin baştağında kufi xətti ilə bu sözlər yazılmışdır: “Biz gedirik ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar”.

Möminə xatın türbəsi yüksək sənət əsəri, orta əsr Azərbaycan memarlığının şah əsəridir. Məşhur sənətşünas, akademik M.V.Alpatov Möminə xatın türbəsi haqqında yazır: “Belə yüksək memarlıq forması duyğusuna, kompozisiyanın belə

klassik kamilliyinə və mükəmməl işlənməsinə bu zamanlar Orta Avropada təsadüf etmək mümkün deyildir. Naxçıvan türbəsindən klassik şərq ədəbiyyatının ən yaxşı əsərləri Firdovsinin "Şahnamə" (X-XI) və yaxud Nizaminin "Leyli və Məcnun" (XII əsr) poemasında olduğu kimi insanpərvərlik nəfəsi gəlir" [51, s. 248-249].

Əcəmi Naxçıvaninin yaratdığı tikililərdən biri də bizə XIX əsrə aid fotodan məlum olan qoşa minarəli baştağdan – portaldan ibarət darvazadır. Bu abidə Möminə xatın türbəsi də daxil olmaqla, böyük bir memarlıq kompleksinin giriş hissəsidir.

Həmin dövrdə Naxçıvan şəhərinin ən möhtəşəm və hündür memarlıq abidəsi olan Cümə məscidi Möminə xatın türbəsi yaxınlığında yerləşmişdir. XVII əsrdə Naxçıvanda olmuş fransız səyyahı Tavernye Naxçıvan abidələrinə heyranlığını gizlətməmiş və Naxçıvan Cümə məscidini Asiyada ən möhtəşəm məscidlərdən biri kimi qiymətləndirmişdir [36, s.185]. Bu məscid haqqında V.Engelqardt (XIX əsr) "Qafqaz" qəzetində yazmışdır: "...Bu, yonulmuş daşdan hörülmüş tağlara malik nəhəng bir binadır. Onun daxilində hələ də gözəl işlənmiş oyma qabartmaların izləri var. Binanın bir hissəsi uçub tökülmüş, qalan hissəsi isə uçmaq təhlükəsi altındadır. Məsciddən 50 sajen (təqribən 107 m) aralıda, məscid kompleksinə daxil olan, hər biri 20 sajen (təqribən 42 m) hündürlüyündə bir cüt minarəyə malik darvaza yerləşir. Əvvəllər məscidlə darvaza arasındakı sahə məscidə məxsus tikililərlə əhatə olunsa da, indi onlar yox olmuşlar və adama elə gəlir ki, darvaza yaxınlıqda dayanan tək qülləyə məxsusdur" [23, s. 337; 36, s. 186].

Naxçıvanın mərkəzi memarlıq ansamblının əsas və möhtəşəm tikililərindən biri Eldənizlərin saray kompleksi olmuşdur. Naxçıvanın şəhərsalma mədəniyyətinin yüksəlməsində Eldənizlər sarayının inşası xüsusi rol oynamışdır. Şəhərin digər monumental abidələri məhz bu sarayla bağlı olub, onun ətrafında salınmışdır. "Əcaib əd-dünya" əsərində yazılır: "Eldənizin həşəmətli günlərində Naxçıvan əzəmətli şəkil aldı. Orada darül-mülk (yəni əmirin sarayı) tikildi" [29, s. 136].

Azərbaycan Atabəyləri dövlətinin baş memarı Əcəmi Naxçıvaniyə Naxçıvandan sonra Eldənizlərin paytaxtına çevrilən Marağa və Həmədan şəhərlərində də məsul tikintilərin inşası etibar edilmişdir.

Azərbaycan memarının özünəməxsus orijinal sənət üslubu olmuşdur. Bu üslub sonralar geniş yayılaraq "Naxçıvan memarlıq məktəbi" adı ilə şöhrət tapmışdır. Bu memarlıq məktəbinin əhatə etdiyi ərazidə əsas etibarilə kərpic binalar inşa edilirdi. Naxçıvan memarlarının qüllə quruluşlu türbələri, nəinki Azərbaycan memarlığının, ümumiyyətlə, bütün Yaxın və Orta Şərq memarlığının sonrakı inkişafına böyük təsir göstərmişdir [18, s.154].

Azərbaycan xatirə memarlığının təkamülündə Əcəmi Naxçıvaninin və Əhməd ibn əl-Hafiz Naxçıvaninin böyük xidmətləri olmuşdur. İkiqatlı quruluşu olan türbələrin üst bölümü silindr, kub və ya prizma biçimli gövdədən ibarət olub ikiqatlı günbəzlə örtülürdü. Əcəmi Naxçıvaninin iki əsəri prizmatik gövdəli

türbələrdir. Əhməd ibn əl-Hafiz Naxçıvani isə yuvarlaq gövdəli türbələr yaratmışdır [25, s.92].

Naxçıvanda Əmirəddin Məsud (XII) və Cəmaləddin (XII-XIII) kimi bacarıqlı sənətkar-memarlar yaşayıb yaradırdı [23, s. 98, 175]. Əmirəddin Məsudun yaradıcılıq fəaliyyəti, əsasən Eldəniz hökmdarlarından Cahan Pəhləvanın hakimiyyəti illərində olmuşdur. Məlum olduğuna görə onun 1172-ci ildə tikdiyi abidə sonralar dağıdılmış və zəmanəmizə qədər gəlib çıxmamışdır [18, s.154]. Məşhur memar Cəmaləddin isə Əlincə çayı sahilindəki Xanəgah kəndində (Culfa rayonu) Xanəgah kompleksinə daxil olan türbə tikmişdir. Sonrakı dövrdə Şeyx ibn Cühənna Naxçıvani kimi mahir sənətkarlar meydana gəlmişdir. Onun Ordubad rayonunun Aza kəndində tikdiyi "Minarə" Naxçıvan memarlıq məktəbinin davamıdır.

Əcəmi memarlıq məktəbinin təsiri ilə Naxçıvanda bir sıra orijinal monumental xatirə abidələri ucaldılmışdır. Belə nadir abidələrdən biri Culfa rayonu ərazisində, Arazın sol sahilində yerləşən Gülüstan türbəsi XIII əsrin əvvəllərində tikilmişdir. Bu abidə Azərbaycanın qülləvari türbələri qrupuna daxildir. Türbənin 12 üzlü gövdəsi qırmızı qumdaşından, orijinal quruluşlu kürsülüyü isə yonulmuş daşdan tikilmişdir. Azərbaycanın digər türbələrindən fərqli olaraq, Gülüstan türbəsinin sərdabəsi yerüstü hissədə yerləşir. Türbənin səthləri oyma həndəsi ornamentlərlə bəzədilmiş, dekorativ tağlarla çərçivələnmişdir. On iki üzdə naxışları diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, burada ardıcıllıq yalnız ardıcıl təkrarlanan üç növ həndəsi naxış çeşnisindən ibarətdir [23, s.149].

Naxçıvan memarlığının Azərbaycan, eləcə də Yaxın və Orta Şərq memarlığına böyük təsiri olmuşdur. Buna görə də Naxçıvan memarlıq məktəbi yüksək qiymətləndirilmişdir. Professor B.B.Denike yazırdı: "Məlum olur ki, gözəl xalq ustaları, memarları yetirən Naxçıvan memarlıq məktəbi memarlıq tarixində çox parlaq bir hadisədir" [18, s.155-156]. Naxçıvanda olmuş bir sıra səyyahlar, tacirlər, missionerlər şəhərdə olan abidələr haqqında maraqlı məlumatlar vermişlər. Memarlıq abidələrinin tarixinə aid Avropa və Rus şərqşünasları tərəfindən bir çox elmi məqalələr yazılmışdır. Azərbaycan alimləri də tarix və mədəniyyət abidələri, memarlıq əsərləri haqqında kitab, monoqrafiya, ensiklopediya və illüstrativ materiallar çap etdirmişlər.

XI-XII əsrlərdə memarlığın tərəqqisi **incəsənətin** bilavasitə onunla bağlı olan bir çox sahələrinin inkişafına güclü təkan verdi. Daş üzərində yaradılmış oyma naxışlar, misli-bərabəri olmayan milli bəzək nümunələri, kitabələr, qəbir daşları və s. intibah incəsənətinin ən gözəl nümunələri idi.

XII əsrdə yaşamış naxçıvanlı rəssam-nəqqaş Osman ibn Səlmanın hazırladığı zərif qablar o dövr incəsənətinin ən gözəl nümunəsi hesab olunur. Parisin Luvr muzeyində Osman ibn Səlmanın 22 santimetrlik kiçik bir kuzə üzərində gümüşlə işlənilmiş işi saxlanılmaqdadır [18, s.149]. Bu bürünc qabın naxışları Naxçıvandakı Möminə xatın məqbərəsinin bəzəyilə eynidir.

Naxçıvan sənətkarları bir çox yüksək səviyyəli bədii sənətkarlıq nümunələri: saxsı, kaşı, zərgərlik, xalça, parça və s. yaratmışdır ki, bunların da bəziləri hazırda dünya muzeylərində qorunur. Ermitajda saxlanılan tunc atlı heykəli Naxçıvandan əldə edilmişdir. Bu tapıntıdan vaxtilə ətirli maddələr yandırmaq məqsədi ilə cihaz kimi istifadə olunmuşdur. Heykəlin oturacağında gerbə oxşar iki şir və dağ keçisi təsviri çəkilmiş, yan tərəfləri zəngin naxışlarla bəzədilmişdir. Bir tərəfdə üzüm tənəkləri, tülkü, fil, digər tərəfdə əlində xəncər və qalxan tutmuş ovçu və ona hücum edən şir təsviri həkk olunmuşdur. Naxçıvan ustalarının Şərq əfsanələri əsasında təsvirlər həkk olunmuş zəngin naxışlı mis qab Azərbaycan Tarixi Muzeyində saxlanılır. Naxçıvanlı sənətkarlar tərəfindən hazırlanmış gümüş, mis, saxsı qabların, ağac məmulatlarının, müxtəlif xalçaların üzərində olan naxış və təsvirlər, qiymətli incəsənət nümunələridir.

Culfa rayonunun Zoğala yaşayış yerindən tapılmış 2 ədəd tunc qrifon diqqəti xüsusilə cəlb edir. İlk Orta əsrlərdə taxt ayağı olmuş bu qrifonlar (quş-şir şəkilli fiqur) yüksək incəsənət nümunəsi kimi çox maraqlıdır. Hər iki qrifon bir-birinə bənzəyir və kəllə hissələri qartalın başını xatırladır. Qrifonların qarşı tərəfi şir bədənlərinə oxşayır və şirin pəncələri aydın sezilməkdədir. [18, s.151].

Naxçıvanda incəsənətin rəssamlıq, nəqqaşlıq, zərgərlik, xəttatlıq və sair sahələri yüksək səviyyədə inkişaf etmişdi. Zərgərlik məmulatları, mis əşyalar, keramika, ağacdan hazırlanan nümunələr, xalçalar, rəngarəng motivli naxışlarla çox məharətlə bəzədilirdi.

Azərbaycanın bir sıra şəhərləri ilə yanaşı, Naxçıvanda da keramika istehsal edən mərkəzlər var idi. Bu mərkəzlərdə çalışan keramika ustaları hazırladıqları məmulatın üzərində naxışlı motivlərdən başqa böyük zövq və məharətlə müxtəlif süjetli təsvirlər də çəkirdilər. Bitki, heyvan, quş, müxtəlif məişət əşyaları, nəbati naxışlar bu dövrün keramika məmulatının bəzəyində öz əksini tapırdı.

**Ədəbiyyat.** IX-XII əsrlər mədəniyyətinin, eləcə də onun mühüm tərkib hissəsi olan ədəbiyyatın tarixində ən məhsuldar dövrlərdən biri kimi qiymətləndirilir. Bu mədəniyyətin yaradıcılarından olan Azərbaycan ziyalıları bir çox sahələrdə olduğu kimi, ədəbiyyat sahəsində də böyük nailiyyətlər qazanmışdır. Böyük Nizaminin və onu yetirən ədəbi mühitin timsalında Azərbaycan ədəbiyyatı ümumdünya mədəniyyətinin ən uca zirvələrindən birini fəth etdi. Ədəbiyyatın inkişafında, əsasən, iki cərəyan nəzərə çarpırdı: şifahi xalq yaradıcılığı; klassik ədəbi nümunələr [5, s.255]. Bu dövrdə xalq ədəbiyyatının ən böyük nümunəsi "Kitabi-Dədə Qorqud" dastanı idi. "Dədə Qorqud" dastanı Azərbaycan ədəbiyyatı tarixində şifahi xalq yaradıcılığının ana dilində qələmə alınmış hələlik ilk, ən böyük ədəbi abidəsidir [5, s.330]. Əsərdə Göyçə gölünün, Əlincə qalasının, Şərurun, Qaraçuğun, Altuntaxtın, Dərəşamın, Dərbəndin və s. adı çəkilir [6, s.6-7].

Xalq ədəbiyyatından fərqli olaraq, yazılı ədəbi nümunələr, əsasən, feodal hökmdarlarının saraylarında, həmçinin iri şəhərlərdə formalaşan ədəbi mühitdə

meydana gəlirdi [4, s.255].

Bu dövrdə Böyük Nizami "zirvəsinə" yüksələn Azərbaycan ədəbiyyatının Ömər Gəncəvi, Yusif ibn Tahir, Əbülula Gəncəvi, Fələki Şirvani, Əmir İzzədin Şirvani, Mücərəddin Beyləqani, Qivami Gəncəvi, Qətran Təbrizi, Xətib Təbrizi, Məhsəti Gəncəvi, Xaqani Şirvani və b. bu kimi görkəmli sənətkarlar nəsli yetişirdi. Lakin Azərbaycan intibah ədəbiyyatı Nizami Gəncəvinin yaradıcılığı ilə özünün ən yüksək zirvəsinə ucaldı.

Tarixi məxəzlərdən məlum olur ki, XI əsrin 60-cı illərində, Naxçıvanşahlıq dövründə Yaxın Şərqin bir sıra ölkələrindən Naxçıvana çoxlu şair, alim və mütəfəkkir toplaşmışdı [18, s.141]. Bu, hər şeydən əvvəl, şəhərin Naxçıvanşahların – Əbu Duləfilərin mərkəzinə çevrilməsilə əlaqədar idi. Əbu Duləf Deyraninin özünün şair olması da, yaradıcı adamlara göstərilən diqqət və hörmət də onların Naxçıvana gəlməsinə təsir etmişdi. XI əsrin 60-cı illərin ortalarında məşhur fars şairlərindən Əsədi Tusi (1046-1066) Naxçıvanda olarkən saray əyanlarının təklifi ilə "Gerşasbnamə" adlı qəhrəmanlıq dastanı yazmış və onu Naxçıvan hakimi Əbu Duləf Deyraniyə həsr etmişdir. Əsədi Tusi bu əsərində Əbu Duləfi vəsf edərkən, onu xoşbəxt adlandırır və düşmənlərə qarşı amansız olub həmişə qalib gəldiyini göstərir.

Görkəmli Azərbaycan şairi Qətran Təbrizi (1010-1080) Naxçıvan sarayı ilə sıx əlaqədə olmuş və bir müddət Naxçıvanda yaşamışdır [18, s.142]. O, Əbu Duləfə bir neçə qəsidə həsr etmiş və onu "Naxçıvanşah" adlandırmışdır. Əbu Duləfin elm və mədəniyyət xadimlərinə, şairlərə, ziyalılara xüsusi rəğbəti olduğundan onlar saray ətrafında toplaşmışdı. Belə bir vəziyyət Eldənizlər dövründə daha da genişlənmişdi.

Tarixi qaynaqlardan məlumdur ki, Azərbaycan Atabəyləri dövlətinin yaradıcısı Şəmsəddin Eldəniz özünə yaxın olan şairləri saraya toplayaraq şairlər məclisi təşkil etmişdi. Azərbaycan Atabəyləri sarayında fəaliyyət göstərən və yazıb-yaradan şairlər arasında Seyyid Zülfüqar Şirvani, Qivami Mütərrizi, Fərrux Şirvani, Cövhəri, Yusif Füzuli, Kəmaləddin Naxçıvani, Seyyid İzzəddin əl-Ələvi və b. adlarını çəkmək mümkündür. Dövrün ən məşhur şairi Nizami Gəncəvi "Xosrov və Şirin" əsərini III Toğrul, Cahan Pəhləvan və Qızıl Arslana ithaf etmişdir. Qıvami Gəncəvi də Nizami kimi Eldənizlərə rəğbət bəsləmiş, şeirlərində Məhəmməd Cahan Pəhləvanı və Qızıl Arslanı mədh etmişdir [16, s.102]. İnsan, onun gözəlliyi, real qayğıları başqa humanist sənətkarlar kimi Qivami Gəncəvi yaradıcılığı üçün də səciyyəvidir.

XII əsrin Azərbaycan şairləri və naşirləri arasında Əbubəkr ibn Xosrov əl-Ustad diqqəti xüsusilə cəlb edir. Onun "Munisnamə" əsəri müəllifin həyatı, yaradıcılığı haqqında yeganə məlumat mənbəyidir. Bu məlumata görə, şair Azərbaycan atabəylərinə xidmət etmiş, gənc şahzadələrin müəllimi və tərbiyəçisi olmuş, əsərlərini Azərbaycan atabəyləri Cahan Pəhləvana, Qızıl Arslana və Əbubəkrə ithaf

etmişdir. "Munisnamə"nin giriş hissəsində müəllif Eldənizlərin adı ilə bağlı altı əsərin adlarını çəkir:

1. Əcəm sevgilisinin kitabı. Əsər şeirlə yazılıb və atabəy Qızıl Arslana ithaf olunub.
2. Mehri Müştəri. Tamamlanmamış romandır. Atabəy Qızıl Arslana ithaf olunub.
3. Ruhun dincəlməsi, rahatlığı. Əsər şeirlə yazılıb. Atabəy Nüsrətəddin Əbubəkrə ithaf edilib.
4. Məclislərin ləzzəti. Nəsrlə yazılıb. Əsər gənc bir oğlanla qız arasında mübahisəyə həsr olunmuş və atabəy Nüsrətəddin Əbubəkrə ithaf edilib.
5. Mənsur və Mərcan haqqında. Mərhum atabəy Cahan Pəhləvana ithaf olunub.
6. "Pornoqrafiya kitabı"na zidd. Əsər atabəy Qızıl Arslana ithaf edilib. Kitab Əzrakinin həmin adda yazdığı aşiqanə əsərinə sərt cavabdır [8, s.256].

Nizami Gəncəvinin dostu və dövrün məşhur yazıçısı Əbubəkr ibn Xosrov Gəncədən idi. Eldənizlər sarayında yaşayırdı və Atabəylərin uşaqlarını tərbiyə edirdi. Cahan Pəhləvanı və Qızıl Arslanı lap uşaqlıq illərindən o tərbiyə etmiş, müxtəlif elmləri öyrətmişdir [21, s.9].

"Munisnamə" özü 17 fəsildən ibarətdir, burada maraqlı hekayə, novella, ibrətamiz hədis və məsələlər toplanılmışdır. Mətninə xeyli şeir parçası daxil edilmiş bu əsər farsdilli ədəbiyyatın yayıldığı bütün bölgələrdə sonralar çiçəklənən qafiyəli bədii nəsrin erkən və parlaq nümunələrindən biridir [3, s.537]. Kitabın axırıncı fəslində 33 tərbiyəvi qissə verilmişdir.

Ümumiyyətlə, Azərbaycan sarayının ədəbi mühiti çox məhsuldar olmuşdur. Eldəniz hakimləri mədəniyyətə, incəsənətə, ədəbiyyata xüsusi əhəmiyyət vermişlər. Mənbələrdən aydın olur ki, onlar şairlərə qarşı çox qayğıkeş və həm də tələbkar olmuşlar. Qızıl Arslan hakimiyyətə gələndə saraydan Mücirəddin Beyləqani kimi şairi uzaqlaşdırıb, yerinə Şərqdə məşhur olan Əsirəddin Əxsikəti və Əsərini dəvət edir [20, s.10-11]. Xaqani və Fələki Şirvanilər də Atabəylər sarayında olanda Naxçıvana baş çəkir, buranın ədəbi mühitində fəal iştirak edirdilər. Qətran Təbrizi də Naxçıvan sarayı ilə sıx əlaqədə fəaliyyət göstərmiş, tarixi mənzumələrində ölkədə gedən qanlı müharibələri təsvir etmişdir. Onun əsərləri Əbulüla, Fələki və Xaqani kimi şairlərin yaradıcılığında mühüm rol oynamışdır [5, s.330].

Beləliklə, Naxçıvanın X-XII əsrlər tarixini araşdırarkən bir daha aydın olur ki, bölgənin ictimai-siyasi və mədəni həyatı xeyli inkişaf etmiş, Naxçıvanşahlıq və Eldənizlər dövründə bir çox sahələr intibah səviyyəsinə çatmışdı.

# VI FƏSİL

## NAXÇIVAN XIII-XV ƏSRLƏRDƏ

### 1. Monqolların Naxçıvana I yürüşü

XIII əsrin ilk rübündə Mərkəzi Asiyada Çingiz xan (1206-1227) tərəfindən yaradılan güclü hərbi qüdrətə malik olan Monqol dövləti qonşu ölkələr üçün çox ciddi təhlükə törətdi. Qonşu ölkələrdə hökm sürən feodal pərakəndəliyi Çingiz xanın planlarının həyata keçirilməsi üçün əlverişli şərait yaratmışdı [3, s. 15].

Monqol yürüşləri ərəfəsində Azərbaycanın daxili və xarici vəziyyəti gərgin idi. XIII əsrin əvvəllərində ölkənin şərq sərhədlərində mövcud olan Xarəzmşahlar dövləti hərbi qüdrətini itirmişdi və monqollarla mübarizə aparmaq iqtidarında deyildi. Bu dövrdə Azərbaycanda Atabəylər dövləti və Şirvanşahlar dövləti mövcud idi. Marağada isə Rəvvadilər nəslindən olan Ağsunqurilər (1108-1227) sülaləsi hakimiyyətdə idi. Bəhs olunan dövrdə Azərbaycan ərazisində feodal çəkişmələri və daxili hərc-mərclik hökm sürürdü. Atabəylərin son nümayəndəsi Müzəfərəddin Özbək (1210-1225) feodal qruplarının əlində oyuncağa çevrilmişdi, daxili çəkişmələr daha da şiddətlənirdi.

XIII əsrin ilk illərində Naxçıvan bölgəsi xarici müdaxiləçilərin, xüsusilə gürcü feodallarının hücumuna məruz qaldı. 25 günlük mühasirədən sonra çirkin üsul və vasitələrə əl atsa da Gəncəni özlərinə tabe edə bilməyən gürcü qoşunları Naxçıvana doğru hərəkət etdi. Orta əsr mənbələrində qeyd edildiyi kimi "onlar Azərbaycan mahallarından olan" Dvin şəhərini mühasirəyə aldılar. Dvinə Atabəy Əbubəkr tərəfindən heç bir kömək göstərilmədiyi üçün şəhər qarət və talan edildi. Bu xəbəri eşidən Əbubəkr Naxçıvandan Təbrizə yola düşdü. Bununla da "şəhərin müdafiəsi başsız qaldı" [15, s. 98; 38, s. 153]. Dvin (Dəbil) şəhərinin Naxçıvanın qərb hüdudlarına daxil olduğu o dövrün tarixi mənbələrində əks olunmuşdur. Ərəb coğrafiyaşünası Yaqut Həməvi (1179-1229) Dvinin "Arran vilayətində, Azərbaycanın uzaq hüdudlarında yerləşdiyini", Əbubəkr əl-Əhəri (XIV əsr) isə "1338-ci ildə Şərur və Dvin ərazilərinin Əkənçinin oğlu Hacı bəyə" verildiyini yazmışdır [26, s. 60]. Dövrün mənbəsinə əsaslanan tarixçinin yazdığı kimi "...Onlar (gürcülər) ölkədəki bütün mal-qaranı sürüb apardılar. Ölkəni tərk edərkən yolüstü vilayətlərə hücum törədir, qaladan-qalaya, şəhərdən-şəhərə (hər yeri) ələ keçirib qarət edirdilər. Beləliklə, onlar qalaların əksəriyyətini tutdular, Naxçıvan və Beyləqanın üzərinə xərac qoydular" [105, s. 115].

Gürcü qoşunlarının hücumlarının qarşısını hər vəchlə almağa çalışan Atabəy Əbubəkr gürcü hökmdarının qızı ilə evlənmişdi. Belə bir yaxın qohumluq əlaqələrindən sonra yaranan sabit şərait Atabəyə və onun ailəsinə Naxçıvanda yaşamağa imkan vermişdi.

Bundan bir neçə il sonra – 1210-1211-ci illərdə gürcü feodalları daha böyük

bir qüvvə ilə Naxçıvan üzərinə hücuma keçdilər. Ancaq şəhərin müdafiəsi yaxşı təşkil edildiyi üçün gürcü qoşunları müdafiəni yara bilmədilər. Bu basqın zamanı Naxçıvan şəhərini ələ keçirə bilməyən gürcülər dağıntılarla müşayiət edilən geniş hərbi yürüşə başladılar, Culfaya tərəf üz tutdular və sonra Mərəndə yaxınlaşdılar. Düzdür, bu yürüş zamanı Naxçıvan şəhəri tutulmasa da, gürcü feodalları geriyə dönərkən bir çox yerləri zəbt etdilər. Onlar Naxçıvan, eləcə də, Beyləqan şəhərləri üzərində vergi qoyurlar [15, s. 104-105].

XIII əsrin 20-ci illərində Naxçıvan bölgəsi yenidən monqolların hücumlarına məruz qaldı. Mənbələrdə qeyd olunduğu kimi "Azərbaycan ərazisinə soxulan monqolların yürüşləri Naxçıvandan da yan ötmədi" [80, s. 32].

Monqol qoşunları noyon-Cəbə və bahadur-Subutayın komandanlığı altında Ərdəbil şəhərini tutduqdan sonra Təbriz və Naxçıvan istiqamətində irəliləməyə başladılar. Döyüşə başlamaq, Təbriz şəhərinin müdafiəsini təşkil etmək üçün heç bir əməli tədbir görülmədi. Belə bir həlledici anda ailəsini mühafizə olunmaq, döyüş yerindən uzaqlaşdırmaq məqsədilə Xoy şəhərinə göndərən Atabəy Özbək Naxçıvana çəkildi və Əlincə qalasında gizləndi. Monqollar Xoy və Səlmas şəhərlərini tutduqdan sonra Naxçıvana soxuldular, şəhəri dağıdıb Beyləqana üz tutdular [49, s. 78-79; 101, s. 11; 130, s. 97-98; 133, s. 116-117]. Onlar zəbt etdikləri bütün ərazilər kimi Naxçıvanda da talan və qırğınlar törətdilər, ağlasığmaz qarətlər etdiər, bölgənini bir sıra yerlərini viran qoydular, əhalini kütləvi şəkildə qırdılar, yerli sakinlərdən heç kəsə (qoca, cavan, uşaq, qadın, xəstə) rəhm etmədilər [49, s. 78]. Monqolların ilk yürüşü zamanı Naxçıvanda törədilən talan və qırğınlar barədə dövrün ilk mənbələrində, orta əsr müəlliflərinin əsərlərində və şahidlərin xatirələrində xeyli məlumat və materiallar vardır. Monqolların qarətçiliyinin şahidi olmuş İbn əl-Əsir yazır: "Kaş anam məni doğmamış olaydı, yaxud mən bu hadisədən əvvəl ölmüş və tamamilə unudulmuş olaydım" [37, s. 161].

XIII əsrin 20-ci illərinin ortalarında Naxçıvan yenidən xarici həmlələrə düçar oldu. Həmin illərdə monqol hücumlarına tab gətirməyib İrana qaçan Xarəzmşah Məhəmmədin oğlanları Naxçıvan üzərinə hücum etdilər. Onun Qiyasəddin Pir adlı oğlu (bəzi mənbələrdə Pirşah da adlandırılır) 1224-cü ildə ona yaxın olan ərazilərlə birlikdə Marağanı istila etdi. Ona müqavimət göstərmək iqtidarında və qüvvəsində olmayan Özbək Pirşahın hüzuruna bir neçə elçi göndərdi və sülh danışıqları aparmağa başladı. Sülh danışıqları Özbəyin təklifi ilə Qiyasəddin Pirşahın onun bacısı Cəlaliyyə ilə evlənməsilə nəticələndi. Özbəyin bu addımı barışıq əldə edilməsinə xidmət etmək məqsədilə atılmışdır. Dövrün mənbələrinə əsaslanan tarixçi N.Vəlixanlı "bu zaman Naxçıvanın Cahan Pəhləvanın Zahidə xatından olan qızı, Özbəyin atabir bacısı məlikə Cəlaliyyənin əlində olduğunu, Ən-Nəsəvinin isə onu "Naxçıvanın sahibəsi" adlandırdığını" bildirir [105, s. 117]. Naxçıvan bu zaman Məlikə Cəlaliyyənin pay torpağı hesab olunduğundan Pirşahın nüfuz dairəsinə düşdü [15, s. 118; 156, s. 120] R.Məmmədov yazır ki, ilk mənbələrdəki məlumat-

lara əsaslanaraq V.V.Bartoldun və Q.Vernadskinin monqol hakimiyyəti dövründə şəhərlərin vəziyyətinə verdiyi qiymətlə razılaşmaq olmaz [49, s. 82]. Monqol basqınlarının törətdiyi dağıntıların miqyası barədə danışan Həmdullah Qəzviniyə görə, "Azərbaycan adlandırılan inzibati hissənin dövlət gəliri Atabəylər dövründə, yəni XII yüzillikdə 20 milyon dinar idisə (1 gümüş dinar o zaman 6 gümüş dirhəmə uyğun gəlirdi), monqol zülmü nəticəsində 1 milyon 150 min dinara, başqa sözlə az qala 20 dəfə aşağı düşmüşdü" [4, s. 155].

Məhəmməd Naxçıvaninin də məlumatlarından görünür ki, monqollar şəhərin əksər hissəsini dağıdıb qarət etmişdilər. O, Naxçıvanın monqol işğalı dövründə vəziyyətini təsvir edərək şer də yazmışdır [49, s. 81].

Naxçıvan şəhərindəki inkişaf 1221-ci ildə başlayan monqol hücumları ilə dayandırıldı. Monqol istilası nəticəsində şəhər tutulmuş və xalqın böyük bir hissəsi üzülmüşdü [166]. İbn Əl-əsirin sözlərilə desək, "Allaha and olsun, mən şübhə etmirəm ki, bir zaman keçəcək, bizdən sonra gələn oxucular bu hadisələri yazılmış şəkildə gördükdə buna inanmayacaq və haqlı olaraq bunu əqldən uzaq bir iş hesab edəcəklər" [4, s. 130].

1222-ci ildə monqol qoşunları Azərbaycan ərazisini tərk edərək Dərbənddən şimala keçdilər və Monqolustana qayıtdılar. Monqolların kəşfiyyat məqsədi güdən ilk yürüşü gələcək istilalar üçün zəmin yaratdı.

## 2. Xarəzmşah Cəlaləddinin Naxçıvanı tutması

1225-ci ildə Naxçıvan Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddinin (Cəlaləddin Manqburnı) hücumlarına məruz qaldı. Cəlaləddinin Təbrizə yaxınlaşdığını eşidən Atabəy Özbək əvvəl Gəncəyə, sonra isə bacısının idarə etdiyi Naxçıvana gəldi və oradan Əlincə qalasına çəkilib qalada sığınacaq tapdı [80, s. 33; 105, s. 119]. O, bu təhlükəsiz qalada gizlənmək və buradan düşmən əleyhinə mübarizə aparmaq niyyətində idi [49, s. 79]. Həmin dövrdə Arazın cənub tərəfində olan Sürməli mahalının hakimləri Şərafəddin Uzdərə və Hüsaməddin Xızır Cəlaləddinin hüzuruna gəlirlər və sultan onların bu ərazilər üzərindəki nüfuzu və vəzifələrini təsdiq edən fərman verir [156, s. 159]. Bu vaxt Naxçıvanın idarəsi Özbəyin arvadı Məleykə xatının əlində idi. Öz mülklərini qorumaq xatirinə Məleykə xatın yalançı şahidlərin köməyilə sultan Cəlaləddinlə (Özbək Məleykəni boşamadığı üçün şəhər qazisi Qəvaməddin əl-Cidari buna etiraz edirdi) nigah kəsdirir [105, s. 119]. Cəlaləddinin şəxsi katibi olan ən-Nəsəvi atabəy Özbəyin vəziri, yaşadığı dövrün görkəmli şəxsiyyətlərindən olan Rəbib əd-Din Dəndandan bu barədə aldığı məlumatı belə təqdim edir: "Atabəy Özbək Naxçıvan mahallarından (amallarından) Əlincə qalasında olarkən eşitdi ki, sultan onun ölkəsini hissə-hissə tutur. O, yalnız bunları dedi: "Doğrudan da yer üzü Allahındır. Bəndələrindən istədiyini onun varisi edər. Aqibət-müttəqilərindir". Nəhayət nigah xəbəri ona çatdı. O, xəbəri gətirəndən

bu barədə soruşdu: Bu məlikənin razılığı ilə oldu, yoxsa onun istəyi xilafına? Həmin adam dedi: Onun istəyi və dəfələrlə elçi düşməsindən sonra. O (yəni Məleykə), talağın (boşanmanın) şahidlərinə xələt verdi. Onları nemətləndirdi. Vəzir Rəbib əd-Din dedi: O (Özbək), başını balışa qoydu, hərarəti qalxdı və bir neçə gündən sonra öldü" [105, s. 120; 133, s. 127]. Beləliklə, Azərbaycan Atabəyləri dövlətinin son nümayəndəsi Özbəyin vəfatından sonra Atabəylər dövləti süqut etdi.

N.Vəlixanlının fikrincə "Naxçıvan hələ də məlikə Cəlaliyyənin mülkü olaraq qalırdı. Qiyasəddin Pirşaha ərə getdikdən sonra, ərinin ölkəni tərk edərək İraqa getməsinə baxmayaraq, o, yenə də Naxçıvanı və onun torpaqlarını idarə edirdi... Şərəf əl-Mülkə göndərdiyi xəbərdən görünür ki, Naxçıvan və onun mahallarından hər il sultan sarayına göndərilən vergilərin miqdarı Naxçıvanın gəlirini iki dəfə üstələyirdi. Lakin Naxçıvandan gələn vergilərlə kifayətlənməyən Şərəf əl–Mülk, Eldənizlər nəslindən olan məlikə Cəlaliyyəni hakimiyyətdən uzaqlaşdırmaq, şəhəri ələ keçirmək qərarına gəlir" [105, s. 120].

Tarixi mənbədə yazıldığı kimi, "Eldənizlər xanədanına son qoymaq və bu xanədanın xarəzmşahlara qarşı çıxan tərəfdarlarını aradan götürmək məqsədilə vəzir Şərəf əl-Mülk Naxçıvanın sahibəsi Cəlaliyyənin tabeliyində olan yerləri tutmaq qərarını verir. 1227-ci ilin yayında o, məlikənin tabeliyində olan Xoy şəhərini ələ keçirir. Lakin bu qadının çağırışı ilə Hilat hakiminin naibi, hacib Hüsaməddin Əlinin ölkəyə gəlişi Xarəzmşah vəzirinin planlarını müvəqqəti də olsa pozur" [105, s. 121]. Bir il keçməmiş Cəlaləddinin vəziri məlikənin Atabəy tərəfdarlarını üsyan hazırladıqlarını, onlara hakimiyyət vəd etdiyini bildirir. Məlikə Xoy şəhərinə qaçır, Tala qalasında gizlənir. Lakin Şərəf əl-Mülk Xoy şəhərinə gəlib, məlikənin bütün var-dövlətini müsadirə edir. Bu zaman məlikə kömək üçün Hilat hakimi hacib Hüsaməddin Əliyə müraciət edir [166]. Dövrün tarixçisi İbn əl-Əsirin məlumatlarına əsaslanan tarixçi yazır ki, "Hüsaməddin Əli əsgərləri ilə Azərbaycan ölkəsinə gəlib, Cəlaləddinin arvadının əlində olan Xoy şəhərini, onun ətrafında olan qalaları və Mərəndi öz əlinə keçirir. Bundan sonra Naxçıvan əhli ona müraciət etdi. Hacib oraya gedəndən sonra naxçıvanlılar şəhəri ona təslim etdilər. Hacibin buradakı şan-şöhrəti qüvvətləndi və əgər o, istəsəydi, əsgərləri bütün ölkəyə malik ola bilərdilər. Lakin hacib burada qalmayıb Xilata qayıtdı". Burada "Naxçıvan əhli" dedikdə məhz xarəzmşahların ağalığından özünü və mülklərini xilas etmək istəyən şəhərin sahibəsi məlikə Cəlaliyyə nəzərdə tutulurdu. Güman etmək olar ki, "Cəlaliyyənin elə bu addımı Şərəf əl-Mülkün həmin hadisədən az sonra Naxçıvana hücum etməsinə səbəb olur" [105, s. 122].

Bundan sonra məlikə Cəlaliyyə Naxçıvanı öz tabeliyində saxlamaq üçün qətlə yetirilmiş əri Qiyasəddin Pirşahın qardaşına, qaynı xarəzmşah Cəlalələddinə ərə getməyə razılıq verir. 1228-ci ildə Cəlaləddin Manqburnı ilə izdivac quran Cəlaliyyə öz yerini daha da möhkəmlədir. Bu barədə bəhs edən mənbə "gürcülərlə apardığı uğurlu döyüşlərdən sonra məlikə Cəlaliyyənin dəvətilə sultan Cəlaləddinin Naxçıvana gəldiyini və burada onunla izdivaca girdiyini" [106, s. 122] bildirir.

Ətraf əraziləri ələ keçirən Cəlaləddin Naxçıvana gəlir, cəmi bir neçə gün Naxçıvanda qalan sultan ona tabe olan vilayətlərin (Xorasan, İraq, Mazandaran) buraya dəvət edilmiş divan başçıları ilə müşavirə keçirir, müharibə şəraitində yaşayan ölkə əhalisinin şikayətlərinin həll olunması, vəziyyətin tənzimlənməsi yollarını arayır. Lakin atılan addımlar, görülən tədbirlər heç bir nəticə vermir. 1231-ci il avqustun ortalarında -onun monqollar tərəfindən qətlindən az sonra ikinci dəfə Azərbaycana yürüş etmiş monqollar yenidən Naxçıvanı ələ keçirir, şəhəri talan və qarət edərək dağıdır, yandırırlar.

Cəlaləddin Naxçıvanda, Təbrizdə özünü xalqa qayğıkeş kimi göstərməyə çalışsa da, əslində heç bir iş görməmiş, faktik olaraq, Azərbaycanda Atabəylər dövlətinin axırına çıxmışdır. Hökmranlıq etdiyi müddətdə Azərbaycanda Atabəylər dövlətinin bərpasına çalışan neçə-neçə hərəkatı amansızcasına yatırmışdır.

### 3. Monqolların Naxçıvana ikinci yürüşü

1227-ci ildə Çingiz xanın ölümündən sonra Cormağun noyonun otuz minlik ordusunun 1231-ci ildə Azərbaycan şəhərlərini ələ keçirərək Qızıl Orda ulusuna daxil etməsi [49, s. 80] ilə Naxçıvan tarixinə yeni bir səhifə açıldı. Naxçıvan bu dövrdə iqtisadi və siyasi cəhətdən tək Azərbaycanda deyil, Yaxın Şərqdə ən yaxşı şəhərlərdən biri kimi xüsusi yer tuturdu. XII əsrdən Naxçıvan paytaxt şəhərlərindən biri kimi, sonralar (XIII əsrdə) isə Cahan Pəhləvanın qızı Cəlaliyyənin iqamətgahı olduğundan [15, s. 160], saray iyerarxiyasının şəhərin tərəqqisində maraqlı olması, digər tərəfdən xəzinənin burada mühafizə edilməsi, həmçinin, Əlincə, Sürməli, Taqmar, Fəqnan, Gərni kimi qala və istehkamların olması [77, s. 184] bölgənin strateji üstünlüyünün və etibarlılığının əsas göstəriciləri idi.

Bu torpaqların geosiyasi əhəmiyyətini və iqtisadi potensialını anlayan monqollar artıq burada möhkəmlənməyi qarşıya məqsəd qoymuşdular. Monqolların 1239-cu ilədək davam edən ikinci yürüşü geniş miqyaslı və uzun müddətli olması ilə birinci yürüşdən fərqlənirdi. Onlar əvvəlki yürüşlərdən fərqli olaraq, bu dəfə daha çox hərbi qüvvə ilə gəlirdilər. Hücum zamanı Azərbaycanda hökmranlıq edən xarəzmşah Cəlaləddin düşmənə qarşı müqavimət göstərməyi vəziri Şəms-ad-din Yulduzçuya həvalə edərək, yeni qüvvələr toplamaq üçün təcili Təbrizə qayıtdı, tabeçiliyində olan yerli hakimlərdən kömək istədi, hətta onunla düşmən münasibətdə olan Suriya və Anadoluda hökm sürən sultan və malikləri də xəbərdar etməyi unutmadı: "...Tatar qoşunları bu dəfə əvvəlkindən daha çoxdur. Əgər siz onu dayandırmaqda mənə kömək etməsəniz, mən məğlub olacam, siz də heç bir müqavimət göstərə bilməyəcəksiniz..." [145, s. 30]. Sürətlə hərəkət edən monqol süvariləri kifayət qədər hərbi qüvvələrinin olması, yeni texnika və mexanizmlərdən istifadə etmələri [134, s. 252], hücum hədəfləri olan ərazilərdə mövcud olan daxili çəkişmələr sayəsində uğur qazanaraq, məqsədlərinə nail olurdular.

Təbrizi, Sərabı, Mərəndi tabe edən monqol qoşunları Naxçıvan vilayətinə daxil olan torpaqlardan iki istiqamətdə keçid etdi. Birinci və əsas istiqamət Naxçıvan şəhərini hədəf almış və Gürcüstanadək, ikinci istiqamət isə Ordubad ərazisindən keçməklə, Qarabağ istiqamətində davam etdirildi [55, s. 23]. Qarabağlar, Qarxun və Dvini tutan monqollar Gürcüstana doğru qalibiyyətli yürüşlərini davam etdirdilər. Bu dövrdə Naxçıvan da digər şəhərlər kimi acınacaqlı hala düşdü. Təsadüfi deyil ki, bəzi tarixçilər hərbi işin digər sahələrin fövqündə dayandığı monqol-tatar idarəçiliyini "elm və fəzilət üçün aclıq dövrü" [66, s. 305] kimi xarakterizə etmişlər.

Naxçıvanda monqol-tatar hücumlarının sərt formada həyata keçirilməsi bir tərəfdən əhalinin müqavimət göstərməsi ilə bağlı olsa da, digər tərəfdən ilk vaxtlar bütpərəst olan monqolların müsəlmanlara düşmən münasibət bəsləməsi ilə bağlı idi. İslam dininin nüfuzunun artmasından narahat olan xristianlar, aralarında müəyyən fikir ayrılıqlarının olmasına baxmayaraq, digər dini cərəyanlarla da ittifaqa girməkdən çəkinmirdilər. Monqol xanlarını öz tərəflərinə çəkmək uğrunda mübarizə aparan "xristianların və buddistlərin öz aralarında olan düşmənçilik belə onların əksər hallarda birgə mübarizə apardıqları islama qarşı olan ümumi nifrətindən çox zəif idi" [1, s. 339].

Monqol işğalı Naxçıvanda məhsuldar qüvvələrə, istehsal münasibətlərinə, xüsusən də kənd təsərrüfatına və şəhər həyatına kəskin zərbə vurdu. Bu dövrdə monqolların başlıca məşğuliyyət sahəsi olan köçəri maldarlıq əkinçilik ənənəsinə, mədəniyyətə və şəhər təsərrüfatına qarşı qoyulmuş [134, s. 256], nəticədə isə əkinçilik, sənətkarlıq, memarlıq tənəzzül etmişdi. Bu proses geniş yanğı, kədər hissi yaratdığından öz dövrünün əksər mənbələrində geniş əksini tapmışdı. Məhəmməd ibn Hinduşah Naxçivaninin əsərlərində Təbriz, Ərdəbil, Marağa, xüsusilə doğma yurdu Naxçıvan haqqında bu dövrə aid geniş məlumatlar vardır. Müəllif qeyd edir ki, bu şəhərlər orta əsrlər dövründə əsas mərkəzlər olaraq, ölkənin siyasi və iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edirdilər. Lakin monqol yürüşləri nəticəsində "dünyanın bəzəyi", "doğma vətən" olan Naxçıvan monqol məmurlarının qəddarlığı və soyğunçuluğu nəticəsində tamamilə dağılmış, əhali yaşayış yerlərini tərk etmişdi. Qeyd etmək lazımdır ki, Naxçıvanın XIII əsrdə amansız dağıntıya məruz qalmasını təsdiq edən P.Lemosof, İ.Şopen, B.Şpuler, V.Bartold [49, s. 80-81] kimi tarixçilərin soyuqqanlı təsvirindən fərqli olaraq, bəzi tarixçilər, o cümlədən, M.Naxçıvani bu basqınlara daha kəskin şərhlər vermişlər [72, s. 185; 123, s. 3; 138, s. 468-471].

1239-cu ildən 1256-cı ilədək dördüncü monqol ulusu olan Qızıl Orda (Cuçi ulusu) dövlətinin tərkibində olan [94, s. 392] Naxçıvan uzun müddət əvvəlki vəziyyətini bərpa edə bilmədi. Bunun əsas səbəbləri isə əhalinin bir qisminin qətlə yetirilməsi, bir hissəsinin əsir aparılması, digərlərinin isə yaşayış yerlərini tərk etmələri olmuşdu.

## 4. Naxçıvan Hülakülər dövlətinin tərkibində

XIII əsrin ortalarında Naxçıvan üçüncü dəfə monqolların yürüşünə məruz qaldı. Cənubi Qafqaz, Kiçik və Ön Asiyada bəzi feodalların hələ də öz müstəqilliklərini saxlamasına, işğal olunmuş ərazilərdə monqollara qarşı azadlıq hərəkatının genişlənməsinə son qoymaq [6, s. 215], eyni zamanda, İran, Suriya, İraq və Azərbaycanda bəzi əmirləri itaətə cəlb etmək üçün Münke xaqan (1251-1260) 1253-cü ildə qardaşı Hülakü xanın (1256-1265) başçılığı altında bu ölkələrə qoşun göndərdi [81, s. 10]. Bu zaman işğalçılara qarşı müqavimət göstərən digər Azərbaycan şəhərləri kimi, Naxçıvan şəhəri də amansız dağıntıya və qarətə məruz qaldı. Həmin vaxt Naxçıvana gələn və şəhərdəki talanların şahidi olan Vilhelm – de Rubruka, M.Naxçıvaniyə və digərlərinə istinad edilən tədqiqat əsərlərində "şəhərin boş səhraya çevrildiyi" və altıda beş hissəsinin tamamilə boşaldığı göstərilmiş [49, s. 80; 129, s. 57-94], həmçinin monqolların yeritdiyi ağır torpaq və vergi siyasətinin ölkənin təsərrüfat həyatına mənfi təsiri qeyd edilmişdir [129, s. 110]. 1257-ci ildə Azərbaycan [3, s. 19], 1258-ci ildə isə Naxçıvan yeni yaradılan Hülakü dövlətinə tabe edildi [97, s. 26]. Bununla da Naxçıvanda monqolların uzun müddətli hökmranlığı başlandı.

Hülakülər dövlətinə tabe olan ərazilər vilayətlərə və tümənlərə bölünərək şahzadələr və sərkərdələrə paylanmış, Naxçıvanın daxil olduğu Arran və Azərbaycanın idarəsi isə tarixi mənbələrdə Yuşumut [149, s. 62-67], yaxud Eşmut [9, s. 33] adlandırılan şahzadəyə tapşırılmışdı. Naxçıvan Hülakülər dövlətinin tərkibinə qatıldıqdan sonra, xüsusi əhəmiyyət kəsb edən tümənliklərdən birinə çevrildi [97, s. 26]. Arazın hər iki sahilini əhatə edən Naxçıvan tüməninə daxil olan beş böyük şəhərdən əlavə olaraq, 10 şəhər tipli kiçik yaşayış yeri, Əshabi-kəhf mağarası, Araz çayı, Xudafərin və Ziyaülmülk körpüləri daxil idi [124, s. 72]. Mənbələrdə eyni zamanda, Qafanın da Naxçıvan tüməninə aid olması qeyd edilir [82, s. 79]. Naxçıvanın tərkibinə daxil olan ayrı-ayrı şəhərlər nüfuzlu hakimlərin idarəçiliyinə verilmişdi. Buranın yerli iyerarxiya nümayəndələrindən Məlik Ziyaəddinin 1318-ci ilə aid, Həsən bəyin isə 1338-ci ilə aid idarəçilik dövrü, Naxçıvan şihnəsi Seyfəddin Aybəyin idarəçiliyi [80, s. 36, 45], həmçinin, "Şərur və Dvin ərazilərinin 1338-ci ildə Əkəncinin oğlu Hacı bəyə həvalə edilməsi mənbələrdə qeyd edilir. Bəzi tarixçilərin Dvin, Qafan və digər Azərbaycan əraziləri haqqında mübahisəli fikirlərinə bu dövrün mənbələrinə (F.Rəşidəddin, Əbubəkr əl-Əhəri, Zeynəddin Qəzvini və digərləri) istinadən yazılan tədqiqat əsərlərində həmin ərazilərdən "Naxçıvana aid olan Qafan", "Arran şəhərlərindən biri olan Dvin" kimi bəhs edilməsi ilə [76, s. 31] konkret cavab verilmiş və əslində bu yerlərin tarixi türk yurdu olduğu sübut edilmişdir. Monqol yürüşləri bu yerlərdə hökm sürən türk-islam mədəniyyətini sarsıda bilmədi, əksinə, tədricən özləri də assimlyasiyaya uğrayaraq türkləşdilər.

XIII əsrin II yarısında monqol şahzadələri arasında hakimiyyət uğrunda gedən mübarizələrdə Naxçıvan siyasi proseslərin mərkəzlərindən birinə çevrilməklə

[80, s. 35], hadisələrin gedişində mühüm rol oynamışdır. 90-cı illərdə daxili çəkişmələr gücləndiyi zaman şəhər müxalif qüvvələrin mərkəzinə çevrildi. Təqiblərdən yayınmağa çalışan monqol şahzadəsi Ənbarci 1294-cü ildə müdafiə olunmaq üçün üz tutduğu Naxçıvan yaxınlığında öldü [3, s. 35]. Bir qədər sonra Keyxatu ilə Baydu arasında başlanan taxt-tac davası 1295-ci ildə sonuncunun qələbəsi ilə nəticələndi. Bundan narazı qalan digər şahzadə-Qazan Baydunu cəzalandırmaq üçün əmir Novruzun başçılığı altında qüvvə göndərdi. Toqaçar, Qurumuşi və digər yaxın adamlarının onu tərk edərək Qazan xana tərəf keçməsi nəticəsində təklənən Baydu təcili olaraq Naxçıvana qaçsa da, xilas ola bilmədi, tutularaq edam edildi [9, s. 168; 26, s. 64; 49, s. 83; 80, s. 35]. Yalnız bundan sonra, 1295-ci ildə Naxçıvan Qazan xana tabe olan şəhərlər sırasına keçdi. Bir müddət ölkədə sabitlik yarandı və quruculuq işləri aparıldı. 1301-ci il noyabrın 7-də [80, s. 35] Misir yürüşündən qayıdarkən, Naxçıvana baş çəkən Qazan xan şəhərin bərpası haqqında göstəriş verdi.

Naxçıvanda dağıntıların aradan qaldırılması, Əlincə qalasının bərpa edilməsi əsasən, Qazan xanın islahat illərinə təsadüf edir. Dövlətin siyasi-iqtisadi qüdrətinin bərpa edilməsi zərurəti Elxani hökmdarı Qazan xanı (1295-1304) daxili siyasət istiqamətini əsaslı surətdə dəyişməyə, bir sıra mühüm islahatlar keçirməyə məcbur edirdi. 1297-1304-cü illər ərzində həyata keçirilən islahatlar digər şəhərlərlə bərabər, Naxçıvan üçün də əhəmiyyətli oldu. Belə ki, Qazan xanın 1303-cü ildə verdiyi fərmana əsasən torpaq mülkiyyətçilərinə yaşayış yerindən qaçmış kəndliləri 30 il ərzində geri qaytara bilmək [3, s. 51] imkanının verilməsi Naxçıvanda da əhalinin say dinamikasına öz müsbət təsirini göstərdi. Demoqrafik artımın nəticəsi olaraq, XIII əsrin 40-cı illərində Naxçıvan xəzinəyə ildə 113 min dinar (11 tümən 3000 dinar) xərac ödədiyi halda, XIV əsrin əvvəllərində bu rəqəm ildə 150 min dinar [81, s. 46] olmuşdur. Təbii ki, Naxçıvanın ayrı-ayrı bölgələri də bu mükəlləfiyyətlərdən istisna deyildilər: Ordubad ildə 2 mln 600 min dinar gəlir verirdi. Azad kiçik şəhər olsa da, dənli bitkiləri, pambığı və üzümü ilə [79, s. 99] vergi ödəmələrində iştirak edirdi. Qeyd etmək lazımdır ki, monqolların vergi siyasəti Səlcuqların çoxillik təcrübəsindən bəhrələnsə də [63, s. 49; 130, s. 18], kəmiyyət və çeşid baxımından ondan daha ağır idi. Bu səbəbdən Naxçıvan, Mərənd və Sərab əhalisi şikayət edərək bildirmişdi ki, vergi yığanlar və məmurlar Qazan xanın fərmanına əməl etmir, istədikləri məhsulları ələ keçirir, tələb olunandan artıq məbləğdə vergilər alır, "bir dinar əvəzinə 20 dinar tələb edirlər" [3, s. 54]. Əsas vergilərdən olan kalan, qopçur (Naxçıvanda "kanqçur" yaxud "qoyunhaqla" adlandırılan rüsum), tamğa [160, s. 145] ilə birlikdə 37 növdən çox rüsum ödənilməsi əhalini müflisləşdirirdi. Vergi və mükəlləfiyyətlərin geniş həcmli olması Hülakülərin maliyyə məsələlərini, idxalat və ixracat, həmçinin vergilərini əks etdirən siyahıda [149, s. 248-249] özünü daha aydın büruzə verimişdir.

Naxçıvan Qazan xanın keçirdiyi islahatlardan sonra qismən bərpa olundu. Naxçıvanın yerləşdiyi mövqe onun ticarət əhəmiyyətini artırdığından pul dövriyyəsi burada genişlənirdi. Qazan xanın keçirdiyi pul, vahid çəki və ölçü sahəsindəki is-

lahatları da Naxçıvan üçün əhəmiyyətli oldu. Belə ki, XIII əsrin birinci yarısında Marağa, Urmiya, Xoy, Səlmas, Sərab kimi şəhərlərlə yanaşı, Naxçıvan da əsrin əvvəllərindəki inkişaf səviyyəsini xeyli ötmüşdü [3, s. 64].

Naxçıvanın monqollar üçün siyasi-inzibati əhəmiyyət kəsb etməsinin ən mühüm göstəricilərindən biri də burada Çingiz xanədanına məxsus pulların kəsilməsi olmuşdur. Bunlardan biri 1245-ci ildə kəsilmişdir. Bu dövrdə Naxçıvanda anonim gümüş sikkələr də kəsilirdi. Qazan xanın keçirdiyi 1301-1302-ci illərin vahid ölçü, çəki və pul islahatından sonra da ölkədə yaranan 75 zərbxanadan biri də burada yerləşirdi [3, s. 64; 153, s. 137]. Məlumdur ki, zərbxanalar ciddi şəkildə mühafizə edilirdi. Buna görə də pulları dövlətin tam siyasi nüfuzu altında olan, qorunması əlverişli olan etibarlı bölgələrdə kəsirdilər. 1333-cü ildə Naxçıvanda ilk dəfə olaraq qızıl sikkə zərb edilməsi və gümüş dirhəmlər kəsilməsi, 1336, 1338, 1347, 1350, 1353, 1356-cı illərdə şəhərdə xırda mis Naxçıvan sikkələri kəsilməsi [49, s. 89], eyni zamanda Qazan xanın, Sultan Olcaytunun, Əbu Səidin, Məhəmməd xanın, Süleyman xanın, Ənuşirəvan xanın adlarına sikkələr kəsilməsi [153, s. 33, 137] buranın geosiyasi və inzibati nüfuzu ilə bağlı olmuşdur. Hülakülərin dövründə zərbxanaların olduğu 19 Azərbaycan şəhəri içərisində Bakı, Təbriz [71, s. 62], Marağa, Sultaniyyə, Salmas, Şabran kimi məşhur şəhərlərlə yanaşı Naxçıvan (1244-1245; 1333-1334), Şərur (1349-1350; 1351-1352), Əlincə, Əndican şəhərlərinin də adlarının olması [27, s. 161] bu bölgənin dövlətçilik baxımından əhəmiyyətindən xəbər verirdi. Dövrün mənbələrində Naxçıvanla birgə xatırlanan yerlər içərisində Şərur və Əlincə [107, s. 16, 23] adlarına daha tez-tez rast gəlinir. Diqqət çəkən amillərdən biri də bu prosesin təkcə Naxçıvan şəhəri ilə məhdudlaşmaması, bütövlükdə, bu regionun idarəçiliyinə daxil olan digər şəhərləri də əhatə etməsi idi. Həmin şəhərlərin o dövrdə "Naxçıvan yolu" kimi tanınan ticarət yolu üzərində yerləşməsi də bu sahədə az rol oynamırdı. 1305-1306-cı illərdə Məhəmməd Xudabəndə Ulcaytunun Marağa istiqamətindən məhz Naxçıvan yolu ilə Muğana və Arrana qışlağa gəlməsi [3, s. 35] bu yolun daha işlək və etibarlı olduğunu göstərirdi.

Qazan xanın islahatları Hülakülərin ictimai inkişafında yeni mərhələ açdı. Nəticədə monqollarda barbarizmdən mədəniyyətə, bütpərəstlikdən islamiyyətə dönüş baş verdi. Bu məqsədlə keçirilən dini islahatlar daha uğurlu oldu. Qazan xanın islamı qəbul edərək "Mahmud" adını götürməsi, eyni adlı şəhər saldırması, məscidləri bərpa etməsi yerli əhalidə Hülakülərə qarşı rəğbət yaratdı. Bu dövrdə Naxçıvanda da bir sıra məscidlər inşa edildi. Beləliklə, monqolların hələ Əhməd xan tərəfindən başlanan islamlaşma prosesi Qazan xanın dövründə (1295-1304) keçirilən islahatlar nəticəsində başa çatdırıldı [149, s. 247-249]. Bu islahatların həyata keçirilməsində vəzir, alim F.Rəşidəddinin mühüm rolu olmuşdur. O, bir neçə dil bilirdi. Elxanilərlə müxtəlif dövlətlər, o cümlədən Hindistan arasında iqtisadi-siyasi münasibətlərin həyata keçirilməsində vasitəçi olmuşdu [13, s. 27]. Qeyd etmək lazımdır ki, Qazan xanın dövründə dövlət işlərinə bilikli, bacarıqlı adamlar cəlb edilirdi və bu sahədə yerli feodallar da

istisna deyildilər. Bunların içərisində Azərbaycandan, həmçinin Naxçıvandan olan məşhur vəkil Qəvaməddin Naxçıvani, Bədrəddin Məhəmməd Dizbəyi Naxçıvani [145, s. 35], Nəsrəddin Tusi və başqaları var idi. Bunlardan biri olan Şəmsəddin Məhəmməd Cüveyni Hülakülərin sarayında yüksək mənsəb sahibi olduğu dövrdə Naxçıvanla sıx əlaqədə olmuş, orada tədrisin inkişafı üçün iki mədrəsənin fəaliyyəti haqqında 1263-1284-cü illərdə Elxani hökmdarına fərman imzalatdırmışdır [93, s. 20]. Görkəmli filiosof Nəcməddin Naxçıvani, alim, mütəfəkkir Həsən Naxçıvani, həkim, sufi Kəmaləddin Naxçıvani, məşhur vəkil Qəvaməddin Naxçıvani və b. da doğma Naxçıvanın tarixində dərin iz qoymuş, onun inkişafına xidmət etmişlər.

Naxçıvanın mədəni tərəqqisi Qazan xandan sonra daxili çəkişmələrin davam etdirilməsi nəticəsində ləngimiş, onun sığınacaq kimi əhəmiyyəti ön plana çıxmışdı. 1317-1318-ci illərdə hakimiyyətdən narazı əmirlərə başçılıq edən əmir Qurumuşi və kerait qəbiləsindən olan əmir Əkəncinin başçılığı altında qalxan üsyan zamanı Naxçıvan siyasi mərkəz rolunu oynamışdı. Bəzi müəlliflər bu üsyanın 1317-ci ildə olduğunu [82, s. 76-87] qeyd edir. Tədricən əhatəsini genişləndirən qiyamçı feodallar 1319-cu ildə məhz Naxçıvanda qüvvələrini cəmləşdirərək, sultan üzərinə hücum etdlər. Zəngəzur ərazisində baş verən qanlı döyüşdə Əbu Səid (1316-1335) çətinliklə üsyanı yatıra bildi və şəxsi rəşadətinə görə bahadır adını qazandı [3, s. 35; 13, s. 94; 49, s. 82-85]. Lakin üsyanın yatırılması ölkədə vəziyyəti tamamilə sabitləşdirə bilmədi. Əbu Səidin ölümündən sonra daha kəskin xarakter aldı. 1336-1344-cü illəri əhatə edən 8 il ərzində Azərbaycanın səkkiz dəfə əldən-ələ keçməsi [75, s. 3] Naxçıvanda da siyasi-iqtisadi tənəzzülə şərait yaratdı. Hulakü (1256-1265), Arqun (1284-1291), Əhməd Təküdar (1282-1284), Abaqa (1265-1282), Keyxatu (1291-1295) və Baydunun (1295) dövrlərində Naxçıvanın, əsasən, strateji cəhətdən möhkəmləndirilməsinə diqqət verilməsi [9, s. 168] əksər hallarda daxili çəkişmələr, taxt-tac uğrunda gedən mübarizədə müdafiə olunmaq zərurətindən irəli gəlirdi. Qazan xan 9 illik hakimiyyəti dövründə ölkədə sabitliyi və inkişafı təmin etsə də, Hülakülər dövlətinin tərəqqisi onun ölümündən sonra uzun sürmədi.

Naxçıvan Hülakülərlə Qızıl Orda dövlətləri arasında gedən uzun müddətli müharibələrdən (1263, 1265, 1288, 1290, 1318) xeyli ziyan çəkdi [80, s. 11]. 1319-1325-ci illərdə Qızıl Ordaya yürüş təşkil olunması [3, s. 12], 1334-cü ildə Sultaniyyə qiyamının çətinliklə yatırılması, 1335-ci ildə Qızıl Orda xanı Özbəyin hücumunun qarşısının alınması dağılmaqda olan imperiyanın son uğurları idi. Əbu Səidin ölümündən sonra (1335) Hülakülərin əlindən faktiki hakimiyyət çıxmış, formal olaraq yalnız onların adı qalmışdı. Nəticə etibarı ilə çoxpadşahlıqların meydana çıxması Naxçıvanın müdafiə əhəmiyyətini yenə də ön plana çıxarmışdı. Əlincə qalasının kutvallarının, o cümlədən Uztemurun [80, s. 31] bu proseslərə həlledici təsirinin nəticəsi idi ki, hakimiyyət uğrunda aparılan mübarizələrdə hər dəfə Naxçıvan sığınacaq kimi diqqət mərkəzində olmuşdur.

**Naxçıvan tüməni**. Azərbaycan tarixində XIII əsrin ilk rübü Azərbaycan

Atabəyləri dövlətinin zəifləməsi, tənəzzülü və süqutu ilə xarakterizə olunur. XIII əsrin 20-30-cu illərində monqolların yürüşləri nəticəsində Azərbaycan istila olunur (1239) və ölkəni, qonşu vilayətlərlə birlikdə, Ali Monqol xaqanlığının canişini idarə etməyə başlayır. 1256-cı ildə Hülakü xan Azərbaycanı tutur və başqa ərazilər hesabına 5-ci monqol ulusu – Hülakular (Elxanilər) dövlətini təsis edir. Bu dövlətin yaradılması Azərbaycanın dövlət quruluşu və idarə sisteminə təsir göstərir.

Hülakülər dövlətinin ərazisi vilayətlərə, onlar isə "tümən"lərə bölünmüşdü. Tümən hərbi və inzibati bölgü cəhətdən eyni ərazini əhatə edirdi. Azərbaycanın, bir vilayət kimi, sərhədləri Xəzər dənizi – Gilan vilayəti – Zəncan, Savucbulaq, Uşniyə şəhərlərinin və Ruyendej qalasının cənubundan – Urmiya, Salmas, Xoy, Maku şəhərlərinin və Naxçıvan vilayətinin qərbindən – Dvin şəhərindən – Göycə gölü – Debed çayı – Şəki vilayətinin qərbindən və şimalından – Dərbənd şəhərinin şimalından keçirdi. Azərbaycan vilayəti inzibati-ərazi bölgüsü baxımından 4 əyalətə -(tarixi Atropatena), eyni zamanda 9 tümənə bölünmüşdü və onların hər biri əyalətin iri şəhərlərinin adı ilə adlanırdı.

Naxçıvanın bu dövrdəki inzibati-ərazi bölgüsü hülakulərin, çobanilərin, cəlairilərin təyin etdikləri hakimlər tərəfindən idarə olunurdu. Naxçıvan ərazisi Azərbaycan əyalətinin tərkibində olmuş və onun 9 tümənindən biri idi. Həmdullah Qəzvini (1282-1345) həmin tümənlərdən səkkizinin – Təbriz, Ərdəbil, Pişkin, Xoy, Sarab, Marağa, Mərənd və Naxçıvan tümənlərinin adını çəkir [159, s. 85-102]. Orta əsrlərdə "tümən" termini ilk növbədə hərbi, inzibati və pul vahidləri məzmununda işlədilirdi. Çoxmənalı "tümən" termini ilə ilk növbədə on min döyüşçünü birləşdirən hərbi bölüm, on min dinara bərabər pul vahidi və on min əsgər verə biləcək inzibati-ərazi vahidi nəzərdə tutulurdu. Göründüyü kimi, Naxçıvan bölgəsi Azərbaycanın bir tüməni idi və dövlətə on min döyüşçü vermək qüdrətinə malik idi [130, s. 239]. Naxçıvan tüməninə Azərbaycanın 27 iri şəhərindən 5-i – Naxçıvan, Ordubad, Azad, Əncan və Makuyə şəhərləri daxil idi [57, s. 168]. Naxçıvan və Ordubad şəhərləri Azərbaycanın 260 tümən illik hasilatının toplandığı 21 iri şəhəri sırasına daxil idi [77, s. 97]. Naxçıvan tümənini mahal hakimi və tümən əmiri idarə edirdi. Şəhərləri isə şəhər hakiminin başçılığı ilə mütəsərrif, mustovfi, xazin, nazir və b. məmurlar idarə edirdilər. Naxçıvan tüməni hazırda Naxçıvan Muxtar Respublikasının ərazisindən nisbətən geniş ərazini – Araz çayının şimal və cənub sahillərini əhatə edirdi. Naxçıvan tüməni Makudan Qafan dağlarına qədər geniş ərazini əhatə etmiş, Xoy, Mərənd, Pişkin tümənləri və Qarabağla hüdudlanaraq Göycə gölü istiqamətində Dərələyəz silsiləsinin şimalına kimi çatırdı. Maku və Qafan əraziləri də Naxçıvan tüməninə daxil idi [80, s. 23]. Arazın cənubunda Naxçıvan şəhərindən çox da uzaqda olmayan və onunla eyni en dairəsində yerləşən Makunun Azərbaycanın başqa tümənlərinin tərkibində, xüsusilə Naxçıvana qonşu olan Xoy və ya Mərənd tümənlərinin tərkibində verilməməsi onun məhz Naxçıvan ərazisinə daxil olduğunu bir daha təsdiq edir. Naxçıvanın qərb hüdudlarına Dvin (Dəbil) şəhərinin




***Naxçıvan XIII-XIV əsrlərdə***

də daxil olduğu orta əsr mənbələrindən məlumdur [79, s. 81]. Ərəb coğrafiyaşünası Yaqut Həməvinin (1179-1229) yazdığına görə, Dvin "Arran vilayətində, Azərbaycanın uzaq hüdudlarında" yerləşir. Əbu-Bəkr əl-Əhəri (XIV əsr) isə 1338-ci ildə Şərur və Dvin ərazilərinin Hülaku əmiri Əkəncinin oğlu Hacıbəy tərəfindən idarə olunduğunu bildirir [79, s. 47]. Dvinin orta əsrlərdə Azərbaycanın, deməli, Naxçıvanın tərkibində olduğunu söyləməyə əsas verir. Fəzlullah Rəşidəddinin (1247-1318) məlumatına görə, Qafan ərazisi də Naxçıvan tüməninə daxil olmuşdur. Müəllif yazır: "Zoğal Naxçıvana aid olan Qafanın bəzi yerlərində bitir" [57, s. 168], əzğavan çiçəyi "Naxçıvan vilayətində Qafan dağlarında çox bitir" [79, s. 82].

XIII-XIV əsrlərə aid yazılı qaynaqlarda Naxçıvan tümənində və onun ətrafında Vənənd, Qarabağlar, Giran, Cülahə (müasir Culfa), Şahbuz, Şərur, Əlincə, Sürməli, Gəriş, Taqmar, Fəqnan və b. yaşayış məskənləri, qala və istehkamlar, Əshabi-Kəhf mağarası, Xudafərin və Ziyaülmülk körpüləri və s. mövcud olmuşdur.

## 5. Naxçıvan Çobanilər və Cəlairilərin hakimiyyəti dövründə

XIII-XIV əsrlərdə Hülakülərin Çobanilərin və Cəlairilərin nüfuz dairələrində olan Naxçıvan bu dövlətlərin siyasi həyatında da yaxından iştirak edirdi. XIV əsrin birinci yarısında Hülakülər dövlətində az yaşlı Əbu Səidin hakimiyyətə gəlməsi ilə feodal ara çəkişmələri daha da gücləndi. Yaranmış vəziyyətdən irəli gələrək xarici qüvvələrin bu dövlətin ərazilərinə qarşı marağı artdı. Ölkə tez-tez hücumlara məruz qalırdı. Buna görə də vəziyyətdən çıxış yolu tapmaq üçün Sulduz nəslindən olan əmir Çoban faktiki hakimiyyəti ələ aldı və ölkəni idarə etməyə başladı. Lakin hakimiyyətin əmir Çobanın əlində cəmləşməsi ilə bir çox feodal qrupları razılaşmadı və ölkədə hərcmərclik yarandı. Bununla əlaqədar olaraq elxani Əbu Səid əmir Çobandan narazı feodalların köməyi ilə 1328-ci ildə Çobanı və onun dörd doğma qardaşını məhv etmiş, onların əmlakını talamışdı. Ona görə də əmir Çobanın qızı , Əbu Səidin arvadı ona qarşı qəlbən düşmən mövqedə durmuş, fürsət düşən kimi 1335-ci ildə onu zəhərləyərək öldürmüşdür [76, s. 29]. Əbu Səidin ölümü ilə Elxanilər dövləti daxilində vəziyyət çox gərginləşdi və bu dövlətin ərazisi 11 hissəyə bölündü. Həmin dövrdə Naxçıvan ərazisini Çobanilər idarə edirdilər. Lakin bu bölgə Cəlairilərin də maraq dairəsində idi. Feodal ara müharibələrində fəal iştirak edən çobani əmiri Şeyx Həsən Rumda qoşun toplayaraq Təbrizə tərəf irəlilədi. Bundan xəbər tutan cəlairi Şeyx Həsən Məhəmməd xanla (1336-1338) birlikdə qoşun təşkil edib Naxçıvan yolu ilə çobanilərin üzərinə hücum etdi. Bu döyüşdə Məhəmməd xan öldürüldü, cəlairi Şeyx Həsən isə qaçdı. Bundan sonra Naxçıvan çobanilərin nüfuz dairəsinə düşdü [80, s. 36].

Bəhs olunan dövrdə Naxçıvan ərazisindəki Əlincə qalası Çobanilərin hakimiyyəti üçün çox əhəmiyyətli bir yer idi. Qəddarlığı ilə ad-san qazanmış çobani əmiri Məlik Əşrəf öz hakimiyyəti dövründə Əlincə qalasından daha çox istifadə edirdi. O, xəzinəsini var-dövlətini bu qalada mühafizə etdirirdi. Həmçinin ona müxalif olanları həmin qalada məhbus kimi saxlatdırırdı. Məlik Əşrəf 1349-cu ildə Qarabağda vəzir xacə Əbdülheyi tutdu, onu bir çox qalalarda məhbus kimi saxlatdı, var-dövlətini ələ keçirdi və ona qaraçı paltarı geyindirərək Əlincə qalasına göndərdi. Həmin vaxt qalada çoxlu sayda siyasi məhbuslar saxlanılırdı [107, s. 23-24].

Məlik Əşrəfin zülmü son həddə çatdığından Azərbaycan əhalisi müxtəlif istiqamətlərə səpələnmiş və nəticədə kimisi vətəni tərk edib şimala, kimisi cənuba, kimisi isə qərbə pənah aparmışdı. Qaçqınlardan biri Qazı Məhiyyəddin Bərdəi və Şirvanşah Kavus öz aralarında razılığa gəldikdən sonra Qızıl Orda dövlətinə getmiş və Azərbaycandakı vəziyyəti Canı bəyə bildirmişlər. Bu fürsətdən istifadə edən Canı bəy Təbrizə yürüş etdi və şəhərə maneəsiz daxil oldu. Məlik Əşrəf Canı bəyin yürüşünü eşidib Təbrizdən qaçdı. Həmin dövrdə Canı bəy Azərbaycanın bir sıra şəhərlərini, o cümlədən Naxçıvanı tuta bildi. Məlik Əşrəf Təbrizdən qaçarkən oradan xatınlarını, qızlarını, sursatını və Əlincəyə göndərmiş olduğu cəvahir, qızıl,

gümüş, qiymətli daş-qaşdan ibarət xəzinələrini gətirtdi. Lakin əsgərləri ondan üz çevirdi və yolda onun var dövlətini, xəzinəsini talan etdilər. Məlik Əşrəf Xoyda tutularaq Təbrizə gətirildi və orada öldürüldü. Azərbaycanın Qızıl Orda xanı tərəfindən zəbt edilməsi ilə Hülakular dövləti tamamilə süquta uğradı. Bununla da Çobani əmirlərinin Azərbaycandakı zülmünə 1357-ci ildə son qoyuldu [107, s. 28]. Lakin Çobani əmiri Əxicuq yaranmış vəziyyətdən istifadə edərək Təbrizdə hakimiyyətə yiyələndi və bir ilə qədər burada qaldı. Çox keçmədən cəlairi sultanı Şeyx Üveys Azərbaycana yürüş etdi. Əxicuq ona qarşı hücuma hazırlaşdı. Tərəflər Sina dağı yaxınlığında Əyyub Ənsari adlı yerdə üzləşdilər. Məğlubiyyətə düçar olan Əxicuq əvvəlcə Təbrizə gəldi, sonra Şeyx Üveysin onu təqib etdiyini bilib Naxçıvana çəkildi. Bütün Əşrəfilər də onunla Naxçıvana gəldilər və burada sığınacaq tapdılar. Naxçıvandakı əşrəfi əmirlərinin bir qismi Əxicuqdan üz döndərib Şeyx Üveysin yanına getdilər. Şeyx Üveys onlardan 47 nəfərini edam etdirdi. Bunu görən digər əşrəfi əmirləri yenidən Naxçıvana qayıdıb Əxicuqla birləşdilər. Əxicuq Naxçıvandan və Arrandan güclü qoşun hissələri toplamağa cəhd göstərsə də, buna nail ola bilmədi və son nəticədə Şeyx Üveys tərəfindən məğlubiyyətə uğradıldı. Bununla da Naxçıvan əşrəfilərin zülmündən xilas oldu. Şeyx Üveys Azərbaycanda hakimiyyəti ələ keçirdi [3, s. 29].

Mənbələrdə XIV əsrdə yaşamış və fəaliyyət göstərmiş Məlik Ziyaəddinin (1318) [76, s. 30-33], Hacı bəyin (1338), Ələki Bahadırın (1343) [80, s. 36], Naxçıvan hakimləri olması, çobanilərin və əşrəfilərin Naxçıvandakı fəailiyyətləri barədə məlumatlara rast gəlinir [76, s. 30-33].

Tarixdən məlumdur ki, Cəlairi əmiri Şeyx Uveys (1359-1374) 1358-ci ildə Azərbaycana hücum etdi, hakimiyyəti ələ keçirdi, ancaq orada möhkəmlənə bilmədi. Həmin dövrdə Cəlairilərin ordusunda baş verən satqınlıq Sultan Üveysi Bağdada qayıtmağa məcbur etdi. Bundan istifadə edən Şiraz hakimi Müzəffəri Mübarizəddin 1359-cu ildə Azərbaycana yürüş etdi və Naxçıvan onun tərəfindən tutuldu. Onlar bu qələbədən ruhlanaraq Naxçıvanda üç gün şənlik etdilər [49, s. 92]. Ancaq 1359-cu ilin payızında Şeyx Üveys Azərbaycana yürüş etdi, Təbrizi tutaraq özünün paytaxtına çevirdi. Həmin vaxt Mübarizəddin ölkəni tərk etdi. Naxçıvan yenidən Cəlairilərin nüfuz dairəsinə düşdü və bu dövlətin bir mahalı (töməni) kimi fəaliyyət göstərməyə başladı.

Sultan Üveys 1374-cü ildə öldükdən sonra Müzəffəri şah Şüca 1376-cı ildə cəlairi Sultan Hüseynə qarşı çıxaraq Təbrizi ələ keçirdi və öz sərkərdələrindən Əmir Fərəci 2000 nəfərlik süvari dəstə ilə Naxçıvana göndərdi [107, s. 190]. Həmin vaxt Azərbaycanda siyasi vəziyyət yenidən gərginləşdi. Buna səbəb cəlairi şahzadələrinin – Şeyx Üveysin övladlarının səltənətə yiyələnmək uğrunda apardıqları mübarizə idi. 1382-ci ildə qardaşı Sultan Hüseyni öldürüb taxt-taca yiyələnən Sultan Əhməd [80, s. 37] tezliklə digər qardaşlarının da həmlələrinə məruz qaldı. İlk vaxtlarda onun qardaşı Bəyazid və müttəfiqi Adil ağanın qoşun hissələri Təbrizə

üz tutdular. Onlara müqavimət göstərə bilməyən Sultan Əhməd Naxçıvana qaçdı. Həmin vaxt Adil ağa Təbrizə daxil oldu, lakin əmirlərinin müxalif çıxdığını bilib şəhəri tərk etdi. Bundan sonra Sultan Əhməd Naxçıvandan Təbrizə qayıtdı [107, s. 44-45]. Daha sonra Sultan Əhmədin digər qardaşı Şeyx Əli və Pir Əli Barəkin müşaiyəti ilə Bağdaddan onun üzərinə yürüş etdi. Sultan Əhməd yenidən Təbrizdən Naxçıvana gəldi. Onlar yol boyu hər yeri qarət etdilər. Bu dövrdə Sultan Əhmədə qarşı ittifaqa girmiş Qara Məhəmməd və Pir Ömər birinci tərəfindən məğlub edilərək hər ikisi öldürüldü [80, s. 38].

Çobanilər dövründə olduğu kimi, Cəlairilər dövründə də Azərbaycan ərazisi digər dövlətlərin maraq dairəsində idi. Belə ki, XIV əsrin 80-ci illərindən etibarən Azərbaycan mərkəzi Asiya imperiyasının banisi Əmir Teymurla (1370-1405), Qızıl Orda xanı Toxtamış (1376-1395) arasında savaş meydanına çevrilmişdi. Əmir Teymur İrana yürüş etdiyi zaman, Xorasanda ona xəbər çatdı ki, Sultan Əhməd Cəlairi Bağdaddan Təbrizə hərəkət etmişdir. Əmir Teymurun gəlmək xəbərini eşidərək qayıtmaq fikrində olan Sultan Əhməd Naxçıvan duzlağına çatdı. Müharibə başlandı. Sultan Əhməd nicatı qaçmaqda gördü. Qoşunlarından bir dəstəsi öldürüldü və ordusu talan edildi. Payızda Naxçıvan və Qars qalalarını aldı [10, s. 56].

Cəlairilər hakimiyyəti dövründə də Əlincə qalası uzun müddət bu dövlətin istinadgahı olmuşdu. R. Məmmədov yazır ki, Cəlairilər hələ xarici hücumlar olmayanda belə Naxçıvan əhalisini itaət altında saxlamaq, vergilər toplamaq üçün bir cəza yeri kimi Əlincə qalasından istifadə edirdilər [49, s. 95].

1401-ci ildə Əlincə qalanın suqutu ilə Teymurilər Cəlairilər dövlətinin bütun ərazisini ələ keçirdilər. Sultan Əhməd yalnız Teymurun vəfatından sonra Misirdən Azərbaycana qayıtdı. O, Qaraqoyunlu Qara Yusifin köməyi ilə Təbrizdə yenidən hakimiyyətə keçdi. Lakin Sultan Əhməd qeyri-qanuni vergilər və amansız rəftarı ilə əhalinin nifrətini qazandı. Özunə qarşı sui-qəsd təşkil edilməsindən xəbər tutan Sultan Əhməd Bağdada qaçdı. 1410-cu ildə yenidən Təbrizə daxil olan Sultan Əhməd Qara Yusiflə döyuşdə öldürüldü. Onun ölümü ilə Azərbaycanda Cəlairilər dövlətinə son qoyuldu.

Beləliklə, cəlairilər dövründə Şeyx Uveysin hakimiyyət illəri istisna olmaqla Azərbaycan, həmçinin də Naxçıvan daxili feodal çəkişmələrinin və xarici müdaxilələrin meydanına çevrilmişdi. Lakin bütün çətinliklərə baxmayaraq Naxçıvan XIII-XIV əsrlərdə öz mövqeyini qoruyub saxlaya bilmiş və dövrün siyasi, ictimai-iqtisadi və mədəni həyatında öz sözünü demişdir.

## 6. Toxtamışın və Teymurun Naxçıvana hücumları

XIV əsrin 80-ci illərinin ortalarında Naxçıvan Qızıl Orda xanı Toxtamışın və Əmir Teymurun işğalçı yürüşlərinə məruz qaldı. Cəlairilər dövlətinin zəifləməsi, Sultan Əhmədin Bağdadda olması və Sultaniyyə ətrafında Cəlairi qoşunlarına qalib

gələn Əmir Teymurun Orta Asiyada baş verən hadisələrlə əlaqədar geri qayıtması ilə yaranan əlverişli vəziyyətdən istifadə edən, həmçinin Teymurun yürüşünü qabaqlamaq istəyən [2, s. 305] Qızıl Orda hakimi Toxtamış xanın (?-1406) 90 min nəfərlik ordusu Bəy Poladın sərkərdəliyi altında 1385-ci ilin qışında Dərbənd keçidindən keçərək cənuba – Azərbaycana hücum etdi. Dərbəndi, Şirvanı, Təbrizi tutan qızıl ordalılar Naxçıvana hücum etdilər və şəhəri tutdular. Şəhər qarət edildi. Ancaq yerli əhalinin işğalçılara qarşı inadlı mübarizəsi və Əmir Teymurun qoşunlarının Qızıl Orda torpaqlarına hücumu xəbərini eşitməsi ilə əlaqədar Toxtamış xan Azərbaycanın işğal olunmuş şəhərlərində, o cümlədən Naxçıvanda çox davam gətirə bilmədi və gəldiyi yolla geri qayıtmağa məcbur oldu. Orta əsr qaynaqları təsdiq edir ki, bu hücum zamanı qızıl ordalılar əhalinin bir çoxunu qılıncdan keçirmiş və bir çoxunu əsir etmişdilər. Toxtamış xan işğal etdiyi şəhərlərin əhalisinə divan tutmaqla yanaşı, onları köləyə çevirir, əsir götürüb Qızıl Ordaya aparırdı. Zeynəddin bin Həmdullah Qəzvini Naxçıvanın həmin vaxtdakı vəziyyətindən bəhs edərək yazır ki, Naxçıvan bu dövrdə yenidən rəhmsizcəsinə dağıdıldı [49, s. 93; 107, s. 50]. Müəllif həmin hadisələri təsvir edərək göstərir ki, Toxtamışın qoşunu Marağada da qətl və qarətlər edib geri qayıtdılar və Təbrizdə qalanların axırına çıxdılar, daha iki gün qırğın, qətl və qarətlər oldu. Bundan sonra onların bəziləri Naxçıvan yolu ilə getdilər, Mərənd və Naxçıvan vilayətlərini dağıtdılar. Bəziləri isə Əhər yolu ilə getdilər, Qarabağda bir-birinə qovuşdular və bu vilayətdən (Azərbaycandan) 200 minə qədər adam əsir apardılar [2, s. 305; 107, s. 50].

Monqol qoşunları Azərbaycanı tərk etdikdən az sonra ərazi Orta Asiya fatehi Əmir Teymurun hücumlarına məruz qaldı. Əmir Teymur uzun illər Orta Asiyada feodal ara müharibələrində iştirak etmiş, rəqiblərini aradan götürərək 1370-ci ildə özünü Mavəraənnəhrin əmiri elan etmişdi. O əvvəlcə müxtəlif feodalların "muzdla tutulmuş dəstə başçılarının rəhbəri kimi yüksəlmiş", sonra isə Səmərqəndi, Buxaranı, Amu-Dərya və Sır-Dərya arasındakı geniş əraziləri ələ keçirərək böyük Cığatay İslam dövləti yaratmışdı. Dövlətin yarandığı andan istilaçılıq siyasəti yeridən Əmir Teymur XIV əsrin 80-ci illərində Xarəzmi tamamilə özünə tabe etdikdən sonra, Azərbaycanı və Yaxın Şərqi istila etmək üçün hazırlığa başladı və 1386-cı ilin baharında İran ərazisinə daxil oldu. Teymurun qoşunları Sultaniyyəni və Təbrizi tutduqdan sonra Naxçıvan istiqamətində irəliləməyə başladı. Naxçıvan yaxınlığında Teymurun əmirlərindən İlyas Xoca ilə Sultan Əhmədin qoşunu arasında kəskin döyüş baş verdi. İlyas Xocanın bu döyüşdə təsadüfən yaralanması Sultan Əhmədi labüd məğlubiyyətdən qurtardı. Bu zaman Orta Asiyada xalq iğtişaşlarının baş verməsindən xəbər tutan Əmir Teymur təcili geri qayıtmalı oldu.

Əmir Teymurun qoşunları Azərbaycanın cənub torpaqlarının çox hissəsini tutduqdan sonra Naxçıvan ərazisinə daxil oldu. Naxçıvan əhalisinin Şeyx Həsənin başçılığı ilə Teymur qoşunlarına qarşı azadlıq mübarizəsinə qalxmasına baxmayaraq, İlyas Xocanın başçılıq etdiyi Teymur qoşunları naxçıvanlıların müqavimətini

çətinliklə də olsa qıra bildi. Naxçıvanın bir sıra yaşayış məskənləri, o cümlədən Gərni və Sürməli istehkamları dağıdıldı, Şeyx Həsən tutularaq Teymurun hüzuruna gətirildi [107, s. 6].

**Əlincə qalanın müdafiəsi.** 1387-ci ilin payızında Teymur qoşunları Naxçıvanın ən güclü müdafiə qalalarından biri olan Əlincə qalasına yaxınlaşdı. Ancaq qala üzərinə ilk hücum uğursuz olduğundan Teymur qoşunları onu mühasirəyə aldı. Əlincə qala Culfa bölgəsində, Əlincəçayın sağ sahilində, strateji cəhətdən çox əlverişli bir mövqedə, yüksək sıldırım qaya üzərində yerləşmiş, möhkəm divarlar və bürclərlə əhatə olunmuşdu. Hasarların içərisində, dağın döşündə üzümlüklər, bağlar və əkin yerləri, otlaqlar, çoxlu su mənbələri vardı. Qala uzun illər müdafiə şəraitində özünü ərzaqla təmin etmək imkanına malik idi. Qalada vaxtilə ilxı və mal-qara saxlamaq, 600-ə qədər döyüşçünü öz atı və başqa hərbi sursatı ilə birlikdə yerləşdirmək mümkün idi [58, s. 107]. Teymur qoşunlarının hücumu ərəfəsində qala daha da möhkəmləndirilmiş, Cəlairi Sultan Əhməd dövlətin xəzinəsini, ailəsini, oğlu Məlik Tahiri və yaxın adamlarını qalada yerləşdirmişdi. Müdafiəyə rəhbərlik Məlik Tahirə həvalə olunmuşdu. Qalanın kutvallığı isə əvvəlcə Xacə Cövhərə, sonra isə Əmir Altuna tapşırılmışdı.

Xacə Cövhəri Əlincə qalanın kutvalı kimi təqdim edən [107, s. 53] Zeynəddin bin Həmdullah Qəzvini bu haqda yazır ki, Xacə Cövhər hicri 793-cü ilin Ramazan bayramında (11.09.1390-cı il) taundan haqq-təalanın himayəsinə yetişdikdən (öldükdən) sonra Altun onun qaem-məqamı (canişini) oldu. Əlincə qalasının Cövhərin zamanında olan rövnəqi və rəvacı daha da artdı [107, s. 56]. Qalada Əmir Altunun ixtiyarında 300-ə yaxın qorçu (döyüşçü) var idi. Azərbaycanın digər bölgələrində ayrı-ayrı feodal hakimlər, hətta Gürcüstan dövləti Teymur qoşunlarına zərbə vurmaq, onun irəliləməsinə və burada möhkəmlənməsinə imkan verməmək məqsədilə Əlincə qalasının müdafiəsinə yaxından kömək edirdilər. Bu məqsədlə Şəki hakimi Seyid Əli Orlat 1388-1389-cu ilin qışında gürcülərlə ittifaqa girərək Əlincə qalası müdafiəçilərinin köməyinə gəldi [1, s. 351].

Qalanın qarşısında müttəfiqlərlə Teymur qoşunu arasında gərgin döyüş başlandı. Teymurun döyüşçüləri qalanın aşağı səngərlərini ələ keçirib dağıtdılar. Belə olduqda müdafiəçilər Əlincə qalasının yuxarı hissəsinə çəkildilər. Teymur qalanın mühasirəsini gücləndirdi. Belə bir vaxtda qala daxilindəki su ehtiyatı qurtardı və müdafiəçilər susuz qaldılar. Onlar danışıqlar aparmaq üçün Teymurun yanına nümayəndə göndərməyə məcbur oldular. Teymur qala müdafiəçilərinin təslim olacağını yəqin edib qoşunu qalanın ətəklərinə yendirdi. Lakin müdafiəçilər qalanı tərk etməmiş güclü leysan yağışı yağdı və qalanın bütün quyuları, anbarları su ilə doldu, beləliklə bol su ehtiyatı yarandı. Məhz bu səbəbdən də qalanın müdafiəçiləri düşmənə təslim olmadılar və müdafiəni davam etdirməyə başladılar. Buna görə də Teymur qalanın mühasirəsini daha da qüvvətləndirib Naxçıvana çəkildi.

Vəziyyətin getdikcə kəskinləşdiyini hiss edən Teymur oğlu Miranşahdan kömək istədi. Miranşah Əlincənin mühasirəsini möhkəmləndirmək məqsədilə Xorasandan xüsusi qoşun gətirdərək oğlu Əbubəkr Mirzənin komandanlığı altında qala üzərinə göndərdi [49, s. 94]. Qala ətrafında ağır vuruşlar, hətta əlbəyaxa döyüşlər baş verdi. Əbubəkr Mirzə müttəfiqlərin zərbəsi nəticəsində geri çəkilməyə məcbur oldu. Əlincə qalası Teymur qoşunlarının mühasirəsindən xilas oldu. Qala sonralar da Teymurun oğlu Miranşahın, nəvəsi Əbubəkr Mirzənin qoşunlarının ardıcıl həmlələrinə mərdliklə sinə gərdi. Qala ətrafında döyüş zamanı Seyid Əli Orlat Əbubəkr Mirzənin üstünə hücum edərkən Əbubəkr Mirzənin atdığı oxlardan biri onun dəbilqəsini deşdi və boynuna sancıldı. Beləliklə, Əlincə qalasının qəhrəmancasına müdafiəsində Şəki hakimi Seyid Əli Orlat həlak oldu [1, s. 352; 49, s. 95]. Ancaq ağır itki bahasına olsa da, birləşmiş qüvvələr teymuriləri Əlincə qalasının mühasirəsindən müvəqqəti də olsa əl çəkməyə məcbur etdilər. Bağdad və ətraf əraziləri zəbt edib Bitlis şəhərinə gələn Teymur Əlincə qalasının üzərinə Əmir Məhəmməd Dərviş Bərlasın başçılığı altında yeni qüvvələr göndərdi, özü isə Azərbaycandan və Gürcüstandan əsgər toplayıb Aladağa qayıtdı.

Əlincə qalanın mərdliklə müdafiə olunduğunu görən Teymur bir müddətdən sonra Sultaniyyəyə gedib xacə Ağbuğanı da böyük qoşunla qalanın mühasirəsini davam etdirən Məhəmməd Dərviş Bərlasın köməyinə göndərdi. Bundan sonra dörd görkəmli əmirin başçılığı ilə 40 min nəfərlik Teymur ordusu qala üzərinə hücuma keçdi. Bu zaman qala müdafiəçilərindən bir dəstəsi Əmir Altunun başçılığı ilə qaladan çıxmışdı. Onlar geri döndükdə vəziyyətin dəyişdiyini, qala qapılarının düşmən tərəfindən tutulduğunu görüb teymurilərə qarşı hücuma keçdilər. Düzgün mövqe tutan Əmir Altun düşmənə böyük tələfat verdi, 4 tümən əmirinin ikisini öldürdü və öz dəstəsi ilə qalaya daxil oldu. Ancaq xalq içərisindən çıxmış Əmir Altunun qala müdafiəçiləri tərəfindən sevilməsini, ona yüksək səviyyədə hörmət göstərilməsini hökmdar oğlu olan Məlik Tahir qəbul edə bilmir, buna qısqanclıqla yanaşırdı. Qala müdafiəçilərin ona qarşı etinasızlığının səbəbini Əmir Altunda görən Məlik Tahir ona nifrət bəsləyirdi. Odur ki, Əmir Altunun qaladan müvəqqəti çıxmasından istifadə edən Məlik Tahir onun qardaşını öldürtdü, özünü isə qalaya buraxmadı. Əmir Altun Mərəndə getməyə məcbur oldu. Mərənd hakimi isə xoş gəlsin deyə onu öldürüb başını Əmir Teymura göndərdi. Lakin Əmir Altun kimi qəhrəman, cəsur və igid sərkərdənin ölümü Əmir Teymuru sevindirmədi. Ona görə də Əmir Teymur Mərənd hakimini öldürtdü və əmlakını müsadirə etdirdi [107, s. 71-72]. Məlik Tahirin Əmir Altuna qarşı ədalətsiz hərəkəti onsuz da Məlik Tahirdən narazı olan qala müdafiəçilərinin narazılığını daha da artırdı. Onların bir qismi Məlik Tahirdən üz döndərib qalanı tərk etdilər. Məlik Tahir qala müdafiəçilərinin ondan üz döndərdiyini və öz acizliyini hiss edib Cəlairilərin Əlincədəki xəzinəsini və ailəsini götürüb Bağdada çəkildi. Əlincə qala başlı-başına buraxıldı.

Orta əsr tarixçisi Şərafəddin Əli Yəzdi "Zəfərnamə" əsərində bu hadisədən bəhs edərək yazır ki, Şəki hakimi Seyid Əli Şəki gürcülərlə ittifaqa girdi və mühasirədən cana gəlmiş və sümüyünə bıçaq dirənmiş Sultan Tahiri xilas etmək məqsədi ilə Əlincəyə yollandılar. ...Onlar Əlincə divarlarına çatandan sonra Tahir qaladan endi və onlara qoşuldu. Qalanı Hacı Saleh, Seydi Əhməd Oğulşayi və üç gürcü aznauruna (gürcülər böyük əmirləri və bahadırları "aznaur" adlandırırdılar) tapşırdılar. ...Onların məqsədi Sultan Tahiri azad etmək olduğundan muradlarına çatdıqdan sonra geri qayıtdılar [101, s. 56-57]. Əlincə qalası 14 il ciddi müdafiə olunduqdan sonra 1401-ci ildə daxili feodal çəkişmələri nəticəsində Teymur ordusu tərəfindən ələ keçirildi [33, s. 87].

Sultan Məlik Tahir qalanı tərk etdikdən sonra müdafiəyə bir müddət Hacı Saleh, Seyyid Əhməd Oğulşayi və üç gürcü aznauru rəhbərlik etmişdir [101, s. 56-57]. Şərafəddin Əli Yəzdinin verdiyi məlumatlardan aydın olur ki, Əlincə qalanın şərq ətəyində indiyədək qalan türbənin kitabəsində də adı qeyd olunan Əmir Seyyid Əhməd Oğulşayi Əlincə qalasının müdafiəsində iştirak edən, bir müddət isə müdafiəyə rəhbərlik edən sərkərdələrdən olmuşdur. "Zəfərnamə"də qeyd olunur ki, Teymur ordusu Sivas və Şam tərəfə gedəndə Əmirzadə Miranşahın qoşunundan Şeyx Məhəmməd Daruğa və Əmirzadə Şahruxun ləşkərindən Firuzşah göstərişə əsasən Əlincə qalaya getmiş və mühasirə ilə məşğul olmuşdur. Həmin istehkamın (qalanın) adamları boğaza gəlmişdilər, belə ki, onlardan bir az adam qalmışdı. Zəif-likdən köhnə dəri, gön və onun kimi şeylərdən yaşamaq üçün vacibli azuqə hazır-lamışdılar ki, o da qalmamışdı. Zərurət üzündən bayıra çıxıb qalanı təslim etdilər. Oranın kutvalı Seyyid Əhməd Oğulşayini tutub aləmpənah dərgaha yolladılar [101, s. 65]. Beləliklə, qala tutulmuş, onun müdafiəsinə rəhbərlik edən Əmir Seyyid Əhməd Oğulşayi isə əsir götürülərək Əmir Teymurun hüzuruna göndərilmişdi. Həmin vaxt Bağdadda olan Əmir Teymur Əmir Seyyid Əhməd Oğulşayi buraya gətirildikdən sonra onun qətlinə fərman verdi [101, s. 65]. Beləliklə, Əmir Seyyid Əhməd Oğulşayi Bağdadda edam edildi.

Əmir Teymur Hindistan səfərindən qayıtdıqdan 4 ay sonra təcili səfərbərlik elan etdi və 1399-cu il oktyabrın 10-da Əlincəyə yollandı. Ancaq bu zaman Əlincə qala tamamilə boşalmışdı və müdafiəsiz qalmışdı. Ona görə də Əmir Teymurun qoşunu bu səfərində heç bir müqavimətə rast gəlmədən başsız buraxılmış və müdafiəsiz qalmış qalaya daxil oldu. Beləliklə, Teymur qoşunlarına qarşı fasilələrlə 14 il (1387-1401) mərdliklə müdafiə olunan Əlincə qala daxili feodal çəkişmələri nəticəsində tənəzzül etdi və Əmir Teymur tərəfindən döyüşsüz tutuldu. Teymur qoşunları müdafiəçiləri tərəfindən tərk edilmiş qalaya daxil oldu [34, s. 17]. Ona uzun müddət müqavimət göstərməsindən heyrətə gələn Əmir Teymur Əlincə qalanı ələ keçirdikdən sonra, özü qalaya çıxmış və onu xüsusi ziyarət etmişdi.

## 7. Naxçıvan Qaraqoyunluların hakimiyyəti dövründə

Qaraqoyunlu tayfa birləşməsinin mərkəzi Van gölünün Şimalındakı Ərciş vilayəti olmuşdur. Qaraqoyunlu dövləti və ordusunun təməlini təşkil edən beş əhəmiyyətli türkmən tayfalarından (baharlı, qaramanlı, alpout, duharlı, cagirli, hacili, ağacəri) birini Sədli təşkil edir. Sədli tayfasının qədim vətəni Naxçıvan və Sürməlidir. Bu tayfa öz adını Səd adlı bəyin adından götürmüşdür. Qaynaqlarda Sədin övladlarının qaraqoyunlu hökmdarları ilə əmiuşağı olduğu göstərilir [68, s. 12; 121, s. 20; 149, s. 112]. Səd adlı igid türkman bəyi (Əmir Səd) 1411-ci ilə qədər Çuxur-Səd bölgəsini idarə etmişdir. XIV əsrin sonu, XV əsrin başlanğıcında Naxçıvan və Sürməli bölgəsi Əmir Səd başda olmaqla sədlilərin hakimiyyəti altında olmuşdur. XV əsrdən etibarən adı mənbələrdə tez-tez təkrar olunan Çuxur-Səd bəylərbəyliyinin adı da Sədli tayfası ilə bağlıdır [45, s. 3-14]. Çuxur-Səd geniş bir ərazini,




***Naxçıvan Qaraqoyunlular dövründə***
***(1410-1468-ci illər)***

Araz çayı vadisinin hər iki tərəfini, şimal-qərbdə Şuragel, şimal-şərqdə Göyçə gölü, cənub-şərqdə Sürməli, Naxçıvan, Maku və bəzən də Bəyazid ərazilərini əhatə etmişdir [81, s. 48].

Qaraqoyunlu tayfa birliyi XIV əsrin sonunda Mosulda, Ərzurumda, Xoyda, Naxçıvanda və Göycə gölünün cənub sahillərində möhkəmlənmişdi. Bu tayfa birliyinin banisi Bayram Xoca olmuşdur. XIV əsrin 70-ci illərinin sonunda qaraqoyunlular Bayram Xocanın rəhbərliyi altında Azərbaycanın cənub-qərb torpaqlarını-Xoyu, Naxçıvanı və Sürməli bölgəsini ələ keçirərək Cəlairi hökmdarına vergi ödəməkdən imtina etmişlər [121, s. 43]. 1374-cü ildə Cəlairi hökmdarı Sultan Üveysin ölümündən sonra Xoy, Naxçıvan, Sürməli ilə yanaşı, Arran və Ərzurum bölgələri də Qaraqoyunluların hakimiyyəti altına keçmişdir [112, s. 70; 121, s. 43]. Qazandığı uğurlara görə bir çox türkmən tayfası Bayram Xocanın ətrafına toplanmışdı. 1380-ci ildə Bayram Xoca öldükdən sonra oğlu Qara Məhəmməd (1380-1389) hakimiyyətə gəlmişdır. Onun dövründə Teymur Naxçıvandan qaraqoyunlular üzərinə hücum etsə də, 1385-ci ildə Çapaqcur dərəsində baş verən döyüşdə Teymurun qüvvəlləri darmadağın edilmişdi [1, s. 360]. Qara Məhəmmədin dövründə qaraqoyunlu ordusunun təşkilatlanması və döyüş qabilliyyəti xeyli artırılmışdır. Əvvəlcə cəlairilərə xidmət edən bir əmir olan Qara Məhəmməd [32, s. 14], 1382-ci ildə Şeyx Əli ilə Naxçıvan ətrafında baş verən döyüşdə taktika və texniki baxımdan qaraqoyunlu ordusunun nə qədər yüksək bir qabiliyyətə sahib olduğunu nümayiş etdirmişdi. Mükəmməl şəkildə işlənilən plan əsasında döyüşdə 20.000 nəfərlik Cəlairi ordusu qısa müddətə məğlub edilmişdir. Bu döyüşdə cəlairi Şeyx Əli və ordu komandiri Pir Əli öldürülmüşdür. Bu qələbə qaraqoyunlulara böyük bir nüfuz və güc qazandırdığı kimi hakimiyyət sahələrinin genişlənməsinə də təsir etmişdi. Onların hakimiyyət sahələri Azərbaycana doğru daha da genişlənmişdi [112, s. 73; 121, s. 46].

XV əsrin başlanğıcında Naxçıvan teymurilərin, cəlairilərin və qaraqoyunluların mübarizə meydanına çevrilmişdi. Həmin dövrdə Əlincə qalası Qazi İmadəddin tərəfindən idarə olunurdu [160, s. 37-38]. Bu dövrdə Azərbaycandakı siyasi mübarizəyə qatılan Qara Yusif 1406-cı il oktyabrın 14-də Naxçıvanın qərbində, Araz çayının sahilində Teymuri Əbubəkrlə qarşı-qarşıya gəldi. Döyüşə başlamazdan əvvəl Qara Yusif "Bizim şəxsi düşmənçiliyimiz üzündən bu qədər insan tələf olur, igidlik və bahadırlıq ikimizin qarşı-qarşıya gələrək vuruşmasındadır" deyərək düşmən sərkərdəsi Əbubəkri açıq döyüşə çağırdı. Lakin Əbu Bəkir bu təklifdən imtina etdi [25, s. 72; 121, s. 72]. Qara Yusiflə Əbu Bəkir arasında baş verən döyüşdə teymuri ordusu məğlub oldu. Qara Yusif qələbədən sonra döyüş meydanından Naxçıvana gəldi. Əlincə qalasını ələ keçirə bilməyəcəyini gördükdən sonra qalanı və ona yaxın olan yerləri Qazi İmadəddinə vermək haqqında sənəd (nişan) imzaladı. Əlincə qalasından uzaqda yerləşən bəzi yerləri isə öz oğlu İsgəndərə verdi. Qaraqoyunlular Qazi İmadəddinin dövründə Naxçıvandakı yüksəlişi, inkişafı

gördükdən sonra bütün bölgəni idarə etməyi ona tapşırmışdı. Qazinin dövründə naxçıvanlıların qaraqoyunlulardan hər bir istəkləri məmnuniyyətlə qəbul edilmiş və yerinə yetirilmişdi. O az vaxt ərzində çoxlu sərvətlər toplamış, ətrafına toplaşan əmirlərin sayını artıraraq əmirlik arzusuna düşmüşdü. Hacı Qorçu, Cəmaləddin və Şəhriyar adlı əmirləri onların tabeliyindəki adamlarla birlikdə yanına çağıraraq qalanın bir hissəsinin mühafizəsini onlara tapşırmışdı [160, s. 47-48]. Qara Yusif Naxçıvandan Sultaniyyəyə yürüş edərkən 1408-ci ildə Əlincə qalasında qiyam baş vermişdir. Bu qiyamın səbəbi ondan ibarət olmuşdur ki, Qazi İmadəddinin tərəfində qalanı müdafiə edən Hacı Qorçu, Cəmaləddin və Şəhriyarın döyüşçü dəstələri bir müddət qalanı mühafizə etsələr də, sonradan qaziyə qarşı düşmənçilik siyasəti aparmışlar. Onlar qalada Qazi İmadəddinin yaxın adamlarının və qohumlarının mühüm vəzifələr tutduğunu gördükdən sonra, öz aralarında qazini aradan qaldırmaq üçün razılığa gəlmişlər. Əmirlər qazini və qardaşlarını öldürərək Əlincə qalasını qaraqoyunlulara verməyə qərara gəlmişlər. Bu məqsədlə əmir Şəhriyarı qaraqoyunlu İsgəndər Mirzənin yanına göndərmişlər. Qalanı əmirlərdən təslim alan İsgəndər Mirzə üsyan başçılarından olan Hacı Qorçunu özünə qorçu, Şəhriyarı divan əmiri etmişdi. Qaraqoyunlu dövlətinin başçılarından biri Qara Yusif olduğu halda, Şəhriyarın divan əmiri vəzifəsinə onun tərəfindən deyil, şahzadə İsgəndər tərəfindən təyin olunması faktı onu göstərir ki, İsgəndər ona təhvil verilən Əlincəni öz mülkü hesab etdiyindən qala divanının başçılığına atası ilə məsləhətləşmədən Əmir Şəhriyarı təyin etmişdi [32, s. 24]. Mənbələrin verdiyi məlumata görə bu xəbər Qara Yusifə oğlu tərəfindən çatdırıldıqdan sonra, o oğlunun bu qala üzərindəki hakimiyyətini təsdiq etmişdir [121, s. 78; 160, s. 22]. Bu hadisədən sonra Əlincə qalası və Naxçıvan bölgəsi Azərbaycan Qaraqoyunlu dövlətinin tam nəzarəti altına keçmişdir. Cəlarilər dövründə olduğu kimi qaraqoyunlular dövründə də dövlətin əsas xəzinəsi Əlincə qalasında qorunub saxlanılmışdır.

Qaraqoyunluların Naxçıvanda hakimiyyətdə olduğu dövrdə Naxçıvan feodalları hər zaman onların tərəfində olmuşdur. Döyüş zamanı öz dəstələri ilə qaraqoyunlu başçılarına yardım etmişlər [38, s. 35]. 1412-ci ilin dekabr ayında Kür çayının sahilində qaraqoyunlularla şirvanşahlar arasında döyüşdə Qara Yusifin yaratdığı ordu ilə yanaşı Qarabağın, Muğanın və Naxçıvanın süvari dəstələri də qaraqoyunluların tərəfində iştirak edərək qələbə qazanmışlar [39, s. 45; 49, s. 97; 144, s. 160].

Qara Yusifin ölümündən sonra onun oğlanları və qaraqoyunlu əmirləri arasında hakimiyyət uğrunda mübarizə başlamışdı. İsgəndər Mirzənin Osmanlı sultanı Çələbi Mehmedə yazdığı məktubda onun qardaşları Şah Məhəmmədin və İspənd Mirzənin (İsfahan bəyin) atalarının ölümü ilə bağlı olaraq Naxçıvan dağlarına qaçıb oraya sığındıqları haqqında məlumat verilir. Bu zaman İspənd Mirzə (İsfahan bəy) Naxçıvan bölgəsini öz nəzarəti altında saxlayan Sədli tayfası əmirlərinə arxalanaraq özünü qaraqoyunlu taxt-tacının varisi elan edərək bu dövlətin Bəyazid

qalasındakı xəzinəni də ələ keçirib Çuxur-Səd qışlağına getmişdi [121, s. 109, 111, 117]. Bu fakt bir daha sübut edir ki, Naxçıvan bölgəsi 1420-ci ildə Sultan Şahruxun Azərbaycana yürüşü zamanı qaraqoyunlu əmirlərinin nəzarəti altında olmuşdu.

1421-ci ildə Sultan Şahrux İbrahim Sultanı və Əmir Şahəməliyi Sədli tayfalarına, İspənd Mirzəyə qarşı vuruşmaq üçün göndərmişdi. Həmin dövrün hadisələri ilə bağlı Həsən Bəy Rumlu yazmışdır: "İbrahim Sultan və Əmir Şahəməlik 20 min süvari ilə Naxçıvana tərəf getdilər. Bu vaxt İspənd Mirzənin (İsfahan bəyin) mülazimi fələk əzamətli orduya gəlib ona öz münasibətini bildirdi. Həzrət (yəni Sultan Şahrux) onu mehribanlıqla yola saldı" [160, s. 124]. Əbubəkr Tehrani bu hadisəni belə təsvir edir: "...bu zaman İsgəndər Mirzə İsfahan bəyin (İspənd Mirzə) Azərbaycanda şöhrətinin günbəgün artdığını görəndə üzünü Təbrizə tutdu. Təbrizi, Əlincə qalasını İsfahan bəyin (İspənd Mirzə) əlindən alıb onu Azərbaycandan çıxarmaq istədi. İsfahan bəy (İspənd Mirzə) qaçıb Avnikə və Ərzuruma getdi. Naxçıvan bölgəsi İsgəndər Mirzənin nəzarətinə keçdi [102, s. 37]. Bu dövrdə İsgəndər Mirzə Van gölü sahillərinə də hücüm etdi. Van hakimi Məlik Əhmədi tutaraq Əlincə qalasında zindana saldı və sonra onu öldürtdü" [113, s. 219].

İsgəndər Mirzə Teymuri ordusunun Azərbaycanı tərk etməsindən sonra qaraqoyunlu taxt-tacında daha da möhkəmlənsə də, bu proses uzun sürmədi. Teymuri hökmdarı Şahrux 1429-cu ildə qaraqoyunlular üzərinə ikinci hücum etdi. 1429-cu ilin sentyabrın 17-də Səlmas yaxınlığında Sultan Şahrux İsgəndər Mirzəni məğlub etdikdən sonra Naxçıvan istiqamətində irəliləyərək Əlincə qalasına gəldi. Bu zaman "orada olan İsgəndərin arvadları və oğlanları sultan Şahruxa böyük hədiyyələr verdiklərinə görə qala Şahrux tərəfindən mühasirəyə alınmamışdı" [49, s. 97; 121, s. 130]. 1429-cu ildə Naxçıvan və Əlincə qalası teymurilərin əlinə keçsə də, Sultan Şahrux Azərbaycanda qaraqoyunluların hakimiyyətini aradan qaldırmağa qadir olmadığını başa düşmüşdü. Buna görə də o, Qara Yusifin oğulları arasında gedən rəqabət və düşmənçilikdən öz xeyrinə istifadə etməyi qərara alaraq 1430-cu ildə Qara Yusifin oğlu Əbu Səidi Azərbaycanın hakimi təyin etmişdi. Lakin Əbu Səid hakimiyyətdə cəmi 5-6 ay qala bilmişdi. 1431-ci ildə Qara Yusifin oğlanlarından olan İsgəndər Mirzə Əbu Səidi ələ keçirib öldürərək yenidən hakimiyyəti öz əlinə almışdı. Naxçıvan və Əlincə qalası yenidən qaraqoyunlu İsgəndər Mirzənin nəzarəti altına düşmüşdü. Qaraqoyunlu hökmdarlarından olan Əbu Səidin və İsgəndərin hakimiyyəti dövründə Azərbaycanın iqtisadi və siyasi həyatında ən ağır dövr olmuşdur [111, s. 13].

1436-cı ilin mayında Şahrux Qarabağı tərk edərək, Ucana gəlmişdi. O, burada vassallığı qəbul etmək şərti ilə Azərbaycan hökmdarlığını Cahanşaha vermişdi [3, s. 89-90]. Azərbaycan hakimiyyəti Şahrux tərəfindən Cahanşaha verilsə də, həmin dövrdə Əlincə qalası və Naxçıvan İsgəndər Mirzəyə sadiq qüvvələrin nəzarəti altında qalmışdır. 1438-ci ildə baharın əvvəllərində İsgəndər Mirzə ilə qardaşı Cahanşah arasında Sufiyan vilayətində baş vermiş döyüşdə qoşunun, həmçinin

İsgəndərin tanınmış əyanlarından biri olan Pir bəy Qarmanlının ondan üz döndərib Cahanşahın tərəfinə keçməsi ona daha böyük təsir göstərmişdir. Bundan sonra İsgəndər Mirzə onun hakimiyyətinə necə ağır bədbəxtlik üzv verdiyini anlamış və geri çəkilərək Əlincə qalasına gəlmişdir. Onu təqib edən Cahanşahın qoşunu Əlincə qalasını mühasirəyə almışdır [102, s. 90-91; 160, s. 228-229]. İsgəndər Mirzə Əlincə qalasında olduğu vaxt onun oğlu Şah Qubad İsgəndərin qardaşı Cahanşahın təhriki ilə atasına qarşı çıxaraq onu öldürmək fikrinə düşmüşdür. O, qırx nəfərlə atasının yataq otağına daxil olub onu öldürtdürərək meyidini Təbriz yaxınlığındakı Əxi Sədəddin qülləsinə aparmışdır. Şah Qubad atasını öldürdükdən sonra, Qaraqoyunlu dövlətinin xəzinəsinin bir hissəsini öz qoşununa paylamışdı. Əlincə qalasında atasını öldürən Şah Qubad İsgəndər Mirzənin ən sadiq əmirlərindən olan Hüseyn bəy tərəfindən Qaraqoyunlu dövlətinin hökmdarı elan edilmişdi [102, s. 30; 123, s. 183]. Bu hadisəni Cahanşaha bildirəndə əmisi Qaraqoyunlu dövlətinin yarısını, Avnik qalasını və Pasin vilayətini ona vermişdi [102, s. 94; 160, s. 230]. Cahanşah Şah Qubada bu imtiyazları versə də, ona qarşı gizli düşmənçilik siyasəti aparmışdı. O, Əlincə qalasında hakimiyyəti tamamilə ələ keçirdikdən sonra ata qatili olan Şah Qubadı və bu işdə əli olanları da öldürərək bütün Naxçıvanda hakimiyyəti öz əlinə almışdır [38, s. 44; 39, s. 7].

1467-ci ildə Cahanşahın Ağqoyunlu hökmdarı Uzun Həsənlə döyüşdə öldürülməsindən sonra onun oğlu Həsənəli Maku qalasındakı zindandan azad edildikdən sonra ətrafına topladığı 2-3 minlik qoşunla Təbrizə daxil olarkən Əlincə qalasının sahibi olan Yaqub Çöhrə onun yanına getmişdir. O, Cahanşah dövründə ölkənin zəruru işlərini həll etməyə, yeni torpaqlar ələ keçirməyə sərf olunması nəzərdə tutulan dövlət xəzinəsini Həsənəliyə vermişdi. Uzun Həsən Cahanşah üzərindəki qələbənin ardınca Naxçıvana gəlmiş və Həsənəlinin rəhbərliyi altında olan qaraqoyunlu ordusunu da darmadağın edərək ağqoyunlu Şahəli bəy Poranakı bir dəstə əsgərlə Əlincə qalasına göndərmişdi [102, s. 234, 253]. Beləliklə qaraqoyunlu dövləti dağılmışdı. Bu dövlətin süqut etməsindən sonra Naxçıvan və Əlincə qalası Ağqoyunluların əlinə keçmişdir.

## 8. Naxçıvan Ağqoyunluların hakimiyyəti dövründə

Oğuz tayfalarının üç ox qolunun Bayandır boyuna mənsub olan Ağqoyunlular VI əsrin sonu VII əsrin əvvəllərində Dərbənd keçidindən başlayaraq Araz çayına qədərki ərazilərdə Göyçə gölü və onun ətrafında, Naxçıvanda, daha sonra Azərbaycanın Cənub bölgələrində yaşamışdılar. Əbubəkr Tehraninin verdiyi məlumatlar Ağqoyunluların VII əsrin əvvəllərindən Türküstandan Qıpçaq ölkəsinə, oradan isə Azərbaycana gələrək Alagöz dağı ilə Göyçə gölü sahillərində yerləşdiklərini, Əlincə qalasına sahib olduqlarını və sonralar Alagöz-Göyçə gölü Əlincə bölgəsindən Diyarbəkirə köçdüklərini təsdiq edir [102, s. 39]. Ağqoyunlu etnik

birliyinin başında Bayandur qəbiləsi durduğundan Ağqoyunlular Bayanduriyyə də adlandırılır, dövlətə də bəzən Bayanduriyyə deyilirdi [124, s. 188]. Bu ittifaqa Pörnak, Mosullu, Əfşar, Bayat və b. tayfalar, boylar da daxil idi.

Ağqoyunlu tayfa birliyinin əsasını Pəhləvan bəy (1370-1380), tayfa ittifaqının əsasını isə Qara Yuluq Osman bəy (1394-1435) qoymuşdur. 1435-ci ildə Qaraqoyunlularla döyüşdə Qara Yuluq Osman bəy öldürüldü. Bundan sonra Ağqoyunlu tayfa ittifaqında hakimiyyət uğrunda gedən mübarizənin ardı-arası kəsilmədi. Ancaq XV əsrin 50-ci illərində Ağqoyunlu ərazisində vəziyyət müəyyən qədər sabitləşdi. Ağqoyunlular əleyhinə çıxmış qüvvələrə qarşı mübarizədə Uzun Həsən böyük şücaət göstərdi və şöhrətləndi. Tezliklə Ağqoyunlu əyanları Uzun Həsənin (1453-1478) ətrafında daha sıx birləşdilər. O, 1468-ci ildə Qaraqoyunlular dövlətini süquta uğradıb Ağqoyunlular dövlətinin əsasını qoydu. Uzun Həsən Təbriz şəhərini yeni dövlətin paytaxtı elan etdi [3, s. 82].

Uzun Həsən Qaraqoyunlu Cahanşahın üzərindəki qələbədən sonra Naxçıvan vilayətinə gəlmiş və Naxçıvan ərazisində yerləşən Əlincə qalasını tutmuşdu [26, s. 85; 33, s. 94]. Bu barədə Əbubəkr Tehrani yazır ki, Huri adlı yerdə xəbər gəldi ki, Şah Əli bəy Əlincəni tutub. Qısa bir müddətdə belə bir qala əziyyət çəkmədən bütün xəzinələri ilə birlikdə ələ keçdi [102, s. 159]. Beləliklə, Qaraqoyunlular dövlətinin süqutundan sonra Naxçıvan və Əlincə qalasına Ağqoyunlu dövləti nəzarət etdi. Təkcə Əlincə qalası yox, o zaman strateji cəhətdən əlverişli olan digər qalalar, Bəyazid və Gərni də Ağqoyunlu dəstələrinin əlinə keçmişdir. Uzun Həsən Qaraqoyunluları məğlub etdikdən sonra Teymuri Əbu Səid Qaraqoyunlular dövlətinin bərpası adı altında Ağqoyunlu dövlətinin üzərinə yürüşə başladı. Ancaq Araz çayı sahilində 1469-cu ildə Uzun Həsən tərəfindən əsir alındı, ordusu isə dağıdıldı [123, s. 192]. Naxçıvan qalası Uzun Həsənin zamanında təmir və islah edilmişdi [114, s. 96].

Uzun Həsənin ölümündən sonra (5 yanvar 1478-ci il) Ağqoyunlu dövlətinin daxili zəifliyi özünü göstərdi. Uzun Həsənin nəslindən yalnız oğlu Sultan Yaqubun hakimiyyəti uzun sürdü (1478-1490). Onun ölümündən sonra taxt-tac uğrunda şahzadələr və əmirlər arasında toqquşmalar baş verdi. Sultan Yaqubun oğlu Baysunqur lələsi Sufi Xəlil Mosullunun köməyi ilə hakimiyyətə (1490-92) gəldi. Onun zamanında əmirlər tərəfindən padşahlığa namizəd göstərilən şahzadə Rüstəm Mirzənin əsir edilərək Naxçıvandakı Əlincə qalasına salınması [120, s. 52; 143, s. 176] Naxçıvan bölgəsinin Ağqoyunlu dövlətinin tərkibində mühüm inzibati ərazi olduğunu təsdiq edir. 1491-ci ildə Diyarbəkr hakimi Süleyman Bican oğlu Sufi Xəlili döyüşdə məğlub etdi. Ancaq Baysunqura toxunmayıb onu hakimiyyətdə saxladı. Lakin bu hadisə Eybə Sultan adlanan İbrahimin xoşuna gəlmədi. Eybə Sultan öz dəstəsi ilə Baysunqura qarşı mübarizəyə girdi [39, s. 103]. Həsən bəy Rumlunun məlumatına görə, 1492-ci ildə Eybə Sultan Bayandur ordusu ilə Qarabağdan Naxçıvana - Əlincə qalasına yollandı, türkmən bəylərinin dəstəyini alıb, sonra




*Naxçıvan Ağqoyunlular dövründə*
*(1468-1501-ci illər)*

Əlincə qalasının hakimi olan Qazaq Seyid Əlini özünə müttəfiq etdi və Uzun Həsənin həbs olunmuş nəvəsi Maqsud bəy oğlu Rüstəm Mirzəni azad edib Təbrizə yollandı. Rüstəm Mirzə də Təbrizə gedərək hökmdarlığını (1492-1497) elan etdi [29, s. 75; 120, s. 52].

Baysunqur qaçdığı üçün Rüstəm Mirzə taxta yiyələndi. 1497-ci ildə Gödək Əhməd Rüstəm Mirzəni Naxçıvan ətrafında məğlub edərək hakimiyyəti ələ almışdı [68, s. 8]. Rüstəm beş il hakimiyyətdə qaldı. Rüstəm Mirzə hakimiyyətini qoruyub saxlamaq üçün feodal əyanlarına çoxlu miqdarda soyurqal paylamışdı. Bu zaman Osmanlı sarayında yetişən Uzun Həsənin nəvəsi Uğurlu Məhəmmədin oğlu Gödək Əhməd 1497-ci ildə Azərbaycana hücuma keçir. 1497-ci il mayın 3-də Araz çayı kənarında, Culfa yaxınlığında döyüş olur. Bu döyüşdə Rüstəm Mirzənin ordusu dağıdılır, özü isə əsir alınır [39, s. 107]. 1497-ci ildə Gödək Əhməd Təbrizdə taxta çıxır və 6 ay 10 gün hakimiyyətdə qalır [136, s. 160], sonra o, Eybə Sultanın

növbəti xəyanəti və qiyamı nəticəsində öldürülür. Bundan sonra iki əmioğulları Əlvənd və Murad Mirzələr arasında uzun sürən hakimiyyət davası başlayır və nəhayət 1499-cu ildə döyüşlər dayandırılaraq hər iki şahzadə arasında danışıqlar başlayır. 1500-cü ilin əvvəlində Təbriz yaxınlığında, Əbhər adlı yerdə Baba Xeyrulla adlı birinin köməyi ilə sülh imzalandı. Sülhə görə, Ağqoyunlu dövləti iki yerə parçalandı. Qızılüzən çayı sərhəd olmaqla Diyarbəkr, Azərbaycanın Kür çayından cənuba doğru olan hissəsi və Qarabağ Əlvənd Mirzəyə, bütün Ərəb İraqı, Fars, Kirman isə Murad Mirzəyə çatdı. Bu müqaviləyə görə Naxçıvan Əlvənd Mirzənin hakimiyyəti altında qaldı.

Səfəvilər 1501-ci ilin yazında Bakını tutduqdan sonra, Gülüstan qalasını mühasirəyə aldılar. Şah İsmayıl burada olarkən ona məlumat çatdırıldı ki, Əmirzadə Əlvənd türkmən əsgərləri ilə Naxçıvana gəlib, qoşunu hər iki tərəfdən onunla vuruşa hazırlamışdır. Səfəvilər Qarabağdan Göyçəyə, İrəvandan da Naxçıvana doğru istiqamətləndi [136, s. 162]. Əmirzadə Əlvənd, Əmir Osmanı bir dəstə qoşunla göndərdi. Şah İsmayıl da öz qoşunlarından bir dəstəni onun qarşısına göndərdi. Şiddətli müharibədən sonra türkmən qoşunu, Ağqoyunlular məğlub oldu. Əmir Osman, bir dəstə böyük adamlarla əsir düşüb öldürüldü. Bundan sonra Əmirzadə Əlvənd 30000 əsgərlə Şah İsmayılın qabağına yeridi [10, s. 69]. Bu zaman otuz minlik qoşunla Naxçıvana gəlmiş Əlvənd Mirzə  Şah İsmayılın Kür çayını keçməsinə yol verməmək üçün özünün hərbi rəisini - Mahmud Qaracanı Gəncə və Qarabağa yolladı. Qızılbaşlar Kür çayını Cavad yaxınlığında müvəffəqiyyətlə keçdilər, tezliklə Naxçıvana doğru irəlilədilər. Şah İsmayıl Qara Piri bəy Qacarı və İlyas bəy Halvaçıoğlunu irəliyə yolladı. Qızılbaşların yolunu kəsmək üçün Əlvəndin göndərdiyi qüvvələr yolüstü İlyas bəy tərəfindən məhv edildi.

Əlvənd Şah İsmayıla Şirvana qayıtmaq və həmin vilayətin idarəsi ilə kifayətlənmək tələbi ilə məktub göndərdi, lakin rədd cavabı aldı. Ağqoyunlu hakimi Əlvənd bəy çoxsaylı qoşununu döyüş qaydasında düzdü və Naxçıvan tümənində Şərur adlı yerdə dayandı [4, s. 178]. Şah İsmayıl Araz çayının cənub sahili boyunca irəlilədi, Naxçıvan bölgəsində çayı keçdi və düşmənin qarşısına çıxdı, sultanlara layiq vuruşma oldu.

1501-ci ilin ortalarında onlar arasında döyüş baş verdi. Şah İsmayıl Hüseyn bəy Lələ, Əbdüləli bəy Dədə, Məhəmməd bəy Ustaclı, Bayram bəy Qaramanlı, Əbdi bəy Şamlı, Qarapiri bəy Qacar, İlyas bəy Halvaçıoğlu, Əli bəy Rumlu ("Div Sultan") kimi sərkərdələrini cinahlarda yerləşdirmişdi. İsmayılın 7 minlik ordusu qarşısında öz əsgərlərinin döyüş qabiliyyətinə ümid bəsləməyən Əlvənd sayca qat-qat üstünlük təşkil edən 30 minlik qoşununun döyüş meydanından qaçmasına mane olmaq üçün bir sıra tədbirlər həyata keçirmiş, hətta dəvələri bir-biri ilə zəncirlətmiş, onları ordunun arxasında yerləşdirmişdi. Lakin bu tədbirlərin də köməyi olmamışdı. Tarixə Şərur adı ilə daxil olan bu döyüşdə Ağqoyunlu qoşunu darmadağın edildi və vahimə içərisində qaçmağa üz qoydu. Bir çox Ağqoyunlu sərkərdəsinin, o cüm-




*Naxçıvan XV əsrdə*

lədən Lətif bəyin, Sidiqazi bəyin, Musa bəyin, Qaraca Mahmud bəyin və başqalarının öldürülməsi, döyüş meydanında qətlə yetirilməsi, bu sərkərdələrin başlarının nizəyə keçirilərək havaya qaldırılması Ağqoyunlu qoşununu vahiməyə salmış və onlar qaçmaqla canlarını xilas edə bilmişlər. Qaçanların arasında Ərzincana qaçmış Əlvənd də var idi. Salnaməçinin verdiyi məlumata görə, bu döyüşdə

İsmayıl şəxsi igidlik və böyük sərkərdəlik məharəti göstərmişdi. Burada İsmayılın qələbə qazanmasında yerli əhalinin, naxçıvanlıların rolunu xüsusi qeyd etmək lazımdır. Naxçıvan əhalisi döyüş ərəfəsində yaranmış vəziyyəti düzgün qiymətləndirmiş və İsmayılı müdafiə etmişdi. Bu hal isə İsmayılın qələbə qazanmasına müəyyən qədər kömək etmişdi. Beləliklə, Naxçıvan bölgəsi hələ Səfəvilər dövlətinin yaranması ərəfəsində İsmayıl tərəfindən fəth olunmuşdu və az sonra, 1501-ci ilin payızında yaranan Səfəvilər dövlətinin [3, s. 174; 20, s. 53; 99, s. 145] tərkibinə daxil olmuşdu.

## 9. İctimai – iqtisadi həyat

XIII-XV əsrlərdə Azərbaycanda Hülakülər, Cəlairilər, Qaraqoyunlular və Ağqoyunlular dövlətləri mövcud olmuşdu. Bu dövlətlərin başında padşah dururdu. Ancaq Ağqoyunlu dövlətində Uzun Həsən özünü Osmanlı sultanlarına oxşadaraq "sultan" titulunu qəbul etmişdi. Həmin dövrdə dövlətin təşkilatlanması, xüsusilə, Qaraqoyunlularla Ağqoyunluların təşkilatı işləri Elxanilərə və Cəlairilərə bənzəyirdi. Hökmdarın seçilməsində sülalədə öndə olanlarla ulusun rəisləri söz sahibi idilər. Vilayətin bütün ordu və inzibati işlərinə isə Subaşılar cavabdeh idilər.

Naxçıvan XIII-XV əsrdə Azərbaycanda və ümumiyyətlə Şərqdə gedən siyasi, ictimai-iqtisadi və mədəni proseslərin, hadisələrin mərкəzlərindən birinə çevrilmişdi və Hülakülərin, Çobanilərin, Cəlairilərin, Qaraqoyunluların, Ağqoyunluların təyin etdikləri hakimlər tərəfindən idarə olunurdu. Həmin dövrdə şahın övladları-şahzadələr bir çox Türk dövlətlərində olduğu kimi, gənclik yaş dövrünə gəldiyi zaman bir vilayətin idarəsinə təyin olunurdular və atabəyləri (lələləri) ilə birlikdə bu ərazini idarə edirdilər. 1338-ci ildə Şərur və Dvin əraziləri Əkəncinin oğlu Hacı bəy, XIV əsrin sonu XV əsrin əvvəllərində Naxçıvan və Əlincə qalası Qazi İmadəddin tərəfindən idarə olunmuşdur. Şahzadələrin əyalətlərdəki divanlarında da divan əmiri olmuşdur [122, s. 278]. Bəzi mənbələrdəki məlumatlar belə deməyə əsas verir ki, dövlətin əmir divanından başqa ayrı-ayrı vilayət, şəhər və qalaların da divan əmirləri olmuşdur. Məsələn, 1408-ci ildə Əlincə qalasında baş verən qiyam yatırıldıqdan sonra qalanın yeni hakimi olan Qara İsgəndər üsyan başçılarından biri olan Şəhriyarı xidmətləri qarşılığında bu qalanın divan əmiri təyin etmişdi. Qaraqoyunlu dövlətinin başçılarından biri Qara Yusif olduğu halda, Şəhriyarın divan əmiri vəzifəsinə sülalə başçısı deyil, məhz şahzadə İsgəndəri təyin etməsi faktı onu göstərir ki, İsgəndər ona təhvil verilən Əlincəni öz mülkü hesab etmişdi. [35, s. 24]. Qaraqoyunlu və Ağqoyunlu dövlət aparatında hökmdar və əmir əl-ümarədən (ordu başçısı) sonrakı yeri sədr-əzəmlər tuturdu. Onlar müsəlman ruhanilərinə rəhbərlik edir, vəqf mülkiyyəti, onların gəlirləri, mədrəsələr və xeyriyyə təşkilatları ilə məşğul olurdular. Baş sədr şəriət işlərində cavabdeh şəxsləri, o cümlədən icma rəhbərlərini, seyidiəri, vəqf mülkiyyətini idarə edənləri,

müdərrisləri, hafizləri vəzifəyə təyin edir və ya vəzifədən azad edirdi. Qeyd olunan vəzifə sahibləri hər hansı bir işi yerinə yetirərkən baş sədrlə razılaşmalı idilər [93, s. 67].

Mərkəzi idarə aparatında mühüm mövqelərdən birini də dövlətin gəlirlərini və maliyyə sistemini idarə edən baş vəzir tuturdu. Baş vəzir ali divana rəhbərlik edir və buna görə də sahib-divan adlanırdı. İstər Qaraqoyunlu, istərsə də Ağqoyunlu dövlətlərində "sahebe əzəm" deyilən vəzirlər olmuşdur [3, s. 96]

Əlincə qalasının ətəyində inşa edilən günbəzdə aşkar edilən kitabədə Əmir Seyid Əhmədin oğlu Hacı Məhəmmədin adına "Sahib-əl əzəm" titulu əlavə olunduğu göstərilmişdir. Kitabədə Hacı Məhəmmədin atası Seyid Əhməd, Əmir Seyid Əhməd kimi göstərilmişdir. Əmir titulundan görünür ki, Seyid Əhməd "Əmir" titulunu daşımış və qoşun başçısı, sərkərdə olmuşdur [93, s. 147].

XIV-XV yüzilliklərdə Azərbaycanda məhkəmə işləri qazıların ixtiyarında olmuş və onlar tərəfindən həyata keçirilmişdir. Qazılar yerlərdə əsas hakimlər kimi qalmaqda idilər və şəriət məhkəmə aparatına başçılıq edirdilər. XV əsrdə Azərbaycanda dövlət qazıları ilə yanaşı şəriət qazıları da fəaliyyət göstərirdi ki, birincilər ikincilər üzərində güclü təsirə malik idilər. Qazıların başçılıq etdikləri məhkəmələr qəza məhkəmələri adlanırdı [32, s. 49]. Orta əsrlər dövründə Naxçıvan ərazisindən çıxmış görkəmli ruhani alimlər, din xadimləri içərisində feodal dövlət aparatında yüksək vəzifə tutan və şəriət qanunları əsasında məhkəmə icraatını həyata keçirən hakimlər – qazılar da olmuşdur. Belə qazılardan Məcd əd-Dinin adını vurğulamaq olar ki, o XV yüzillikdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin hakimiyyəti dövründə yaşayıb fəaliyyət göstərmiş, həmin dövlətlərdə qazılıq vəzifəsini icra etmişdi [98, s. 69]. Məhkəmə məsələləri əsasən məscidlərdə həll edilirdi.

XIII-XV əsrdə Naxçıvanda əhali bir sıra vergilər, o cümlədən tamğa, əvariz, təğar, ülufə, mərsumu və digər vergilər ödəmişlər. XIII-XIV əsrlərdə tamğa şəhər əhalisindən- sənətkarlardan, tacirlərdən alınan əsas vergi idi. Ancaq tamğa eyni zamanda, duz istehsalı üçün də alınırdı. Orta əsr qaynaqlarında Naxçıvan duz mədənlərindən tamğa vergisi alındığı qeyd olunur. Mənbələrin məlumatından məlum olur ki, XIV əsrin 40-cı illərində Hülakülər tərəfindən Naxçıvan nahiyəsində yığılan vergilərin ümumi məbləği ildə 113 min dinar olmuşdur [49, s. 89]. XIII-XIV əsrlərdə Azərbaycan əhalisi vergi və mükəlləfiyyətlərin dəhşətli ağırlığı altında əziyyət çəkmişdir. Vergilərin yığılması prosesində mövcud olan özbaşınalıqlar bu zülmü daha dözülməz edirdi. Həyat şəraitinin ağırlaşması zəhmətkeşlərin kütləvi şəkildə yaşayış yerlərini tərk etməsinə səbəb olurdu. Dözülməz zülm nəticəsində Naxçıvanda mövcud olan evlərin 5/6 hissəsi boşalmışdı. Baş verən müxtəlif yoluxucu xəstəliklər, məhsulsuzluq əhalinin həyat şəraitini xeyli ağırlaşdırmışdı.

Qaraqoyunluların hakimiyyəti dövründə Qazi İmadəddin Əlincə qalasına yiyələndikdən sonra ətraf yerlərdə yaşayan türk və tərəkəmə tayfalarını qalaya yığmış, əhalidən toplanan ülufə və mərsumu (vergi) özü müəyyənləşdirmişdi [29,

s. 53]. Dövrün tarixçiləri məlumat vermişlər ki, bundan sonra Qazi əhalidən alınan vergilərin həcmini özü müəyyən etmiş və az vaxt ərzində xeyli sərvət yığmışdı. Buna görə də şəhər sakinləri hakimin zülmünə qarşı üsyan qaldırmış, onu öldürüb, məmurlarına isə divan tutmuşdular [3, s. 112].

Uzun Həsən hakimiyyəti dövründə ölkədə yığılan vergilərin həcmini dəqiqləşdirmiş, əhali arasındakı mübahisə və şikayətlərə aid "Qanunnamə" tərtib etdirmişdi. Günahkarları sərt şəkildə cəzalandırmağı tələb edən Sultan "Qanunnamə"ni icra edilmək üçün dövlətin bütün vilayətlərinə o, cümlədən Naxçıvana da göndərmişdi [3, s. 108].

XIII əsrin I yarısında Azərbaycanın monqollar tərəfindən işğalı nəticəsində ictimai-iqtisadi həyat iflic vəziyyətə düşmüşdü. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanı işğal edən monqol hakimləri (bahadırlar və noyonlar) ilk növbədə yerli feodalları və iri torpaq sahiblərini siyasi və iqtisadi cəhətdən özlərindən asılı vəziyyətə salmağa çalışırdılar. Yerli feodalların torpaqlarını və mülklərini müsadirə etmək və onları özlərinin şəxsi əmlakına çevirmək işğalçı monqolların iqtisadi siyasətinin əsasını təşkil edirdi. Bundan başqa, Qazan xanın islahatlarına qədər köçəri monqollar "vəqf" torpaq sahələrini də işğal etdilər [128, s, 109]. Bir sözlə, XIII əsrin 20-ci illərindəki ilk monqol yürüşləri Naxçıvanın və onun bölgələrinin ictimai-iqtisadi, siyasi və mədəni həyatına güclü, dağıdıcı zərbə vurdu. Monqolların işğal və istila etdikləri digər ərazilər kimi, Naxçıvan bölgəsində və yaxın ərazilərdə mədəniyyət abidələri, ticarət yolları dağıdıldı, kənd təsərrüfatı talan edildi, əkin yerləri tapdalandı, xırmanlar yandırıldı. Bütün bunlar təkcə iqtisadi sahəni deyil, ümumiyyətlə, ictimai həyatı da çox acınacaqlı vəziyyətə saldı.

Naxçıvan XIII-XV əsrlərdə Azərbaycanın tərкib hissəsi olmuş və onun əsas inzibati vahidlərindən birini təşкil etmişdir. XV əsrdə Naxçıvan ərazisi Azərbaycanda və ətraf ərazilərdə fəaliyyət göstərmiş türk mənşəli Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdu. Bu dövlətlərin ərazisinə bir çox vilayətlərlə yanaşı, həmin ərazi əslində Çuxursəd adı ilə tanınırdı. Çuxursəd geniş ərazini, Araz çayı vadisinin hər iki tərəfini – şimal-qərbdə Şuragel, şimal-şərqdə Göycə gölü, cənub və cənubi-şərqdə Sürməli, Naxçıvan, Maкu və bəzən də Bəyazid ərazilərini əhatə etmişdi [81, s. 148].

Bəhs olunan dövrdə Azərbaycanda mövcud olan dövlətlərin ordusuna nəzər saldıqda görürük ki, orduda müəyyən bölgü sistemi var idi. Hülakülərin (Elxanilərin) qoşun təşkilatında aşağıdakı bölgü mövcud idi. Bütün ordu tümənlərə (onminliklərə) ayrılırdı. Tümənlərə onminbaşılar başçılıq edirdilər. Tümənlər minliklərə, minliklər yüzlüklərə, yüzlüklər isə onluqlara bölünürdü. Naxçıvan tüməni də həmin dövrdə on min qoşun çıxardırdı. Ordunun əsasını dövlətlərin hakim olduqları sülalələrdən piyada və atlılar təşkil edirdilər. Ordunun başında əmir-ül ümarə dururdu. O, şahdan sonra ikinci şəxs sayılırdı [122, s. 288]. Bununla yanaşı, orduda başqa tayfalar da müəyyən yer tuturdu. Bunlar arasında hökmdar sülaləsi

Baharlılardan başqa, Qaraqoyunlu dövlətinin ordusunun əsasını təşkil edən 5 önəmli Türkmən zümrəsi vardır ki, onlardan biri də Naxçıvan və Sürməli-İrəvan ərazisində yaşayan Sədli tayfası idi. 1421-ci ildə Teymurun oğlu Şahrux ilə Araz boyunda Alaşkerd döyüşündə Qaraqoyunlu ordusunun sağ qanadına Sədli Pir Məhəmməd başçılıq edirdi. Hər iki dövlətin geniş orduları olmasına baxmayaraq tayfa qüvvələrindən də istifadə edirdilər.

Qaraqoyunlu Qara Yusif hakimiyyəti dövründə Cənubi Azərbaycanın köçəri əmirlərini və onun hakimiyyətinə daxil olan ərazilərdə, o cümlədən Naxçıvan tümənindən hərbi qüvvələr olan könüllü feodal dəstələrini (sipahilər) öz tərəfinə çəkmiş, silahlı qüvvələr yaratmışdı [136, s. 131]. Qoşun səfərdə olduğu zaman (ilin fəsillərindən asılı olaraq) qışlaq və yaylaq yerlərində dayanırdı. XV əsrin sonu Ağqoyunlu qoşunlarının yerləşdiyi əsas hərbi baza cənubda Şiraz, şimalda isə Naxçıvan idi. Uzun Həsənin fərmanı ilə Ağqoyunlu ordu başçıları bu iki şəhərdə öz silahlı qüvvələrinə baxış keçirirdilər. Ağqoyunlu ordusunun əsasını təşkil edən Azərbaycan süvariləri qışda Naxçıvan qışlaqlarında, bəzən də Əlincədə, yayda isə Bazarçay yaylaqlarında (bu yaylaqlar Naxçıvan tüməninə daxil idi) yerləşirdilər [136, s. 162].

XIII-XV əsrlərdə mövcud olan dövlətlərin ordusunda qılınc, şeşpər, ox, yay və s. mövcud idi. Ancaq Ağqoyunlu ordusunda top və tüfəngdən də istifadə edilirdi. XV əsrin əvvəllərində orduda qorçubaşı, çərik, təvaçi vəzifələri var idi. Xüsusi şah alayının üzvləri olan qorçu dəstələrinin rəhbəri Qorçubaşılar idi. Qorçubaşı vəzifəsinin sahibi dövlətin ən etibarlı şəxsiyyətlərindən biri olmuşdur. Müəyyən şikayəti olan hər bir qorçu yalnız qorçubaşı vasitəsilə öz şikayətlərini hökmdara çatdıra bilərdi, əks təqdirdə o, qorçuluqdan kənar edilirdi. Qorçular arasında nizam-intizamın yüksək olması və orta əsrlərdə tez-tez üzə çıxan tayfa ixtilaflarının baş verməməsindən ötrü hər qorçu dəstəsinin üzvlərinin tərkibi yalnız bir tayfa nümayəndələrindən ibarət olurdu. Qorçular mənsub olduqları yer və tayfanın adı ilə adlanırdılar: Naxçıvan qorçuları, Şamlı qorçuları və s.

Qaraqoyunluların hakimiyyəti dövründə Əlincə qalasında Qazi İmadəddinə qarşı üsyan qaldırılmışdı. Buna görə də qalanı əmirlərdən təslim alan İsgəndər Mirzə üsyan başçılarından olan Hacı Qorçunu özünə qoruçu təyin etmişdi.

Çərik XIII-XV əsrlərdə sarayın ixtiyarındakı qoşundan və ayrı-ayrı vilayətlərdə yaşayıb, yalnız müharibə vaxtı cəmlənərək öz başçıları (sərdar) ilə birlikdə hökmdarın köməyinə yollanan döyüşçü dəstələri idi. Qoşunlarda həm süvari, həm də piyada hissələri vardı 29, s. 45]. XIII-XIV əsrlərdə şəhər əhalisi monqol ordusuna çərik adlanan döyüşçü dəstələri göndərməli idi. Naxçıvan nahiyəsi də ayrıca bir tümən təşkil etdiyindən, mövcud qaydaya görə 10 min əsgər göndərirdi [49, s, 90].

Monqol işğalları dövründən başlayaraq monqol feodalları Azərbaycanın zəngin torpaqlarının müəyyən hissəsini öz aralarında bölmüşdürlər. Azərbaycan feodal

dövlətlərində monqol hökmdarlığı dövründə formalaşmış torpaq mülkiyyəti növləri *(divani, xassə, mülk, vəqf)* mövcud idi. Məlum olduğu kimi, Hülakülər dövründə torpaqlar əsasən dörd kateqoriyadan ibarət idi: “Divan” (dövlətə məxsus olan torpaqlar), “İncu”, “Xass” və yaxud “Xass incu” (Xana və onun ailəsinə məxsus olan torpaqlar), “Mülk” (yerli feodallara aid torpaqlar), “Vəqf” (dini idarələrə, məscidlərə, mədrəsələrə aid torpaqlar). Naxçıvan ərazisi bu kateqoriyadan “mülk” torpaqları sırasında hesab olunurdu. Belə ki, Qazan xanın vəziri Fəzlullah Rəşidəddinin Azərbaycanda olan 8000-10000 hektar torpaq mülkündən təxminən 1000 hektarı Naxçıvanda idi [50, s. 88].

Vəqf torpaq və mülkləri dini müəssisələrin-məscid, mədrəsə və xanəgahların ixtiyarına verilir, əldə edilən gəlirin bir hissəsi onlara sərf olunurdu. Bu torpaqlardan hökumət üçün vergi yığılmır, vəqf əmlakı toxunulmaz sayılırdı.

Azərbaycanda iqta torpaq mülkiyyəti daha çox XIII-XIV, soyurqal isə XIV əsrin ikinci yarısından, Cəlairilərin hakimiyyəti dövründən tədricən meydana gəlmiş və XV əsrdən mövcud olmuşdur. Özündən əvvəlki iqta institunun inkişafı nəticəsində yaranan soyurqal institutu Azərbaycanda olan feodal mülkiyyətinin əsas növlərindən biri idi və xidmət müqabilində verilən torpaq mülkiyyəti formasıdır. Soyurqal Ağqoyunluların hakimiyyəti dövründə daha çox yayılmışdı. Mənbələr yazır ki, hələ bu günə qədər Ağqoyunlu hökmdarı Rüstəm Mirzə qədər soyurqal paylayan ikinci bir hökmdar olmamışdır. Soyurqal sahibləri hökmən padşahın hərbi və ya mülki xidmətində olmalı, onun mənafeyindən ötrü çalışmalıydı. Soyurqal sahibləri iqta sahiblərinə nisbətən öz torpaqlarında tam müstəqil idilər və dövlət məmurlarının həmin torpaqlardan vergi yığmalarına nəinki yol verilir, hətta məmurların o torpaqlara yaxın düşmələri belə qadağan edilirdi.

1406-cı ildə Sultan Əhməd Cəlairi Təbrizdə sakin olarkən, teymuri Mirzə Ömərin əmri ilə Əlincə qalasının dağıdılmasında iştirak edən naxçıvanlı Qazi İmadəddini həmin qalanın təmirinə yollamışdı. Qazi İmadəddin öhdəsinə düşən tapşırığı yerinə yetirdikdən sonra Sultan Əhmədin Təbrizi tərk edib Bağdada getdiyini eşidən kimi qalada öz istila və istiqlaliyyət bayrağını qaldırmışdı. Elə o vaxt da Təbrizi tutan Qara Yusif Əlincəni Qazi İmadədinin əlindən çıxarmağa səy göstərmiş, qalanın alınmasının mümkün olmayacağını bilərək qala və ətraf yerlərin ona çatdığını rəsmən təsdiq etmək məcburiyyətində qalmışdı. Buradan belə nəticəyə gəlmək olur ki, Qara Yusifin hökmü altında olan ərazidə yerləşən Əlincə qalası Qazi İmadəddinə məhz soyurqal şəklində verilmişdi [29, s. 52-53]. XIV əsrin 70-ci illərindən XV əsrin 30-cu illərinədək Azərbaycanda şəhər həyatının, ticarətin və xüsusilə sənətkarlığın tədricən tənəzzül etməsi prosesi baş vermişdi. XV əsrin 30-80-ci illəri ölkənin nisbətən sabit siyasi şəraitdə inkişaf etməsi ilə əlamətdardır. Cahanşah Qaraqoyunlunun, Uzun Həsən Ağqoyunlunun və Sultan Yaqubun hakimiyyətləri dövründə şəhər həyatı daha yüksək inkişaf səviyyəsində olmuşdu. Bu dövrdə Azərbaycanın Təbriz, Bakı, Şamaxı kimi şəhərləri ilə yanaşı Naxçıvanın

da  adı çəkilir. Bəhs olunan dövrdə Naxçıvan ağac, taxta və vazalarla şöhrət qazanmış bir şəhər kimi xarakterizə edilmişdir [143, s. 195]. Məlumdur ki, bu zaman Azərbaycanda mis məmulatının hazırlanması üçün zəruri olan xam metal Qafan və Naxçıvan bölgələrində hasil edilirdi.

XIII-XIV əsrlərdə monqolların işğalları ilə əlaqəli təsərrüfat sahələrində geriləmə baş versə də sonrakı dövrlərdə nisbətən inkişaf etmiş, təsərrüfatda əkinçilik və maldarlıq mühüm yer tutmuşdu. Taxılçılıq əkinçiliyin əsas sahəsi idi. Buğda və darı əkilmiş sahələr ölkənin bütün vilayətlərini əhatə edirdi. Texniki bitkilər arasında pambıqçılıq Naxçıvanda geniş yayılmış sahələrdən biri idi. Bağçılıq da əkinçiliyin əsas sahələrindən biri idi. Bağlarda müxtəlif növ meyvələr - alma, armud, üzüm, ərik, şaftalı, heyva, tut, albalı, gilənar, badam, limon və s. becərilirdi. Naxçıvan, Ordubad, Azad, vilayətləri mühüm bağçılıq və üzümçülük bölgələri idi. Azad bölgəsində hazırlanmış şərablar geniş şöhrət qazanmışdı [3, s. 50].

## 10. Naxçıvanda sufiliklə bağlı mərkəzlər

VIII yüzillikdən etibarən müsəlman şərqində təşəkkül tapan sufi təriqətləri Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da geniş yayılmışdı. Bu təriqətlərə rəhbərlik edən şeyxlər bir sıra yaşayış məskənlərində öz yaşayış, ibadət, zikr və təhsil mərkəzlərini – xanəgahlarını qurur, ətraflarına müridlər toplayır, ideyalarını mənimsədir, onlar vasitəsilə yerli əhali arasında və ətraf ölkələrdə yayırdılar.

Orta əsrlərdə Naxçıvan bölgəsində də çoxlu belə xanəgahlar yaradılmışdı. Bu xanəgahlardan Naxçıvan və Ordubad şəhərlərindəki xanəgahları, Culfa bölgəsində Əlincəçay xanəgahını, Ordubad bölgəsində Vənəndçay sahilindəki xanəgahı və s. misal göstərmək olar. Məşhur sufi şeyxlərinin rəhbərliyi altında fəaliyyət göstərən bu xanəgahlar müsəlman şərqinin böyük xanəgahları ilə sıx əlaqədə olmuş, Azərbaycanın və qonşu ölkələrin sosial-siyasi və ideoloji həyatında mühüm rol oynamışlar. Orta əsr qaynaqları, həmçinin Naxçıvan bölgəsində indiyədək qalan müsəlman kitabələrinin təqdim etdiyi faktlar təsdiq edir ki, Naxçıvan ərazisində "Səfəviyyə", "Qələndəriyyə", "Bəktaşiyyə", "Hürufiyyə", "Nöqtəviyyə" və başqa sufi təriqətləri fəaliyyət göstərmişdir.

Bölgəmizdə müxtəlif sufi təriqətlərinin mövcud olmasını və fəaliyyət göstərməsini sübuta yetirən mühüm qaynaqlardan biri də Naxçıvanda qalan yer adları – toponimləridir. Naxçıvan bölgəsində indiyədək yaşayan Dərvişlər, Sufilər, Xanağa və Xanəgah toponimləri, Culfa rayonunun Xanəgah kəndində aşkar olunan kitabədə "Xanəgahi" nisbəsinin qeyd olunması [151, s. 18], Zaviyə yer adları [11, s. 108-109; 12, s. 96; 23, s. 93], hazırda Naxçıvan şəhərində "Zaviyə mədrəsə kompleksi" kimi tanınan bina, həmçinin şəhərdə  bu komplekslə əlaqədar yaranan və zəmanəmizədək yaşayan "Zaviyə məhəlləsi" və s. yer adları [16, s. 56-58] sufiliklə

bağlı toponimlərdir.

Osmanlı türklərinin 1727-ci ildə tərtib etdikləri, "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə hazırda Naxçıvan bölgəsində mövcud olmayan sufiliklə bağlı bir neçə Zaviyənin və kəndin, o cümlədən Naxçıvan şəhərindəki Seyid Haşım zaviyəsinin [61, s. 51], Mülki Arslan nahiyəsinə daxil olan Cəhri kəndindəki İsfəndiyar zaviyəsinin [61, s. 28, 122-123], Mülki-Arslan nahiyəsində Şeyx Yusifli kəndinin [61, s. 28, 115], Sisyan nahiyəsində Şeyxlər kəndinin [61, s. 33, 236-237], Qışlağat nahiyəsində Şeyxi Həmzəli [61, s. 30, 160-162], Xəlifəli və Xəlifə kəndlərinin [61, s. 30, 163], Sair Məvazi nahiyəsində Babalı kəndinin [61, s. 27, 94] adları çəkilmişdir. Bu siyahıya hazırda Babək bölgəsində mövcud olan Şıxmahmud kəndini, Culfa bölgəsinin Xanəgah kəndindəki "Şıxlar" məhəlləsini də [92, s. 43] əlavə etmək olar.

K.M.Smirnovun fikrincə bölgədəki yaşayış məskənlərindən Naxçıvan şəhəri, Hacıvar, Tumbul, Göynük, Alışar, Zeynəddin, Şaxtaxtı və s. kəndlər müxtəlif dərviş ordenlərinə məxsus adamların yaşadığı, yaxud da xanəgah və zaviyələrin fəaliyyət göstərdiyi yerlər olmuşdur [154, s. 92, 102, 104, 110, 112, 114, 119].

Ordubad bölgəsindəki Xaraba Gilan şəhər yerində, Plovdağdan şimalda yerləşən Pir Baba ziyarətgahı, Ordubad rayonunun Biləv kəndindəki Abdal dağı (1925 m), Biləv kəndi ərazisində indiyədək mövcud olan "Xəlifəli" məhəllə adı, "Xəlifəli" bağ yeri, "Pir Əhməd şamı" bağ yeri və s. coğrafi adlar da orta əsrlər zamanı bu bölgədə sufi təriqətlərinə mənsub dərviş - abdalların yaşayıb fəaliyyət göstərməsindən xəbər verən mötəbər şahidlərdir. Hazırda Naxçıvanda, həmçinin Bakıda və Azərbaycanın digər yaşayış məskənlərində yaşayan və "Bəktaşi" soyadını daşıyan adamlar vaxtilə ərazimizdə yaşayıb fəaliyyət göstərən Bəktaşi dərvişlərinin törəmələri, nəvə-nəticələridir.

Naxçıvanda müxtəlif sufi təriqətlərinin fəaliyyət göstərməsini tarixin təhrif olunmamış qaynaqlarından biri olan və ərazidə indiyədək qalan epiqrafik abidələr də təsdiq etməkdədirlər. Bu kitabələrin təqdim etdiyi məlumatlar əsasında aydın olur ki, Ön Asiyada sufizmin banilərindən olan Şeyx Əbu Səid Əbül-Xeyr Xorasaninin ideyalarını yayan ardıcılları müsəlman şərqinin, o cümlədən Azərbaycanın hər yerinə yayıldığı və fəaliyyət göstərdiyi kimi, Naxçıvanda da fəaliyyət göstərmişlər.

Qaynaqlar bizədək Naxçıvanda yaşayan bəzi sufi şeyxlərinin də adını çatdırmışdır. Bu sıradan Şeyx Əbu Səidin ardıcıllarından olan və Naxçıvanda öz xanəgahını yaradaraq mənsub olduğu təriqətin ideyalarını yayan Əbu Ömər Naxçıvanini xüsusi qeyd etmək lazımdır. Naxçıvan şəhərindəki Pir Ömər Naxçıvani ziyarətgahı sufi şeyxi Əbu Ömər Naxçıvaninin adı ilə əlaqədar yaranmış müqəddəs yerlərdəndir. Şəhərin Sarvanlar məhəlləsində yerləşən bu ziyarətgahı yerli əhali hələ də ziyarət etməkdədir.

1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə Şimali

Azərbaycan ərazisi Rusiyaya ilhaq olunduqdan sonra Araz çayının şimalındakı torpaqların hamısında olduğu kimi, Naxçıvanda da sufiliklə bağlı mərkəzlər getdikcə zəifləməyə və Şeyxülislam A.Paşazadənin dediyi kimi "iyirminci yüzilliyin əvvəllərindən etibarən dağılmağa başladı və 30-cu illərdə tamamilə aradan çıxdı" [74, s. 86].

Orta əsrlərdə Naxçıvan ərazisində fəaliyyət göstərən ən məşhur xanəgahlardan biri Ordubad şəhərindəki Şeyx Əbu Səidin xanəgahı olmuşdur. Bu xanəgah şəhərin şərqində yerləşən Malik İbrahim qəbiristanlığının mərkəzindəki binanın yerində olmuşdur. Binanın yaxınlığında, qəbiristanlığın mərkəzində yerli əhalinin hörmətlə yanaşdığı, ziyarət etdiyi bir məzar vardır. Xalq arasında "Şeyxin qəbri" kimi tanınan məzarın başdaşısı üzərindəki kitabədən aydın olur ki, məzarda uyuyan şəxs müsəlman şərqində sufizmin banilərindən biri olan və bir müddət Nişapurda dərviş cəmiyyətinə rəhbərlik edən, ətrafında müxtəlif ölkələrdən gəlmiş başqa görkəmli şəxsiyyətlərlə yanaşı, bir sıra azərbaycanlı müridlər də toplaşan Şeyx Əbu Səid Əbül-Xeyr Xorasaninin yeddinci nəslindən olan Şeyx Əbu Səiddir. Şeyx Əbu Səid bütün ömrünü Azərbaycanda islam fəlsəfi dünyagörüşünün formalaşmasına, sosial-siyasi və mədəni-ideoloji məsələlərin inkişafına həsr etmiş, Azərbaycanın suverenliyi uğrunda monqol işğalçılarına qarşı çevrilmiş xalq hərəkatına başçılıq etmişdir [65, s. 29].

Naxçıvanın ictimai-siyasi həyatında mühüm rolu olan sufiliklə bağlı mərkəzlərdən biri də Ordubad rayonunun Xanağa kəndindəki xanəgahdır. Xanəgah kəndin şərq tərəfində, Vənəndçayın sol sahilində yerli əhalinin pir adlandırdığı iki otaqdan ibarət binanın yerində olmuşdur.

Binanın cənub divarında qoyulmuş birinci kitabənin mətnindən aydın olur ki, başdaşı Seyyid Həmidin 707-ci ildə (1308-ci il) vəfat etmiş oğlu, mərhum Seyyid Tahirin xatirəsini əbədiləşdirmişdir. Sol tərəfdəki başdaşının kitabəsindən isə məlum olur ki, abidə Şeyx Nurəddinin 1010-cu ildə (1601-1602-ci il) vəfat etmiş oğlu, mərhum, günahları bağışlanmış, şeyxlər nəslindən olan Şeyx İslamındır [140, s. 62, 80].

İkinci kitabədə nəzərə çarpdırılan "şeyxlər nəslindən olan" ifadəsi, həmçinin ata və oğulun "şeyx" titulu ilə təqdim edilməsi təsdiq edir ki, pirin yerində vaxtilə hansısa sufi təriqətinə mənsub xanəgah olmuşdur. Orta əsrlər zamanı "şeyx" titulu görkəmli şəxsiyyətlərə, xüsusilə sufi təriqəti başçılarına verilirdi. Mənbələrdə şeyxlər xanəgah başçıları kimi təqdim edilirlər. Çoxlu müridləri olan şeyxlər öz ailələri ilə birlikdə xanəgahlarda yaşayır, öldükdən sonra da orada dəfn olunurdular. Məlumdur ki, sufilikdə şeyxlik bir müddət irsi olaraq atadan oğula keçmişdir. Bu kitabədən də aydın olur ki, Şeyx İslam atasından sonra onun yerini tutmuş və xanəgahda fəaliyyət göstərən sufi təriqətinə - dərvişlərə rəhbərlik etmişdir. Kitabədə qeyd olunan "şeyxlər nəslindən olan" sözlərinə əsasən ehtimal etmək olar ki, xanəgahı Şeyx İslamın atası, babaları və ondan sonra gələn övladları idarə etmişlər.

Orta əsrlər zamanı Naxçıvan bölgəsində sufi təriqətlərinin geniş fəaliyyət göstərdiyi və xanəgahlar qurulduğu ərazilərdən biri də Şərur torpağıdır. Ərazisində təsəvvüflə əlaqədar bir neçə kənd olan (Dərvişlər, Zeyvə və s.) Şərurda fəaliyyət göstərən sufiliklə bağlı mərkəzlərdən biri Tənənəm kəndindəki Pir-i Süleyman xanəgahı olmuşdur. Zəmanəmizədək gəlib çatan və əhali tərəfindən ziyarət edilən Pir-i Süleyman xanəgahı bir binadan ibarətdir. Binanın içərisində qəbir vardır. Ancaq qəbirin və binanın üstündə epiqrafik sənəd-kitabə olmadığı üçün onların tarixi, mənsubiyyəti və təyinatı haqqında etibarlı elmi fikir söyləmək mümkün deyildir. Ancaq adına sufilikdə ən yüksək olan "Pir" titulunun əlavə olunması göstərir ki, Süleyman bu xanəgahın rəhbər şeyxi olmuşdur.

Orta əsrlərdə Naxçıvan bölgəsində fəaliyyət göstərən xanəgahlardan biri də İsfəndiyar zaviyəsidir. Babək bölgəsinin Cəhri kəndində, yüksək dağın ətəyində, təxminən 20 m uzunluğunda mağaradan ibarət olan və pir kimi ziyarət edilən bu zaviyə haqqında "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə qısa məlumatla rastlaşırıq: "Cəhri kəndi ərazisindəki İsfəndiyar zaviyəsinin vəqfi. Bu zaviyə İbadullanın ziyarətgahıdır. Yay günləri buraya qurbanlıq gətirilib kəsilərək, kasıb camaata sədəqə edildiyini kənd əhalisi xəbər verdi" [61, s. 122-123]. 1727-ci ilə aid olan qaynağın verdiyi məlumatdan aydın olur ki, hazırda "pir" kimi tanınan bu yer əslində zaviyə olmuşdur. Ərəb dilindən alınan "zaviyə" isə sufilərin yaşayış məskənlərindən olan və əksər yerlərdə "xanəgah", "təkkə", bəzən isə "təkyə" adlanan yerlərə verilən addır. Orta əsrlər zamanı bu mağarada hansısa sufi təriqətinə mənsub olan bir dərviş – zahid və yaxud da dərvişlər qrupu yaşamışdır. Bu zaviyə 1727-ci ildə, yəni "Dəftər" tərtib olunarkən ziyarət olunurmuş.

Orta əsrlər zamanı Naxçıvan ərazisində fəaliyyət göstərən ən böyük və nüfuzlu xanəgahlardan biri də Culfa bölgəsinin Xanəgah kəndinin şərq tərəfində yerləşən xanəgahdır. Əhalinin müxtəlif təbəqələri arasında böyük təsirə malik olan bu xanəgah Naxçıvandakı digər xanəgahlarla yanaşı, böyük şöhrət qazanmış, şərq ölkələrində mövcud olan iri xanəgahlarla bir sırada durmuşdur. Azərbaycanda sufizm bayrağı altında xarici işğalçılara qarşı baş vermiş xalq hərəkatlarının tarixinə nəzər saldıqda aydın olur ki, bu xanəgah xarici müdaxiləçilərə, o cümlədən monqol işğalçıları və Teymurilərə qarşı baş vermiş mübarizələrdə mühüm mövqe tutmuşdur [64, s. 17].

Xanəgah kompleksinin əsasını təşkil edən türbənin içərisində bir qəbir vardır. Üstündə mənsubiyyətini bildirən kitabə olmadığı üçün qəbir haqqında elmi fikir söyləmək mümkün deyildir. Qəbirdə kimin dəfn edilməsi haqda əlimizdə dəyərli elmi-tarixi fakt olmasa da, yerli əhali arasında belə bir fikir vardır ki, həmin qəbirdə XIV əsrdən etibarən Azərbaycanda geniş yayılan Hürufilik təliminin banisi, görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin müəllimi Fəzlullah Nəimi dəfn edilmişdir. Bu faktı elmi mənbələr də təsdiqləyir. Orta əsr müəllifləri və müasir tədqiqatçılar F.Nəiminin 1394-cü ildə Teymurun oğlu Miranşah tərəfindən

Naxçıvanda və ya Əlincədə qətlə yetirilməsini birmənalı şəkildə qəbul edirlər [55; 83, s. 92; 103, s. 246; 122, s. 282].

Xanəgah yerli əhali arasında sadəcə olaraq "Şıx" və ya bütövlükdə "Şeyx Xorasan" adlanır. Bəzi tədqiqatçılar bu sözün əslində "Şeyx Xurasa" ("Günəşə oxşar", "Nurani Şeyx") mənasında işləndiyini və F.Nəiminin ləqəblərindən olduğunu ehtimal edirlər [18]. "Şeyx Xorasan" sözünü F.Nəiminin anadan olduğu və təhsil aldığı yerin adı ilə də izah etmək olar. F.Nəimi hələ erkən vaxtlardan sufizmin mərkəzinə çevrilmiş Xorasan vilayətində təhsil alaraq kamilləşmiş, sufizm ideyalarını mənimsəmiş və öz ideyalarını yaymaq üçün Azərbaycana gəlmişdir. Teymurilər tərəfindən təqib olunduğundan Naxçıvana qaçmış, orada Miranşah tərəfindən tutularaq Əlincədə edam edilmişdir. Tərəfdarları isə onun cənazəsini Əlincəqalanın yaxınlığında dəfn edərək qəbrini ziyarətgaha çevirmişlər. Yerli əhali isə qəbri onun gəldiyi yerin adı ilə "Xorasanlı Şeyxin qəbri", "Xorasandan gəlmiş Şeyxin qəbri" kimi tanımışdır. Sonralar isə bu ad dəyişilərək "Şeyx Xorasan" şəklinə düşmüşdür.

Xanəgah kompleksində indiyədək qalan və ordada aşkar olunan epiqrafik materialların köməyi ilə burada fəaliyyət göstərən sufi təriqəti mənsublarına rəhbərlik edən bəzi şeyxlərin (Kamil Şeyx Hacı Hilalullah, Şeyx Hacı Lələ Məlik və s.) adı müəyyən edilmişdir.

Orta əsrlər dövründə Naxçıvan şəhərində və bütövlükdə bölgədə fəaliyyət göstərən sufi təriqətlərindən biri də Bəktaşilik olmuşdur. Əsası Anadoluda Hacı Bəktaş Vəli tərəfindən qoyulmuş Bəktaşilik təriqəti Osmanlı imperiyasında, Balkan yarmadasında, Azərbaycanda, o cümlədən onun tərkib hissəsi Naxçıvanda da yayılmışdır. Uzun illər Anadoluda Bəktaşilik cəmiyyətinin tədqiqi ilə məşğul olmuş türk alimi Besim Atalay qeyd edir ki, təriqətin bütün qollarına xas olan "Nad Əliyyən" (Əlini çağır!) duası mövcuddur [110, s. 24]. Bu dua Bəktaşilik təriqətinin bütün ölkələrdə fəaliyyət göstərən qollarına aid olmuşdur. Naxçıvanda Bəktaşilik təliminin yayılmasını təsdiq edən bu dua yazılmış epiqrafik sənəd ərazinin bir neçə yerində qeydə alınmışdır. Məsələn, Babək bölgəsinin Nehrəm kəndindəki İmamzadənin daxilində, qəbir olan otağın divarında, Ordubad şəhərinin mərkəzində yerləşən Came məscidinin salonlarından birinin divarında bu dua yazılmışdır. Həmçinin, Naxçıvan Dövlət Tarix Muzeyinin ekspozisiyasında üzərində süls elementli nəsx xətti ilə bu dua həkk olunan kəşkül saxlanılır [140, s. 109; 151, s. 122].

Naxçıvanda bir neçə əsr fəaliyyət göstərmiş "Bəktaşiyyə" təriqəti burada bir çox izlər qoymuşdur. İndi Naxçıvan Muxtar Respublikası ərazisində və Azərbaycanın digər yaşayış məskənlərində əslən Naxçıvandan olan "Bəktaşi" soyadlı çoxlu adamlar yaşayırlar [34, s. 86-90; 151, s. 122]. Naxçıvanlı dosent Məmməd Bəktaşinin verdiyi məlumata görə onların Naxçıvanda fəaliyyət göstərən ulu babalarından biri Baba Nemətulla olmuşdur. Bütün bu faktlar Naxçıvan ərazisinin "Bəktaşilik" təriqətinin geniş yayıldığı bölgələrdən olduğunu təsdiq edir.

Naxçıvanda fəaliyyət göstərən sufi təriqətlərinə mənsub xanəgahlardan biri də Səfəvilər dövləti kimi qüdrətli bir dövlətin yaranmasında xüsusi rolu olan, əsası XIII yüzillikdə Şeyx Səfiəddin İshaq Ərdəbili (1252-1334) tərəfindən qoyulan “Səfəviyyə” təriqətinə mənsub xanəgahdır. Culfa bölgəsinin Saltaq kənd məscidində qeydə alınmış kitabələr bu fikri təsdiq edən ən sanballı qaynaqlardır [95, s. 49-54].

Əlincəçay vadisinin sufi təriqətlərinin geniş yayıldığı ərazilərdən olduğunu, hələ Səfəvilər dövləti yaranmamışdan səfəvilərlə hürufilər arasında geniş əlaqələrin olduğunu, hətta orta əsr müəllifləri tərəfindən “Səfəviyyə” təriqətinin hürufilərin hamisi kimi qiymətləndirilməsini [85, s. 63] nəzərə alaraq, demək olar ki, “Səfəviyyə” dərvişləri Əlincəqaladan təxminən 1 km şərq tərəfdə yerləşən və el arasında Hürufilik təliminin banisi Fəzlullah Nəimi ilə əlaqələndirilən xanəgahda hürufilərlə birlikdə yaşamış və fəaliyyət göstərmişlər.

Tədqiqatçılar qeyd edirlər ki, “Səfəviyyə” təriqəti şiəliyə əsaslandığından şiəliklə bağlı olan bir sıra başqa təriqət və fikri cərəyanlarını himayə edərək məsləklərini təbliğ etmişlər ki, bunların içərisində bəktaşilər, hürufilər, əxilər və başqa təriqətlər də olmuşdur [85, s. 64]. “Səfəviyyə” təriqəti ilə Bəktaşilərin təlimi bir-birinə çox yaxın olduğundan və hər ikisi şiəliyə əsaslandığından onlar birgə fəaliyyət göstərmişlər. Həmçinin, o zamanlar Naxçıvanda yaşayıb fəaliyyət göstərən hürufilər də Səfəvilər tərəfindən himayə olunmuşdur.

**Hürufilik.** XIV əsrin sonlarında Azərbaycanda islam dini ehkamlarına və Teymurilər hökmranlığına qarşı yönəldilən dini-siyasi hərəkat - hürufilik yayılmağa başladı. Azərbaycanda, Anadoluda və Qərbi İranda yayılan və ən böyük sufi təriqətlərindən biri olan, ərəbcə “hərf” sözündən törəyən [2, s. 300] Hürufilik islamın şiəlik qolunda bir təriqətdir. Ancaq bu təriqət şiə təmayüllü olsa da, yarandığı vaxtdan etibarən istər şiə, istərsə də sünni məzhəbinin daşıyıcıları arasında çoxlu tərəfdarlar tapmış, ardıcılları yaranmış, onlar vasitəsi ilə ədəbiyyata və digər təriqətlərə güclü təsir etmişlər.

Hürufilik təliminin banisi Şeyx Fəzlullah Cəlaləddin Nəimi (1339-1394) idi. Gənc yaşlarından ilahiyyat elmləri ilə maraqlanan, 18 yaşında ikən sufiliyə yönələrək Həcc ziyarətinə gedən Fəzlullah Nəimi ziyarətdən qayıdaraq Xarəzmdə, Təbrizdə ideyasını təbliğ etmiş, sonradan İsfahana gedərək orada öz təlimini yaymağa başlamışdı. Uzun müddət bir mağarada yaşayaraq özünə qapanan Fəzlullah Nəimi şiələrin XII imamı Həzrət Mehdi olduğunu iddia edir. Hətta ətrafında olan 7 müridi bu iddianı həqiqət kimi qəbul edir, müxtəlif ictimai təbəqələr arasında nüfuz qazanırlar. Hürufilik təlimi teymurilərə qarşı çevrildiyindən Əmir Teymuru narahat edir.

Fəzlullah Nəimi özünün dünyagörüşü, fəlsəfi təlimi və bədii yaradıcılığı ilə Azərbaycan sosial-fəlsəfi və bədii fikri zəminində yetişmişdi. Sosial statusuna görə sənətkar olan və dövrünə uyğun mükəmməl savad alan, hərtərəfli biliklərə malik

olan F.Nəimi öz təlimini 1386-cı ildə Azərbaycanda bəyan etmişdir. Ona görə də hürufilər Azərbaycanı "Sərzəmin-e-rəstaxiz" ("Oyanış yeri") adlandırırlar. XIV əsrin sosial-siyasi vəziyyətindən rişələnmiş Hürufilik təlimi Azərbaycanın sosial-fəlsəfi fikri tarixində mühüm yer tutan Məzdəkilik, Xürrəmilik və Əxilik hərəkatı ilə üzvi surətdə bağlı idi. Hürufiliyin əsas ideyaları banisinin yazdığı "Məhəbbətnamə", "Novnamə" ("Yuxu haqqında kitab"), "Ərşnamə", "Cavidannamə" ("Cavidani-Kəbir" – Əbədilik kitab) və s. əsərlərində öz əksini tapmışdır. Hürufi təliminin nəzəri əsaslarını özündə əks etdirən bu kitabı hürufilər səmavi kitablarla (Tövrat, Zəbur, İncil, Qurani-Kərim) bir sıraya qoyurdular.

Hürufilik təlimi, onun ideyası haqqında mənbələrdə qeyd olunur ki, Hürufilik Allahın təbiətdə, əşyada, sözdə, xüsusən, insanda təcəssümünü əsas götürürdü. Buna görə hürufilər Allahın Fəzlullah Nəimidə təcəssüm etdiyinə inanırdılar. Hürufilər deyirdilər ki, hökmdarlar və din-şəriət xadimləri ədalətsiz, qaniçən və riyakardırlar. İnsanları ədalətə qovuşdurmaq üçün yeni tipli hökmdar, kamil insan lazımdır. Belə insan isə Fəzlullahdır. Fəzlullah Allahın timsalı, onun naibi və əvəzidir. O öz qüvvəsi ilə ədalətsizliyi, qanlı müharibələri, zülmü, işğalçılığı, soyğunçuluğu aradan qaldıracaq, dini ehkamların mənasız qanun-qaydalarını, oruc, namaz, məscid xurafatını ləğv edəcəkdir. Göründüyü kimi, bu cərəyan fəal fəlsəfi panteizmə əsaslanır və praktik sosial-siyasi məqsəd güdürdü. Deməli, hürufilər Allahın təcəssümünü, Allah şəklində olan kamil insanları qəsbkar, zalım hökmdarlara qarşı qoyurdular. Başqa sözlə, bu dövrdə teymurilər zülmünə qarşı geniş xalq kütlələrinin azadlıq mübarizəsinə sərbadarlar (insan azadlığı üçün başlarından keçənlər), müxtəlif ideoloji cərəyanın başçıları rəhbərlik edirdilər. Həmin ideoloji cərəyanın başçılarından biri də Fəzlullah Nəimi idi [1, s. 356].

Hürufilik ilk dəfə Naxçıvanda, Astrabadda yayılmış, Teymurilərə qarşı mübarizədə əhəmiyyətli rol oynamışdı. Bu təlimin təşkilatlanması XIV əsrin sonlarında başlanmışdı. Fəlsəfi-dini qaynaqlar kimi Orta və Yaxın Şərqin fəlsəfəsindən bəhrələnmiş hürufiliyin əsas nümayəndələri şəhər ziyalıları və kəndlilər idi. Hürufilərin sırasından Fəzlullah Nəimi, İmadəddin Nəsimi, Süruri, Əbdülhəsən Əli ül-Əla kimi görkəmli şəxsiyyətlər yetişmişdi. Bu kimi şəxsiyyətlərin timsalında hürufilik ərazi baxımından da sərhədlənməmiş və geniş bir ərazini – İranı, Azərbaycanı, Suriyanı, Osmanlı imperiyasını əhatə etmişdi. Görkəmli nümayəndələrinin vasitəsi ilə hürufilik müsəlman şərqinin müxtəlif ölkələrində yayılır və özünə yeni tərəfdarlar toplayırdı. Azərbaycanda, bütövlükdə müsəlman şərqində özündən sonrakı bütün təriqətlərə təsir göstərmiş ən böyük cərəyanlardan biri olan bu cərəyanın ardıcılları və tərəfdarları istilaçılar tərəfindən amansızcasına təqib olunurdular. Fəzlullah Nəimi 1394-cü ildə Teymurun əmri ilə Miranşah tərəfindən həbsə alınaraq, Naxçıvandakı Əlincə qalasına aparılır və orada faciəli surətdə edam edilir. Hamıya ibrət olsun və qorxsunlar deyə Fəzlullah Nəimini əl və ayaqlarından başlayaraq

parça-parça edirlər. Bundan sonra hürufilik cərəyanının məşhur nümayəndələri Azərbaycandan didərgin düşərək başqa ölkələrə gedirlər. Hürufiliyin digər görkəmli nümayəndələri – məşhur Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsimi, Əbdülhəsən Əli ül-Əla və başqaları idi. Bunların başçılığı ilə hürufilər Türkiyə ərazisində fəaliyyət göstərmiş və türk dilində geniş ədəbiyyat yaratmışlar. Hürufiləri daim təqib edən islam dininin amansız müridləri 1417-ci ildə Suriyanın Hələb şəhərində Nəsiminin diri-diri dərisini soyurlar.

"Səfəviyyə", "Bəktaşiyyə" və Hürufilik təriqətlərinin üçü də şiəlik təliminə əsaslandığından onlar Naxçıvanda birgə fəaliyyət göstərmişlər. Bəktaşi və Hürufi dərvişləri XV yüzillikdə "Səfəviyyə" şeyxləri ilə sıx əlaqədə olmuş, Qızılbaş dövlətinin yaranması prosesində yaxından iştirak etmişlər. Eyni zamanda, 1501-ci ildə Səfəvilər dövləti yarandıqdan sonra "mürşidi-kamil" hesab olunan Səfəvi şahlarının şiəliyə əsaslanan digər sufi təriqətlərini, o cümlədən bəktaşiləri və hürufiləri himayə və müdafiə etməsi onların birgə yaşayışını və fəaliyyətini şərtləndirən əsas amillərdən biri olmuşdur.

Qeyd etmək lazımdır ki, "Bəktaşiyyə" təriqəti ilə hürufilərin arasında bu sıx əlaqələrin tarixi hələ XIV əsrin sonu – XV əsrin əvvəllərindən yaranmışdır. Məlumdur ki, Fəzlullah Nəimi qətlə yetirildikdən sonra Teymurilər tərəfindən təqibə məruz qalan hürufilərin bir hissəsi  canlarını qurtarmaq üçün Anadoluya getdi. Onlar burada möhkəmlənərək yüksək nüfuz qazandılar. Hürufi dərvişlərinin bir çoxu "Qələndəriyyə" təriqətinə məxsus təkkələrə (xanəgahlara) sığınaraq onlarla birlikdə öz ideyalarını yaymağa başladılar. Hətta Sultan Mehmet Fateh zamanında Hürufi təlimi Osmanlı sarayına da daxil ola bildi. Hürufilər qələndərilər vasitəsi ilə ən yüksək Bəktaşi övliyaları arasına girə bildilər və təqdis olunmağa başladılar [117, s. 375].

Artıq XVI-XVII əsrlərdə Hürufilik Bəktaşiliyin əsas görüşlərindən birinə çevrilmiş, xalq arasında geniş yayılmışdır. Hürufilik bir tərəfdən bəktaşilərlə, digər tərəfdən də müstəqil olaraq özünə ardıcıllar yetişdirməkdə davam etmişdir. Beləliklə, hicri X (miladi XVI) əsrdə yaşayan Bəktaşi dərvişlərində hürufilik təlimi ön planda olmuşdur. Hələ XVI yüzillikdə yaranan bu isti münasibətlər sonralar Naxçıvana gələn bəktaşilərlə yerli hürufilərin arasında əlaqələrin yaranmasını və onların birgə fəaliyyətini şərtləndirmişdir.

Əvvəl "Səfəviyyə" şeyxlərinin, Qızılbaş dövlətinin təşəkkülündən sonra isə "Mürşidi-kamil" Səfəvi şahlarının himayəsində olan bu təriqətlər Naxçıvanda əvvəldən mövcud olan və sonralar yaradılan bir sıra sufi mərkəzlərində - dərviş məskənləri olan xanəgahlarda səmərəli fəaliyyət göstərmişlər. Belə mərkəzlərdən biri də Culfa bölgəsinin Xanəgah kəndində indi də qalan xanəgah olmuşdur. Bu xanəgahda "Səfəviyyə" təriqəti və Səfəvi şahları tərəfindən xüsusi diqqət göstərilən və himayə edilən bəktaşilər və hürufilər Səfəvi dərvişləri ilə bir yerdə yaşamış və Səfəvi dövlətinə xidmət edərək onların ideyasını yaymışlar.

## 11. Mədəniyyət

**Maarif.** XIII yüzillikdə Naxçıvanda təhsil sisteminin əsasını məktəblər və mədrəsələr təşkil edirdi. Uşaqlar 5-6 yaşlarında məktəblərə qəbul edilir, 15 yaşınadək burada oxuyur, yazı vərdişlərinə yiyələnir, ayrı-ayrı fənlər haqqında məlumat alır, Qurani-Kərimi öyrənirdilər. Bu dövrdə bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da yetim uşaqların oxuması üçün "Beyt ət-təlim" adlanan məktəblər mövcud idi. Burada hər 10 uşağa bir tərbiyəçi – atabəy təhkim olunurdu. Onlar uşaqların təlimi, tərbiyəsi və yaşayışı ilə məşğul olurdular. Ərazidə mövcud olan xanəgahlarda, zaviyələrdə, məscidlərdə və "Dar ül-Quran" adlanan yerlərdə dini ehkamlar tədris olunur, Quran oxunması öyrədilirdi. Həmçinin, təhsilin "Məzhər" forması da fəaliyyət göstərirdi. Burada hər bir ustad bir və ya bir neçə şagirdə ayrı-ayrı fənlərdən dərs demək əvəzinə, onlara ümumi rəhbərlik edir, şagirdlər isə müstəqil şəkildə elmin müxtəlif sahələri ilə məşğul olur, vaxtaşırı ustadın yanına gedib məsləhət alır, onun mühazirələrini dinləyirdilər.

Məktəbləri bitirən uşaqların bir hissəsi təhsillərini mədrəsələrdə davam etdirirdilər. Mədrəsələr mütəvəllilər tərəfindən idarə olunur, onların fəaliyyətinə isə nəzzarlar nəzarət edirdilər. Mədrəsələrin xərcləri vəqflər hesabına ödənilirdi. Təhsil iki müdərris tərəfindən aparılırdı. Onlardan biri şəriət dərslərini, digəri isə dünyəvi fənləri tədris edirdi. Müdərrislər layiqli ruhanilər – fəqihlər yetirməyə çalışırdılar. Onlar hər bir fəqihə fərdi yanaşmalı, hər kəsi öz bacarığına və zəkasına görə qiymətləndirməli idilər. Fəqihlərin öz dərslərini mənimsəmələrində müridlər əsas rol oynayırdılar. Onlar fəqihlərin ev tapşırıqlarını yerinə yetirmələrinə kömək edir, eyni zamanda, hər bir fəqihin şəxsi keyfiyyətlərini öyrənir və bu barədə müdərrisə məlumat verirdilər. Hər bir müridə 10 fəqih təhkim olunurdu. Bacarıqlı fəqihlər imamlara təhkim olunurdular. Mədrəsələrdə kitabxanalar mövcud idi ki, burada xazin, mübəddil və s. işçilər çalışırdılar [80, s. 55-61].

Dövrümüzədək Naxçıvan mədrəsələri, mədrəsələrdə müəllim-tələbə münasibətləri, orada tədris olunan fənlər və s. haqqında dəyərli məlumat verən qiymətli bir sənəd gəlib çatmışdır. "Mənşur-i təqrir-i tədris-i mədrəsə-i Naxçıvan" ("Naxçıvan mədrəsələri tədrisinin təsdiqinə dair fərman") adlanan bu sənəd Elxani hakimləri tərəfindən imzalanmış fərmandır. Müəllifi Elxanilər sarayında baş vəzir işləmiş Şəmsəddin Məhəmməd Cüveyni olan bu fərman Azərbaycan Atabəyləri zamanında Naxçıvan şəhərində inşa edilmiş iki mədrəsə haqqındadır [36; 119].

1263-1284-cü illlər arasında yazılması müəyyən edilən bu fərman ilk növbədə Azərbaycanda məktəb və mədrəsələrin olmaması haqqında fikirləri puça çıxarır və Naxçıvanda, geniş miqyasda isə bütün Azərbaycanda və müsəlman şərqində məktəb və mədrəsələrin olduğunu qəti şəkildə təsdiq edir. Professor İ.Mollayev yazır ki, Naxçıvan mədrəsələrinin tarixi Atabəy Məhəmməd Cahan Pəhləvanın anası, Şəmsəddin Eldənizin arvadı Möminə xatının şərəfinə Naxçıvan

şəhərində inşa edilmiş türbənin (1186-cı il) və 1162-ci ildə inşa edilmiş Yusif Küseyr oğlu türbəsinin tarixi ilə çox müvafiq gəlir. Bu, onu sübut edir ki, Azərbaycanın ayrılmaz bir hisəsi olan Naxçıvanda hələ XII əsrin sonlarından məktəb və mədrəsələr olmuş, XIII əsrin ilk rübündə isə dağıntılara məruz qaldığından həmin fərmanla yenidən bərpa etdirilmişdir [51, s. 72].

Azərbaycanda məktəb tarixini öyrənmək üçün çox əhəmiyyətli bir qaynaq olan "Mənşur-i təqrir-i tədris-i mədrəsə-i Naxçıvan" fərmanı konkret olaraq islamın intibah dövründə Naxçıvanda və bütövlükdə Azərbaycanda məktəblərin, tədrisin vəziyyəti haqqında əsaslı fikir söyləməyə imkan verir. Əvvələn, bu fərmanda Azərbaycan mədrəsələrində oxuyan tələbələr və dərs deyən müəllimlər qarşısında duran vəzifələr dəqiq müəyyən edilmişdir. Fərmana görə müəllim-müdərris aşağıdakı şərtlərə əmələ etməlidir: çalışqan tələbələri öz ruhani oğlu hesab etməli, tədris və təlim zamanı şagirdlərə əziyyət verməməli, onları yormamalıdır. Şagirdlərin təbiəti, istedadı və bilik dərəcəsi müxtəlif olduğundan müdərris hər şagirdin fərdi xüsusiyyətini nəzərə alaraq ona fənn təyin etməli və onun şəxsi xüsusiyyətinə müvafiq dərs verməlidir. Müdərris dərsləri asan anlaşılacaq bir tərzdə aparmalıdır. Təhsilə yeni başlayan şagirdlərdə mübahisəyə çox meyl olduğundan onlar elmin əsaslarını öyrənmək əvəzinə bir neçə məsələni öyrənməklə kifayətlənir. Hiylə və mübahisələr ilə özünü bilici göstərməyə çalışır. Müdərris buna yol verməməlidir. Həftədə bir gün şagirdlər arasında keçirilən dərslərin müzakirələri keçirilməli, öyrənilən dərslərin mənimsəmə dərəcəsini yoxlamaq üçün müdərris ayda bir dəfə imtahan təşkil etməli, dərslərini yaxşı oxuyan tələbələri başqalarına tanıtmalıdır [36, s. 1271].

Müdərrislər qarşısında belə konkret vəzifələr qoyan fərman onun ardınca şagirdlərin də vəzifələrini müəyyənləşdirmişdir. Şagirdlər fərmana görə aşağıdakı şərtlərə əməl etməli idilər: 1) fərmanda göstərilən şərtləri həyata keçirən müdərrisi digərlərindən üstün tutmalıdırlar; 2) elm təhsil etmək istəyən şagird tənbəllik və səhlənkarlıqdan uzaq olmalıdır, dərsləri təkrar etməkdən yorulmamalıdır; 3) dərs zamanı diqqətli olmalı, anlaşılmayan məsələyə dair sual verməkdən çəkinməməlidirlər; 4) şagirdlər keçən dərsi mənimsəmədən yeni dərsə başlamamalıdır, 5) şagirdlər yalnız elm təhsili ilə kifayətlənməyib, eyni zamanda, əxlaq təmizliyinə və doğruluğa da diqqət verməlidir [36, s. 1271].

Sovet pedaqogika elmində uzun müddət "Ədəb qaydaları"nın ilk dəfə tərtib edilməsini çex-slavyan pedaqoqu Y.A.Komenski, Y.Slavinetski və Yankoviçin (XVII yüzillik) adları ilə bağlasalar da, bu həqiqətə uyğun olmamışdır. Çünki fərmandan da göründüyü kimi bu pedaqoqlardan bir neçə əsr əvvəl Naxçıvanda davranış və ədəb qaydaları tərtib edilmiş və bu qaydalar Naxçıvan mədrəsələrində geniş tətbiq olunmuşlar [52, s. 173-174; 53, s. 72]. Həmçinin, qeyd olunan pedaqoqlar özlərinin "Ədəb qaydaları"nı yaradarkən, ancaq tələbələrə aid qaydaları, onlara verilən tələbləri ön plana çəkmiş, tələbələrin qarşısında qoyulan vəzifələrə

diqqət yetirmişlər. Ancaq Naxçıvan mədrəsələrinə dair verilən bu fərmanda isə tələbələrin vəzifələri konkret şəkildə müəyyənləşdirildiyi kimi, müəllim-müdərrislərin vəzifələri də hərtərəfli əks etdirilmiş, aydın şərh olunmuşdur.

Fərmanın əhəmiyyəti bir də ondadır ki, o, XIII yüzillikdə mədrəsələrdə tədris olunan fənlər haqqında dəyərli məlumat verir və aydın olur ki, mədrəsələrdə din elmləri ilə yanaşı, dünyəvi elmlər də tədris olunurmuş. Həmin vaxt məktəblərdə, xüsusilə mədrəsələrdə tədris olunan dərslikləri təxmini olaraq üç yerə bölmək olar: 1. Azərbaycanda çap olunanlar; 2. Azərbaycandan kənarda çap olunanlar; 3. Başqa dillərdə çap olunanlar.

Müəllifi böyük mülkədar, eyni zamanda Elxanilər dövlətində maliyyə işlərini idarə edən, sahib-divan – baş vəzir Şəmsəddin Məhəmməd Cüveyni olan fərmanı təhlil edərək Ə.Hüseynzadə bu fikrə gəlir ki, fərmanın belə bir məşhur və yüksək vəzifəli şəxs tərəfindən yazılması bu mədrəsələrin vəqflə əlaqədar olmasından irəli gəlir. Müsəlman şərqində mədrəsələr vəqf hesabına fəaliyyət göstərdiyindən, Elxanilər dövründəki vəqflərin maliyyə məsələləri isə sahib-divan Şəmsəddin Məhəmməd Cüveyninin nəzarəti altında olduğundan mədrəsələrə nəzarət və onların idarəsi də bir vəzifə olaraq ona tapşırılmışdı. Fərmandan bu da aydın olur ki, həmin vaxt Naxçıvan mədrəsələrində tədris işlərini Qəvaməddin adlı bir şəxs idarə edirmiş [36, s. 1271].

Bəhs olunan dövrdə Naxçıvanda iki növ mədrəsə fəaliyyət göstərmiş, Yaxın və Orta Şərqin bir sıra ölkələrindən uşaqlar gəlib orada təhsil alıb vətənlərinə qayıtmışlar [53, s. 93]. Qaynaqlar təsdiq edir ki, Naxçıvan şəhərində “Mədrəseyi-Bəhtaniyyə” və “Mədrəseyi İrşadiyyə” adı ilə fəaliyyət göstərən mədrəsələrdə təkcə dini dərslər keçirilməmiş, orada dünyəvi fənlərin tədrisinə də geniş yer verilmişdir [60].

Bu mədrəsələrin tələbələri içərisindən görkəmli alimlər yetişmiş, onlar Azərbaycanın və Yaxın Şərqin bir sıra elm və mədəniyyət mərkəzlərində fəaliyyət göstərmişlər. Məsələn, Gəncə kitabxanasının müdiri işləmiş, naxçıvanlı alim Həddad ibn Bekran Əbül-Fəzl ən-Nəşəvi ilk təhsilini Naxçıvan mədrəsələrində almış, sonra müsəlman şərqinin mühüm elm və təhsil ocaqlarında oxuyaraq elmdə yüksək zirvələr fəth etmişdir. Onun rəhbərlik etdiyi Gəncə kitabxanası Bağdaddakı “Beytülhikmə” kimi elmi müəssisə funksiyasını daşımışdır. Yetirmələri sırasından belə məşhur bir alimin çıxması Naxçıvan mədrəsələrində təhsilin yüksək səviyyəsindən xəbər verir.

Naxçıvan şəhərindəki təhsil müəssisələri XIV-XV yüzilliklərdə də öz fəaliyyətini davam etdirmişdir. Həm də bu mədrəsələr şəhərin sosial-siyasi və ideoloji həyatında mühüm rol oynamışlar. Məhz bu səbəbdən də həmin mədrəsələr orta əsr müəlliflərinin diqqətini cəlb etmiş, onlar öz əsərlərində Naxçıvan şəhəri haqqında verdikləri qısa qeydlərində belə, oradakı mədrəsələr haqqında məlumat verməyi vacib saymışlar. Orta əsr tarixçisi və coğrafiyaşünası Əbdürrəşid əl-Bakuvi

Naxçıvan şəhəri haqqında bəhs edərkən yazır ki, "şəhər düzənliyin ortasında yüksək bir yerdə bina olunub. Bu yerdən Araz çayı görünür. Bağlı, bostanlı, meşəli, meyvəli və çörəkli yerdir. Havası təmiz, suyu şirindir. Orada məşhur binalar, mədrəsələr və xanəgahlar var" [14, s. 132].

Qaynaqların, ədəbiyyat materiallarının verdikləri məlumatlara və Ordubad şəhərində zəmanəmizədək qalan orta əsr mədrəsə nümunəsinə əsasən deyə bilərik ki, onlar, adətən xüsusi şəkildə inşa olunmuş bir və ya iki mərtəbəli binalarda yerləşmişlər.

**Elm**. XIII-XV əsrlərdə Naxçıvan nəinki Azərbaycanın, bütövlükdə Şərqin elm və mədəniyyət mərkəzlərindən biri olaraq qalmışdı. Bunun əsas səbəblərindən biri Naxçıvanın da daxil olduğu Hülakülər dövlətində təhsilə, elmə diqqət verilməsi, xüsusilə dövlətin baş vəziri Şəmsəddin Cüveyninin həyata keçirdiyi tədbirlərin elmin inkişafı üçün münbit şərait yaratması idi. Ona görə də XIII-XV yüzilliklərdə Naxçıvandan bir sıra görkəmli alimlər yetişmiş və onlar Azərbaycanın daxil olduğu Hülakülər və Cəlairilər dövlətlərinin əhatə etdiyi ərazilərdə, həmçinin dünyanın bir sıra ölkələrində tanınmış və məşhurlaşmışdılar.

Bu baxımdan əslən Naxçıvandan olan görkəmli ensiklopedik alim Xacə Məhəmməd Nəsirəddin Tusinin (1201-1274) adını ilk növbədə qeyd etmək lazımdır. Nəsirəddin Tusinin atası Firuzşah gənc yaşlarında təhsil almaq üçün Ordubaddan Tus şəhərinə getmiş, orada yaşamışdır. Tusda anadan olan və orada təhsil alan Nəsirəddin də "Tusi" nisbəsini qəbul etmişdir. Ancaq Tusinin xələflərinin bəziləri sonradan doğma yerlərə qayıtmış və orada sələflərinin yanında – Naxçıvanda və Ordubadda məskunlaşmışlar. Elmdə çox böyük nailiyyətlər qazanan Nəsirəddin Tusinin bir alim kimi fəaliyyətində 1259-cu ildə yaratdığı Marağa rəsədxanası mühüm yer tutur. Tusi ilə birlikdə Azərbaycanın və dünyanın bir sıra görkəmli alimləri çalışdığı, 400.000 əlyazmaya malik kitabxanası olan və 100-dən artıq alimin fəaliyyət göstərdiyi rəsədxana qısa müddətdə Şərqin ən böyük və mükəmməl elmi-tədqiqat mərkəzlərindən birinə çevrilmiş, Avropa elminin inkişafına, Uluqbəy, Çaypur, Pekin və bir çox Qərb ölkələrinin rəsədxanalarının elmi fəaliyyətinə böyük təsir göstərmişdir. Alimin dövrümüzə qədər çox zəngin elmi irsi gəlib çatmışdır. Onun bir sıra əsərləri, o cümlədən "Zic Elxani" ("Elxani cədvəlləri"), "Üstürlab" ("Astrologiya"), "Şəkk ül-qita" ("Kəsişmələr şəkli"), "Əxlaqi-Nasiri", "Cavahirnamə" və s. bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Xüsusən "Əxlaqi Nasiri" əsərindən uzun dövr ərzində mədrəsələrdə dərslik kimi istifadə edilmişdir. Bir çox elmi kəşfləri Avropa alimlərindən qabaq meydana çıxaran Nəsirəddin Tusi öz zamanında Şərq aləmində qüdrətli alim və böyük şəxsiyyət kimi qəbul olunmuşdur. Elmdə ucaldığı yüksək zirvəyə görə Nəsirəddin Tusinin qəbirüstü xatirə abidəsinin üzərində "Elmin köməkçisi, elm ölkəsinin şahı, dövr anası belə oğul hələ doğmamışdır" sözləri həkk edilmişdir [80, s. 62].

Naxçıvanın XIII əsr alimlərindən Qazı Nəcməddin Əhməd ibn Məhəmməd

Naxçıvaninin yaradıcılığı da diqqəti cəlb edir. O, elmdə bir çox nailiyyətlər əldə etmiş, hətta Əbu Əli İbn Sinanın "Tibb qanunu", "İşarələr və qeydlər" əsərlərinə şərh və tənqid də yazmışdır. Nəcməddin Naxçıvaninin şərhlərində "Qanun" əsərinin təhlili verilmiş, onun müsbət və qüsurlu cəhətləri göstərilmiş, hətta İbn Sinanın bir sıra nəzəri mühakimələri "köhnə" və "xülya" adlandırılmışdır. N.Naxçıvani 1206-cı ildə Hələbdə vəfat etmişdir.

Bundan başqa, 1206-cı ildə Naxçıvanda anadan olan, atasını itirdikdən sonra anası ilə Xoy şəhərinə köçən Həsən İbn Ömər Naxçıvani də çox geniş biliyə malik alim kimi diqqəti cəlb edir. Xoya hücum edən qıpçaqlar tərəfindən əsir alınan və 7 il qıpçaqların arasında qalan Həsən sonralar sufiliyə daxil olmuş, bu səbəbdən də 9 il Volqa bulqarları arasında, 3 il Buxarada, 27 il Kirmanda, 1 il Marağada yaşamış, nəhayət, Təbrizə gedərək ömrünün sonunadək orada qalmışdır. 1298-ci ildə vəfat edən Həsənin qəbirüstü sinədaşında həkk edilən kitabədə adına əlavə olunan "şeyx, arif, tədqiqatçı, aləmin qütbü, peyğəmbərlər varisi, qeybdən danışan, hər iki dünyada Allahın fikrinə vaqif olan, alimlərin yardımçısı, şeyxlər sülaləsinin sonuncusu" və sair bu kimi epitetlər onun görkəmli alim olduğunu sübut edir.

XIII yüzillikdə yaşamış naxçıvanlı alimlərdən Kamaləddin Əbülfəzail Məhəmməd ibn Əbülfəzail ən-Naxçıvani tibb sahəsində böyük şöhrət qazanmış, müayinə və müalicə üzrə zəngin biliyə malik şəxs olmuşdur. Yüksək həkimlik qabiliyyəti ilə yanaşı, yaxşı yuxu yozma bacarığı da olan Kamaləddin məşhur filosof, sufi şeyxi Qütbəddin əl-Əhərinin zaviyəsində yaşamış, ondan dərs almışdır.

Naxçıvanda yetişən görkəmli alimlərdən biri də dövrünün məşhur fəqihi (hüquqşünası) Fəxrəddin Əbülfəzl Məhəmməd ibn Deyləm ən-Naxçıvani (1279-cu ildə Giranda ölmüşdür) həm də tanınmış dövlət xadimi idi. Adlı-sanlı vəzirlər ailəsinə mənsub olan, monqolların hakimiyyətinə qədər və monqollar dövründə Naxçıvanda maliyyə divanında xidmət etmişdir. Sonradan o, Əhərə gedərək məşhur sufi şeyxi Qütbəddin Əbdülqadir ibn Həmzə əl-Əharidən dərs alaraq ona xidmət etmişdir. İbn əl-Fuvati onu Əhərdə və Marağada gördüyünü yazır və xüsusi olaraq qeyd edir ki, Nəsirəddin Tusi onu yüksək qiymətləndirmişdir [80, s. 65].

Naxçıvanda XIII yüzilliyin tanınmış hüquqşünaslarından biri də Abdulla ibn Əhməd ət-Tusi ən-Naxçıvani olmuşdur. Orta əsr müəlliflərindən İbn əl-Fuvatinin məlumatına görə o yaxşı həmsöhbət, insanların xahişini yerinə yetirməyə çalışan, gözəl xasiyyətli, imamlar və alimlər nəslindən olan bir şəxs idi [80, s. 65].

Məşhur şair və tərcüməçi, XIV əsrdə Naxçıvanda anadan olmuş İbn Savəci Məhəmməd Səd ibn Məhəmməd dövrünün görkəmli alimlərindən biri olaraq tanınmışdı. Bir sıra tədqiqatçılar ərəb və fars dillərini mükəmməl bilən İbn Savəcini ərəb dilində yazılmış "Bədrətül məani fi tərcümətül-məali" adlı mənzumənin müəllifi hesab edir. İbn Savəci əl-İstəxrinin "Məsalik əl-Məmalik" əsərini ərəbcədən fars dilinə tərcümə etmişdir.

XIV əsrin görkəmli ədəbiyyatşünaslarından Fəxrəddin Hinduşah Naxçıvaninin

oğlu görkəmli tarixçi Məhəmməd ibn Hinduşah Naxçıvani (1293-1375) XIV əsrin məşhur tarixçi alimlərindəndir. "Şəmsi ül-Münşi ən-Naxçıvani" təxəllüsü ilə yazıb-yaradan Məhəmməd Naxçıvani "Sihah əl-fors" əsərini yaxın dostu, məşhur tarixçi və dövlət xadimi Rəşididdinin oğlu Xacə Qiyasəddin Məhəmmədə həsr etmişdir. Onu ən çox məşhurlaşdıran isə 1360-cı ildə başa çatdırdığı "Dəstur əl-katib fi təyin əl-məratib" ("Vəzifələrin müəyyən edilməsinə dair katib təlimatı") əsəri olmuşdur. Zəngin elmi irsə malik olsa da, alimin əsərlərindən bizə ancaq adı çəkilən iki əsər gəlib çatmışdır. Məhəmməd Naxçıvani hərtərəfli elmə malik olmuş, tarix, dil, ədəbiyyat sahəsində sanballı əsərlər, şeirlər yazmış, həmçinin dövlət idarəçiliyində və dini işlərdə də tanınmışdır.

Naxçıvan bölgəsinin yetirmələrindən olan və həyatının bir hissəsini Naxçıvanda keçirən məşhur alimlərdən, sufi şeyxlərindən biri hesab edilən Baba Nemətullah Naxçıvani zəmanəsinin məşhur alimlərindən idi. Məşhur alim Məhəmmədəli Tərbiyyət "Danışməndani - Azərbaycan" əsərində qeyd edir ki, Baba Nemətullah Naxçıvani Şeyx Mahmud Naxçıvaninin oğlu, hicri-qəməri IX (miladi XV) əsr ariflərindən və şeyxlərindəndir [103, s. 36]. Baba Nemətullah Naxçıvani uşaq yaşlarından islami elmləri öyrənməyə başlamış, həmin vaxtlardan özünün əqli, zəkası və digər müsbət keyfiyyətləri ilə diqqəti cəlb etmişdir. Gənclik illərində zəmanəsinin bir çox alimlərindən, o cümlədən məşhur alim Xacə Mahmud Parsandan dərs almış və özü də qısa bir zamanda hicri IX (miladi XV) yüzilliyin məşhur alimlərindən birinə çevrilmişdir. Qələmindən çıxmış əsərlər onun çox yüksək səviyyəli bir alim olduğunu göstərən sanballı qaynaqlardır [98, s. 247].

Baba Nemətullah Naxçıvani hicri 905-ci ildə (miladi 1499) Təbrizi tərk edərək Anadoluya gedir və Qaraman vilayətinin Akşehir qəsəbəsində məskunlaşır. Akşehirdə təxminən 15 il yaşayan Baba Nemətullah 1514-cü ildə vəfat etmiş və orada da dəfn olunmuşdur. Onun ölüm tarixi haqqında başqa bir məlumat vardır. Məhəmmədəli Tərbiyyətin fikrincə, Baba Nemətullah Naxçıvani hicri 902-ci ildə (miladi 1495) vəfat etmişdir [103, s. 37].

Baba Nemətullah Naxçıvani bir neçə qiymətli elmi əsər yaratmış və bəzi orta əsr müəlliflərinin əsərlərinə şərhlər yazmışdır. Onun əsərlərində Qurani-Kərim insanlığın və eyni zamanda müsəlmanların həyatının ictimai-iqtisadi, siyasi, ailəvi, fərdi və dini həyat tərzlərini müəyyənləşdirən və hüquqi şəkildə əsaslandıran mükəmməl bir təlim kimi geniş təhlil edilmişdir [98, s. 251].

Dövrün qaynaqları Naxçıvan bölgəsində doğulub boya-başa çatan, sonradan dünyanın bir sıra ölkələrində yaşayıb-yaradan digər alimlərin də adlarını bizə çatdırır. Bunlardan ədib və həkim Fəxrəddin Əhməd ibn Aribşah ibn Əli ibn Cəbrayıl ən-Naxçıvanini, görkəmli qazı, qanunşünas, islam şeyxlərinin şeyxi Əlaəddin Əbu Abdulla Məhəmməd ibn Əli ən-Naxçıvanini, Qurani-Kərimin mahir oxucusu (hafizi) Fəxrəddin Əbülqasim Əli ibn Tamam ibn Xələf ən-Nəsibi ən-Naxçıvanini və başqalarını qeyd etmək olar [80, s. 66].

**Ədəbiyyat**. Zəngin ədəbi ənənələrə malik olan Naxçıvan diyarında XIII əsrdən etibarən ədəbiyyat yeni istiqamətdə inkişaf etməyə başlayır. Bir tərəfdən ümumazərbaycan ədəbiyyatında olduğu kimi, Naxçıvanda da anadilli yaradıcılıq geniş yer tutmuş, digər tərəfdən isə dövrün ictimai-siyasi ab-havasına uyğun olaraq zamana fəal münasibət ifadə edən ədəbiyyat yaranmışdır.

İstilalar zamanı XIII-XIV əsrlərdə Naxçıvan ərazisi müharibələr meydanına çevrilsə də, ölkə böhran içində olsa da əvvəlki ədəbi ənənələrə istinad edən mövcud ədəbi vəziyyət öz inkişafını davam etdirirdi. Bu dövr üçün başlıca ədəbi-fəlsəfi istiqamət istilalara qarşı mübarizə və insan azadlıqlarını önə çəkən fəlsəfi təriqətlərin inkişaf tapması idi. Belə bir vaxtda Naxçıvanda görkəmli simalardan biri olan Fəzlullah Nəiminin başçılığı altında hürufilik təlimi yayılmağa başlayır və ədəbi inkişafa öz qüvvətli təsirini göstərirdi. Fəzlullah Nəimi Yaxın Şərq ədəbiyyatını, Şərq və yunan fəlsəfəsini, din tarixini dərindən öyrənmişdir. Gözəl şeirlər müəllifi olan Nəiminin şeirlərinin bir qismi Sankt-Peterburqda, qəzəl, tərcibənd, qitə və rübailərindən ibarət olan divanının əlyazması isə İstanbuldadır. Mərhum şərqşünas alim, professor Rüstəm Əliyev Nəiminin farsca "Divanı"nı Nəsimi "Divanı" ilə birlikdə bir cilddə 1975-ci ildə Tehranda nəşr etdirmişdir.

Fəzlullah Nəiminin "Cavidani-kəbir" ("Böyük əbədiyyət"), "Cavidani-səğir" ("Kiçik əbədiyyət"), "Məhəbbətnamə", "Növnamə" ("Yuxu haqqında kitab"), "Ərşnamə", "İsgəndərnamə", "Vəsiyyətnamə" adlı əsərləri və "Divan"ı vardır. Filosof-ədibin başlıca əsəri "Cavidani-Kəbir" hesab edilsə də, əsas bədii məzmun və əhəmiyyət kəsb edən əsəri "İsgəndərnamə"dir. Şərq ədəbiyyatında müəyyən yer tutan, böyük ustad Nizami Gəncəvi tərəfindən də qələmə alınan "İsgəndərnamə" əsərindən fərqli olaraq Fəzlullah Nəimi öz görüşlərinə uyğun olaraq böyük sərkərdə olan İsgəndərin dirilik suyu axtarması süjetinə üstünlük vermişdir. Əsərdə dirilik suyu axtaran İsgəndər onu tapmaq üçün vəziri Ağıla müraciət edir. Ağıl isə hökmdardan möhlət istəyərək bir müdrik qocanı tapır və ondan dirilik suyunun yolunu öyrənir. Adından da göründüyü kimi Ağıl əsərdə hikmətin, fəlsəfə və müdrikliyin rəmzi, qoca isə xalq müdrikliyinin, xalqın bilik xəzinəsinin simvoludur. Bu da əsərin müəllifi Fəzlullah Nəiminin xalq ədəbiyyatı və klassik irsdən uğurla faydalandığını nümayiş etdirir.

Fəlsəfi-təriqətçi şeirin görkəmli nümayəndələrindən biri olan Bayrək Quşçuoğlu da Naxçıvan mənşəli sənətkardır. Yaşadığı illər dəqiq bəlli olmasa da, onun XIV əsr şairi olduğu məlumdur. Bayrək Quşçuoğlu əsərlərində Naxçıvanla bağlılığını müxtəlif formalarda nəzərə çarpdırmışdır. Şeirlərindən birində deyilir:

Üzümdilin dik dabanı,
Yeddi qədəm qız qapanı.
Əlüncəvü Naxçıvanı,
Ordubadları istərəm.

Mənbələrə görə, Bayrək Quşçuoğlu yaradıcılığında klassik sufi təlimlərini

davam etdirən bir sənətkar olaraq qeyd edilir. Əhli-haqq təriqətinə aid olduğu bildirilən Bayrək Quşçuoğlu bir sıra yerlərlə bərabər uzun müddət Naxçıvanda yaşamış, fəaliyyət dairəsi əsas Mərənd və Naxçıvan ətrafını əhatə etmişdir. Bayrək Quşçuoğlunun əsərləri anadilli Azərbaycan şeirinin ən qüdrətli nümunələrindən hesab olunur. Quşçuoğlunun əruz vəznli əsərləri heca vəzninə uyumluluğu ilə diqqəti cəlb edir. Onun az bir qisim də olsa xalq şeiri şəklində yazılmış gəraylıları xəlqilik baxımından xüsusi əhəmiyyətə malikdir. Əsərlərindən də görünür ki, Bayrək Quşçuoğlu dünyagörüşü etibarilə Azərbaycanda boy atıb yayılmış sufilik, hürufilik, əhli-haqq kimi təriqətlərlə bağlı sənətkardır. Yaradıcılığının dili, üslubu və pafosu etibarilə Yunus Əmrəyə, Şah İsmayıl Xətaiyə oxşarlıq kəsb edir. Ədib ana dili olan türk dilinə hədsiz doğmalıq və sevgi nümayiş etdirir. Yaradıcılığında ana dilinə üstünlük verən Quşçuoğlu hətta bəzi dini ayinlərin ana dilində icra olunmasının tərəfdarı kimi də çıxış edir:

Əgər türki söylər olsam, düşər ərənlər beyninə,
Neçün sizə aci gəlir dadlı sözün həlavəti.
Münkir nədir, Quşçuoğluna deyə mücəvvət söyləmə,
Məgər deyə bilmərəm mən türki dildə müsəvvəti?!

Göründüyü kimi, ana dilinə hədsiz sevgi ilə yanaşan şair onu həm ədəbi, həm də dini baxımdan fikirlərin ən kamil ifadəçisi kimi tanıtdırır. Bayrək Quşçuoğlu özünün ana dilində yazılmış kamil əsərləri ilə ədəbi dilimizin inkişafına öz töhfələrini verən, ana dilinin ictimai fəallığına yaradıcılığında həssaslıqla yanaşan bir şəxsiyyət olaraq yadda qalır.

Beləliklə, XIII-XV əsrlərdə Naxçıvan Azərbaycan ədəbiyyatının inkişafında mühüm yer tutan əsas mərkəzlərdən biri olaraq tanınmışdır. Bədii ədəbiyyatda klassik lirika ənənələri ilə yanaşı, ictimai motivlərin qüvvətlənməsi bu dövr Naxçıvan ədəbi mühitinin səciyyəvi xüsusiyyəti kimi diqqəti cəlb edir.

**Epiqrafik abidələr**. Naxçıvan ərazisində XIII-XV əsrlərə aid çoxlu sayda epiqrafik abidə gəlib çatmışdır. Bu abidələr əsasən inşaat və başdaşı, sənduqə, qismən də qoç və qoyun fiquru tipli qəbirüstü xatirə abidələri üzərində həkk edilmiş məzar kitabələrindən ibarətdir. Ərazidə bu dövrə qədər qalan maraqlı və elmi cəhətdən əhəmiyyətli kitabələrdən biri Culfa bölgəsinin Xanəgah kəndinin şərq tərəfində yerləşən Xanəgah kompleksindəki kitabələrdir. Burada qeydə alınan ən qədim kitabə kompleksin əsasını təşkil edən türbənin cənub tərəfdən olan giriş qapısının baş tərəfində qoyulan kitabədir. Səkkiz sətirdə nəsx xətti ilə ərəb dilində həkk edilən kitabənin mətninin tərcüməsi belədir: "Bu müqəddəs, mübarək türbənin tikilməsinə öz xüsusi malı hesabına əmir, isfəhsalar, hörmətli, qüdrətli, böyük alim, adil, dinin və dövlətin xoşbəxtliyi, islam və müsəlmanların gözəlliyi, hökmdarların və sultanların qılıncı, hər iki müqəddəs yerin (Məkkə və Mədinə şəhərləri) şöhrəti, Həccə gedən zəvvarın və iki müqəddəs, mübarək məkanın dayağı Uluğ Qutluğ Lələ bəy – Allah onun kölgəsini əsirgəməsin – əmr etdi. Bu imarətin memarı hörmətli və

alicənab Xacə Cəmaləddindir…” [92, s. 28; 127, s. 381].

Kitabənin axırıncı sətri tamamilə ovulub töküldüyü üçün onun tarixini dəqiq müəyyən etmək mümkün deyildir. Kitabədə türbəni tikdirən şəxsin adına əlavə edilən “isfəhsalar” və “böyük alim” titulu göstərir ki, o yüksək vəzifə sahibi (baş komandan) və böyük alim olmuşdur. Lakin türbənin kimin şərəfinə inşa edildiyi kitabədə qeyd olunmamışdır. Memarlıq-konstruktiv formasına əsasən türbə XII-XIII əsrlərə aid edilir.

Kəngərli rayonunun Qarabağlar kəndindəki memarlıq kompleksinin üzərində bu günə qədər kitabələr də gəlib çatmışdır. Yeraltı sərdabədən və yerüstü türbədən ibarət olan Qarabağlar türbəsinin səthi bütünlüklə həndəsi ornamenti xatırladan kufi və nəsx xətli kitabələr ilə bəzədilmişdir. Kitabələrin yazılmasında firuzəyi kaşılı və qırmızı rəngli kərpiclərdən istifadə edilmişdir. Kərpiclər 1322-ci ildə inşa edilmiş Bərdə türbəsində olduğu kimi şaquli və üfüqi istiqamətdə hörülmüş və ərəb dilində kitabələr əmələ gətirilmişdir. Bu kitabələrin hamısı Quran ayələri və dini xarakterli kəlamlardır. Abidənin gövdəsində yaradılan iri həcmli rombların içərisində kufi xətlə yerinə yetirilmiş və dəfələrlə təkrarlanan kitabələrin mətni belədir: “Allahdan başqa Allah yoxdur. Məhəmməd – Allah ona yar olsun – Allahın elçisidir”. Türbənin portallarının dördünün də baş tərəfində yazılmış kitabələrin mətni eynidir: “Hakimiyyət qüdrətli və bir olan Allaha məxsusdur”. Firuzədə nəsx xətti ilə yazılmış kitabənin çox hissəsi zaman keçdikcə aşınaraq məhv olmuşdur. Ancaq kitabədə qalan bəzi sözlərin köməyi ilə onun mətnini, əsasən, bərpa etmək mümkün olmuşdur: orada Quranın 67-ci surəsindən I və II ayələr yazılmışdır. Türbənin memarlıq xüsusiyyətləri, kitabələrin yerinə yetirilməsi texnikası, oxşarlığı və s. əlamətləri göstərir ki, Qarabağlar abidəsi Bərdə türbəsinin memarı Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani tərəfindən XIV əsrdə inşa edilmişdir. Daha möhtəşəm olması, yetkinliyi, əzəməti, bədii memarlıq cəhətdən gözəlliyi və digər xüsusiyyətlərinə əsasən, demək olar ki, Qarabağlar türbəsi Bərdə türbəsindən sonra, memarın yaşının və sənətinin kamillik çağlarında, XIV əsrin 30-cu illərində yaradılmışdır.

Kompleksə daxil olan qoşa minarəli baştağın üzərində əvvəli dağılmış kitabə qalmışdır. Mətni belədir: “Bu binanın (tikilməsini) ...Cahan Qudi xatın əmr etdi”. Fəzlullah Rəşidəddinin (XIII-XIV əsrlər) yazdığına görə Hülakü xanın arvadlarından birinin adı Qutuy xatın olmuşdur [147, s. 16]. Sarayda böyük nüfuza malik olan Qutuy xatın ağlı və bacarığı sayəsində oğlu Sultan Əhmədin hakimiyyəti dövründə (1282-1284-cü illər) [19, s. 18] dövlətin idarə olunmasında iştirak etmişdir [148, s. 104]. Fikrimizcə, kitabədə adı çəkilən Qudi xatın mənbələrdə Quti və ya Qutuy xatın şəklində xatırlanan qadınla eyni adamdır.

Kitabədə tarix qalmamışdır. Elmdə belə bir fikir vardır ki, Qarabağlar memarlq kompleksinə daxil olan qoşa minarələr XII yüzillikdə inşa edilmişdir. Hətta bu minarələrin Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilməsi

fikrində olanlar da vardır. Qoşa minarələri birləşdirən baştağın üzərində Qudi xatının adının qeyd edilməsindən aydın olur ki, baştağ qoşa minarəyə bu qadının yaşadığı XIII əsrdə əlavə edilmişdir.

Naxçıvan şəhərinin cənub tərəfində yerləşən Naxçıvanqala ərazisində aşkar edilmiş başdaşı tipli qəbirüstü xatirə abidəsinin baş tərəfində və səthinin kənar haşiyələrində iri və aydın hərflərlə dini xarakterli kitabələr həkk edilmişdir. Başdaşının mərkəzində yazılmış kitabənin mətninin tərcüməsi belədir: "Allahın rəhmətinə və behiştinə qovuşmuş, kiçik günahları bağışlanmış, mərhum, məqbul, qətlə yetirilmiş, böyüklərin qəlblərinin sevimlisi, gözəl əməllər, cəmiyyətdə fəzilət sahibi, aləmlərin Rəbbinin kəlamının (Quran-i Kərimin) hafizi, dövlətin və dinin günəşi mərhum Məhəmməd ibn Əhməd - sınanmış, yüksək ağıl sahibi, böyük sədr, əsil-nəcabətli, öncül (qabaqda gedən), ibadətə layiq bilinən, bəyənilmiş uca məqam. Zilqədə ayı, yeddi yüz qırx yeddinci il". Hicri-qəməri təqvimi ilə zilqədə ayı, 747-ci il miladi ilə 23.02. – 24.03.1346-cı ilə müvafiqdir.

Mərhum Məhəmməd Əhməd oğlunun şəxsiyyəti, onun yaşadığı dövrdə tutduğu mövqe hələlik aydınlaşdırılmasa da, kitabədə adına əlavə edilmiş çox yüksək titul və epitetlər onun dövrünün məşhur alimi, zəmanəsinin görkəmli simalarından olduğunu təsdiq edir. Onun daşıdığı "böyük sədr" titulu orta əsrlər zamanı görkəmli ruhani alimlər daşıyır və dövlət aparatında tutduğu vəzifəyə görə, əsas şəxslərdən biri hesab olunurdular [94, s. 66]. "Böyük sədr" vəzifəsi Hülakü dövlət aparatında da mühüm dövlət postlarından biri olmuşdur. "Böyük sədr" titulunu daşıması mərhum Məhəmməd Əhməd oğlunun zəmanəsinin mühüm mövqe və mənsəb sahibi olan şəxsiyyətlərindən biri olduğunu söyləməyə əsas verir.

Kitabənin tarixindən aydın olur ki, böyük sədr Məhəmməd Əhməd oğlu 1346-cı ildə qətlə yetirilmişdir. Bu dövr Azərbaycanda Hülakülərin hakimiyyətinin tənəzzülü, Çobani feodallarının faktiki hökmranlığı ilə səciyyələnir [80, s. 13]. Həmin vaxt, mərhumun qətlindən iki ilə əvvəl, qardaşı Həsən Çobani öldürüldükdən (1344) sonra Azərbaycanda hakimiyyəti ələ alan Çobani Məlik Əşrəf Hülakü şahzadəsi Ənuşirəvanı (1344-1355) padşah elan edib öz fəaliyyətini onun adı ilə əsaslandırır [80, s. 13]. Hətta, Naxçıvanda Ənuşirəvanın adından müxtəlif sikkələr kəsdirilir. Əldə olan sikkə nümunələri Naxçıvanda 1338-1347, 1350, 1353, 1356-cı illərdə Hülakülər adından sikkə kəsildiyini təsdiq edir [49, s. 87].

Çobani əmirlərinin Azərbaycanda yeritdiyi siyasət, vergilərin ağırlığı əhalinin səbir kasasını daşdırmış - onlara qarşı narazılıqlar, 1344, 1346, 1352, 1357-ci illərdə üsyanlar baş versə də, bu üsyanlar amansızlıqla yatırılmışdı. Məhəmməd Əhməd oğlu məhz bu üsyanların, güman ki, 1346-cı il üsyanının yatırılması zamanı qətlə yetirilmişdir. Kitabədə onun adına əlavə edilən "öncül" ("qabaqda gedən") sözlərinə əsasən ehtimal etmək olar ki, mərhum Məhəmməd Naxçıvan şəhərinin sosial-siyasi həyatında fəal iştirak edən bir adam kimi bu üsyanların təşkilatçılarından olmuşdur.

Naxçıvan bölgəsində bəhs olunan dövrə aid kitabələrin bir qismini məscid kitabələri təşkil edir. Ordubad rayonunun Vənənd kəndindəki Came məscidinin qərbdən giriş qapısının baş tərəfində qoyulan kitabənin mətnindən aydın olur ki, məscid hicri-qəməri təqvimi ilə 725-ci ildə (miladi ilə 1325-ci ildə) inşa edilmişdir. Tarixindən göründüyü kimi bu məscid Ordubad bölgəsində ən qədim məscidlərdən biri olmaqla, rayonun Nüsnüs kəndində bu günə qədər gəlib çatan pir – ziyarətgahla (1326-cı il) eyni vaxtda inşa edilmişdir.

Nüsnüs məscidinin birinci mərtəbəsində yerləşən ziyarətgahın qoz ağacından hazırlanmış bütöv taxtadan ibarət giriş qapısının üzərində ərəb dilində süls xətti ilə yazılmış kitabənin mətni belədir: "Peyğəmbər – ona salam olsun! – dedi: Məscidlər yerlə Allahın əlaqəsidir (Allahın evləridir). Onlar yer sakinlərinə göylərin işığını bəxş edən ulduzlara bənzəyirlər. Allah! Allahdan başqa Allah yoxdur! Məhəmməd Allahın elçisidir! Bu məscid islam padşahı Əbu Səid Bahadur xanın səltənəti – Allah onun hakimiyyətini əbədi etsin – dövründə uca tanrının rəhmətinə möhtac, zəif qul, katib, Atabəyin candarı Sədr bin Sarim bin Səncər bin Aytəkinin əli ilə bina edilmişdir. Çərşənbə axşamı, 4 ramazan, yeddi yüz iyirmi altıncı ildə (04.08.1326-cı il) yazıldı, mübarək oldu. Allah o kəslərin günahlarını bağışlayır ki, zəif bəndələrə xeyir duası və fatihə ilə kömək edir. Amin! Əbubəkr, Ömər, Osman, Əli – Allah onlardan razı olsun" [140, s. 63].

Kitabədən aydın olduğuna görə pir – məscid Elxanilərin sonuncu hökmdarlarından Əbu Səid Bahadur xanın zamanında (1316-1335) inşa edilmişdir. Mətndə adı qeyd edilən Əbu Səid Bahadur xan Ulcaytu Xudabəndənin oğludur. Atasının vəfatından sonra hicri 716-cı ildə (1316) taxta çıxan Əbu Səid gənc yaşlarında böyük hərbi müvəffəqiyyətlər əldə etdiyi üçün "Bahadur" ləqəbi almışdı.

Naxçıvanın XIV əsrə aid epiqrafik abidələri içərisində Şeyx Əbu Səidin Ordubad şəhərindəki məzar kitabəsi böyük maraq doğurur. Kitabənin mətni belədir: "Rəhmli və mərhəmətli Allahın adı ilə! Bu qəbir xalqın mürşidi, həqiqət sahiblərinin nümunəvisi, dünya və dinin tacı, Şeyx Əbu Səid adı ilə tanınmış, xorasanlı Əbu Səid Əbül-Xeyrin – Allah onun əziz ruhunu müqəddəsləşdirsin – yeddi arxa övladlarından olan şeyxülislamındır. Ölüm tarixi yeddi yüz əlli doqquzuncu hicri ili, məhərrəm ayının səkkizi, cümə axşamı, günortadan sonra oldu (21.12.1357-ci il). Əbu Səid bu dar dünyadan köçdü. Cənnətdə babasının ruhuna qovuşdu".

Kitabə XIV əsrdə Ordubad şəhərində yaşayan və xanəgah quraraq fəaliyyət göstərən, nəsil şəcərəsi yeddinci nəsildə Şeyx Əbu Səid Əbül-Xeyr Xorasaniyə gedib çatan və ulu babasının adını daşıyan Şeyx Əbu Səidin xatirəsinə həsr olunmuşdur. Hazırda çox geniş bir ərazini əhatə edən qəbiristanlıq onun qəbrinin ətrafında keçirilən fəxri dəfnlər hesabına yaranmışdır.

Başdaşının yan tərəfində cızma üsulu ilə yazılan kitabənin mətni belədir: "Ustad Hacı Pənahın oğlu ustad Nəcməddinin işidir. Memar Hacı oğlu Məhəmməd bəy dua ilə (Allahdan) kömək istəyir". Kitabədən aydın olur ki, qəbrin üstündə

türbə olmuş, ancaq zaman keçdikcə o uçub dağılmışdır.

Ordubad rayonunun Vənənd kənd qəbiristanlığında üzərində tariximiz üçün əhəmiyyətli kitabələr həkk edilən çoxlu başdaşılar qalmışdır. Bu kitabələrdən Əmir Mehrin 872-ci ilin rəcəbül-mürəccəb ayında (26.01-24.02.1468-ci il) vəfat etmiş oğlu usta Qasım ən-Nəccar əl-Vənəndinin və ustad Qasımın 897-ci ilin şaban ayında (29.05. – 26.06.1492-ci il) vəfat etmiş oğlu əl-ustad mövlana Səfərin xatirəsinə hazırlanmış başdaşılar üzərindəki kitabələr diqqəti cəlb edir.

Ordubad rayonunun Ağrı kənd qəbiristanlığında qalan sənduqə tipli qəbirüstü xatirə abidəsinin üzərində həkk edilən kitabədən aydın olur ki, qəbirdə hicri 794-cü ildə (29.11.1391-16.11.1392-ci il) vəfat etmiş xoşbəxt şəhid, məşhur alim İzzəddin Məhəmməd dəfn olunmuşdur.

Bölgədə tədqiq olunan kitabələr təsdiq edir ki, orta əsrlər zamanı Azərbaycanın hər yerində olduğu kimi Naxçıvanda da mərkəzi dövlət aparatında ali müsəlman ruhani təbəqəsinə mənsub çoxlu din xadimləri işləmişdir. Bürokratik dövlət aparatının müxtəlif pillələrində qərar tutan bu adamların içərisində vəzirlər və sədrlər də olmuşdur. Bunu təsdiq edən ən sanballı qaynaqlardan biri Ordubad şəhərinin "Malik İbrahim" qəbiristanlığında qeydə alınmış başdaşı tipli qəbirüstü xatirə abidəsi üzərindəki məzar kitabəsidir. Kitabənin mətni belədir: "Bu bağça böyük sədr Rükn əd-Din amid əl-Mülkün – onun yatağı sərin olsun – qızı, mərhumə, günahları bağışlanmış xanım Əta Mülkündür. Onun ölümü səkkiz yüz on birinci il, məhərrəmin on ikisində (07.06. 1408-ci ildə) (baş verdi)" [90, s. 14; 151, s. 42-43].

Xanım Əta Mülkün atası Rükn əd-Dinin adına əlavə olunan "böyük sədr" titulu onun görkəmli din xadimi, ali müsəlman ruhani təbəqəsinə mənsub bir adam olduğunu göstərirsə, orta əsrlər zamanı vəzirlərə verilən "amid əl-Mülk" titulunu daşıması XIV yüzil Azərbaycan feodal dövlət aparatında vəzir vəzifəsində çalışdığını göstərir.

Əlincəçay Xanəgahı kompleksinə daxil olan ikinci türbə-məscidin giriş qapısının baş tərəfində qoyulmuş iri həcmli daşa həkk edilmiş kitabə vardır. Ərəb dilində iki sətirdə incə və gözəl xətlə həkk edilmiş kitabənin mətni belədir: "Bu məqbərə mükəmməl, kamil, fəzilət sahibi alim, şeyx, hacıların və hər iki müqəddəs yerin (Məkkə və Mədinə) iftixarı, xalqlar içərisindəki tayfaların mürşidi, Allahı tanıyanların şeyxi Hacı Lələ Məlikindir. Tikinti kəramətli, əzəmətli xatın Həvva Bədr Bikə xatının – onun isməti artıq olsun – səyi ilə doqquz yüz birinci ildə (21.9.1495 – 8.9.1496-cı il) tamam oldu".

Ordubad rayonundakı Azadkəndin şərq tərəfində yerləşən pirin kitabəsi də tarixi cəhətdən çox əhəmiyyətlidir. Pirdə ziyarət obyekti olan qəbrin üzərinə qoyulmuş ağ mərmərdən hazırlanmış sinədaşının mərkəzində enli haşiyə ilə yuxarıdan çatma tağla tamamlanan çərçivə düzəldilmiş və orada 5 sətirdə ərəb dilində süls elementli nəsx xətti ilə kitabə həkk edilmişdir. Əvvəli Quran ayəsi ilə başlayan kitabənin mətni belədir: "Əbədi pərvərdigar olan Allahın yaxınlığına möhtac,

mərhum, xoşbəxt, mömin, rəhmətlik əzəmətli Mövlana Şəmsəddin Məhəmməd səkkiz yüz doxsan ikinci il zilhiccə ayında (18.11-17.12.1487-ci il) fani dünyadan əbədi dünyaya köçdü. Allah onun qəbrini nurlandırsın. Amin" [65, s. 42; 94, s. 221; 140, s. 67-68].

XV əsrə aid olan bu abidə, xüsusilə orada qeyd olunan titullar göstərir ki, Şəmsəddin Məhəmməd dövrünün görkəmli şəxsiyyəti kimi zəmanəsinin sosial-siyasi və mədəni-ideoloji həyatında mühüm nüfuz sahibi olmuşdur. Onun adına əlavə edilən "Mövlana" titulu orta əsrlər zamanı alimlərə, şairlərə, görkəmli din xadimlərinə verilirdi. Bəzi dünyəvi hakimlərə də aid edilən bu tituldan sufi təriqətlərinin başçılarına və şeyxlərinə müraciət zamanı geniş istifadə olunurdu. Şəmsəddin Məhəmməd zəmanəsinin görkəmli ruhani alimi, sufi şeyxi olmuş, əhali arasında böyük nüfuz qazanmışdır. Öldükdən sonra isə qəbri ziyarətgaha çevrilmişdir.

Culfa bölgəsinin Xanəgah kəndində, Əlincəqalanın ətəklərində yerləşən türbənin də kitabəsi tarixi baxımdan çox əhəmiyyətlidir. Kitabənin mətninin tərcüməsi belədir: "Bu şərəfli qübbənin bina olunmasına mərhum, xoşbəxt şəhid, Əmir Seyyid Əhməd əl-Oğulşaminin oğlu, sahib əl-əzəm Hacı Məhəmməd vəfat etmiş oğlu Əmirxan üçün ən böyük sultan, Sultan Cahanşah Bahadur xan zamanında – Allah onun hökmranlığını əbədi etsin – əmr etmişdir. Adı qeyd edilən bani dəvət edən məqbərəyə üç vəqf etmişdir: əkilmiş yer... bu dəfn yeri olan günbəzə ildə...".

Kitabənin tarix yazılan hissəsi sınıb itdiyi üçün onun nə vaxt yazıldığını və abidənin inşa tarixini dəqiq təyin etmək mümkün olmamışdır. Ancaq kitabədən aydın olur ki, günbəz "ən böyük sultan, Sultan Cahanşah Bahadur xan zamanında" inşa edilmişdir. Məlumdur ki, Qaraqoyunlu hökmdarı, "Həqiqi" təxəllüsü ilə şeirlər yazan Cahanşah 1435-1467-ci illərdə hakimiyyətdə olmuşdur. Deməli, günbəz onun hakimiyyəti zamanı, qeyd olunan illər arasında inşa edilmişdir. Bu kitabə Azərbaycanda üzərində Qaraqoyunlu hökmdarı Cahanşahın adı qeyd olunmuş yeganə epiqrafik sənəddir.

**Memarlıq və incəsənət.** Azərbaycan XII əsrdən başlayaraq mədəniyyətin hər sahəsində olduğu kimi memarlıq sahəsində də yüksək nailiyyətlər əldə etmiş, qeyri adi məharətə malik olan memarlar ölkənin böyük şəhərlərində yüksək bədii keyfiyyətli memarlıq əsərləri yaratmış, yerli memarlıq məktəbləri formalaşmışdı. Bu məktəblərdən Aran, Naxçıvan və Şirvan-Abşeron memarlıq məktəblərini misal göstərmək olar [22, s. 29-30].

XIII əsrə aid müəllifi bəlli olmayan "Əcaib əd-dünya" adlı əsərdə o dövrdəki Naxçıvan haqqında çox maraqlı məlumatlar verilir. Naməlum müəllif yazır: "Naxçıvan – bu, Azərbaycanda böyük, əhalisi çox hündürdə yerləşmiş çox möhtəşəm şəhərdir. Orada çoxlu köşklər (yəni şəhərkənarı yay sarayları), təntənəli eyvanlar, şəhərin yanında daşdan tikilmiş qala, bu qalanın içərisində mədrəsə və məscidlər və çox gözəl bulaqlar var. Belə deyirlər ki, yer üzündə bundan daha çox əhalisi olan

şəhər yoxdur. Bütün binalar kərpicdən və gəcdən tikilmişdir. Köşklərin çox hissəsi bürclər kimi üç və dörd təbəqəlidir. Şəhərin ətrafı çox gözəldir, burada bollu axar su və yaşıllıq vardır. Araz, çayı şəhərin hüdudlarından keçir... Eldəgizin həşəmətli günlərində Naxçıvan ən əzəmətli şəkil aldı. Orada darülmülk və dövlətxana tikildi".

Mənbədə xüsusi olaraq Naxçıvanın qəbiristanlığından bəhs edilir və deyilir ki, bundan gözəli heç bir yerdə yoxdur. Qəbiristanda gözəl mədrəsələr, məscidlər və türbələr yerləşir. Əlyazmada Naxçıvan şəhərinin plan quruluşunda, ümumiyyətlə Azərbaycan şəhərlərinə xas olan cəhətləri müşahidə edirik. Müstəhkam qala içərisində yerləşən İçərişəhər, şəhərin iç qalası diqqəti daha çox cəlb edir. Əsərdə xüsusən Naxçıvanın Bayırşəhər hissəsində qiymətli dini və xatirə binalarının yerləşdiyi göstərilir. Şəhərsalma baxımından diqqəti cəlb edən bir xüsusiyyət də o zaman Naxçıvanda çoxmərtəbəli saray binalarının olmasıdır [5, s. 117-118].

Culfa yaxınlığındakı xalq arasında "Gülüstan" adlanan türbənin kitabəsi olmadığı üçün inşaat tarixi məlum deyildir. Üslub xüsusiyyətlərinə əsasən türbənin XIII əsrdə tikildiyi ehtimal edilir [50, s. 49-50]. İki mərtəbədən ibarət olan "Gülüstan" türbəsinin aşağı mərtəbəsi sərdabə vəzifəsini görürmüş, yuxarı mərtəbə əsas etibarı ilə binaya memorial tikinti mahiyyəti verməyə məxsus bir quruluşdur. Başqa oxşar türbələrdən fərqli olaraq "Gülüstan" türbəsinin əsas xüsusiyyəti orasındadır ki, burada sərdabə yerin səthindən yuxarıda yerləşir. Türbənin xarici həcmi də başqa türbələrdən fərqlənir: aşağı hissəsi kvadrat, yuxarı hissəsi on iki bucaqlıdır. Yuxarı on iki səthli prizma ilə kürsülük vəzifəsini görən aşağı hissəni bir-birindən geniş bir stalaktit qurşağı ayırır. Stalaktit qurşağından yuxarı hissəni təşkil edən on iki səthlinin şimala yönəlmiş giriş səthindən başqa, bütün səthləri daşdan oyulmuş həndəsi naxışlarla örtülmüşdür. Memar üç müxtəlif şəkilli həndəsi naxışları səthlər üzərində elə sıralamışdır ki, tamaşaçı həmişə qonşu səthlərdə müxtəlif naxışlar görür. Səthləri örtən həndəsi naxışlar Əcəmi Əbubəkir oğlu Naxçıvaninin əsərlərindəki həndəsi naxışlarla oxşardır [119, s. 84; 155, s. 98-101].

Öz monumental tikinti quruluşu və ecazkar görünüşü ilə fərqlənən abidələrdən biri də Kəngərli rayonunun Qarabağlar kəndindəki memarlıq kompleksidir. Kompleks türbədən, qoşa minarədən və bir dini binanın qalıqlarından ibarətdir. Qoşa minarələrin XII əsrdə tikildiyi güman edilir. Qoşa minarələri birləşdirən portalın isə daha sonra (XIV əsrdə) tikildiyi fikri irəli sürülür.

Bürc tipli türbələrin əsas xüsusiyyətləri Qarabağlar türbəsində də özünü göstərmişdir. Türbə aşağı sərdabədən və yuxarı yerüstü hissədən ibarətdir. Abidənin indi dağılmış günbəzinin konus şəklində olduğu müəyyən edilmişdir.

Türbənin silindrik çıxıntılarla işlənməsi yalnız dekorativ cəhətdən deyil, eyni zamanda, quruluşca da əhəmiyyətli olmuşdur. Bir-birinə birləşdirilmiş on iki yarımsilindrik çıxıntı divarın həcmini azaltmağa imkan verməklə bərabər, türbəyə bir qala görkəmi vermişdir. Qarabağlar türbəsində xarici səthin bəzəyini təşkil edən

kərpic naxışın düzülüşü, Bərdə türbəsindəkinə oxşayır. Bərdə türbəsində olduğu kimi, burada da kaşıdan düzəlmiş kitabə kəməri türbənin gövdə hissəsindən yuxarıda yerləşmişdir. Həmin kitabə kəməri, on iki yarımsilindrik çıxıntını bir-biri ilə bağlayır. Kitabəni təşkil edən ağ kaşı hərflərlə göy kaşı fon arasında kontrast yazının gözəlliyini artırır, uzaq məsafədən aydın oxunmasını təmin edir.

Qarabağlar türbəsində dörd portal vardır ki, onlar şimal, cənub, qərb və şərq istiqamətlərdə yerləşmişdir. Quruluşunun zənginliyi etibarı ilə şimal tərəfdəki portal əsas yer tutur. Bərdə türbəsində olduğu kimi, portallar kəsmə kaşılardan düzəlmiş həndəsi və yarım nəbati naxışlarla örtülmüşdür.

Türbənin yerüstü hissəsi daxildən on iki bucaqlıdır. Daxili səthlərin quruluşunda bəzək vasitələrindən istifadə edilməmişdir. Qarabağlar türbəsi öz quruluşunun monumentallığı, bəzək vasitələrinin zənginliyi ilə Azərbaycan memarlığının ən zəngin abidələrindəndir [3, s. 50-53; 5, s. 60].

Ordubad rayonunun Aza kəndi yaxınlığında yerləşən Darkənd türbəsi də maraqlı memarlıq quruluşu və dekorativ bəzək elementləri ilə fərqlənir. Türbə bişmiş kərpicdən hörülmüş, orta hissəsi bürcvari türbələr biçimində olub, yuxarı hissədən sferik günbəzlə tamamlanmışdır. Abidənin dörd tərəfində yerləşdirilmiş giriş portallar qülləvarı türbələrə xas olsa da, mərkəzi özəyə söykənən, bir növ, dayaq divarlarını xatırladan quruluşa malikdir. Türbənin üzərində tünd-bənövşəyi rəngli kaşı və adi bişmiş kərpicdən hörülmüş sadə naxışlar yeganə bəzək elementidir. Darkənd türbəsinin mürəkkəb kompozisiya quruluşu, üzərindəki kaşı bəzəklərinin rəngi abidənin Qarabağlar və Bərdə türbələrindən daha sonra XIV əsrin axırlarında və ya XV əsrin əvvəllərində tikildiyi ehtimal edilir [58, s. 73-74; 88, s. 163-166].

Böyük karvan yolu üstündə iri dayaq məntəqəsi yaradılmasının başqa bir örnəyi Gülüstan körpüsüdür. Bu körpü Araz çayının üstündə karvan yolu istiqamətinə uyğun salınmışdır. Qırmızı qumdaşından əhəng məhlulu ilə tikilən körpünün sahil dayağı doğrudan da körpünün inşaat texnikasının yüksəkliyindən soraq verir. Teymurun tarixçisi Şərafəddinin bu təsvirini araşdırıcılar Gülüstan körpüsünə aid edirlər: "Yonulmuş daşdan tikilmiş, sarsılmaz möhkəmliyi olan, yastı və düz körpü dünya körpülərinin ən gözəlidir, daşların gözəlliyi, möhkəmliyi və özümlü düzümü bütün memarları təəccübləndirir: su azalanda ölçülərkən biri 60 gəz (18,0 m), o biri 50 gəz (15,0 m) idi; kiçik tağbəndin aşağı qurtaracağında karvansaray, körpünün iki ucunda isə qayalarda tayı olmayan gözəllikdə qapılar tikilmişdi". Gülüstan körpüsünün sahil dayağı içərisində bir sıra yerləşgələr indi də qalır. Körpünün sahil dayağına bitişik tikinti qalıqlarını isə araşdırıcılar karvansaray hesab edirlər.

Gülüstan yaxınlığında iki karvansaray qeydə alınmışdır. Culfa karvansarayının Azərbaycan karvansarayları içərisində ən möhtəşəm abidə olduğu müəyyən edilmişdir. Karvansaray çay daşından tikilmiş və gəc məhlulu ilə suvanmışdır. Çoxlu sayda yaşayış otaqları və iki böyük zalı vardır. Bəzi otaqların və

zalların örtük hissələri maraqlı konstruktiv quruluşa malikdir [10, s. 221-223; 46, s. 136].

XIII-XV əsrlər üçün xarakterik olan memarlıq abidələrindən biri də Naxçıvan buzxanalarıdır. Günümüzə qədər salamat gəlib çatmış buzxanalardan Naxçıvan və Ordubad buzxanaları bu baxımdan daha maraqlıdır. Memar Naxçıvandakı binanın üstünü bağlayan örtüyün sadə tağtavan formasında adi həllindən imtina etmiş, yüngüllüyü və dinamikliyi ilə fərqlənən konstruktiv sxem yaratmışdır. Belə konstruksiya respublikamızın ərazisində çox nadir hallarda təsadüf edilir. Buna müəyyən dərəcədə oxşar konstruksiyaya yalnız Ordubad buzxanasında rast gəlinir. Hər iki buzxananın XIII-XIV əsrlərdə tikildiyi ehtimal olunur [58, s. 49-50, 336; 88, s. 225-228].

XV əsrdə tikilmiş maraqlı tarixi-memarlıq abidələrindən biri də Ordubad rayonunun Gənzə kəndindəki hamamdır. Bu Naxçıvan Muxtar Respublikası ərazisində zəmanəmizədək gəlib çatan ən qədim hamamlardan biridir. Yerli əhalinin verdiyi məlumata görə bu hamamı Hacı Hüseynqulu tikdirmişdir. Yeraltı hamamlar qrupuna aid olan bu abidə düzbucaqlı formada olub, soyunma, yuyunma və onlara bitişik iki otaqdan ibarətdir. Hamamın salonları sferik günbəzlə, keçidləri isə tağtavanla örtülmüşdür. Eyni ilə bu quruluşda olan bir yeraltı hamam da, Ordubad rayonunun Nüsnüs kəndindədir. Nüsnüs hamamı düzbucaqlı şəkildə olub soyunma, yuyunma salonu və onlara bitişik köməkçi otaqlardan ibarətdir. Salonların üstü iki sferik günbəzlə örtülmüşdür. Soyunma və yuyunma salonları bir-biri ilə kiçik tamburlarla birləşdirilmişdir [58, s. 131-132, 382-383].

Gənzə kəndində günümüzə qədər gəlib çatmış maraqlı tarixi-memarlıq abidələrindən biri də Hacı Hüseynqulu məscididir. Naxçıvan bölgəsinin ən qədim məscidlərindən biri hesab edilən abidənin daxili böyük salondan ibarətdir. Sonrakı əsrlərdə qadınların sərbəst ibadəti üçün qərb tərəfdən əlavə bina tikilib kişilərə aid salona birləşdirilmişdir. Məscidin əsas qədim hissəsi daşdan tikilmiş və tavanı üç böyük daş sütun üzərində dayanır. Həm sütunların, həm də sütunla divarların arası tağtavanla birləşdirilib. Divarların qalınlığı bir metrdir. Salonda 5 divar tağçası düzəldilib. Məscidin 12 tağlı eyvanı və əlavə qonaq otağı vardır. Məscid XV əsrdə yaşamış çox nüfuzlu el ağsaqqalı Hacı Hüseynqulu tərəfindən tikdirilmişdir [58, s. 151].

XIII-XV əsrlərdə sənətkarlıq qədimdə olduğundan daha yüksək inkişaf səviyyəsinə qalxır, köhnə şəhərlər dirçəlir, yeniləri yaranırdı. Onlar sənətkarlıq, ticarət mərkəzlərinə çevrilirdilər. Bu dövrdə Azərbaycan xalqı bir çox yüksək səviyyəli bədii sənətkarlıq nümunələri: xalça, parça, zərgərlik, misgərlik, dulusçuluq və s. sənət nümunələri yaratmışlar ki, bunların bir çoxu hazırda dünyanın ən zəngin muzeylərində nümayiş etdirilir [5, s. 115; 6, s. 138]. Azərbaycanda olmuş bir çox xarici ölkə səyyahları Naxçıvanda misgərlik, dulusçuluq, zərgərlik, ipəkçilik işi ilə məşğul olan xalça, parça toxuyan böyük emalatxanaların olduğunu qeyd

edirlər. Onlar Azərbaycanda istehsal olunan bədii sənət nümunələrinin Qərbi Avropadakı sənət nümunələrindən xeyli yüksək səviyyədə olduğunu söyləmişlər [21, s. 19].

XIII-XV əsr Azərbaycan dekorativ-tətbiqi sənət növləri içərisində ən mühüm yerlərdən birini keramika sənəti tutur. Son illər ərzində bölgənin müxtəlif yerlərində aparılan arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılmış saxsı nümunələri sübut edir ki, Azərbaycanda XIII- XV əsrlərdə keramika istehsal edən bir neçə mərkəzdən biri də Naxçıvan olmuşdur.

Azərbaycan dekorativ-tətbiqi sənətinin maraqlı növlərindən olan bədii metal sənəti XIII-XV əsrlərdə yüksək inkişaf mərhələsi keçirmişdir. Bu dövrdə metaldan müxtəlif silahlar, ev avadanlıqları və s. sənət nümunələri hazırlanmışdır ki, bunlardan bir çoxu zəmanəmizə qədər gəlib çatmışdır. Naxçıvan əvvəllər olduğu kimi bu dövrdə də metal məmulatı hazırlayan əsas mərkəzlərdən biri idi [12, s. 62-63; 86, s. 67-68; 129, s. 28-32].

Belə metal ustalarından biri də Osman Salman oğlu Naxçıvani idi. Naxçıvanın qədim metal ustalarından olan Osman Salman oğlu Naxçıvani haqqında hələlik yeganə məlumat ingilis alimi Popun kitabında verilir. Bu naxçıvanlı sənətkarın bürüncdən hazırladığı dolça Parisin məşhur Luvr muzeyində saxlanılır. Gözəl və çox mürəkkəb nəbati ornamentlərlə bəzədilmiş dolçada sənətkar öz adını və dolçanın hazırlanma tarixini (hicri 586/miladi 1190-cı il) həkk etmişdir. Osman Salman oğlu Naxçıvaninin XII əsrin axırı XIII əsrin əvvəllərində yaşayıb yaratdığı güman edilir [58, s. 391].

# VII FƏSİL

## NAXÇIVAN SƏFƏVİLƏR DÖVRÜNDƏ

### 1. Naxçıvanda siyasi vəziyyət

**1501-1576-cı illərdə siyasi vəziyyət.** Şərur düzündə 1501-ci ilin ortalarında baş verən döyüşdə İsmayıl Səfəvi Əlvənd Mirzə üzərində parlaq qələbə çaldıqdan az sonra, həmin ilin payızında, Təbrizə daxil oldu və özünü şah elan etdi. Beləliklə qüdrətli Səfəvi imperiyasının əsasını qoydu və tarix səhnəsinə yeni bir Azərbaycan dövləti çıxdı. Səfəvi dövlətinin yaranmasına gedən yol Naxçıvan bölgəsindən keçdiyindən bu ərazi yarandığı andan Səfəvilərin mərkəzləşdirilmiş hakimiyyəti altında idarə olunmağa başladı. Bundan sonra Ağqoyunlular zamanı ölkə ərazisində baş verən feodal ara müharibələrinə və iqtisadi tənəzzülə son qoyuldu. Lakin Səfəvilər dövlətinin mövcud olduğu dövrdə onun ən çox osmanlılarla müharibələr apardığı nəzərə alınsa, qeyd olunmalıdır ki, bu münaqişələrdə daha çox əziyyət çəkən Azərbaycan bölgələrindən biri də Naxçıvan diyarı olmuşdur. Belə ki, 1514-cü ildə I Sultan Səlimin Azərbaycana hücumu Səfəvilərin yaratdığı sabitliyi pozdu. Bu osmanlılarla Səfəvilər arasında ilk döyüş idi. İki böyük türk dövləti arasında baş vermiş çoxsaylı müharibələrdə dəfələrlə (1514, 1554, 1588-1603, 1635, 1724-1736-cı illər) olduğu kimi birincidə də Naxçıvan Osmanlılar tərəfindən tutulmuşdur.

23 avqust 1514-cü ildə Maku şəhəri yaxınlığında Çaldıran düzündə baş verən döyüşdə Səfəvilər məğlub olub ölkənin içərilərinə çəkildilər. Artıq sentyabr ayının 6-da Osmanlılar paytaxt Təbriz şəhəri də daxil olmaqla, ölkənin müəyyən hissələrini tutdular. Sultan I Səlim Təbrizdə cəmi bir həftə qaldı. 1514-cü il sentyabrın 14-də o öz qoşunları ilə paytaxtı tərk edib Naxçıvan və Bayburtdan keçərək, qışlamaq üçün Amasiyaya getdi [120, s. 241]. Osmanlı qoşunları Səfəvi torpaqlarından geri çəkilərkən Naxçıvan istiqamətində hərəkət etmiş və həmin vaxt bölgəni də tutmuşdular. Bu zaman Naxçıvan qısa bir müddətə, cəmi beş gün Osmanlıların nəzarəti altında qalmışdır [78, s. 39]. Ancaq həmin vaxt onlar Səfəvi torpaqlarını tərk etdiklərindən digər Azərbaycan bölgələri kimi Naxçıvan da işğaldan azad olmuşdur.

Çaldıran döyüşündən sonra Ərzurum, indiki Ermənistan Respublikasının qərbi, Mosulla birlikdə şimali Mesopotamiya Osmanlıların hakimiyyəti altına salındı, Bağdadla birlikdə Ərəb İraqı, indiki Ermənistan Respublikasının şərqi və Azərbaycan Səfəvilər dövlətinin tərkibində qaldı [115, s. 166]. İşğalın nəticələrindən də aydın olur ki, Naxçıvan əvvəlki kimi Səfəvilərin hakimiyyəti altında idarə olunmaqda davam etmişdir. Müharibənin bölgədə dağıntılarla və siyasi sabitliyin pozulması ilə nəticələnməsinə baxmayaraq, sonralar əvvəlki vəziyyət bərpa olunmuş və I Təhmasibin hakimiyyətə gəlməsinədək davam etmişdir.




***Naxçıvan Səfəvilər dövründə***
***(1501-1736-cı illər)***

I İsmayılın vəfatından sonra tezliklə ölkədə siyasi vəziyyət dəyişdi. 1524-cü ildə Qızılbaş əmirləri tərəfindən on yaşlı I Təhmasib taxta çıxarıldı. Onun hakimiyyətinin ilk on ilində Rumlu, Təkəli və Şamlı tayfa nümayəndələri arasında

hakimiyyət uğrunda mübarizələr davam etmiş və bu tayfalar müəyyən müddətə ölkənin idarə olunmasında iştirak etmişlər. Təbii ki, bu ara müharibələri Naxçıvanda da siyasi sabitliyin pozulmasına səbəb olmuşdur. 1527-ci ilin iyununda Naxçıvanda Arpaçay yaxınlığında Təkəli, Zülqədər, Rumlu tayfaları və onların idarəetməsindən narazı qalan Ustaclı tayfası arasında baş vermiş döyüş [87, s. 10] bu fikri təsdiq edir. Belə ara müharibələri bir tərəfdən siyasi sabitliyi pozur və təsərrüfat sahələrinin dağıdılmasına səbəb olurdu. Digər tərəfdən isə hər bir yeni tayfanın hakimiyyətə gəlişi ilə baş verən məmur dəyişiklikləri idarəetmə sahəsində özbaşınalıqların yaranmasına gətirib çıxarırdı [16, s. 61]. Ölkədə bu cür vəziyyət on il davam etmişdir. 1534-cü ildən I Şah Təhmasib Qızılbaş əyanlarının təsirindən qurtararaq dövlət işlərini müstəqil həyata keçirməyə başlasa da, onun hakimiyyətə nəzarəti ələ alması nəinki daxili çəkişmələrə son qoymuş, əksinə bundan daha ağır olan xarici müdaxilənin – Osmanlıların yenidən hücumlara başlamasına gətirib çıxarmışdı.

1534-cü ilin yayında Təbrizi ələ keçirən İbrahim paşa Əlincə qalasını tutmaq üçün Xosrov paşanı Naxçıvana göndərdi [16, s. 65]. Görünür, Naxçıvan həmin vaxt digər Azərbaycan bölgələri kimi osmanlılar tərəfindən fəth edilmişdir. Osmanlı qoşunlarının birinci yürüşü zamanı Sultan Süleyman fəth etdikləri yerləri sancaqlıqlara böldürərək, onların sancaqbəyilərinin təyin edilməsi haqqında fərman vermişdi. Fərmana əsasən, Naxçıvan sancağına da Üləma paşanın qardaşı Vəli Təkəli sancaqbəyi təyin edilmişdi [100, s. 62]. Ancaq türklər istər birinci (1534), istərsə də ikinci (1535) yürüşləri zamanı tutduqları Azərbaycan torpaqlarında möhkəmlənə bilmədi. Qızılbaşların ciddi müqaviməti, ərzaq çatışmazlığı və s. səbəblər üzündən osmanlılar digər Azərbaycan bölgələri kimi Naxçıvanı da tərk etməli oldular.

1548-ci ildə sultanın rəhbərliyi altında Osmanlı qoşunu üçüncü dəfə Səfəvi torpaqlarına hücum etdi. Paytaxt Təbrizi tutduqdan sonra 4 gün burada qalan türklər yenə də fəth etdikləri yerləri tərk etməyə məcbur oldular. Bu yürüş zamanı Osmanlılar Ərzurum-Xoy-Təbriz yolu ilə gəlib, Şəbüstər-Səlmas-Van-Ərciş-Bitlis-Diyarbəkr istiqamətində geri qayıtdıqlarından [16, s. 74, 271; 115, s. 168] Naxçıvan bölgəsi ziyan çəkməmişdir. Lakin bir il sonra Naxçıvan yenidən osmanlıların hücumuna məruz qaldı. Sultan Süleymanın üçüncü yürüşü zamanı Van bölgəsini fəth etdikdən sonra ora bəylərbəyi təyin etdiyi İsgəndər paşa [85, s. 43] 1549-cu ildə öz qoşunu ilə Çuxursəd ərazisinə hücum etdi, bu yerləri qarət edib, yandırdı [98, s. 198]. Bu zaman onlara qarşı Rəvan hakimi Rumlu Hüseyncanla birlikdə, Naxçıvan hakimi Nəzər Sultan da vuruşmuşdur. I Şah Təhmasibin əmrilə qızılbaş qoşunları Vana qayıdan osmanlıları təqib etdiyi zaman Naxçıvan qalasındakı Şahverdi Sultan Ziyadoğlu osmanlıların Bargiri qalasına (indiki adı "Muradiye"dir, Van ərazisində yerləşir) [98, s. 515] hücum etmiş və gecə vaxtı qalanın hakimi Süleyman bəyi əsir götürmüşdür [98 s. 198]. Deməli, I Sultan Süleymanın üçüncü yürüşündən sonrakı 1549-cu ildə Naxçıvan hücuma məruz qalsa da, nəinki müdafiə

olunmuş, hətta buradan osmanlıların üzərinə əks hücum da təşkil edilmişdir.

Sultan Süleymanın 1554-cü ildə Səfəvi torpaqlarına dördüncü yürüşü daha kəskin xarakter daşımışdı. Bu hücumun dağıdıcı təsiri daha çox Naxçıvan bölgəsinə olmuşdur. Təsadüfi deyil ki, Sultan Süleymanın həmin yürüşü tarixdə "Naxçıvan səfəri" adını almışdır [49, s. 125]. Osmanlıların bu dəfəki həmləsinin əsas səbəbi əvvəlkilərdən fərqli olaraq cavab xarakteri daşıyırdı. Belə ki, 1552-ci ilin əvvəlində Ərzurum hakimi İsgəndər paşa Xoydan keçərək Çuxursəd ərazisinə, buradan isə Qarabağa daxil olmuş, bu yerlərdə çoxlu qarət və yanğınlar törədərək geri qayıtmışdır [115, s. 169]. Onun qısa müddətli hücumu I Təhmasibin həmin ilin ortalarında Osmanlı ərazisinə genişmiqyaslı qarətçi yürüş həyata keçirməsinə bəhanə olmuşdur. Bu zaman Van, Əhlət, Muş, Bitlis, Pasin, Erğiş, Adilcəvaz, Bostan və başqa Osmanlı torpaqları qarət edilmiş, yandırılmış, dağıdılmış və xeyli yerli sakin öldürülmüşdü. Hücum zamanı Səfəvi qoşunları çoxlu qənimət əldə etmişdilər [16, s. 100-101]. Səfəvi tarixçisi Həsən bəy Rumlunun məlumatlarından aydın olur ki, bu yürüş zamanı İsmayıl Mirzə Qarabağ hakimi Şahverdi Sultan Ziyadoğlu, Bədr xan Ustaclı, Çuxursəd hakimi Şahqulu Sultan Ustaclı, Məhəmməd xan Mosullu Türkman kimi adlı-sanlı əmirlərlə birlikdə 600 naxçıvanlı qorçini də hərbi qüvvələrin tərkibində hücuma aparmışdı [16, s. 80; 69, s. 1355].

1553-cü ilin aprel-may aylarında Naxçıvana qayıdan I Təhmasib Sultan Süleyman Qanuninin yanına danışıq aparmaq üçün nümayəndə göndərsə də rədd cavabı aldı [7, s. 417; 91, s. 16]. Səfəvi hökmdarının hücumdan sonra sülhə çağırışı onun hərbi gücünü göstərdikdən sonra qarşı tərəfi bu işə məcbur etməsinə bənzəyirdi. Təbii ki, Sultan Süleyman belə razılığı qəbul etmədi. Bundan sonra şah yenidən oğlu İsmayıl Mirzəni Osmanlı ərazisinə hücuma yolladı, onlar Van, Bostan, Ərciş və Adilcəvazı qarət edərək Naxçıvana qayıtdılar [32, s. 114]. Bu hücumlar zamanı I Təhmasibin qərargahının Naxçıvanda yerləşməsi göstərir ki, həmin vaxt şah buranı özünə sanki bir forpost seçmişdi. Bu da bölgənin hərbi-strateji mövqeyindən və ümumiyyətlə Səfəvi hökmdarının strateji məntəqə kimi Naxçıvana daha çox üstünlük verməsindən irəli gəlirdi. Bir il sonra, 1554-cü ildə Sultan I Süleymanın məhz Naxçıvan istiqamətində yürüşü və buranı tutmasının səbəbi də onun ölkəsinə bu bölgədən hücumların olması idi.

1554-cü ilin ortalarında Sultan I Süleyman böyük bir ordu ilə Qarsa gələrək buradan Naxçıvan istiqamətində hücuma başladı. İ.Peçevi sultanın Naxçıvana qədər tutduğu yerlər haqqında ətraflı bəhs etmişdir. O, qeyd etmişdir ki, 1554-cü il iyulun 6-da Osmanlı qoşunu Qars ətrafına gəlib çatdı. Əvvəlcə Şurəgəl, onun ardınca Şərabxana, Nilfrak, İrəvan şəhəri və Qarahasar fəth edildi. Osmanlılar iyulun 27-də Qarabağları, iki gün sonra isə Naxçıvanı tutdular [122, s. 26-27].

Osmanlı qoşunları Naxçıvana daxil olarkən I Təhmasib Bazarçayı yaylağına doğru hərəkət etdi. Sultan I Süleymanın əvvəlki hücumlarında olduğu kimi sayca Səfəvilərdən üstün hərbi qüvvəyə malik olmasına görə, yenə də şah həlledici

döyüşə girməyi məqsədəuyğun saymadı. Əvəzində isə Osmanlı ordusunun Naxçıvanda olmasından istifadə edərək, özünün iki qoşununu Van və Bostan bölgələrini, həmçinin Pasin vilayətini fəth etmək, beləliklə də, geri qayıdacaq Osmanlı qoşunları üçün ərzaq və daldalanacaq sarıdan çətinlik yaratmaq məqsədilə hücuma göndərdi [32, s. 115; 40, s. 167]. Həyata keçirilmiş bu planlar göstərir ki, şah osmanlılara qarşı mübarizədə əvvəldən ağıllı tədbirlər görmüşdü. Bu hücum zamanı osmanlılar Naxçıvanda cəmi üç gün qala bildilər. Sultan Süleymanın buranı tez tərk etməsinin əsas səbəblərindən biri ordu üçün yaşayış vəsaiti, ərzaq və hərbi sursatın çatışmaması idi [52, s. 85]. Ona görə də ölkəsindən müəyyən qədər aralanmış böyük bir ordu ilə hücumu davam etdirmək çətin olduğundan Osmanlı hökmdarı Ərzuruma qayıtmaq əmrini vermişdi. Ərzaq və yem ehtiyatına ciddi ehtiyac ona görə yaranmışdı ki, hücumdan əvvəl I Təhmasib osmanlılarla mübarizədə onların yolu üzərində olan hər şeyin qızılbaşlar tərəfindən məhv edilməsini həyata keçirmişdi [6, s. 387]. Sultanın öz ölkəsinə belə tez qayıtmasının digər səbəbi isə Səfəvi qoşunlarının yollarda tez-tez hücumlar edərək, onları məğlub etmələri, ən əsası isə geri dönərkən Osmanlı ordusunun keçəcəyi yollar üzərindəki yaşayış yerlərinin Səfəvilər tərəfindən dağıdılması idi [32, s. 115].

Osmanlı ordusu üç gündən sonra, 1554-cü il iyulun 30-da Naxçıvanı tərk etdi [49, s. 126]. Sultan Naxçıvan şəhərini tərk edərkən şəhərə od vurulması haqqında əmr verdi. Bu haqda Səfəvi tarixçisi İsgəndər bəy Münşi yazır ki, Sultan I Süleyman Naxçıvanadək irəlilədi, ərzaq və yem ehtiyatı çatışmadığından şəhəri yandıraraq öz ölkəsinə qayıtdı [41, s. 180; 126, s. 51]. Sultan Süleymanın bu yürüşü Naxçıvan üçün çox acınacaqlı oldu. Osmanlı qoşunları Naxçıvan şəhərinə gedən yolları üzərindəki bütün yaşayış yerlərini dağıtdılar. Bu zaman böyük bir ordunun ölkə üzərinə hücuma keçməsi, şah qoşununun geri çəkilməsi, türk əsgərlərinin amansız qarət və dağıntıları yerli əhalinin əksər hissəsinin vahimə içərisində, müvəqqəti olaraq öz doğma yurdlarını tərk etməsinə səbəb oldu.

Osmanlı imperiyası 1554-cü ildə Səfəvilər dövlətinin ərazisinə etdiyi bu dağıdıcı və qarətçi hücumu zamanı tam qələbə əldə etməsə də, müvəqqəti tutduğu yerlərdə Səfəvilər dövlətinin onlarla sərhəddəki möhkəm müdafiə dayaqlarını, xüsusilə də, Naxçıvan kimi zəngin bölgəni iqtisadi cəhətdən zəiflətdi və xeyli qənimət ələ keçirdi [95, s. 291]. Bu müharibədə Səfəvi dövləti xeyli maddi itkilərə məruz qalsa da, əvəzində siyasi sahədə sultanı sülh müqaviləsi bağlamağa məcbur etməklə uğur əldə etmiş oldu. Danışıqlar nəticəsində 29 may 1555-ci ildə Amasiyada sülh müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə görə digər Azərbaycan bölgələri kimi Naxçıvan torpaqları da Səfəvilərin hakimiyyəti altında qaldı [16, s. 83].

Orta əsrlərə aid mənbələrdən və tədqiqatçıların əsərlərindən məlum olur ki, XVI əsrin II rübündə baş vermiş Osmanlı-Səfəvi müharibələrinin gətirdiyi fəlakətlərdən Naxçıvan bölgəsi daha çox ziyan çəkmişdir. Burada törədilmiş dağıntılar və qarətlər, əhalinin köçürülməsi, təsərrüfat sahələrinin dağıdılması və

s. bütövlükdə iqtisadiyyatın tənəzzülünə gətirib çıxarmışdır. Osmanlı və Səfəvi qoşunlarının döyüş meydanına çevrildiyindən bölgədə siyasi sabitlik sıfıra yenmişdi. Lakin ən önəmlisi o idi ki, bağlanmış Amasiya sülh müqaviləsi müəyyən müddətə müharibəsiz vəziyyətin – sabitliyin bərqərar edilməsinə imkan yaratdı. Bölgədə sabitlik və əmin-amanlıq I Təhmasibin hakimiyyətinin sonunadək davam etdi. Çünki Səfəvilərin hakimiyyəti dövründə Naxçıvan ölkəsində siyasi gərginliyin yaranmasının əsas səbəbi olan Osmanlı imperiyası ilə Səfəvilər arasında aparılan müharibələr bu zaman kəsiyində, təxminən 20 ildən artıq bir müddətdə dayandırıldı. Bu müharibələrə son qoyan şah I Təhmasib hakimiyyətinin axırınadək Osmanlılarla münasibətlərin balansına və stabil saxlanılmasına xüsusi fikir vermişdir. Onun yeritdiyi ağıllı siyasət nəticəsində Azərbaycanın bütün bölgələrində, xüsusilə də Naxçıvan bölgəsində siyasi sabitlik və inkişaf dövrü başlandı. Uzun sürən müharibələrdən sonra əhali müəyyən müddətə rahatlıq və firavanlıq əldə etmiş oldu. Budaq Qəzvini göstərir ki, rəiyyət belə dinclik və əmin amanlığı heç vaxt görməmişdi [16, s. 130]. Lakin bu vəziyyət I Təhmasibin ölümü ilə nəinki dəyişdi, hətta əvvəlkindən də pis oldu.

**XVI əsrin sonu - XVII əsrin I yarısında siyasi vəziyyət.** Şah I Təhmasibin vəfatından sonra Səfəvilər dövlətinin mərkəzi aparatında idarəetməyə nəzarət zəiflədi. Əvvəlcə, 1576-cı ilin may hadisələri, ardınca II İsmayılın qısa müddətli hakimiyyəti (1576-1577) ölkədə çoxdan bəri davam edən sülh və sabitliyə son qoydu. II İsmayıl sünni məzhəbinə meyilli olduğuna görə onun zamanında Osmanlı təhlükəsi olmamışdır [16, s. 125; 75, s. 10]. O, qısa müddətli hakimiyyəti dövründə taxt-taca iddialı qardaşını, onun tərəfdarlarını öldürtdürmüşdür. Hakimiyyətdə olduğu dövrdə II İsmayıl Şərəfxan Bitlisini Naxçıvana hakim təyin etmiş və onu bu ölkəyə göndərmişdir [49, s. 127; 134, s. 489]. Şərəfxan bir il 4 ay bu vəzifədə qaldıqdan sonra hakimiyyəti tərk edərək Bitlisə getmişdir [98, s. 277; 99, s. 68]. Göründüyü kimi əhali arasındakı narazılığın artmasının bir səbəbi də ölkənin idarə olunmasında yaranan qarışıqlıq və boşluq idi.

1577-ci ildə II İsmayıl öldürüldükdən sonra, dövlətin idarə olunmasında bacarığı və səriştəsi olmayan, təxminən on ilə yaxın müddətdə ölkə iqtisadiyyatını tamamilə dağıdan Məhəmməd Xudabəndə (1578-1587) taxta çıxarıldı. Onun hakimiyyəti zamanında dəfələrlə baş verən Osmanlı hücumları nəticəsində Azərbaycanın qərb sərhədlərində yerləşən bölgələrində yaşayış yerləri və təsərrüfat sahələri dağıdılır, talan edilir, insanlar öldürülür və əsir götürülürdü.

1578-ci ildə Mustafa Lələ Paşanın başçılığı ilə yüz min nəfərlik Osmanlı ordusu Azərbaycan ərazisinə daxil olaraq, başqa şəhərlərlə birlikdə Naxçıvanı da tutdu və bir müddətdən sonra siyasi, hərbi amillərdən asılı olaraq buranı tərk etdi [49, s. 127]. Naxçıvan bölgəsi üçün bu hücumlar ağır nəticələrə gətirib çıxarmışdır. Məsələn, 1579-cu ildə III Sultan Muradın hakimiyyəti dövründə (1574-1595) Osmanlı feodalları tərəfindən Naxçıvan şəhəri və onun ətraf yerlərindən qırx

mindən artıq əsir aparılmışdır [49, s. 127].

1583-cü ildə osmanlılar növbəti hücum zamanı Naxçıvanı da tutmaq istəmişdilər. Həmin ildə Osmanlı qoşunlarının əvvəlki hücumunun İrəvan və Naxçıvan istiqamətində nəzərdə tutulmasına baxmayaraq, hətta Naxçıvan tutulduqdan sonra Şərəfxanın oğlu Əhməd bəyin bölgəyə sancaqbəyi təyin olunacağına dair hökm çıxarılsa da [99, s. 139], bu plan sonra müəyyən qədər dəyişdirilmiş və osmanlılar İrəvan şəhərini tutduqdan sonra qışlamaq üçün Ərzuruma qayıtmışdılar [110, s. 76]. Bu zaman Səfəvi hökmdarının Azərbaycana gəlməsi və İrəvan hakimi Toxmaq xan Ustaclının isə Naxçıvana çəkildikdən sonra burada qala tikdirmək arzusu Osmanlıları Naxçıvan istiqamətində hücumu davam etdirmək fikrindən çəkindirmişdir [65, s. 65; 99, s. 139]. Həmin il Osmanlı qoşunlarının Səfəvilər üzərinə hücum planını dəyişdirməsi müvəqqəti olsa da Naxçıvanın tutulmasını ləngitmişdir. Lakin mənbələrin verdiyi məlumatlara əsasən bu zaman Sultan III Murad hərbi-strateji mövqeyinə görə Naxçıvanın fəth edilməsinə daha çox səy göstərirdi. Sultan 1585-ci ilin avqustunda Osman paşanı Səfəvilər üzərinə göndəriləcək qoşuna başçı təyin edərkən, ona əsas məqsədinin Naxçıvanın tutulması olduğunu bildirmişdi [114, s. 109-110]. Osmanlı qoşunu yolda ikən Səfəvi əsirliyindən qaçmış Qazi Girey xan Osman paşaya şahın Qarabağda olması xəbərini çatdırmış və o, həmin xəbəri Çaldıranda olarkən tam dəqiqləşdirmişdir. Bundan sonra Osman paşa əvvəlki planını dəyişərək Təbriz istiqamətində hücuma keçmişdir [110, s. 79].

Bu zaman Səfəvi şahı saray adamları ilə Qarabağdan cənuba doğru hərəkət etmiş və Bazarçaydan keçərək Naxçıvana yola düşmüşdü. O, yolda ikən məlumat aldı ki, Osman paşa Mərənddədir və Təbrizə doğru hərəkət edir. Buna görə də Həmzə Mirzə 20 min nəfərlik qoşunla ona qarşı göndərildi. O, Ordubaddan keçib Dızmar Üzümdülə tərəf hərəkət etdi [16, s. 219]. Lakin Osmanlıların yaxşı silahlanmış və sayca üstün qüvvələri qarşısında qızılbaşlar məğlubiyyətdən yaxa qurtara bilmədilər.

1585-ci ildə Təbrizin işğalından sonra sultanın əmri yerinə yetirildi və 1586-cı ildə Naxçıvan ölkəsi yenə Osmanlılar tərəfindən tutuldu. Bu zaman bir sıra bölgələrlə yanaşı, Naxçıvan ölkəsi də yerli hakimin istəyi ilə Osmanlı idarəçiliyinə tabe edilmişdi [98, s. 373]. Şərəfxan Bitlisi göstərir ki, bu tabeçilik heç də səmimi deyildi [135, s. 252]. Bunun bir səbəbi o zaman Təbrizi tutan türklərin orada güclü dağıntılar törətməsindən sonra Naxçıvanı belə bir təhlükədən qorumaq idisə, digər səbəbi həmin vaxt mərkəzi hakimiyyətin dövlətin idarə olunması və sərhədlərinin toxunulmazlığını təmin edə bilməməsi idi. Nəticədə Naxçıvan hakimi tez-tez təkrarlanan dağıntılar, qırğınlar, talanlar və s. üzücü müharibələrin nəticələrindən yaxa qurtarmaq məqsədilə məcburən Osmanlı hakimiyyətini qəbul etmişdir. Lakin 1587-ci ildə hakimiyyətə gələn I Şah Abbasın Naxçıvan hakimi təyin etdiyi Zülqədərli Şahqulu Sultan 1587-1588-ci ilin qışında Naxçıvan bəyini məğlub edərək bölgəni geri almışdı [65, s. 66; 98, s. 373].

Bununla belə Səfəvilərin Naxçıvanda hakimiyyətinin bərpası çox da uzun sürmədi. Belə ki, 9-10 aydan sonra, 1588-ci ilin noyabrında osmanlılar bölgəni yenidən tutdular [98, s. 373]. Həm də bu dəfə osmanlılar tutduqları Azərbaycan bölgələrində müəyyən müddətə möhkəmlənə və öz idarəçilik sistemlərini qura bildilər. Mənbələrin məlumatlarından aydın olur ki, 1586-cı ildə Naxçıvan hakimi özü ölkəsini osmanlıların hakimiyyəti altına keçirmişdir. 1588-ci il işğalı haqqında Şərəfxan Bitlisi belə yazmışdır: "Bu il sərdar Fərhad paşa Naxçıvan vilayətinin tutulması üçün yerli sakinlərin xahişinə görə İrəvan əmirəl-üməraası Xızır paşanı ora göndərdi. Xızır paşa ora gələndə rəiyyət, əyanlar və sakinlər itaət göstərdilər, o, bu vilayətin sahibi oldu və qəsəbədə Balaban köşkü adlı qüdrətli qalanın əsasını qoydu" [135, s. 260]. Rəsmi şəkildə bölgənin Osmanlı hakimiyyəti altına düşməsi isə 1590-cı ildə Səfəvilər dövləti ilə Osmanlılar arasında bağlanan İstanbul sülh müqaviləsi ilə təsdiqlənmişdir.

Şah I Təhmasibin ölümündən 1587-ci ilədək Naxçıvan ölkəsində qeyri-sabit vəziyyət hökm sürmüşdür. Osmanlı-Səfəvi müharibələri nəticəsində dağıntılar və asayişin tez-tez pozulması halları baş vermişdir. Bu müharibələrin Naxçıvan bölgəsi üçün ən acı nəticələrindən biri də əhalinin kütləvi şəkildə öz doğma yaşayış yerlərini tərk edərək Azərbaycanın başqa bölgələrinə köçməsi olmuşdur. Bu fikri bir neçə il sonra hazırlanan Osmanlı dövlət sənədləri təsdiq edir. Belə ki, 1590-cı ildə Osmanlılar tərəfindən tərtib edilən "İrəvan əyalətinin müfəssəl dəftəri"nə əsasən Naxçıvan sancağı üzrə 393 yaşayış məskənindən 269-nun əhalisi öz yerlərini tərk etmişdir. Hətta sancağa tabe olan Bazarçayı, Zar, Zəbil nahiyələrinin kəndləri tamamilə boşalmışdır [60, s. 13]. Həm xarici müdaxilə, həm də daxili hakimiyyət çəkişmələri əhalinin sayının azalmasına, abad şəhərlər, qəsəbələr, kəndlər və s. yaşayış yerlərinin dağıdılmasına gətirib çıxarmışdır.

Naxçıvan bölgəsi 1588-ci ildən Osmanlı idarəçiliyinə daxil edilmiş və burada Naxçıvan sancağı inzibati ərazi bölgüsü yaradılmışdır. 1603-cü ilədək, yəni 15 il müddətində Osmanlı idarəçiliyi altında qalan bölgədə əvvəlki illərlə müqayisədə sabitlik, müharibəsiz vəziyyət hökm sürmüşdür. Həmin vaxt Naxçıvanın idarə olunması Osmanlı hökuməti tərəfindən Xızır paşaya həvalə olunmuşdu [71, s. 127-128]. Osmanlılar üçün hərbi-strateji baxımdan əlverişli mövqedə yerləşən Naxçıvan sancağı mühüm əhəmiyyət kəsb edirdi. Burada onlar hərbi və siyasi baxımdan daha çox möhkəmlənməyə çalışırdılar. Bu zaman Osmanlı qoşunlarının komandanlığı Naxçıvan şəhərini öz hərbi düşərgələrindən birinə çevirərək orada xüsusi hərbi dəstələrini saxlayırdı [49, s. 127]. Onlar əhalinin mövcud hakimiyyətə marağını artırmaq üçün vergi siyasətini müəyyən qədər tənzimlədilər.

1603-cü ildə I Şah Abbas tərəfindən Naxçıvan azad edilərkən əhali şah qoşunlarını rəğbətlə qarşılamışdır [99, s. 262]. Bəzi yerlərin, o cümlədən, Ordubad şəhərinin osmanlılardan alınmasında yerli camaat Səfəvi qoşunlarına xeyli kömək etmişdir. Türk tarixçisi Nəimənin yazdığına görə, I Şah Abbas Naxçıvana

yaxınlaşanda ordubadlı Hacı Qəssab şəhəri zəbt etmək haqqında şahdan xüsusi göstəriş aldı. Səfəvi qoşunu şəhərə daxil olan kimi əhali onları qarşıladı, evlər və bazarlar bəzədildi. Şəhər əhalisi qızılbaş forması geyindi, əvvəlcədən saqqallarını qırxdırıb uzun bığ saxladı. Əhalinin köməyi ilə bir-iki gündən sonra Ordubad qalası tutuldu. Şəhərlilərin təklənməsindən istifadə edən İrəvanın Osmanlı hakimi Şərif paşa şah qoşununun əsas hissəsi gəlib çatana qədər Ordubada 500 nəfərlik dəstə göndərdi və yenidən şəhərə yiyələndi [7, s. 475]. Lakin sonra şah uğurlu hərbi əməliyyatlar keçirərək buranı azad etdi [83, s. 36]. Bu zaman şəhər əhalisinin qızılbaşlara olan rəğbətini nəzərə alan şah xüsusi fərmanla onları xəzinəyə veriləcək bir sıra vergilərdən azad etmişdir [116, s. 28]. Ordubaddan başqa Culfa və Əlincə nahiyələrində də yerli əhali bu yerlərin azad edilməsində şah qoşunlarına yaxından kömək etmişdilər [99, s. 262].

Naxçıvana xüsusi önəm verən I Şah Abbas bölgənin alınmasından üç gün sonra buraya gəlmişdir [49, s. 130]. Həmin dövrdə Naxçıvan Səfəvi və Osmanlı dövlətləri arasında sanki bir körpü rolunu oynayırdı. Amma bu körpü birləşdirici yox, hərbi-strateji cəhətdən əhəmiyyətli mövqe xarakteri daşıyırdı. Buna görə də Səfəvilər tezliklə bölgədə hərbi qərargahlarını möhkəmləndirdilər.

Lakin bu heç də Naxçıvan və digər Azərbaycan bölgələri üçün siyasi sabitliyin əldə edilməsində son nöqtə olmadı. 1605-ci ildə Osmanlı dövləti sərdar Sinan Paşanın rəhbərliyi altında I Şah Abbasa qarşı böyük bir ordu göndərdi [115, s. 183]. Osmanlıların bu dəfəki, hücumunun səbəbi 1603-cü ildə əldən verdikləri Azərbaycan bölgələrini geri qaytarmaqla bərabər, Şərqdə zəifləyən nüfuzlarını bərpa etmək məqsədini reallaşdırmaq idi. Digər Azərbaycan bölgələri kimi Naxçıvan bölgəsi də müharibə gedən ərazilərə daxil idi. Həm də bu zaman bölgə XVII əsrdə ən ağır və kəşməkəşli illərini yaşamışdır. Belə ki, Səfəvilərin "ənənəvi yandırılmış torpaq taktikası"ndan istifadə edən I Şah Abbas öz məqsədlərinə çatmaq üçün dövlətin qərb sərhədlərində yerləşən ərazilərində güclü dağıntılar və amansız köçürmə siyasətini həyata keçirmişdir. Hələ Osmanlı qoşunları ölkə ərazisinə daxil olmamış şahın əmrilə Arazın sol sahili boyunda olan yaşayış yerlərinin əhalisi qısa müddətdə, zorla öz doğma yurdlarından Səfəvilər dövlətinin mərkəzi vilayətlərinə köçürülmüşdür. Şah tərəfindən yerli əhalinin məqsədli şəkildə geniş miqyasda köçürülməsi siyasəti tarixdə "Böyük sürgün" adını almışdır.

Bu zaman Əmirgünə xan Qacara İrəvan, Maqsud Sultan Kəngərliyə Naxçıvan, şahın qulamı Təhmasibqulu bəyə Culfa əhalisinin köçürülməsinə rəhbərlik etmək tapşırıldı [124, s. 102]. Təcili surətdə həyata keçirilən bu amansız fərmanın icrası haqqında o dövr mənbələrindən birində belə yazılır: "Xalqı köçürmək üçün göndərilən Səfəvi qoşunu şəhər və kəndlərdən onları sürgün etdilər, bütün ictimai binaları, evləri və s. amansızcasına yandırdılar. Həmçinin tədarük edilmiş ot və küləş ehtiyatını, buğda, arpa və digər ərzaqları, bütün hər

şeyi dağıtdılar və yandırdılar" [103, s. 49]. Hətta bir müddətdən sonra şah geri qayıdarkən bir gün Naxçıvanda qalmalı olmuşdur. Lakin ətraf yerlər elə dağıdılmışdı ki, burada şah və onun əyanları üçün ərzaq ehtiyatı tapmaq mümkün olmamışdır. Bu haqda o dövr xatirə yazılarından birində deyilir: "Culfadan başlayaraq Naxçıvana və Vana qədər bir bina da olsun salamat qalmamışdı" [49, s. 133-134].

Bütün bu dağıntı və sürgünlərə baxmayaraq, Cığal oğlu Sinan Paşanın başçılıq etdiyi Osmanlı qoşunu 1605-ci ildə İrəvan və Naxçıvan civarına daxil oldu [124, s. 70]. Əhalisi boşaldılmış və xarabalığa çevrilmiş bölgə ərazisində osmanlılar böyük çətinliklərlə - ərzaq və yem ehtiyatının çatışmazlığı, havaların soyuqlaşması və s. ilə üzləşmələrinə baxmayaraq, Naxçıvan şəhərinə doğru irəlilədilər. Əlbəttə ki, boş və müdafiəsiz qalmış bölgəni işğal etmək yox, orada yerləşmək olardı. Bir qədər sonra şah tərəfindən Osmanlılara qarşı Əmirgünə xanın başçılığı ilə göndərilmiş qoşunla Ömər Ağanın hərbi qüvvələri arasında döyüş baş verdi. Bu mübarizədə Səfəvilər qələbə qazandı. Döyüş zamanı Osmanlı Ömər Ağa öldürüldü və onun əsir götürülmüş əsgərləri Təbrizə göndərildi. Bundan sonra şah Naxçıvanda qalmağı və bölgəni Osmanlılardan müdafiə etməyi Əmirgünə xana həvalə etdi [49, s. 136].

1606-cı ilin baharında Osmanlı qoşunu Qacar paşa və Mustafa paşanın rəhbərliyi altında Vandakı kürd əmirləri ilə birlikdə Naxçıvan üzərinə hərəkət etdi. Həmin vaxt Əmirgünə xan Qacar qazilərdən ibarət bir dəstə və tabeliyindəki əmirlərlə Araz çayı kənarına kimi irəliləmiş, onun qorxmazlığını və cəsarətli addımını görən Osmanlı paşaları ehtiyat edib irəli çıxmağa cürət etməmiş və geri dönmüşdülər [62, s. 92]. Bu zaman Osmanlı qoşunlarının müəyyən hissəsi bölgə üzərinə hücum etsə də, qarşı tərəfin müqavimətindən çəkinərək döyüşə girməmişlər. 1603-1607-ci illərdə baş vermiş Osmanlı-Səfəvi müharibələri zamanı Naxçıvan işğaldan azad edilmişdir.

Sosial-siyasi vəziyyətin ağırlığı üzündən Azərbaycan və Osmanlı dövləti ərazisində bu illərdə məhşur Cəlalilər hərəkatı baş vermişdir və bu hərəkat Naxçıvan bölgəsini də əhatə etmişdir. Osmanlı ərazisindən başlanan hərəkatın qonşu Səfəvi dövlətinin ərazisinə - Azərbaycan bölgələrinə də yayılmasının başlıca səbəbi həmin vaxt buranın Osmanlı idarəçiliyi altında olması idi. XVII əsrin başlanğıcında Səfəvi torpaqları işğaldan azad edildikdən sonra Cəlali dəstələrinin müəyyən hissələri Azərbaycan ərazisinə daxil oldular. Burada onlar yerli Cəlali tərəfdarları ilə birləşərək müəyyən ərazilərə nəzarəti ələ keçirdilər. Ərzurum ətrafında 1608-ci ildə Osmanlı qoşunu ilə döyüşdən sonra Cəlalilər Səfəvi hakimiyyətinin razılığı ilə Azərbaycana pənah gətirdilər [9, s. 248-249]. Bu zaman Naxçıvan bölgəsi də daxil olmaqla Azərbaycan torpaqları Osmanlılardan azad edildiyindən Cəlalilərin bura gələn müəyyən dəstələri yerli hərakat tərəfdarları ilə birləşərək, Səfəvi hakim dairələrinin özbaşınalığına qarşı mübarizəni davam etdirmişdilər. İ.Petruşevski qeyd edir ki, Azərbaycana gəldikdən sonra Cəlalilər çoxlu pərakəndə

dəstələrə bölündülər, bu zaman onların əsas aparıcı qüvvələri Şimali və Cənubi Azərbaycanda, xüsusilə də, Naxçıvan bölgəsində yerli əyanlara və bu yerlərin bəylərbəyilərinə qarşı mübarizəyə başladılar [121, s. 327]. Cəlalilər hərəkatı Naxçıvan ərazisində əsasən XVII əsrin əvvəllərində (1608-1610-cu illərdə) geniş vüsət tapmışdı [49, s. 121].

I Şah Abbasın ölümündən sonra, I Səfinin hakimiyyəti zamanı (1629-1642) Osmanlı-Səfəvi müharibələri yenə də davam etməkdə idi. 1635-ci ilin martında Sultan IV Muradın əmrilə Osmanlılar böyük bir ordu ilə - 200 minlik hərbi qüvvə və 130 topla Səfəvilər üzərinə hücuma keçdilər [64, s. 99-104]. Bu zaman Təbriz və İrəvan şəhərləri ilə yanaşı, Naxçıvan da Osmanlılar tərəfindən tutuldu. Həmin vaxt Naxçıvan şəhəri Məhəmməd paşanın dəstəsi tərəfindən fəth edildi [49, s. 137]. Əvvəlki dağıntılardan sonra hələ bərpa olunmamış bölgə yenidən dağıdıldı. Həm də Naxçıvanda bu dəfəki dağıntılar daha geniş şəkildə həyata keçirildi [49, s. 136-137; 120, s. 291]. Bu o zaman bölgəyə səfər edən bir sıra səyyahların da diqqətindən kənarda qalmamışdır. 1664-cü ildə burada olmuş fransız səyyahı Tavernye Naxçıvan şəhəri haqqında yazır: "Bu kifayət qədər böyük şəhərdir. Lakin türklər hamısını tamamilə dağıtmışdır" [15, s. 81]. 1673-cü ildə İrəvan, Naxçıvan, Culfa, Mərənd, Təbriz və s. Azərbaycan şəhərlərində olan J.Şardən gündəliyində yazır ki, I Şah Abbas Naxçıvanı Osmanlılardan alandan sonra qala və istehkamlarını sökdürmüş, xaraba qoymuş və əhalisini köçürmüşdü. Həmçinin səyyah qeyd edir ki, şəhər səksən faiz dağıdılmış böyük və qeyri-adi viranə topasıdır [88, s. 63]. Səyyahların qeydləri həmin vaxt burada dağıntıların geniş miqyasda həyata keçirilməsindən xəbər verir.

Bağdadın itirilməsi ilə barışmayan sultan I Səfinin hakimiyyətinin ilk illərindən Səfəvilərlə müharibələri davam etdirmişdir. Bu müharibələr zamanı Naxçıvan da digər Azərbaycan bölgələri kimi döyüş meydanına çevrilmişdir. Lakin I Səfi də babası kimi gedən müharibələrin çoxunda qalib gəlmişdir. 1635-ci ildə türklərin bu yerləri fəth etməsinə baxmayaraq, sonda Səfəvilər qələbə qazanmışdır. Bu illərdə Səfəvi şahının ən böyük uğuru isə 1578-ci ildən bəri davam edən Osmanlı-Səfəvi müharibələrinə son qoyan sülh müqaviləsini əldə etməsi idi. Şah 1639-cu ildə Qəsri-Şirində bağlanan müqavilə ilə İraq-i Ərəbi Osmanlılara versə də, əvəzində bu iki dövlət arasında uzunmüddətli sülhün imzalanmasına nail oldu. Bu müqaviləyə əsasən Naxçıvan əvvəlki kimi, Səfəvilərin hakimiyyəti altında qaldı [97, s. 12].

**XVII əsrin II yarısı – XVIII əsrin I qərinəsində siyasi vəziyyət.** Səfəvilər dövlətinin tarixində XVII əsrin II rübündən başlayaraq birinci və sonuncu dəfə idi ki, Osmanlı-Səfəvi müharibələrinə Qəsri-Şirin sülhü ilə belə uzun fasilə verilirdi. Ancaq osmanlılarla Səfəvilər arasında uzun sürən müharibələrə belə geniş fasilə verilməsinə baxmayaraq, əvvəlki illərin acı nəticələri Səfəvi torpaqlarında iqtisadi, siyasi və mədəni sahədə tənəzzülün getdikcə dərinləşməsinə gətirib çıxardı. Bu tə-

nəzzülün əsas səbəbi isə XVI əsrin sonu XVII əsrin əvvəllərində qısa fasilələrlə davam edən Osmanlı-Səfəvi müharibələri və onların acı nəticələri idi ki, onlardan da daha çox əziyyət çəkən Azərbaycan bölgələrindən biri Naxçıvan ölkəsi idi. Bir tərəfdən başqa Səfəvi torpaqları kimi XVI əsrin sonlarında Osmanlı imperiyası tərəfindən tutulması, digər tərəfdən isə Osmanlı və Səfəvi ordularının törətdiyi qırğınlar, dağıntılar, talanlar və ən əsası isə I Şah Abbasın həyata keçirdiyi "Böyük sürgün" siyasəti haqqında bəhs edilən dövrdə bölgədə yaşayış səviyyəsini minimuma enməsi ilə nəticələnmişdi. Bu zaman bölgədə siyasi sabitliyin pozulmasına təsir edən amillərdən biri də iqtisadi tənəzzülün baş verməsi olmuşdu. Belə ki, XVII əsrin 70-ci illərində Azərbaycan ərazisində baş verən quraqlıq Naxçıvan ölkəsindən də yan keçməmişdi. Bu da həmin illərdə Naxçıvanda onsuz da ağır olan iqtisadi vəziyyətin daha da pisləşməsinə gətirib çıxardı. Hələ 60-cı illərin əvvəllərindən Azərbaycanda başlayan ərzaq qıtlığı quraqlıq dövründə daha da artdı. Çörək çatışmazlığı Təbriz, Qarabağ, Gəncə, Qafan, İrəvan, Naxçıvan və s. bölgələri bürümüşdü [121, s. 302]. Həmin illərdə Naxçıvan bölgəsində, xüsusilə də onun cənub-şərq hissəsində şiddətli aclıq başladı [49, s. 137]. Aclıq səbəbindən əhali arasında oğurluq və qarət halları artmışdı. Kəndlilər böyük dəstələrlə şəhərlərə doğru axışır, dövlətin taxıl anbarlarına hücumlar edib onları qarət edir, varlıların malikanələrini dağıdırdılar [9, s. 294; 49, s. 138]. Bu da hakim siniflə yoxsul təbəqə arasında qarşıdurmanın yaranmasına səbəb olurdu və nəticədə əhalinin kütləvi qiyamları baş verirdi. Vəziyyətin belə ağır vaxtlarında Naxçıvan hakimi də taxıl çatışmadığı üçün başqa Azərbaycan bölgələrindəki kimi, 1673-cü ildə taxıl ixracını qadağan etdi [49, s. 137]. Ərzaq məhsullarının qıtlığı bazarda qiymətlərin artmasına, bahalaşmaya səbəb olmuşdu. Bu zaman Naxçıvan da daxil olmaqla, Azərbaycanın əksər bölgələrində buğda və arpanın qiyməti kəskin şəkildə qalxmışdı [121, s. 302].

XVII əsrin ikinci yarısı – XVIII əsrin əvvəllərində dövlətin iqtisadi sahədə belə çətinliklərlə qarşılaşmasının bir səbəbi də Səfəvi şahlarının fəaliyyətsizliyindən asılı idi. Məsələn, dövlət işlərini baş vəziri Fətəli xana həvalə etmiş şah Sultan Hüseyn (1694-1722) bununla saray məmurlarının ölkəni istədikləri kimi idarə etməsinə imkan yaratmışdı. Nəticədə məmur özbaşınalığı, kənd təsərrüfatının tənəzzülü, vergilərin artırılması və s. səbəblər ölkədaxili vəziyyətin gərginləşməsinə gətirib çıxarırdı. Dövlət xəzinəsinin boşalması elə həddə çatmışdı ki, hətta bəzi sahələrdə bir neçə il idi ki, maaşları ödəmək mümkün olmurdu. Belə ki, hələ 1667-ci ildə Naxçıvan, Culfa və İrəvanda hərbi sahədə iki il müddətinə maaşları verilməyən Qacar və Bayat tayfalarından olan döyüşçülərin üsyanı baş verdi. Üsyançılarla mübarizədə geriyə çəkilən vilayət hakimi Səfiqulu xan qalaya sığındı. Lakin tezliklə şahın yeni təyin etdiyi hakim bu üsyanı amansızlıqla yatırmağa müvəffəq oldu [9, s. 294].

Vergilərin artırılması səbəbindən əhali vaxtında öz vergi ödəmələrini yerinə

yetirə bilmirdi. Bir qaynaqda qeyd olunur ki, bəylərbəyinin əmri ilə Naxçıvanda bir gecənin içində 35 nəfər əlavə vergiləri verə bilmədiyi üçün edam edilmişdi [42, s. 173]. Belə qarşıdurma və təzyiqlər Naxçıvan əhalisinin vəziyyətini və bölgənin siyasi durumunu gərginləşdirirdi. Bu azmış kimi şah Sultan Hüseynin 1699-1702-ci illərdə həyata keçirdiyi bütün ölkə əhalisinin siyahıya alınması [51, s. 74] məsələsi insanların acınacaqlı günlərinin başlanmasına rəvac verdi. Boşalmış dövlət xəzinəsini aşağı təbəqələrin var-yoxdan çıxarılması hesabına doldurmaq üçün şahın həyata keçirdiyi bu kampaniya xalqın son qəpiklərinin əlindən alınmasını nəzərdə tutmuşdu. Siyahıya almanın çox dəqiqliklə yerinə yetirilməsi bu işin məqsədini aydın şəkildə göstərir. O dövr mənbələrindən birində deyilir ki, şah bu barədə belə bir fərman vermişdi: “Kim gizlənəni və gizlədəni tapsa və onun barəsində şaha xəbər versə, gizlədənin başı şaha, əmlakı isə xəbər verənə çatacaqdır” [26, s. 6]. Bundan sonra artırılan vergilər əhalinin vəziyyətini kəskin şəkildə pisləşdirdi. Təbii ki, bu Naxçıvan bölgəsi də daxil olmaqla bütün Azərbaycanda əhalinin haqlı narazılığına səbəb oldu [121, s. 301] və əksər bölgələrdə XVIII əsrin əvvəllərində üsyanlar baş verdi. Bu haqda 1715-ci ildə Azərbaycan ərazisindən keçib İrana gedən Rusiya səfiri A.P.Volınski öz təəssüratında belə yazmışdı: “Səfəvilər dövlətində çox az yer tapmaq olar ki, orada hökumətə qarşı üsyan baş verməmiş olsun” [14, s. 99; 22, s. 16]. Bu üsyanlar Səfəvi hakimiyyətinin sarsılmasının başlıca səbəblərindən biri olmuşdur [22, s. 11].

Qəsri-Şirin müqaviləsindən əvvəlki siyasi gərginlikdən, yəni Osmanlı-Səfəvi müharibələrinin dağıdıcı təsirlərindən fərqli olaraq artıq daxili çəkişmələr Naxçıvanda da vəziyyətin normallaşmasına mənfi təsir göstərirdi. Hadisələrin bu cür cərəyan etməsinin səbəbi mərkəzi hakimiyyətin, yeritdiyi səhv siyasət və iqtisadi sahədə dərin tənəzzülün davam etməsi idi. Ən acınacaqlı hal isə siyasi gərginliyin daha da artması və şahın 1722-ci ildə üsyançı Əfqan tayfaları tərəfindən taxtdan salınması oldu. Səfəvilər imperiyasında siyasi vəziyyətin belə ağır olduğu vaxtda Rusiya və Osmanlı dövlətləri Səfəvi torpaqlarına açıq müdaxilə etməyə başladılar [44, s. 40]. Elə həmin ildə Rusiya çarı I Pyotr böyük bir ordu ilə hücum edib Xəzəryanı əraziləri tutdu. Sonra müəyyən səbəblər üzündən geriyə çəkilsə də, növbəti illərdə yenidən həmin torpaqları zəbt etdi [112, s. 201]. Nəticədə II Şah Təhmasibin formal hakimiyyətinin mövcud olduğu az bir qism Səfəvi torpaqları (Astarabad, Mazandaran və Gilanın bir hissəsi) istisna olmaqla yerdə qalan ərazilər Osmanlı və Rusiya dövlətləri arasında bölüşdürüldü. 1724-cü il iyunun 12-də İstanbulda bağlanan sülh müqaviləsinin şərtlərinə görə Azərbaycanın Xəzəryanı torpaqları Rusiyaya, qalan ərazisinin əksər hissəsi isə osmanlılara verildi [56, s. 29-30].

Bu ədalətsiz işğal nəticəsində Naxçıvan bölgəsi də osmanlılar tərəfindən tutuldu. Bu zaman osmanlı sultanı Arifi Əhməd paşanı Osmanlı qoşununa sərəsgər təyin etdi, ona İrəvan şəhərini tutmaq tapşırığını verdi [56, s. 25]. Beləliklə, bu

əmri yerinə yetirən Arifi Əhməd paşa öz qoşunu ilə 1724-cü il avqust ayının ortalarında hücum edərək İrəvan qalasını mühasirəyə aldı. Ancaq Osmanlılar burada qala müdafiəçilərinin sərt müqaviməti ilə üzləşdilər. Yalnız avqust ayının sonlarında türklər İrəvanı tuta bildilər [56, s. 31]. Hələ qala uğrunda mübarizə gedən zaman Osmanlı qoşunları II Təhmasibin İrəvan müdafiəçilərinə köməyə göndərdiyi hərbi qüvvələrin qarşısını almaq məqsədilə Naxçıvan istiqamətində hərəkət etdilər [55, s. 99]. Həmin vaxt Arifi Əhməd paşa Bəyazid hakimi Mahmud paşaya, Ələşkert bəyi Xəlil bəyə və başqalarına cənuba, Naxçıvan ölkəsinə doğru hərəkət etməyi əmr etdi [59, s. 12]. Bu əmrdən aydın olur ki, Naxçıvan istiqamətində göndərilən Osmanlı qoşunları İrəvan qalası uğrunda vuruşan türk qoşununun bir hissəsi idi və bu əməliyyatı yerinə yetirənlərin məqsədi isə köməyə gələn Səfəvi qoşununun qarşısını almaq olmuşdu. Beləliklə, osmanlılar Naxçıvan yaxınlığında kömək üçün göndərilən qızılbaşları məğlub etdikdən sonra [56, s. 32], 1724-cü ilin sentyabrın əvvəllərində Naxçıvan şəhərini tutdular [59, s. 12]. Bundan sonra, sentyabrın 10-da onlar Ordubad üzərinə hücuma keçdilər. Ordubad yaxınlığında, osmanlılarla Naxçıvan hakimi Mənsur xanın 8 minlik qoşunu arasında bir saat davam edən döyüş baş verdi və burada da osmanlılar qələbə qazandılar [56, s. 32; 78, s. 44]. Ölkə hakiminin Ordubad yaxınlığında osmanlılarla mübarizəsi göstərir ki, Naxçıvan tutulan zaman yerli hakimiyyət orqanları müqavimət göstərməmiş, əvəzində hərbi qüvvə ilə birlikdə Ordubada doğru hərəkət etmiş, lakin onlar burada da, məğlubiyyətdən yaxa qurtara bilməmişdilər.

Sülh müqaviləsində göstərilən Azərbaycan torpaqlarını, xüsusilə də Naxçıvan bölgəsini tutduqdan sonra osmanlılar bu yerlərdə öz üsul-idarələrini qurmağa başladılar. Əvvəlki idarəçilik zamanında (1588-1603) olduğu kimi, yenə də, 1724-cü ildə onlar “Naxçıvan sancağı” inzibati ərazi bölgüsünü tətbiq etdilər. Yəni digər Azərbaycan bölgələrində olduğu kimi Naxçıvan ölkəsində də onun əksər ərazilərinin daxil olduğu eyni adlı sancaq yaradıldı. Qeyd etmək lazımdır ki, 1724-1726-cı illər ərəfəsində osmanlılar Naxçıvan sancağı ilə yanaşı, bu bölgədə Ordubad sancağını da təşkil etmiş, lakin “dəftər” qüvvəyə minən vaxt onun saxlanılmasını lazım bilməmişlər [60, s. 11].

Bu zaman Naxçıvanın osmanlılar tərəfindən idarə edilməsi burada siyasi sabitliyin bərqərar olmasına gətirib çıxardı. Ən əsası belə vəziyyət müvəqqəti olsa da, bölgədə müharibələrin davam etməsini dayandırdı. Çünki İstanbul sülhü (1724) ilə bu torpaqları ələ keçirmək istəyən dövlətlər hərəsi öz payını əldə etmişdi. Tətbiq edilən Osmanlı üsul-idarəsi vergilərin nizamlı şəkildə toplanmasını təmin etməklə yanaşı, daxili gərginliyə də müəyyən qədər son qoydu. Yenə də osmanlılar “Naxçıvan sancağının müfəssəl dəftəri”ni tərtib etmək üçün 20 yaşdan yuxarı əhalini siyahıya aldılar. 1727-ci ildə həmin müfəssəl dəftər Osmanlı hökumətinin fərmanı ilə qüvvəyə mindi [60, s. 24]. Bu sənədin 3 ilə hazırlanması göstərir ki, mövcud hakimiyyət orqanları bu işin təşkilinə xüsusi diqqət yetirirdilər.




***Naxçıvan sancağının inzibati ərazisi***
***(XVIII əsrin 20-30-cu illəri)***

Osmanlılar tərəfindən bölgədə kənd təsərrüfatının canlandırılması əhalinin yaşayış səviyyəsinin az da olsa yüksəlməsinə kömək etdi. Artıq bütün Naxçıvan ərazisində, hətta boş kəndlərin əkinə yararlı torpaqlarının əkilib becərilməsi insanların məşğuliyyət sahələrinin artmasına imkan yaratmışdı. Bu zaman Osmanlı üsul-idarəsi bölgədə asayişin qorunmasını təmin edirdi. Belə ki, dirlik (torpaq) sahibləri onlara verilən dirlik ərazisində əmin amanlığa cavabdeh olan şəxs kimi bölgədə asayişi qorumalı, kəndlinin canının, malının, mülkünün toxunulmazlığını təmin etməli idi [36, s. 25]. Təbii ki, osmanlılar bu idarəçilik qayda-qanunlarını həyata keçirməklə insanların əldə etdikləri məhsullardan bir çox vergilər alaraq xeyli gəlir götürürdülər. Amma vergi mükəlləfiyyətləri yerinə yetirmək çətin olsa da, əvəzində qazanılmış siyasi sabitlik təsərrüfat işlərinin həyata keçirilməsində kəndlilərə geniş imkanlar yaratmışdı. Bütün bunlar Osmanlıların əldə etdikləri qazanc hesabına bölgədə siyasi vəziyyəti stabilləşdirdiklərini göstərir. Lakin bu torpaqlarda Osmanlı idarəçiliyi çox da uzun sürmədi. 1736-cı ildə Muğan

qurultayında şah elan edilən Nadir Səfəvilər sülaləsinin hakimiyyətinə son qoydu və Naxçıvan da daxil olmaqla Azərbaycan torpaqlarını osmanlılardan azad etdi.

Ümumiyyətlə, Səfəvilərin son dövründə bütün Azərbaycan ərazisində, xüsusilə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində istər daxili, istərsə də xarici müdaxilələrin təsirindən mürəkkəb siyasi vəziyyət yaşanmışdı. Ən azı İstanbul sülhünün nəticələri bütöv Azərbaycan üçün fəlakətin başlanğıcı idi. Çünki bu müqavilədən sonra ölkə ərazisi dörd yerə bölündü. Bir xalqın tarixi torpaqları Səfəvi, Osmanlı, Rusiya dövlətləri və sultandan yarımasılı olan Şirvan xanlığı arasında parçalandı. Müvəqqəti davam edən bu bölgü vahid mədəniyyətin sarsılmasına səbəb olsa da, qısa zaman kəsiyində (12 il) siyasi gərginliyin azalmasını təmin etmiş oldu. Amma ən acınacaqlısı o idi ki, İstanbul müqaviləsi gələcəkdə - XIX əsrin əvvəllərində Azərbaycan torpaqlarının Rusiya və İran dövlətləri arasında bölüşdürülməsinin təməlini atmış oldu.

## 2. Naxçıvanın iqtisadi həyatı

**Kənd təsərrüfatı.** XVI əsrdə Səfəvilər dövlətinin yaranması Azərbaycanın bir çox bölgələri ilə yanaşı Naxçıvanda da ictimai-iqtisadi həyatın əksər sahələrində, o cümlədən də kənd təsərrüfatının inkişafında mühüm rol oynamışdı. Səfəvilər dövründə Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da kənd təsərrüfatının əkinçilik sahəsi daha çox inkişaf etmişdi [16, s. 180; 49, s. 106]. Naxçıvanın iqtisadi həyatında ticarət və sənətkarlığın mühüm rol oynamasına baxmayaraq, əhalinin çox hissəsi əkinçiliklə məşğul olurdu [115, s. 38]. Bölgənin təbii-coğrafi şəraiti yarımoturaq və oturaq həyat tərzi keçirən əhalinin taxılçılıq, bağçılıq və bostançılıqla məşğul olmasına kömək edirdi. Səfəvilər dövlətinin iqtisadi həyatında aparıcı yerlərdən birini tutan Naxçıvan bölgəsi [109, s. 55; 125, s. 123] özünün yüksək əkinçilik mədəniyyəti, xüsusilə taxılçılıq – buğda yetişdirilməsi ilə şöhrət qazanmışdı [115, s. 38]. Dağlıq, dağətəyi və düzən torpaq relyefinə malik olan bölgə ərazisində taxıl bitkiləri düzən torpaqlarda süni suvarma, dağlıq ərazilərdə isə dəmyə üsulu ilə yetişdirilirdi [47, s. 18]. XVII-XVIII əsrlərdə Naxçıvanda əkin sahələrinin suvarılması üçün Nəxşi-nərgiz, Bulqan, Həlqə, Tahunə, Kültəpə, Pərran, Qoşadizə, Çətsaz, Nəhcur və s. kimi su ehtiyatlarından istifadə olunurdu [76, s. 10]. Təbii ki, bunlar bölgə ərazisinin az bir hissəsinin – Naxçıvan və bir neçə qonşu nahiyənin suvarma mənbələri olmuşdur. Ümumilikdə bölgənin əkin sahələrinin suvarılmasında Araz, Arpaçay, Naxçıvançay, Gilançay və s. çayların suyundan istifadə edilmişdir.

Bəhs edilən dövrdə Naxçıvanda arpa, buğda, darı və s. taxıl bitkilərinin əkilib-becərilməsinə geniş yer verilmişdir [50, s. 20]. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə verilmiş qeydlərdən də məlum olur ki, istər XVI əsrin sonlarında, istərsə də XVIII əsrin 20-ci illərində sancağın elə bir nahiyəsi olmamışdır ki, orada əhali ta-

xılçılıqla məşğul olmasın. Həmçinin taxılla yanaşı, düyü, mərcimək, maş, noxud və s. dənli bitkilərin əkilib becərilməsinə də xüsusi fikir verilmişdir [60, s. 18].

Səfəvilər dövründə Naxçıvan əhalisi bağçılıq, bostançılıq və texniki bitkilərin əkilib-becərilməsi ilə də məşğul olmuşlar [15, s. 10-13; 60, s. 37-360]. Təbii-coğrafi şəraitindən asılı olaraq münbit əkin sahələrində müxtəlif növ bostan-tərəvəz məhsulları yetişdirilir, böyük meyvə bağlarından xeyli, gözəl meyvələr əldə olunurdu. Təsadüfi deyil ki, bu fakt o dövr səyyahlarının da diqqətindən kənarda qalmamışdır. 1647-ci ildə Sədərək kəndi-Qarabağlar şəhəri-Naxçıvan şəhəri-Kəsik Günbəz kəndi-Qarabağ şəhəri istiqamətində keçib gedən [11, s. 132] türk səyyahı E.Çələbi Naxçıvandakı təsərrüfat həyatını və buradan əldə olunan məhsulları heyranlıqla təsvir etmişdir. O, qeyd etmişdir ki, Qarabağlar şəhərində bir bağda gəzərkən bağban Yəzdanqulu bizə 26 növ dadlı armud gətirdi ki, bunların arasında "Mələcə", "Abbasi", "Ordubadi" adlı armudları yeyənin dadı damağında qalır [96, s. 565]. Sonra səyyah şəhərətrafı bostanlarda lətafətli qovun, qarpız və s. məhsulların becərildiyini göstərmişdir.

Bu dövrdə Naxçıvan bölgəsində meyvəçiliyin geniş yayıldığı yer Ordubad və onun kəndləri olmuşdur [16, s. 182]. Təbriz bazarlarında Ordubad meyvələri xüsusi şöhrət qazanmışdı. Belə ki, bu meyvələr arasında "Mələs" alçası və "Əbutalib" əriyinin qurusundan saraylarda və bütün mötəbər ziyafətlərdə verilən plov xuruşu üçün istifadə edilirdi [12, s. 48]. Bu onu göstərir ki, Naxçıvanda yetişdirilən müxtəlif meyvə növləri və onlardan hazırlanan meyvə qurusu nəinki bölgənin özündə, həm də Azərbaycanın digər bölgələrində də yüksək qiymətləndirilirdi.

Bəhs edilən dövrdə Naxçıvanın təsərrüfat həyatında üzümçülüyün inkişafına geniş yer verilmişdi. Burada gözəl üzüm növləri yetişdirilirdi. 1636-1638-ci illərdə Azərbaycanda olan, onun iqtisadi həyatını əyani şəkildə nəzərdən keçirən alman alimi Adam Oleari Səfəvi dövlətinin bütün vilayətlərində əla növ, iri salxımlı üzüm yetişdirildiyinin şahidi olmuşdur. O, Təbriz və Taromla yanaşı, Ordubadda da gözəl "Kəsəyi", "Xələc", "Əli dərəsi" və s. üzüm növlərinin yetişdirildiyini qeyd etmişdir [10, s. 49; 86, s. 36]. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Azadciran nahiyəsinə tabe olan Ordubad qəsəbəsi [60, s. 222-283], həmin nahiyənin Yuxarı Əylis kəndi [60, s. 212-215], Mülki-Arslan nahiyəsinin Cəhri kəndi [60, s. 126-133] və Naxçıvan sancağının bir sıra digər yerlərində üzümçülüyün geniş yayıldığını sübut edən çoxlu üzüm bağlarının olduğu göstərilmişdir.

Bu zaman Naxçıvanda texniki bitkilərin becərilməsinə də üstünlük verilmişdir. Bunlardan pambıq, tütün, boyaq kökü və s. bitkilər bölgə ərazisində əkilib-becərilirdi. Naxçıvanda pambığın Şərurda və Araz çayı vadisindəki torpaqlarda becərildiyi göstərilmişdir [115, s. 39]. E.Çələbi göstərir ki, həmin vaxt Naxçıvanda 7 növ pambıq – zaği, munlayi, zəfərani, ləli, xas, bəyaz və s. hasil olunurdu [8, s. 232]. Bu zaman Azərbaycanın, demək olar ki, bütün bölgələrində pambıq yetişdirilirdi, lakin Naxçıvan, Qarabağ və Cənubi Azərbaycanın iqtisadi həyatında

pambıqçılıq xüsusilə mühüm rol oynayırdı və bu yerlərin əsas ixrac etdiyi mallardan biri də pambıq idi [128, s. 24]. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndən məlum olur ki, bölgə ərazisində pambıqla yanaşı, tütün də yetişdirilirdi. "Müfəssəl dəftər"də Naxçıvanın bir çox kəndlərində tütünçülükdən toplanan vergi ilə bağlı qeydlər vardır [60, s. 37-360].

Orta əsrlər zamanı boyakarlıq sənəti sahəsində istifadə edilən təbii boyalardan biri də boyaq kökü – marena bitkisi idi. Əvvəlki vaxtlarda olduğu kimi Səfəvilər dövründə də Naxçıvanda marena bitkisi, ondan alınan keyfiyyətli məhsulun istehsalı geniş yayılmışdı. Bölgənin xarici ticarət əlaqələrində bu bitkinin böyük rolu olmuşdur. XVII əsrdə Naxçıvanda olmuş fransız səyyahı Jan Batist Tavernye göstərir ki, bu elə bir bitki köküdür ki, torpaqda yayılır və şirin biyana bənzəyir. Həmin köklərdən əla keyfiyyətli, təbii qırmızı boya alırlar. Toxuculuqla yanaşı, dabbaqlıqda da ondan istifadə olunur [67, s. 92].

Tədqiq olunan dövrdə Naxçıvan bölgəsində əhalinin məşğul olduğu kənd təsərrüfatı sahələrindən biri də ipəkçilik olmuşdur. Ümumiyyətlə, ipəkçilik və ipək parça, xüsusilə də, basma naxışlı parçalar Naxçıvan əhalisinin məişətində əsrlər boyu mövcud olmuşdur [49, s. 100]. Bölgə ərazisində təsərrüfatın bu sahəsinin geniş yayıldığı yer Ordubad olmuşdur [101, s. 45]. Buranın mülayim iqlim şəraiti ipəkqurdunun yetişdirilməsi üçün əlverişli olmuşdur. Digər tərəfdən bağçılığın geniş yayılması [129, s. 201] burada ipəkçiliyin inkişafına təkan vermişdir. Belə ki, barama qurdlarının bəslənməsi üçün lazım olan tut bağları Ordubadda daha geniş yayılmışdır. İstehsal edilən məhsul xarici ölkələrə ixrac edilirdi. Ordubaddan Moskvaya, Nijniqorod bazarına xam və boyadılmış ipək aparılırdı [39, s. 134]. Bölgə ərazisində Ordubadla yanaşı, Culfa və Əylis də ipək ixracatında əsas mərkəzlərdən sayılırdı. Ümumiyyətlə, Naxçıvan bölgəsi tədqiq edilən dövrdə xam ipəyin – xamnanın istehsalına görə Azərbaycanın bir sıra qabaqcıl bölgələri ilə eyni sırada dururdu. Bu dövrdə Təbriz, Marağa, Gəncə və digər bölgələrlə yanaşı, Naxçıvan iqtisadiyyatında da xamnanın geniş istehsalı böyük əhəmiyyət kəsb edirdi [109, s. 48].

Səfəvilər dövründə bütün ölkə iqtisadiyyatında olduğu kimi Naxçıvanda da əkinçiliklə yanaşı, heyvandarlıq da mühüm yer tuturdu [86, s. 48]. Bu zaman Naxçıvan ərazisində də xırdabuynuzlu heyvanların bəslənilməsi təsərrüfatın bir sahəsini təşkil edirdi. Doğrudur tarixi sənədlərə əsasən, burada əkinçiliyin daha geniş yayıldığının şahidi olsaq da, yerli əhalinin müəyyən hissəsi tərəfindən qoyun, keçi və s. heyvanların saxlanıldığı da mənbələrdən məlum olur. "Naxçıvan sancağının müfəssəl dəftəri" XVIII əsrin əvvəllərində sancağın əksər kəndlərində qoyunçuluğun inkişaf etdiyini göstərir. Həmin sənəddən həm də məlum olur ki, yaylaq-qışlaq həyatı keçirən kəndlilər nəqd şəkildə "rüsumat" adlı vergi ödəyirdilər [60, s. 23]. Bu da həmin vaxt heyvandarlıq sahəsində çalışan əhalinin müəyyən hissəsinin yarım oturaq həyat tərzi keçirdiyini təsdiq edir. Bu zaman Qarabağ,

Şirvan, Marağa, Xoy, Urmiya, Ərdəbil, Təbrizlə yanaşı Naxçıvan əhalisinin də çox hissəsini yarımköçəri heyvandarlıqla məşğul olan kəndlilər təşkil edirdi. Şərur bölgəsində əhali tərəfindən "Dəmirçi yurdu", "Ərəboğlu", "Çərçiboğan", "Sərxanlı yurdu", "Taxça yurdu", "Xələc yurdu" və s. yurd yerlərindən istifadə edilmişdir [27, s. 60; 115, s. 58-59]. Bölgənin təbii-coğrafi şəraitindən asılı olaraq, yay-qış mövsümündə kəskin iqlim dəyişmələri səbəbilə heyvandarlar bol məhsul əldə etmək üçün daha əlverişli otlaqlar seçdiklərinə görə, belə yurdlar Naxçıvan ərazisinin əksər dağlıq və dağətəyi yerlərində hələ qədim dövrdən mövcud olmuşdur. Bu zaman xırdabuynuzlu heyvanların bəslənilməsi əhalinin ət məhsullarına tələbatını geniş ölçüdə ödəməklə yanaşı, sənətkarlığın da əsas xammal bazalarından birini təşkil edirdi [86, s. 53]. Bu sahə yun və dəri materiallarından hazırlanan məhsulların istehsalı üçün əsas baza rolunu oynayırdı.

Ərazidə istehsal olunan taxılçılıq, bağ-bostan, meyvəçilik, pambıqçılıq, heyvandarlıq və s. məhsullar əhalinin zəruri tələbatını ödəməklə yanaşı, Azərbaycanın digər bölgələrinə və xarici ölkələrə də ixrac edilirdi.

Səfəvilər dövründə digər Azərbaycan bölgələrində olduğu kimi Naxçıvanda da iqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatında əsas yerlərdən birini torpaq mülkiyyəti və ondan istifadə qaydaları tuturdu. Bu dövrdə Naxçıvan ölkəsində Səfəvilər dövləti ərazisində istifadə edilən bütün növ torpaq mülkiyyət formaları – "dövlət", "xassə", "mülk", vəqf, icma, tiyul və camaat torpaqları mövcud olmuşdur. Dövlət torpaqları – "divani"dən əldə olunan gəlirlər mərkəzi və yerli dövlət aparatının, ordunun saxlanılmasına sərf olunurdu. Bu dövrdə həmin kateqoriyadan olan torpaqlar mahal və vilayətlərin hakimləri tərəfindən idarə olunurdu. Həmçinin xüsusi iqtisadi əhəmiyyət daşıyan geniş ərazilər bu torpaq fondunun tərkibinə daxil idi [86, s. 58]. Əvvəlki yüzilliklərdə olduğu kimi yenə də hərbi-siyasi, iqtisadi və mədəni cəhətdən regionda mühüm əhəmiyyət kəsb edən Naxçıvan ölkəsi şahın təyin etdiyi yerli hakimlər tərəfindən idarə edilirdi [49, s. 113]. Deməli, buradakı dövlət torpaqlarının idarə olunması da həmin hakimlər tərəfindən həyata keçirilirdi. Bu sahədən əldə edilən gəlirlərin müəyyən hissəsi isə yerli özünüidarəetməyə xərclənirdi. Təbii ki, bütün kateqoriyadan olan torpaqlar dövlətin ixtiyarında olduğundan divani üçün seçilən münbit sahələrin gəliri də digərlərininkindən artıq olurdu.

Bir çox tədqiqatçıların əsərlərində [115, s. 89; 124, s. 125] adı divani ilə yanaşı çəkilən xass torpaqları birbaşa şahın özünə məxsus idi. Xassdan gələn gəlirlər şah sarayı və onun ailəsinə xərclənirdi. Ayrı-ayrı Səfəvi hökmdarlarının hakimiyyəti zamanı bölgə ərazisində xass torpaqları öz həcminə görə dəyişmişdir. Məsələn, XVI əsrin ikinci yarısında Culfa şəhəri bütövlüklə şahın öz xass torpaq fonduna köçürülmüşdü [121, s. 181-182]. XVIII əsrin 20-30-cu illərində isə Naxçıvan sancağının ərazisində yerləşən kəndlərin əksəriyyəti sultan xassına aid olmuşdur [36, s. 138-151; 60, s. 18].

Səfəvilər dövründə ölkə ərazisindəki torpaqların bir hissəsini də "mülk" təşkil edirdi. Feodallara məxsus belə xüsusi torpaq mülkiyyəti digər torpaq növlərindən iki əsas xüsusiyyəti ilə fərqlənirdi. Birincisi, sahibkarın bu torpaqları satmaq, almaq və irsən vermək hüququ var idi. İkincisi isə bu cür əmlak hər hansı dövlət xidməti müqabilində verilmirdi [121, s. 228]. Yəni əvvəlki iki kateqoriyaya daxil olan torpaqlardan fərqli olaraq bu sahədə fəaliyyət göstərən mülkiyyətçilər dövlətdən tam şəkildə deyil, qismən asılı idilər. Bu dövrdə Naxçıvan bölgəsində varlı sahibkarların belə torpaq mülkləri var idi. Naxçıvanda şəhər feodallarının əsas torpaq sahələri mülk kateqoriyasına daxil idi. Həmçinin, bütöv kəndlər, ayrı-ayrı torpaq sahələri, suvarma mənbələri, dəyirmanlar, evlər, dükanlar və s. mülkə aid ola bilirdi [49, s. 115]. Yəni əksər daşınmaz əmlak növləri həmin kateqoriyadan olan torpaqlarla birlikdə götürülürdü. Mülk sahibləri, əsasən, varlı adamlardan olurdu. "Naxçıvan əlyazma sənədləri"ndə 1648-ci ilə aid alqı-satqı müqaviləsi ilə bağlı 24-cü sənəddə mülk sahibləri və onların mənsub olduğu tayfalar göstərilmişdir. Bu sənəddən məlum olur ki, həmin vaxt Naxçıvanda Kəngərlilərdən başqa digər tayfaların – Beyləqani, Zikri, Məfruzi və başqalarının da nümayəndələrindən mülk sahibləri olmuşdur [33, s. 92-93].

Səfəvi hökmdarlarının mərkəzi hökumətin ölkə ərazisində sosial-iqtisadi dayaqlarını möhkəmləndirməkdən ötrü həyata keçirdiyi torpaq siyasətindən biri də şərti torpaq sahibliyindən istifadə etməsi idi. Bu kateqoriyadan olan "tiyul" və "soyurqal" adlı torpaqlar hərbi və ya mülki xidmət müqabilində verilirdi. Soyurqalın tiyuldan fərqi onda idi ki, o, sahibinə torpaq payı kimi verilir və irsən keçirdi. Tiyul isə irsi deyildi. Səfəvi tiyulları müəyyən bir ərazinin, yaxud da kəndin əhalisindən dövlət xəzinəsi üçün yığılan torpaq vergisinin və bəzən başqa bir verginin ayrı-ayrı qulluq adamlarına xidmətə görə güzəştə gedilən, bağışlanan hissəsi idi [86, s. 74]. Deməli, tiyuldar konkret olaraq ona bağışlanan gəlirin sahibi idi. Bu isə dövlətin iqtisadi baxımdan xeyrinə idi. XV əsrdə soyurqalın geniş yayılmasına baxmayaraq, artıq XVI əsrdə Səfəvilər bu torpaq sahibliyini azaltdılar. Əvəzində tiyul torpaqlarını genişləndirməyə başladılar [121, s. 74]. Çünki o, irsi olmadığından renta xüsusiyyəti daşıyırdı. Bu dövrdə Naxçıvanda tiyul xüsusilə geniş yayılmışdı [49, s. 115]. Bunun səbəbi isə yerli məmurların dövlətə sədaqətini artırmaqla, burada mərkəzdənqaçan qüvvələrin qarşısını almaq idi. Mənbələrdən məlum olur ki, tiyul hərbçilərə və dövlət məmurlarına xüsusi xidmətlərinə görə paylanırdı. Bu haqda Qazi Əhməd göstərmişdi ki, II Şah İsmayıl Ordubad qəsəbəsini əvvəlcə İbrahim Mirzəyə, onu öldürtdükdən sonra, 1578-ci ildə döyüşdə fərqlənən Əbdülqəni bəyə tiyul olaraq verdi [52, s. 33]. Səfəvi hökmdarları tərəfindən torpaqların bu cür paylanması həm də məmurların yüksək fəaliyyət göstərməsi üçün nəzərdə tutulurdu. Bu zaman Naxçıvanda tiyulla yanaşı soyurqal torpaqları da olmuşdu. 1606-cı ildə I Şah Abbas Ordubad şəhərini soyurqal şəklində baş vəziri Hatəm bəy Ordubadiyə vermişdi [2, s. 142]. Bu bir tərəfdən

Naxçıvanda soyurqal torpaqlarının olduğunu, digər tərəfdən isə həmin kateqoriyadan olan torpaqların mülki məmurlara verildiyini göstərir.

Səfəvlər dövründə Naxçıvandakı torpaqların bir hissəsini də vəqf mülkləri təşkil edirdi. Vəqf torpaqları dini idarə və bu sahəyə aid olan digər obyektlərə - məscidlərə, mədrəsələrə və s. dövlət tərəfindən verilirdi. İri feodallar və imkanlı şəxslər də öz torpaqlarını vəqf kimi bağışlayırdılar [78, s. 58]. Bu cür mülkləri satmaq, bağışlamaq, girov qoymaq qanunla qadağan idi [126, s. 137]. Dövlətin iqtisadi siyasətinə uyğun olaraq, vəqflər vergilərdən azad idi. Vəqf kateqoriyasına torpaqdan başqa bazar, dükan, karvansara, dəyirman, hamam, kəhriz və s. obyektlər də daxil edilirdi. Bu sahədən əldə olunan gəlirlər məscid, mədrəsə və xəstəxanaların saxlanılmasına, din xadimləri və seyidlərin, xeyriyyə məqsədilə yetim, yoxsul və tələbələrin məsrəflərinə xərclənirdi [86, s. 59]. XVI əsrin sonu XVII əsrin əvvəllərində Naxçıvan qazısı Mövlana Süleyman və Ordubad qazısı Baqi əfəndi öz vəqf gəlirlərindən Naxçıvan şəhərindəki Şeyx Əminəddin məscidinin və onun nəzdindəki əczaxananın məsrəflərinin ödənilməsi üçün verirdilər. Vəqf mülkü olan Qarabağ nahiyəsinin Acısu ciftliyindən əldə edilən məbləğ Naxçıvandakı cameyi-şərifin imam, xətib və müəzzinlərinə maaş şəklində verilirdi [36, s. 21]. E.Çələbi də "Səyahətnamə" əsərində vəqflə bağlı göstərmişdir ki, onun səyahəti zamanı (1647) əhalisi yüz faiz şiə olan Sədərək kəndinin gəliri imam Əli Rzanın vəqf əmlakı idi [133, s. 112-113]. XVI əsrin sonu XVII əsrin əvvəllərində Naxçıvan nahiyəsinin Cəhri, Nürgüt, Qarabağ nahiyəsinin Qıvraq kəndləri əvvəlki dövrlərdə olduğu kimi, Naxçıvan əyanı Mövlana Məhəmmədin övlad vəqfi kimi qeydə alınmışdır [36, s. 21]. Buradan məlum olur ki, həmin vaxt Naxçıvanda hətta bütöv kəndlər də vəqf mülkiyyətinə daxil idi.

Səfəvilər dövründə icmaya məxsus torpaqlar "camaat torpaqları" adlanırdı. Lakin öz torpaqları olmayan icmaçı kəndlilərin əkib-becərdiyi sahələr dövlət və yuxarıda göstərdiyimiz digər kateqoriyadan olan torpaq sahiblərinin ixtiyarında idi [9, s. 224]. Torpaqdan istifadəyə görə kəndlilərdən müxtəlif vergilərin toplanması işini icma rəhbərləri həyata keçirirdi. Bu dövrdə digər Azərbaycan bölgələrində olduğu kimi Naxçıvanda da kəndlilər dövlətdən, feodallardan və başqa torpaq mülkiyyətçilərindən ağır şərtlərlə icarəyə götürdükləri torpaqlarda çalışırdılar [16, s. 180]. Osmanlı hakimiyyəti zamanı isə (1724-1736) Naxçıvan sancağında torpaq dövlətin mülkiyyəti olsa da, əkinə yararlı sahələr kəndlilərə ömürlük verilir və bunun müqabilində onlar tapu (torpağın pasportu) alırdılar. Həmin sənəd ilə kəndlilərə verilən torpaq payı sahibi öldükdən sonra mirasa çevrilirdi [36, s. 24-25]. Səfəvi hökmdarları köçəri və yarımköçəri tayfaların aşağı təbəqədən olan üzvlərinə hərbi xidmətləri müqabilində irsi torpaqlar paylayırdılar. İ.Petruşevski göstərir ki, tayfa başçılarının rəhbərliyi altında olan bu torpaqlara köçəri tayfaların otlaq yerləri, əkin sahələri, bağları, üzümlükləri və s. daxil idi [121, s. 81]. Həmin dövrdə Naxçıvanın Göyəm zonası, Basarkeçər dağ silsiləsi, Şərur zonasındakı Kiçik Qafqazın cənub-

qərb yaylasında oturaq və yarımoturaq əhalinin istifadə etdiyi bir çox yaylaqlar [115, s. 59] bu cür torpaqların bölgə ərazisində də olduğunu göstərir.

İki əsrdən artıq bir zaman kəsiyində Səfəvilərin bütün növ torpaq əmlakından bölgə ərazisində istifadə edilmişdir. Həmçinin əsasən kənd təsərrüfatının bir çox sahələrinin inkişaf etdiyi bölgə kimi Naxçıvanda müxtəlif kateqoriyadan olan torpaq sahələri əhalinin əsas gəlir mənbələrindən biri olmuşdur.

**Sənətkarlıq.** Səfəvilər dövründə Naxçıvan ölkəsinin iqtisadiyyatında sənətkarlıq sahəsinin öz payı var idi. Sənətkarlıq dövlət xəzinəsinin əsas gəlir mənbələrindən birini təşkil etdiyindən Səfəvi hökmdarları bu sahənin inkişafına xüsusi diqqət yetirirdilər [86, s. 82]. Bunun üçün bir sıra dövlət əhəmiyyətli tədbirlər həyata keçirilirdi. Həsənbəy Rumlu və başqa tarixçilərin məlumatlarından aydın olduğu kimi 1565-ci ildə I Şah Təhmasibin 30 min tümən məbləğində "tamğa" vergisini, o cümlədən də Naxçıvanın tamğasını ləğv etməsi [34, s. 85-86] məhz sənətkarlıq və ticarətin inkişafına kömək məqsədini güdürdü. Bu verginin ləğvini hər şeydən əvvəl şəhərdə yaşayan sənətkarların ağır vəziyyəti tələb edirdi [52, s. 37].

Hələ qədimdən Azərbaycanın sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanan Naxçıvan diyarı Səfəvilər zamanında da öz əhəmiyyətli mövqeyini qoruyub saxlayırdı. Düzdür, müxtəlif illərdə baş verən müharibələr bu sahədən də yan keçməmişdi. Amma bir çox sahələrdə insanların zəruri tələbatını ödəyən sənətkarlıq tənəzzül illərində zəifləsə də, sonra yenidən əvvəlki vəziyyətinə qayıdırdı. Bu dövrdə digər Azərbaycan bölgələrində olduğu kimi, Naxçıvanda da müxtəlif sənət sahələri daxili, yeri gəldikcə xarici bazarların tələbatını ödəyirdi. Bunlardan toxuculuq, memarlıq, dərzilik, məişət əşyaları və silah hazırlama, misgərlik, dabbaqlıq, boyaqçılıq və s. sənət növləri geniş yayılmışdı [109, s. 42-43].

İnsanların geyim və bir çox ev avadanlıqlarına olan tələbatını ödəyən toxuculuq sənəti Səfəvilər dövründə sənətkarlığın əsas növlərindən biri idi. Pambıq, yun, ipək və s. təbii materiallardan müxtəlif növ geyimlər, xalça, palaz, kilim, pərdə, süfrəlik və digər əşyalar hazırlanırdı. Naxçıvanda pambıqçılıq inkişaf etdiyindən pambıq parçaların toxunmasına geniş yer verilirdi [54, s. 79; 109, s. 55]. 1636-1638-ci illərdə Səfəvi torpaqlarını gəzmiş alman alimi Adam Oleari bu haqda qeyd etmişdir ki, Səfəvilərin daha çox pambıq parça istehsal edən əyalətlərindən dördü Azərbaycanın payına düşür ki, onlardan biri də Naxçıvandır [86, s. 91]. A.Oleari ilə eyni əsrdə Azərbaycanda olmuş türk səyyahı E.Çələbi onun fikirlərini təsdiqləyərək yazırdı ki, Naxçıvanın sənət adamları bacarıqlı ustalardır. Onların toxuduqları "qələmkari", "bəhramquri" parçaları və əllə işlədikləri çit örtüklər bütün dünyaya bəllidir [8, s. 232].

Səfəvilər dövründə müxtəlif növ parça və toxuculuq məmulatlarının istehsalında Azərbaycan şəhərləri arasında müəyyən dərəcədə ixtisaslaşma var idi. Bu zaman Azərbaycanı gəzmiş Şərq və Qərbin səyyah, tacir, alim və s. müxtəlif peşə sahibləri öz əsərlərində Təbrizin zərbaft, abyar, məxmər və kimxanasından, Şamaxının

darayı, qanovuz və cecimindən, Gəncənin zərif ipək baş örtüklərindən, Şuşanın alacasından, Şəkinin təkəlduz tikmələrindən, Naxçıvanın qələmkar və çitindən bəhs etmişlər [20, s. 4]. Hər hansı peşə üzrə ixtisaslaşma isə bazar rəqabətinə davam gətirən, yüksək keyfiyyətli məhsulun əldə olunmasından xəbər verir. Bu dövrdə əhəmiyyətli toxuculuq mərkəzləri sayılan Azərbaycan şəhərləri sırasında Naxçıvan və Ordubadın adları xüsusi vurğulanır. I Şah Abbas tərəfindən Ordubad vergilərdən azad edildikdən sonra şəhər mühüm ticarət və sənətkarlıq mərkəzinə çevrildi. Bu zaman Ordubadda bahalı parçalar istehsal olunurdu [109, s. 55].

Bəhs edilən dövrdə toxuculuğun inkişafında mühüm yerlərdən birini də xalçaçılıq sənəti tutmuşdur. XVI-XVII əsrlərdə Azərbaycanda olmuş səyyahlar xalq arasında ən geniş yayılmış sənətlərdən birinin xalçaçılıq olduğunu qeyd etmişdilər [18, s. 67]. XVII-XVIII əsrlərdə Azərbaycanda yerli xalçaçılıq məktəbləri mühüm rol oynamağa başlamışdır [130, s. 51]. Bu zaman Azərbaycanın əksər bölgələrində - Ərdəbil, Təbriz, Qarabağ, Gəncə, Quba və s. yerlərində xalçaçılıq geniş yayılmışdı. Naxçıvan bölgəsində də bu sənət xeyli inkişaf etmişdir. Belə ki, bəhs edilən dövrdə bölgədə gözəl xalça, şəddə, zili, vərni, kilim və s. döşəmə növləri toxunurdu [63, s. 53; 113, s. 195-203]. L.Kərimov müxtəlif naxışlarla bəzədilmiş və ənənəvi olaraq "Naxçıvan" adlandırılan bu xalçaların bədii və texniki xüsusiyyətlərinə görə iki qrupa bölündüyünü qeyd etmişdir ki, birinci qrupa müxtəlif dövrlərdə toxunmuş həndəsi naxışlı xalçaların, ikinciyə isə XVII-XVIII əsrlərdə toxunmuş böyük xalıların daxil olduğunu göstərmişdir [113, s. 195].

Səfəvilər dövründə Naxçıvanda sənətkarlıq sahəsində əhəmiyyətli yerlərdən birini də metalişləmə sənəti tuturdu. Metalişləmədə müxtəlif məişət əşyaları, silahlar, əmək alətləri, zərgərlik məmulatları və s. istehsal edilirdi [86, s. 93]. Bu dövrdə digər Azərbaycan bölgələri ilə yanaşı, Naxçıvanda da metalişləmə sahəsində ixtisaslaşma baş vermişdir. Həm də ixtisaslaşma təkcə düzəldilən əşya növləri sahəsində deyil, şəhərlər arasında da özünü biruzə verməyə başlamışdır. Ərdəbil şəhərinin bədii metal məmulatları düzəltməkdə inkişaf etmiş mərkəzlərdən sayılmasına baxmayaraq, Şeyx Səfi türbəsinin gümüş barmaqlıqlarını düzəltməyi Gəncə sənətkarlarına, İçərişəhərin dəmir qapılarını hazırlamağı Naxçıvan ustalarına sifariş etmişdilər [18, s. 68]. Deməli, bəhs edilən dövrdə metalişləmədə olan inkişaf onu ixtisaslaşma səviyyəsinə çatdırmışdır. Həmçinin bu zaman Naxçıvanda müxtəlif qiymətli metallardan sikkələrin kəsilməsi işi də geniş yayılmışdı. Belə ki, əksər Səfəvi şahlarının hakimiyyəti dövründə Naxçıvan şəhərində müxtəlif nominallı sikkələr zərb edilmişdir. Bu sikkələr içərisində gümüş təngə, abbası, şahi, mahmudi, pəncşahi və s. var idi [49, s. 108]. Zərbxanaların fəaliyyətinin də metalişləmədən asılı olduğunu nəzərə alsaq, məlum olur ki, haqqında bəhs etdiyimiz sənət Naxçıvan bölgəsinin sənətkarlığında mühüm rol oynamışdır.

Hələ qədimdən insanların yaşayış üçün təminatının bir sahəsinin qurucusu olan memarlıq sənəti Naxçıvanda əvvəlki yüzilliklərdə olduğu kimi XVI-XVIII

əsrin əvvəllərində də öz əhəmiyyətli mövqeyini qoruyub saxlamışdır. Bu dövrdə bölgə ərazisində sənətkarlığın bu növü inkişaf etmişdir. Bu haqda Avropa və Şərq səyyahları, tacirləri və missionerləri öz əsərlərində qiymətli məlumatlar vermişlər. Gözəl imarət, came, məscid, hamam, dükan və s. ictimai və mülki binaları heyranlıqla təsvir edən türk səyyahı E.Çələbi təkcə Naxçıvan şəhərində 40 məscid, 20 mehmanxana, 7 gözəl hamam, təqribən 1000 dükan olduğunu qeyd etmişdir [15, s. 12]. Səyyahın fikrincə, bir çox abidələrin inşasında İstanbul memarlıq məktəbinin izləri olmuşdur. Lakin şərq memarlıq tarixi ilə məşğul olan alman şərqşünası Ernst Dits, türk memarı Vedat Dalokoy və başqaları isə belə hesab edirlər ki, XVI əsr görkəmli türk memarı Sinanın yaradıcılığına Naxçıvan memarlıq abidələri təsir göstərmişdir [70, s. 21; 71, s. 34-36; 73, s. 35].

Səfəvilər dövründə bölgədə tikilmiş bir sıra dini memarlıq abidələri günümüzədək öz möhtəşəmliyini qoruyub saxlamışdır. Naxçıvan şəhər imamzadəsi, Nehrəm və Parçı imamzadələri, Gənzə kəndindəki Hacı Hüseynqulu məscidi, Yuxarı Əylisdəki Şah Abbas məscidi və hamamı, Üstüpü hamamı, Ordubad mədrəsəsi, Zaviyə mədrəsə kompleksi [78, s. 204-215, 326-338] və s. dini tikililəri misal göstərə bilərik ki, onlar indi də öz memarlıq quruluşunu itirməmişdir.

Toxuculuq və gön-dəri məmulatının istehsalında son mərhələni təşkil edən boyaqçılıq sənəti hələ qədimdən Azərbaycanın bir çox bölgələrində olduğu kimi, Naxçıvanda da geniş yayılmışdı. Bu sənət sahəsində Naxçıvan bölgəsi marena bitkisinin istehsalına görə orta əsrlərdə geniş şöhrət qazanmışdı. Səfəvilər dövründə isə Naxçıvan yalnız Şərqdə deyil, bütün dünyada marena istehsalının mühüm mərkəzi hesab edilirdi [54, s. 96]. Bu bitkiyə görə bölgənin şöhrət qazanmasının özü təsdiq edir ki, bəhs edilən dövrdə Naxçıvanda boyaqçılıq sənəti inkişaf etmişdi. Müxtəlif çeşidli toxuculuq və digər məhsulların istehsalında yerli boyalarla yanaşı, xarici ölkələrdən gətirilmiş boyaq maddələrindən də istifadə edilirdi. Bəhs edilən dövrdə marena, zəfəran, limon şirəsi, nar qabığı, indiqo, lazurit (laciverd daşı), Braziliya və yapon ağaclarından hazırlanan boyaq maddələrindən geniş istifadə edilirdi ki, onlardan da indiqo və yapon ağacı Hindistandan, Braziliya ağacı Avropadan, lazurit Orta Asiyadan gətirilirdi [123, s. 288]. Həmçinin “qırmız” adlanan tünd qırmızı rəngin alınmasında xırda böcəklərdən istifadə olunurdu ki, bu Azərbaycanın Mərənd və Gəncə bölgələri ilə yanaşı, Naxçıvanda da geniş yayılmışdı [54, s. 98; 109, s. 71]. Bu dövrdə bölgədə yaşayan boyaqçı ustalar uzun illər ərzində qazandıqları təcrübə əsasında çeşidli boyalar almağı və onlardan istifadə etməyi mükəmməl bacarırdılar. Naxçıvan rəsmli parça istehsalı üzrə ixtisaslaşmışdı. Bu özü də basma üsulu ilə toxunan parçaların naxışlı bəzədilməsi, yəni boyanmasıdır [49, s. 100]. Naxçıvanda toxuculuğun bu cür çeşidi keyfiyyətli istehsalına görə digər bölgələrdən öndə dururdusa, bu həm də boyaqçılıq sənətinin inkişafından irəli gəlirdi.

Qədim sənət növlərindən sayılan misgərlik Naxçıvanda bəhs edilən dövrdə

öz əhəmiyyətini itirməmişdi. Bölgədə bu sənətin inkişafı üçün yerli xammalın olması da əsas şərtlərdən biri idi. Həmdüllah Qəzvini “Nuzhət əl-qulub” əsərində göstərir ki, Naxçıvanda Əncan adlı yer vardır ki, bura Karxana da deyirlər, onun yaxınlığında mis mədənləri yerləşir. Bu mədənlərdən əldə edilən xammalın emal olunması və ondan müxtəlif sənətkarlıq məhsullarının hazırlanması üçün onun yaxınlığında emalatxanalar fəaliyyət göstərirdi [140, s. 51]. Buradan məlum olur ki, hələ iki əsr əvvəl bölgədə misdən hazırlanan malların istehsalı üçün münbit şərait olmuşdur. Səfəvilər dövrünə aid Naxçıvanda hazırlanan müxtəlif mis qabların günümüzədək qalması onlar haqqında fikir yürütməyə imkan vermişdir. Bəzi mis qabların üzərində qədim əsatir və əfsanələr əsasında təsvirlər həkk edilmiş, hikmətli şeirlər, yaxud ustaların və sahibkarların adları yazılmışdır. Hind, fars və türk əfsanələrindən fraqmentlərin də yer aldığı təsvir və lirik parçaların olması əsasən yerli ustaların Şərq ölkələrindən gəlmə incəsənət nümunələrinə də istinad etdiyini göstərir [49, s. 102]. Azərbaycan tarixi muzeyinin etnoqrafiya fondunda nümayiş etdirilən, Naxçıvan ustaları tərəfindən hazırlanmış gözəl naxışlı mis qablar [97, s. 22] bu dövrdə misgərlik sənətinin xalqın məişətində xüsusi əhəmiyyət kəsb etdiyini göstərir.

Naxçıvan ustalarının yaratdıqları zəngin maddi-mədəniyyət nümunələri təsdiqləyir ki, müəyyən tənəzzül illəri istisna olmaqla, XVI-XVIII əsrin əvvəllərində Naxçıvanda sənətkarlıq inkişaf etmişdir.

**Ticarət.** Səfəvilər dövründə Naxçıvan bölgəsinin iqtisadi həyatında əhəmiyyətli yerlərdən birini də ticarət tuturdu [49, s. 109]. Səfəvilər dövləti yarandıqdan sonra Səfəvi hökmdarlarının apardıqları güclü mərkəzləşdirmə siyasəti sayəsində əldə olunmuş iqtisadi inkişaf ictimai əmək bölgüsünün təkmilləşməsinə və əmtəə istehsalının genişlənməsinə yol açdı ki, bu da daxili ticarətin imkanlarını daha da artırdı. Ölkədaxili ticarət əlaqələrinin inkişaf etdirilməsində Səfəvi şahlarının özləri daha çox maraqlı idilər. I Şah Təhmasib tərəfindən 1565-ci il martın 16-da karvan yolları, gömrükxanalar, bazarlar və s. ticarət obyektlərində tacirlərdən alınan tamğa vergisinin ləğv edilməsi [16, s. 208; 86, s. 123] də bu məqsədi güdürdü. Ticarətdən gələn gəlirləri xəzinənin əsas mənfəət qaynaqlarından birinə çevirən I Şah Abbas da bu sahənin inkişafı üçün xeyli işlər görmüşdür [30, s. 70; 112, s. 184]. Müəyyən vaxtlarda dağıdıcı müharibələrin ticarətin inkişafını ləngitməsinə baxmayaraq o, sonradan yenidən bərpa edilmişdi. Osmanlı-Səfəvi müharibələrinin 1639-cu ildə növbəti dəfə uzun fasilə ilə qurtarmasından 34 il sonra Naxçıvanda olmuş fransız səyyahı Jan Şardən göstərir ki, hazırda şəhərin mərkəzi bərpa edilmiş və məskunlaşmışdır. Burada uzun örtülü küçələr şəklində bazarlar vardır. Bu örtülü bazarların hər iki tərəfindən müxtəlif mallar və ərzaqlarla alver edən dükanlar düzülmüşdür [10, s. 52]. Daxili ticarət bu zaman xüsusi əhəmiyyət kəsb etdiyindən dağıntılardan sonra yenidən qurulmuş obyektlərin bir hissəsini də bazarlar təşkil etmişdir. Daxili ticarətin inkişafında bölgə ərazisindəki

Naxçıvan, Ordubad, Culfa, Əylis, Qarabağlar və s. kimi şəhər, qəsəbə və digər yaşayış məskənlərində yerləşən iri bazarların mühüm rolu olmuşdur. Bu dövrdə Ordubad şəhərində öz möhtəşəm memarlıq xüsusiyyətləri ilə seçilən Qeysəriyyə bazarı fəaliyyət göstərmişdir. Orta əsrlərdə üstüörtülü Qeysəriyyə bazarları Şərq ölkələrində mövcud olmuşdur. Belə ticarət obyektlərində mahud, ipək, qızıl və gümüş saplardan toxunmuş parçalar, bahalı daş-qaşlar, xalçalar və s. qiymətli malların satışı həyata keçirilmişdir [141, s. 287]. XVII əsrdə Ordubad şəhərinin mərkəzində inşa edilmiş bu bazar [57, s. 267] müəyyən sənət sahələrinə aid qiymətli malların ayrıca satışının təşkil edildiyini göstərir ki, bu da ticarətin və sənətkarlığın inkişafından xəbər verir. Bazarlarda yerli ustaların hazırladıqları gümüş, mis, saxsı qablar, zərif parçalar – qanovuz, darai, möv, kiseyi, atlas, zərbaft, tafta, çit, cəvahir, silah, bəzək əşyaları və s., eləcə də xarici ölkə tacirlərinin gətirdikləri mallar satılırdı [29, s. 91]. Xarici və yerli mallar arasında rəqabət təbii ki, bu zaman da keyfiyyətli istehsalın inkişafına yol açmışdır.

XVI əsrdə Səfəvilər dövlətinin təşəkkül tapması ilə xarici ticarət sahəsində də əlaqələrin intensivləşməsinin şahidi oluruq. Digər Azərbaycan bölgələri ilə yanaşı Naxçıvanda da bu dövrdə Şərq və Avropa ölkələri ilə ticarət əlaqələri qurulmuşdu. Hindistan, Çin, Mərkəzi Asiya ölkələri, Qara dəniz və Aralıq dənizi vasitəsilə Avropa ölkələrini Səfəvi torpaqları ilə birləşdirən yollar Naxçıvan ərazisindən keçdiyindən burada ticarət üçün böyük bazarlar və digər alış-satış məntəqələri fəaliyyət göstərirdi. Böyük İpək Yolu bu dövrdə də digər Azərbaycan bölgələri kimi Naxçıvan ərazisində də iqtisadiyyatın və mədəniyyətin inkişafına güclü təsir göstərmişdir [39, s. 69]. Bölgədən bir neçə istiqamətdə ticarət karvanları keçirdi. Bunlardan biri Şamaxı-Qarabağ-Naxçıvan-İrəvan və sonra Osmanlı ərazisi, digəri Təbriz-Mərənd-Naxçıvan-İrəvan-Ərzurum-İstanbul yolu idi [120, s. 286]. Naxçıvan ərazisindən keçən başqa bir karvan yolu Əylisdən başlayaraq Naxçıvan-İrəvan-Qars-Ərzurum-Tokat-İzmir-İstanbul-İzmir-Venesiya-Frankfurt-Dyuseldorf-Amsterdam istiqamətində uzanırdı. Həmin marşrutla geriyə qayıdan yol isə Hollandiyadan dənizkənarı ölkələri – Portuqaliya, İspaniya, İtaliya və Yunanıstanı keçməklə yenidən İzmirə gəlib çıxırdı. Qayıdarkən başqa yolun seçilməsi yeni ticarət bazarlarına çıxış məqsədilə həyata keçirilirdi. Bu dövrdə Təbrizdən Qara dəniz sahilindəki şəhərlərə gedən ən qısa yol da Naxçıvan ərazisindən keçirdi [49, s. 109; 119, s. 10]. Naxçıvan və Culfa tərəfdən Araz çayı üzərindən keçən körpülər bu yolu xeyli rahatlaşdırırdı [22, s. 33]. Səfəvi tacirləri Avropa ölkələrilə qarşılıqlı ticarət əlaqələrini əsasən Osmanlı dövlətinin ərazisindən keçməklə edirdilər. Sadalanan marşrutlarda isə Naxçıvan bölgəsinin böyük rolu olmuşdur.

Səfəvilər dövründə Səfəvi tacirlərinin Rusiya istiqamətində ticarət səfərləri daha çox Həştərxan-Moskva yolu ilə həyata keçirilirdi [24, s. 88; 31, s. 79-80]. Həmin marşrutda iş adamları üçün əlverişli sayılan Volqa-Xəzər su yolundan istifadə edilirdi. XVI əsrin II yarısından Səfəvi dövləti ilə İngiltərə arasında da

ticarət əlaqələri bu yol vasitəsilə həyata keçirilirdi [106, s. 40-42]. Səfəvilərlə Rusiya arasında başqa bir marşrut isə Dərbənd-Şimali Qafqaz istiqamətində gedən quru yol idi. Naxçıvandan Rusiyaya gedən bu ticarət yolu Naxçıvan-İrəvan-Gəncə-Ərəş-Şamaxı-Şabran-Dərbənd və sonra Rusiya marşrutları üzrə olmuşdur.

Bu zaman Azərbaycanın ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi Naxçıvana da xarici ölkələrdən, o cümlədən də Avropa ölkələrindən çoxlu tacirlər gəlirdilər. XVI əsrdən başlayaraq Avropa və Şərq ölkələrindən Vinsento Alessandri (Venesiya, 1571), Nyupiri (İngiltərə, 1581), Tektander (Almaniya, 1603), Jan Batist Tavernye (Fransa, 1631-1668), Evliya Çələbi (Osmanlı, 1647), Katib Çələbi (Osmanlı, XVII əsr), Puley Lekuz (Fransa, XVII əsr), Jan Şardən (Fransa, 1673) və başqa səyyah-tacirlər Azərbaycanda, xüsusilə də Naxçıvanda olmuşlar [49, s. 110]. Onlar bölgəyə ticarət, səyahət və başqa məqsədlər üçün gəlirdilər [50, s. 12]. Xarici ölkələrdən Naxçıvana gələn iş adamları təkcə səfər etmək niyyəti ilə gəlmirdilər. Onlar Qərblə Şərq ölkələrini birləşdirən ticarət yollarının qovşağında yerləşən bu qədim türk diyarından keçməklə öz yollarını davam etdirirdilər. Lakin bölgənin zəngin mədəniyyəti və gözəl sənətkarlıq, əla növ kənd təsərrüfatı məhsulları ilə dolu geniş bazarları bu yolçuları buradan sakit keçib getməyə qoymurdu. Səfəvilər dövründə Naxçıvandan xarici ölkələrə bir çox qiymətli məhsullar ixrac edilirdi. Xarici bazarlara çıxarılan digər əla keyfiyyətli Naxçıvan malları arasında marena, duz, mis, pambıq, taxıl, quru meyvə, balıq və s. qiymətli məhsulları göstərmək olar [38, s. 26].

Bu zaman Şəki, Şamaxı, Təbriz və başqa Azərbaycan şəhərlərində olduğu kimi Naxçıvanda da ipək ticarəti geniş yayılmışdı [117, s. 89]. Yerli istehsaldan başqa ticarət əlaqələrinin inkişafında əhəmiyyətli rol oynayan ipək alveri naxçıvanlı tacirlərin əsas gəlir mənbələrindən biri olmuşdur. Burada Culfa tacirlərinin rolu xüsusi qeyd olunmalıdır. XVI əsrin ikinci yarısından etibarən onlar beynəlxalq ipək ticarətindən xeyli gəlir əldə etmişlər. Bu zaman Culfa tacirləri xamnanı (xam ipəyi), onun istehsal olunduğu yerlərdən – Şamaxı, Ərəş və Gilandan alır, sonra isə Venesiya, Amsterdam, Marsel kimi Qərbi Avropa şəhərlərində, həmçinin Suriya, Osmanlı Türkiyəsi və Hindistan şəhərlərində satırdılar [16, s. 211]. Bu işdə onlara yaşadıqları yerin Avropa ilə Yaxın Şərq ölkələrini birləşdirən Böyük İpək Yolunun üzərində yerləşməsi də kömək edirdi. İngilis səyyahı E.Edvardsın qeydlərindən məlum olur ki, XVI əsrin 60-cı illərində Culfa tacirləri Suriya limanı olan Hələbə 500 tay ipək gətirir və əvəzində yalnız 18 min parça Venesiya maddəsi (qarazəy) aparırdılar [38, s. 27]. Göründüyü kimi Səfəvilər dövründə Naxçıvanın xarici ticarət əlaqələrində ipək alqı-satqısının həcmi daha geniş olmuşdur.

Lakin qeyd etmək lazımdır ki, artıq Avropa ölkələrini Hindistan və Şərqi Asiya ölkələri ilə əlaqələndirən dəniz yollarından istifadə olunduğundan [29, s. 91] XVII əsrdə digər Azərbaycan bölgələrində olduğu kimi, Naxçıvandan da keçən karvan yolları öz əvvəlki əhəmiyyətini müəyyən qədər itirmişdi. Bu zaman

əksər ticarət mallarının satışında olan zəifləmə ipək alverində də müşahidə olunmaqda idi. Amma bununla belə, bu dövrdə başqa Azərbaycan bölgələri kimi, Naxçıvan da həm daxili, həm də xarici ticarətdə öz mövqeyini tamamilə itirməmişdi [49, s. 111]. 1498-ci ildə Afrika ətrafından Hindistana gedən dəniz yolunun kəşfi Avropa və Şərq ölkələri arasındakı dünya ticarət yolunu dəyişsə də, XVII əsrin sonlarınadək quru karvan yolları öz əhəmiyyətini qoruyub saxlamışdı [105, s. 176]. Deməli, Qərblə Şərq arasındakı yeni su yolu birdən-birə əvvəlki karvan yollarının əhəmiyyətini və onların üzərində yerləşən ticarət məntəqələrində gedən alveri dayandıra bilmədi. Bu mənada XVII yüzillik boyu Naxçıvanın ticarətindəki canlanma müəyyən qədər dəyişsə də, davam edirdi.

Səfəvilər dövründə Yaxın Şərq ölkələrində olduğu kimi, Naxçıvanda da alver pərakəndə və topdansatış ticarəti şəklində aparılırdı. Topdansatış ticarəti ilə əsasən əcnəbi tacirlər məşğul olurdular [49, s. 111]. Bu qaydada alver etmək onlar üçün ona görə faydalı idi ki, onlar əlavə vaxt qazanır və artıq çıxardan azad olurdular. Çünki xaricdən gələn tacirlər karvansaralarda qaldıqlarından gündəlik və ya aylıq karvansara haqqı ödəməli olurdular [22, s. 47-48]. Onların çox qalması əlavə xərclərinin də artmasına gətirib çıxarırdı. Ticarət obyektləri, gömrükxanalar, yollar və digər yerlərdə dövlət tərəfindən görülən işlərdən biri də vergilərin toplanması idi. Vergilərdən əldə edilən gəlirlər tacirlər və onların mallarının təhlükəsizliyi, rahat daşınması və satışı və s. xidmətlərin xərci kimi nəzərdə tutulurdu. Satılmaq məqsədilə gətirilən mallardan həm şəhərə daxil olmaq, həm də bazar meydanında satmaq üçün ayrıca gömrük haqqı alınırdı ki, birinci vergi növü “rahdari”, ikinci isə “mizan” (ölçü-çəki) adlanırdı [22, s. 44]. Rahdari yoldan istifadə üçün, mizan bazarda malın satılmasına icazə verilməsi məqsədilə, keyfiyyət və kəmiyyətinə görə dəyişən rüsum idi [49, s. 112]. Ayrı-ayrı Səfəvi şahlarının hakimiyyəti zamanı dövlət xəzinəsinin boşalması, iqtisadi tənəzzül və s. səbəblərdən vergi siyasəti dəyişdirildiyi kimi [86, s. 130], eyni vaxtda müxtəlif şəhərlərdə vergilərin miqdarı da fərqli olurdu. J.B.Tavernyenin qeydlərinə əsasən Araz çayını keçən hər dəvə yükü üçün 10 abbası ödənilirdi [49, s. 113]. Həmin vaxt Naxçıvandan çox da uzaq olmayan Mərənd şəhərində eyni yük üçün 13 abbası gömrük haqqı alınırdı [117, s. 101]. Bir yerlə başqa yer arasında müxtəlif miqdarda gömrük vergisi alınması şəhərlərin ticarət əhəmiyyətli olmasındakı fərqindən, yolların vəziyyətindən və bu kimi digər səbəblərdən asılı idi.

Səfəvilər zamanı Naxçıvan gömrükxanası Araz çayının sahilində yerləşirdi [49, s. 112]. Ticarət karvanlarının məcburən bu yerdən keçməsinin bir səbəbi dövlət nəzarətini lazımi qaydada həyata keçirmək idisə, digəri çayın təşkil etdiyi təbii sərhədi keçmək idi. Qeyd edək ki, bəhs edilən dövrdə Naxçıvanın ticarət həyatında Araz çayındakı bərə nəqliyyatından da istifadə olunurdu [10, s. 53]. Çayı keçmək üçün bir neçə yaşayış məntəqəsində - Əylis, Azad və Culfa yaxınlığında bərə nəqliyyatı fəaliyyət göstərirdi [82, s. 43].

Səfəvilər dövründə Naxçıvan ticarətin inkişafı baxımından Azərbaycanın digər bölgələrindən geridə qalmamış və xeyli irəli gedərək, Şərqlə Qərbi birləşdirən karvan yollarının kəsişmə nöqtələrindən biri üzərində mühüm bir məntəqə rolunu oynamışdır. Hətta XVII yüzilliyin iqtisadi tənəzzül tufanı bölgənin ticarət əlaqələrini sarsıtsa da, o, yenidən bərpa olunmuşdur.

**Şəhərlər.** Səfəvilər dövründə Naxçıvan ölkəsinin iqtisadi həyatında şəhərlərin böyük rolu olmuşdur. Feodal üsul-idarəsinin hökm sürdüyü bir zamanda bu şəhərlər əsas ticarət və sənətkarlıq mərkəzləri idilər. Bu dövrdə bölgə ərazisində Naxçıvan, Culfa, Əylis, Qarabağlar, Azad, Ordubad və s. şəhərlər var idi ki, onlar nəinki ölkədaxili, həmçinin beynəlxalq miqyaslı əhəmiyyət kəsb edirdilər. Səfəvilərin hakimiyyəti zamanı iqtisadi inkişaf bu şəhərlərin də çiçəklənməsinə yol açmışdır. Hətta bəzi xırda yaşayış yerləri, məsələn, Culfa kəndi bu dövrdən şəhər kimi təşəkkül tapmağa başlamışdır [16, s. 211]. Bununla yanaşı qeyd etmək lazımdır ki, bəhs edilən dövrdə Osmanlı-Səfəvi müharibələri üzündən şəhərlər xeyli ziyan çəkmişdir. Culfa şəhəri bu sırada birinci yeri tuturdu.

Bu şəhərlər ticarət və sənətkarlıqla yanaşı, inzibati-siyasi, elmi-mədəni mərkəzlər kimi də Azərbaycanın, xüsusilə də bölgənin ictimai həyatında aparıcı mövqeyə malik olmuşlar.

Bu dövrdə Naxçıvan şəhəri eyni adlı ölkənin (və ya tümənin) əsas inzibati-siyasi mərkəzi və ən iri şəhəri idi. Nəinki Azərbaycanın, dünyanın ən qədim şəhərlərindən biri sayılan bu qədim türk yurdu Səfəvilərə qədər zəngin bir inkişaf dövrü keçmişdir. Səfəvilərə qədər bir sıra dövlətlərin hakimiyyəti altında olmuş Naxçıvan şəhəri hətta müəyyən illərdə bir neçə dəfə paytaxt şəhəri statusunu daşımışdır.

XVI əsrin başlanğıcında Səfəvilərin hakimiyyətə gəlişi Naxçıvan bölgəsinin, xüsusilə də, eyniadlı şəhərin iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamışdı. Şəhər əvvəlki dövrlərdə olduğu kimi, Səfəvilər zamanında da Naxçıvan ölkəsinin əsas inzibati-siyasi mərkəzi idi. Səfəvi hökmdarları tərəfindən təyin edilən yerli hakimlər bölgənin idarə edilməsi işini bu şəhərdən həyata keçirirdilər. İdarəetmə orqanları və orada çalışan məmurlar haqqında türk səyyahı E.Çələbi ətraflı məlumat vermişdir. O, Naxçıvan şəhərindən bəhs edərkən yazır: “Naxçıvan indi Azərbaycanda başqa xanlıqdır ki, onun xanı xeyli hərbi qüvvəyə malikdir. Buranın etimadüddövləsi, kələntəri, münşisi, darğası, dizçökən ağası, çiyyiyən ağası vardır ki, bu zümrənin hamısı hökumətin idarə edilməsində iştirak edirlər. Həmçinin qazısı və şeyxülislamı da vardır” [13, s. 32; 15, s. 11]. Səfəvi hökdarlarının digər Azərbaycan bölgələri ilə yanaşı Naxçıvan ölkəsi ilə bağlı fərmanlarından əmirtümən, əmir, hakim, amil, mütəsəddi kimi vəzifələrin də olduğunu görürük [49, s. 118]. Adları çəkilən vəzifələrdə çalışan məmurların bir hissəsi şəhərin, bir qismi isə bütövlükdə bölgənin idarəçiliyində öz sahələri üzrə əsas rəhbərlik işini həyata keçirirdilər. Məsələn, bu dövrdə kələntər şəhərin rəisi, darğa isə şəhərdə daxili asayişi qoruyan qüvvələrin – müasir terminlə desək polis xidmətinin rəisi,

dizçökən ağa qalanı mühafizə edən hərbi dəstənin rəisi, çiyyiyən ağa cəza dəstəsinin rəisi idi [49, s. 117-119]. Şeyxülislam isə bütün bölgə üzrə dini işlərə nəzarət edirdi.

Səfəvilər dövründə şəhər özünün mühüm əhəmiyyətli ticarət və sənətkarlıq mərkəzi kimi rolunu qoruyub saxlamış və inkişaf etdirmişdir. İstər sənətkarlıq, istərsə də ticarət şəhər həyatının əsas iqtisadi bazasını təşkil edirdi [49, s. 99; 88, s. 63; 120, s. 286]. Müxtəlif ticarət yollarının kəsişdiyi şəhərdə çoxlu sayda bazarlar, dükanlar, sənətkar emalatxanaları və s. iqtisadi baxımdan əhəmiyyətli obyektlər var idi ki, onlar sənətkarlıq, kənd təsərrüfatı və ticarət mallarının alqı-satqısını genişləndirirdi. Bazar bütün növ məhsulların satışı və alışı üçün əlverişli olduğundan sənətkarların da çox hissəsinin əsas iş yerləri bazarlarda yerləşirdi. Məsələn, XVII əsrdə Naxçıvanda 1000 dükandan 450-i sənətkar emalatxanası olmuşdur [15, s. 12; 108, s. 54]. Bu isə şəhərin iqtisadi həyatında onun əsasını təşkil edən sənətkarlıqla ticarətin təxminən bərabər yer tutduğunu göstərir.

Tarixi abidələrin və qədim yaşayış məhəllələrinin yerləşdiyi əraziyə və onlar haqqında mənbələrin [11, s. 19-20; 88, s. 36] verdiyi məlumatlardan aydın olur ki, Səfəvilər dövründə Naxçıvan şəhəri indiki şəhər ərazisinin mərkəzi və cənub hissələrini əhatə etmişdir. Tarixi sənədlərdə XVI əsrin sonunda şəhərin Qaziyi-cahan (başqa adı Xacə Mirixan olmuşdur), Seyid Hüseyn, Molla Əhməd, Mirzəbəy, Şahab, Künbəz (başqa adı Nuri-kəmanlar), Bala, Hacıbəy, Xuzəmərək, Tizxiran, Qala, Məhəlleyi-gəbran adlı məhəllələrinin olduğu göstərilmişdir [36, s. 19; 37, s. 8]. Şəhərin əsas mərkəzi isə Atabəylər memarlıq kompleksinin yerləşdiyi meydan olmuşdur. Bu dövrdə Naxçıvanda ölkə hakimlərinin sarayı da burada yerləşmişdir [25, s. 78].

Şəhərdə binalar əsasən inzibati, dini, ticarət məqsədli və yaşayış evlərindən ibarət olmuşdur. Adları çəkilən müxtəlif növ tikililərin sayları haqqında bəhs edən E.Çələbi göstərir ki, o, şəhərdə olduğu zaman (1647-ci il) orada 10200 örtülü böyük torpaq ev, 70 cümə məscidi, 40 məscid, 20 mehmanxana, 7 gözəl hamam, təqribən 1000 dükan olmuşdur [15, s. 12]. Halbuki bu dövrdə Gəncədə 6000 ev, Mərənddə 3000 ev, 600 dükan, Xoyda 7000 ev, 1000 dükan, Şamaxıda 7000 ev, 200 dükan, Dehxarqanda 7000 ev, 800 dükan olmuşdur [10, s. 51].

Naxçıvan şəhəri Səfəvilər dövründə bölgənin sosial-siyasi, iqtisadi və mədəni cəhətdən inkişaf etmiş, ən iri şəhərlərindən biri olmuş, inzibati-siyasi mərkəz kimi rolunu qoruyub saxlaya bilmiş, amansız müharibələrdən sonra əvvəlki əzəmətini tam bərpa edə bilməsə də, tarix səhnəsində öz yerini itirməmişdir.

Səfəvilər dövründə Naxçıvan bölgəsinin inkişaf etmiş, iri şəhərlərindən biri də Qarabağlar şəhəri idi. Şəhərin tarixi ərazisi indiki Kəngərli rayonunun Qarabağlar kəndinin yerində olmuş, ancaq ondan bir az geniş dairədə yerləşmişdir. Səfəvilər dövründən əvvəl geniş bir şəhər kimi şöhrət qazanmış [3. s. 16; 68, s. 26] Qarabağlar haqqında E.Çələbi yazır: "Çox abad və sonu görünməyən münbit torpağı olan bir düzənliyə malikdir. Neçə dəfə Süleyman xan (I Sultan Süleyman Qanuni (1520-

1566) və sair sərkərdələr də burada qışlamışdır. İndilər yerli yerində yenə abad olmaqdadır. Xidmətçilərimiz orada təqribən 40-a qədər minarə saydılar. Allaha şükür ki, bu şəhərin ab-havasının gözəlliyindən təbiətimiz xoşlandı. Süvari yoldaşlarımızla şəhərə tamaşa etdik. Mehmandarımızın dediyinə görə, şəhərin 10 minə qədər bağlı-bağçalı evi, 70 mehrabı var ki, onun 40-ı minarəli məsciddir. Orada karvansara, hamam, çarşı çoxdur. Lakin indi yenə onların sayı artır" [11, s. 20-21; 15, s. 10-11]. Buradan məlum olur ki, bölgənin mühüm əhəmiyyətli ticarət və sənətkarlıq şəhərlərindən biri sayılan Qarabağlar bu dövrdə təxminən Naxçıvan şəhəri böyüklükdə olmuşdur [3, s. 21]. Naxçıvan ərazisində olan əsas karvan yollarından biri də bu şəhərdən keçirdi. Təbrizdən başlayan həmin yol Sofiyan – Mərənd – Əsədabad – Culfa – Ziyayi-mülk körpüsü – Naxçıvan – Qarabağlar karvansarası – Arpaçay – İrəvan – Üçkilsə - Kaqışqan qalası – Qumaşur kəndi – Çoban körpüsü – Həsən qalası – Ərzurum istiqamətində davam edirdi [66, s. 145]. Şəhər o zaman Naxçıvan ölkəsinin bölündüyü inzibati ərazi vahidlərindən birinin mərkəzi olmuşdur. Osmanlı idarəçiliyi zamanı (XVI əsrin sonu – XVII əsrin əvvəli, XVIII əsrin 20-30-cu illəri) eyniadlı nahiyənin mərkəzi [36, s. 166; 60, s. 142-153] olan Qarabağlar nahiyəsinin tərkibinə 12 kənd, 2 qışlaq və duz mədənləri daxil idi.

Hələ qədimdən gözəl təbiəti, zəngin tarixi abidələri, görkəmli şəxsiyyətləri, ən əsası isə milli-mənəvi dəyərlərin saxlanması ilə seçilən, Səfəvilər dövründə də Azərbaycanın inkişaf etmiş yaşayış məskənlərindən biri Ordubad şəhəri idi. Səfəvilər dövründə Osmanlı-Səfəvi müharibələri zamanı tez-tez döyüş meydanına çevrilməsinə baxmayaraq, Ordubad şəhəri öz əhəmiyyətli mövqeyini, gözəlliyini qoruyub saxlaya bilmişdi. XVII əsr müəllifi Məhəmməd Mustoufi Yəzdi göstərir ki, həmin vaxt şəhər gözəl bağ və bostanları, meyvələri, təmiz sulu 72 ədəd bulağı ilə adamı valeh edirdi [118, s. 9]. Ümumiyyətlə, buranın əhəmiyyətli memarlıq abidələri ilə yanaşı təbiətinin heyrətamiz gözəlliyi hər zaman Səfəvi şahlarının nəzər diqqətini cəlb etmişdir. Təsadüfi deyil ki, I Şah Təhmasib dövrün mahir rəssam və nəqqaşlarına Qəzvində Çehelsütun şah sarayının böyük salonlarının divarlarında Ordubad mənzərələrini təsvir etmək göstərişi vermişdir [12, s. 48]. Şahın bu əmrinə əsasən 1557-ci ildə tikintisi başa çatdırılmış Qəzvin dövlətxanasının tavanında Ordubad şəhərinin təsviri mənzərəsi və plan-modeli çəkilmişdir [83, s. 19]. Səfəvi hökmdarları Ordubad şəhərini həmişə diqqətdə saxlamış, ona yüksək qayğı göstərmişlər. Belə ki, 1604-cü ildə I Şah Abbasın xüsusi fərmanı ilə şəhər əhalisi xəzinəyə veriləcək bir sıra vergilərdən azad edilmişdir [120, s. 281]. Səfəvi şahının 1606-cı ildə Ordubada gəlişi zamanı şəhəri soyurqal olaraq vəziri Hatəm bəy Ordubadiyə verməsi [12, s. 48] onun bu torpağa qayğısının əlavə bir təzahürüdür. Nəticədə Hatəm bəy şəhərdə geniş abadlıq işləri apararaq, çoxlu ictimai binalar tikdirmiş [35, s. 97], vergilərdən azad edilən əhalinin isə iqtisadi baxımdan imkanları xeyli yaxşılaşmışdı. Hələ 1591-ci ildən Səfəvilərin mərkəzi aparatında baş vəzir vəzifəsini daşıyan Hatəm bəyin [138, s. 329] öz doğma şəhərində bu

işləri görməsinin səbəbkarı birbaşa şahın özü idi.

Şəhər əhalisinin vergilərdən azad edilməsinin Hatəm bəyin xahişi ilə həyata keçirilməsinə baxmayaraq [121, s. 181], burada şahın Ordubad camaatına qarşı müsbət münasibətinin olması da mühüm rol oynamışdı. Səfəvi hökmdarının həyata keçirdiyi belə xeyriyyəçi tədbirlər sayəsində Ordubad şəhərinin mədəni və iqtisadi cəhətdən inkişafı üçün maddi stimul yarandı. Fərmanın verilməsindən sonra şəhər tərəqqi etməklə yanaşı, Azərbaycanın əsas ticarət və sənətkarlıq mərkəzlərindən birinə çevrildi [83, s. 38]. XVII əsrin ikinci yarısında Ordubad Təbriz, Şamaxı və başqa Azərbaycan şəhərləri ilə yanaşı xarici ölkələrlə də geniş ticarət və digər xarici əlaqələrə malik idi [66, s. 152-153; 124, s. 168]. Bu da öz növbəsində ona gətirib çıxarmışdır ki, Ordubad XVII əsrdə Azərbaycanın və bölgənin mühüm əhəmiyyət kəsb edən şəhərləri sırasında yer tutmuşdur [107, s. 122]. XVII əsrin ikinci yarısının Səfəvilər dövlətində ümumi iqtisadi tənəzzül dövrü olmasına baxmayaraq Səfəvi şahlarının və mərkəzi hökumətdə yüksək vəzifələrdə çalışan Nəsirəddin Tusinin nəslindən olan Hatəm bəyin və onun nəslindən olan məmurların davamlı qayğıları sayəsində Ordubad şəhəri öz əvvəlki şöhrətini həmin yüzillikdə də qoruyub saxlamışdır.

Lakin XVII əsrin sonları XVIII əsrin əvvəllərində ölkədə siyasi və iqtisadi böhranın dərinləşməsi Ordubadın şəhər həyatına da təsirsiz ötüşməmişdi. Belə ki, XVIII əsrin 20-ci illərində yenidən başlanan Osmanlı-Səfəvi müharibələri digər Səfəvi torpaqlarında olduğu kimi burada da dağıntı və tələfatlara səbəb olmuş, İstanbul müqaviləsindən (1724) sonra şəhər Osmanlı idarəçiliyinə tabe edilmişdir. Bu illərdə Naxçıvan sancağının inzibati ərazi bölgüsündə Ordubad şəhəri Azadciran nahiyəsinin tərkibinə daxil edilmişdir. Anbaras, Məngis, İştərəngə və Sərşəhər adlı 4 məhəlləsi olan şəhərdə 587 nəfər 20 yaşdan yuxarı kişi, 210 dükan, 102 üzüm bağı, 5 dəyirman, 5 karvansara, 2 sabunxana, 2 bəzirxana, 2 hamam olmuşdur [60, s. 222-239]. Orada həmçinin Sultan Murad camesi və Mirzə İbrahim mədrəsəsi də fəaliyyət göstərmişdir. Səfəvilər dövründə Ordubad şəhəri müharibələr zamanı ağır vəziyyətlərə düşməsinə baxmayaraq, sülh və sabitlik illərində bölgənin abad, mədəni və iqtisadi cəhətdən inkişaf etmiş şəhərlərindən biri olmuşdur.

Bu zaman bölgənin mühüm əhəmiyyət kəsb edən şəhərlərindən biri də Culfa şəhəri idi. Culfanın şəhər kimi əsas üstünlüyü onun yerləşdiyi ərazidən daha çox asılı olmuşdur. XV əsrdən Culfa şəhərinin iqtisadi yüksəlişi başlamış, XVI əsrin ikinci yarısında o, beynəlxalq ipək ticarətinin iri mərkəzi kimi geniş şöhrət qazanmışdır [16, s. 211]. Çox da böyük olmayan bu şəhər (15-20 min əhali) Avropa-Asiya ipək ticarətinin iri birja və anbar yeri olmuşdur [121, s. 181]. Culfa Böyük İpək Yolu üzərində yerləşdiyindən və beynəlxalq ipək ticarətinin inkişafı ilə əlaqədar olaraq, XVI əsrdən şəhər kimi təşəkkül tapmışdır. XVI əsrdə, qısa bir zamanda Culfanın şəhərə çevrilməsinə baxmayaraq, o bəhs edilən dövrdə Səfəvilər dövləti ərazisində ölkə əhəmiyyətli Azərbaycan şəhərləri arasında ticarət və sənət-

karlığın iqtisadi mərkəzlərindən sayılan Təbriz, Gəncə, Ərəş, Ərdəbil və s. şəhərlərlə bir sırada dururdu [7, s. 448; 16, s. 205]. Bu da təsadüfi deyildi. Çünki Səfəvilər dövründə Naxçıvan bölgəsinin əsas ticarət yolları, demək olar ki, Culfa şəhərindən keçirdi. Digər tərəfdən bu dövrdə şəhərin iqtisadi imkanlarının artmasında burada yaşayan tacirlərin böyük rolu olmuşdur. Müxtəlif şəhərlərlə sıx ticarət əlaqələri aparan bu iş adamları xam ipəyi istehsal olunduğu yerlərdən – Şamaxı, Ərəş və Gilandan alır, sonra isə onu Qərbi Avropa və Şərq ölkələrində satırdılar [137, s. 237]. Buna görə də şəhərin iqtisadi əhəmiyyətini nəzərə alan I Şah Təhmasib onu 1545-ci il fərmanı ilə xass torpaq fonduna keçirmişdir [139].

XVI əsrin ikinci yarısında Culfanın çox da iri olmayan bir şəhər olması haqqında həmin əsrin 80-90-cı illərində burada olmuş ingilis tacirləri də öz qeydlərində məlumat vermişdilər. Belə ki, XVI əsrin 80-ci illərinin əvvəllərində Culfada olmuş ingilis taciri Nyuberi burada 3 min ev, 15-20 min əhali olduğunu, ondan 10 il sonra şəhərdə olmuş digər bir ingilis səyyah-taciri Kartvrayt isə orada 2 min ev və 10 min əhali yaşadığını göstərmişdir [137, s. 237].

Səyyah və tacirlərin qeydlərindən məlum olur ki, "Böyük sürgün" siyasətinin həyata keçirilməsindən əvvəl şəhər xeyli inkişaf etmişdir. 1603-cü ildə burada olmuş alman səfiri Tektander şəhərin möhkəm qala divarlarının olması və evlərinin dam örtüksüz, lakin yuxarısında eyvanlarının yerləşməsi, hər evdə səhərə kimi şamların yandırılması və s. haqda məlumat vermişdir [131, s. 33]. Səfirin qeydlərindən göründüyü kimi o zaman Culfa güclü müdafiə olunan qala şəhəri olmuş, evlər dəbdəbəli tikilmiş, əhali zəngin həyat tərzi sürmüşdür. Lakin I Şah Abbasın məlum sürgün siyasətindən sonra şəhər demək olar ki, tamamilə dağıdılmışdır. Aradan xeyli müddət keçməsinə baxmayaraq, XVII əsrin ikinci yarısında burada əhali çox az məskunlaşmış və şəhər hələ də özünə gələ bilməmişdi. Səyyahların qeydlərinə görə həmin əsrin ikinci yarısında şəhərin yalnız şimal-şərqində məskunlaşan ailələrin sayı təxminən 30-dan çox deyildi [88, s. 66] və onların evləri yaşayış mənzillərindən çox katakombaya bənzəyirdi [124, s. 170]. Ancaq Culfa şəhəri Səfəvilər dövründə iqtisadi və mədəni cəhətdən inkişaf edərək şəhər səviyyəsinə yüksəlsə də, dəfələrlə baş vermiş Osmanlı-Səfəvi müharibələrinin təsirindən yenidən dağıdılmış, kənd tipli yaşayış məskəninə çevrilmişdir.

Səfəvilər dövründə Naxçıvan bölgəsində diqqəti cəlb edən şəhərlərdən biri də Əylis idi. Bu şəhər indiki Ordubad rayonunun Yuxarı Əylis kəndinin yerləşdiyi ərazidə mövcud olmuşdur. Bəhs edilən dövrdə Əylis iqtisadi və mədəni inkişaf baxımından şəhər tipli yaşayış məntəqəsi olmuşdur. Bura da Culfa kimi ipək və digər malların satıldığı ticarət mərkəzlərindən biri kimi fəaliyyət göstərmişdir [84, s. 11]. Culfa ilə müqayisədə bu kiçik şəhər XVI əsrdə Səfəvi şahlarının xassə torpaq fonduna aid olmuş, toxunulmazlıq və sakinlərinin vergiləri birbaşa şaha ödəmək statusu olmuşdur [16, s. 211-212]. Şahın belə xüsusi himayəsi buranın ticarət imkanlarının genişləndirmişdir. Əylisin mərkəzində bazar meydanı və onun cənub

tərəfində yerləşən böyük bir karvansara da ticarətin inkişafına xidmət etmişdir. Bu karvansara 1680-ci ildə Əylisli Musa bəy tərəfindən tikilmişdir [84, s. 13]. Zirzəmilərinin çoxu günümüzədək salamat vəziyyətdə qalan bu ticarət obyektinin geniş həyəti, təsərrüfat binaları və tövlələri uzaqdan gələn ticarət karvanlarının yerləşməsi və bazarda alış-veriş etməsi işini asanlaşdırırdı. Ordubad-Əndəmic-Əylis istiqamətində bazara gedib-gələn ticarət karvanlarının hərəkətini təmin etmək üçün Əylis çayının üzərindən xalq arasında Şah Abbas körpüsü kimi tanınan körpü salınmışdır.

Əylis şəhərinin cənub tərəfdə "Qala qapısı" adlandırılan yer olmuşdur. Bura cənub yolu ilə şəhərə daxil olan tacirlərin və onların mallarının yoxlanılması və qeydiyyatdan keçirilməsi üçün gömrük məntəqəsi rolunu oynamışdır. Bu dövrdə Əylis şəhərində ticarət əlaqələrinin inkişafı üçün bütün imkanlar yaradılmışdır. Bu işdə Səfəvi hökmdarlarının da böyük rolu olmuşdur. Körpüdən başqa şəhərin əsas məscidinin Şah Abbas məscidi adlandırılması da bunu sübut edir. Bu cür abidələr I Şah Abbasın dövründə tikdirildiyi üçün yerli əhali arasında onun adı ilə adlandırılmışdır [84, s. 11-12]. Əylisin 5 böyük məscidi arasında əsas dini ibadətgah sayılan bu memarlıq abidəsi onun qədim məhəllələrindən biri olan Meydan məhəlləsində yerləşdiyinə görə həm də "Meydan məscidi" adlanır. Məscidin yanında hamamı olmuşdur. Günümüzədək müəyyən hissələri dağıntıya və aşınmaya məruz qalsa da, üçgünbəzli hamamın ümumi görünüşü və ölçüləri onun gözəl memarlıq üslubunda tikilməsindən xəbər verir. Hamamın işlədilməsi üçün yanındakı "Meydan çeşməsi"nin suyundan istifadə olunmuşdur [48, s. 125].

Meydan məscidinin həyətində, onun şimal-qərb tərəfində inşa edilmiş ikimərtəbəli mədrəsə şəhərin mədəni həyatında əhəmiyyətli rol oynamışdır. Mədrəsənin üzərində dəqiq inşa edilmə tarixini göstərən kitabə olmasa da, memarlıq xüsusiyyətlərinə, tikinti konstruksiyasına və məscid kompleksinə aid olması onların Səfəvilər dövründə tikildiyini göstərir. Əylisdəki Şah Abbas məscidi Naxçıvan bölgəsində Ordubad Came məscidindən sonra yanında mədrəsə binası olmaqla indiyədək gəlib çatan ikinci məsciddir [84, s. 12].

Səfəvilər dövründə Naxçıvan bölgəsinin şəhərləri arasında Azad şəhəri diqqəti cəlb edir. Əvvəllər bu şəhərin yerinin dəqiq müəyyənləşdirilməsi bir sıra mübahisələrə səbəb olsa da, orada tədqiq edilən epiqrafik sənədlərə əsasən müəyyən edilmişdir ki, qədim Azad şəhəri Culfa ilə Ordubad arasında, indiki Ordubad rayonunun Azadkənd kənd qəbiristanlığının yaxınlığında yerləşmişdir [57, s. 33; 77, s. 12]. Bu dövrdə Azad bölgənin ticarət və sənətkarlıq baxımından inkişaf etmiş şəhərlərindən biri idi. Onun iqtisadi baxımdan inkişaf etməsinin səbəbi beynəlxalq karvan ticarət yolunun üzərində yerləşməsi olmuşdur. Günümüzdə Xaraba Gilan adlandırılan yerdə orta əsrlərdə mövcud olmuş Azərbaycanın mühüm ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi tanınan Kiran şəhəri indiki Azad kəndindən təxminən 6-7 km şimalda yerləşmişdir. Bu haqda Zeynəddin bin Həmdullah Qəzvininin qeydlərindən də aydın olur ki, Azad və Kiran şəhərləri bir-birindən

çox da aralı olmamışdır [93, s. 176]. Səfəvilər dövründə də bu adda bölgənin iri inzibati ərazi vahidlərindən biri olmuşdur. “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə Azadciran nahiyə kimi qeyd edilmişdir [60, s. 187-143]. Nahiyənin şəhərin adı ilə adlandırılması faktı onun daxil olduğu inzibati vahiddə üstün mövqeyini göstərir.

Fransız səyyahı J.B.Tavernye Azad şəhəri haqqında yazmışdır: “2 gün orada qaldıq, çox gözəl şəhərdir. İstirahət üçün yararlıdır. 4 karvansarası vardır. Hər evin həyətində bir bulaq axır. Suyun çoxluğu bu ərazini məhsuldar etmişdir. Xüsusilə, oranın əla şərabı vardır. Bütün dünyada marena verən yeganə şəhərdir” [67, s. 92]. Səyyahın şəhər haqqında məlumatından aydın olur ki, buranın suvarılma baxımından əlverişli və münbit torpağı kənd təsərrüfatının inkişafına kömək etmiş, bu inkişaf isə öz növbəsində beynəlxalq ticarətin və yerli sənətkarlığın yüksəlişinə səbəb olmuşdur. 4 karvansaranın olması şəhərin geniş ticarət əlaqələrinin olduğundan xəbər verir. Günümüzədək salamat vəziyyətdə qalan və istifadə edilən Aza körpüsü də bu haqda yazılanları bir daha təsdiq edir. Hindistanı və Çini Qara dəniz sahilləri və Avropa ölkələri ilə birləşdirən mühüm ticarət-karvan yolu üstündə yerləşən bu körpü Böyük İpək Yolu ilə şərqdən qərbə və əksinə hərəkət edən ticarət karvanlarının işini asanlaşdırmaq üçün Səfəvi hökmdarı I Şah Abbasın zamanında (1587-1629) inşa etdirilmişdir [57, s. 31-32]. Səfəvilər dövründə dünyada əvəzi olmayan marenanın – qızıl boyanın burada iri həcmli istehsalı şəhərin beynəlxalq ticarətdə əhəmiyyətini daha da artırmışdı.

Azad şəhərinin memarlıq abidələri sırasına daxil olan dörd günbəzli hamam günümüzədək yarıdağılmış vəziyyətdə gəlib çatmışdır. İndiki Azadkəndin cənubunda tikilmiş hamamın inşa edilmə tarixi XVI-XVII əsrlərə aid edilir [57, s. 34]. Salamat qalan abidələr və səyyah-tacirlərin məlumatları deməyə əsas verir ki, şəhər XVI-XVII əsrin əvvəllərində tərəqqi dövrünü yaşamışdır. Lakin “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə göstərilmişdir ki, XVIII əsrin 20-ci illərində burada heç kim yaşamamışdır [60, s. 199]. Həmin sənəddə adı Azad kənd kimi göstərilən bu yaşayış məntəqəsindən başqa onun ətrafında 3 kəndin də - Azadciran, Xəlilli və Miskin Kaşan kəndlərinin də əhalisiz olduğu göstərilmişdir [60, s. 198-199]. Sonrakı yüzillikdə də buranın dağıntılar içərisində olmasına [136, s. 228-229] əsasən demək olar ki, XVII əsrin əvvəllərində baş verən Osmanlı-Səfəvi müharibələri nəticəsində, “Böyük sürgün” zamanı şəhər dağıdılmış, əhalisi isə Səfəvilər dövlətinin içərilərinə köçürülmüşdür.

## 3. Naxçıvan Nadir şahın dövründə

III Şah Abbasın müəmmalı ölüm xəbəri həmin vaxt Muğanda olan Nadirqulu xana çatdıqdan sonra, o 1736-cı ilin martında Nadir şah adı ilə şah elan edildi. Bununla da Səfəvilər dövləti tarix səhnəsindən çıxdı, onun yerini yeni şahın – Nadir şahın mənsub olduğu tayfanın adı ilə adlandırılan Əfşarlar dövləti tutdu.

Nadir şahın həyata keçirdiyi ilk tədbirlərdən biri Səfəvilər dövründə mövcud olan inzibati ərazi bölgülərini ləğv etmək oldu. O, tarixi Azərbaycan ərazilərini əhatə edən Şirvan, Qarabağ, Çuxur-Səd və Təbriz bəylərbəyliklərini ləğv edərək bu inzibati ərazi vahidlərinə daxil olan ərazilər hesabına Azərbaycan adlı vahid inzibati bölgü yaratdı. Bununla da Azərbaycanın bütün torpaqları vahid bir ad altında birləşdirildi. Yeni inzibati ərazinin – Azərbaycanın idarəsi Nadir şah tərəfindən qardaşı İbrahim xana həvalə olundu. Paytaxt Təbriz şəhəri oldu. Beləliklə Naxçıvan bölgəsi də Azərbaycan inzibati ərazisi daxilində İbrahim xanın hakimiyyəti altına keçdi. Orta əsr müəllifləri bu haqda qeyd edirlər ki, Nadir şah öz qardaşını rəis və sərdar..., yəni Azərbaycanın sərəsgəri təyin etdi. Naxçıvanı, Şirvanı, bütün Ağrı vilayətini, Gürcüstanın idarəsini qardaşına tapşırmaqla onu bəylərbəyi kimi bütün digər xanların başçısı təyin etdi [21, s. 17].

Nadir şahın hakimiyyətinin ilk illəri Azərbaycan tarixinin ən ağır dövrlərindən biri kimi xarakterizə olunur. Həmin vaxt bir sıra şəhərlərdə təsərrüfat tənəzzül etmiş, iqtisadi vəziyyət ağırlaşmışdı. İpək istehsalı zəifləmişdi, bununla da ipək ixracı tənəzzül etmişdi. Bu vəziyyət qədim zamanlardan ipəkçiliklə məşğul olan Naxçıvan bölgəsində də özünü göstərirdi.

Hakimiyyətinin ilk günündən Nadir şahın əmri ilə bütün şəhərlərdə, o cümlədən Naxçıvan şəhərində dövlətin maliyyə işlərinə – mədaxilinə, məxaricinə və s. kimi bu işlərə nəzarət etmək üçün üç nəfər mirzə (vəkil) təyin edildi. Onlara aşağıdakı vəzifələr tapşırılmışdı: Birinci mirzə – vəkil digər iki mirzənin razılığı ilə dövlətin mədaxilinə, məxaricinə, maliyyə işlərinə rəhbərliyi həyata keçirirdi. İkinci mirzə – vəkil mədaxilin və məxaricin siyahısına nəzarət edir və bununla əlaqədar hazırlanan sənədləri özündə saxlayırdı. Üçüncü mirzə – vəkil mustofi adlanırdı və aparılan bütün maliyyə əməliyyatlarının, hesabların düzgünlüyünə nəzarət edirdi. Nadir şah bu yeni qaydaları tətbiq edərkən vergilərin yığılmasını qaydaya salmaq, bu sahədə intizamı artırmaq və dövlətin maliyyə məsələlərini, iqtisadi qüdrətini gücləndirmək məqsədini güdürdü. Ancaq tətbiq olunan yeni qaydalar nəticəsində ölkənin mərkəzində və xüsusilə ucqarlarda, ölkənin əyalət, şəhər və kəndlərində əhalinin vəziyyəti ağırlaşır, qəhətlik və bahalıq daha da artırdı.

Nadir şahın həyata keçirdiyi bu siyasətin məntiqi nəticəsi idi ki, ölkənin bir çox yerlərində, o cümlədən Muğanda, Təbrizdə, Gəncədə, Qazaxda, Loridə, Gürcüstanda, Göyçə sahillərində, Qafanda, Naxçıvanda, İrəvanda vəziyyət son dərəcə pisləşmiş, aclıq, qəhətlik və bahalıq həddini aşmışdı.

Nadir şah maliyyə siyasətində vergilərin toplanmasına böyük əhəmiyyət verirdi. Bu sahədə ən kiçik qüsura yol vermiş adamı ciddi cəza gözləyirdi. Bəzən şahın belə hərəkətlərinə laqeyd yanaşan məmurlar gəlir əldə etməkdən savayı heç bir şey haqqında fikirləşmirdilər. Nadir şahın həyata keçirdiyi ilk tədbirlərdən biri də ona tərəfdar olmayan tayfaların başqa yerlərə sürgün edilməsi oldu. Həmçinin şah ölkənin maliyyə qüdrətini gücləndirmək üçün vergi toplanması işini qaydaya

salmaq məqsədilə ciddi addımlar atdı. Bu işdə ona mane olanlar, itaətsizlik göstərənlər, vergidən boyun qaçıranlar ciddi cəzalandırıldılar. Həmin proseslərdə dövlətin maliyyə siyasətinə tərəfdar çıxmadıqları və kömək etmədikləri üçün Naxçıvanın keçmiş hakimi Mirzə Rza, qoşun başçılarından Quba xan və Məsum xan şahın qəzəbinə düçar olaraq ciddi cəzalandırılmışdılar. Mənbələrin verdiyi məlumata görə Mirzə Rza Naxçıvanda böyük özbaşınalıqlara yol vermiş, rəiyyətlərin mal-dövlətini talamış, rüşvətxorluq etmişdir [21, s. 17]. Həmçinin Mirzə Rza 82 kənddən vergi yığdığı halda, yalnız 32 kəndin vergisini xəzinəyə 700 tümən həcmində vermişdi. Bundan xəbər tutan Nadir şah ona üç gün müddətində toplanılan bütün vergilərin xəzinəyə təhvil verilməsini əmr etdi və onu cəzalandıraraq vəzifədən kənarlaşdırdı.

Nadir şahın daxili siyasəti, xüsusilə vergilər və onların toplanması qaydaları əhalinin təbii olaraq narazılığına səbəb oldu. Azərbaycanın başqa yerlərində olduğu kimi, Naxçıvanda da əhali ikiqat zülm altında idi. Xalq kütlələri yerli feodallar və xarici işğalçılar tərəfindən soyulurdu. Bu isə narazılığı daha da artırırdı və etiraz əlaməti olaraq əhalinin bir hissəsi feodal istismarından yayınmaq məqsədilə doğma yurdlarını tərk edərək ucqar və əlçatmaz yerlərə qaçır və orada məskunlaşırdılar. Naxçıvan bölgəsinin qədim sakinlərindən olan Kəngərli tayfasının bəzi nümayəndələri Nadir şahın həyata keçirdiyi siyasətə tabe olmadıqları və itaətsizlik göstərdikləri üçün şah tərəfindən uzaq yerlərə – Əfqanıstana köçürüldülər. Kəngərlilərin tabesizliyi Nadir şahda şübhə yaratdığı üçün bu tayfaya o qədər də etibar etməyib, başqa yerlərdən fərqli olaraq, Naxçıvan əyalətini idarə etmək üçün buraya həmin tayfadan iki hakim təyin etdi: birinci hakim-e ölke-yi Naxçıvan (Naxçıvan ölkəsinin hakimi), ikincisi hakim-e tümən-e Naxçıvan (Kəngərli tayfa başçısı və süvari bölməsinin rəisi). ...Naxçıvan ölkəsinin idarəsində vəkillər və tayfa ağsaqqalları da iştirak edirdilər. Arxiv sənədlərindən məlum olur ki, bu dövrdə Naxçıvan ölkəsində Kəngərli tayfasının aşağıdakı qolları məşhur idi: Qızıllı, Sarbanlar, Ağabəyli, Qaradolaq, Əlixanlı, Qaraxanbəyli, Qarabağlar və b. [21, s. 18] .

Nadir hələ şah elan edilməmişdən əvvəl də Kəngərli tayfasının nüfuzlu nümayəndələrinə şübhə ilə baxmış, onlara etibar etməmişdir. Buna görə də o, 1736-cı ildə Muğanda tacqoyma mərasimi keçirərkən oraya tayfa başçısı Vəliqulu xan Kəngərli yox, Muğan qurultayına Naxçıvanın nümayəndəsi kimi İrandan göndərilmiş və özünün qəddarlığı ilə seçilən Mirzə Rza dəvət edilmişdi. Mirzə Rza vəzifədən azad edildikdən sonra Nadir şah Ağa Həsəni Naxçıvan ölkəsinin müvəqqəti hakimi təyin etdi. Lakin Ağa Həsən də yerli əhali ilə rəftarında Mirzə Rzadan fərqlənmədi. Bu da əhalinin səbir kasasını daşdırdı. Ağa Həsənin zülmündən cana gəlmiş əhali hətta silaha əl atmağa, üsyanlar qaldırmağa məcbur olurdu.

Bu zaman ölkədə baş verən siyasi hadisələr, xüsusilə ordunun bir yerdən digər yerə hərəkəti də bütün ölkədə olduğu kimi Naxçıvanda da vəziyyəti ağırlaşdırırdı. Nadir şahın 1743-cü ildə Qarsa hücumu zamanı ordu birləşmələri

Naxçıvandan keçmiş, bu da bölgədə ağır olan vəziyyəti daha da pisləşdirmiş və əhalinin narazılığı artmışdı. Ancaq bütün bu narazılıqlara görə baş vermiş üsyanları Nadir şah çox qəddarlıqla yatırırdı.

Lakin bütün bu güclü təqiblərə və cəzalandırmalara baxmayaraq aparılan siyasətə qarşı xalqın narazılığı durmadan artırdı və ölkədə silahlı üsyanlar dalğası daha da güclənirdi. 1743-cü ildə Şirvanda baş vermiş üsyan yatırıldıqdan sonra 1746-1747-ci illərdə Azərbaycanı, Gürcüstanı yeni üsyanlar bürüdü.

Rusiyanın İrandakı səfiri M.M.Qolitsin 1747-ci il mart ayının 15-də yazırdı: "İndiki zamanda İran əyalətlərinin hamısında qorxulu vəziyyət yaranmışdır. Gəncədə, İrəvanda, Naxçıvanda, Tiflisdə əhali pul cərimələrindən cana gəlmiş, kiçikdən böyüyədək, hətta yerli hakimlər qiyam qaldırır, var-dövlətləri və mal-qarası ilə dağlara çəkilirlər".

Nadir şah ölkənin iqtisadi vəziyyətini düzəltmək üçün Xorasanda özü üçün yeni mərkəz yaratmaq istəyirdi. O, Xorasanı dövlətin həm siyasi, həm də iqtisadi mərkəzi etmək fikrində idi. Ona görə də bir sıra Azərbaycan şəhərlərindən, o cümlədən Naxçıvandan Xorasana ailələri ilə birlikdə çoxlu sənətkar köçürdü. Bu da öz növbəsində həmin şəhərlərdə, həmçinin Naxçıvanda sənətkarlığın zəifləməsinə və ağır vəziyyətə düşməsinə gətirib çıxardı. Bütün bu narazılıqlar Nadir şahın 1747-ci ildə sui-qəsd nəticəsində öz yaxın adamları tərəfindən gecə ikən yatağında qətlə yetirilməsi ilə nəticələndi. Bununla da əfşarların 11 illik hakimiyyətinə son qoyuldu.

Ordubad şəhərində qeydə alınan və Nadir şahın Hindistana yürüşü xatırlanan epiqrafik sənəd – kitabə Naxçıvan bölgəsinin Əfşarlar dövlətinin tərkibində olmasını təsdiq edən çox mühüm qaynaqdır.

## 4. Mədəniyyət

**Maarif.** Səfəvilər dövründə Azərbaycanın hər yerində olduğu kimi Naxçıvanda da maarif işlərinə ənənəvi olaraq islam ruhaniləri nəzarət edir, bu işi öz əllərində saxlayırdılar. Tədris yenə də məscidlərdə və şəxsi evlərdə təşkil olunmuş məktəb və mədrəsələrdə aparılırdı. Bu təhsil yerlərində uşaqlar ilk vaxtlar ana dilində dərs keçsələr də, böyüdükdən və yuxarı siniflərə keçdikdən sonra ərəb-fars dillərində yazılmış dərsliklərdən istifadə edirdilər.

Səfəvilərin hakimiyyəti illərində Naxçıvan məktəblərində və mədrəsələrində yenə də dərslər əvvəlki vaxtlarda olduğu kimi aparılır, ilk olaraq şagirdlər əlifbanı öyrənir, sonra isə islamın müqəddəs kitabı Qurani-Kərimi şifahi üsulla əzbərləyirdilər. Məktəblərdə həm də Fəridəddin Əttarın "Nəsihətnamə", Sədi Şirazinin "Gülüstan", Übeyd Zavaninin "Siçan və pişik" əsərlərindən, həmçinin Hafizin "Divan"ından parçalar tədris olunurdu.

Naxçıvan mədrəsələrində ilahiyyat dərsləri ilə yanaşı dünyəvi fənlər, o

cümlədən Aristotelin, Mirxondun, Xaqani Şirvaninin, Nizami Gəncəvinin, Şəms Təbrizinin, Hafiz Şirazinin, Əhvədi Marağayinin, Məhəmməd Fizulinin və başqalarının əsərləri, bunlarla yanaşı fəlsəfə, astronomiya, cəbr və s. tədris olunurdu.

Naxçıvan şəhər tarixinin tədqiqatçısı R.Məmmədov XVI-XVII yüzilliklərdə şəhərdə yaşayan ali ruhani təbəqələrini sadalayarkən onların içərisində müdərrisləri xüsusi qeyd edir [49, s. 115]. Şəhərdə müdərrislərin - mədrəsə müəllimlərinin yaşaması bəhs olunan dövrdə orada mədrəsələrin fəaliyyət göstərdiyini təsdiq edir. Həmçinin, adlarının şeyxülislam, qazı, üləma, axund, cümə məscidinin imamları, vaiz, xanəgah, zaviyə şeyxləri və başqa bu kimi nüfuzlu şəxsiyyətlərlə birlikdə sadalanması müdərrislərin şəhərin ictimai-siyasi həyatında mühüm rol oynayan, seçilib-sayılan adamlardan olduqlarını göstərir.

Səfəvilər dövründə təkcə Naxçıvan şəhərində deyil, digər şəhərlərdə də məktəblər və mədrəsələr fəaliyyət göstərirdi. Həmin vaxt ərazidə fəaliyyət göstərən ən məşhur mədrəsələrdən biri də Ordubad şəhərində olan mədrəsə idi. Zəmanəsinin nüfuzlu təhsil ocaqlarından olan bu mədrəsə fəaliyyət göstərdiyi müddətdə daim Azərbaycan feodal hakimlərinin, dövlət aparatında mühüm vəzifə tutan məmurların, görkəmli şəxsiyyətlərin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Bu mədrəsə Naxçıvan bölgəsinin, ümumiyyətlə Azərbaycanın hüdudlarından kənarda belə məşhur olmuş, qonşu ölkələrdən də oraya təhsil almağa gəlmişlər. Onun yetirmələri Təbriz, Bağdad, Nəcəf və başqa bu kimi elm, təhsil və mədəniyyət mərkəzlərində öz təhsillərini davam etdirərək tanınmış şəxsiyyətlərə çevrilmiş, Azərbaycanda və müsəlman şərqinin bir sıra ölkələrində yaşayıb fəaliyyət göstərmişlər [89].

İlk təhsilini Naxçıvan bölgəsindəki mədrəsələrdə almış və orta əsrlərdə səmərəli xidmətləri ilə layiqli ad-san qazanmış kitabdar Həddad ən-Nəşəvi, filosof Əhməd ibn Hacaf Əbubəkr ən-Nəşəvi, Həsən ibn Ömər Naxçıvani, Baba Nemətullah Naxçıvani, hüquqşünas Əbu Əbdullah əl-Müfərric ən-Nəşəvi, "təbiblərin sultanı" adı ilə məşhurlaşmış Əkmələddin Naxçıvani, tarixçi və filosof Nəcməddin Naxçıvani, dilçi və tarixçi Məhəmməd Hinduşah Naxçıvani və başqaları kimi mütəfəkkir alimlər Azərbaycan elmi fikrinin müxtəlif istiqamətlərini uğurla təmsil etmişlər.

Mənsub olduğu Came məscidinin yanında təsis olunan və özünün vəqfləri hesabına maliyyələşən Ordubad mədrəsəsi iki mərtəbəli binada yerləşirdi. Dərs otaqlarından, tələbələrin yaşaması üçün xüsusi hücrələrdən, təsərrüfat binalarından ibarət olan bu tikili tipik mədrəsə binasıdır. Tədqiqatçıların fikrincə bu mədrəsə binası Şimali Azərbaycanda zəmanəmizədək salamat vəziyyətdə gəlib çatmış yeganə klassik mədrəsə nümunəsidir [132, s. 266].

Ordubad şəhəri orta əsrlər zamanı Müsəlman Şərqinin digər iri elm və mədəniyyət mərkəzləri ilə müqayisədə çox inkişaf etməsə də, burada fəaliyyət göstərən mədrəsə Azərbaycanın ən mühüm mədəniyyət və təhsil müəssisələrindən

biri olmuş, Azərbaycan dövlət aparatının yüksək vəzifəli adamları tərəfindən himayə və idarə olunmuşdur. Böyük əhəmiyyəti nəzərə alınaraq mədrəsə binası hicri 1126-cı ildə (miladi 1714) bərpa edilmişdir.

Bu illər Səfəvilər dövləti üçün ən ağır dövrlərdən biri idi. Belə ki, XVII əsrin sonlarında yaranmış ağır vəziyyət XVIII yüzilliyin əvvəllərində də davam etmiş, ölkəni ağır iqtisadi və siyasi böhran bürümüşdü. Dövlət aparatının zəifləməsindən istifadə edən bəzi bəylərbəyilər və iri feodallar müstəqilliyə can ataraq şaha tabe olmaqdan boyun qaçırırdılar. Belə böhranlı bir zamanda, dövlətin maliyyə vəziyyətini düzəltməkdən ötrü pul kəsmək üçün hətta Ərdəbildəki Şeyx Səfi məqbərəsindəki qiymətli əşyaların əridildiyi bir dövrdə Ordubad mədrəsəsinin bina etdirilməsi və bu işin dövlət səviyyəsində aparılması Səfəvi hökmdarlarının təhsilə nə qədər böyük diqqət və qayğı göstərdiyini göstərən ən sanballı faktlardandır.

"Naxçıvan sancağının müfəssəl dəftəri"ndə əks olunan məlumatlardan aydın olur ki, 1727-ci ildə, yəni "Dəftər" tərtib olunduğu zaman mədrəsə şəhərdəki 30 dükanın hərəsindən ayda 15 ağça, Təknə hamamı gəlirinin yarısını, yəni 9000 ağça, Ordubadda olan isgələnin gəlirindən nəqd olaraq 4800 ağça vəqf olaraq alırmış [59, s. 215]. "Dəftər"də mədrəsənin vəqflərindən əldə olunan gəlirin mədrəsənin məsrəfləri üçün ayrılmış hissəsi də öz əksini tapmışdır. Belə ki, bu gəlirdən müdərris üçün 30 ağça, mütəvəllilik üçün 12 ağça, qapıçı üçün 6 ağça maaş verilirmiş. Burada bir maraqlı məqam diqqəti cəlb edir. Bu da vəqfin gəlirindən hər tələbə üçün 5 ağça verilməsidir. Bunlardan aydın olur ki, XVIII əsrin I rübündə mədrəsədə oxuyan tələbələrin hər birinə mədrəsənin gəlirindən 5 ağça pul verilirmiş.

Buradan belə bir fikir də aydın olur ki, Ordubad mədrəsəsi dövrünün inkişaf etmiş və məşhur təhsil müəssisələrindən olmaq etibarilə Yaxın və Orta Şərqin bir sıra mədəniyyət mərkəzləri, orada olan təhsil müəssisələri ilə sıx elmi-pedaqoji əlaqələrdə olmuş və həmin mədrəsələrin təcrübəsindən (məsələn, tələbələrə aylıq pul vermək) istifadə etmişdir.

"Dəftər"də mədrəsənin gəlirlərinin artıq qalan hissəsinin təyinatı da göstərilmişdir. Nəzərdə tutulmuşdur ki, həmin vəsaiti mütəvəlli qoruyub saxlasın və gərək olduqca mədrəsənin və onun vəqfinə aid olan tikililərin təmirinə sərf eyləsin [59, s. 215-216].

Ordubad şəhərindəki Zəhir əd-Dövlə Məhəmməd İbrahim mədrəsəsi XVIII yüzillikdə nəinki Naxçıvan bölgəsində, eyni zamanda Azərbaycanda əhəmiyyətli tədris müəssisələrindən biri olmuşdur.

Səfəvilər dövlətinin süqutundan sonra hakimiyyətə gələn Nadir şah Əfşarın təhsil sahəsində yeritdiyi sərt siyasət nəticəsində təhsil müəssisələri əsas gəlir vasitələrindən məhrum oldu və bir sıra tədris müəssisələri maliyyə çətinlikləri üzündən sıradan çıxdı. Bu zamanlar Azərbaycanda yalnız bəzi molla müdərrislərin öz təşəbbüsləri ilə yaratdıqları az əhəmiyyətli məktəblər və mədrəsələr fəaliyyət

göstərirdi.

**Elm.** XVI əsrin başlanğıcında Azərbaycan Səfəvilər dövlətinin yaranması ilə ölkənin ictimai-siyasi və iqtisadi həyatında olduğu kimi mədəniyyət sahəsində də tərəqqi başlanmış, mədəni həyatın bütün sahələrində, o cümlədən elmdə xeyli inkişaf olmuşdur. Bu dövrdə yaşamış bir çox alimlər əsasən dini təlimin nümayəndəsi kimi çıxış etsələr də onlar dünyəvi elmlər sahəsində də geniş biliyə malik idilər. Alimlərin əksəriyyəti məntiqin, fəlsəfənin, ədəbiyyatın, təbabətin, riyaziyyatın, astronomiyanın bir çox məsələləri ilə məşğul olurdular. O zamanlar yalnız bir çox elm sahələrinin bilicisi olan universal düşüncəyə malik şəxslər alim hesab edilirdilər [9, s. 295].

Səfəvilər dövründə Azərbaycanın inkişaf etmiş digər elm və təhsil mərkəzlərində olduğu kimi, Naxçıvanda da elm sahəsində müəyyən inkişaf olmuş, bölgədə bir sıra görkəmli elm adamları yetişmişdir. Qaynaqlarda onlar haqqında konkret bəhs edilməsə də verilən ümumi məlumatlardan mühüm nəticələr əldə etmək mümkün olar. Məsələn, türk səyyahı Evliya Çələbi "Səyahətnamə"sində konkret olaraq ayrı-ayrı elm və ədəbiyyat xadimlərinin adları və fəaliyyətləri haqqında məlumat verməsə də, ümumi olaraq Naxçıvanda bütün elm sahələrində mükəmməl biliyə malik olan alimlər və şairlərin olduğunu göstərmişdir. Hətta o Naxçıvan hakimi ilə görüşərkən onun 40-50 nəfər uzaqgörən alim və nədimlə həmsöhbət olduğunu da qeyd edir [15, s. 13].

Səfəvilər dövründə Naxçıvanda yetişən müxtəlif elm adamlarının az bir qismi Naxçıvanda yaşayıb işləsə də, müəyyən hissəsi Şərqin inkişaf etmiş elm və təhsil mərkəzlərinə getmiş, orada məskunlaşmış və çalışmışlar. Əvvəlki əsrlərdə olduğu kimi, Səfəvilər zamanında da Naxçıvanda yetişən alimlər içərisində Nəsrəddin Tusi nəslinə mənsub adamlar içərisindən çıxmış alimlər xüsusi yer tuturdu.

XVI əsrdə Xacə Nəsirəddin Tusi nəslindən çıxan görkəmli alimlərdən biri Mirzə Kafi olmuşdur. Onun ulu babaları Azərbaycanın yüksək rütbəli din xadimləri, özü isə elm, hünər sahibi olmuş, münşi (katib) vəzifəsində çalışmışdır. Təliq və şikəstə xətlərində gözəl yazan Mirzə Kafi həm də dövrün hökmdarının nədimi olmuşdur. O, 1561-ci ildə Qəzvin şəhərində vəfat etmiş, Məşhəd şəhərində dəfn edilmişdir [89, s. 182].

XVI əsrin tanınmış elm adamlarından biri də Səfəvi I Şah İsmayılın sarayında – dəftərxanasında katiblik təcrübəsi alan və "Tuğrayi-şahi" adlanan yazını ixtira edən Xacə Ətiq Ordubadidir. Təbrizdən sonra uzun müddət Məşhəd şəhərindəki İmam Rza ziyarətgahında işlər müdiri işləyən Xacə Ətiq Ordubadi orada da vəfat etmiş və özü üçün Şahruq mədrəsəsi yanında inşa etdirdiyi məqbərədə dəfn olunmuşdur [89, s. 135].

XVII əsrdə yaşamış Məhəmməd İbrahim Nəsiri də dövrün tanınmış alimlərindən idi. Sarayda salnaməçi işləyən, eyni zamanda ədəbi yaradıcılıqla da məşğul

olaraq şeirlər yazan Məhəmməd İbrahim Nəsiri dövrünün tanınmış şəxslərindən olan Məlik Bəhram Ordubadinin nəvəsi olmuşdur. Məlumatlara görə Xacə Nəsirəddin Tusinin nəslindən olduğuna görə "Nəsiri" ləqəbini götürmüşdür [1, s. 20]. Məhəmməd İbrahim Səfəvi hökmdarı Şah Sultan Hüseynin hakimiyyətindən bəhs edən 500 səhifəlik "Dəsturi-Şəhriyarən" ("Şahların qanunları") əsərini yazmışdır.

Görkəmli təbib kimi böyük nüfuz qazanmış İbrahim ibn Zeynəddin Naxçıvani XVII əsrin tanınmış alimlərindən biri olmuşdur. İbrahim gənc yaşlarından atası ilə Dəməşq şəhərinə getmiş, orada dövrün tibb elminin sirlərinə dərindən yiyələnmişdir. "Təbiblər rəisi" kimi şöhrət qazanmış İbrahim Zeynəddin oğlu Naxçıvani fiqh elmi (şəriət məsələləri) ilə də məşğul olmuş və 1648-ci ildə Dəməşq şəhərində vəfat etmişdir [49, s. 148].

**Ədəbiyyat.** Səfəvilər dövlətinin yaranması XVI əsrdən etibarən Azərbaycanda ədəbiyyatın inkişafına da müsbət təsir göstərmişdir. Bunun başlıca səbəbi isə dövlətin banisi Şah I İsmayılın ədəbi yaradıcılıqla geniş şəkildə məşğul olması, bu sahəyə xüsusi diqqət yetirməsi idi. Şahın sarayında fəaliyyət göstərən "Məliküş-şüəra" adlı şairlər məclisində dövrün Süruri, Şahi, Matəmi, Tüfeyli, Qasimi və s. bu kimi böyük sənətkarları iştirak edirdilər. Bu dövrdə Azərbaycan dilində yazıb-yaratmaq ideyaları daha da inkişaf etmişdi [9, s. 301].

Səfəvilər dövründə ədəbiyyatın inkişafında Naxçıvan bölgəsinin yetirmələrinin xüsusi rolu olmuşdur. Bu zaman Naxçıvanda bir sıra tanınmış qələm sahibləri yaşayıb-yaratmışdılar. Həmin dövrdə Ordubad ədəbi mühiti xeyli inkişaf etdiyindən yerli ədəbi simalar arasında Ordubaddan olanlar çoxluq təşkil etmişlər.

XVI əsr Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndələri arasında Mirzə Sadıq Ordubadi daha çox fərqlənmişdi. O, Nəsirəddin Tusinin nəslindən olan Mirzə Kafinin qardaşı idi. Mirzə Sadıq yaradıcılığında rübai janrına daha çox rəğbət göstərmişdir [89, s. 279]. Onun rübailəri orijinal bədii nümunələr və nəzirə-rübailər olmaqla iki qrupa bölünmüşdür. Şair ikinci qrupa aid olan rübailərini Şərqin iki böyük şairinin – Əbdürrəhman Cami və Cəlaləddin Dəvvaninin rübailərinə cavab şəklində yazmışdır [28, s. 52]. Sadiqinin "Məcməül-Xəvas" əsərində deyidiyinə görə Mirzə Sadıq həcv deməkdə də böyük məharət sahibi olmuşdur.

1562-ci ildə Mirzə Sadıq Hindistana getmiş və Dəkkədə yerli əhali onun bilik və yaradıcılığından xeyli faydalanmışdır [89, s. 278]. Bəzi mənbələrə görə o, Dəkkədə dövlət qulluğunda çalışmış, Böyük Moğol hökmdarı Əkbər Cəlaləddin şah (1556-1605) Dəkkəni aldıqdan sonra Mirzə Sadıq Qəribguş qəsəbəsində öldürülmüşdür [89, s. 279].

XV əsrin sonu XVI əsrin əvvəllərində yaşayıb-yaratmış ordubadlı söz ustalarından biri də Ziyayi Ordubadi olmuşdur. Qaynaqlardan aydın olur ki, Ziyayi Ordubadi özbək hökmdarı Hüseyn Bayqaranın zamanında Herata köçmüş, özbək

klassik ədəbiyyatının banisi Əlişir Nəvai ilə yaxın münasibətdə olmuşdur [58, s. 373-374]. O, şeirlərinin çoxunu Əlişir Nəvaiyə oxuyurdu. Şair gənc yaşlarında təhsil almaq üçün Xorasana və Herata getmiş, zehninin itiliyi və düşüncəsinin dərin olması ilə orada şöhrət qazanmışdır. Ömrünün son 25 ilini Təbrizdə yaşayan şair 1520-ci ildə vəfat etmişdir [89, s. 156-157].

Azərbaycan tarixində I Şah Abbasın baş vəziri kimi tanınmış görkəmli dövlət xadimi Hatəmbəy Ordubadi həm də dövrün qələm sahiblərindən biri olmuşdur. Ədəbi yaradıcılığında "Safi" təxəllüsündən istifadə edən Hatəmbəy Ordubadi Azərbaycan və fars dillərində gözəl şeirlər yazmışdır. O, 1610-cu ildə Urmiyada şahın tapşırığını yerinə yetirərkən vəfat etmiş, Məşhəd şəhərində İmam Rzanın məqbərəsinin yaxınlığında dəfn edilmişdir.

Hatəmbəy Ordubadinin əmisi oğlu Münşi Mirzə Zeynalabdin Ordubadi də dövrün tanınmış şairlərindən biri idi. O, gözəl şeirləri ilə Azərbaycan poeziyasını zənginləşdirmişdir. Şair Osmanlı qoşunlarının Cığal oğlu Sinan paşanın başçılığı ilə Səfəvi torpaqlarına hücumunu və I Şah Abbasın onunla müharibəsini çox ustalıqla nəzmə çəkmişdir [89, s. 233].

Naxçıvan bölgəsindən çıxmış ədəbiyyat xadimləri haqqındakı bu qısa məlumatlardan görünür ki, əvvəlki yüzilliklərdə olduğu kimi, Səfəvilər dövründə də burada ədəbiyyat və ədəbi fikir inkişaf etmiş, bir sıra görkəmli ədiblər yetişmiş, milli ədəbiyyatın inkişafına xidmət göstərmişlər.

**Epiqrafik abidələr.** Səfəvilər dövlətinin yarandığı andan onun tərkibində olan Naxçıvan bölgəsində həmin dövrdə (1501-1736-cı illər) çoxlu epiqrafik abidələr yaranmışdır. Səfəvilər dövrünün əvvəllərinə aid olan kitabələrdən biri Culfa rayonunun Saltaq kəndində qeydə alınmışdır. Kənd məscidinin daxilində, şimal divarda mərmər lövhə üzərində həkk olunmuş kitabə qoyulmuşdur. Mərmər parçası üzərində dörd sətirdə ərəb dilində, aydın süls xətti ilə həkk edilmiş kitabələrin birinin tərcüməsindən aydın olur ki, hansı isə qalanın (bür)cü sultan, rəhbər-fədai, əsfiya, salik-süluk, haqq əl-yəqin, sultan Heydərin oğlu, böyük sultan, ali nemətlər, qalibiyyət və bayraq sahibi, Allahın peyğəmbərlərinin və elçilərinin varisi, xeyir işlər sahibi Əbül-Müzəffər Şah İsmayıl Bahadır xan üçün 910-cu ildə (14.06. 1504 - 03.06.1505-ci il) inşa edilmişdir [81, s. 49] .

Bu kitabə Naxçıvan Muxtar Respublikası ərazisində indiyədək qalan müsəlman kitabələri içərisində Şeyx Heydərin və oğlu Şah İsmayılın adı qeyd olunan ilk epiqrafik sənəddir. Kitabəyə əsasən demək olar ki, Naxçıvan bölgəsi yeni dövlət yarandığı andan Səfəvi hökmdarlarının diqqət mərkəzində olmuş, orada geniş quruculuq işləri aparılmışdır.

Səfəvi şahlarının Naxçıvan bölgəsinə diqqət və qayğısının daha böyük bir təzahürünü Ordubad şəhər Came məscidinin kitabəsində görürük. Məscidin şərqdən giriş qapısının baş tərəfində qoyulmuş iri həcmli kitabə Səfəvi hökmdarı I Şah Abbasın Ordubad şəhər əhalisinin xəzinəyə veriləcək bir sıra vergilərdən azad

edilməsi haqqında 1604-cü il tarixli fərmanının mətnidir. Kitabədə yazılmışdır ki, "Ordubad qəsəbəsinin bütün əhalisinin, böyükdən kiçiyə, kasıbdan zəifə qədər xilafət məkanlı, Cəmşid cəlallı, mələk qoşunlu şah Abbas Bahadır xanın xanədanına nisbət bəslədikləri məhəbbət və fədakarlığın həqiqəti aşkar edildiyindən və zatən şiə olduqları üçün Azərbaycan vilayəti düşmənlərin əlinə keçdiyi zaman onlara cürbəcür zülm və sitəm rəva görüldüyünə, bir çoxları öldürülüb və əsir alındıqlarına görə, bu camaatın ümumiyyətlə, fədakarlığı, xüsusilə yüksək Nəsiriyyə-Tusiyyə silsiləsinin fədakarlığı müqabilində şahin müzayiqəsiz mərhəmətinin bir qisməti onlara bəxş edildi. Qeyd olunan vilayət, yüksək qalibiyyətli dövlətin hakimiyyətinə keçdiyi tarixdən adı çəkilən qəsəbənin malucəhat və vücuhatını, sənətkar mallarından, bağlardan, əkin yerlərindən, dəyirmanlardan alınan vergiləri, ixracat, itlaqat, nuzul, əvariz, qonalqa mükəlləfiyyətlərini Allah yolunda sədəqə olaraq ləğv etdi və Allahın razılığını qazanmaq üçün maaf etdi və Azərbaycan boniçəsində onu müstəsna buyurdu ki, onu xəzinəyə veriləcək itlaqatından çıxsın. Şah bu hədiyyəni onlar üçün daimi bəxşiş hesab etdi. Bu qaydanın dəyişdirilməsinə yol verilməməsini əmr etdi."

Hicri-qəməri təqvimi ilə 1012-ci ilin şəban ayında (miladi ilə 4.01.-2.02.1604-cü il) Səfəvi hökmdarı I Şah Abbas tərəfindən imzalanan fərmanın mətni həkk edilmiş kitabənin yazıldığı və yaxud da fərmanın imzalandığı tarix Azərbaycan tarixinin ən çətin və ziddiyyətli dövrlərindən biridir. Səfəvilər dövləti ilə Osmanlı imperiyası arasında gedən aramsız, üzücü, dağıdıcı müharibələr zamanı əsas döyüş meydanlarından birinə çevrilən Azərbaycanda təsərrüfat, iqtisadiyyat və ticarət pozulur, mədəniyyət abidələri dağılır, əhali qırğına məruz qalır, əsir alınıb aparılır, ölkəyə ağır zərər dəyirdi. Azərbaycan Səfəvilər dövlətinin bütün varlığı ərzində dövlətin əsas özəyi olmaqla xəzinəyə çoxlu vergi verən mühüm ərazi idi. Burada məhsuldar qüvvələrin zəifləməsi, iqtisadiyyatın tənəzzülü, imperiyanın maliyyəsinə həlledici təsir etdiyindən bu məsələ Səfəvi şahlarını düşündürməyə bilməzdi.

Həmçinin, həmin vaxtlar özünün əsas rəqibi olan Osmanlı imperiyası ilə həmsərhəd yerləşən Səfəvilər dövlətinin tərkibində olan Azərbaycan ərazisi diqqətdən yayına bilməzdi. Ona görə də I Şah Abbas ərazidə məhsuldar qüvvələri, təsərrüfatı inkişaf etdirmək və əhalini öz tərəfinə çəkmək üçün belə bir fərman imzalamağa məcbur olmuşdu.

I Şah Abbas həmin fərmanı verməklə Osmanlı dövləti ilə müharibədə onu müdafiə etmiş Ordubad əhalisinin rəğbətini və hörmətini qazanmaq, bununla da osmanlılarla gələcək müharibələrdə özünə möhkəm və etibarlı arxa yaratmaq istəmişdi. Həmçinin, şah fərmanda xüsusi olaraq qeyd olunan və Ordubad şəhərində yaşayaraq orada böyük nüfuz sahibi olan Nəsirəddin Tusi nəslinin də etibarını qazanmaq, onları həmişəlik olaraq öz tərəfinə çəkmək istəmişdi [80, s. 89-92] . Bu fərmanı imzalayarkən I Şah Abbas strateji məqsədlər də güdmüş və bütün

Azərbaycan xalqına göstərmək istəmişdir ki, şahı müdafiə edən, onun rəğbətini qazanan hər bir kəs şah tərəfindən mükafata layiq görülə bilər.

Ordubad rayonunun Dəstə kəndinin mərkəzində yerləşən Came məscidinin də üzərində maraqlı və elmi cəhətdən əhəmiyyətli kitabələr qalmışdır. Məscidin şərqdən giriş qapısının baş tərəfində iki ədəd kitabə vardır. Bu kitabələrdən birinin mətninin tərcüməsi belədir: "Quran, LXXII-18. Bu məscidin bina olunmasını 1019-cu ildə Əbdülxan Cavad oğlu əmr etdi" [127, s. 14-15]. Kitabənin mətnindən aydın olur ki, məscidi hicri-qəməri təqvimi ilə 1019-cu ildə (26.03.1610 – 15.03.1611-ci il) Dəstə kənd sakini Əbdülxan Cavad oğlu tikdirmişdir.

Məscidin giriş qapısının baş tərəfində qoyulan ikinci kitabənin isə mətninin tərcüməsi belədir: "Quran, IX-18. Bu məscidin və Dəstəq kəndinin Tub-Basar kövşənindəki körpünün banisi cənnətməkan Məşədi Hüseynəli Dəstəqinin oğlu, Fəxrül-Hac Hacı Məhəmmədnəqidir. 1019-cu ildə (26.03.1610 – 15.03.1611-ci il) yazıldı. Rus əyyamında" [127, s. 13].

Kitabənin məzmunundan məlum olur ki, bu məscidin və kəndin şimal-şərq tərəfində, Tub-Basar (əhali tərəfindən "Topasar" adlandırılır) kövşənində, Vənəndçayın üzərində hazırda qalıqları qalan və kənd sakinləri tərəfindən "Hacı Nağı körpüsü" adlandırılan bir aşırımlı körpünün banisi, yəni onların inşasını həyata keçirən Məşədi Hüseynəli Dəstəqinin oğlu Hacı Məhəmmədnəqidir.

Ordubad şəhərinin mərkəzində yerləşən iki mərtəbəli mədrəsə binasının qərbdən giriş qapısının baş tərəfində də kaşı üzərində çoxlu kitabələr gəlib çatmışdır. Kitabələrdən bəziləri zaman keçdikcə məhv olsa da bir qismi salamat qalmışdır. Qalan kitabələrin tərcüməsi belədir: "...Müqəddəs tikintinin xərci cəsarət tələb etdiyinə görə, yüksək vəzifəli, hörmətli, Şah dövlətinin köməkçisi (Zəhir əd-Dövlə), rəhbərliyin müdrikliyi Məhəmməd İbrahim, ali ideya (plan) üzrə, sədaqətli məqsədlə, Allaha inam, elmin, mədəniyyətin, təhsilin və ordunun gücləndirilməsindən ötrü Ordubadda dərhal mədrəsə binasını yaratdı. Bu möhkəm binanın və ali məkanın tarixinin saxlanması üçün müdrik dedi: Abad olsun! 1126. Onu (kitabəni) Məhəmməd İsmayıl Əbd ən-Nəsiri yazdı. Bu uğurlu binanın tikintisi Hacı Salehin sərkarlığı (tikintinin rəisi) və dəvatdar (hökmdarın katibi) Abidin oğlu Hacı Məhəmmədin köməyilə başa çatdı".

Ordubad rayonunun Vənənd kəndinin mərkəzində yerləşən Came məscidinin daxilində, qadınların oturması və ibadət etməsi üçün düzəldilən balkonun taxtalarının birinin üzərində qara rənglə özündə XVIII əsrin birinci yarısı tariximiz üçün çox əhəmiyyətli faktlar əks etdirən kitabə yazılmışdır. Kitabənin mətninin tərcüməsi belədir: "Bu səadətli məscidin yenidən bərpa edilməsinə, ibadətə layiq hökmdarın (Allahın) köməyi ilə 1145-ci ilin məhərrəm ül-həram ayında (24.6. – 23.7. 1732-ci il) səadətli cənab Əxəvi Məhəmməd Molla Zəhir ibn mərhum, bağışlanmış, bağışlayan Allahın rəhmətinə çatmış Mövlana Məhəmməd Möminin – Allah onların hər ikisini bağışlasın – səyi nəticəsində mübarək bir zamanda əmr edilmişdir.

(Bu zaman) vəziyyət çətin, qəhətlik həddən aşmışdı. Məzənnəyə görə tilani çəkisi ilə bir man buğda dörd yüz dinara, düyü səkkiz yüz dinara, yağ iki min səkkiz yüz dinara, bal üç min iki yüz dinara, doşab iki min dörd yüz dinara, pendir min altı yüz dinara, məviz iki min dörd yüz dinara, arpa üç yüz əlli dinara, (ucuzlu) qaysı səkkiz yüz dinara, soğan səkkiz yüz dinara, sarımsaq min iki yüz dinara, pambıq dörd min dinara, qovun tumu beş min dinara satılırdı. Bahalıq və qəhətlik nəticəsində zəmanə cəhənnəmi andırırdı. Zəmanə elə pis olmuşdu ki, Vənənd kəndi və onun ətrafı bir il içərisində üç dəfə talan olmuşdu. Bir çox müsəlman qadın və kişilər öldürülüb və əsir alınmışdı. Digər Allah bəndələri qaçaraq Araz çayını keçib o taydakı kəndlərdə məskən salmışdılar. O pozğunluq zamanında alver qapısı bağlanmışdı. Allahın dəyişməz, böyük və yüksək dərgahına ümidvarıq ki, bütün müsəlman və möminlərin şəhərlərindən belə bəlaları qaldırar və uzaqlaşdırar. Amin. Peyğəmbərlərin ən hörmətlisinin xatirəsinə (bunu) mərhum Molla Məhəmməd Mömin Vənəndinin oğlu, günahkar, yazıq, yoxsul Məhəmməd Rzadan – Allah onları peyğəmbər və onun canişini xatirəsinə bağışlasın – qəbul et. 1145-ci il" [61, s. 139-140; 127, s. 18-20].

Kitabənin məzmunundan aydın olur ki, hicri 1145-ci ildə (1732-ci il) məscidin binası yenidən bərpa edilmişdir. Bərpa haqqında dəyərli məlumatlar verən kitabə, həmçinin yazıldığı dövrün tarixi hadisələrini izah etmək baxımından da qiymətli faktlar təqdim edir. Məlumdur ki, Səfəvilər dövlətinin yaranmasından sonra Osmanlı imperiyası ilə bu dövlət arasında ziddiyyətlər getdikcə kəskinləşmiş və onlar arasında fasilələrlə üzücü, dağıdıcı müharibələr baş vermişdir. Kitabənin yazıldığı tarix bu müharibələrin yenidən qızışdığı dövrə təsadüf edir.

Nadirqulu xanın Azərbaycan torpaqlarını osmanlılardan geri almaq uğrunda mübarizəsinin davam etdiyi bu illərdə Naxçıvan, o cümlədən Ordubad bölgəsi Səfəvi və Osmanlı dövlətləri arasında gedən üzücü, dağıdıcı müharibələrin meydanına çevrilirdi. Nəticədə ərazinin iqtisadiyyatı dağılır, tarix-mədəniyyət abidələri məhv olur, əhali qırılır, əsir alınıb aparılır, didərgin düşürdü. Həmin müharibələr zamanı Vənənd kəndi də həddindən artıq zərər çəkmiş, hətta kitabədə deyildiyi kimi bir il içərisində üç dəfə talan olmuş, bir çox müsəlman qadın və kişilər öldürülmüş, əsir alınmış, bir hissəsi isə canlarını qurtarmaq üçün qaçaraq Arazın o tayına getmişdilər.

Naxçıvan şəhərində əhalinin böyük ehtiram bəsləyərək ziyarətə gəldiyi İmamzadə kompleksində də tarixi cəhətdən çox əhəmiyyətli kitabələr olmuşdur. Kompleksin əsas özəyini cənub tərəfdə yerləşən türbə təşkil edir. Aşağıdan kvadrat şəklində inşa edilən abidənin yuxarı hissəsində, silindr şəkilli gövdəsində memar çox ustalıqla qırmızı rəngli bişmiş kərpicləri üfüqi, tünd bənövşəyi rəngli kaşılı kərpicləri isə şaquli şəkildə simmetrik düzərək Bərdə türbəsində olduğu kimi xalını xatırladan bəzək ünsürü və kufi xətlə dəfələrlə təkrarlanan epiqrafik motiv – "Allah" sözünü yaratmışdır.

Keçən yüzilliyin 20-ci illərində "Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin göndərişi ilə Naxçıvanda səfərdə olan epiqraf İ.Əzimbəyovun yazdığına görə türbənin şimal-şərq tərəfində nəsx xətti ilə ərəb dilində yazılmış kitabə olmuşdur. O kitabənin mətnini və bəzi kiçik səhvlərlə rus dilində tərcüməsini nəşr etdirmişdir [102, s. 310-311]. Alimin məlumatına görə kitabənin mətninin tərcüməsi belə olmuşdur: "Bu imarətin bina edilməsini böyük sultan, xaqan, hörmətli əmir, ərəb və əcəmlərin hakimi, sultan Əbu Müzəffər şah Təhmasib Bahadur xanın hakimiyyəti zamanında mərhum, günahları bağışlanmış Hacı Fulad bəyin oğlu, zəmanənin xeyirxahı Həzrət Rufai bəy əmr etmişdir".

Kitabədə tarix qeyd olunmamışdır. Ancaq orada qeyd olunan "Əbu Müzəffər şah Təhmasib Bahadur xanın hakimiyyəti zamanında" sözlərinə əsasən abidənin inşa ilini dəqiq olmasa da təxmini müəyyənləşdirmək mümkündür. Kitabədə adı qeyd edilən Əbu Müzəffər şah Təhmasib Bahadur xan Səfəvi şahı Sultan Hüseynin oğludur. Tarixdə II şah Təhmasib adı ilə tanınan bu adam 1722-1732-ci illərdə hakimiyyətdə olmuşdur. Kitabədə abidənin onun zamanında tikilməsini qeyd edən xəttat bu vasitə ilə abidənin inşa tarixini çatdırmışdır. Deməli türbə XVIII əsrin 20-ci illərində inşa edilmişdir.

Naxçıvan ərazisində Səfəvilər dövrünə aid çox maraqlı məzar kitabələri də gəlib çatmışdır. Ordubad rayonundakı Azadkəndin şərq tərəfində yerləşən qəbristanlıqda çoxlu epiqrafik abidələr – məzar kitabələri gəlib çatmışdır. Bu kitabələrin təqdim etdiyi məlumatlar tarix və mədəniyyətimizin bir sıra qaranlıq məsələlərinin işıqlandırılmasında müstəsna əhəmiyyət kəsb edirlər. Bu kitabələrin çoxu sənduqə tipli qəbirüstü xatirə abidələri üzərində həkk edilmişdir. Həmin sənduqələrdən birinin üzərində həkk edilmiş kitabədən aydın olur ki, abidə Dərviş bəy əl-Azadinin hicri 992-ci ildə (1584-cü il) vəfat etmiş qızı, mərhumə Zərifənin xatirəsinə hazırlanmışdır. Onun yaxınlığında olan başqa bir sənduqə üzərindəki xatirə kitabəsi Xacə bəy əl-Azadinin hicri 997-ci ilin zilqədə əl-həram ayında (11.09. – 10.10.1589-cu il) vəfat etmiş oğlu Dərviş bəyin xatirəsinə həsr olunmuşdur. Bu abidələrin yanındakı başqa bir sənduqə tipli qəbirüstü xatirə abidəsinin üzərindəki kitabədən isə aydın olur ki, məzarda uyuyan şəxs Dərviş bəy əl-Azadinin hicri 997-ci ildə (20.11.1588 – 10.10.1589-cu il) vəfat etmiş oğlu Əli Sultandır. Bu üç abidəyə əsasən deyə bilərik ki, qəbristanlıqda ailəvi dəfn yerləri olmuşdur. Həm də hər üç kitabədə adları çəkilən şəxsiyyətlərin adına "əl-Azadi" (Azadlı) nisbəsi əlavə olunmuşdur.

Bu abidələrlə yanaşı dayanan başqa bir sənduqə tipli qəbirüstü xatirə abidəsi üzərindəki kitabədən məlum olur ki, bu abidə Xacə Mahmud əl-Azadinin xatirəsinə hazırlanmışdır. Bu kitabədə də mərhum əl-Azadi (Azadlı) nisbəsi ilə təqdim olunmuşdur. Göründüyü kimi, hər dörd kitabədə "əl-Azadi" (Azadlı) nisbəsi qeyd olunmuşdur ki, o da mərhumların mənsub olduğu yeri göstərir və onların Azad şəhərindən olduqlarını təsdiq edir.

Hazırda Naxçıvan Muxtar Respublikası ərazisində Azad adlı şəhər və ya kənd tipli yaşayış məskəni yoxdur. "əl-Azadi" (Azadlı) nisbəsi ilə bizədək çatan məzar kitabələrinə əsasən belə bir nəticəyə gəlmək mümkündür ki, orta əsr Azad şəhəri indiki Azadkənd kəndinin yerində, qəbristanlığın yaxınlığında yerləşirmiş. Şəhər inkişaf etmiş ticarət və sənətkarlıq mərkəzi olduğundan ətraf ərazi uzun müddət Kiranla birlikdə onun adı ilə Azad – Ciran adlanmışdır [111, s. 6].

Naxçıvan bölgəsinin epiqrafik abidələri Bulqar türklərinin Azərbaycanda məskunlaşması və yaşaması fikrini təsdiq etməkdədirlər. Bu cəhətdən Muxtar Respublikanın Şahbuz bölgəsindəki "Qanlıgöl"ün yaxınlığındakı "Böyük Qəbirli" adlı qəbristanlıqda qeydə alınmış sənduqə tipli xatirə abidəsi diqqəti cəlb edir. Abidənin üzərində ərəb dilində həkk edilmiş kitabənin mətnindən aydın olur ki, sənduqə "Div-xan Bulqar Bahadır" adlı sərkərdənin xatirəsinə hazırlanmışdır [79, s. 86, 89]. Bulqar tayfalarına mənsub olan bu sərkərdə Qızılbaş hökmdarı I Təhmasibin zamanında (1524-1576) yaşamış və Səfəvi ordusunda xidmət etmişdir. Görünür Div xan Bulqar Bahadır Naxçıvanda yaşamış, yaxud da burada həlak olmuş və "Böyük Qəbirli" adlı məzarlıqda dəfn olunmuşdur. Bu kitabə Bulqar türklərinin Naxçıvan ərazisinə gəlməsi, burada məskunlaşması, bəzi yaşayış məskənlərini, o cümlədən Ordubad rayonundakı Vənənd kəndini salması haqqında fikirləri təsdiq edir.

Ordubad şəhərində qeydə alınmış və bir tərəfi sınıb itmiş başdaşı tipli qəbirüstü xatirə abidəsinin yan tərəfində həkk edilmiş kitabədə Nadir şah Əfşarın Hindistana yürüşü öz əksini tapmışdır. Kitabənin mətninin tərcüməsi belədir: «Nadir şah Hindistana getdi. 1151-ci il (21.04.1738 – 09.04.1739-cu il). ...Həkkak Əbülqasim» [127, s. 64-65].

Məlum olduğu kimi Əfşarlar dövlətinin banisi Nadir şah 1737-ci ildə Orta Asiya və Hindistan üzərinə yürüşə başlamış və 1739-cu ildə Hindistanın paytaxtı Dehli şəhərini tutmuşdur. Kitabənin tarixi bu yürüşün qələbə ilə başa çatdığı və Dehli şəhərinin tutulduğu 1739-cu illə eyni vaxta düşdüyü üçün ehtimal etmək olar ki, başdaşının xatirəsinə hazırlandığı mərhum Nadir şahın Hindistan yürüşü dövründə vəfat etdiyindən kitabədə bu hadisə də xatırladılmışdır. Həmçinin, kitabə adı başqa qaynaqlarda məlum olmayan Əbülqasim adlı həkkakın adını bizə təqdim edir.

**Memarlıq və incəsənət.** XV – XVI əsrlərdə Naxçıvan Qaraqoyunlu və Ağqoyunlu feodal dövlətlərinin hakimiyyəti altında olmuş və XVI əsrdə isə Azərbaycanın Səfəvi dövlətinin tərkibinə daxil olmuşdur. Orta əsr Azərbaycan şəhərlərindən – Naxçıvandan, Bakıdan Şamaxı və Təbrizdən çıxmış bədii sənət ustaları nəinki öz vətənlərində, onlar hətta Orta Asiya, Hindistan və Yaxın Şərqin (Səmərqənd, Dehli, Herat, Məşhəd, Bağdad, İsfahan və s. kimi mühüm şəhərlərin) nadir tikintilərinə də dəvət olunurdular [53, s. 179; 94, s. 57-58].

Səfəvilərin hakimiyyəti dövründə memarlıq xeyli inkişaf etmişdi. Culfa ra-

yonundakı Əlincə çayı üzərində salınmış, xalq arasında "Qozbel körpü" adı ilə tanınan Qazançı körpüsü, Ləkətağ körpüsü, Ordubad rayonunun Aza kəndində Gilançay üzərində I Şah Abbas zamanında (1587-1629) qırmızı qum daşından inşa edilmiş beşaşırımlı körpü, həmin rayonun Biləv kəndində, Gilançay üzərində salınmış beşaşırımlı körpü, Bist kəndində Ələhi çayı üzərində salınmış ikitağlı və Nəsirvaz çayı üzərində salınmış biraşırımlı körpülər. Gülüstan kəndində Araz çayı üzərində salınmış Şah Abbas körpüsünün qalıqları, bir çox karvansaraylar və başqa tikililər bu dövrün yadigarlarıdır [5, s. 50; 43, s. 168; 57, s. 31-32, 42-43].

XVI – XVII əsrlərdə Azərbaycanda ictimai ehtiyacları ödəmək üçün də binalar tikilirdi. Körpülər, ovdanlar, kəhrizlər, hamamlar və başqa tikililər buna misal ola bilər. O dövrün hamamları tikinti quruluşlarına görə bir sıra xüsusiyyətlərə malikdir. Hamamlar daxildə, əsas etibarı ilə, iki qrup otaqdan ibarətdir. Birinci qrup otaqlar soyunmaq, ikinci qrup otaqlar isə yuyunmaq üçündür. Hər iki qrup otaqlar səkkizbucaqlı salonun ətrafında cəmləşdirilirdi.

Qeyd etmək lazımdır ki. Bu zaman bir çox Azərbaycan şəhərlərində daxili zəngin bəzədilmiş hamamlar da var idi. Səyyahlar, xüsusən Naxçıvan hamamlarından heyranlıqla bəhs edirlər. Evliya Çələbinin Naxçıvan hamamlarında gördüyü süjetli kaşılar diqqəti xüsusilə cəlb edir [4, s. 160-163; 19, s. 92].

Səfəvilər dövrünə aid abidələr içərisində dini mahiyyət daşıyan binalardan məscid, təkiyə, zaviyə, minarə və mədrəsələr əsas yer tutur. Belə binalardan biri də XVII əsrdə inşa edilmiş Ordubaddakı mədrəsədir. Bu bina Azərbaycanda zəmanəmizədək salamat vəziyyətdə gəlib çatmış yeganə klassik mədrəsə nümunəsidir. Mədrəsə ikimərtəbəli olub, tələbələrin yaşaması üçün  hücrələr, dərs otaqları, onların qarşısında kiçik eyvanlardan və bir neçə təsərrüfat binalarından ibarətdir. Baş şimal fasadı tərəfdən yeganə giriş yolu həyətə aparır. Fasada çatmatağlı tağçaların aramlı cərgəsi  bir-birindən bəsit çıxıntılarla – kürələrlə ayrılmış fasad mərkəzdə sadə baştağla bölünmüşdür. Burada başlıca kompozisiya vasitəsi nisbətən kiçik tağlı tağçaları iri portalla təzadlı surətdə qarşılaşdırmaq olmuşdur. Bütün bu xüsusiyyətlərinə görə Ordubad mədrəsəsi XVI – XVII əsr Azərbaycan karvansaraylarına çox oxşayır, lakin karvansaraylardan fərqli olaraq, burada məscid mərkəzdə yerləşir [46, s. 50; 72, s. 201-202] .

Ordubad mədrəsəsində başqa mədrəsələrdə təsadüf edilən böyük həcmli məscidin olmaması, yaxınlıqdakı Cümə məscidinin yerləşməsi ilə izah edilə bilər [74, s. 94].

Ordubad rayonunun Yuxarı Əylis kəndindəki Şah Abbas məscid kompleksi Ordubad mədrəsəsindən sonra yanında mədrəsə və hamam binası olmaqla indiyədək salamat gəlib çatmış ikinci məsciddir. Düzbucaqlı şəkildə olan binanın düzxətli tavanı iki cərgə olmaqla səkkiz dirəyin üstündə dayanır. Məscidin şimal divarının qarşısında qadınlar üçün ikinci mərtəbə-balkon düzəldilib. Məscid kompleksinə mədrəsə, hamam və bir neçə təsərrüfat binası daxildir. Hamam yeraltı hamamlar

qrupuna aid olub Ordubad rayonunun Üstüpü, Vənənd, Azadkənd, Düylün və s. kəndlərindəki hamamlarla eyniyyət təşkil edir [57, s. 429-430].

Ordubaddakı Mingis məscidinin kitabəsindən aydın olur ki, məscid hicri-qəməri təqvimi ilə 1088-ci ildə (miladi 1677-ci il) Əbdülhüseyn Ordubadinin oğlu Məhəmməd Hadi tərəfindən bərpa etdirilmişdir. XVII əsrin ikinci yarısında bərpa etdirilən məscidin inşa tarixi daha əvvəlki dövrlərə aiddir. Ordubad mədrəsəsindəki məsciddən fərqli olaraq Mingis məscidinin ibadət salonu daha geniş və işıqlıdır. Abidənin düzxətli tavanı mərkəzdə qoyulmuş sütunlar və salonun kənar divarlarının üstündə yerləşdirilmişdir. Yamacda tikildiyindən şimal tərəfdən bir, cənub tərəfdən ikimərtəbəlidir. Məscidin əsas girişi şimal tərəfdəndir. Sadə biçimdə tikilən abidədə dövrünün memarlıq üslubuna uyğun olaraq dekorativ elementlərdən istifadə edilməmişdir [57, s. 303-304].

Ordubad rayonunun Dırnıs kəndində tikildiyi və XVII əsrə aid edilərək Böyük məscid adı ilə tanınan Came Naxçıvan memarlıq məktəbi ənənələrini özündə yaşadan maraqlı tarixi-memarlıq abidələrindən biridir. İki girişi olan məscidin əsas girişi qərbdəndir. Qadınlar üçün giriş isə şərq tərəfdəndir. Tavan iki cərgə yerləşdirilmiş on dirəyin üzərində dayanıb. Şərq və şimal divarın qarşısında qadınlar üçün ikinci mərtəbədə balkon düzəldilib. XX əsrdə iki dəfə bərpa və təmir olunan məscidə giriş dəhlizi və minarə əlavə olunmuşdur [57, s. 85-86].

Ordubadın mülki memarlıq abidələri içərisində diqqəti daha çox cəlb edən tarixi-memarlıq abidələrindən biri də Qeysəriyyə binasıdır. Qeysəriyyə binası XVII əsrə aid tarixi-memarlıq abidəsi olub şəhərin mərkəzində yerləşir. Uzun müddət "Zorxana" adı ilə tanınan bu bina mərkəzi səkkizbucaqlı zaldan və onun üzərini örtən dairəvi günbəzdən, günbəzi künclərdə saxlayan mürəkkəb quruluşlu dörd ədəd dayaqdan və dayaqlarla kənar divar taxçaları arasında yerləşən keçidlərdən ibarətdir. Qeysəriyyə sözünün mənası ləl-cəvahirat satılması üçün nəzərdə tutulmuş örtülü bazar deməkdir. Bu tip mülki memarlıq abidəsinə yalnız dünyanın üç yerində Səmərqənd, Təbriz və Ordubadda rast gəlinir. Ordubad Qeysəriyyəsi bunların ən abad və görkəmlisidir [57, s. 267-269; 72, s. 214-217].

Naxçıvan şəhərinin cənub hissəsində yerləşən İmamzadə memarlıq kompleksinə daxil olan əsas türbə Səfəvilər dövrünə aid olan və Naxçıvan memarlıq məktəbi ənənələrini özündə yaşadan maraqlı abidələrdən biridir. Kompleksin əsasını zahiri kompozisiyasına görə günbəzli məqbərə ilə qülləvarı türbənin birləşdirilməsindən ibarət olan kvadrat plana malik türbə təşkil edir. Türbənin daxili quruluşu isə kvadrat özüllü sərdabə ilə stalaktitlərlə tamamlanmış sferik günbəzlə örtülmüşdür. Türbənin qüllə hissəsinin silindrvarı gövdəsinin dekorativ həlli naxçıvanlı memar Əhməd Əyyub oğlu tərəfindən ucaldılmışdır. Bərdə türbəsi ilə tam eyniyyət təşkil edir. Üfüqi düzülmüş qırmızı kərpiclər və şaquli qoyulmuş göy-bənövşəyi rəngli kaşılı kərpiclər dönə-dönə təkrarlanan epiqrafik motivli bütöv bir xalını xatırladan naxış kompozisiyası əmələ gətirir.

Naxçıvan imamzadələrindən bəhs edərkən Babək rayonunun Nehrəm kəndindəki Nehrəm imamzadəsi və Şərur rayonunun Xanlıqlar kəndindəki Parçı imamzadəsini də yaddan çıxartmamalıyıq. Hər iki abidə dövrünün memarlıq ənənələrini özündə əks etdirən maraqlı abidələrindəndir. Hər iki imamzadə kompleksinin mərkəzində türbə və onun ətrafında digər yardımçı binalar yerləşdirilmişdir. Türbələrin üstü günbəzlə örtülmüşdür [57, s. 209-210; 72, s. 191-196].

Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndələrindən biri olan Hacı Məhəmməd Nəqinin adı Ordubad rayonunun Dəstə kəndindəki Meydan məscidinin kitabəsində çəkilir. Memarın XVII əsrin əvvəllərində yaşayıb yaratdığı məlum olur. O, Dəstə kəndindəki Meydan məscidini tikməklə bərabər eyni zamanda Vənəndçayın üzərində salınmış və hal-hazırda qalıqları qalan və el arasında "Hacı Nağı körpüsü" adlanan körpünü də inşa etmişdir [57, s. 152; 104, s. 10-16].

XVI əsr Azərbaycan sənətkarlığı tarixində ən zəngin dövrlərdən biri sayılır. Tarixdən məlumdur ki, Səfəvilər dövləti əmələ gələndən sonra Azərbaycan mədəniyyəti çox yüksək bir səviyyəyə çatmışdır. Bu zaman adları çox ölkələrdə məşhur olan zərgərlər, parça və xalça toxuyanlar və başqa sənətkarlar meydana çıxmışdı.

Bu dövrdə Naxçıvanın şəhər və kəndlərində çoxlu toxucu, zərgər, misgər, dulusçu, həkkak, dabbağ, parça rəngləyən və başqa sənətkarlar çalışırdı. Onların hazırladıqları məmulatlar ölkədən çox-çox uzaqlarda şöhrət qazanmışdı.

Hal-hazırda XVI – XVII yüzilliklərə aid ən zərif və orijinal yonulmuş məzar daşlarına Naxçıvanda, Ordubadda, Culfada, Şahbuzda və muxtar respublikanın digər rayonlarında rast gəlmək olur. Bu məzar daşları üzərində böyük məharətlə yonulmuş həndəsi, nəbati ornamentlərlə yanaşı, insan, heyvan, quş fiqurlarına və hətta əsl mənada süjet xarakteri daşıyan kompozisiyalara da rast gəlirik. Bunlardan yalnız bəzək kimi deyil, həm də dəfn olunmuş şəxsin cinsini, həyatını, peşəsini əks etdirən məzar daşları üzərində qılınc, qalxan, at, qoç, qartal, təsbeh, qadınların məzar daşları üzərində iynə, sap, güzgü, qayçı və s. təsvirlərə rast gəlirik [45, s. 64].

Məzar daşları üzərində, bundan əlavə bir çox simvolik mahiyyət daşıyan rəsmlərə də rast gəlinir. Bunlardan islamı təmsil edən Ay-ulduz, Günəşi bildirən svastika və ya zolaqlı dairə naxışlarını göstərmək olar [17, s. 67; 19, s. 87].

XVI əsrin ortalarında Naxçıvanda yüksək istedada malik misgərlər, zərgərlər, dəmirçilər, dülgərlər, ağaca naxış salanlar, silah qayıranlar, dulusçular, toxucular, xalça toxuyanlar, dəri aşılayanlar və s. ustalar işləyirdilər. Naxçıvan ustalarının hazırladıqları məhsullar təkcə ölkənin daxili bazarlarına getmirdi. Həmin dövrün müəllifləri yazırlar ki, "Naxçıvanın rənglənmiş ağac məmulatları çox gözəldirlər, belə ki, bu şeyləri bütün dünyada hədiyyə kimi işlədirdilər". Naxçıvanlılar ağac məmulatlarını nəqqaşlamaqda mahir ustadırlar. Naxçıvanda hazırlanan toxuculuq

məmulatlarından ipək, parça, nazik örtüklər və s. geniş yayılmışdır [9, s. 322, 327; 72, s. 11].

Çini qabların istehsalından danışarkən qeyd etmək lazımdır ki, XVI əsrdə, Səfəvilər dövründə bu sənət çox böyük sürətlə inkişaf etmişdir. Dulusçuluq sənəti ilə çox şəhərlərdə məşğul olunmuş və bunların istehsal etdikləri mallar ticarət vasitəsilə bütün Şərq ölkələrinə yayılmışdır. Şirli və rəsmli çini qabların, həm də memarlıq abidələrində tətbiq edilən kaşı məmulatlarının istehsalının əsas mərkəzlərindən biri Naxçıvan şəhəri olmuşdur.

Bu dövrdə Naxçıvanda istehsal olunan çini qablarda ən çox işlənən şirələr sarı və yaşıl rəngdədirlər. Bu qabların rəsmləri müxtəlif heyvanların, quşların, dördləçək və ya altıləçək güllərin təsvirindən, buta, ulduz və digər simvolik bəzəklərdən ibarətdir [90, s. 20].

Səfəvilər dövrünün baş geyimlərini öyrənən məşhur özbək alimi Q.A.Puqaçenkova və alman alimi H.Hots isbat etmişlər ki, onların baş geyimləri XVI yüzilliyin əvvəllərindən başlayaraq əsrin axırınadək öz formasını bir neçə dəfə dəyişmişdir. XVI yüzilliyin axırlarınadək dəbdə olmuş bu tip baş geyimləri Naxçıvan şəhərində xüsusilə geniş yayılmışdır.

XVI əsrdə qadın baş geyimləri çox mürəkkəb naxışlı kompozisiyalarla bəzədilmişdir. Əldə olunan materiallara əsasən demək olar ki, o vaxt 7 növə yaxın qadın baş geyimləri mövcud idi. Bunlardan çox gözəl və al-əlvan naxışlarla bəzədilmiş örpəklər, incə naxışlı araqçınlar, muncuqlarla bəzədilmiş narın güllü ləçəklər, taclar, çalmalar, kənarları xəzdən və yaxud məxmərdən tikilmiş şlyapaları göstərmək olar [90, s. 98].

XVI – XVII yüzilliklərdə ən çox yayılmış qadın baş geyimlərindən biri araqçın idi. Bunlar əsas etibarilə iki cür olurdu: qadın və qız araqçınları. Qadınların araqçınları daha mürəkkəb olub, arxa tərəfdən qəşəng uzun torba ilə birləşdirilərdi. Evliya Çələbi qeyd edir ki: “bu tipli qadın baş geyimləri Təbriz və Naxçıvanda çox geniş yayılmışdı . Naxçıvanda bu tip hündür araqçınların üstündən qadınlar ağ örtük örtürdülər. Buranın nəfis naxışlarla bəzədilmiş qadın baş örtükləri Naxçıvandan çox-çox uzaqlarda məşhur idi ”.

Baş geyimlərini qadınlar evdə, həyətdə və qonaqlığa gedəndə geyər, küçəyə çıxdıqları vaxt isə üstdən əsas etibarilə ağ çarşab örtərdilər. Küçədə sərbəst gəzməyə, adətə görə kiçik yaşlı qızlara və yaşlı qarılara icazə verilirdi.

Lakin buna hər yerdə riayət edilmirdi. Evliya Çələbi yazır ki: “Naxçıvanın gözəl xanımları əsasən qarasaçlıdır, həddindən artıq qiymətli gödəkcələr geyir, kişilərlə ictimai yerlərdə sərbəst söhbətlər edirlər ” [19, s. 94-95].

Nəzərdən keçirdiyimiz baş geyimləri, bunların biçimi, bəzəkləri göstərir ki, dekorativ-tətbiqi sənətimizin başqa növləri kimi, onlar da dövrün ümumi bədii üslubu ilə bir vəhdətdə inkişaf edirdi.

Bu dövrün baş geyimləri öz silueti, biçimi ilə sanki dövrünün məscid,

məqbərə və qeyri tikintilərinin konstruktiv cizgilərini təkrarlayırdı. Çalma, dəbilqə öz qatları, forması ilə günbəzlərin riflənmiş səthləri ilə səsləşir, parçaların naxışları dövrün rəngarəng xalçalarını yada salırdı.

Orta əsrlərdə bütün yaxın Şərq ölkələrində olduğu kimi Naxçıvanda da görkəmli rəssam, nəqqaş və xəttatlar hökmdar saraylarında çalışmış, xəttatlar müxtəlif ədəbi, tarixi, elmi və dini əsərlərin əlyazma nüsxələrini, Quranı nəfis xətlə köçürmüş, memarlıq abidələri üçün kitabə layihələri tərtib etmişlər.

Bu dövrdə xəttatlıq, nəqqaşlıq və rəssamlıq sənəti sahəsində məşğul olan Azərbaycan sənətkarları əsasən Təbriz, Ərdəbil, Xoy, Naxçıvan, Ordubad və s. şəhərlərdən çıxmış ustalar idi.

Belə ustalardan biri də Abiddir. O Naxçıvan heykəltəraşlıq məktəbinin nümayəndəsidir. Onun adı Ordubad rayonunun Biləv kəndində qeydiyyata alınmış və hicri 1088-ci ildə (1677-1678-ci illər) vəfat etmişdir. Adı Səfərəlinin xatirəsinə hazırlanmış daş qoç fiquru üzərində qalmışdır. Kənddəki qəbiristanlıqda indiyədək qalan və XVII yüzilliyə aid olan çoxsaylı daş qoç fiqurların da oxşar üslub xüsusiyyətlərinə görə Abid tərəfindən hazırlandığı güman edilir [57, s. 8-9].

Tarixçi və sənətşünas Qazı Əhmədin "Xəttatlar və rəssamlar haqqında" traktatında Qazı Məhəmmədbağırın XVI əsrin ikinci yarısında Ordubad şəhərində yaşayıb yaratdığı, habelə öz dövrünün xoşnəfis xəttatlarından olduğu barədə məlumat verilir. Qazı Məhəmmədbağır yeddi xətt növünün yeddisində də məharətlə yazırmış. Onun nəstəliq və rüqə xətti ilə köçürdüyü nəfis Quran nüsxələri indi də Ordubad evlərində mühafizə olunmaqdadır.

Qazı Əhmədin verdiyi xəbərə görə XVI əsrin xoşnəfis xəttatlarından biri olan Xacə Ətiq Ordubadi Şah İsmayılın sarayında baş xəttat işləmiş və tuğrayi şahi (Şah tuğrası) xəttinin müəllifi olmuşdur.

Səfəvilər dövründə (XVI əsr) yaşamış Ordubad xəttatlarından biri də Uluq bəy Ordubadidir. "Təliq", habelə klassik "altılıq" və "ruqə" xətləri ilə gözəl yazmışdır. Uluq bəy eyni zamanda Ordubadın qazısı olmuşdur.

Məhəmmədəli Tərbiyətin "Danişməndane Azərbaycan" əsərində Xəlil Naxçıvaninin XVI əsrdə yaşadığı və onun məşhur zərgər olduğundan bəhs edilir. O, zərgərlik sənətində mina tətbiq edən sənətkarlardan olmuşdur. Qolbaq, boğazaltı, silsilə, gərdənbənd, aypara, sırğa kimi zərgərlik məmulatları düzəldən məşhur sənətkar imiş [92, s. 19].

Naxçıvan xəttatlıq məktəbinin tanınmış nümayəndələrindən biri olmuş Məhəmməd İsmayıl Əbd ən Nasir adı Ordubad şəhərindəki mədrəsə kompleksinin üstündəki kitabədə çəkilir. Xəttat Məhəmməd İsmayıl Əbd ən Nasirin öz peşəsinin mahir ustası olduğu və xəttatlıq sənətinin incəliklərini dərindən bildiyi göstərilir [57, s. 298; 43, s. 10-16].

## TARİXİ-SİYASİ XRONOLOGİYA

**2 milyon il bundan əvvəl –** Azərbaycanda ilk insan məskənlərinin yaranması
**500-300 min il bundan əvvəl** – Naxçıvanda ilk insan məskənlərinin yaranması
**100 min il bundan əvvəl** – Mustye mədəniyyətinin yaranması
**E.ə. VII minillik** – Erkən əkinçilik mədəniyyətinin yaranması, kaspi antropoloji tipinə aid insan skeletlərinin tapılması
**E.ə. VI-V minilliklər** – Eneolit dövrü. Mesopotamiya ilə iqtisadi-mədəni əlaqələrin inkişafı
**E.ə. V minilliyin sonu – IV minilliyin əvvəli** – Kür-Araz mədəniyyətinin formalaşması
**E.ə. IV-III minilliklər** – Kür-Araz mədəniyyətinin inkişafı. İri tayfa ittifaqlarının yaranması
**E.ə. III minilliyin ikinci yarısı - II minilliyin ortaları** – Orta Tunc dövrü Naxçıvanda erkən şəhər mədəniyyətinin yaranması
**E.ə. II minilliyin ortaları – I minilliyin əvvəli** – Son Tunc və Erkən Dəmir dövrü Xocalı – Gədəbəy mədəniyyətinin Naxçıvanda yayılması
**E.ə. IX-VIII əsrlər** – Urartuların Naxçıvana hücumları
**E.ə. 820-600-cü illər** – Şərurda mərkəzi Oğlanqala olan qədim dövlətin yaranması
**E.ə. VIII-VII əsrlər** – Skif tayfalarının Naxçıvanda məskunlaşması
**E.ə. 673-cü il** – Naxçıvanın Midiya dövlətinin tərkibinə daxil olması
**E.ə. 550-ci il** – Naxçıvanın Əhəmənilər dövlətinin tərkibinə daxil olması
**E.ə. IV əsrin sonu–** – Naxçıvanın Atropatena dövlətinin tərkibinə daxil olması
**E.ə. I əsr** – Massagetlərin Batabat aşırımından keçərək Naxçıvana yürüşü
**E.ə. 150-ci il – III əsr** – Naxçıvanın Parfiyanın hücumlarına məruz qalması
**II əsr** – Naxçıvan şəhərinin K.Ptolomeyin “Coğrafiya” əsərində ilk dəfə xatırlanması
**III əsr** - Naxçıvanın Sasanilər tərəfindən ilhaq edilməsi
**387** - İranla Roma arasındakı sülh müqaviləsinə görə Naxçıvan əyalətinin Sasanilərin tərkibində qalması
**624** – Naxçıvanın Bizans qoşunları tərəfindən işğalı
**644** - Naxçıvan bölgəsinin ərəblər tərəfindən işğal olunması və xilafətin 3-cü əmirliyinə daxil edilməsi
**X əsr -** Naxçıvanın Azərbaycan feodal dövlətləri olan Sacilər və Salarilərin tərkibinə qatılması
**X əsrin 80-ci illəri** - "Naxçıvan şahlığı" adlanan xüsusi feodallığın yaranması (Təxminən 80 ilə qədər mövcud olmuşdur)
**1064** - Səlcuqların Naxçıvanı ələ keçirməsi və Azərbaycan üzrə canişinliyin Naxçıvanda yerləşməsi
**XII əsrin 20-ci illəri - XII əsrin sonu** - Əcəmi Əbubəkr oğlu Naxçıvani
**1136-1225** - Azərbavcan Atabəyləri-Eldənizlər dövləti
**1138-1175** - Naxçıvan şəhərinin Azərbaycan Atabəyləri-Eldənizlər dövlətinin paytaxtı olması
**1162** - Yusif Küseyir oğlu türbəsinin tikilməsi
**1175 noyabr** - Atabəy Şəmsəddin Eldənizin vəfatı
**1175** - Paytaxtın Naxçıvandan Həmədana köçürülməsi
**1175** - Möminə xatının Naxçıvanda vəfatı
**1175 - 1186** - Atabəy Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti
**1186** - Möminə xatın (Atabəy künbəzi) türbəsinin tikilməsi
**1186-1191** - Atabəy Qızıl Arslanın hakimiyyəti. "Məmlük" dövrünün başlanması

**1191** - Qızıl Arslanın qətli
**1191 - 1210** - Atabəy Əbubəkrin hakimiyyəti
**1201 -1274** - Məhəmməd Nəsirəddin Tusi
**1210-1225** - Özbək Müzəffərəddinin hakimiyyəti
**1221** - Naxçıvanın monqolların işğalçı hücumlarına məruz qalması
**1225** - Naxçıvanın Xarəzmşah Cəlaləddinin qoşunları tərəfindən tutulması
**1231**-Naxçıvanın monqollar tərəfindən yenidən tutulması
**1257 -** Naxçıvan şəhərinin Hülakilər (Elxanilər) dövlətinə qatılması
**1293-1375** - Görkəmli alim, dövlət xadimi Məhəmməd ibn Hinduşah Naxçıvani
**XIV əsrin 20-30-cu illəri** - Qarabağlar məqbərəsinin tikilməsi
**1340-1394** - Fəzlullah Nəimi
**XIV əsrin 50-ci illəri** - Naxçıvanın Çobanilərin və Cəlairilərin tabeliyinə keçməsi
**1386** - Teymur və Toxtamışın Naxçıvana hücumları
**1387, 1393, 1397, 1400** - Teymurun Əlincəqalaya hücumları
**1387-1401** - Əlincəqalanın qəhrəmancasına müdafiəsi
**1394** - Fəzlullah Nəiminin Xanəgah türbəsində dəfn edilməsi
**1406, 14 oktyabr** - Naxçıvan yaxınlığında Əbubəkrlə Qara Yusif arasında döyüş
**1412** - Naxçıvanın Qaraqoyunlu dövlətinin tərkibinə qatılması
**1468** - Naxçıvanın Ağqoyunlular dövlətinin tərkibinə qatılması
**1501-ci ilin yazı** - Şərur düzündə İsmayıl Səfəvinin Ağqoyunlu Əlvənd Mirzənin qoşununu məğlub etməsi
**1501** - Səfəvilərin Naxçıvanı tutması
**XVI əsrin I yarısı** - Culfanın beynəlxalq ipək ticarətinin iri mərkəzlərindən birinə çevrilməsi
**XVI əsr** - Naxçıvanın Təbriz bəylərbəyliyinin tərkibində olması
**XVII əsr** - Naxçıvanın Çuxursəd bəylərbəyliyinin tərkibində olması
**XVI əsr-XVIII əsrin 30-cu illəri** - Naxçıvan diyarının Azərbaycan Səfəvilər dövlətinin tərkibində olması
**XVII-XVIII əsrlər** - Naxçıvanın Kəngərlilərin irsi hakimiyyətində olması
**1724, 10 sentvabr** - Naxçıvan sancağının (əyalətinin) Osmanlı imperiyasının idarəsi altına keçməsi
**XVIII əsrin 30-40-cı illəri** - Naxçıvan diyarının Azərbaycan vilayətinin tərkibinə daxil olması

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYATLAR

## NAXÇIVANIN TƏBİİ-COĞRAFİ ŞƏRAİTİ


1.*Bababəyli N.S., Fatih İ.M.* Araz çay sisteminin yuxarı hissəsinin ekocoğrafi şəraiti. Naxçıvan 2009, 214 s.

2.*Bababəyli N.S., Fatih İ.M.* Naxçıvanda qədim məskunlaşmanın paleocoğrafi şəraitinə dair. Naxçıvan ilk yaşayış və şəhərsalma yeri kimi. Naxçıvan, 2012, s.129-133.

3.*Babayev S.Y.* Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı, 1999, 226 s.

4.*Budaqov B.Ə., Babayev S.Y.* Naxçıvan MSSR düzənlik landşaft kompleksi. Azərbaycan Coğrafiya Cəmiyyətinin Əsərləri. Bakı, 1998, s. 148-159.

5.*Həsənov M., Zamanov X. və b.* Azərbaycanın çayları, gölləri və su anbarları. Bakı,1973,136 s.

6.*Məmmədov Ş. N., Muxtarov H.H.* Naxçıvan MSSR-in faydalı qazıntı yataqlarının səmərəli istismarının əsas prinsipləri. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, s.191-212, Bakı: Elm, 1975, 559 s.

7.*Mirzəyev P.S.* Naxçıvan MSSR aqroiqlim səciyyəsi. Bakı, 1972. 147 s.

8.*Müseyibov M.A.* Azərbaycanın fiziki coğrafiyası. Bakı, 1998, 399 s.

9.*Qaşqay M.Ə.* Naxçıvan MSSR-in faydalı qazıntıları. Naxçıvan Sovet Sosialist Respublikası. Bakı, 1975, s. 115-138.

10.*Qaşqay M.Ə.* Naxçıvan MSSR-in termal və mineral su yataqları. Naxçıvan Sovet Sosialist Respublikası. Bakı, 1976, s. 139-190.

11.*Абасов М.А.* Геоморфология Нахичеванской АССР. Баку, 1970, 150 с.

12.*Азизбеков Ш.А.* Геология Нахичеванской АССР. Москва, 1961, 502 с.

13.*Алиев Ф.А.,Зейналов А.К.* Почвы Нахичеванской АССР. Баку, 1988, 230 с.

14.*Аскеров А.Ф., Асланов А.Д., Насирова Х.М.* Минеральные источники Нахичеванской АССР. Баку, 1986, 124 с.

15.*Левашов Е.А.* Словарь от географических названий. Москва, 1986, 551 с.

16.*Прилепко М.И.* Растительные отношения в Нахичеванской АССР. Баку, 1939, 198 с.

17.*Рустамов С.Г.* Материалы по гидрографии СССР. Реки Нахичеванской АССР. Баку, 1958, 288 с.

18.*Фигоровский И.В.* Материалы по районированию Азербайджанской ССР, т. 1, вып. 1. Баку, 1926, 244 с.

19.*Шыхлинский А.М.* Атмосферные осадки Азербайджанской ССР. Баку, 1949, 309 с.

20.Атлас Азербайджанской ССР. Баку- Москва, 1963. 213 с.

21.Физическая география Азербайджанской ССР. Баку, 1945, 279 с.

22.*Fatih İmat, Nazim Bababeyli, Mustafa Özdemir.* An example to paleogeographe of the ancient settlement in south Caucasus: Nakhchivan. International Periodical For the Languages. Volume 8/3, Winter 2013, Germany, p.427-435.

## I FƏSİL. NAXÇIVAN QƏDİM DÖVRDƏ

1.Azərbaycan tarixi. Z.M. Bünyadov və Y.B.Yusifovun redaktəsilə, 1-ci cild, Bakı:Azərnəşr, 1994, 688 s.
2.Azərbaycan tarixi.Yeddi cilddə, I cild. Bakı, 2007, 570 s.
3.Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universiteti, 1989, 328 s.
4.Azərbaycan Mifoloji Mətnləri. Bakı: Elm, 1988, 196 s.
5.*Aşurov S.H.* Naxçıvanda arxeoloji tədqiqatlar. Bakı, 2003, 120 s.
6.*Aşurov S.H.* Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı, 2002, 158 s.
7.*Bağırov A.* Onomalogiya problemləri, I cild. Bakı: Elm və təhsil, 2010, 436 s.
8.*Baxşəliyev V.B.* Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti.Bakı, 2002, 128 s.
9.*Baxşəliyev V.B.* Gəmiqaya təsvirləri. Bakı: Elm, 2002, 165 s.
10.*Baxşəliyev V.B*. Naxçıvanın qədim yazı nümunələri haqqında. – Naxçıvan Dövlət Universitetinin əsərləri, 1999, № 4, s. 86-87.
11.*Baxşəliyev V.B., Seyidov A.Q.* Naxçıvanın qədim tarixi. Bakı: Azərbaycan, 1995, 62 s.
12.*Baxşəliyev V.B.* Naxçıvanın Son Eneolit mədəniyyəti // Elm və həyat, 2011, № 4, s. 31-34.
13.*Baxşəliyev V., Marro C., Aşurov S.* Ovçulartəpəsi. Bakı: Elm, 2010, 156 s.
14.*Baxşəliyev V., Marro C.,Carolin H., Alıyev N., Dessaint Ph., S.Sanz.* Naxçıvan Duzdağının qədim duz mədənləri. Naxçıvan:Əcəmi, 2012, 80 s.
15.*Baxşəliyev V., Novruzov Z.* Sirabda arxeoloji araşdırmalar. Bakı: Oskar NPM, 2010, 156 s.
16.*Cəfərov H.F.* Azərbaycan e.ə. IV minilliyin axırı I minilliyin əvvəlində. Bakı: Elm, 2000.
17.*Qasımova R.M.* Azərbaycan xalqının etnogenezi paleoantropoloji və antropoloji (somatoloji) materiallar əsasında. Bakı: Elm, 1997, 26 s.
18.*Qədirzadə Q.İ.* Əshabi-Kəhf. Müqəddəslik, tarixilik və inancların genezisi. Bakı: Elm, 2002, 112 s.
19.*Qeybullayev Q.* Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 248 s.
20.*Qaşqay S.* Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə. Bakı: Təhsil, 2006, 148 s.
21.*Əliyev V.H.* Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 140 s.
22.*Əliyev V., Aşurov S.* Maxta Tunc dövrü abidələri. Azərbaycanda arxeologiya və etnoqrafiya elminin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 1992, s.38-40.
23.*Həbibbəyli İ.Ə.* Nuhdaban ortaq məkanı və Duzdağ şəhərətrafı mədəniyyəti//Naxçıvan Dövlət Universitetinin əsərləri. 2012, № 1, s. 3-9.
24.*Xəlilov C.Ə.* Maraqlı incəsənət abidəsi. Azərbaycanın Maddi Mədəniyyəti, 1962, IV c., s. 68-108.
25.*İbrahimli B.* Naxçıvanda aşkar olunmuş döyüşçü qadın qəbirləri haqqında // Azərbaycan Arxeologiyası, 2010, cild 13, № 1, s.127-135.
26.*Məmmədov Rauf.* Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 160 s.

27.*Müseyibli N.* Gəmiqaya. Bakı: Çaşıoğlu, 2003, 320 s.
28.*Müseyibli N.* Böyük Kəsik eneolit yaşayış məskəni. Bakı: Nafta-Press, 2007, 228 c.
29.Naxçıvan ensiklopediyası. Cild I, Naxçıvan: Əcəmi, 2002, 360 s.
30.Naxçıvan Abidələri Ensiklopediyası. Naxçıvan: Əcəmi, 2008, 522 s.
31.*Novruzlu Ə.İ.,Baxşəliyev V.B.* Şahbuz bölgəsinin arxeoloji abidələri. Вакı : Elm, 1992, 144 s.
32.*Novruzlu Ə.İ., Baxşəliyev V.B.* Culfa bölgəsinin arxeoloji abidələri. Вакı : Elm, 1992, 108 s.
33.*Novruzlu Ə.İ., Baxşəliyev V.B.* Şərurun arxeoloji abidələri. Вакı: Elm, 1993, 184 s.
34.*Nərimanov İ.H.* Naxçıvanın erkən əkinçi-maldar əhalisinin tarixindən. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2003, № 1, s. 32-33.
35.*Ristvet L., Gopnik H., Baxşəliyev V., Aşurov S.* Oğlanqalada Azərbaycan-Amerika qazıntıları / Naxçıvan ilk yaşayış və şəhərsalma yeri kimi. Naxçıvan: Əcəmi, 2012, s. 39-65.
36.*Rzayev F.* Naxçıvan MR ərazisinə daxil olan toponimlərdə kas və sak etnoslarının izi. Azərbaycan onomastikası problemləri. Bakı, 2003, s. 82-90.
37.*Seyidov A.Q.* Naxçıvan VII-II minillikdə. Bakı: Elm, 2003, 339 s.
38.*Seyidov A., Baxşəliyev V.* Xələc. Bakı: Elm, 2010, 220 s.
39.*Seyidov A., Baxşəliyev V.* Ərəbyengicə. Bakı: Nurlan, 2009, 160 s.
40.*Seyidov A., Baxşəliyev V.* Sədərək. Bakı: Elm, 2011, 184 s.
41.*Seyidov A., Baxşəliyev V., Məmmədov S., Aşurov S.* Qədim Şərur. Bakı: Nurlan, 2012, 466 s.
42.*Yusifov Y.B.* Qədim Şərq tarixi. Bakı: Bakı Universiteti, 1993, 535 s.
43.*Bahşaliyev V.B.* Nahçıvan arkeolojisi / Archaeology of Nahchivan. İstanbul, 1997, 128 s.
44.*Belli O.,Bahşaliyev V.* Nahçıvan bölgesinde Orta ve Son Tunc Çağı boya bezemeli çanak çömlek kültürü // Middle and Late Bronze Age Painted Pottery culture of the Nakhchivan Region. Istanbul: Arkeoloji ve Sanat, 2001, 120 s.
45.*Sevin V.* Anadolu arkeolojisi. Ankara: Der, 1997, 308 s.
46.*Абибуллаев О.А.* Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982, 316 с.
47.*Асланов Г.М., Кашкай С.М.* Погребения некрополя Мунджуклутепе. Советская археология, 1991, № 3, с.221-233.
48.*Асланов Г., Кашкай С.* Некрополъ Халы-Кешан / Тезисы докл. Всесоюз. археолог. конфер., Баку: Элм, 1985, с. 70-72.
49.*Алиев И.Г.* История Мидии. Баку: Изд-во АН Азерб.ССР, 1960, 360 с.
50.*Алиев В.Г.* Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
51.*Алекперов А.К.* Исследования по археологии и этнографии Азербайджана. Баку: Изд-во АН Азербайджанской ССР, 1960, 249 с.
52.*Антонова Е.В.* Обряды и верования первобытных земледельцев Востока. М., 1990, 287 с.
53.*Асланов Г.М., Ибрагимов В.И., Кашкай С.М.* Древние некрополи Хараба Гилана. Баку: Нурлан, 2002, 64 с.

54.*Асланов Г.М., Ваидов Р. М., Ионе Г.И.* Древний Мингечаур. Баку: Элм, 1959, 191 с.
55.*Бахшалиев В.Б.* Могильник эпохи раннего железа на территории древней Нахичевани. Советская археология, 1991, № 4, с.217-227.
56.*Бахшалиев В.Б.* Некоторые образцы изобразительного искусства из могильника Коланы. Российская археология, 1995, № 3, с. 205-207.
57.*Бахшалиев В.Б.* Оглангала столица государства утиев // Ирс, 2012, № 3 (57), с. 12-15.
58.*Бахшалиев В.Б.*, *Алиев В.Г.* Об одном хозяйственно-бытовом комплексе из Кюльтепе II. Доклады АН Азерб.ССР, 1989, с. 56-60.
59. *Джафаров Г.Ф.* Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа. Баку, Элм, 1984, 108 s.
60.*Джафаров А.К.* Новая мустьерская стоянка Газма в Азербайджане. Советская археология, 1992, № 2, с.270-274.
61.*Дьяконов И.М.* Некоторые лингвистические данные к проблеме связей населения Восточного Закавказья с древним Востоком в III-I тысячелетия до н.э. Материалы семинара по проблеме происхождения и формирования Азербайджанского народа. Баку, 1966, с. 5-8.
62.*Кушнарева К.Х., Чубинишвили Т.Н.* Древние культуры Южного Кавказа. М. - Л.: Наука, 1970, 190 с.
63.*Кушнарева К.Х.* Южный Кавказ в IX-II тысячелетиях до н.э. СПб.: Петербургское Востоковедение, 1993, 312 с.
64.*Гусейнова М. А.* Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа (XIV-IX вв. до н.э.). Баку: Элм, 1989, 128 с.
65.*Грантовский Э.А.* Раняя история иранских племен Передней Азии. М.: Восточная литература, 1970, 510 с.
66.*Гулуев Ф.* Урукская керамика Южного Кавказа // Археология, этнология, фольклористика Кавказа. Баку: Нурлан, 2005, 82 с.
67.*Гейбуллаев Г.А.*Топономия Азербайджана. Баку: Элм, 1986, 192 с.
68.*Исмаилов Г.С.* Археологические исследование древнего поселения Бабадервиш. Баку: Элм, 1978, 101 с.
69.*Исмаилзаде Г.* Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку: Нафта-пресс, 2008, 304 с.
70.*Массон В.М.* Поселение Джейтун. Л.: Наука, 1970, 161 с.
71.*Массон В.М.* Средняя Азия и Древний Восток. М. - Л.: Наука, 1964, 284 с.
72.*Мещанинов И.И.* Краткие сведения о работах археологических экспедиций в Нагорный Карабах и Нахичеванский край, снаряженных в 1926 году ООИА.- Сообщ.ГАИМК, 1926, вып.I, с. 217-240.
73.*Миллер А.А.* Археологические исследования в Нахичеванской республике летом 1926 года.- Сообщ.ГАИМК, 1926, вып.I.
74.*Меликишвили Г.А.* Древневосточные материалы по истории народов Закавказья: Наири-Урарту, том I. Тбилиси: Изд-во АН Груз. ССР, 1954, 446 с.
75.*Мустафаев И.Д.* Материалы по изучении пщениц, ржи, ячменя и эгилопсов Азербайджана. Баку, 1961.

76.*Нариманов И.Г.* Культура древнейшего земледельце-скотоведческого населения Азербайджана. Баку: Элм, 1987, 260 с.
77.*Нариманов И.Г.* Обеидские племена Месопотамии в Азербайджане. Тез. Все-союз. археолог. Конфер. Баку: Элм, 1985, 271 с.
78.*Погребова М.Н.* Иран и Закавказье в раннем железном веке. М.: Наука, 1977, 248 с.
79.*Пиотровский Б.Б.* Археология Закавказья. Л., 1949, 131 с.
80.*Помпоний Мела.* Землеописание // ВДИ, 1949, № 1, с.274-277.
81.*Селимханов И.Р.* Разгаданные секреты древней бронзы. М.: Наука,1970,78 с.
82.*Сеидов А.Г.* Памятники Куро-Аракской культуры Нахичевани. Баку: Билик, 1993, 164 с.
83.*Сулейменов О.* Аз и я. Алма-Ата: Жазушы, 1975, 270 с.
84.*Спицын С.А.* Некоторые Закавказские могильники.- Изв. ИАК, 1909, вып. 29, с. 3-15.
85.*Чайлд Г.* Древнейший Восток в свете новых раскопок. М.: Изд-во иностранной литературы, 1956, 382 с.
86.*Ямпольский З.И.* О тюрках V в. до н.э. // Ученые записки АГУ им. С.М.Кирова. Серия языка и литературы, 1979, № 5-6.
87.*Akhundov T.* Sites de migrants venus du Proche-Orient en Transcaucasie. Les cultures du Caucase (VI$^{e}$-III$^{e}$ millenaires avant notre ere): Leurs Relations avec le Proche-Orient, Bertille Lyonnet (ed.), Paris, 2007, p. 95-121.
88.*Brown T.B.* Excavation in Azerbaijan 1948. London: John Murray, 1951, 179 p.
89.*Gordon E.L.*Animal Represented in the Sumerian Proverbes and Fable.Древний Мир, 1956, 258 p.
90.*Farhang Khademi, Nadooshan and ect.* Provenance Of PrehistoricObsidian artefacts fromKulTepeNorthwestern Iran using X-ray fluorescence (XRF) analysis // Journal of Archaeological Science, 2013, 40, p.1956-1965.
91.*Helwing B.* Azerbaijan in the Chalcolithic: A View from the Southwest. In Azerbaiycan. *Azerbaiycan – Land between East and West*, *International Symposium*, *1-3april 2009*, Baku: Deutches Archäologisches Institut Eurasien-Abteilung, p. 63-70.
92.*Marro C. Bakhshaliyev V., Ashurov S.* Excavation at Ovçulartepesi (Nakhchivan, Azerbaijan). Second Preliminary Report: The 2009-2010 Seasons // Anatolia Antiqua, XIX, 2011, s. 53-100.
93.*Marro C., Bakhshaliyev V., Sanz S., Alıyev N.* Archaeological Investigations on the Salt Mine of Duzdagi (Nakhchivan, Azerbaijan) // TÜBA-AR, 2010, 13, s. 229-244 (ISSN: 1301-8566).
94.*Ristvet Lauren, Bakhshaliyev Veli, and Aşurov S.* Settlement and society in Naxçıvan: 2006 excavations and survey of the Naxçıvan archaeological project (with Lauren Ristvet, Səfər Aşurov ) // Iranica Antiqua, vol XLVI, 2011, p. 1-53.
95.*Ristvet Lauren, Bakhshaliyev Veli, Hilary Gopnik and Aşurov S.* "On the Edge of Empire: 2008-2009 Excavations at Oğlanqala, Azerbaijan." *American Journal of Archaeology* 116, no. 2, 2012, p. 321-362.

## II FƏSİL. NAXÇIVAN E.Ə. IX – B.E. II ƏSRLƏRİNDƏ

1.Azərbaycan tarixi. Yeddi cilddə, I cild. Bakı, 2007, 570 s.
2.Azərbaycan tarixi. Yeddi cilddə, II cild. Bakı, 2007, 608 s.

3.Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universiteti, 1989, 328 s.
4.*Babayev S.Y.* Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı, 1999, 226 s.
5.*Bağırov A.*Onomalogiya problemləri, I cild. Bakı: Elm və təhsil, 2010, 436 s.
6.*Bağırov A*. Naxçıvan oykonimləri. Bakı: Nurlan, 2008, 336 s.
7.*Baxşəliyev V.B.* Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
8.*Baxşəliyev V.B.* Naxçıvanın qədim yazı nümunələri haqqında. – Naxçıvan Dövlət Universitetinin əsərləri, 1999, № 4, s. 86-87.
9.*Baxşəliyev V., Novruzov Z.* Sirabda arxeoloji araşdırmalar. Bakı: Oskar NPM, 2010, 156 s.
10.*Əliyev V., Allahverdiyev S*. Fərhad evi / Azərbaycanda arxeologiya və etnoqrafiya elminin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Bilik, 1992, s.79-81.
11.*Əliyev V.H.* Naxçıvan şəhərinin antik dövrü küp qəbir abidələri. Azərbaycan EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 1976, s. 73-84.
12.*Qaşqay S.* Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə. Bakı: Təhsil, 2006, 148 s.
13.*Məmmədova F.* Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı: Azərnəşr, 1993, 264 s.
14.*Novruzlu Ə.İ., Baxşəliyev V.B.* Şərurun arxeoloji abidələri.Вакı: Elm, 1993, 184 s.
15.*Məmmədov T.M.* Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı: Təhsil, 2006, 400 s.
16.*Ristvet L., Gopnik H., Baxşəliyev V., Aşurov S*. Oğlanqalada Azərbaycan-Amerika qazıntıları / Naxçıvan ilk yaşayış və şəhərsalma yeri kimi. Naxçıvan: Əcəmi, 2012, s. 39-65.
17.*Bahşaliyev V.B*. Nahçıvan arkeolojisi / Archaeology of Nahchivan. Istanbul: Arkeoloji ve Sanat, 1997, 128 s.
18.*Belli O.,Bahşaliyev V.* Nahçıvan bölgesinde Orta ve Son Tunc Çağı boya bezemeli çanak çömlek kültürü // Middle and Late Bronze Age PaintedPottery cultur of the Nakhchivan Region. Istanbul, 2001, 120 s.
19.*Erzen, Afif. Çavuştepe :* M.ö. 7-6. Yüzyül Urartu Mimarlık Anıtları Ve Ortaçağ Nekropolu. Ankara: Türk Tarih Kurumu, 1978, 71 s.
20.*Özgüç, Tahsin.* Altintepe. Ankara: Türk Tarih Kurumu, 1966, 63 s.
21.*Асланов Г.М, Кашкай С.М.* Некрополъ Халы-Кешан / Тезисы докл. Всесоюз. археолог. конфер., Баку: Элм, 1985, с. 70-72.
22.*Алиев И.Г.* История Мидии. Баку: Изд-во АН Азерб.ССР, 1960, 360 с.
23.*Алиев В.Г.* Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
24.*Алиев И.Г., Алиев В.Г.* О сармато-аланских памятниках на территории Нахичеванской АССР // Советская археология, 1976, № 1, с. 178-186.
25.*Алиев И.Г.* Очерки истории Атропатены. Баку: Азернешр, 1989, 160 с.
26.*Алекперов А.К.* Исследования по археологии и этнографии Азербайджана. Баку: Изд-во АН Азербайджанской ССР, 1960, 249 с.
27.*Алекперов А.К.* Крашенная керамика Нахичеванского края и Ванское царство // Советская археология, 1937, № 4, с. 249-264.
28.*Антонова Е.В.* Муграбские печати в свете религиозно-мифологических представлений Юга Средней Азии / Средняя Азия, Кавказ и Зарубежный Восток в древности. М.: Наука, 1983, с. 13-31.

29.*Артаманов М.И.* История Хазар. Л.: Изд-во Гос.Эрмитажа, 1962, 523 с.
30.*Асланов Г.М., Ибрагимов В.И., Кашкай С.М.* Древние некрополы Хараба Гилана. Баку: Нурлан, 2002, 64 с.
31.*Асланов Г.М., Кашкай С.М.* Погребения некрополя Мунджуклутепе. Советская археология, 1991, № 3, с. 221-233.
32.*Ахундов Д.А.* Архитектура древнего и средневекового Азербайджана. Баку: Азернешр, 1986, 311 с.
33.*Бахшалиев В.Б., Селимханов И.Р.* О змеевидных браслетах из сел Шахтахты и Карабаглар в Нахичеванской АССР. Доклады АН Азербайджанской ССР, 1987, № 11, с. 89-92.
34.*Бахшалиев В.Б.* Археологические раскопки на поселении Оглангала. Российская археология,1994, № 4, с. 106-120.
35.*Бахшалиев В.Б.* Оглангала столица государства утиев // Ирс, 2012, № 3 (57), с. 12-15.
36.*Джафаров Г.Ф.* Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа. Баку, Элм, 1984, 108 s.
37.*Габиашвили В.*Н. Сведения Грузинских источников о тюркских племенах и народах // Грузинское источниковедение. Тбилиси, 1973, т. 3.
38.*Керимов В.И*. Оборонительные сооружения Азербайджана. Баку: Огуз ели, 1988, 132 с.
39.*Массон В.М.* Поселение Джейтун. Л.,1970.
40.*Пиотровский Б.Б.* Археология Закавказья. Л., 1949, 131 с.
41.*Пиотровский Б.Б.* Кармирблур I. Ереван, 1950, 100 с.
42.*Помпоний Мела.* Землеописание // ВДИ, 1949, № 1, с. 274-277.
*43.Расулова М.М.* Торгово-Экономические И Културые Связи Кавказкой Албании с Античным и Элленистическим Миром: IV Век до н.э.- III век н.э. Баку: Mütərcim, 2008, 228 с.
